Haydar Aliyev, sağlık problemlerinin artması nedeniyle seçimlere katılamamış olsa da, seçimlerde oğlu İlham Aliyev'e desteğini sürdürdü. Babasından aldığı mirası en iyi şekilde koruyacağına inanan halk oğlu İlham Aliyev'i 2003 seçimlerinde cumhurbaşkanı olarak seçti. Seçimlerden kısa bir süre sonra Haydar Aliyev'in rahatsızlığı ciddi boyutlara ulaştı ve tedavi için gittiği ABD'de 12 Aralık 2003 tarihinde vefat etti.

Haydar Aliyev birçok ödül, nişan ve yine birçok ülkenin fahri doktora ünvanına sahip oldu. Dört kez Sovyetlerin Lenin Nişanı'nı alan Aliyev, Kırmızı Nişan gibi Sovyetlere ait birçok nişan daha kazandı ve iki defa Sosyalist Kahraman ilan edildi. 13 Nisan 1999'da Türkiye Cumhuriyeti'nin o zamanki Cumhurbaşkanı Süleyman Demirel tarafından kendisine "Atatürk Barış Nişanı" layık görüldü. Bunlar dışında 1997'de Ukrayna'da 'Yaroslav Nişanı', 2001'de Moskova Devlet Üniversitesi tarafından "Fahri Profesörlüğü" ve 2003 yılında Rusya'nın en büyük ödüllerinden olan 'Mukaddes Apostol Andrey Pervozvannı Nişanı'nı aldı. Tüm bu satırlar Azerbaycan'ın medarı iftiharı ve çok önemli tarihi şahsiyeti olan Haydar Aliyev'in biyografik bilgileridir. Onun hayatını taçlandıran en önemli etken 'Men fexr edirem ki Azerbaycanlıyam' dediği ülkenin, onun halkının Haydar Aliyev'e duyduğu derin saygı, güven ve tükenmez sevgidir.

***HALKA KİMSEYİ ZORLA SEVDİREMEZSİN***

Tarih bize öğretiyor ki halk kimseyi bedavadan sevmez ve halka kimseyi zoraki sevdiremezsiniz. Azerbaycan'ın yöneticisi olduğu yıllarda Sovyetlere rağmen, milli gayretiyle yürüttüğü faaliyetleri; Pantürkizmle yargılanarak Sibirya'ya sürülen Hüseyin Cavid Turan'ın kemiklerini ana vatana getirerek onun ruhunu şad etmesi, Moskova'nın siyah listesindeki milli şairimiz Bahtiyar Vahabzadeye sahip çıkarak onun yazıp yaratmasına fırsat sunması, Azerbaycan'ın milli kadrolarına kol kanat geren siyaseti, Rusya'da etkili olan ve her fırsatta Türk düşmanlığı yapan Taşnak zihniyetine karşı akıllıca tutumuyla o dönemin realitesine göre önlem alarak Türklüğe yaptığı hizmetleri nedeniyle Azerbaycan halkı Haydar Aliyev'i sevdi…

Politbüro üyesi ve Sovyetler Birliği Başbakan Yardımcılığı gibi önemli bir görevde bulunmasına rağmen halkının isteği doğrultusunda tüm bunları elinin tersiyle iten Haydar Aliyev, Anavatana Sovyet rejimi tarafından yapılan haksızlıkları protesto eden soydaşlarla saf tuttuğu için Azerbaycan halkının kalbinde zaten var olan sevgisini hayranlığa dönüştürmüştür. 1990 yılların evvelinde ikinci kere özgürlüğüne kavuşan Azerbaycan Devlet'inin başında Elçibey bulunuyordu. Bir taraftan Ermenistan'ın Karabağ başta olmakla Azerbaycan topraklarını işgal etmesi, diğer taraftan albay Suret Hüseynov ayaklanması ile Halk Cephesi Partisi iktidar olmasına rağmen ülke genelinde muktedir olamadığı ve ülke iki başlı yönetim ile parçalanmanın eşiğine geldiği için Azerbaycan Parlamentosunun ve sayıları milyonları bulan vatandaşların ülkedeki kaosa son verecek tek lider olarak gördükleri ve ismini meydanları doldurarak bıkmadan bağırdıkları Haydar Aliyev milletinin çağrısına ses vererek büyük risk alarak vatana, Nahçıvan'a döndüğü için milleti onu seviyor... Millet Meclisinin, tüm Azerbaycan'ın talebi ve rahmetlik Elçibey'in bizatihi teklifi ve daveti doğrultusunda rahmetlik Haydar Aliyev'in çok kısa zaman zarfında deneyimli bir devlet başkanı olarak Azerbaycan 'ı sabitleştirdiğini gayet iyi hatırlayan millet tüm bu nedenlerden dolayı onu seviyor…

Tüm bunlara dair arşivlerde çok sayıda belge, başta Azerbaycan televizyonu olmakla onlarca video görüntüleri ve gazete yayınları var. Hoş, millet sevgisine halk saygısına belge de gerekmez... Anılarda tap taze bir şekilde vardığını sürdüren Haydar Aliyev halkına aşık sevdalı bir devlet adamıydı.

Önder insanların bıraktıkları en güzel miras kendilerinden sonra kendi toplumlarına emanet ettikleri değerlerdir… Haydar Aliyev, milli köklere sağlıklı şekilde bağlı, modern dünyayla entegre olmuş, bölge siyasetinde barışı esas alan milli siyaseti bizlere miras bırakmıştır.

“Bir millet iki devlet” ülküsü onun Türküye Azerbaycan ilişkilerine bahşettiği en kıymetli mirastır, Azerbaycan onun emanetine göz bebeği gibi sahip çıkmaktadır… Azerbaycan ‘ın uluslararası enerji stratejisinin temelini atan ulu önder öngörülü bir devlet adamıydı . O, ekonominin tarih, siyaset bilimi sosyolojiden bağımsız olmadığından hareketle bütüncül bir yaklaşımla sözün gerçek anlamında Azerbaycan ‘da siyasi iktisad hamlesi gerçekleştirdi.

Haydar Aliyev'in politikalarının başarıya ulaşması, Azerbaycan'ın Ermenistan işgali altındaki toprakları başta olmak üzere pek çok sorununun Batı basınında Azerbaycan'ın bakış açısıyla yer almasını sağladı.

***“VASİYETİ GERÇEKLEŞTİ”***

Büyük saygı, sonsuz minnetle andığımız ve büyük coşkuyla doğumunun 100 yılını kutladığımız Ulu Önder Haydar Aliyev'i hürmetle yad ediyoruz… 'Şuşa'sız Karabağ, Karabağ'sız ise umumiyetle Azerbaycan yoktur' diyen merhumun vasiyeti şükürler olsun ki gerçekleşti.
Azerbaycan Cumhurbaşkanı, Muzaffer Ali Baş Komandan İlham Aliyev'in yönetimindeki kahraman Azerbaycan Ordusu Şuşa'yı işgalden azad ederek Karabağ Zaferine imza attı. Şimdi Azerbaycan ‘ın her karışında üç renkli ay yıldızlı bayrağımız gururla dalgalanıyor.

***Allah rahmet eylesin, Önder Aliyev… Ruhunuz şad olmuştur.***

# NƏSİLLƏRƏ YADİGAR BÖYÜK DAHİ

**İzzət RÜSTƏMOV**
Bakı Dəvlət Universiteti, Sosiologiya kafedrasının professoru,
fəlsəfə elmləri doktoru, ”Şöhrət ordenli”, prezidentin şəxsi təqaüdçüsü
*Azərbaycan, BAKI*
izzatrustamov@bsu.edu.az

Azərbaycanın və keçmiş sovet ittifaqının dövlətçilik tarixində unudulmaz izlər qoyub getmiş dahi şəxsiyyət böyük siyasət nəhəngi ulu öndər Heydər Əliyevin şanlı 100 illik yubileyi bütün mədəni dünyada xüsusi rəğbətlə, həssaslıqla qarşılanmış çoxsaylı tədbirlərin mövzusu olmuşdur. Heydər Əliyev həyatda və xatirələrdə dönə-dönə anılmış, yad edilmişdir. Dünyanın dahi şəxsiyyətləri dövlət xadimləri, ilk növbədə, böyük dövlətlərin prezidentləri Heydər Əliyev fenomeninə onun misilsiz siyasi idarəçilik ampulasına ciddi maraq göstərmişlər. ABŞ-ın sabiq prezidenti Bill Klintonun dünya miqyaslı politoloq Zbiqnev Bjezinskini xüsusi məktubla Azərbaycana göndərməsini “Heydər Əliyevin siyasi idarəçilik fəlsəfəsinin sirri nədədir?” sualına cavab axtarmasını xatırlatmaq kifayət edər.

Heydər Əliyevin 100 illik yubileyi münasibətilə AZ TV-də daim yayımlanan. “Onun 100 fikri” rubrikasını çox yüksək qiymətləndirərəm. Bu rubrikada dinləyici canlı, müdrik, böyük hafizə, təfəkkür sahibi olan Heydər Əliyevlə şəxsən tanış olmaq, onun fikir, ideyalar dünyasına baş vurmaq imkanı əldə edir, çünki bu dediklərim Heydər Əliyevin çoxsaylı nitq və çıxışlarında onun müxtəlif görüş və müsahibələrində canlı olaraq səsləndirilmişdir. Heydər Əliyevin nəzəri irsi bundan sonra da dərindən öyrənilməlidir. Müasir Azərbaycanın memarı, əsl qurucusu olan Heydər Əliyevin, o cümlədən, Azərbaycan tarixinin öyrənilməsinə yeni konseptual yanaşması, vətəndaşlıq həmrəyliyi fəlsəfəsi kimi qiymətləndirilən “Azərbaycançılıq” konsepsiyası, milli dəyərlər, o cümlədən, əxlaqi, dini dəyərlər, təhsil,elm, gənclik, Azərbaycan diasporu, Azərbaycanın milli mədəniyyəti haqqında söylədiyi fikirlər bu gün də qiymətini saxlamaqdadır. İnamla demək olar ki, Sovet İttifaqı dağıldıqdan sonra müstəqil, suveren Azərbaycan qurularkən əsl mənada yaradılarkən bazar iqtisadiyyatına əsaslanan yeni ictimai münasibətlərin formalaşmasının müəllifi məhz Heydər Əliyevdir. Mənə də nəsib oldu ki, xeyli müddət Heydər Əliyevlə çiyin-çiyinə işlədik, onun “mənim bir nömrəli problemim” adlandırdığı qaçqınlar və məcburi köçkünlər probleminin həllində birgə fəaliyyət göstərdik. Böyük dahinin 100 illik yubileyi ilə əlaqədar qələmə aldığım “Heydər Əliyevlə birgə işləmək xoşbəxtliyi: bir sıra xatirələrim” çap olunacağı təqdirdə oxuyucular üçün maraqlı olacaqdır.

Bakı Dövlət Universitetinin dünya miqyaslı məzunu olan Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar tədbirlər istər bu elm-təhsil ocağında istərsə də ondan kənarda xüsusilə də beynəlxalq miqyasda yüksək səviyyədə keçirilmişdir. Bakı Dövlət Universiteti “Sosiologiya kafedrasının ulu öndər Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində keçirdiyi və 5-6 oktyabr 2023-cü il tarixində uğurla baş tutan “Şəxsiyyət, Cəmiyyət və Dövlət: XXİ əsrdə: Qlobal Çağırışlar və İnkişaf Perspektivləri” mövzusunda Sosial Elmlər üzrə Beynəlxalq Fənlərarası Elmi Konfrans xüsusi təqdirə layiqdir. Bu konfransda istər keçmiş Sovet İttifaqı respublikalarından, istərsə də dünyanın müxtəlif ölkələrindən təşrif buyurmuş alimləri, jurnalistləri, pedaqoqları öz elmi nəaliyyətlərini təqdim etmiş, öz dəyərli fikirlərini konfrans iştirakçıları ilə bölüşmüşlər. Mən də noyabrın 6-da konfransda Heydər Əliyev haqqında bir sıra xatirələrimdən bəhs etmiş, bu böyük dahinin nəzəri irsindən bir sıra məsələləri dinləyicilərin nəzərinə çatdırmışam. Elmi konfransın yekun sözü bunda öz təcəssümünü tapmışdır ki, müasir Azərbaycanın təməl daşını çox ustalıqla qoymuş Heydər Əliyevin ideyaları, arzuları müasir dövrün parlaq dövlət xadimi qlobal lider və diplomat kürsisində yer almış, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini qətiyyətlə təmin etmiş, “dəmir yumruq fəlsəfəsi”nin müəllifi prezident İlham Əliyev tərəfindən uğurla yerinə yetirilir.

**Açar sözlər:** Azərbaycan, Heydər Əliyev, dahi şəxsiyyət.

INTERNATIONAL INTERDISCIPLINARY SCIENTIFIC CONGRESS ON SOCIAL SCIENCES / *IISCSS 2023 - BAKU*
05-06 October 2023, Baku, AZERBAİJAN
*PROCEEDİNG BOOK-2024,* ISBN: 978-9952-39-217-3

# AZƏRBAYCAN VƏ XARİCİ ÖLKƏLƏRDƏN DƏVƏT EDİLMİŞ MƏRUZƏÇİLƏRİN MƏRUZƏLƏRİ /MƏQALƏLƏRİ/

# PAPERS /ARTICLES/ BY INVITED SPEAKERS FROM AZERBAIJAN AND FOREIGN COUNTRIES

# YENİ QLOBAL REALLIQDA SOSİAL TƏHLÜKƏSİZLİYƏ ÇAĞIRIŞLAR VƏ TƏHDİDLƏR: AZƏRBAYCAN TƏCRÜBƏSİ

**Zahid ORUC**
Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri,
Sosial Tədqiqatlar Elmi-Analitik Jurnalının Baş redaktoru
*Azərbaycan, BAKI*
zahidoruc@gmail.com

**XÜLASƏ**

Məqalədə qeyd olunur ki, son vaxtlar dünyada baş verən proseslər mövcud beynəlxalq münasibətlər sisteminin dağılması və "yeni dünya nizamının formalaşması" kimi səciyyələnir. Müvafiq olaraq, müzakirə predmeti bütün sferalarda yeni reallıqların yaranmasıdır: geosiyasi, siyasi, iqtisadi, texnoloji, hüquqi, sosial, mədəni-mənəvi və s.

Yeni reallıqda milli təhlükəsizlik sisteminin bütün parametrləri, təhdid və risklər iyerarxiyası dəyişir, yeni istiqamətlər yaranır. Tədqiqatçılar yeni sosial reallığa, onun xüsusiyyətlərinə və inkişaf perspektivlərinə yeni konseptual baxışı vurğulayan məsələlərin geniş spektrini nəzərdən keçirirlər. Eyni zamanda, həm Qərbdə, həm də Şərqdə mövcud olan texnososial məkanın keyfiyyətcə yeni təhlükə və risklərinə, transformasiya xarakterli ictimai-siyasi və sosial-mədəni dəyişikliklərə xüsusi diqqət yetirilir. Rəqəmsal informasiya inqilabı, texnoloji sıçrayış innovasiyaları, sosial reallığın yeni sistem formalaşdıran amilləri kimi elm və təhsilin rolu nəzərdən keçirilir. Bu sahələrdə ictimai-siyasi proseslərin elmi əsaslara qoyulması - bununla da yeni aktual tədqiqat sahələrinin formalaşmasına təkan verir.

Bu, öz növbəsində, milli təhlükəsizliyin kompleks problemlərinin onların qarşılıqlı təsirində hərtərəfli tədqiqini, tendensiyaların və dinamikanın müəyyənləşdirilməsi məsələlərini cəmiyyətin inkişafı və dövlətçiliyin möhkəmləndirilməsi baxımından gündəmdə duran ən mühüm hadisəyə çevirir.

Milli təhlükəsizliyin mühüm aspektləri olan sosial təminata çağırış və təhdidlərin növləri və formaları durmadan artır. Bu dinamika çox mürəkkəb xüsusiyyətlərlə - yaşadığımız dövrdəki dəyişikliklərin sürəti və tempi, proseslərin müxtəlifliyi və intensivliyi, habelə onların miqyası və qeyri-müəyyənliyi - gözlənilməzlik və mümkün nəticələrlə səciyyələnir. Sosial təhlükə və risklərin müxtəlifliyi qarşılıqlı təsir göstərən siyasi, hərbi, sosial-iqtisadi, texnoloji, demoqrafik və ekoloji proseslərin və hadisələrin mürəkkəb qarşılıqlı asılılığının nəticəsi ilə izah olunur. Ümumiyyətlə, XXI əsrin üçüncü onilliyində sosial təminat problemləri qlobal nəticələrə, zəncirvari təsirə malik olmaqla, təkrarlanan halların artmasına, böhranlı vəziyyətlərin, demək olar ki, dayanmadan, davamlı formada olması və beləliklə, hər bir dövlətin ictimai-siyasi sabitliyi, fəaliyyətinin pozulmasına gətirib çıxarır. Beləliklə, milli təhlükəsizliyin ən mühüm sahələrindən biri olan sosial təminat və onun spesifik determinantlarının öyrənilməsi aktualdır.

Müəllif Azərbaycanın təcrübəsinə istinad edərək bildirir ki, 90-cı illərdə bu, dünyada ən çox qaçqın olan ölkə olub. Ümummilli lider Heydər Əliyevin qaçqın axınının tənzimlənməsi istiqamətində apardığı miqrasiya siyasəti ilə qlobal miqrasiya axınları Azərbaycanın yeni tarixində ilk dəfə toqquşmuş, bütün dünyada ölkəmizin təcrübəsi nümunə kimi öyrəniləcək tarixi təcrübədir.

2020-ci ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə milli ordumuzun Qarabağı işğaldan azad etməsi və müasir tarixdə heç bir ölkədə görünməmiş "Böyük Qayıdış Strategiyası"nın həyata keçirilməsi ilə Azərbaycan bir milyondan çox qaçqının vətənlərində məskunlaşdırılmasına başlayıb. Beləliklə, Azərbaycan müasir tarixdə ilk dəfə olaraq sosial təminatımıza qarşı daha bir böyük problemi – qaçqın problemini həll edə bildi.

**Açar sözlər:** sosial təhlükəsizlik, yeni çağırışlar, yeni qlobal reallıq, təhdidlər, Azərbaycan təcrübəsi.

# CHALLENGES AND THREATS TO SOCIAL SECURITY IN THE NEW GLOBAL REALITY: THE EXPERIENCE OF AZERBAIJAN

**Zahid ORUJ**
Chairman of the Board of the Social Research Center,
Editor-in-Chief of the Scientific-Analytical Journal of Social Studies
Azerbaijan, BAKU
zahidoruc@gmail.com

**SUMMARY**

The article notes that the processes occurring in the world recently are characterized as the collapse of the existing system of international relations and the "formation of a new world order." Accordingly, the subject of discussion is the emergence of new realities in all spheres: geopolitical, political, economic, technological, legal, social, cultural and moral, etc.

In the new reality, all parameters of the national security system, the hierarchy of threats and risks are changing, new directions are emerging. Researchers consider a wide range of issues that emphasize a new conceptual view of the new social reality, its characteristics and development prospects. At the same time, special attention is paid to qualitatively new dangers and risks of the technosocial space existing both in the West and in the East, transformational socio-political and socio-cultural changes. The digital information revolution, technological breakthrough innovations, the role of science and education as new system-forming factors of social reality are considered. Putting socio-political processes in these areas on a scientific basis - thereby gives impetus to the formation of new relevant research areas.

In turn, this makes a comprehensive study of complex problems of national security in their interaction, issues of determining trends and dynamics, the most important event on the agenda from the point of view of the development of society and strengthening of statehood.

The types and forms of challenges and threats to social security, which are important aspects of national security, are constantly increasing. This dynamics is characterized by very complex characteristics - the speed and pace of changes in the time we live in, the diversity and intensity of processes, as well as their scale and uncertainty - unpredictability and possible consequences. The diversity of social threats and risks is explained by the result of a complex interdependence of political, military, socio-economic, technological, demographic and environmental processes and events that have mutual influence. In general, in the third decade of the 21st century, social security problems have global consequences, a chain effect, increasing recurrence, crisis situations take a continuous form, almost non-stop, and, thus, the socio-political stability of each state, leads to disruption of its activities. Thus, the study of social security and its specific determinants, which is one of the most important areas of national security, is relevant.

Referring to the experience of Azerbaijan, the author states that in the 90s it was the country with the largest number of refugees in the world. The migration policy of the national leader Heydar Aliyev in the direction of regulating the flows of refugees and global migration flows collided for the first time in the new history of Azerbaijan, the experience of our country is a historical experience that will be studied as an example. all over the world.

In 2020, with the liberation of Karabakh from occupation by our national army under the leadership of President Ilham Aliyev and the implementation of the "Great Return Strategy", unprecedented in any country in modern history, Azerbaijan began to resettle more than a million refugees in their homelands. Thus, for the first time in modern history, Azerbaijan managed to solve another huge challenge to our social security – the refugee problem.

**Key words:** social security, new challenges, new global reality, threats, Azerbaijani experience.

## GİRİŞ

Son dövrlərdə dünyada baş verən proseslər mövcud beynəlxalq münasibətlər sisteminin çökməsi və "yeni dünya düzənini formalaşması" kimi səciyyələndirilir. Müvafiq olaraq, bütün sahələrdə yeni:geosiyasi,siyasi, iqtisadi, texnoloji, hüquqi, sosial, mədəni-mnəvi və s.-reallıqların yaranması müzakirələrin mövzusunu təşkil edir.

Yaranmış yeni reallıqda milli təhlükəsizlik sisteminin də bütün parametrləri, təhdid və risklərin iyerarxiyası dəyişir, yeni istiqamətləri ortaya çıxır. Tədqiqatçılar yeni sosial reallığa, onun vxüsusiyyətləri və inkişaf perspektivlərinə yeni konseptual baxışı vurğulayan geniş spektrli məsələləri nəzərdən keçirirlər. Bu sırada ilk olaraq, həm Qərbdə, həm də Şərqdə mövciud olan texno-sosial məkanın keyfiyyətcə yeni təhlükələr və risklərinə, transformasiya xarakterli sosial-siyasi və sosial-mədəni dəyişikliklərə xüsusi diqqət yetirilir. Rəqəmsal informasiya inqilabı, texxnoloji sıçrayış xarakterli innovasiyalar, elmin və təhsilin sosial reallığın sistemyaradıcı yeni faktorları qismində rolu nəzərdən keçirilir. Sözü gedən sahələrdə ictimai-siyasi proseslərin elmi əsaslarla qurulması - dolayısı ilə yeni aktual tədqiqat sahələrinin formalaşdırılmasına təkan verir.

Öz növbəsində bu da, milli təhlükəsizliyinin kompleks problemlərinin qarşılıqlı təsirdə əhatəli araşdırılmasını, tendensiya və dinamikanın müəyyən edilməsi məsələlərini cəmiyyətin inkişafı və dövlətçiliyin möhkəmləndirilməsi aspektində gündəmin ən mühüm hadisəsinə çevirir.

Milli təhlükəsizliyin vacib istiqamətlərindən olan sosial təhlükəsizliyə olan çağırışları və təhdidlərin çeşid və formaları durmadan artır. Bu dinamika - yaşadığımız zamanın sürət və dəyişikliklər tempinə, proseslərin müxtəlifliyi, intensivliyi, habelə, miqyası və qeyri-müəyyənliyi- gözlənilməzliyi, mümkün nəticələri ilə olduqca mürəkkəb xüsusiyyətlərlə xarakterizə olunur. Sosial təhdid və risklərin müxtəlifliyi - qarşılıqlı təsirdə olan siyasi, hərbi, sosial-iqtisadi, texnoloji, demoqrafik və ekoloji proses və hadisələrin kompleks qarşılıqlı bağlılığının nəticəsi ilə izah edilir. Bütövlükdə XXI əsrin üçüncü onilliyində sosial təhlükəsizlik məsələləri tarixdə heç zaman olmadığı qədər qlobal miqyaslı nəticələrə, zəncirvari effektə malik olmaqla, getdikcə daha çox başvermə tezliyinə, böhranlı vəziyyətlərin davamlı şəkil alaraq, demək olar ki, fasiləsizliyinə, və bununla da hər bir dövlətin ictimai-siyasi sabitliyinin, fəaliyyətinin pozulmasına gətirib çıxarır. Beləliklə, milli təhlükəsizliyin həlledici sahələrindən olan sosial təhlükəsizlik və onun spesifik determinantlarının tədqiqi aktuallıq kəsb edir.

## ƏSAS HİSSƏ

### Sosial təhlükəsizliyə yeni çağırışlar

XXI-ci əsrin gəlməsi ilə həm beynəlxalq münasibətlərin mahiyyəti, həm bütövlükdə beynəlxalq ictimaiyyətin üzləşdiyi təhlükələr dəyişib, həm də milli dövlətlərin maraqlarına olan təhdidlər çox.axəli istiqamətlər kəsb edib. Yeni təhldidlər və çağırışlar özünü olduqca tez biruzə verdi. Əsrin ilk ilində 11 sentyabr beynəlxalq terrorizm hadisəsinin baş verməsi,qlobal miqyasda cinayətkarlıqların yeni növlərinin ortaya çıxması (informasiya təhlükəsizliyi, kibermüharibələr, narkotik vasitələrin qanunsuz dövriyyəsi, kibercinayətkarlıq, ifrat yoxsulluq və aclıq, hətta iqlim dəyişikliyinin fəsadları,terrorizm və piratçılıq – məhz özünün sosial səbəb və nəticələrinə, cəmiyyətə təsirinə görə diqqəti cəlb etdi. Yeni təhdidlərin mənbələri yalnız beynəlxalq münasibətlərin ənənəvi aktorları olan milli dövlətlər deyil, qeyri-dövlət səviyyəli qeyri-dövlət subyektlərindən (hakerlər, terrorçular və s.) qaynaqlanır. Artıq təhlükəsizlik sadəcə strateji hərbi-siyasi təhlükəsizliyin əhatə dairəsinə aid hadisə sayılmır. Öz növbəsində qlobal pandemiyanın baş verməsi də onu göstərdi ki, proseslərin ən böyük təsiri nəhəng insan qruplarını əhatə etməklə planetar sosial mahiyyətli təhdidlərlə müşayiət olunur [Beck, 1992; Giddens, 1998].

Sözü gedən yeni daxili və xarici çağırışların artması cəmiyyətin sabit və təhlükəsiz inkişafı üçün mexanizmlərin axtarışını şərtləndirib. Hər hansı bir sosial sistemin həyat fəaliyyətinin, davamlı inkişafının, əlverişsiz xarici və daxili çağırışları (təsirləri) dəf etmək qabiliyyətini,özünün

bütövlüyünü və rəqabət qabiliyyətini təmin edən sosial təhlükəsizliyinin optimal modelinin mexanizmlərini müəyyən etmək müasir dövlətin fəaliyyətində həlledici istiqamətlərdəndir.

"Sosial təhlükəsizlik" termini ilk dəfə milli zəmində 1904-cü ildə ABŞ konqiresində T.Ruzvelt tərəfindən işlədilmişdir və bundan sonra beynəlxalq elmi dövriyyəyə daxil edilmişdir [Social Security History].

Nəzərə alsaq ki, müasir dövlətlərin əksəriyyəti- mahiyyyət etibarı ilə sosial yönümlü dövlətlərə doğru inkişaf istiqamətini seçim edib, ümumiyyətlə, sosial dövlətlərin təsnifat mütəlifliyinə baxmayaraq, onların qloballaşma proseslərinin təsiri altında unifikasiyası, həyata keçirilən sosial siyasətin ümumi cəhətlərinin çoxalması baş verir. Getdikcə daha çox dövlətlər əmək qabiliyyətli vətəndaşların aktivləşdirilməsinin sürətləndirilməsinə yönəlmiş sosial siyasət həyata keçirir, dövlət həssas təbəqələrə qayğısını davam etdirir.

Sosial təhlükəsizlik -müxtəlif elmi fənlər arasında- fərqli şəkildə şərh olunan mürəkkəb kompleks anlayışdır. "Sosial təhlükəsizlik" anlayışı ilə bağlı fikirlər bir çox sahələrdə-sosiologiya, mədəniyyətşünaslıq, hüquq və psixologiya kimi müxtəlif fənlər tərəfindən təqdim olunur.

Belə ki, əgər politologiya sosial təhlükəsizlik dedikdə "hakimiyyət orqanlarının, dövlət orqanlarının şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyini təmin etmək üçün qarşıya qoyulmuş məqsədlərə nail olmağa yönəlmiş fəaliyyəti" başa düşülürsə, qtisad elmi bu anlayış altında "iqtisadiyyatın, müəssisələrin və əmək bazarının fəaliyyəti üçün zəruri olan amillər sistemini" görür. Sosiologiya üçün "sosial təhlükəsizlik"- çox geniş anlayışdır. Ümumilikdə, sosial təhlükəsizlik "sosial subyektlərin həyati maraqlarının etibarlı müdafiəsindən, insan potensialının, insanların həyatını təmin edən sistemlərin, onların yolunun davamlı dəyərlərinin, həyat, əxlaqi davranış və fəaliyyətlər haqqında təsəvvürlərinin qorunub saxlanılması və inkişaf etdirilməsindən ibarətdir. Psixologiyada sosial təhlükəsizlik "mövcud təhlükələri və onları azaltmaq imkanlarını qavrama, dərk etmə ilə" əlaqələndirilir. Bubaxımdan, müxtəlif elmi sahələri sosial praktikada mövcud olan sosial təhlükəsizlik məsələlərinin dərk edilməsi, ümumiləşdirilmiş tipoloji definisiyanın verilməsinə cəhdlər edilir [Костюченко, 2017: 206-210].

Məsələni mürəkkəbləşdirən daha bir amil bununla bağlıdır ki, "sosial təhlükəsizlik"- anlayışının məzmunu daimi -statik deyil, dünyanın və cəmiyyətinin üzləşdiyi və ya üzləşə biləcəyi risklər dairəsinin getdikcə genişlənməsi, yeni sosial reallıqların yaranması ilə daha da dinamik şəkil alır. Bununla belə, qeyd etmək lazımdır ki, dünyada son dərəcə qeyri-sabit vəziyyətə baxmayaraq, insan varlığını təmin edən əbədi dəyərlər var ki, onların arasında "sosial təhlükəsizlik"- ilk yerlərdən birini tutur.

Təsafüdi deyil ki, informasiya sivilizasiyasının və rəqəmsal əsrin bərqərar olması ilə təasadüfi deyil ki, yeni reallığın-kiber məkanın formalaşması,sosial şəbəkələrin ortaya çıxması ilə meydana gələn aşkar təhdidlər - sosial təhlükəsizlik məsələsini daha da aktuallaşdırıb. Yeni sosial media latformaları insanlara ünsiyyət qurmağa, məlumat paylaşmağa və virtual olaraq bir-biri ilə qarşılıqlı əlaqə qurmağa imkanlar yaradıb. Məsafədən ünsiyyətin aşkar üstünlükləri ilə yanaşı, sosial şəbəkələrin yaratdığı bir sıra gizli təhlükələr də formalaşıb.

Ötən 2023-cü ildə bütün dünyada sosial şəbəkələrin 5.44 milyardı aşan auditoriyası artmaqda davam edir. Bu, dünya əhalisinin təxminən 60%-ni təşkil edir. İnsanların gündə internetdə keçirdiyi orta vaxt 6 saat 37 dəqiqədir. Son GWI araşdırması göstərir ki, insanlar dostları və ailəsi ilə əlaqə saxlamaq, xəbərlərdən xəbərdar olmaq və videolara, seriallara və ya filmlərə baxmaq üçün ən çox məlumat tapmaq üçün onlayn resurslara müraciət edirlər.

Orta iş yaşında olan internet istifadəçisi gündə 2,5 saatdan bir qədər çoxunu sosial mediada keçirir. Bu, onlayn rejimdə olan hər 10 dəqiqədən demək olar ki, 4 dəqiqəsi deməkdir [ Dıgıtal 2023 Global Overvıew Report].




Sosial təhlükəsizlik müasir dövlətin prioritet istiqamətlərindən biridir. Bu istiqamətdə yranan yeni sosial təhdid və çağırışlar da əsasən qlobal xarakterlidir. Ən mühüm məsələlərdən biri olan əhalinin sağlamlığının qorunmasının daha güclü mexanizmlərinin, ictimai səhiyyəyə xaricdən qaynaqlanan təhdidlərin qarşısının alınması sisteminin yaradılmasıdır.

**Kibermәkanda vә sosial media platformalarında sosial tәhlükәsizliyә tәhdidlәr**

Son illərdə formalaşan kibermәkanda yeni dağıdıcı tendensiyalar yüksələn xətt üzrə inkişaf edir: İnternetdən cinayət məqsədləri üçün istifadə (kibercinayətlər, o cümlədən terrorçuluq; yalan məlumatların yayılması və xüsusilə geniş miqyasda manipulyasiya; siyasi və ya iqtisadi məqsədlər üçün casusluq; təxribat məqsədi ilə mühüm infrastruktur obyektlərinə (nəqliyyat, enerji, rabitə və s.) hücumlar və s. kimi təhdidlər baş verir.

Dövlət və ya qeyri-dövlət qruplarından gələn bu kiberhücumların ümumi xüsusiyyətləri budur ki,onlar:

• sərhədlərdən və məsafələrdən asılı olmur;

• onları izləmək çətindir: öz məqsədləri üçün tez-tezvasitəçi sistemlərdən (botnetlər və ya proxylər) istifadə edən əsl cinayətkarları dəqiq müəyyən etmək çox çətindir;

• icrası nisbətən sadədir və cinayətkar üçün az xərc və ya risk tələb etmir. Kiberhücumlar ictimaiyyət, biznes və inzibati strukturlar tərəfindən istifadə olunan informasiya və kommunikasiya sistemlərinin fasiləsiz fəaliyyətini, habelə milli təhlükəsizliyin əsasını təşkil **edən sosial infrastrukturların fəaliyyətini təhlükə altına** almaq məqsədi daşıyır [Security in Cyberspace: Challenges for Society. Proceedings of an International Conference].

Digər tərəfdən, rəqəmsal texnologiyaların inkişafı ilə **sosial media platformaları** istifadəçilər üçün bir çox gözə görünməyən təhlükələr yarada bilər.

Təsadüfi deyil ki, artıq ayrıca sahə**"sosial media təhlükəsizliyi"-sahəsi** formalaşıb.

Sosial media təhlükəsizliyi müxtəlif sosial şəbəkə saytlarında istifadəçi məlumatlarını, məxfiliyini və hesablarını qorumaq üçün istifadə edilən bir sıra siyasət və prosedurları əhatə edir. O, onlayn təcavüzə, icazəsiz girişə, fişinq hücumlarına, zərərli proqramlara, məlumatların pozulmasına və şəxsiyyət oğurluğuna qarşı təhlükəsizliyi təmin edir. Düzgün təhlükəsizlik tədbirlərini həyata keçirməklə istifadəçilər kiberhücumların hədəfi olmaq şanslarını əhəmiyyətli dərəcədə azalda və daha təhlükəsiz onlayn təcrübə təmin edə bilərlər [Social Media Security: How to Stay Safe on Social Media].

*Məlumatların toplanması və təhlili*

Bir çox sosial şəbəkələr öz istifadəçiləri haqqında məlumat toplayır. Bu, fərdi məlumatların və məxfiliyin itirilməsi riskini daşıyır. Məlumatlar reklam, analitika və istifadəçi davranışı araşdırması üçün istifadə edilə bilər. İstifadəçilərin könüllü olaraq paylaşdığı məlumatlar, eləcə də onlayn davranışın monitorinqi sosial şəbəkə tərəfindən maliyyə qazanmaq məqsədi ilə istifadə olunur. Məlumatların oğurlanması, veb saytlardan, o cümlədən sosial mediadan böyük miqdarda məlumatların sızdırılması təcrübəsi kibercinayətkarlar tərəfindən şəxsi məlumatlardan sui-istifadə etmək üçün istifadə edilə bilər.

*İctimai rəyin manipulyasiyası*

Sosial şəbəkələr ictimai rəyi manipulyasiya etmək üçün optimal platformadır. Dezinformasiyanın və ya saxta xəbərlərin qəsdən yayılması, məqsədyönlü reklam kampaniyaları və müəyyən baxış və ya ideyaları təbliğ etmək üçün sosial media alqoritmlərindən istifadə ictimai rəyə təsir edə bilər və sosial təhdidlərə səbəb ola bilər.

*Spam və fişinq*/Kibərməkanda "rəqəmsal dələduzlar" sosial şəbəkələrdən spam və ya fişinq hücumlarını yaymaq üçün istifadə edirlər. Onlar dost və tanışlarının hesablarını sındıra və ya təqlid edərək pul köçürmələrini xahiş edən saxta mesajlar göndərə bilərlər. Bu cür mesajlardakı bağlantılar zərərli saytlara və ya tez pul qazanmaq sxemlərinə səbəb ola bilər.

Sosial şəbəkələrdə və ya tanışlıq saytlarında saxta şəxsiyyətlər yaratmaq təcrübəsi "*Catfishing*" adlanır. Kibercinayətkarlar bu halda adətən tanışlıq məqsədli şəxslər kimi davranır ,gerçəklikdə isə, maddi qazanc əldə etmək üçün etibar qazanırlar.

Sosial şəbəkələrdə yayılan digər yeni təhdidlərə: *Kiber bulling (zorakılıq)* də aid edilə bilər. Kiberhücum zamanı qurban müdaxilə mesajları, təhdidlər ala, özü haqqında yalan məlumatların yayılması, həmçinin nüfuzdan salma və alçaldılma ilə üzləşə bilər. Sosial mediada təcavüz cinsi qısnama, təqib və ayrı-seçkilik də daxil olmaqla bir çox formada ola bilər. Bütün bunlar ağır stress və digər psixoloji problemlərə səbəb ola bilər [The Impact of Social Media on Cybersecurity].

*Saxta zəng mərkəzi* - mütəxəssislər fırıldaqçıların işinin necə təşkil edildiyi, aldatma texnologiyaları və ssenariləri haqqında tam anlayış əldə ediblər.

*DeepFake*. Sosial şəbəkələrin bəzi istifadəçiləri neyron şəbəkələrdən istifadə edən təcavüzkarların saxtakarlıq, reputasiyaya xələl gətirmək və ya şantaj üçün öz rəqəmsal kopyasını (klonunu) yarada biləcəklərini düşünmədən öz foto və videolarını ictimai sahəyə yerləşdirirlər.

*Zərərli stereotiplərin təbliği.* Sosial şəbəkələr xarici görünüş, davranış və ya sosial status baxımından müəyyən stereotiplər tətbiq edə bilər. Məsələn, anoreksiya və ya digər yemək pozğunluqlarının təşviq edildiyi icmalar ola bilər.

*Şəbəkə asılılığı.* Bəzi istifadəçilər sosial mediada çox vaxt keçirirlər ki, bu da onların gündəlik həyatına, sağlamlığına və münasibətlərinə mənfi təsir göstərir.

*Doomscrolling.*"Doomscrolling" termini məzmunu şüurlu şəkildə oxumadan və ya təhlil etmədən xəbər lentində və ya sosial media axınında sürüşmə təcrübəsini təsvir edir. Bu, xəbərlərin dərk edilmədən səthi istehlakına və məzmundan xəbərsizliyə və ya məlumatın yanlış anlaşılmasına səbəb ola bilər.

**Azərbaycan təcrübəsi**

Mövcud şəraitdə aydındır ki, ən mükəmməl və inkişaf etmiş sosial sistem -yeni çağırışları, çoxsaylı qeyri-müəyyən təsirləri dəf etməyə qabil olmaqla yanaşı, həm də toplanmış tarixi təcrübəni ümumiləşdirmək və onu özünün təhlükəsizlik strukturunun təməlinə çevirməyi bacarmalıdır.

Bu istiqamətdə Ümummilli lider Heydər Əliyevin sosial təhlükəsizlik siyasəti tarixi əhəmiyyətə malikdir. Ötən əsrin 90-cı illərində Azərbaycan yenidən dövlət müstəqilliyini bərpa edən zaman görünməmiş çağırışlarla- Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq siyasəti və etnik təmizləmə onun nəticəsində yaranan, sayı bir milyonla ölçülən qaçqın və məcburi köçkünlər yeni yaranan dövlət qarşısında duran fövqəladə mürəkkəb məsələ kimi qarşıya çıxmışdı.

Torpaqların işğalı şəraitində bu miqyaslı sosial təhlükəsizlik probleminin tənzimlənməsi olduqca çətin məsələ idi. Buna baxmayaraq, dahi siyasi lider şəxsiyyəti, dövlətşilik təcrübəsi ilə Heydər Əliyev qaçqınlarla bağlı ardıcıl siyasətin həyata keçirilməsinə nail oldu. Proseslərin daha arzuolunmaz şəkil almasına, o zaman mövcud olan xaos və böhran şəraitinin daha da dərinləşməsi üşün sui-istifadə edilməsinə imkan vermədi.

“1993-cü il iyulun 25-də ölkənin vətəndaş müharibəsinə sürükləndiyi, bölgələrdə separatizmin başqaldırdığı dövrdə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Heydər ƏliyevAğdam şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı nəticəsində bölgədə yaranmış vəziyyətləəlaqədar Bərdəyə səfər etmiş, məcburi köçkünlərlə görüşmüş, onların vəziyyətinin yüngülləşdirilməsiməqsədilə operativ müşavirə keçirmişdi. Müşavirənin sonunda ümummilli lider demişdi: “Xalqımız mütləqbirləşməli, səfərbər olmalı, özünün vətənpərvərlik hisslərini geniş nümayiş etdirməli, torpaqlarımızıdüşməndən azad etməlidir. Bu, hər bir azərbaycanlının borcudur. Mən sizi, Azərbaycan xalqını bu müqəddəs borcu yerinə yetirməyə çağırıram”. Məhz xalqımızın Heydər Əliyevin ətrafında səfərbər olması, ölkədə sabitliyin bərqərar edilməsi sayəsində qaçqınlar və məcburi köçkünlər probleminin kompleks şəkildə həllinə start verildi.” [Nazim, Mustafa, 2018: 3].

Azərbaycan müstəqillik illərində, məhz Ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə ən mühüm sosial müdafiə institutlarının - sığorta, sosial yardım, dövlət sosial təminat, tibbi xidmət və təhsilin inkişaf etdirilməsi ilə paralel olaraq, sosial təhlükəsizlik siyasətinin həyata keçirilməsi, onların fəaliyyət göstərməsi üçün ayrılan resursların həcmi, habelə sosial müdafiə institutlarının aparıcı rolu yüksələn tendensiyanı təşkil edib.

Dünyada qaçqın axınları ilə üzləşən ölkələrə yardım üçün qlobal donor konfransları keçirilir,yardımlar ayrılır. Beynəlxalq birlik humanitar və təbii fəlakətlərlə bağlı donor konfransları keçirir. 2020-ci ildə Londonda 70 ölkənin iştirakı ilə “Yaxın Şərq regionuna dəstək” donor konfransı keçiirilib. Dövlətimiz orada təmsil olunub. Biz təklif edirik ki, Qarabağın bərpası üçün “Beynəlxalq Donor Konfransı” keçirilsin. Bütün dövlətlərə dəvət göndərilsin, gəlməyən ölkələrin hamısı bizim üçün statusu bəlli olacaq, bir daha hansı dövlət ədalətə, sülhə və humanizmə necə xidmət edirlər. Dünyanın 52 dövləti Ukraynaya müharibə üçün 268 milyard dollarlıq yardım ediblər, müharibə bitərsə bərpa üçün 750 milyardlıq da kömək göstərəcəklərini elan ediblər. Bu kimi misalların sayı çoxdur [Mustafa, 2018: 3].

## NƏTİCƏ

Beləliklə, yeni rüallığın-kiberməkanın formalaşması konkret ölkələrdə və dünyada sosial təhlükəsizliyə yeni çağırışlar yaratmaqda,mövcud təhdidlər sırasını artımaqdadır.

Bununla yanaşı, ənənəvi siyasi reallıqda da olduqca çoxsaylı problemlər nəinki həll edilir, gər gün yeniləri yaranmaqdadır.

Müasir dünyada bəşəriyyət üçün hən qlobal sosial təhlükəsizlik problemlərindən biri-hər il astronomik rəqəmlərlə artmaqda olan qaçqın və məcburi köçkünlük hadisələridir. Çoxşaxəli səbəblərdən qaynaqlanan beynəlxalq qaçqın axınları-bəşəriyəyt üçün ən böyük humanitar fəlakət vəziyyətini , sosial təhlükləsizliyə ən böyük çağırışlar yaradıb. Sözü gedən proseslər fonunda Azərbaycanın təcrübəsi mühüm əhəmiyyət kəsb edir.

Məlumdur ki, Azərbaycan 90-cı illərdə dünyada ən çox qaçqının yaşadığı ölkə olub və hazırda Ukrayna və s. ölkələrlə olduğu kimi, dövlətimizlə bağlı qlobal yardım və donor konfranslar təşkil edilməyib. Azəbaycana dəstək qlobal gündəm təşkil etməyib və demək olar ki, ölkəmiz təkbaşına bu problemin öhdəsindən gəlib. Azərbaycan 90-cı illərdə dünyada ən çox qaçqının yaşadığı ölkə olmasına baxmayaraq, dövlətimizlə bağlı analoji konfranslar təşkil edilməyib. Azəbaycan demək olar ki, təkbaşına bu problemin öhdəsindən gəlib.

2020-ci ildə dövlət başçımız, prezident İlham Əliyevin rəhbərliyi altında milli ordumuzun Qarabağı işqaldan azad etməsi, müasir tarixdə heç bir ölkədə rast gəlinməyən "Böyük Qayıdış Strategiyasının" həyata keçirilməsi ilə Azərbaycan bir milyondan çox qaçqının öz doğma torpaqlarında məskunlaşdırılmasına başladı. Beləliklə, Azərbaycan müasir tarixdə ilk dəfə sosial təhlükəsiziyimizə olan daha bir nəhəng çağırışın- qaçqınların probleminin həllinə nail oldu.

Azərbaycanın sosial təhlükəsizliyini təmin etməsi, müasir dünyada demək olar ki, hər ay getdikcə artan qaçqın və qlobal miqrasiya axınlarının tənzimlənməsi yönündə Ümummilli lider Heydər Əliyevin sözü gedən təcrübəsi- bütün dünyada örnək kimi öyrəniləcək tarixi bir təcrübədir. [Yeni yüz il başlayır].

Eyni zamanda, başqa ölkələrin daxili işlərinə müdaxilə və işğalçı müharibələr nəticəsində yaranan qlobal qaçqın axınlarının tənzimlənməsi və qarşısının alınması yönündə prezident İlham Əliyevin həyata keçirdiyi sosial təhlükəsizlik siyasəti problemlərdən çıxış yolunu göstərən nümunədir [Historical background to the document "Speech of the President of the Republic of Azerbaijan Heydar Aliyev at the International Conference on the problems of refugees and IDPs in Azerbaijan", 1996; Sharp].

**Ədəbiyyat:**

*Beck, Ulrich* (1992). Rısk Socıety Towards a New Modernity Theory, Culture & Society. 264 p.;

*Giddens, Anthony* (1998). Risk and Responsibility. Cambridge: Polity Press // https://courses.washington.edu/sales09/Handouts/Giddens_Risk_Responsibility.pdf

Social Security History // https://www.ssa.gov/history/trspeech.html

*Костюченко, Н.И.* (2017). Социальное явление «безопасность» как элемент, общая функция социальных систем и подсистемы национальной безопасности государства // Общество и право. № 3. С.206-210.

*Dıgıtal 2023 Global Overvıew Report* // https://wearesocial.com/wp-content/uploads/2023/03/Digital-2023-Global-Overview-Report.pdf

*Security in Cyberspace: Challenges for Society. Proceedings of an International Conference* // https://www.rand.org/pubs/conf_proceedings/CF128.html

*Social Media Security: How to Stay Safe on Social Media?* https://www.sprinklr.com/cxm/social-media-security/

*The Impact of Social Media on Cybersecurity* // https://www.upguard.com/blog/the-impact-of-social-media-on-cybersecurity

*Mustafa, Nazim.* (2018). Ulu Öndər qaçqınların problemlərinin həllini əsas vəzifələrdən biri hesab edirdi // Xalq qəzeti. 9 dekabr. № 278. S.3.

*"Yeni yüz il başlayır"* // https://globalinfo.az/zahid-oruc-yeni-yuz-il-baslayir-video/

*Historical background to the document "Speech of the President of the Republic of Azerbaijan Heydar Aliyev at the International Conference on the problems of refugees and IDPs in Azerbaijan"*. (1996). October 16 // https://lib.aliyevheritage.org/en/4808961.html

*Sharp, James. Azerbaijan's Great Return Begins.* // https://www.caspianpolicy.org/research/security/azerbaijans-great-return-begins

# ПОКОЛЕНЧЕСКИЙ ШАГ В ИСТОРИИ: МОЛОДЕЖЬ В ГЛОБАЛЬНОМ ИЗМЕРЕНИИ

**Энгель Ризакович ТАГИРОВ**
Ректор Института культуры мира (ЮНЕСКО),
президент Международной гуманитарной академии «Европа-Азия»,
член президиума Российской Ассоциации Содействия ООН,
член Комиссии Республики Татарстан по делам ЮНЕСКО,
Посол мира Федерации за всеобщий мир (UPF),
Посол культуры Международной ассоциации культурологов «Симург»,
доктор философских наук, профессор, академик,
*РФ, Татарстан, КАЗАНЬ*
kinculp@gmail.com

**Аннотация**

В повестке дня истории человечества есть проблемы, значимость и актуальность которых не остывают во времени. Молодежь одна из них. Человеческая мысль продолжает «работать» над осмыслением предназначения феномена молодежи и определения его роди на современном этапе разлома Истории.

В статье дана концептуальная схема понимания места и роли нового – цифрового поколения молодежи в контексте судеб народов, культур и цивилизаций. Обосновывается необходимость введения проблемы молодежи в повестку дня государств мира и выработки концепции глобальной молодежной политики на уровне ООН-ЮНЕСКО.

**Ключевые слова:** разлом Истории, переход Рубикона, молодежь, поколенческий шаг в истории, молодежная политика XXI века, ЮНЕСКО, ООН.

# A GENERATIONAL STEP IN HISTORY: YOUTH IN THE GLOBAL DIMENSION

**Engel Rizakovich TAGIROV**
Rector of the Institute for the Culture of Peace (UNESCO),
President of the International Humanitarian Academy "Europe-Asia",
Member of the Presidium of the Russian Association for UN Assistance,
member of the Commission of the Republic of Tatarstan for UNESCO,
Peace Ambassador of the Universal Peace Federation (UPF),
Ambassador of Culture of the International Association of Cultural Studies “Simurg”,
Prof.Dr., academician,
*RF, Tatarstan, KAZAN*
kinculp@gmail.com

**SUMMARY**

There are problems on the agenda of human history, the significance and relevance of which do not cool down over time. Young people are one of them. Human thought continues to “work” on understanding the purpose of the phenomenon of youth and determining its origin at the present stage of the rift in History.

The article provides a conceptual framework for understanding the place and role of the new – digital generation of youth in the context of the destinies of peoples, cultures and civilizations. The necessity of introducing the youth problem into the agenda of the world's states and developing the concept of global youth policy at the UN-UNESCO level is substantiated.

**Key words:** fault of History, crossing the Rubicon, youth, generational step in history, youth policy of the 21st century, UNESCO, UN.

Молодежный вопрос в повестке дня человечества вечен. Транзиты и цивилизационные трансформации происходили при условии включения мощи трансформеров – новых поколений. Ставка на молодежь, порой доходившая до культа молодежи, в целом исторически объяснима. Двигать колеса истории, накапливать для этого резервы пассионарной энергии, влиять на состояние умов эпохи – все это атрибуты миссии молодых, в которых сконцентрирован нерв времени, дух перемен.

В чем же кроется сила когорты молодых, почему все сдвиги, переходы от формации к формации, смена укладов жизни издревле связаны с молодежью? Почему революционность как своеобразный божественный знак вложена в генетическую матрицу человеческого Рода? Да, это свойство – родимое пятно, рефлекс, пробуждаемый зовом назревших перемен, и в этом суть закона прогресса. Начиная от «восстания» молодых богов в библейское время и вплоть до революций всех эпох, происходивших в культурной, социальной, экономической, военной, технологической сферах, эти перемены свершались молодыми агентами – субъектами истории. Ответ на вопрос Иоанна Крестителя «Что же нам делать?» запечатлен в Евангелии, он гласит: воспитать (породить) новых людей.

Именно они – «новые люди», новые поколения творили революции, перебрасывали человечество в новые эоны. Взглянем на возрастную планку их лидеров: в начале Великой французской революции Максимилиану Робеспьеру – 31 год, Жоржу Жаку Дантону– 29 лет, Луи Сен-Жюсту – 22, Пьер Гаспару Шометту – 31; деятелям Американской революции– автору Декларации независимости Томасу Джефферсону было тогда 33, Джейну Эдисону 26, Александру Гамильтону 21, Джону Адамсу 40, Джорджу Вашингтону 44; лидеру Российской революции Владимиру Ленину было в 1917 г. – 47, его соратникам – от 30 до 40 лет. Это они – «новые люди», ставшие «мостом», перетаскивали тяжелогруженный обоз истории из одной в очередную – новую эпоху. А революции, совершенные ими, переключали мотор истории на сверхвысокую скорость, корректировали вектор эволюции человечества. Через напряжение ума, познание тайн Земли, внедрения в глубины Океана, покорение Неба. Через высечение искры прометеева огня в душе, перешагивания норм архаического кодекса представлений, вызывая при этом в жизни общества Прометеев огонь – энергию протестов [Ковтун, 2019: 85-192].

В XXI веке становится все более очевидным, что молодежная политика должна стать одним из приоритетов власти, когда очевидно, что теория поколений имеет под собой основание. Индивидуалистическое поколение сменило не желающее взрослеть поколение миллениалов, обозначаемое как поколение Y. Ближе к границе тысячелетий на арену истории вышло цифровое поколение Z, дата рождения которых начинается с 2000-х (центениалы). Границы поколения большинство теорий определяет в рамках 15-25 лет, а критерием границ выступают события, влияющие на формирование психики поколения, соответственно, возрастной ценз от страны к стране меняется. Поколение Z относят к категории глобального поколения, поскольку события, влияющие на него, связаны с глобализацией и развитием технологий [Джин, 2019; Джин, 2019: 46-50; Петрунина, 2022: 57-63]. При всех его особенностях оснований для негативных стереотипов его восприятия взрослыми поколениями, для своеобразной паранойи со стороны старших нет.

Россию волны протеста охватывали неоднократно. Как и человечество в целом, она не научилась своевременно извлекать уроки. Один из них: чем больше и губительнее ошибки в работе над умами молодых, тем существеннее потери. Это задержка или замедление прогресса; потеря вектора развития и схождение с трассы цивилизационного развития; ослабление витального потенциала.

До недавнего времени считалось, что люди в возрасте от школьников до 25-30-летних являются в большой степени опорой российской власти – совместно с категорией 50+.

Носителями протестных настроений рассматривались 30-40-летние. Ныне молодежь превращается в самый непредсказуемый пласт общества, живущий в культурно-ценностном и идеологическом безвременье. В отличие от старших поколений, формировавшихся партией, комсомолом, советской культурой и пропагандой, современная молодежь грозит выскользнуть из поля влияния официальной власти.

Признаем: заявка на свободу выбора – имманентная потребность молодых. Она служит ресурсом инновационного стиля мышления и действия. Адекватные ответы на вызовы времен невозможны без инъекции молодежной энергетики в общественно-трансформационные «кровеносные сосуды». Вкупе с разумным консерватизмом старших молодые способны придать социуму синергетический эффект. Исторические разломы обычно приходятся не на пик бедствий, а на выход из кризиса, на изгибе которого остро ощущается необходимость по очистке энергетического родника, заиленного шлаком времен, в котором только и бьют полноводные ключи молодости.

Молодежь – стратегический ресурс прогресса, это аксиома. Но на нынешнем этапе – этапе перехода (и возможно последнего) Рубикона, разлома не только геологических, но и исторических плит планеты, недооценка фактора молодежи в измерении судьбы человечества, крайне опасна. Она составляет 33% населения, которая представляет из себя пассионарно-жизнетворительно-моторную сердцевину человечества. Она – «мозг и сердце» цифровой эпохи. При этом не забудем: если для продолжения эволюции человечества в его составе необходимо иметь 20% молодых, а для его рывка – 40%. Уже из этой статистики вытекает вывод: с молодежью связаны темпы, содержание и исход самого сложного в истории шага человечества. Прав мудрый Фридрих Энгельс, писавший: «Судьба человечества зависит не от страшащегося борьбы благоразумия, не от вошедшего в привычку филистерства старости, а от благородного, неукротимого огня молодости».

Мораль сентенции ясна: молодежь мира, пришло ваше время заявить о себе в роли вершителя своей и планетарной судьбы. А для политической элиты наступил исторический час выработки новой философии понимания и оценки роли феномена молодежи. «Власть предержащих» – мирового политического мейнстрима мира наступил исторических Час выработки новой философии работы с молодежью. Это повелительный императив разломного времени, как и перевод конкуренции, гонки за лидерство в мире на рельсы конкуренции национально-страновых моделей молодежной политики. Молодежное поле – это невспаханная целина, заброшенные залежи. Необходим переход от рацио-эгоистических, политизированных подходов, рассчитанных на снятие «чернозема» с молодежной почвы, на мобилизацию геостратегических проектов, к включению энергии молодых на решение глобальных проблем организации жизни человечества в цифровом эоне. Цифровизация – идея опасная. Если она будет владеть умами и сознанием людей в стихийном варианте, как взаимодействие каких-нибудь там нейтрино и бозонов Хиггса, то это одна из двух исторических альтернатив, ведущей к постчеловеческому бытию.

Другая же альтернатива состоит в расшифровке цифрового кода, чтобы разглядеть в ней контуры продолжения житнетворения представителей вида homo sapiens. А ключ к дверям цифровой эры находится в руках молодых, создающих образ будущего. Каждая страна упорно копит опыт в этой сфере. Ибо это глобальная, требующая безотлагательного решения, проблема. У России в плане «укрощения гена» молодости есть конкурентное преимущество. Она – единственная страна с исторически многослойным опытом работы с молодежью – опытом дворянского воспитания, советским, либеральным, современным. Симбиоз традиций лежит в основе уникального и одновременно универсального опыта. Мир с надеждой смотрит на Россию в ожидании ответа на запрос времени разлома истории: требуется выработка модели соработничествапартнерства по линии «власть – молодежь». В

этом предназначение, миссия нашей страны как единственной обладательницы опыта всемирного масштаба – Востока и Запада. Ее экспериментально-апробированной сердцевиной может стать татарстанский международно-признанный опыт. Ряд концептуальных, стратегических и тактических находок Татарстана получили отражение в документах Генеральных конференций ЮНЕСКО. Заметим, что казанский образец государственной молодежной политики, которому 25 лет, активно используется в странах Западной и Восточной Европы, Балтии, СНГ и Востока [Доклад о положении молодежи в Республике Татарстан, 2021].

Təhsil iqtisadi artımın mühüm amilidir. O, insanlara işçi qüvvəsində iştirak etmək və iqtisadiyyata töhfə vermək üçün lazım olan bacarıq və biliklərlə təmin edir. Təhsil həm də işçi qüvvəsinin məhsuldarlığını və yaradıcılığını artırır, məhsuldarlığın və rəqabət qabiliyyətinin artmasına səbəb olur. Bundan əlavə, təhsil yeni bazarlar yarada və iqtisadi artımı stimullaşdıra bilən yeni texnologiyaların inkişafına kömək edir. Məsələn, Yaponiya və Cənubi Koreya kimi ölkələr təhsilə böyük sərmayə qoymuşlar ki, bu da onların iqtisadi uğurlarına töhfə verib [https://az.strategiya.az/news.php?id=140819].

Təhsil həm də sosial mobilliyi təşviq etmək üçün güclü vasitədir. O, insanlara həyatda uğur qazanmaq və uğura aparan maneələri aradan qaldırmaq üçün lazım olan bacarıq və bilikləri verir. Təhsil insanlara yoxsulluq dövranını qırmağa və karyera yüksəlişinə nail olmağa kömək edə bilər. O, həmçinin hamı üçün bərabər imkanlar təmin etməklə sosial birliyi təşviq edir və bərabərsizlikləri azaldır. Məsələn, Finlandiya və Kanada kimi ölkələr təhsilə sərmayə qoyublar ki, bu da onların yüksək sosial hərəkətlilik göstəricilərinə töhfə vermişdir. [https://az.strategiya.az/news.php?id=140819].

Təhsil həm də, innovasiyanın ən mühüm hərəkətverici qüvvəsidir. O, insanlara yeni ideya və texnologiyaların inkişafı üçün lazım olan bacarıq və bilikləri verir. Təhsil yaradıcılığı və tənqidi düşüncəni təşviq etməklə innovasiya mədəniyyətini inkişaf etdirir. Bundan əlavə, təhsil insanları iqtisadi artıma aparan yeni ideya və texnologiyaların kommersiyalaşdırılması üçün lazım olan

bacarıqlarla təchiz edir. Məsələn, ABŞ və İsrail kimi ölkələr təhsilə yüksək sərmayə qoyublar ki, bu da onların texnologiya və innovasiya sahəsində liderliyinə töhfə verib.

Təhsilə investisiya qoyuluşu insan kapitalının inkişafı üçün çox vacibdir. Bununla belə, bütün təhsil sistemləri bərabər deyil. Ən yaxşı təhsil sistemləri insanlara həyatda uğur qazanmaq, cəmiyyətə və iqtisadiyyata töhfə vermək üçün lazım olan bacarıq və bilikləri verir. Bu məqsədə çatmaq üçün tədqiqatçılar tərəfindən aşağıdakı tövsiyələr verilmişdir:

- Erkən Uşaqlıq Təhsili: Erkən uşaqlıq təhsilinə sərmayə qoymaq həyatda uğur qazanmaq üçün lazım olan təməl bacarıqları inkişaf etdirmək üçün çox vacibdir.
- Keyfiyyətli Müəllimlər: Keyfiyyətli müəllimlərə sərmayə qoymaq insanlara həyatda uğur qazanmaq üçün lazım olan bacarıq və bilikləri təmin etmək üçün çox vacibdir. Keyfiyyətli müəllimlər həmçinin tələbələri tam potensiallarına çatmaq üçün ruhlandıra və həvəsləndirə bilər.
- Müvafiq kurikulum: Müvafiq kurrikuluma sərmayə qoymaq insanları müasir dünyada uğur qazanmaq üçün lazım olan bacarıq və biliklərlə təchiz etmək üçün çox vacibdir.
- Texnologiyalar. Texnologiyaya sərmayə qoymaq insanlara rəqəmsal əsrdə uğur qazanmaq üçün lazım olan bacarıq və bilikləri təmin etmək üçün çox vacibdir.

Təhsil insan kapitalının inkişafında ən mühüm amildir. O, insanlara həyatda uğur qazanmaq, cəmiyyətə və iqtisadiyyata töhfə vermək üçün lazım olan bacarıq və bilikləri təmin edir. Təhsilə sərmayə qoyuluşu iqtisadi artımı, sosial mobilliyi və innovasiyaları təşviq etmək üçün çox vacibdir. Ən yaxşı təhsil sistemləri insanlara müasir dünyada uğur qazanmaq və bütün potensiallarını reallaşdırmaq üçün lazım olan bacarıq və bilikləri verir.

İqtisadi artıma və inkişafa töhfə verə biləcək əsas amillərdən biri də sahibkarlığın mövcudluğu və təşviqidir. Sahibkarlıq cəmiyyətə fayda verən və sahibkarlar üçün gəlir gətirən yeni müəssisələrin yaradılması, işə salınması və idarə edilməsi prosesidir. Bununla belə, sahibkarlıq bəzi insanların doğulduğu, bəzilərinin isə olmadığı təbii və ya anadangəlmə xüsusiyyət deyil. Əksinə, bu, təhsil vasitəsilə öyrənilə, inkişaf etdirilə və təkmilləşdirilə bilən bir bacarıqdır. Təhsil fərdlərin və qrupların sahibkarlıq düşüncə tərzinin, münasibət və davranışlarının formalaşdırılmasında, innovasiya və imkanların tanınması üçün əlverişli mühitin yaradılmasında mühüm rol oynaya bilər.

Bu baxımdan idrak qabiliyyətləri və yaradıcılıq imkanları təkmilləşdirilməlidir. Təhsil tələbələrin sahibkarlıq düşüncəsi və problemlərin həlli üçün zəruri olan idrak qabiliyyətlərini və yaradıcılığını inkişaf etdirməyə kömək edə bilər. Koqnitiv qabiliyyətlər insanın yaddaş, əsaslandırma, diqqət və qərar qəbul etmə kimi məlumatları əldə etməsinə, emal etməsinə və tətbiqinə imkan verən psixi proseslərə aiddir. Yaradıcılıq yeni və faydalı ideyalar, məhsullar və s. yaratmaq bacarığıdır. Təhsil tələbələri müxtəlif və mürəkkəb biliklərə sövq etməklə, maraq və araşdırmanı təşviq etməklə, təcrübə və əks əlaqə imkanları yaratmaqla bu qabiliyyətləri və yaradıcılığı stimullaşdıra bilər. Yaradıcılığı dəstəkləyən təhsil tələbələrin ənənəvi təhsil alanlara nisbətən daha yüksək səviyyəli daxili motivasiya, orijinallıq və düşüncə və performans çevikliyi nümayiş etdirdiyini müəyyən edir.

Təhsil həmçinin uğurlu sahibkarlıq üçün lazım olan imkanların müəyyən edilməsi, risklərin qiymətləndirilməsi, resursların səfərbər edilməsi, komandanın qurulması, ünsiyyət və liderlik kimi xüsusi səriştə və bacarıqların inkişafına kömək edə bilər. Bu səriştələr və bacarıqlar müxtəlif pedaqoji metodlar, məsələn, nümunələr, simulyasiyalar, layihə əsasında öyrənmə, təcrübi öyrənmə və mentorluq vasitəsilə öyrədilə və tətbiq oluna bilər. Məsələn, Fayol və Gay (2008) tərəfindən aparılan araşdırmalar göstərdi ki, sahibkarlıq təhsili proqramında iştirak edən tələbələr, iştirak etməyənlərlə müqayisədə, öz bacarıq və davranışlarında əhəmiyyətli irəliləyişlər göstərmişlər.

Təhsil, həmçinin tələbələrin motivasiyası, inamı, dözümlülüyü və etikası kimi sahibkarlığa qarşı münasibət və dəyərlərinə təsir göstərə bilər. Bu münasibət və dəyərlər sahibkarlıq fəaliyyətlərinin və nəticələrinin ehtimalına və keyfiyyətinə təsir göstərə bilər. Təhsil müsbət rol

modelləri, ruhlandırıcı hekayələr, dəstəkləyici rəylər və etik rəhbərlər təqdim etməklə bu münasibət və dəyərləri formalaşdıra və gücləndirə bilər. Məsələn, Souitaris et al (2007) müəyyən etdi ki, sahibkarlıq kursları keçən tələbələr, almayanlara nisbətən, qəbul edilən arzuolunanlıq, məqsədəuyğunluq və hərəkətə meyl kimi sahibkarlıq münasibətlərinin daha yüksək səviyyədə olduğunu bildirdilər [https://az.strategiya.az/news.php?id=140819].

Təhsil həmçinin, tələbələr üçün bazara çıxış, maliyyə mənbələri, tərəfdaşlıqlar və mentorlar kimi sahibkarlıq imkanları və şəbəkələri yarada və asanlaşdıra bilər. Bu imkanlar və şəbəkələr istəyən və mövcud sahibkarlara dəyərli məlumat, resurslar və dəstək verə bilər. Təhsil müvafiq və yenilənmiş kurikulumlar təklif etməklə, tədbirlər və müsabiqələr təşkil etməklə, sənaye və icma maraqlı tərəfləri ilə şəbəkə qurmaqla, məzunlar və həmyaşıdlar şəbəkələri qurmaqla bu imkanları və şəbəkələri yarada və asanlaşdıra bilər.

Beləliklə, təhsil sahibkarların idrak qabiliyyətlərini və yaradıcılığını təkmilləşdirməklə, sahibkarlıq səriştələrini və bacarıqlarını inkişaf etdirməklə, onların sahibkarlıq münasibətlərini və dəyərlərini gücləndirməklə, sahibkarlıq imkanlarını və şəbəkələrini qurmaqla onları gücləndirə bilər. Bununla, təhsil fərdlərin, icmaların və ölkələrin iqtisadi inkişafına və sosial rifahına töhfə verə bilər.

İnsanların bilik, davranış, fiziki, intellektual və emosional qabiliyyətlərini, düşüncə, yenilikçilik, problem həll etmə, qərar qəbul etmə və həyata keçirmə səlahiyyətlərini yaratmaq və inkişaf etdirmək üçün aparılan bütün tədqiqatlar təhsillə bağlıdır. Bütün növ təhsil və təlimlər geniş mənada təhsilə aid olduğu halda, dar mənada təhsil yalnız məktəblərdə verilən təhsildir [Öztürk, 2005:4].

Ətraf mühitin dəyişməsinə və inkişafına uyğunlaşaraq, öyrənməyi öyrənərək öz mühitindən kənara çıxa bilən insanlar yüksək ixtisaslı insanlardır. Bu keyfiyyətlərin əldə edilməsində fərdin aldığı formal təhsil mühüm yer tutur. Təhsil müəyyən məqsədlərdən asılı olaraq müəyyən proqram və proseslərə tabe olaraq insanların davranışlarında məhdud və arzu olunan davranışların yaradılması prosesidir. Təlim müəyyən davranışları dəyişdirmək və inkişaf etdirmək üçün fəaliyyətdir. Bu dəyişiklik və inkişaf fəaliyyətləri müəyyən ümumi və xüsusi məqsədlərə, metod və üsullara və proqramlara əsaslanmalıdır. Bu baxımdan təhsil mütərəqqi və inkişaf edən sosial prosesdir [Okay, 2009:133].

Təhsilin sosial proses kimi həyata keçirilməsi bir sıra prinsiplər əsasında müəyyən şərtlərin yerinə yetirilməsi ilə mümkündür. Təcrübə yolu ilə öyrənmək də bu şərtlərdən biridir. Bundan əlavə, insan mərkəzli təhsil, konstruktivist yanaşma, layihə əsaslı öyrənmə, kooperativ öyrənmə və problemlərin həlli bu şərtlərə daxildir.

Planlaşdırma, fərdi və sosial ehtiyaclara uyğunluq və elmi olmaq təhsilin əsas prinsipləridir. Təhsil insan kapitalının inkişafında mühüm elementdir. Təhsil elmi və texnoloji innovasiyaları təkmilləşdirməklə insan kapitalının səmərəliliyini artırır. Təhsil sayəsində insanların potensial istedadları aşkarlanır və inkişaf etdirilir. Təhsil fərdə uyğunlaşma bacarıqlarını inkişaf etdirərək yeni iş imkanlarını qiymətləndirmək imkanı verir. Təhsil əldə edilmiş bilikləri nəsildən-nəslə ötürür. Nəhayət, təhsil bütöv bir cəmiyyətin bilik və bacarıqlarını təkmilləşdirməklə sürətli inkişaf imkanı təqdim edir .

Təhsil insanların bilik və bacarıqlarını təkmilləşdirən ən mühüm mənbədir. Bundan əlavə, təhsilin ixtisaslı işçilərin yetişdirilməsində mühüm rolu vardır . Müasir dövrdə istehsalın əsas girişi informasiy vasitəsilə yaranır. Ona görə də günümüzdə ixtisaslı işçilərə ehtiyac vardır. İxtisaslı işçinin açarı isə təhsildədir. Müəssisələr istehsal texnologiyalarını anlayan, tətbiq edən və yenilik edən səmərəli və effektiv işçilərə sahib olmaqla müştəri məmnuniyyəti yaradacaq dəyərlər istehsal edə bilər. Təhsilli işçilər müəssisələrin rəqabət qabiliyyətini müəyyən edə bilər. Üstəlik, informasiya cəmiyyətinin ən mühüm sərvəti savadlı insanlara malik olmaqdır [İslamoğlu & Altunışık, 2009:6-7].

Təhsil müəssisələri həm fərdlərin, həm də işçilərin bilik və bacarıqlarını təmin edərək təhsil aldıqları yerlərdir. Müəssisələrdə əsas problem ixtisaslı aralıq işçi qüvvəsinin olmamasıdır. Bu bacarığın insan kapitalı xarakteri sənaye və xidmət sektorlarında uğur və ya uğursuzluğa təsir edən mühüm amildir. Bütün dünyada olduğu kimi, Azərbaycanda da yüksək səviyyəli insan kapitalına malik orta səviyyəli işçi qüvvəsinə ehtiyac var. Bu ehtiyacı ödəyən təhsil müəssisələri – peşə litseyləri, universitetlərdir. Peşə məktəbləri və universitetlər müxtəlif iş sahələri üçün ixtisaslı işçi qüvvəsi, başqa sözlə insan kapitalı yetişdirən ali təhsil müəssisələridir .

Bu gün marketinqin diqqəti istehlakçıya yönəlib. Marketinq istehlakçının ehtiyac, istək və gözləntilərinə uyğun hərəkət edərək inkişafını davam etdirir. Bunun iş dünyasındakı əksi isə istehlakçı diqqəti kimi ifadə edilir. İstehlakçının istək və gözləntiləri hər zaman önəmli olsa da, xüsusilə bu gün daha çox əhəmiyyət kəsb edir. Həm fərdi istehlakçılar, həm də korporativ istehlakçılar bazardan öz tələb və gözləntilərinə cavab verməyi tələb edirlər. Müvafiq olaraq, istehsalçılar istehlakçının istək və gözləntilərini nəzərə almalıdırlar. Müasir marketinqin tələbi olaraq, təşkilatlar bazarın ehtiyac və tələblərini müəyyən edərək və bu ehtiyacları ödəyən və ödəyən mal və xidmətləri istehlakçıya effektiv şəkildə təklif etməklə öz məqsədlərinə çata bilərlər [İslamoğlu & Altunışık, 2009: 6-7]. Buna görə də, mal və xidmətlərə istehsalçının nöqteyi-nəzərindən deyil, istehlakçıların nöqteyi-nəzərindən baxmaq lazımdır. Bunun ən mühüm səbəbi istehlakçıların marketinq fəaliyyətlərinin mərkəz nöqtəsini təşkil etməsidir. Marketinq konsepsiya-larına da daxil olan müştəri məmnuniyyəti, təklif olunan məhsul və ya xidmətin istehlakçıya uyğunluğu və istehlakçının ehtiyac və tələblərinə cavab vermə dərəcəsi kimi ifadə edilir. İstehlakçı məmnuniyyəti istehlakçıdan istehlakçıya dəyişsə də, fərdi və ya qrup halında istehlakçıların məmnuniyyət səviyyəsinin təmin edilməsi və artırılması təşkilatların nail olmalı olduğu bir məqsəddir [Kozlu, 1999: 259].

Hazırda respublikamızın qarşısında duran strateji vəzifələrdən biri də sosial-iqtisadi həyatın modernləşdirilməsi, beynəlxalq təcrübə və elmi-texnoloji innovasiyaların uğurlu tətbiqidir. Qeyd olunan məsələlərin həlli, ilk növbədə, insan kapitalının inkişafını, insanların müasir bilik və bacarıqlara yiyələnməsini tələb edir. Bu səbəbdən son 30 ildə ölkəmizin əsas hədəfi insan kapitalının inkişaf etdirilməsidir. Çünki müasir dövrdə dövlətlərin inkişafı insan kapitalının səviyyəsi ilə müəyyən edilir. Təsadüfi deyil ki, BMT-nin «Minilliyin İnkişaf Məqsədləri» proqramında davamlı inkişafın təmin edilməsi üçün müəyyən edilmiş 17 məqsədin, 8 prioritet məqsədin əksəriyyəti insan kapitalının inkişafı ilə bağlıdır [Minilliyin İnkişaf məqsədləri hesabatı, Bakı, 2013].

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu mövzuda qeyd edir: "…Uşaqlarımız bilikli olmalı, dünyada gedən prosesləri izləməli, yeni texnologiyaya sahib çıxmalıdırlar. …İnsan kapitalı inkişaf etmiş ölkələrin indiki durumunu müəyyən edən amildir. Həmin ölkələr təbii resurslar hesabına yox, intellektual potensiala, yeni texnologiyaların icad olmasına, tətbiqinə görə inkişaf edirlər. Biz də bu yolu seçməliyik" [https://www.anl.az/down/meqale/az_mektebi/2018/02/643531].

Təhsil üzrə milli strategiyanın perspektiv məqsədi ölkədə səriştəli təhsilverənlərə, yeni texnologiyalara əsaslanan infrastruktura malik, keyfiyyət nəticələri və əhatəliliyinə görə qabaqcıl dünya ölkələri sırasında önəmli mövqe tutan təhsil sistemini yaratmaqdır. Azərbaycanın təhsil sisteminin iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartlarına uyğun olması strategiyanın əsas hədəflərindəndir. Strategiyanın reallaşdırılması təhsilin məzmunu, kadr hazırlığı, təhsili idarəetmə sistemi və təhsil infrastrukturunun qabaqcıl beynəlxalq təcrübəyə və Azərbaycanın inkişaf konsepsiyasına uyğun yenidən qurulmasına imkan verərək, ölkədə biliklərə əsaslanan iqtisadiyyatın bərqərar olmasını, informasiya cəmiyyətinin təşəkkülünü və ölkənin davamlı inkişafını təmin edəcəkdir.

«Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası» səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sistemi yaradılması üçün 5 strateji istiqamətdə genişmiqyaslı tədbirləri nəzərdə tutur: 1. Səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması. 2. Təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən yüksək nüfuzlu təhsilverənin formalaşdırılması. 3. Təhsilin nəticələrə görə cavabdeh, şəffaf və səmərəli tənzimləmə mexanizmlərinə malik, dövlət-ictimai xarakterli və dövlət-biznes partnyorluğuna əsaslanan idarəetmə sisteminin formalaşdırılması. 4. Müasir tələblərə cavab verən və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması. Bu istiqamət təhsil müəssisələrində İKT əsaslı təlim metodologiyasına uyğun infrastrukturun yaradılması, təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması, distant təhsil, yaşlıların təhsili, peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin, müasir təminatlı peşə-tədris mərkəzlərinin və komplekslərinin qurulması kimi tədbirləri ehtiva edir. 5. Təhsilin dayanıqlı və müxtəlif mənbələrdən istifadə olunmaqla yeni maliyyələşdirmə mexanizminin yaradılması [https://www.anl.az/down/meqale/az_mektebi/2018/02/643531].

## NƏTİCƏ VƏ TÖVSİYƏLƏR

İnsan kapitalına sərmayə qoyuluşu perspektivlidir və hər il həm fərd, həm də bütün cəmiyyət üçün daha çox əhəmiyyət kəsb edir. Nəticə etibarı ilə həm fərd, həm də cəmiyyət təhsilin yüksək səviyyədə olmasında maraqlıdır – yalnız bu şərtlə ölkənin iqtisadi yüksəlişini artırmağa və təhsili gəlirli investisiya sahəsinə çevirməyə ümid etmək olar. Bu məqsədlə tədris prosesinin məzmununu dövlətin iqtisadi inkişafının perspektiv planları ilə uzlaşdırılması zəruridir. Bazarın mütəxəssislərə olan tələbatını və iş yerlərinin sayını daim izləmək lazımdır.

### Ədəbiyyat:

*Aslanov, E.* (2006). Yeni dünya nizamı və milli inkişaf. Bakı.
*Səmədzadə, Z.* (2001). Dünya iqtisadiyyatı: Çin iqtisadi möcüzəsi. Bakı.
*Öztürk, N.* (2005).”İktisadi Kalkınmada Eğitimin Rolü”, Sosyo Ekonomi, Ocak-Haziran, 2005-1/050101

# AZƏRBAYCANDA TƏHSİL İSLAHATI VƏ GƏNCLƏRİN PEŞƏ MÜQƏDDARATININ MÜƏYYƏNLƏŞDİRİLMƏSİ PROBLEMİ

**Südabə HAŞIMOVA**
Bakı Dövlət Universiteti,
Sosiologiya kafedrasının müəllimi, sosiologiya üzrə fəlsəfə doktoru,
*Azərbaycan, BAKI*
sudabahashimova@bsu.edu.az;
hasimova.sudaba@bk.ru

## XÜLASƏ

Məqalədə göstərilir ki, şəxsiyyətin peşə müqəddaratını müəyyənləşdirməsinə obyektiv şəkildə sosial qruplar və sosial institutlar təsir göstərirlər. Bu baxımdan təhsil institutunun, ölkəmizdə aparılan təhsil islahatlarının gənclərin peşə müqəddaratını müəyyənləşdirməsinə təsiri problemi mühüm əhəmiyyət kəsb edir. Məqalədə təhsil sahəsində aparılan islahatların və təhsil islahatı proqramının əsasını təşkil edən yeni milli tədris proqramının uğurları və problemləri araşdırılır. İqtisadi inkişafı təmin etmək üçün Azərbaycanın öz insan kapitalının bilik bazasını və bacarıqlarını gucləndirməsinə ehtiyacı vardır.

**Açar sözlər:** şəxsiyyətin peşə müqəddaratı, təhsil institutu, təhsil islahatları, milli tədris proqramı, Boloniya prosesi, gənclərin işlə təmin olunması, əmək bazarı.

# EDUCATION REFORMS AND THE YOUTH'S PROFESSIONAL IDENTITY PROBLEM IN AZERBAIJAN

**Sudaba HASHIMOVA**
Baku State University,
Teacher of the Department of Sociology, Doctor of Philosophy in Sociology,
*Azerbaijan, BAKU*
sudabahashimova@bsu.edu.az;
hasimova.sudaba@bk.ru

## SUMMARY

The social groups and social institutions objectively influence to the profession identity of people. From this point of view, educational institutions and the reforms in the educationalsphere in the country perform a significant role in the youths; professional identification. The article also examines the problems of new national education program that forms basis of education reform process. Azerbaiajn needs to develop its human capital in order to ensure the economic development.

**Key words:** professional identity of the person, institute of education, educational reforms, national curriculum, Bologna Process, youth employment, labor market.

Şəxsiyyətin peşə müqəddaratını müəyyənləşdirməsinə obyektiv şəkildə sosial qruplar və sosial institutlar təsir göstərirlər ki, bu da iki səviyyədə – mikro və makro səviyyələrdə baş verir. Əgər ailə, həmyaşıdlar, müəyyən bir peşənin daşıyıcıları və b. peşə müqəddaratının müəyyənləşdirilməsinə mikro səviyyədə təsir göstərirlərsə, makro səviyyədə cəmiyyətin peşə strukturunu, əmək bazarı və təhsil kimi sosial institutları göstərmək olar. Bu baxımdan təhsil institutunun, daha dəqiq

desək, ölkəmizdə aparılan təhsil islahatlarının gənclərin peşə müqəddaratını müəyyənləşdirməsinə təsiri problemi mühüm əhəmiyyət kəsb edir.

Təhsil sahəsində aparılan islahatların başlıca məqsədi insanlara təhsil almaq inkanı yaratmaq və təhsilin keyfiyyətini artırmaqdır [İsaxanlı, 2008: 38]. Təhsilin cəmiyyətə təsiri böyükdür, mürəkkəbdir və həlledicidir. Təhsil insanı azadlığa yaxınlaşdırır, tənqidi düşüncənin formalaşmasına şərait yaradır. Təhsildə baş verən əsaslı dəyişikliklər nəinki fərdlərin inkişafında, hətta sosial-siyasi, iqtisadi-mədəni mühitin də dəyişilməsində böyük rol oynayır. Şəxs öz mənliyini, milli kimliyini dərk etməyə başlayır, bəşəri dəyərlərə daha dərindən nüfuz etmək imkanı əldə edir. Təhsil sahəsində islahatlar təhsil sistemini dəyişdirmək, təhsil müəssisələrini gücləndirmək və təhsil sahəsinə rəhbərlik edən şəxslərin bilik, təcrübə və iradəsini birləşdirmək məsələsini ortaya qoyur [İsaxanlı, 2008: 34].

Ölkəmizin zəngin neft və qaz sektorunun son onilliklər ərzində inkişafı nəticəsində əldə olunmuş əhəmiyyətli iqtisadi göstəricilər bu artımın davamlılığını təmin etmək üçün hərtərəfli islahatların keçirilməsi zərurətini gücləndirmişdir və bunların sırasına ölkənin təhsil sistemini müasirləşdirmək tələbatı da daxildir. Təbii ehtiyatlarla bağlı kəskin yüksəliş fonunda ölkənin qeyri-neft sektorunun inkişafı diversifikasiyası üçün Azərbaycan əhalisinin bilik bazasını və bacarıqlarını guclǝndirmǝyin əhəmiyyəti getdikcə artmaqdadır. Bu vəzifənin həyata keçirilməsi üçün tələb olunanlar - düzgün makro-iqtisadi idarəetmə, istehsal xərclərini azaltmağa və biznes mühitini yaxşılaşdırmağa yönələn struktur islahatlar, insan kapitalının inkişaf etdirilməsi vasitəsilə məhsuldarlığın artırılmasından ibarətdir.

Davamlı inkişafın və rəqabətliliyin təmin edilməsində təhsil sektorunun mühüm rolunu nəzərə alaraq Azərbaycan 1999-cu ildə Təhsil İslahatı Proqramını təsdiq etmişdir. Təhsil islahatı 2003-cu ildə tətbiqinə başlanılmış Azərbaycanda Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf Dovlət Proqramında və sonra 2005-ci ilin sonlarında təsdiq edilmiş Milli Məşğulluq Strategiyasında prioritet kimi muəyyən edilmişdir. Respublikada təhsil islahatı proqramının əsasını təşkil edən yeni milli tədris proqramının icrasına başlanılmışdır. Bu proqramın icrası təhsilin keyfiyyətilə bağlı bütün istiqamət və elementlərin (məsələn, muəllim təliminə yeni yanaşma, şagirdlərin qiymətləndirilməsi qaydalarında və vasitələrində davam etməkdə olan dəyişikliklər və planlaşdırılan yeni dərsliklər, tədris ləvazimatları və s.) bir-birilə uzlaşdırılmasını tələb edir.

Tədris proqramı islahatının həyata kecirilməsi ilə bağlı aşağıdakı problemləri göstərmək olar: 1) tədris olunan fənlərin sayının azaldılması və həddən artıq yuklənmiş məzmun xususiyyətlərinin ixtisara salınması məqsədilə məzmun islahatı və həmçinin yeni fənlər və ya yeni fənn məzmunlarının yaradılması; 2) tədris proqramı hazırlığı işinin məktəbəqədər tədrisdən tutmuş umumi orta təhsilin 12-ci sinfinə qədər genişləndirilməsi məqsədilə struktur islahatları; 3) təkcə fənn bilikləri hazırlığını deyil, həm də coxşaxəli ixtisaslaşma reallığını nəzərə almaq məqsədilə məktəbdaxili qiymətləndirmə strategiyalarından istifadə edilməsini tələb edən dəyərləndirmə islahatı; 4) fənlərarası əlaqə və onların rasional üfüqi və şaquli ardıcıllığının həyata kecirilməsi; 5) şagirdlərin daha yuksək intizam və problem həlletmə qabiliyyətlərinin inkişaf etdirilməsində hərəkətverici quvvə kimi cıxış edəcək şagirdyönümlü təlim yanaşmalarının və tədris strategiyalarının, o cümlədən İKT-nin geniş tətbiqi yolu ilə metodiki islahatların aparılması.

Prezident İ.Əliyevin "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə" 29 noyabr 2011-ci il tarixli Sərəncamında respublikanın gələcək inkişafının məhz innovasiyayönümlü iqtisadiyyat hesabına təmini nəzərdə tutulur. Buradan da təhsil, elm və texnologiyalar sferasında modernləşmə prosesinin genişləndirilməsi qarşıda ciddi vəzifə kimi dayanır. Azərbaycan təhsilinin inkişafı, yeniləşməsi və daha aydın oriyentirlərinin müəyyənləşməsi, onlara çatmaq istiqamətində səylərin gücləndirilməsi ümumilikdə Azərbaycanın inkişafının fundamental əsaslarını təşkil edir. Bu sənədə əsasən, 2020-ci ilədək orta məktəblərin hər bir sinfində 1

noutbukla 1 proyektorun quraşdırılması, hər məktəbliyə 1 netbuk və ya planşet verilməsi, "Elektron məktəb" layihəsində iştirak edən təhsil müəssisələrinin sayının 1000-ə çatdırılması planlaşdırılır.

Qloballaşan dünyada gənclərdən tutmuş yaşlılaradək bütün Azərbaycan əhalisinin bilik və bacarıqlarının inkişaf etdirilməsi üçün təhsil sistemində təcili olaraq böyük dəyişikliklərin edilməsinə ehtiyac var. Hökumət təhsilə, xüsusilə də ali təhsilə, daha çox investisiya yatırmalı, dövlət xərclərinin prioritetlərinə yenidən baxılmalıdır. Eyni zamanda təhsildə keyfiyyətin təminatı üçün müəllimlərin əmək haqlarının yüksəldilməsi də zəruri şərtlərdən biridir. Bu istiqamətdə aparılan iş korrupsiyanın azaldılmasına yönəldilmiş tədbirlərlə əlaqələndirilməlidir. Dövlət xərclərinin təhsilə yönəldilmiş hissəsinin tədricən qeyri-neft ÜDM-nin 1,1%-dək artırılması yeni universitetlərin yaradılması və ali təhsil müəssisələrində mövcud olan yerlərin artırılmasına xidmət edə bilər. Dünya Bankının Hesabatında həmçinin Azərbaycanda təhsil sisteminə xarici universitetləri və ya treninq şirkətlərini cəlb etmək imkanlarını nəzərdən keçirmək də tövsiyyə edilir [Ölkə üzrə İqtisadi Memorandum – Yeni ipək yolu – ixrac hesabına diversifikasiya, 2009: 200].

Qloballaşan, biliyin, informasiyanın qiymətinin getdikcə artdığı dünyada təhsili elmdən, ilk növbədə onun fundamental hissəsindən ayrı təsəvvür etmək mümkün deyil: təhsil sahəsində yeni biliklər təhsilli insanın inkişafını motivləşdirən mühüm amildir. Ölkənin elmi-texniki potensialının əsas göstəricilərindən biri elmi tədqiqatlara çəkilən xərclər və ÜDM-də onun payıdır. Dünya təcrübəsinə əsasən, elmi xərclərin ÜDM-də payı 3%-dən az olmamalıdır. Azərbaycanda isə bu göstərici getdikcə azalaraq 2010-cu ildə 0,2% təşkil etmişdir. Müqayisə üçün göstərə bilərik ki, məsələn, Böyük Britaniya və Fransada bu xərclər 2 faizdən çox, ABŞ və Almaniyada isə 3 faiz təşkil edir [Эйвазов, 2012]. Bu ölkələrin təkcə dövlət büdcələrinin həcmini nəzərə alsaq, biz elmi məqsədlər üçün ayrılan böyük bir rəqəm almış olarıq. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda ali təhsil müəssisələrinin təhsil–tədqiqat–innovasiya mərkəzlərinə çevrilməsinə dəstək verən və rəqabətqabiliyyətli mütəxəssis hazırlığını təmin edən ali təhsil standartlarının tətbiqi ilə əlaqədar aşağıdakı vəzifələr irəli sürülür:

- cəmiyyətin və iqtisadiyyatın tələbatlarına uyğun olaraq hər bir ixtisas üzrə müasir standartların hazırlanması;
- ali təhsil müəssisələrinə təhsilin məzmununun tətbiqi müstəqilliyinin verilməsi;
- ali təhsilin səviyyələri arasında əlaqələrin və varisliyin gücləndirilməsi;
- təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən yüksək nüfuzlu təhsilverənin formalaşdırılması;
- təhsilverənlər üçün təhsilin bütün pillələrində təhsilalanların təfəkkürü və şəxsiyyətinin inkişafına yönəlmiş, onların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodologiyasının və müvafiq resursların hazırlanmasının təmin edilməsi və s. [Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası].

Ölkənin 2005-ci ildə Boloniya təhsil sisteminə qoşulması ali məktəblərin inkişafında önəmli addımlardan sayıla bilər. Əslində Boloniya prosesi Avropanın təhsil şəbəkəsi kimi xarakterizə edilə bilər: 1999-2005-ci illər ərzində Boloniya prosesinə qoşulan Avropa Birliyi təhsil və elm nazirləri əhalinin bütün təbəqələrinin ali təhsil almasına imkan yaratmağı öhdələrinə götürmüşlər. Bunun məntiqi davamı olan Avropa Vahid Təhsil Məkanının yaradılması bu ölkələrdəki təhsil sisteminin müxtəlifliyinin aradan qaldırılması məqsədini güdür. Boloniya prosesinin əsas öhdəlikləri sırasına - Avropanın təhsil standartlarına müvafiq olaraq, ali təhsil sahəsində təxirəsalınmaz islahatların aparılması, informasiya və təcrübə mübadiləsi, kredit sisteminin tətbiqi, diplomların tanınması, məzunlarının işlə təmin olunması daxildir. Diplomların qarşılıqlı olaraq Avropa məkanında tanınması isə məzunların işlə təminatı üçün əlavə imkanlar yaradır. Boloniya prosesinin əsaslarından biri kredit sistemi və biliyin çoxballı sistemlə qiymətləndirilməsidir. İlk dəfə olaraq

Azərbaycanda bu sistem Xəzər və Qafqaz özəl universitetləri tərəfindən həyata keçirilməyə başlamışdır. Yalnız 2006-cı ildən başlayaraq eksperimental qaydada Boloniya sistemi respublikanın 10 təhsil müəssisəsində bir sıra ixtisaslar üzrə tətbiq olunmağa başlamışdır. Boloniya sisteminə keçid ölkəmizdə 2010-cu ildə tamamlanmışdır və bu gün bütün ali məktəblər onun əsasında fəaliyyət göstərir. Boloniya prosesi təhsildə inteqrasiyanı sürətləndirməklə yanaşı ali məktəb diplomlarının Avropa məkanında tanınması və qəbul edilməsi baxımından da önəmlidir. Kredit sisteminin əsas məqsədi əslində müvəffəqiyyəti mükafatlandırmaq və qeyri-müvəffəq olma ehtimallarını minimuma endirməkdir. Respublika Təhsil Şurasının sədri Əjdər Ağayevin fikrincə, Boloniya sistemi “zəif tələbəyə də öz potensialından axıra qədər istifadə etmək üçün şərait yaradır. Tələbənin hər hansı subyektiv münasibətin, şəxsi-qərəzlik kimi amillərin qurbanı olması hallarının qarşısını alır. Hətta bir fəndən qeyri-müvəffəq qiymət almış tələbə uğurla başa vurduğu digər fənlər sayəsində kursda qalmaq, ali məktəbdən xaric olunmaq kimi sərt cəza tədbirləri ilə üzləşmir. Sadəcə o, akademik borcu olan fəndən kəsilmiş sayılır və əldə etdiyi digər nailiyyətləri öz qüvvəsində qalır” [İsazadə].

Boloniya sisteminin tətbiqi ali məktəblərə və tələbələrə universitetlərarası və ölkələrarası tələbə mübadiləsi aparmaq imkanı verir, təhsildə demokratik prinsiplərin bərqərar olmasına, fənlərin sayının, müəllim və tələbənin nəzəri dərs yükünün həcminin azaldılmasına gətirib çıxarır, diplomların tanınmasını zəruri edir.

Boloniya təhsil sisteminin ali məktəb məzunları üçün əhəmiyyəti ondan ibarətdir ki, bu prosesə qoşulan ölkələrin universitetləri məzunların məşğulluğuna, onların ixtisas üzrə işlə təmin olunmasına məsuliyyət daşıyır. Belə ki, ali təhsil müəssisələri məzunların iş tapa bilmələri üçün onlarla əməkdaşlıq etməli, işəgötürənlə bərabər onların işlə təminatına yardım etməli və deməli, kadr hazırlığını işəgötürən təşkilatların sifarişləri və tələbləri əsasında qurmalıdır.

Ali təhsilli gənclərin işlə təmin olunması dünyanın əksər ölkələrində mühüm əhəmiyyət kəsb edir. Azərbaycan üçün də ali təhsilli məzunların işlə təminatı aktual məsələlərdəndir. 1992-ci ildə planlı sovet təhsil sistemindən imtina olunduqdan sonra azad təyinata üstünlük verilməsi mövcud vəziyyəti daha da kəskinləşdirmişdir. Azərbaycan reallığında işə qəbul zamanı bu gün də böyük rol oynayan tanışlıq, pula hərislik, yerlipərəstlik, nepotizm və başqa hallar məzunlara layiq olduqları işə düzəlməyə ciddi problemlər yaradır. Belə halların aradan qaldırılması üçün dövlət müxtəlif tədbirlər həyata keçirir. Ali təhsilli gənclərin işlə təmini sahəsində dövlət qulluğuna test imtahanlarının keçirilməsi, müsabiqələr yolu ilə işə götürmə üsulları və s. buna misal ola bilər. Lakin bu, heç də tam mənada çıxış yolu demək deyildir: gənclərin əksəriyyəti bir sıra səbəblər üzündən bu prosesdən ya kənarda qalır, ya da müvəffəqiyyət qazana bilmir. Həmçinin bəziləri yüksək maaş verilən yerli və xarici şirkətlərdə işləmək üçün müraciət etsələr də, onlar tərəfindən göstərilən müxtəlif bəhanələr səbəbindən işə qəbul oluna bilmirlər.

Problemlərdən biri də gənclərin işə qəbulu zamanı hazırlıq səviyyəsinin aşağı olmasını bəhanə gətirərək onların işə qəbul edilməməsidir. Bunun aradan qaldırılması üzərində iş aparılır. Məsələn, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, millət vəkili Səttar Mehbalıyev qeyd edir ki, AHİK tərəfindən “gənclərin təhsil vaxtı aidiyyəti müəssisələrdə təcrübə qazanması təmin olunur və bu da gənclərin təhsilini başa vurduqdan sonra həmin yerlərdə işlə təminatına şərait yaradır” [Gənclərin təhsildən sonra işlə təminatında problemlər var].

Azərbaycanda əsasən ali məktəblərin kimya, neft, aviasiya, bank sahələri üzrə ixtisas verən fakültələrinin tələbələri yuxarı kurslarda maraqlı şirkətlər tərəfindən təcrübə qazanılması üçün dəvət edilir, kadr kimi hazırlanır və daha sonra işlə təmin olunurlar. Məsələn, BP şirkətinin Qafqaz Universitetindəki laboratoriyasında təcrübə keçən tələbələr praktiki biliyə yiyələnir və gələcəkdə müəyyən sahələr üzrə mütəxəssis kimi çalışırlar. Eyni zamanda sosial və humanitar sahələr üzrə təhsil alan gənclər bəzi çətinliklərlə üzləşirlər. Bu da iqtisadi proseslərlə bağlı olan bir məsələdir və onun dövlətin konseptual strateji proqramı vasitəsilə öz həllini tapa bilməsi vəziyyətdən düzgün

çıxış olardı. Bu işdə QHT-lər də müəyyən rol oynaya bilər. Məsələn, Azərbaycan Demokratik Tələbə Gənclər Təşkilatının rəhbəri Asif Əsgərlinin başçılıq etdiyi QHT bir sıra gənclər arasında mütəmadi olaraq maarifləndirmə işləri aparır, onlara karyera qurmağa, peşə seçimi etməyə, işgüzar münasibətlər yaratmağa, kollektiv ünsiyyət və sair kimi xüsusiyyətlərə yiyələnməyə kömək edir. Nəticədə hər hansı bir özəl şirkətə işləməyə gedən gənc artıq bu səbəbdən problem yaşamır. Onun fikrincə, eyni zamanda şirkətlərin özləri onlara hansı sahələr üzrə mütəxəssis lazımdırsa, bu barədə ya ali məktəblərə, ya da cavabdeh qurumlara müraciət etməkdə maraqlı olmalıdırlar. Əksinə, təhsil ocaqları da tanınmış şirkətlərlə əlaqə yaradılmasına səy göstərməlidir. Bu, həm təcrübə baxımından, həm də gələcəkdə gənclərin işlə təmin olunmasında mühüm stimula çevrilə bilər. Nəzəri biliyə yiyələnən gəncin hansısa firmada praktiki təcrübə keçməsi onun peşəkar kadr kimi yetişməsinə yardım etmiş olar [Gənclərin təhsildən sonra işlə təminatında problemlər var].

Deməli, mövcud problemin aradan qaldırılması üçün bir tərəfdən təhsil müəssisələri və şirkətlər, digər tərəfdən isə işəgötürənlər arasında qarşılıqlı əlaqələr olmalıdır.

Ali təhsil sistemini işçi qüvvəsinə tələbatın olduğu sahələrə yönəltməklə Azərbaycan həm məzunların iş perspektivlərinin genişləndirilməsinə, həm də qeyri-neft sektorunda məhsuldarlığın artırılmasına nail ola bilər. Bu, əmək bazarının mövcud və gələcək ehtiyaclarının təfərrüatlı öyrənil-məsindən sonra tədris proqramında əsaslı dəyişikliklər edilməsini zəruri edir. Azərbaycan həmçinin perspektivdə tələbələrin xarici universitetlərdə təhsili və özəl treninq şirkətlərini cəlb etmək imkanlarını nəzərdən keçirməlidir.

Azərbaycanın beynəlxalq əmək bölgüsünə inteqrasiyası, dünya ölkələri arasında əməkdaşlıq meyillərinin güclənməsi, iqtisadiyyatın dinamik inkişafı, yeni istehsal sahələrinin meydana gəlməsi əmək bazarında yüksək təhsil səviyyəsinə malik işçi qüvvəsinə olan tələbatı artırır ki, bu da öz növbəsində yüksək tələblərə cavab verən çevik təhsil siyasətinin həyata keçirilməsini zəruri edir. Azərbaycan Respublikasinin 2006-2015-ci illər üçün Məşğulluq Strategiyasında təhsil sistemi ilə məşğulluğun əlaqəli inkişafı sahəsində aşağıdakıların həyata keçirilməsi nəzərdə tutulur:

- əmək bazarında yaranmış vəziyyətin təhlili və dəqiq proqnozlaşdırma aparmaqla müxtəlif ixtisaslı kadrlara olan tələbatın müəyyənləşdirilməsi;
- əmək bazarında yüksək ixtisaslı kadrların hazırlanması məqsədilə peşə təhsili sisteminin təkmilləşdirilməsi;
- iş yerində təhsilin davam etdirilməsi, fasiləsiz peşə təhsili sisteminin daha da təkmilləşdirilməsi, mütərəqqi təhsil formalarının (məsafədən təhsil, modul tədris) tətbiqi;
- təhsil sahəsində həyata keçirilən institusional dəyişikliklərin işəgötürənlərin işçi qüvvəsinin bacarıq və vərdişlərinə olan tələbatına uyğunlaşdırılması;
- texniki peşə təhsili üçün müasir tələblərə cavab verən təhsil proqramlarının hazırlanması və ixtisas təsnifatının yeniləşdirilməsi və s. [Azərbaycan Respublikasının Məşğulluq Strategiyası, 2006-2015-ci illər].

Əmək bazarı üçün təhsil və treninqin onun ehtiyacları ilə əlaqələndirilməsi mühüm şərtdir. Eyni zamanda məşğulluq imkanlarının artırılması məzunların ixtisaslaşdırılması ilə iqtisadiyyatın strukturu arasında mövcud olan uyğunsuzluq sahəsinə müdaxilə deməkdir. Bu isə özəl sektor ilə əməkdaşlığa, əmək bazarında mövcud olan və gələcək ehtiyaclara əsasən əmək və təhsil nazirlikləri arasında əməkdaşlığın artmasına, tələbələrə karyeraya dair məsləhətlər vasitəsilə işəgötürən sahə və təklif olunan maaşlar barədə daha ətraflı məlumatın ötürülməsinə gətirib çıxarır [Ölkə üzrə İqtisadi Memorandum – Yeni ipək yolu – ixrac hesabına diversifikasiya, 2009: 201].

Beləliklə, iqtisadi inkişafı təmin etmək üçün Azərbaycanın öz insan kapitalının bilik bazasını və bacarıqlarını gucləndirməsinə ehtiyacı vardır. İnsan kapitalının inkişaf etdirilməsi yolu ilə məhsuldarlığın yüksəldilməsinə diqqətin artırılması ölkənin uzunmüddətli rəqabətlilik strategiyasının xüsusilə mühüm olan bir tərəfidir. Azərbaycan üçün əsas diqqət yetiriləsi məsələ ümumi ibtidai və orta təhsilin gücləndirilməsi məsələsi olsa da, bu kimi səylərin peşə və ali təhsil

sahələrində həyata keçiriləcək mühüm tədbirlərlə və ümumiyyətlə, ömürboyu təlim imkanları ilə tamamlanması da tələb olunur. Bütün bunlar digər məsələlərlə yanaşı yaxın gələcəkdə təlim nəticələrinin yüksəldilməsinə töhfə verəcək fəaliyyət planlarının, institusional imkanların və icra mexanizmlərinin yaradılmasına və möhkəmləndirilməsinə köməklik edəcəkdir. Bunların təshih edilmiş kurrikulum, yeni tədris üsulları və təlim vasitələri, təlimin qiymətləndirilməsi sistemi yaratmaqla, habelə idarəetmə, icra və rəhbərlik imkanlarını möhkəmləndirmək vasitəsilə həyata keçirilməsi tələb olunur.

Beləliklə, bu gün Azərbaycanda gənclərin öz peşə müqəddaratını müəyyənləşdirməsi təhsil islahatlarının müvəffəqiyyətli aparmasından və təhsil institutu ilə əmək bazarı arasında sıx və səmərəli əlaqələrin yaradılmasından birbaşa asılıdır.

**Ədəbiyyat:**

*İsaxanlı, H.* (2008). Müasir dünyada ali təhsil sistemində nələr baş verir və “2008-2012-ci illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı” necə olsa yaxşıdır? Xəzər Universiteti Nəşriyyatı.

*Ölkə üzrə İqtisadi Memorandum – Yeni ipək yolu – ixrac hesabına diversifikasiya*. (2009). / Yoxsulluğun Azaldılması və İqtisadi İdarəetmə Bölməsi. Avropa və Mərkəzi Asiya regionu Dünya Bankının sənədi. Hesabat № 44365-AZ Azərbaycan. 23 dekabr, 2009-cu il. file:///C:/Users/USER/Desktop/Azerbaijan CEM FINAL AZE. pdf

*Эйвазов, Э.* (2012). Проблемы развития системы образования в Азербайджане. www.teoriapractica.ru/-3-2012/.../eyvazov.pdf

Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. http://www.president.az/articles/9779

*İsazadə, Eltac.* Təhsilimizin Boloniya yolu – ARAŞDIRMA 6 il əvvəl Avropa Təhsil Sisteminə qoşulmuş Azərbaycanda hələ ki, Avropa standartları cəmi bir neçə universitetdə keçərlidir. http://news.lent.az/news/71792

*Gənclərin təhsildən sonra işlə təminatında problemlər var.* http://ulfet-az.com/print/reality/6261?ref=Guzels.TV

*Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər).* / Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 oktyabr tarixli 1068 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. www.rsr.az/ huquqi_ senedler/ meshgulluq%20strategiyasi_2006-2015.doc

# QLOBALLAŞAN DÜNYADA MİLLİ TƏHLÜKƏSİZLİK VƏ MİLLİ MARAQLAR PROBLEMİ

**Tutu EYVAZOVA**
Bakı Dövlət Universiteti,
Sosiologiya kafedrasının müəllimi,
sosiologiya üzrə fəlsəfə doktoru,
*Azərbaycan, BAKI*
tutu.eyvazova@mail.ru

**XÜLASƏ**

Qloballaşma prosesində dövlət modelinin modernləşdirilməsi, onun suverenliyinə dair təkliflər, qloballaşmanı stimullaşdıran dövlət və transmilli korporasiyalar arasında rəqabətin yaranması, milli dövlətlərin formalaşması və qloballaşma şəraitinin bu dövlətlərə təsiri əsas amillərdəndir. dövlətlərin milli təhlükəsizlik siyasətində mühüm rol oynayır. Qloballaşan idarəetmə sistemlərinin yaradılmasında, transmilli təşkilatların fəaliyyətində (kapitalın cəmləşməsində), eyni zamanda, qloballaşmaya paralel baş verən regionallaşma prosesində dövlətin rolunun müəyyən edilməsi və s. əsas məsələlərdəndir. Burada sual altında qalan milli dövlətlərin siyasətidir.

**Açar sözlər:** qloballaşan dünya, milli təhlükəsizlik, milli maraqlar.

# THE PROBLEM OF NATIONAL SECURITY AND NATIONAL INTERESTS IN THE GLOBALIZED WORLD

**Tutu EYVAZOVA**
Baku State University,
Lecturer at the Department of Sociology,
Doctor of Philosophy in Sociology (PhD),
*Azerbaijan, BAKU*
tutu.eyvazova@mail.ru

**SUMMARY**

Proposals regarding the modernization of the state model, threats to its sovereignty in the process of globalization, the emergence of competition between states and transnational corporations that stimulate globalization, the formation of nation states and the impact of globalization conditions on these states are the main factors that play a role in the state's national security policy. Determining the role of the state in the creation of globalized management systems, in the activities of transnational organizations (in the concentration of capital), at the same time, in the process of regionalization that occurs parallel to globalization, etc. are the main issues affecting the national policy of the state.

**Key words:** globalized world, national security, national interests.

## GİRİŞ

Müasir şəraitdə dünya inkişafının dinamizmi, eyni zamanda gərginlikləri və qeyri-müəyyənlikləri artır, konkret cəmiyyətlərin real vəziyyətlərində ciddi dəyişikliklər baş verir. Bu, bütövlükdə dünyada, habelə ayrı-ayrı cəmiyyətlərdə təhlükəsizlik problemini, o cümlədən sosial təhlükəsizlik problemini son dərəcədə aktuallaşdırır. Çünki təhlükəsizliklə bağlı məsələlər insanların həyat fəaliyyətinin bazis və motivasiya xarakterli ən mühüm tələbatlarından biridir.

Çoxsaylı faktlar, hadisə və proseslər inandırıcı surətdə sübut edir ki, cəmiyyətin fəaliyyətinin ən müxtəlif səviyyələrində təhlükəsizlik probleminin yetərincə qiymətləndirilməməsi və ya ona qarşı olan laqeydlik nəinki çox ciddi itkilərə yol açır, həm də nəticə etibarilə labüd surətdə müvafiq səviyyələri təmsil edən subyektlərin həyat və fəaliyyət qabiliyyətinin aşağı düşməsinə, bəzən də məhvinə səbəb olur. Təhlükəsizlik ilk növbədə cəmiyyətdə sabitliyin maksimum qorunub saxlanılmasına, zəruri sosial nizamın təmin edilməsinə istiqamətlənmişdir. Bu baxımdan qeyd etməliyik ki, sosial təhlükəsizlik özündə adətən dövlətdə mövcud olan sosial sistemin müdafiəsinə və inkişafına, onun təkmilləşməsinə istiqamətlənmiş ayrı-ayrı tədbirləri və vacib olan texnologiyalar kompleksini özündə ehtiva edir.

Nəzərə almaq lazımdır ki, 20-ci əsrin sonlarına yaxın Sovetlər birliyinin süqutu ərəfəsində Azərbaycan cəmiyyəti sistemli transformasiya vəziyyətində fəaliyyət göstərməli olmuşdur. Təbii ki, belə şəraitdə təhlükəsizliyin təmin edilməsi məsələsi xüsusilə aktuallaşır və dərin elmi araşdırmalar aparılmasını zərurətə çevirir. Bir tərəfdən, öz himayədarlarının köməyi ilə Azərbaycan ərazisinin 20 faizini işğal etmiş erməni millətçilərinin fəaliyyəti nəticəsində 1 milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkünə çevrilməsi, digər tərəfdən isə 90-cı illərdə hakimiyyət uğrunda gedən mübarizə və hakimiyyətdə olanların siyasi səriştəsizliyi və məsuliyyətsizliyi Azərbaycanın müstəqil dövlət kimi yaşamasını sual altına alırdı. 1993-cü ilin iyununda xalqın tələbi və siyasi hakimiyyətin xahişi ilə ümummilli lider H.Ə.Əliyevin hakimiyyətə qayıdışı mövcud acınacaqlı siyasi vəziyyəti əsaslı surətdə dəyişdi və Azərbaycan cəmiyyətinin ciddi islahatlar keçirməklə, ölkədə sabitliyi, təhlükəsizliyi təmin etməklə davamlı inkişaf yolu tutmasını və uğurlu nəticələr əldə etməsini şərtləndirdi. Bu inkişafın təkamül yolunu izləmək, Azərbaycan cəmiyyətinin vacib sosial təhlükəsizliyini təhlil etmək, əldə olunmuş nəticələrin bütün istiqamətlərdə təhlükəsiz fəaliyyət üçün əhəmiyyətini aşkara çıxarmaq olduqca vacibdir. Belə təhlil əslində ötən əsrdə artıq ikinci dəfə müstəqilliyini əldə edən Azərbaycanın keçdiyi təkamül yolunu sosial təhlükəsizlik baxımından dəyərləndirməyə imkan verir.

Ümummilli lider H.Ə.Əliyev öz çıxış və müraciətlərində təhlükəsizliklə bağlı qiymətli fikirlər irəli sürmüşdür [Əliyev, 2018]. Belə ki, "Müstəqilliyimiz əbədidir" kitabının II cildində təhlükəsizliyin təmini məsələsində diqqət edilməli nüansları aşağıdakı kimi vurğulayır: "1)*Azərbaycançılıq ideyasına söykənərək milli birlik və vətəndaş həmrəyliyi ilə həmahəng demokratik və dinamik məmləkət qurmaq;* 2) *ölkənin təhlükəsizliyi ilə sıx bağlı olaraq vətənə əvəzsiz xidmət etmək;* 3) *diplomatiya bacarığı, siyasi iradə, ölkənin və millətin marağı naminə kompromisə hazır olmaq bacarığı*" [Əliyev, 2018].

A.A.Rəhimov və R.M.Həsənov müəllifləri olduqları "Transformasiya prosesləri və Azərbaycanda milli təhlükəsizlik problemi" kitabında ölkəmizdə *vətəndaş cəmiyyətinin formalaşması xüsusiyyətlərini* araşdırmış, *sosioloji sorğu metodlarına* ciddi diqqət yetirmişlər. Həmçinin, iqtisadi, siyasi, ekoloji təhlükəsizliyi təhlil etmiş, gənclərin, ailənin sosial təhlükəsizlik problemlərinə dair maraqlı mülahizələr irəli sürmüşlər [Рагимов & Гасанов, 2003].

A.Piriyevin "Siyasi strategiya və milli təhlükəsizlik problemi" monoqrafiyasında "*milli mənafe təhlükəsizliyi, beynəlxalq terrorizm təhlükəsizliyi, iqtisadi, mənəvi, dini, informasiya, demoqrafiq təhlükəsizlik problemi*" anlayışları milli təhlükəsizlik kontekstində tədqiq edilir [Priyev, 2002].

Təhlükəsizlik çox aspektli sosial proses olduğuna görə onun müxtəlif tərəfləri, müsbət meylləri, təzadları, aid olduğu sahələr bir çox müəlliflər tərəfindən tədqiq edilmişdir. Həmin müəllifləri araşdırmalarını şərti olaraq üç məkana – Qərb, post-sovet və Azərbaycan – bölərək onların əsərlərini səciyyələndirək.

Belə ki, bir sıra ABŞ tədqiqatçıları milli təhlükəsizlik məsələsinə diqqət yetirərək onu milli mənafeyə yaxın anlayış kimi götürür. Məsələn, amerikalı teoloq R. Nibur və tarixçi Ç. Birdə görə "*milli mənafe milli təhlükəsizliyin və dövlət siyasətinin nüvəsidir*" [Məcidbəyli, 2013:19].

C.Kennan, U.Linbon, K.Volte, E.Feriss və başqaları da "*milli mənafeyin siyasətin və milli təhlükəsizliyin*" əsasını təşkil etməsi konsepsiyasına tərəfdar çıxırlar. E. Kellner isə özünün "Millət və millətçilik" əsərində millətçiliyi etnosun siyasi birliyinin yaranmasında, milli təhlükəsizliyin təmin olunmasında başlıca amil hesab edir [Киссинджер, 1997: 22].

ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri olmuş, məşhur politoloq Z.Bjezinski milli təhlükəsizliyin əsasını "*diplomatiya və azadlıqların*" təmin olunmasında görür, çünki totalitar tipli siyasi rejim millətləri qorxu altında saxlayaraq azad fikri, pluralizmi qadağan edir [Həsənov, 2011:25]. ABŞ-in digər siyasi xadimi olmuş H.Kissincer isə milli təhlükəsizliyin əsasında *millətin həyat tələbatının* ödənilməsinin durduğunu iddia edir [Киссинджер, 1997:37-42].

Rusiyalı D.İ. Akimov milli təhlükəsizliyin əsasında sosial təhlükəsizliyin dayandığını, sosial təhlükəsizliyin isə sosial marketinq və sosial təminatla bilavasitə bağlı olduğunu vurğulayır [Акимов, 2010:291]. A.V. Makkeyev "Siyasət və təhlükəsizlik" monoqrafiyasında "*siyasət və təhlükəsizliyin genetik əlaqəyə malik olduğunu, siyasətin cəmiyyətin, eləcə də hər bir şəxsin təhlükəsizliyini təmin etdiyini qeyd edir*" [Макеев, 1998: 26]. D.M. Proektor isə "Siyasət və təhlükəsizlik" kitabında hər bir "*dövlətin strateji kursunun beynəlxalq təhlükəsizliyin yaradılmasından ibarət olması*" fikrini vurğulayır. O, "*təhlükəsizliyin siyasi strategiyanın başlıca elementi*" olduğunu bildirir, müasir dövrdə qlobal təhlükəsizliyin əsas motivinin nüvə silahlarının sınaqlarının qarşısının alınmasından ibarət olduğunu göstərir [Проектор, 1988: 94].

O.N.Bıkov "Beynəlxalq Təhlükəsizlik: keçmiş, bu gün, gələcək" adlı kitabında beynəlxalq təhlükəsizliyi vahid bir sistem kimi nəzərdən keçirir və onun mənşəyini, inkişafını və perspektivlərini təhlil edir. Onun fikrincə "*milli mənafe beynəlxalq ictimai maraqlardan üstdə dayanır, milli maraqların hüdudlarından kənarda isə beynəlxalq təhlükəsizliyin parametrləri və prioritetləri nəzərə alınır*". Müəllif "*beynəlxalq təhlükəsizliyin mövcud ziddiyyətlərin əksinə olaraq dinc gələcəyə zəmanət verdiyini*" qeyd edir [Быков, 134].

## ƏSAS HİSSƏ

Dövlətin milli təhlükəsizliyi milli maraqların qorunmasından ibarətdir və təşkilatlanmış formada reallaşdırılır. Dövlətin milli maraqlarının mahiyyətini izah edərkən, nəzərə almaq lazımdır ki, bu anlayış beynəlxalq siyasətdə XVI əsrdən işlənməyə başlamış, milli dövlətlərin meydana gəlməsi ilə siyasi strateji məqsədə çevrilmişdir. İstənilən dövrdə və istənilən vəziyyətdə dövlətin milli maraqlarının qorunması məsələsi kifayət qədər aktual olur. Çünki milli maraqlar dövlətin suverenliyi, ərazi bütövlüyü, müstəqilliyi, vətəndaşların təhlükəsizliyi və s. kimi məqamlarla birbaşa bağlıdır. Hazırda milli maraqların qorunmasını tələb edən yeni-yeni sahələr meydana gəlməkdədir. Məsələn, qloballaşmanın əsas istiqamətlərindən biri kimi qəbul olunan qlobal informasıya məkanın formalaşması bu məkanda dövlətin milli maraqlarının qorunması zərurətini meydana gətirmişdir. Buradan isə belə nəticə hasil etmək olar ki, milli maraqlar və milli təhlükəsizlik problemləri bir-birini tamamlayır, birinin təmin olunması elə digərinin təmin olunması kimi qəbul olunur. Lakin milli maraqların milli təhlükəsizlikdən fərqli məqamları da kifayət qədər çoxdur. Əsas məqam milli maraqların millətin özünü dərk etməsi prosesi olmasıdır ki, onun təməlində idrak, milli təfəkkür dayanır. Qeyd edək ki, milli maraqlar "*milli idealla*" müəyyənləşir ki, bu milli ideallar da öz növbəsində cəmiyyətdəki əsas norma və dəyərləri özündə ehtiva etməlidir. Millətin, xalqın, eləcə də dövlətçiliyin ən vacib "*idealını*", ilk növbədə, özünü yaşatma, qoruma, yeniləşmə və müasirləşmə fonunda davamlı inkişaf tendensiyaları təmsil edir.

Milli maraqlar hüdudlarında milli vəzifələrin vacibliyi onun dərəcəsinə görə sıralanır. Çox vaxt rast gəldiyimiz "*həyati əhəmiyyətli maraqlar*" ifadəsi ilə əvəzlənir. Xüsusi vurğulamaq lazımdır ki, bu məfhum əsasən normativ-hüquqi sənədlərdə xüsusi çəkiyə malikdir. Məsələn, Azərbaycanın "Milli Təhlükəsizlik Konsepsiyası"nda, Gürcüstanın "Milli təhlükəsizlik haqqında Konsepsiyası"nda, Rusiyanın "Federal təhlükəsizlik haqqında" qanununda, və s. sənədlərdə "*həyati*

*əhəmiyyətli maraqlar*" ifadəsi işlənmişdir. Həmin sənədlərdə xalqın, millətin təhlükəsizliyi, özünü yaşatma, yeniləşdirmə kimi bir sıra məsələlər nəzərdə tutulur.

Qeyd edək ki, praqmatizm və siyasi realizm məktəbinin tanınmış lideri hesab edilən amerikalı alim Hans Morgentauya görə beynəlxalq siyasətdə hər millət öz mənafeyini qoruyur [Piriyev, 2002: 27]. Onun fikrincə ölkənin milli maraqları *əsas, keçici - aralıq, həyati, vacib və əyalət maraqlarına* bölünür. Bu təsnifatın diqqət çəkən bəzi cəhətlərini qeyd etmək olar.

Sonrakı təsirinə baxmayaraq, Karl Marks öz əsərini on doqquzuncu əsr kapitalizminə etik və ya ideoloji cavab kimi görmədi (sonrakı şərhçilər kimi). Marks bəşəriyyətin tərəqqisi naminə neytral sosioloji və iqtisadi nəzəriyyə qurduğuna inanırdı. Marksın anlayışına görə din, həqiqəti gizlədən və onun ardıcıllarını çaşdıran əsas maneədir. Marks sosial yadlaşmanı sosial bərabərsizliyin ürəyi kimi görürdü. Bunu təmin edən amillərdən biri də dindir. Bu yadlaşmanın əksi

azadlıqdır. Beləliklə, azadlığın yayılması həqiqəti fərdlərə təqdim etmək və onlara onu qəbul etmək və ya rədd etmək seçimi vermək deməkdir.

Oksford Universitetindən Bryan Wilson və London İqtisadiyyat Məktəbindən David Martin İngiltərədə sekulyarizm araşdırmalarına rəhbərlik ediblər. Şimali Avropada dinin institusional tənəzzülünə diqqət çəkən Wilson (1966) Xristian Kilsələrinin Amerikada öz inanc və əməllərini kommersiya mədəniyyətinin məntiqinə tabe edərək, dini məzmunu teoloji məzmunu bahasına güzəştə gedərək sağ qaldıqlarını müdafiə edirdi. O, həmçinin xristian məzhəblərinin ilhamlı dinlərinin zaman keçdikcə məzhəblərin ənənəvi dininə çevrilməsi fikrini də müzakirə edib. Bu prosesin bəlkə də ən klassik nümunəsinə Metodizm tarixində rast gəlmək olar. Con Uesli (1703-1791) öz təbliğat dairələrini inkişaf etdirdiyi və öz müstəqil kilsəsini/kilsəsini qurduğu üçün o, şəhər yoxsullarına və meyllilərə qəti şəkildə qarşı çıxan dini hərəkat yaratdı. Wesley-nin çöl təbliğatı Anqlikanizmin yığıncaq quruluşuna və yerli kahinliyin iyerarxik hakimiyyətinə qarşı bir problem idi. Eyni zamanda, Çarlz Ueslinin ilahiləri Anqlikan ayinləri əvəzinə rəsmi ibadətə məşhur alternativlər idi [Joachim Wach, 1987: 46].

Dünyəviləşmə tezisinə dinin əhəmiyyəti və ümumi skeptisizm mühüm nəzəri inkişafları da gətirdi. Dini dirçəlişin izahında dünyəviləşmə tezisinin yeganə əhəmiyyətli rəqibi dinin iqtisadi və ya bazar modelidir. Bu modelin açıq şəkildə təqdirəlayiq tərəfləri var. Əvvəla, bu, məhdudiyyətləri olan bir tezisdir və ümumi bir nəzəriyyə olmaq üçün çox açıq bir ambisiyaya malikdir. O, Çin cəmiyyətində məhdudlaşdırıcı şərtlərin aradan qaldırılması kimi bəzi hadisələri təsirli şəkildə izah edir. Bununla belə, dinə olan tələbatın zaman və məkanda sabit qaldığını təsdiqləyən çoxlu dəlillər olduğunu söyləmək çətindir. Bu səbəbdən də bir çoxları din satışı ilə qarğıdalı ləpəsi satışının eyni xüsusiyyətlərə malik olması ehtimalına etiraz edib. Bu model, əgər hər hansı etibarlılığa malikdirsə, digər "bazarlara" nisbətən əhəmiyyətli rəqabətin olduğu Amerika cəmiyyətinin kontekstinə daha uyğun görünür. Bu cəmiyyətdə, məsələn, dini turizm vasitəsilə dinin qlobal əmtəələşməsinə və bununla bağlı araşdırmalara da ciddi maraq var.

Dini tədqiq edərkən onun yaradıcısı nəzərə alınmalıdır. Çünki sosial mühit dinin banisinin təfəkkürünün formalaşmasında çox təsirlidir. Bu səbəbdən də islahatçı bu əsərlərdə mövcud ənənələrin təsirindən kənarda qala bilməz. Zərdüştilik buna ən gözəl nümunədir. Sosial mühit kimi təbii mühit də dinə çoxşaxəli təsir göstərir. Məsələn, bir çox semit dinləri ay tanrısına əhəmiyyət verirdilər. Çünki köçərilər günəşin istisindən uzaq olmaq üçün gecənin sərinliyinə üstünlük verirlər. Sosial və təbii mühitdə olduğu kimi, mədəniyyət və sivilizasiyanın tərəqqisi dində də özünü hiss etdirir. Əkinçiliklə məşğul olan cəmiyyətlərin şəhər həyatına keçidi ilə əvvəlki dini bayramlar, bayramlar öz əhəmiyyətini itirir və müxtəlif simvollarla yeni formalar almağa başlayır.

Savadlılığın artması ilə dinlərin yayılmasında da sürətlənmə müşahidə olunur. Digər tərəfdən, əvvəlki dinlərin qalıqlarına hətta universal dinlərdə də rast gəlmək olar. Bu qalıqlar zamanla ümumbəşəri dinlərin formalaşmasında mühüm rol oynamışdır [Mehmet Taplamacıoğlu, 1983: 93-96]. İbtidai icmalar arasında zaman-zaman baş verən tayfa münaqişələri dinlərə də çox təsir etmişdi. Müharibələrdə üstün olan tərəf qarşı tərəfin dini birliyinə son qoydu, hətta məğlub olan tərəf də qalib tərəfin dinini qəbul etməyə məcbur oldu. Belə bir hadisədən sonra mövcud din özlüyündə dəfələrlə dəyişikliyə uğramışdır.

Cəmiyyətin dinə təsiri ilə bağlı sadə dinlərlə yüksək dinlər arasında fərq olduğunu görmək lazımdır. Materialist din sosiologiyasının ən böyük səhvi cəmiyyətin dinə təsirlərində belə bir fərq görməməsi və qəbul etməməsidir. Xalq dinlərinin çox vaxt iqtisadi və sosial amillərin təsiri altında olması faktdır. Əkinçiliklə məşğul olan tayfalarda məhsuldarlıq və məhsuldarlıq tanrılarına rast gəlindiyi halda, döyüşçü cəmiyyətlərdə müharibə və qələbə tanrıçalarına çox rast gəlinir. Həmin cəmiyyətlərin dini bayram və mərasimlərində də bu effekti görmək mümkündür. Əkinçiliklə məskunlaşan tayfalarda ayinlər və ibadətlər xüsusilə tarlalar şumlanarkən və məhsul yığılan zaman icra edilir. Digər tərəfdən heyvandarlıqla məşğul olaraq həyatlarını davam etdirən cəmiyyətlərdə

mərasimlər çox vaxt heyvanların çoxalma və qırxma dövrlərində həyata keçirilir. Dəniz cəmiyyətlərində tanrıların adları adətən dəniz motivləri ilə bağlıdır. Ana prinsipinə əsaslanan ailələrin qurduğu cəmiyyətlərdə qadın tanrılar mühüm yer tutsa da, patriarxal ailələrdə kişi tanrılara daha çox rast gəlinir [Hans Freyer, 1963: 66].

Bütün dinlər öz anlayışlarına uyğun olaraq bəzi davranış nümunələri, qayda və prinsiplər irəli sürmüşlər. Bir dini qəbul edən insan təbii olaraq həyatını hər yerdə inandığı dinin qaydalarına uyğun qurmağa başlayır. Bu prosesdə dinin verdiyi güc və motivasiya ilə bəzi ictimai davranışlar göstərir. Odur ki, dinin ictimai quruluşun təsirli aktoru kimi sosial dəyişikliklərdən asılı olmaması gözlənilə bilməz. Çünki din bir sosial institut olaraq ictimai quruluşda baş verən hər cür dəyişikliklərdən öz payını alır. Çünki sosial quruluş onu təşkil edən elementlərin bir-birinə qarşılıqlı təsir göstərdiyi bir bütöv kimi qiymətləndirilir. Buna görə də bəzi vahidlərin bu mexanizmdəki dəyişikliklərdən təsirlənmədiyini düşünmək sağlam bir anlayış deyil. Belə yanaşma sosial reallıq və reallıqlarla üst-üstə düşmür. O halda dini sahədə baş verən dəyişikliklər mövcud ictimai quruluşa təsir edir və ictimai quruluşda baş verən dəyişikliklər istər-istəməz dində müəyyən struktur dəyişikliklərinə səbəb olur.

## NƏTİCƏ

Din, müqəddəs və ya mənəvi qayğılarla bağlı inancları, dəyərləri və təcrübələri təsvir edir. Bu hissə teolojidir. Bununla belə, din həm də sosial institutdur, çünki; Buraya cəmiyyətin ehtiyaclarına xidmət edən inanclar və təcrübələr daxildir.

Bu nöqtə dinlə sosiologiyanın kəsişdiyi ən mühüm yerdir. Din və sosiologiya arasındakı əlaqənin mahiyyəti bu iki şeyin kəsişməsində görünür. Dini sosioloji nöqteyi-nəzərdən nəzərdən keçirən ilk mütəfəkkir sayılan Émile Durkheim, dini “müqəddəs hesab edilən şeylər üçün inanclar və əməllər sistemi” olaraq təyin edir. Maks Veber hesab edir ki, bu, sosial dəyişiklik üçün bir qüvvə ola bilər. Karl Marks dini kapitalist cəmiyyətlərin bərabərsizliyi davam etdirmək üçün istifadə etdiyi bir alət kimi görür.Bütün bu nəzəriyyələr göstərir ki, hər bir cəmiyyətdə bu və ya digər formada rast gəlinən din universal və ən əsası sosial institutdur. Ona görə də sosioloji fikrin ən mühüm məsələlərindən biridir.

Din, mədəniyyətin ən aşağı pillələrindən başlayaraq ailə, tayfa, tayfa, tayfa, millət anlayışları kimi təbii qüvvələrlə təmasda olub. Onun həm mentalitet, həm də təşkilatçılıq baxımından bu birliklərə təsir etdiyi aydındır. Digər tərəfdən, din, kənd, şəhər, rayon və s. Coğrafi məkanlara öz təsirini göstərməklə yanaşı onların yaranmasında, böyüməsində və inkişafında mühüm amildir. Şübhəsiz ki, din fərd və cəmiyyət üzərində təsirli olduğu kimi, din də cəmiyyətə təsir edir. Başqa cür iddia etmək sosioloji faktlara ziddir. Lakin ictimai hadisələrin dinə təsirini araşdırarkən ibtidai dinlərlə ümumbəşəri dinlər arasındakı fərqə diqqət yetirmək lazımdır. Xüsusilə əmək bölgüsü və differensasiyanın kifayət qədər görülmədiyi ibtidai cəmiyyətlərdə tanrı ideyası, inanc və ibadət daha çox ictimai quruluşun təsiri altındadır.

## Ədəbiyyat:

*Barkan, S.E. & Greenwood, S.* (2003). Religious Attendance and Subjective Well-Being among Older Americans: Evidence from the General Social Survey. Review of Religious Research 45.

*Durkheim, E.* (1995). The Elementary Forms of the Religious Life. (çev. Karen E. Fields). New York: The Free Press.

*Marx, K.* (1973). Contribution to Critique of Hegel's Philosophy of Right. Cambridge: Cambridge University Press.

*Joachim Wach* (1987). Entrance of religion socialogy.

*Mehmet Taplamacıoğlu.* (1983). Din Sosyolojisi, A.Ü.İ.F. Yayınları, Ank.

*Hans Freyer.* (1964). Din Sosyolojisi ( Çev. T. Kalpsüz), A.Ü.İ.F. Yayınları, Ank.

*Weber, M.* (2002). The Protestant Ethic and the Spirit of Capitalism and Other Writings. ( Peter R. Baehr & Gordon C. Wells). New York: Penguin.

# HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİ VƏ SİYASİ LİDERLİK

**Sevinc NƏSİBOVA**
Balakən rayonu S.Vurğun adına Qullar
1 saylı tam orta məktəbin Coğrafiya müəllimi
*Azərbaycan, BALAKƏN*
sevincnesibova64@gmail.com

*"Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə bağlı olmalıdır".*
*"Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır".*
*Heydər Əliyev*

**XÜLASƏ**

Hər bir dövr öz liderlərini yetişdirir. Şəxsiyyəti lider edən başlıca keyfiyyətlər ağıl, enerji, xarakter, möhkəm iradə, yüksək təşkilatçılıq qabiliyyətidir. Xalq tarixi marağının bütün mükəmməlliyi ilə liderin şəxsində təzahür edir. Milli lider xalqı birləşdirir və onun idealları uğrunda qətiyyətlə mübarizə aparır.

Türk milləti XX əsrdə dünyaya iki böyük lider bəxş edib. Atatürk və Heydər Əliyev. Biri Osmanlı imperiyasının süqutu ərəfəsində yaranan ağır vəziyyətdə, Anadolu türk varlığının işğalçı qüvvələr tərəfindən məhv edilmək istənildiyi bir məqamda milli mübarizənin ön sıralarına çıxaraq türk millətini və dövlətçiliyini xilas etmişdir. Digəri isə Sovet İmperiyasının süqutu ərəfəsində Azərbaycanın müstəqillik əldə etməsindən sonra yaranmış ağır vəziyyətdə milli mübarizənin əsl liderinə çevrilərək Qafqazda həqiqi müstəqil Azərbaycan dövlətini qurmuşdur. Dünyanın liderlik zirvəsində olanlar sırasında H.Əliyevin xüsusi yeri vardır. H. Əliyev lider kimi cəmiyyətə və dünyaya təsiri olduqca güclü idi. O öz tarixi vəzifəsini hələ ötən əsrin 60-cı illərinin sonundan başlayaraq qeyri-adi cəsarətlə həyata keçirməyə başlamışdı. Bugünkü müstəqil Azərbaycan dövlətinin əsaslarını ölkədə sənaye və istehsal sahələrinin yaradılması onun adı ilə ilə bağlıdır. Görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan bir dövlət kimi zamanın sərt sınaqlarından uğurla çıxa bilmiş, onun müəyyənləşdirdiyi inkişaf strategiyasına uyğun olaraq həyata keçirilən müdrik siyasi tədbirlər sayəsində bu gün Azərbaycan Respublikası dünya dövlətləri birliyində öz layiqli yerini tutmuş, mütərəqqi və beynəlxalq standartlara uyğun islahatlar nəticəsində demokratik, hüquqi və sivil bir dövlət qurulmuş, ölkəmizin iqtisadi müstəqilliyinə nail olunmaqla xalqımızın xoşbəxt gələcəyi üçün bütün təminatlar yaradılmış, qanunun aliliyinə, insan hüquq və azadlıqlarına real təminat verən vətəndaş cəmiyyəti formalaşdırılmışdır. Hakimiyyət böhranının yaşandığı və ölkədə anarxiyanın tüğyan etdiyi, ölkəmizin vətəndaş müharibəsi astanasında və dövlət müstəqilliyinin itirilməsi təhlükəsi qarşısında qaldığı bir zamanda Azərbaycanda siyasi hakimiyyətə xalqın təkidi ilə qayıdan Heydər Əliyevin müdrikliyi sayəsində müstəqilliyimizin itirilməsi təhlükəsi birdəfəlik aradan qaldırılmış, dövlətçiliyimizin mövcudluğu üçün böyük təhlükə olan dövlət çevrilişi cəhdlərinin və siyasi terror aktlarının, qeyri-konstitusion yolla hakimiyyətə gəlmək iddialarının qarşısı alınmışdır.

**Açar sözlər**: lider, təhsil, demokratik dövlət quruluşu, strategiya, xarici siyasət, beynəlxalq təşkilatlar.

# HEYDAR ALIYEV PERSONALITY AND POLITICAL LEADERSHIP

**Sevinj NASIBOVA**
Slaves named after S. Vurgun, Balaken region
Geography teacher of secondary school No. 1
*Azerbaijan, BALAKEN*
sevincnesibova64@gmail.com

*"The fate of the nation and the Motherland must depend on the fate of every person."*
*"The people should not be for the state, but the state should be for the people."*
*Heydar Aliyev*

## SUMMARY

Every era produces its leaders. The main qualities that make a personality a leader are intelligence, energy, character, strong will, high organizational ability. People's historical curiosity is manifested in the person of the leader with all its perfection. A national leader unites the people and fights resolutely for their ideals.

The Turkish nation gave the world two great leaders in the 20th century. Ataturk and Heydar Aliyev. One of them saved the Turkish nation and statehood by coming to the forefront of the national struggle in the difficult situation that arose on the eve of the fall of the Ottoman Empire, when the Anatolian Turkish existence was wanted to be destroyed by the invading forces. The other, on the eve of the fall of the Soviet Empire, became the real leader of the national struggle in the difficult situation after the independence of Azerbaijan, and established a truly independent state of Azerbaijan in the Caucasus. H. Aliyev has a special place among those who are at the top of the world's leadership. .H.Aliyev's influence on society and the world as a leader was very strong. He began to fulfill his historical duty with extraordinary courage starting from the end of the 60s of the last century. The foundation of today's independent state of Azerbaijan is connected with the creation of industrial and production areas in the country. As a result of the activities of the prominent politician and statesman Heydar Aliyev, Azerbaijan as a state was able to successfully overcome the harsh tests of time, thanks to the wise political measures implemented in accordance with the development strategy defined by him, today the Republic of Azerbaijan has taken its rightful place in the world community of states, progressive and reforms in accordance with international standards. As a result, a democratic, legal and civilized state was established, all guarantees for the happy future of our people were created by achieving the economic independence of our country, and a civil society was formed that provides a real guarantee of the rule of law, human rights and freedoms. Thanks to the wisdom of Heydar Aliyev, who returned to political power in Azerbaijan at the insistence of the people, at a time when there was a crisis of power and anarchy was raging in the country, our country was on the verge of a civil war and was facing the threat of losing state independence, the threat of losing our independence was once and for all eliminated, and the attempts of a coup d'état, which was a great threat to the existence of our statehood, and acts of political terrorism and claims of coming to power in an unconstitutional way have been prevented.

**Key words:** lider, education, democrative government establishment, strategy, foreign policy, international organization.

## GİRİŞ

Biz bu gün Azərbaycan tarixində Heydər Əliyev erasını yaratmış Ulu öndər haqqında danışarkən, adətən, Onu bir Ümummilli lider kimi səciyyələndiririk. Əlbəttə, bu, mübahisəsiz olaraq belədir. Amma bu zaman bizə elə gəlir ki, Heydər Əliyevin fəaliyyətini bir qədər məhdudlaşdırmış oluruq. Onun fəaliyyətinə bir qədər sırf milli kontekstdə yanaşmış oluruq. Lakin Heydər Əliyev şəxsiyyəti və Onun fəaliyyəti təkcə Azərbaycanın etnosiyasi coğrafiyası ilə bağlı deyil və Ulu öndərin bir siyasətçi kimi fəaliyyəti də Azərbaycanın etnosiyasi coğrafiyası ilə məhdudlaşmır. O, istər Sovet xalqları müstəvisində və istərsə də Şərqi Avropadan tutmuş, hətta, Afrika ölkələrinə qədər olan xalqların tarixində rol oynamış, onların yaxından tanıdığı və onların həyatına təsir edəcək proseslərə imza atmış bir şəxsiyyətdir. Ona görə də, hesab edirik ki, bu gün Ulu öndəri hörmətlə anarkən Heydər Əliyevşünasların və Heydər Əliyev sevərlərin, tədqiqatçıların araşdırmalı olduğu elmi istiqamətlərdən biri də, məhz, bu olmalıdır.

Azərbaycan təhsilinin çiçəklənməsində və inkişafında görkəmli dövlət xadimi ümumilli lider Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. H. Əliyev ölkənin, xalqın hərtərəfli rifahı və uğur qazanmasında təhsilin xüsusi rolunu həmişə nəzərə almış, yüksək qiymətləndirmişdir. Ulu öndər bu barədə deyirdi: “Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir hissəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz” **[**Heydər Əliyevin müdrik kəlamları təhsil haqqında**]**.

Ümumilli lider Heydər Əliyevin Sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə 5 yeni ali təhsil müəssisəsi açılmış, ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdır. Eləcə də dahi rəhbər keçmiş ittifaqın ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxumasına çalışmış və bu istiqamətdə əsaslı dönüş yaratmışdır. Məhz Heydər Əliyevin birbaşa himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gənc SSR-nin nüfuzlu təhsil müəssisələrinə ali təhsil almağa göndərilmişdir ki, bu da respublikanın milli kadr potensuialının daha da gücləndirilməsinə imkan yaratmışdır.

H.Əliyev milli müstəqillik siyasətində milli iftixar hissinə, onun gənclərdə tərbiyə edilməsinə çalışır, gənc nəslə xalqımızın milli mənəvi dəyərlərinə hörmətlə yanaşmağı, bu dəyərlərin qorunmasını, inkişafını və gələcək nəsillərə ötürülməsini aşılayırdı. “Biz öz tarixi köklərimizlə, milli-mənəvi ənənələrimizə, böyük tariximizlə fəxr edə bilərik” **[**Heydər Əliyev irsini araşdırma mərkəzi, 2011:76**]**.

Azərbaycan təhsilinin bütün pillələrində ulu öndərin rolu hər zaman ön plana çəkilmiş,təhsil sahəsində aparılan islahatlar hər zaman yenilənmiş və təhsilin beynəlxalq əlaqələri genişlənərək dünya təhsil sistemində inteqrasiyası intensivlənmişdir. Həmişə bu şüar irəli olmuşdur sağlam təhsil alan gənclik-sağlam gələcəkdir!

Heydər Əliyevin siyasəti təkcə Azərbaycanın deyil, bütün Qafqazın sülh və rifah şəraitində yaşayışına istiqamətlənmişdir. Bu mənada Rusiya Xalqlar Assambleyasının sədri, tanınmış siyasi xadim Ramazan Abdulatifovun belə bir fikrini xatırlamatmaq gərəkdir: *“H.Əliyevin Qafqaz tarixindəki rolunu əlli ildən sonra anlamaq, dərk etmək mümkün olacaq. H.Əliyev tarixi şəxsiyyət və Qafqazın fəxridir. Sovet dövründə də fəxri olmuşdur. Belə nəhəng lider təkcə Azərbaycana deyil, bütün Qafqaza və onun hüdudlarından kənarda da lazımdır”* [Hüseynova, 2008:358-359].

Heydər Əliyev erası -biz Ulu öndərin fəaliyyətinə, Azərbaycan xalqı qarşısında xidmətlərinə nəzər saldıqda görəcəyik ki, dediyimiz bu era ayrı-ayrı qatlardan və mərhələlərdən ibarətdir. Bu qatların və mərhələlərin hər biri Azərbaycan xalqının tarixində ayrıca səhifədir. Ən əsası odur ki, bu səhifələr Azərbaycan xalqının və dövlətinin inkişafını özündə ehtiva edən, onu stimullaşdıran səhifələrdir. Əlbəttə ki, Ulu öndərin hakimiyyətinin ikinci dövrü Onun SSRİ rəhbərliyinə aparılması ilə bağlıdır. Bu dövrdə də yenə Azərbaycan daima Ulu öndərin diqqətində olmaqla respublikamızın inkişafı başlıca məsələ kimi SSRİ rəhbərliyinin diqqət mərkəzində tutulurdu. Və nəhayət Ulu öndərin sonrakı mərhələdəki fəaliyyəti Onu artıq müstəqil bir dövlətin, müstəqil bir xalqın lideri

kimi səciyyələndirməyə imkan verir. Genetik olaraq, liderlik keyfiyyətlərinə və yüksək xarizmaya sahib olan Heydər Əliyev heç kəsin proqnozlaşdıra bilməyəcəyi proseslər baş verərkən, XX əsrin sonlarında bunları proqnozlaşdırmağı, həmçinin, öz yeri və mövqeyini bu proseslərin içində müəyyənləşdirməyi dəqiqliklə bacarırdı. Eyni zamanda, Onun qəbul etdiyi şəxsi qərarlar bir növ Azərbaycan xalqının siyasi qərarlarına çevrilirdi. Ən əsası isə bu qərarlar uzaqgörən və məqsədyönlü, konkret hədəfə doğru istiqamətlənmiş olduğu üçün bizim ümummilli yolumuzu işıqlandıran mayaka çevrildi.

Azərbaycan xalqının, onun tarixinin son yarıməsrlik dövrü xalqın milli mənəvi dəyərlərinin qorunması, sosial həyat tərzinin yaxşılaşdırılması, demokratik inkişafın yüksəlişinə nail olunması, təhsilin səviyyəsinin möhkəmləndirilməsi, dünya Azərbaycanlılarının monolit bir qüvvə kimi təşkilatlanması H.Əliyev strategiyasının uğurlu təzahürləri kimi qeyd olunmalıdır.

H.Əliyev siyasəti təkcə Azərbaycanın deyil, bütün Qafqazın sülh və rifahıdır.

Ötən əsrin 90-cı illərinin əvvəllərində cəmiyyət həyatının bütün sferalarını bürümüş anarxiya, siyasi xaos ölkənin dinamik inkişafını təmin etmək gücündə olan strategiyanın mövcud olmasının xəbərçisi idi. H.Əliyevin milli həmrəylik ideyası, hər bir vətəndaşın özünü dövlətinə və dövlətçiliyinə bağlı hesab etməsi, dövlətin hər bir insana, hər bir insanın isə öz dövlətçiliyinə xidmət etmə amalı 1995-ci ildə qəbul olunmuş konstitusiyada öz əksini tapmışdır [Heydər Əliyev irsini araşdırma mərkəzi, 2011:8-10].

Konstitusiyada hakimiyyətin bölünməsi prinsipinin ifadəsini tapması dövlət hakimiyyətinin həyata keçirilməsinin əsas prinsipidir. Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;
- icra hakimiyyəti Azərbaycan Respublikasının prezidentinə mənsubdur;
- məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir **[**Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2006**].**

Hakimiyyətlərin bölünməsi prinsipinin əsas mahiyyəti ondan ibarətdir ki, dövlət hakimiyyəti bir əldə, yaxud hakimiyyətin ayrı-ayrı qollarında cəmlənməməli, əksinə həmin hakimiyyət qolları arasında tarazlaşdırılmış şəkildə bölünməlidir.

Birbaşa demokratiyanın ən uğurlu modellərindən biri yerli özünüidarəetmə orqanlarıdır. Belə ki, 2 iyul 1999-cu il tarixdə "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu təsbit edilmişdir. Həmin tarixdə, eyni zamanda "Bələdiyyələrə seçkilərin qaydaları haqqında" qanun da qəbul olunmuşdur. 12 dekabr 1999-cu il tarixdə ölkədə keçirilən ilk bələdiyyə seçkilərində 22 min nəfərdən artıq bələdiyyə üzvü seçilmiş və 2667 yerli özünü idarəetmə orqanı təşkil olunmuşdur **[**Əsgərov, 2011:7**].**

Bu orqanların təkmilləşdirilməsi prosesi ölkədə hüquqi dövlət və vətəndaş quruculuğu, dövlətin və cəmiyyətin idarə olunmasının səmərəliliyinin və etibarlılığının artırılması istiqamətində atılmış ən əhəmiyyətli addımlardan biridir.

Ulu öndər elə böyük dövlət və siyasi xadimlərdən idi ki, dövlətçiliyin siyasi-ideoloji əsaslarını yaratmaqla bərabər, eyni zamanda, onun varisliliyini də təmin etdi. Hər hansı bir dövlətin var olması üçün mütləq ideoloji-siyasi varislik lazımdır. Əgər bu olmasa, dövlət bir nüfuza, liderə, bir fiziki şəxsə bağlı olduqda, o şəxsin fiziki-bioloji mövcudluğu bitdikdən sonra dövlətin də ömrü bitir. Məhz bunu bilən Ulu öndər dövlətçiliyimizin siyasi-ideoloji varisliliyini də təmin etmiş oldu.

10 oktyabr 1993-cü ildə Azərbaycan Respublikasının prezidenti, ümumilli lider Heydər Əliyev demişdir ki, dövlətimizin müstəqilliyinin möhkəmləndirilməsi yolundakı əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini beynəlxalq aləmdə qorumağa imkan verən səriştəli xarici siyasətdir. Onun ən vacib amalı ölkənin müstəqilliyini və suverenliyini möhkəmləndirilmək idi, dövlətin xarici siyasətinin prioriteti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünün bərpası idi.

Lakin məlumdur ki, Ermənistanın qeyri destruktiv mövqeyi İkinci Qarabağ savaşına və Heydər Əliyev strategiyasının layiqli davamçısı İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz tərəfindən düşmənin darmadağın olmasına gətirib çıxardı.

H.Əliyev irsinin təhlili göstərir ki, beynəlxalq təşkilatlarla münasibətlərdə prezident Heydər Əliyevin çoxşaxəlifəaliyyətinin əsas məzmununu hər zaman Dağlıq Qarabağ probleminin beynəlxalq normalara uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması təşkil edir. Azərbaycan Respublikası 1992-ci il martın 2-də BMT-nin üzvlüyünə qəbul olundu. 1994-cü il sentyabrın 29-da Nyu-Yorkda BMT Baş Məclisinin 49-cu sessiyasında Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev öz çıxışında Dağlıq Qarabağ problemi ilə bağlı bir çox vacib məqamlara toxundu. O öz çıxışında Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycan ərazisinin iyirmi faizdən çoxunun işğal edildiyini, 50 mindən çox Azərbaycanlının öz dədə-baba yurdundan didərgin salındığını, 20 mindən çox adamın həlak olduğunu və 100 minə yaxın adamın yaralandığını bildirmişdir.

1996-cı il 22 aprel tarixində Lüksemburqda Azərbaycan Respublikası və Avropa birliyi arasında tərəfdaşlıq və əməkdaşlıq imzalandı. Bu mərasimdə ki çıxışında H. Əliyev Azərbaycan və Avropa arasında inteqrasiya proseslərinin gələcəyinə böyük ümidlər bəslədiyiniz və ölkəmizin bərabərhüquqlu tərəfdaş kimi bu proseslərdə fəal iştirak edəcəyini bildirmişdir [Həsənov, 2005:11].

Azərbaycan Respublikasının siyasi və hərbi təhlükəsizliyini təmin etmək məqsədilə Heydər Əliyev müasir dünyada ən güclü və nüfuzlu hərbi-siyasi təşkilat olan NATO ilə əməkdaşlığa da üstünlük vermişdir. Buna görə də 1994-cü ildə may ayının 4-də NATO-nun mənzil-qərargahı olan Brüssel şəhərinə səfər edərək orada "Sülh Naminə Tərəfdaşlıq Proqramının çərçivə sənədinə imza çəkmişdir. Sənəd imzalandıqdan sonra Azərbaycan -NATO əlaqələrinin dinamik inkişafı başlandı [Dünyanı heyran qoyan insan, 2004:422].

Qeyd edim ki, Azərbaycan BMT, ATƏT, Avropa Şurası, MDB, GUAM, İKT, QİƏT, İƏT kimi beynəlxalq təşkilatların üzvüdür.

Heydər Əliyev siyasi mühitində böyümüş və bu gün onun uğurlu siyasətinin davamçısı Azərbaycan Respublikasının prezidenti İlham Əliyevdir. O, Ulu öndər məktəbinin məzunudur. İlham Əliyev hakimiyyətə gəldiyi ilk gündən etibarən hökuməti xalqın vicdanlı xidmətçisi kimi qiymətləndirmişdir.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev 44 günlük Vətən müharibəsində ağıllı və uzaqgörən siyasəti ilə Qarabağ həsrətini uğurla başa çatdırdı. Xalqımızın ən ağrılı yeri olan Qarabağ həsrəti Müzəffər Ali Baş Komandan İlham Əliyevin başçılığı, Azərbaycan ordusunun mərdliyi, əzmliliyi ilə Azərbaycana qələbə gətirdi. Prezidentimiz yeni reallıqlar yaradaraq düşməni "dəmir yumruq" la əzib məhv etdi. Bütün bunlar ulu öndərimiz Heydər Əliyevin daim arzusunda olduğu və bu gün gerçəkləşən amallarıdır. Heydər Əliyevin cismən yoxluğu, ideallarından pöhrələnən uğurları özünün həyatda ikən görə bilməməsi qəlbimizi nə qədər göynətsə də, biz bu nailiyyətlərin hər birində ulu öndərin nurlu simasını görürük, onun varlığını hiss edirik. Və bu hiss, Heydər Əliyevin Azərbaycanın bugünündən şad ruhunu bütün qəlbi ilə duyan hər bir insanın daşımalı olduğu əbədi bir vəzifəni müəyyənləşdirir – Heydər Əliyev ideyalarına sadiqlik.

Heydər Əliyev üçün biz çoxlu titullar deyə bilərik. Ümummilli lider, Ulu öndər, Azərbaycan Respublikasının siyasi rəhbəri, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü, müstəqil Azərbaycan Respublikasının Prezidenti və s. Bunlar əlbəttə ki, hamısı bir titul, bir vəzifədir. Amma Heydər Əliyev şəxsiyyəti bütün bunların hamısının fövqündə duran bir nümunədir. Yəni, bu bir həqiqətdir ki, bütün bu vəzifələrdən və titullardan Heydər Əliyev Azərbaycan xalqının milli və dövlətçilik maraqlarının təmin olunması üçün istifadə etdi. O, bir millət mücahidi idi, xalq mücahidi idi, Azərbaycan xalqının böyük mücahidi idi, Azərbaycan xalqını beynəlxalq münasibətlərdə böyük arenaya çıxarmağı qarşısına məqsəd qoymuşdu. Azərbaycan həqiqətlərini dünyaya çatdırmağı qarşısına məqsəd qoymuşdu. Müstəqil Azərbaycan

dövlətinin əbədi olmasını qarşısına məqsəd qoymuş böyük bir mücahid idi. Prezidentlikdən tutmuş digər titul və vəzifələr isə Onun üçün, məhz, bu məqsədləri həyata keçirmək üçün bir mexanizm və vasitə idi. Ona görə də, Ulu öndər Heydər Əliyev Azərbaycan xalqı tərəfindən daima hörmətlə anılacaq. Xalqımız var olduqca O, da yaşayacaqdır **[**“Xalq qəzeti”, 2011, 97:7**].**

Ümummilli liderin müəyyən etdiyi inkişaf strategiyasını son illərdə uğurla reallaşdıran Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəyə rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə, onun xalqına, dövlətinə necə bağlı lider olduğu bir daha təsdiqini tapır. Dövlət başçısı zaman etibarilə qısa, mahiyyətcə böyük 5 illik dövr ərzində yeni əsrin lideri kimi sübuta yetirdi ki, xalq öz taleyini ona etibar etməkdə qətiyyən yanılmamışdır. Dövlət başçısının idarəçilik keyfiyyətlərindən ən mühümü, şübhəsiz, uzun illər boyu zərrə-zərrə formalaşaraq sabitləşmiş milli dövlətçilik ənənələrinə sadiqlikdir. Cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində son illər əldə etdiyimiz uğurlar da elə bu amilə əsaslanır. Siyasi illüziyalardan, populizmdən uzaq olması, problemlərə rasional mövqedən və real situasiyadan yanaşması, gerçəkliyi təhrif etməməsi, praqmatizmi cənab İlham Əliyevin yetkin və peşəkar siyasətçi portretini formalaşdırır. Bütün bu keyfiyyətləri dövlət başçısının malik olduğu yüksək qətiyyət, intellekt, enerji, potensial, işgüzarlıq, novatorluq və birləşdiricilik məziyyətləri tamamlayır. Milli maraqları və mənəvi dəyərləri ümumbəşəri ideallarla ahəngdar şəkildə uzlaşdırmaq bacarığı, intellektual səviyyə, universal bilik və akademik təhsil, dəmir məntiq və möhkəm iradə – bütün bunlar cənab İlham Əliyevin yetkin siyasi obrazını şərtləndirir. Azərbaycanda ictimai-siyasi sabitliyin, vətəndaş sülhü və həmrəyliyinin qorunub saxlanılması naminə ilk gündən nümayiş etdirdiyi yüksək prinsipiallıq, qətiyyət və əzmkarlıq da dövlət başçısının istənilən ekstremal situasiyada çevik və optimal qərar qəbul edən qətiyyətli lider olduğunu göstərmişdir. 2003-cü ilin postseçki mərhələsi nihilist, radikal və ziddiyyətli siyasiləşmə ilə müşayiət olunsa da, cənab İlham Əliyev siyasi iradə göstərərək bu neqativ meyillərin qarşısını əzmkarlıqla almış, ölkənin yenidən xaos və anarxiya mühitinə yuvarlanmasına yol verməmişdir. Seçki ərəfəsində və sonra respublikada ictimai-siyasi sabitlik, dövlətçilik əleyhinə yönəlmiş xarici və daxili təzahürlərin qətiyyətlə aradan qaldırılması dövlət başçısının xalqın dəstəyinə arxalanan, dövlətçiliyin müdafiəsi üçün zəruri keyfiyyətlərə malik lider olduğunu sübuta yetirmişdir. Əsl liderlik, şübhəsiz, xalq kütlələrini milli məram və məqsədlər ətrafında birləşdirmək bacarığında ifadə olunur. Bu nöqteyi-nəzərdən Azərbaycan Prezidenti İlham Əliyevin liderlik xüsusiyyətləri onun ideyalarının inteqrativ-birləşdirici mahiyyətindən, ilk növbədə, hər bir vətəndaşın maraqlarına hesablanmasından irəli gəlir. Dövlət başçısının milli birlik və həmrəylik konsepsiyası dərin məzmun yükü ilə cəmiyyətin mənəvi bütövlüyündə və monolitliyində aparıcı amilə çevrilməkdən savayı, həm də ona xalqı öz ətrafında birləşdirmək, milli ideallar ətrafında səfərbər etmək imkanı vermişdir. Cənab İlham Əliyev səlahiyyətlərinin icrasına başladığı ilk gündən cəmiyyətin bütün siyasi qüvvələrinin, sosial qruplarının, dinietnik konfessiyalarının birliyini təmin etmək istiqamətində ardıcıl siyasət yürüdür **[**“Azərbaycan“ qəzeti, 2009: 125:2**]**.

Heydər Əliyev üçün biz çoxlu titullar deyə bilərik. Ümummilli lider, Ulu öndər, Azərbaycan Respublikasının siyasi rəhbəri, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü, müstəqil Azərbaycan Respublikasının Prezidenti və s. Bunlar əlbəttə ki, hamısı bir titul, bir vəzifədir. Amma Heydər Əliyev şəxsiyyəti bütün bunların hamısının fövqündə duran bir nümunədir. Yəni, bu bir həqiqətdir ki, bütün bu vəzifələrdən və titullardan Heydər Əliyev Azərbaycan xalqının milli və dövlətçilik maraqlarının təmin olunması üçün istifadə etdi. O, bir millət mücahidi idi, xalq mücahidi idi, Azərbaycan xalqının böyük mücahidi idi, Azərbaycan xalqını beynəlxalq münasibətlərdə böyük arenaya çıxarmağı qarşısına məqsəd qoymuşdu. Azərbaycan həqiqətlərini dünyaya çatdırmağı qarşısına məqsəd qoymuşdu. Müstəqil Azərbaycan dövlətinin əbədi olmasını qarşısına məqsəd qoymuş böyük bir mücahid idi. Prezidentlikdən tutmuş digər titul və vəzifələr isə Onun üçün, məhz, bu məqsədləri həyata keçirmək üçün bir mexanizm və

vasitə idi. Ona görə də, Ulu öndər Heydər Əliyev Azərbaycan xalqı tərəfindən daima hörmətlə anılacaq. Xalqımız var olduqca O, da yaşayacaqdır. [“Yeni Azərbaycan”, 2011:4].

Liderlər tarix yaradır, əsrlər keçir unudulmurlar, unudulmayacaqlar. Bizim əbədi liderimiz-Heydər Əliyev!

## NƏTİCƏ

Heydər Əliyevin irsi milli quruculuq strategiyasıdır, bu irsin aktual mənası ulu öndərin praqmatik bir dövlətçi olmasıdır. Ona görə istər siyasi təbliğatda, istər tədris və təhsildə, istərsə də elmi sahədə əsas diqqət bu cəhətlərə yönəlməlidir. Bu gün respublikamızda Heydər Əliyev siyasəti davam edir. Rəhbərin siyasi varisi Prezident İlham Əliyev onun milli tərəqqi və quruculuq xəttinə sadiqdir. Ölkəmizdə misilsiz dəyişikliklər baş verir, paytaxtımız yeniləşir, arxitektura görkəmi tamam təzələnir. İnsanların rifahı, yeni iş yerlərinin açılması, iqtisadi layihələrin gerçəkləşdirilməsi ölkə rəhbərinin daim diqqət mərkəzindədir. Prezidentimiz dünya maliyyə böhranının ölkəmizə daha az ziyan vurması üçün lazımi olan bütün tədbirləri görür, sadə, sıravi vətəndaşların bu böhrandan ziyan çəkməməsi naminə hər şeyi edir. Heydər Əliyevin qırx il əvvəl Azərbaycanda hakimiyyətə gəlməsi həm də xalqın tarixində Milli Qurtuluş epoxasının başlanğıcı idi. Ulu öndərin 1993-cü ilin 15 iyunundakı qayıdışı isə xalqın həqiqi milliqurtuluşu idi. Ona görə də qədirbilən xalqımız bu günü öz sevimli bayramı kimi qeyd edir.

## RESULT

Heydar Aliyev’s legacy is a national building strategy, the actual meaning of this legacy is that the great leader is a pragmatic statesman. Therefore, the main attention should be focused on these aspects, whether in political propaganda, in teaching and learning, or in the scientific field. Today, the policy of Heydar Aliyev continues in our republic. The leader’s political successor, President Ilham Aliyev, is loyal to his line of national progress and construction. Unparalleled changes are taking place in our country, our capital is modernized, the architectural appearance is completely renewed. People’s well-being, creation of new jobs, implementation of economic projects are always in the focus of the head of the country. Our President takes all necessary measures to make the world financial crisis less damaging to our country, and does everything to ensure that simple, ordinary citizens are not harmed by this crisis. Heydar Aliyev’s coming to power in Azerbaijan forty years ago was also the beginning of the era of National Liberation in the history of the nation. The return of the great leader on June 15, 1993 was the true national liberation of the people. Therefore, our appreciative people celebrate this day as their favorite holiday.

## Ədəbiyyat:

*“Azərbaycan” qəzeti* (2009). 11 iyun.N 125. S.2
*Azərbaycan Respublikasının Konstitusiyası* (2006). Bakı.
*“Xalq qəzeti”* (2011). 6 may. N 97. S.7.
*Dünyanı heyran qoyan insan* (2004). / Buraxılışa məsul. R.Mehdiyev. Bakı, Azərnəşr.
*Həsənov, Ə.* Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı: Azərbaycan, 2005.
H*eydər Əliyev irsini araşdırma mərkəzi* (2011). Bakı-Brüssel (Azərbaycan-Avropa ittifaqı münasibətləri). Bakı: CBC Polygraphic Production, 413 s.
*Əliyev, H.* (1997). Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. L kitab. Bakı: “Azərnəşr”. 597 s.
*Hüseynova, İ.* (2008). Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı, Çaşıoğlu.
*Rzayev, R.* (2013). Ümumilli liderin hüquqi baxışlarının Azərbaycan Respublikasının Konstitusiyasında təzahürü // Respublika.10 may, N 99. S.8-10.
*“Yeni Azərbaycan”* (2011). 6 may. S.4.
*Əsgərov, Z.* (2011). H.Əliyevin xarici siyasət strategiyası və Azərbaycan milli təhlükəsizliyi // Azərbaycan, 7may, s.7.
*H.Əliyevin müdrik kəlamları.* Təhsil haqqında sayt. https://metro.gov.az/az/Heyd%C9%99r%20%C6%8Fliyev%20%C4%B0li/2597/cemiyyet-tehsilsiz-inkisaf-ede-bilmez

# AZƏRBAYCAN RESPUBLİKASININ REGİONLARINDA TURİZMİN İNKİŞAFINA SOSİAL-MƏDƏNİ AMİLLƏRİN TƏSİRİ

**Tural SALIFOV**
Azərbaycan Turizm və Menecment Universiteti,
sosiologiya üzrə fəlsəfə doktoru, dosent əvəzi
*Azərbaycan, BAKI*
turalsalıfov@atmu.edu.az

## XÜLASƏ

Məqalədə Azərbaycanın regionlarında turizmin inkişaf xüsusiyyətlərini və turizmin dinamik inkişafına təkan verən amillərin araşdırılmasından, beynəlxalq turizmin sosial və mədəni amillərini müqayisəli formada, həmçinin onların yerli sosial-mədəni mühitə olan təsirindən bəhs edilir.

**Açar sözlər:** turizm, sosial iş, region, əhali, mədəni amil.

# THE INFLUENCE OF SOCIO-CULTURAL FACTORS ON THE DEVELOPMENT OF TOURISM IN THE REGIONS OF THE REPUBLIC OF AZERBAIJAN

**Tural SALIFOV**
Azerbaijan Tourism and Management University,
Doctor of Philosophy in Sociology, Assis.Prof.
*Azerbaijan, BAKU*
turalsalıfov@atmu.edu.az

## SUMMARY

The article examines the development characteristics of tourism in the regions of Azerbaijan and the factors that encourage the dynamic development of tourism, the social and cultural factors of international tourism in a comparative form, as well as their impact on the local socio-cultural environment.

**Key words**: tourism, social work, region, population, cultural factor.

## GİRİŞ

Ölkəmizdə turizmin inkişafında sosial-mədəni aspektdə araşdırılması onu göstərmişdir ki, turizmin dinamik inkişafında sosial-mədəni amillərin kifayət qədər nəzərə alınmaması, həm turizm və region əhalisi, həm də yerli şərait üçün böyük problemlərin yaranmasına başlıca səbəbdir. Bu da öz növbəsində turizmin zəifləməsinə, sosial-mədəni və ekoloji problemlərin yaranmasına şərait yaradır. Bu baxımdan, turizmin sosial-mədəni aspektlərinin araşdırılması xüsusi əhəmiyyət kəsb edir.

Turizmin inkişafında səmərəli məqamlarla yanaşı, təhlükəli məqamlar da vardır. Bu istiqamətdə tədqiq olunan elmi tədqiqatlar müsbət mənfi tendensiyaları araşdırmaq, proqnozlaşdırmaq və tənzimləmək baxımından aktualdır. Belə ki, turizm sahəsində elmi-strateji layihələr olmadan heç bir nailiyyət əldə etmək mümkün deyildir. Turizmin müxtəlif növlərinin inkişafı bir çox elm sahələrinin, incəsənət və sənət növlərinin, iqtisadi bölmələrin aktuallaşmasına və inkişafına maddi-texniki baza yaratdığı üçün onun tədqiqi də müxtəlif sahələr arasında sinergetik əlaqələrin formalaşmasına təkan verir.

Turizmin inkişafı işsizlik probleminin həll olunmasında böyük əhəmiyyət kəsb edir. Bu sektorun dinamik inkişafı işsizliklə bağlı bir çox sosial problemlərin həll olunmasına şərait yaradır.

Xüsusən, ekoloji və aqroturizmin inkişaf etdirilməsi regionlarda sosial-iqtisadi problemlərin həll olunmasına imkan verir.

Turizm müxtəlif xarakterli maneələri dəf etmək iqtidarında olan böyük sosial hadisədir. Azərbaycanda turizmdən bir təbliğat vasitəsi kimi istifadə oluna bilər. Xüsusilə, mədəni turizmin inkişaf etdirilməsi ilə erməni lobbisinin və digər düşmən qüvvələrin Azərbaycan barədə yaratdıqları neqativ sindromları ortadan qaldırmaq, eyni zamanda, Azərbaycanın multikultural bir məkan kimi Beynəlxalq aləmdə imicini yüksəltmək mümkündür.

Turizmin inkişafı yerli şərait və potensiala əsaslandığı üçün Azərbaycanda turizmin tədqiqinin özünəməxsus elmi-nəzəri və metodoloji əsasları formalaşmalı və turizmin inkişafı ilə bağlı konsepsiyalar ortaya qoyulmalıdır. Yerli mütəxəssislərin bu sahədə apardıqları tədqiqatlar qarşıya qoyulan strateji hədəfə dorğu istiqamətlənən mühüm addımlardır.

Ənənəvi enerji növlərinin tükənməsi, alnernativ enerji növlərinin aktuallaşması, təhsil, turizm kimi sahələrin sosial-iqtisadi səmərəliliyinin daima artan xətt üzrə dinamik inkişaf etməsi, alternativ inkişaf modellərinin yaranmasına şərait yaradır. Xüsusilə, bütün aktual inkişaf istiqamətlərini özündə cəmləşdirən və onların inkişafına təkan verən turizmin Azərbaycanda inkişafının təmin olunması, gələcək dünya nizamında özünəməxsus yer almaq perspektivi baxımından aktualdır. Turizmin inkişaf istiqamətlərinin proqnozlaşdırılması və strateji hədəflərin müəyyənləşdirilməsi yolları, ilk növbədə turizmin sosial-mədəni araşdırılmasından keçir.

Turizmin inkişaf etdirilməsi iqtisadiyyatın müxtəlif sahələrinin formalaşmasını və inkişaf etməsini təmin edir. Xüsusilə, Azərbaycanda postneft erasının başlaması və alternativ iqtisadi inkişaf sahələrinin inkişaf etdirilməsinə ehtiyacın ortaya çıxması durumunda turizmin inkişaf etdirilməsi mühüm əhəmiyyətə malikdir.

Azərbaycanda regionların sosial-iqtisadi və sosial-mədəni problemlərinin həllində turizmin böyük əhəmiyyəti vardır. Bölgələrdə turizmlə bağlı inkişafın təmin olunması üçün turizm sahəsi ilə bir çox sosial-iqtisadi layihələrin birgə hazırlanmasını və tətbiqini təmin etmək lazımdır. Bu baxımdan, turizmin sosioloji araşdırmaları böyük əhəmiyyətə malikdir.

Hazırda Azərbaycanda ictimai həyatın bütün sahələrində köklü islahatlar aparılır, düşünülmüş və məntiqli siyasət həyata keçirilir. Turizm sənayesinin inkişafı da diqqət mərkəzində olmaqla bu istiqamətdə əsaslı və beynəlxalq standartlara cavab verən addımlar atılır.

**Tədqiqat metodları:** Tədqiqat işin yerinə yetirilməsində müqayisəli təhlil, deduksiya və induksiya üsullarından istifadə edilmişdir.

## ƏSAS HİSSƏ

Azərbaycanda turizmin müxtəlif sahələrini, xüsusilə sosial-mədəni aspektlərini araşdırmaq üçün statistik materiallar kifayət qədər deyildir. Biz, turizmin inkişafına təsir edən sosial-mədəni amilləri müəyyənləşdirmək üçün Bakıda və Azərbaycanın müxtəlif bölgələrində yerli əhali arasında sosioloji sorğu keçirdik. Əldə etdiyimiz bilgilər bizə problemin araşdırılmasında qismən yardımçı oldu. Bu sahədə daha obyektiv nəticələr əldə etmək üçün müvafiq sahədə bir neçə və daha geniş miqyaslı sosioloji araşdırmaların aparılmasına ehtiyac vardır.

Turizmin inkişafı şübhəsiz sosial problemlərin həllində müsbət rol oynayır. Azərbaycanda turizmin inkişafı üçün münbit sosial-mədəni baza mövcuddur. Bir tərəfdən əhalinin cinsindən asılı olmayaraq savadlı olması, digər tərəfdən onun tolerant dəyərlərə sahib olması buna şərait yaradır.

İngilis dili ölkə ərazisində geniş şəkildə tətbiq olunur. Bölgələrdə şəhərə nisbətən bu sahədə geriləmə müşahidə olunur. Lakin buna baxmayaraq həm şəhərlərdə, həm də bölgələrdə yerli əhalinin turistlərlə ünsiyyətə girmək və onlarla yaxın təmasda olan bir işlə məşğul olmaq marağı böyük deyildir. Çünki *"Turistlərlə yaxın təmasda olan bir işlə məşğul olmaq istərdinizmi?"* – sualına rəyi soruşulan 103 qadın respondentdən 43 (41,7 %) nəfəri "hə", 60 (58,2 %) nəfəri "yox" cavabını vermişdir. Müvafiq suala rəyi soruşulan 159 kişi respondentdən 78 (49 %) nəfəri "hə", 81

(51 %) nəfəri "yox" demişdir. Respondentlərin əksəriyyətinin yaşı 18-35, təhsil səviyyələri orta-ali, əksərinin gəlirləri 150-400 manat arasında olan və əsasən evli, dini mərasimlərə laqeyd olan insanlardır.

Respondentlərin yarıdan çoxunun turistlərlə bağlı hər hansı bir işdə iştirak etməkdən imtina etməsinin bir neçə səbəbi vardır. Onlardan biri, əksər əhalinin bu sahədən gəlir əldə etmək barədə təsəvvürünün olmaması və real gəlir əldə etməməsi ilə bağlıdır. Turistlərin gəlişindən qadınların təqribən 10%-i, kişilərin isə 30%-dən çoxu gəlirlərinin artdığını göstərirlər. Lakin turizmin iqtisadi və ticari səmərəsini respondentlər cüzi şəkildə hiss edirlər və turizmin inkişafına səbəb olan Avropa Olimpiya Oyunları kimi beynəlxalq tədbirlərin əhəmiyyətini tam mənada dərk edə bilmirlər. Bunun səbəblərindən biri də odur ki, bölgələrdə əhali arasında müvafiq sahədə təbliğat işləri zəif aparılır. Həmçinin, dil və ya digər problemlərlə əlaqədar ünsiyyət qurmaqda çətinlik çəkən insanlar bu kimi münasibətlərdən uzaqlaşmağa çalışırlar. Lakin şəhər yerlərində vəziyyət bir qədər fərqlidir. Xüsusilə, gənclər arasında könüllülər dəstəsinə can atanların sayı çox olmuşdur. Bu sahədə universitetlərin təşkilatçılıq rolu da böyükdür.

Bu sahədə problemlərdən digəri də odur ki, əhali turizmdən gəlir etmək yolunda təcrübəyə malik deyil. Çünki turistlərin təqribən yarısı ticarət mallarının bahalılığından və onların gəlir mənbəyi kimi dəyərləndirilməsindən şikayət edirlər.
Lakin iqtisadi maraqlar bu problemlərin aradan qaldırılmasına şərait yaradır. Yəni dövlət, əhali və turizm obyektləri arasında sosial-iqtisadi əməkdaşlıq turizmin bölgədə uzunmüddətli inkişafına zəmin yaradır.

Turizmin inkişafında qadınların da rolu böyükdür. Sosioloji sorğunun genderoloji təhlili göstərir ki, qadınlar turizm sahəsindən kişilərə nisbətən təqribən 20% az gəlir götürürlər. Halbuki, onların bu sahədən gəlir əldə etmək və bu sahədə iştirak etmək marağı (41,7 %) kişilərdən (49 %) az fərqlənir. İstəklə reallıq arasında fərq, adətən bəzi ənənəvi stereotiplərlə bağlıdır. Qadınların çoxu bu stereotipləri aşa bilmirlər.

Turizmin inkişafı paralel olaraq həm yerli, həm də xarici turistlərin hesabına təmin olunur. Azərbaycanda turizmin inkişaf dinamikası normaldır. Lakin biz ölkəmizi Türkiyə, İspaniya kimi turizm ölkələriylə müqayisə etdikdə, hələ çox işlərin görülməsinin zəruri olduğunu görürük.

Turizmin inkişafı əhalinin sosial problemlərinin həllində özünəməxsus yer tutur. İqtisadi fəaliyyət növləri üzrə məşğul əhalinin turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində 2014-cü il göstəricilərinə görə 55,7 min nəfər çalışırdı (21,7 min muzdlu). 2005-ci il göstəricilərinə görə bu rəqəm (25,1 min) iki dəfə artmışdır. 2023-cü ildə isə bu rəqəm 86,9 min nəfər olmuşdur (**DSK.** www.stat.gov.az). Bu rəqəmlər əslində turizm sahəsində çalışan əhalinin sayının dinamik şəkildə artdığını və turizmin sosial sahədə tədricən özünəməxsus yer tutduğunu göstərir (**DSK.** www.stat.gov.az). Lakin turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində 2023-cü ildə iqtisadi fəaliyyət növləri üzrə muzdla işləyən kişilərin sayı 57805 (68,9 %) nəfərdirsə, qadınların sayı 6429 (31,1 %) nəfərdir (DSK. www.stat.gov.az). Qadınların turizm sahəsində fəaliyyətinin kişilərə nisbətən xeyli aşağı olması, bu sahədə də gender balansının pozulduğunu təsdiq edir.

Azərbaycanda turizmin inkişafı üçün turistlərə xidmət səviyyəsinin yüksəldilməsinə və turistlərlə yerli əhalinin sosial-iqtisadi və mədəni münasibətlərinin yüksək səviyyəyə qaldırılmasına ehtiyac vardır. Məhz, bu amil turistlərin gəlişinə təsir edən əsas amil kimi, həm də turizmdən gələn gəlirlərin artımına, iqtisadiyyatın və ticarətin inkişafına müsbət təsir göstərir. Tərəflər arasında qurulan sosial-mədəni münasibətlər hər iki tərəfin mədəni baxımdan inkişafını təmin edir.

Turizm Azərbaycan üçün yeni bir hadisədir. Bu səbəbdən onun inkişafı ilə bağlı müəyyən sosial-mədəni problemlərin ortaya çıxması labüddür. Lakin Azərbaycanı ziyarət edən turistlər daima azərbaycanlıların tolerant, qonaqpərvər və gülərüz bir xalq olduğunu xüsusi olaraq vurğulayırlar. Məhz, bu milli keyfiyyətlər ölkədə turizmin inkişafı üçün əsas şərtdir. Bizim apardığımız araşdırmalar da bunu təsdiq edir. Çünki rəyi soruşulan xarici respondentlərin əksər

hissəsi Azərbaycanda ən çox onun təbiəti və insanlarının xoşlarına gəldiyini, yerli insanların qonaqpərvərliyini, mədəniliyini və səmimiliyini xüsusi olaraq qeyd edirlər.

Turizmin inkişafının siyasi səmərəsi də böyükdür.Azərbaycan öz daxili mədəniyyətini və tarixi gerçəklərini tanıtmaqla beynəlxalq aləmdə tanınır. Azərbaycanda son on ildə yeni istehsal və xidmətlərin meydana çıxmasında, yeni iş yerlərinin açılmasında, istehlak qabiliyyətinin artmasında, turizmin elmi pedaqoji skrukturunun formalaşmasında, ümumi təhsil səviyyəsinin artmasında və digər bu kimi sosial-iqtisadi və sosial-mədəni sahələrin inkişafında turizmin özünəməxsus yeri olduğunu təqdim etdiyimiz statistik materiallar da təsdiq edir.

Azərbaycan ərazisi qədim tarix və mədəniyyətə malik olduğu üçün, əsasən neolit dövründən bu günə kimi bütün ardıcıl tarixi dövrləri əks etdirən zəngin tarixi-mədəni abidələrlə, müasir dövrdə ənənəvi mədəniyyəti yaşadan xalq sənəti növləri, milli məxbəxi ilə zəngindir. Azərbaycan xalqının həyat tərzinə çevrilən tolerantlıq və ölkə ərazisində mövcud olan multukultural mühit, əslində bu zəngin mədəniyyət tarixinin sosial-mədəni davranış normalarında inikasıdır. Çünki Azərbaycan ərazisində tarixən kök salan mədəni müxtəliflik vahid milli şüurun formalaşmasına öz təsirini göstərmişdir. Bu baxımdan, insanların dünyagörüşü, milli-mədəni şüuru mədəni turizmin inkişafında əsas rolu oynayır. Bizim yerli əhali və əcnəbi turist respondentləri arasında keçirdiyimiz sorğular da bunu təsdiq edir.

Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə keçirdiyi bir sıra beynəlxalq konfrans və festivalların turizmin inkişaf etdirilməsi baxımından böyük əhəmiyyəti vardır. Bunlar bir tərəfdən milli-mənəvi dəyərlərin inkişaf etməsinə, digər tərəfdən də mədəni turizmin inkişafına şərait yaradır. Çünki milli-mənəvi dəyərləri, milli özünəməxsusluğu inkişaf etdirmədən hər hansı mədəni turizmdən bəhs etmək absurddur. Son illər 100-dən çox mədəniyyət sarayının, 219 muzeyin, 35 rəsm qalereyasının, 25 dövlət teatrının, 3161 kitabxana-informasiya sahəsinin maddi-texniki bazası müasir tələblər səviyyəsində bərpa olunmuş, muğam sahəsində yeni istedadlar aşkar edilmiş, xalq sənətkarlığı və mədəni irsimizin müxtəlif sahələri inkişaf etdirilmişdir.

Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsi və ölkədə multikulturalizm siyasətinin tətbiqi Azərbaycanda turizmin inkişafı üçün münbit zəmin hazırlamışdır. Prezident İlham Əliyev demişdir: "Əsrlər boyu bütün mədəniyyətlər, dinlər və etnik qrupların nümayəndələri Azərbaycanda bir ailə kimi yaşamışlar. Bu, bizim böyük sərvətimizdir. Azərbaycan kimi ölkələrin nümunəsi yaxşı göstəricidir ki, multikulturalizm yaşayır və biz müsbət meylləri stimullaşdırmalıyıq" [http://www.fhn.gov.az/newspaper].

Turizmin inkişafında əhalinin mədəni səviyyəsi müsbət baxımdan təsir göstərdiyi kimi, turizm əhalinin mədəni səviyyəsinin yüksəlməsinə də şərait yaradır. Turizmin inkişafına mənfi təsir göstərən bu psixoloji durumun ortadan qaldırılması üçün, xüsusən bölgələrdə maarifləndirmə sahəsində əlavə işlərin görülməsinə ehtiyac vardır [tourism.edu.az/2015/images/media/pages/res].

Azərbaycana gələn turistlərin bir qismi ölkədəki mədəni müxtəlifliyi dəyərləndirir və tarixi-mədəni abidələrə maraq göstərdiyini bildirir. Eyni zamanda, azərbaycanlıların qonaqpərvər, səmimi və mədəni insanlar olduğunu qeyd edirlər (cədvəl 6). Lakin sorğulardan məlum olur ki, xarici turistlərin bir qismi Azərbaycan mədəniyyəti ilə yaxın təmas qura bilmir və ya subyektiv səbəblərdən buna cəhd göstərmir. Məhz, turizmin inkişafı hər iki tərəf arasında meydana çıxan problemlərin əksəriyyətini ortadan qaldırır və onların sosial-mədəni baxımdan tənzimlənməsinə şərait yaradır.

Mədəni turizmin inkişafı turizmin bütün növlərinin iqtisadi sabitliyinin təmin olunmasına şərait yaradır. Çünki digər turizm növlərindən fərqli olaraq mədəni turizmdə mövsümilik yoxdur. Yəni, ölkənin tarixi-mədəni abidələri ilə yaxından tanış olmaq istəyən turistlər ilin istənilən fəslində bu yerləri ziyarət edirlər. Lakin bu abidələrin beynəlxalq standartlara uyğun şəkildə təqdim olunması işinin təşkil olunmasına böyük ehtiyac vardır. Müxtəlif sahələri təmsil edən alimlərin bu işə cəlb olunması və abidələrin tarixi, təyinatı ilə bağlı məsələlərə aydınlıq gətirilməsi və onların

pasportlaşması, UNESCO-nun Maddi-Mədəni İrs siyahısına düşən abidələrimizin (İçərişəhər, Qız qalası, Şirvanşahlar sarayı, Qobustan) qorunması və yeni abidələrin bu siyahıya əlavə etdirilməsi, bu yerlərə maraqlı turist marşrutlarının təşkil olunması, bu abidələri təbliğ edən film və kliplərin çəkilməsi və digər işlər vacib məsələlərdəndir. Bu sahədə Dövlət və Turizm Agentliyi bir çox işlər görmüş və görməkdədir.

Bölgədə sosial-mədəni durumun qorunub saxlanılması və inkişafı, paralel şəkildə mədəni turizmin inkişafının təmin edilməsi ilə əlaqədar bir neçə tövsiyə irəli sürmək olar:

- Azərbaycanın qədim tarix və mədəniyyətini, azərbaycanlıların tolerant və mədəni bir xalq olduğunu dünyaya göstərmək üçün mədəni turizmin əhəmiyyəti böyükdür.
- Mədəni turizm ölkədə multikultural mühitin daha da inkişaf etməsinə və dolayısıyla Azərbaycanın digər dünya ölkələri ilə yaxın mədəni-siyasi münasibətlər qurmasına şərait yaradır.
- Mədəni turizm ölkədə müxtəlif sənət, incəsənət növlərinin inkişafına və milli mədəniyyətin zənginləşməsinə zəmin yaradır.
- Mədəni turizm ölkədə müxtəlif elm sahələrinin və təhsilin inkişafına, əcnəbi dil bilgisinin artmasına təkan verməklə sivilizasiyon tərəqqini sürətləndirir.
- Mədəni turizm ölkədə multikultural düşüncənin, tolerantlığın və ümumi mədəni səviyyənin irəliləməsinə şərait yaradır.
- Mədəni turizm ölkədə müxtəlif abidələrin, muzeylərin, infrastrukturun bərpa olunmasına və yaradılmasına şərait yaradır.
- Turizmdən gələn gəlirlərin böyük hissəsi yerli xalqın sosial-mədəni, sosial-iqtisadi problemlərinin həllinə, həmçinin yerli təbii, sosial-mədəni durumun təkmilləşməsinə yönəldilməlidir.

Azərbaycanda turizmin sosial amillərə və sosial amillərin turizmə təsirinin təhlili əsasında irəli sürülən təklif və tövsiyələr:

- Bölgədə orta və yüksək səviyyəli turizmi cəlb edən Türkiyə və az gəlirli turistləri cəlb edən Gürcüstan ilə rəqabət aparmaq üçün, təhlükəli qeyri-müəyyən durumdan çıxaraq turizm sahəsində konkret strateji tədbirlər görülməli və bölgədə bənzəri olmayan yeni ekoloji turizm növlərini inkişaf etdirməli və bu sahədə olan innovativ ideyalar həyata keçrilməli ;
- Əksər turistlərin təhlükəsizlik səbəbindən yanlız qonaq evlərində, mehmanxanalarda yerləşdiyini nəzərə alaraq, bütün gəlir qruplarına aid olan əcnəbi və yerli turistlərin tələblərinə, imkanlarına uyğun qonaq evləri, mehmanxanaların sayı artırılmalı;
- Cəmiyyətdə sosial birlik və həmrəyliyi inkişaf etdirmək məqsədilə sosial turizmin təkmilləşməsi istiqamətində müəyyən layihələr hazırlanıb həyata keçirilməli;
- Turizmdə müxtəlif dini inanc və mədəniyyət nümayəndələrinin təmsil olunduğunu nəzərə alaraq, onların identikliyinə toxunan hər hansı bir mənfi hal araşdırılıb ortadan qaldırılmalı və onların sərbəstliyi üçün multikultural, tolerant şərait yaradılmalı;
- Turizmdə gəlir baxımından ali savadlı insanların daha fəal iştirak etdiyini nəzərə alaraq, turizm xidmət sahəsinin mədəni səviyyəsinin yüksəldilməsinə və mədəni-intellektual tədbirlərin artırılmasına xüsusi diqqət yetirilməli;
- Kütləvi turizmdə gənclərin fəal təmsil olunduğunu bilərək, Azərbaycanda turizmin inkişafında 18-45 yaş həddində olan turistlərin tələb və maraqları nəzərə alınmalı, onların az və orta gəlir səviyyələrinə uyğun ektremal, əyləncəli və digər bu növ fəal turizm növlərini inkişaf etdirməli;
- Turizmin inkişafının ilk növbədə bölgələrdə aqrar sahənin, fermer təsərrüfatının inkişaf etdirdiyini və yeni iş yerlərinin açılmasını təmin etdiyini nəzərə alaraq, bölgələrdə bütün

sosial-iqtisadi inkişaf planlarının turizm ilə əlaqəli şəkildə həyata keçirilməsini təmin edən koordinasiya mərkəzləri yaradılmalı;

- Bölgələrdə ekoloji turizmi yaratmaq üçün, turizmin inkişafını yerli əhalinin iştirakı ilə təmin etməli və bu sahədə əhalinin maddi-mənəvi maraqlarına cavab verməli;
- Azərbaycanda turizmin müxtəlif sahələrinin, xüsusilə sosial-mədəni aspektlərinin sosioloji araşdırılması artırılmalıdır.

## NƏTİCƏ

Azərbaycanın regionlarında turizmin inkişafı üçün turistlərə xidmət səviyyəsinin yüksəldilməsinə və turistlərə yerli əhalinin sosial-iqtisadi və mədəni münasibətlərinin yüksək səviyyəyə qaldırılmasına ehtiyac duyulur. Bu baxımından turistlərin gəlişinə təsir edən əsas amil kimi, eyni zamanda turizmdən gələn gəlirlərin artımına iqtisadiyyatın və ticarətlər şəbəkələrinin inkişafına təsir göstərəcəkdir.

Turizm, xüsusilə turizm sosiologiyası elmi baxımdan gənc sahə olduğu üçün, onun kateqorial aparatı hələ yetərincə formalaşmamışdır. Bu baxımdan, turizmin elmi anlayışları ilə bağlı elmi ictimaiyyətdə geniş diskussiyalar, mübahisələr davam etməkdədir. Lakin bu sahədə aparılan hər bir yeni elmi tədqiqat işi turizm elminin formalaşmasına və inkişafına təkan verir. Ölkəmizdə turizm sahəsində aparılan tədqiqat işləri Azərbaycanda turizmin elmi-nəzəri əsaslarının formalaşmasına və onun bazasında praktiki fəaliyyətlərə şərait yaradır.

Turizmin inkişafına təsir edən amillərin nəzəri əsaslarının tədqiqi göstərir ki, turizm hərtərəfli inkişafa əsaslanan və eyni zamanda, hərtərəfli inkişafı tənzimləyən bir sektordur. Yəni konkret bir strateji layihə olmadan və bu layihə dövlət tərəfindən hərtərəfli şəkildə dəstəklənmədən turizmin inkişafına nail olmaq mümkün deyildir. Xüsusilə, bu sahədə yerli şəraiti, insanları dərindən bilən və turizmin inkişafına təsir edən amilləri önə çıxararaq dəyərləndirməyi bacaran peşəkar turizm kadrlarına böyük ehtiyac vardır.

Azərbaycanda turizm və onun inkişafına təsir edən sosial-mədəni və digər əsas amillər ətraflı tədqiq olunur. Azərbaycanda turizmin inkişafına təsir edən sosial-mədəni amillərin tədqiqi ilə bağlı keçirilmiş sosioloji sorğu materillarının təhlilinə, eyni zamanda Dövlət Statistika Komitəsinin statistik materiallarına və yerli tədqiqatlara əsaslanır. Biz, Bakı şəhərində və Azərbaycanın müxtəlif rayonlarında xarici turistlər arasında, həmçinin Bakı şəhərində və Azərbaycanın müxtəlif rayonlarında yerli əhali arasında keçirilən sosioloji sorğunun nəticələri əsasında müəyyən qənaətlər əldə etdik. Apardığımız sosioloji sorğunun gender meyarları, demoqrafiya, sosial-iqtisadi vəziyyət, təhsil və ailə səviyyəsi baxımından təhlili və aparılan tədqiqatların sistemli analizi, Azərbaycanda turizmin inkişafına təsir edən sosial-mədəni amilləri və turizm bölgələrinin potensialını, mövcud problemlərini müəyyənləşdirməyə imkan yaratdı.

Ümumiyyətlə, hər bir ölkədə turizm sənayesinin inkişafı, həmin ölkənin iqtisadiyyatının inkişafına fayda gətirməklə yanaşı, bu ölkənin sosiomədəni səviyyəsinin yüksəlməsinə stimul verir.

## Ədəbiyyat:

*Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı. Dövlət proqramı (2004-2008).* (2008). ARDSK-nin materialları. Bakı, 584 s.

*Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı. Dövlət proqramı (2009-2013).* (2010). Bakı, 436s.

*Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət proqramı.* (2002). Azərbaycan Respublikası Prezidentinin fərmanı. Bakı, 27 Avqust. 2002-ci il.

*Azərbaycan Respublikasının turizm haqqında qanunu.* (2000). Bakı. "Qanun", Azərbaycan. Bələdçi kitabı. 256s.

*Azərbaycanda turizm və onun təbliğində kitabxanaların rolu: metodik tövsiyələr.*( 2011). /İxtis. red. və bur. məs. K.Tahirov; tərt. ed. A.Abdullayeva; red. M. Cəfərova/. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, Bakı, 102 s.

*Akın, A.T.* (1975). Bazı yönleriyle ABD turizmi ve Cornell Universitesi otel yöneticiliği bölümü. Ankara

*Avcıkurt C.* (2007). Turizm Sosyolojisi: Turist-Yerel Halk Etkileşimi, Detay Yayıncılık, Ankara.

*Berber, Ş.* (2003). Sosyal Değişme Katalizörü Olarak Turizm ve Etkileri. Selçuk Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, Sayı: 9, s.205-222.

*Doğan, H. Z.* (2004). Turizmin Sosyo-Kültürel Temelleri. Detay Yayıncılık, 2. Baskı, Ankara.

*Гулиев, Н.А. Кулагина Е.В*. (2003). Реклама в социально-культурном сервисе и туризме «Огис» Омск 90s.

*Moore, A.* (1985). Rozanzerusu is Los Angeles: An anthropological inquiry of Japanese tourists. Annals of tourism research. 12 (4). s. 619-643.

*Nettekoven, L*. (1979). Mechanismus of intercultural interaction. Tourism: passport to devolopment. Ed. By Kadt E. Oxford University. Press. 265-284.

# AZƏRBAYCAN RESPUBLİKASININ ALİ TƏHSİL SİYASƏTİNİN PRİNSİPLƏRİ VƏ ONLARIN ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏHSİL ALAN TƏLƏBƏLƏR ÜZƏRİNDƏ GÖSTƏRDİYİ TƏSİRLƏR

**Bəsdi ŞƏMİYEVA**
Bakı Dövlət Universiteti,
Sosial Elmlər və psixologiya fakültəsi, Sosiologiya kafedrasının doktorantı,
*Azərbaycan, BAKI*
basti.shamy@gmail.com

**XÜLASƏ**

Azərbaycanda təhsilə verilən dəyər hər zaman göz qabağında olmuşdur. Bunun nəticəsidir ki, təhsilin faziləsizliyinin təmin edilməsi, dünyəvi və milli dəyərlərinin qorunması, onun dünya standartlarına uyğunlaşdırılması Azərbaycan Respublikasının təhsil siyasətinin əsas mahiyyətini təşkil edir. Ölkəmizdə təhsil sahəsinə mühüm əhəmiyyətli strateji sahə kimi yanaşılması, fasiləsiz,milli təhsil konsepsiyasının həyata keçirilməsi və milli bəşəri inteqrasiyanın təhsilə tətbiq edilməsi də Azərbaycan Respublikasında təhsil siyasətinin nə dərəcədə önəmli olduğunu bir daha sübut edir. Bunlar da öz növbəsində təhsilin idarə edilməsi qarşısında hər zaman yeni tələblər yaradır. Bu yöndə təhsil siyasətində pedaqoji prosesi, hadisə və obyektlərə yönəlik rəhbərlikdə özünəməxsus qanunauyğunluqları nəzərə almaq vacibdir. Bu kimi məsələləri nəzərə alaraqdan deyə bilərik ki, təhsil sistemində idarəetmənin təmin edilməsi həmin müəssisələrdə təhsil alan tələbələrin davranışlarına da xüsusi olaraq təsir göstərir. Əks təqdirdə təlim-tərbiyə prosesinin təşkilində hər zaman ciddi nöqsanlar ortaya çıxır.

**Açar sözlər:** təhsil strategiyası, iqtisadi inkişafa maneə, müəllim hazırlığı, təhsil siyasəti.

# THE PRINCIPLES OF THE HIGHER EDUCATION SYSTEM OF THE REPUBLIC OF AZERBAIJAN AND THEIR EFFECTS ON STUDENTS STUDYING IN HIGHER EDUCATION INSTITUTIONS

**Basdi SHAMIYEVA**
Baku State University,
Faculty of Social Sciences and Psychology, Doctoral student of the Department of Sociology,
*Azerbaijan, BAKU*
basti.shamy@gmail.com

**SUMMARY**

The value given to education in Azerbaijan has always been obvious. As a result of this, ensuring the quality of education, protecting secular and national values, and adapting it to world standards constitute the main essence of the education policy of the Republic of Azerbaijan. Treating education as an important strategic field in our country, implementing the concept of continuous, national education and applying national human integration to education prove once again how important education policy is in the Republic of Azerbaijan. These, in turn, always create new demands for education management. In this direction, it is important to take into account the unique regularities in the pedagogical process, event and object-oriented management in education policy. Taking into account such issues, we can say that the provision of management in the educational system has a special effect on the behavior of students studying in those institutions. Otherwise, there are always serious deficiencies in the organization of the training process.

**Key words:** educational strategy, an obstacle to economic development, teacher training, educational politics.

## GİRİŞ

Təhsil sistemi ölkədəki bütün təhsil müəssisələrinin bütünüdür. Buraya çoxlu sayda təhsil müəssisələri daxildir: məktəbəqədər təhsil müəssisələrindən tutmuş təhsil akademiyalarına qədər. Təhsil sistemi üstqurum hadisəsidir və bəzilərinə güclü təsir göstərir. O, tarixi şəraitdən, cəmiyyətin iqtisadi əlaqələrinin xarakterindən, elmi-texniki tərəqqidən və sosial tələbatdan asılı olaraq dəyişir. Təhsil sistemi cəmiyyətin strateji məqsədi kimi mühüm rol oynayır. Ölkədə mümkün stabilliyi qurmaq və qorumaq və eləcə də, davamlı inkişafını təmin etmək məqsədilə təhsil sistemində mövcud sistem və onun uyğun formata prinsiplərə uyğun formada idarəedilməsi də mühüm önəm kəsb edir. Təhsili idarəetmənin obyektinə bütün təhsil sistemi, o cümlədən tədris, elmi-tədqiqat və məktəbdənkənar uşaq müəssisələri, təhsil şöbələri və s.daxildir [Süleymanova, 2014:45]. Prosesin özünə aydınlıq gətirsək bu təhsil prosesinin idarəolunması və düzgün istiqamətdə yönləndirilməsi üçün nəzərdə tutulan əsas amillər, strategiyalar və təşkilati quruculuğunu və təhsildə olan mövcud qanunvericilik və siyasi qaydalara riayət etməklə onun prinsiplərinin davamlılığını və tətbiqini gücləndirməkdir. Təlim, tərbiyə və təhsil prosesi dövlət tərəfindən tənzimlənən təhsil sistemi, dövlətin qeydiyyata aldığı ictimai təşkilatlar, ayrı-ayrı vəzifəli şəxslər, eləcə də ölkəmizdə fəaliyyət göstərən özəl müəssisələrdə rəhbərləri tərəfindən idarə olunur. “Təlim, tərbiyə və təhsil” prosesinin özünə xüsusi aydınlıq gətirsək və bu idarəedici faktorları ayrı ayrılıqda açıqlasaq, bu terminlər geniş bir təhsil sistemini və təhsilin bütün aspektlərini əhatə edir. Bu işin içində olan təşkilatlar, şəxslər və qurumlar bu prosesin bir hissəsini təşkil edirlər.

Təhsil sisteminin prinsiplərin bəhs etməzdən əvvəl,gəlin, təhsil sistemi nədir və mahiyyəti nədən ibarətdir kimi suallara cavab tapmağa çalışaq. Öncəliklə, təhsil sistemi ümumilikdə bir ölkədə mövcud olan və tətbiq edilən bütün təhsil məsələlərindən və qurum və müəssisələrinin cəmi olaraq nəzərdə tutulur. Bu sistemə məktəblər, universitetlər, texniki və peşə təhsili müəssisələri, eləcə də, təhsil qanunları və siyasətləri daxildir. Təhsil sistemi bu qurum və müəssisələrdə təhsil alanlara, yəni şagirdlərə və tələbələrə bilik,bacarıq və dəyərlərin ötürülməsi üçün təşkil edilmiş bir prosesdir. Və təhsil sistemi də özlüyündə bir çox komponentlərdən ibarətdir. Bunlara misal kimi biz formal təhsil, qeyri-formal təhsil, təhsil müəssisələri və qurumları, təhsilə dair qanunlar və siyasətlər, təhsil proqramarı və kurikulumları göstərə bilərik. İndi isə bu komponentləri biraz daha dərində öyrənək. Belə ki, formal təhsil dedikdə biz məktəblər, kolleclər, universitetlər kimi rəsmi qurumlar tərəfindən verilən təhsili nəzərdə tuturuq. Qetri-formal təhsil dedikdə isə biz, kitabxanalar, muzeylər və icma mərkəzləri kimi qeyri-rəsmi qurumlar tərəfində verilən təhsili nəzərdə tuturuq. Təhsil müəssisələri, bizim daha öncə də qeyd etdiyimiz kimi məktəbəqədər təhsil müəssisələri, ibtidai məktəblər, orta məktəblər, peşə təhsili müəssiləri və ali təhsil müəssilərini əhatə edir. Təhsil qanunlari və siyasətləri təhsilin necə təşkil olunacağını və idarəediləcəyini müəyyən edən qanunvericilik və siyasi sənədləri özündə əks etdirir. Təhsil proqramları və kurikulumlar isə müxtəlif fənlər üzrə tədrisin təkili üzrə proqram və tıdris texnologiyalarını əhatə edir. Qeyd edilən bütün bu komponentlər əslində qarşılıqlı olaraq fəaliyyət göstərir və birlikdə işləyərək təhsil prosesini təşkil edir və eyni zamanda cəmiyyətin bilik və mədəniyyət səviyyəsini yüksəltməyə xidmət edir.

Azərbaycan Respublikasının Təhsil Qanununa görə təhsil sisteminin başlıca vəzifələri “Dərin və hərtərəfli biliyə, bacarığa, praktik hazırlığa, yüksək mədəniyyətə, məsuliyyət hissinə, mütərəqqi dünyagörüşünə malik olan və onu daim inkişaf etdirməyə çalışan şəxsiyyət formalaşdırmaq, soykökünə,... xalqımızın milli, əxlaqi, humanist, mənəvi-mədəni dəyərlərinə dərindən yiyələnən,... biliyinə, əxlaqi-mədəni keyfiyyətlərinə, demokratikliyinə görə yüksək səviyyəli vətəndaşlar yetişdirmək,... Azərbaycanı dünyanın ən inkişaf etmiş demokratik dövlətlərindən birinə çevirməyə qadir olan insan tərbiyə etməkdir” [Azərbaycan Respublikasının Təhsil Qanunu, 1992:6].

Beləliklə ölkəmizdə qurulan və siyasəti aparılan təhsil sisteminin əsasını və ən önəmli vəzifəsini yeni Respublika quruculuğunu uğurlu bir şəkildə reallaşdıracaq insan, vətəndaş və şəxsiyyət yetişdirib, tərbiyə edib, formalaşdırmaq təşkil edir. Və bu məqalədə də biz ülvi vəzifəyə xidmət edən təhsil sisteminin təkmilləşdirilməsi problemlərini araşdıracaq və onların tətbiqində atılan yalnış addımlardan tutmuş, bu addımlara səbəb olan vəziyyətləri araşdırmağa çalışacağıq. Təhsilin idarəedilməsinin düzgün həyata keçirilməsində bizə faydalı xidmət göstərən vasitələrdən biri də təhsil proqramlarıdır.

Təhsil proqramları ölkəmizin bir çox təhsil müəssisələrində təhsil sisteminin düzgün qurulması üçün formalaşdırılır və bir təhsil müəssisəsində təhsil alarkən tələbələrə və ya təhsilalanlara verilən təlim və tədris proqramlarını ifadə edir. Bu proqramlar ümumilikdə hər bir müəssisənin təhsil məqsədləri və təhsilalanların tələbləri ilə uyğunlaşdırılır.

Təhsil proqramları, fərqli səviyyələrdə (məktəb, kollec, universitet və.s kimi) və müxtəlif sahələrdə təhsil almanı təşkil edir. Bu proqramlar təhsil müəssisəsinin missiyasına, müəyyən tələbçi qruplarına uyğunlaşdırılıraq təşkil edilir və proqramların tərkibinə müxtəlif fənnlər, laboratoriya işləri, seminarlar və digər təhsil tədbirləri daxil ola bilər. Həmçinin, təhsil proqramları öyrənilən sahənin texniki və praktiki təlimatını, tədqiqat və proyekt işini də özündə ehtiva edə bilər. Təhsil proqramları təhsilalanlarin təhsil və peşəkar inkişafını dəstəkləmək məqsədi ilə hazırlanır.

Təhsil sisteminin idarəsi ilk növbədə onun quruluşuna uyğun aparılır ölkəmizdə təhsil sisteminin quruluşuna məktəbəqədər tərbiyə, ümumtəhsil (ibtidai, əsas, orta təhsil), peşə-ixtisas təhsili (texniki peşə,orta ixtisas, ali təhsil) və diplomdan sonrakı hazırlıq təhsili: stajkeçmə, ordinatura və s., magistratura, doktorantura, məktəbdənkənar təlim və tərbiyə, sərbəst təhsil, ixtisasartırma və kadrların yenidən hazırlanması daxildir [Cahangirov, 2021:57].

Bu quruluşa uyğun olaraq idarə edilməsi üçün xüsusi qaydalar müəyyən edilir. Və təhsilin idarəolunması ilk növbədə Təhsil Qanunu,daha sonra müvafiq qanunvericilik aktları, xüsusi əsasnamələr və sonda təhsil müəssisələrinin öz daxili nizamnamələri ilə tənzimlənir.

Təhsil sisteminin idarə edilməsində başlıca subyekt kimi Azərbaycan Respublikası və onun Elm və Təhsil Nazirliyi, habelə yerli təhsil orqanları çıxış edir. İdarə olunmada əsas strategiyanı ölkə prezidentinin rəhbərliyi altında Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyənləşdirir və

- Təhsil Qanunu və s., bunun kimi sənədlərin icrasına nəzarət edir.
- Təşkilati struktur baxımından təhsil sisteminin idarə edilməsində aparıcı rol oynayır.
- Təhsil üzrə dövlət idarə strukturlarını yaradır və onlara rəhbərlik edir.
- Təhsil müəssisələrinin yaradılması, yenidən təşkili və ləğvi qaydalarını müəyyən edir.
- Peşə-ixtisas təhsili müəssisələrini yaradır və ləğv edir.
- Peşə-ixtisas üzrə ixtisasları müəyyən edir və sosial sifarişlərdən asılı olaraq yenidən açmaya nəzarət edir.
- Dövlət təhsil standartlarını müəyyən edir və bu təhsil sənədlərinin bu standartlara uyğun olmasına nəzarət edir və s., bunun kimi göstərilən məsələləri yerinə yetirir.

Ölkəmizdə təhsilin təşkili və idarəsindən məsul qurum, bildiyimiz kimi, Elm və Təhsil Nazirliyidir. O, ölkəmizdə təhsil sektorunda mərkəzi idarəetmə orqanı olmaqla bərabər təhsil sahəsində mövcud sistemi nizamlayır, təhsil sahəsində vahid dövlət siyasətini hazırlanmasında iştirak edir və aşağıdakı mesleleri həll edir.

- Təhsil sahəsində olan mövcud qanunvericiliyin icra olunmasına və təhsikdа dövlət standartlarının düzgün icrasına nəzarət edir.
- Təhsil sistemi üçün lazım olan informasiya sistemini təşkil edir.

- Təhsil müəssisələrinin orqanlarının normal fəaliyyətini təmin etməyə qadir olan sistem formalaşdırır.
- Mülkiyyət formasına baxmayaraq butuj təhsil müəssisələri üçün eyni tipdə olan əsasnamələrin, təhsil planının, xüsusi proqramların, ayrı-ayrı dərs vəsaitlərinin və tədris-metodiki materialların hazırlanmasını təşkil edir, və təlim-tərbiyə müəssisələrinə digər lazimi köməkliyi göstərir.
- Təhsil müəssisələrinin maliyyələşdirilməsinin normalarını müəyyən edir.
- Səlahiyyətləri çərçivəsində təhsil müəssisələrinin təşkili, yenidən təşkili və ləğvi məsələlərini həll edir.
- Təhsil müəssisələrinin açılması üçün lisenziya verir.
- Təhsil müəssisələrinin açılması və ya bağlanması üçün vəsaiət qaldırır.

Qeyd etdiyimiz məsələlər zəminində nazirlik təhsil sahəsində yarana biləcək hər bir növ problemlərin həllində fəallıq göstərir və ümumi intizama nəzarət edir. Bu da öz növbəsində idarəetmə sahəsində fəal orqanlardan biri olmağına şərait yaradan faktorlardan biridir.

Azərbaycanda təhsilə verilən dəyər hər zaman göz qabağında olmuşdur. Bunun nəticəsidir ki, təhsilin faziləsizliyinin təmin edilməsi, dünyəvi və milli dəyərlərinin qorunması, onun dünya standartlarına uyğunlaşdırılması Azərbaycan Respublikasının təhsil siyasətinin əsas mahiyyətini təşkil edir.

Ölkəmizdə təhsil sahəsinə mühüm əhəmiyyətli strateji sahə kimi yanaşılması,fasiləsiz,milli təhsil konsepsiyasının həyata keçirilməsi və milli bəşəri inteqrasiyanın təhsilə tətbiq edilməsi də Azərbaycan Respublikasında təhsil siyasətinin nə dərəcədə önəmli olduğunu bir daha sübut edir. Bunlar da öz növbəsində təhsilin idarə edilməsi qarşısında hər zaman yeni tələblər yaradır. Bu yöndə təhsil siyasətində pedaqoji prosesi, hadisə və obyektlərə yönəlik rəhbərlikdə özünəməxsus qanunauyğunluqları nəzərə almaq vacibdir.

Müasir dövrdə təhsil hər şeydən qabaq dövlətin strateji -ideoloji siyasətinə xidmət edən və bu səbəbdən dolayı prioritet sayılan bir sahədir [Həmidov, 2007:34].
Bu kimi məsələləri nəzərə alaraqdan təhsil siyasətinin əsas prinsiplərini vurğulamaq istərdim:

- təhsil dövlət və ictimai səviyyə daşıyır, belə ki, təhsilin təmin edilməsində dövlət birbaşa çıxış edir və buna tabe qurumlar da birbaşa dövlət qarşında hesabatlıdırlar. (Hümeyr Əhmədov,2010,56) Belə ki, təhsil müəssisələri, onların maddi-texniki təchizatı, təhsilin məzmunu dövlət tərəfindən tənzimlənir. Ancaq bu digər özəl qurumların fəaliyyətini heç bir halda məhdudlaşdıran bir hal almır, əksinə onların qarşılıqlı fəaliyyətinə təkan verir.

- dövlət təlim-tərbiyə müəssisələrində təhsilin dövlət hesabına təmin edilməsi və hər bir vətəndaş üçün bunun əlçatan olması. Azərbaycanda təhsil pulsuz xarakter daşıyır. Ödənişli əsaslı təhsilin xüsusiyyətləri də dövlət tərəfindən tənzimlənir.

- təhsilin humanist səciyyə daşıması və humanitarlaşdırılması. Yəni hər bir şagirdin öz daxili yaradıcılığına, qabiliyyətinə və imkanına görə təhsil almaq hüququ təmin edilir.

- təhsilin dünyəviliyi. Bu prinsip təhsilin ölkəmizdə qanunun əsasını təşkil edən Konstitusiya ilə təsbit olunmuş mahiyyəti ilə tənzimlənir və onun müasir respublika quruculuğu xəttini tamamlayır.

- təhsildə hüquq bərabərliyi. Bu təhsil sisteminin demokratikliyini təmin edir. Yəni Azərbaycan təhsili burada yaşayan hər kəsin üzünə açıqdır və hər bir vətəndaşın,o cümlədən hər iki cinsdən olanların hüquq bərabərliyi təbiidir.

- təhsildə siyasi partiyalılığın yolverilməzliyi. Ölkəmiz çoxpartiyalı, liberal və demokratik bir ölkədə olaraq hər kəsin siyasi fəaliyyət azadlığını təmin edir. Amma bu siyasi düşüncənin təhsil sahəsində rahatlıqla aşılana və ya təbliğ oluna biləcəyi mənasını vermir və təhsil sahəsində siyasi müdaxilə yolverilməzdir.

Təhsilin prinsiplərindən danışarkən təhsildə dövlət siyasətinin prinsiplərini də vurğulamaq düzgün olardı. Belə ki,

*humanistlik prinsipi* - dövlət siyasətinin təməl prinsiplərindən biri kimi çıxış edir ki, insani dəyərlərə üstünlük verilməsi, insanların hüquq və azadlıqlarının təminatına önəm verilməs, ətraf mühitin qorunması və ona zərərin minimuma endirilməsi, insanlara hörmət, qayğı göstərilməsi və bütün fikirlərə və düşüncələrə qarşı tolerantlıq və dözümlülüyün prioritet kimi qəbul olunması bu prinsipin əsasını təşkil edir.

*Demokratiklik* – təhsil müəssisələrində təhsil alan şəxslərin azad düşüncə ruhunda tərbiyə edilməsi, təhsil müəssisələrinin muxtariyyətinin mümkün dərəcədə artırılması kimi amillər burada əsas rol oynayır.

*Bərabərlik* – bütün ölkə vətəndaşlarının bərabər surətdə təhsil almalarının təmin edilməsi və hər kəsin təhsil hüququnun təmin edilməsidir.

*Millilik və Dünyəvilik* – milli və ümumbəşəri dəyərlərin qorunması əsasında onların vəhdətinin təmin edilməsi və kecmisdən bizə miras qalmış deyərlər əsasında yeniləşməsinin təmin olunması burada xüsusi əhəmiyyət kəsb edir.

*Keyfiyyətlilik* – təhsilinin mövcud standartlara və cəmiyyətin, dövlətin, vətəndaşın tələb və maraqlarına uyğunluğu.

*Səmərəlilik* - təhsilin elmi yeniliyə və son məlumatlara əsaslanaraq inkişaf etdirilməsi.

*Fasiləsizlik* – təhsilin bütün pillələrinin insanın həyatı boyu ardıcıl davam etməsinin təmin edilməsi.

*Liberallaşma* – təhsilin fəaliyyətində ictimaiyyətə açıqlığın artırılması.

İnteqrasiya – milli təhsil sisteminin dünya təhsilinə səmərəli inteqrasiyasının təmin olunması bu prinsipin əsasını təşkil edir.

Ümumilikdə sadalanan bütün prinsiplər təhsil müəssisələrində təhsilin effektiv idarəsinin təmin edilməsinə xidmət göstərir və bu da öz növbəsində orada təhsil alan tələbələr üzərində öz təsirini büruzə verir. Bəs bu prinsip və strategiyalar təhsildə təhsilalanlara necə təsir edə bilər?

Belə ki, bu təsirlər bir çox aspektlərdən özünü göstərə bilər. İlk olaraq hər bir qayda,qanun və prinsip keyfiyyətin bir nömrəli təminatçısıdır. Effektiv bir idarəetmə təhsilin keyfiyyətini yaxşılaşdırar və tələbələrin daha yaxşı təhsil almağına, daha yüksək bilik səviyyəsinə çatmağına imkan verər. Digər bir təsir bölməsi odur ki, effektiv idarəçilik təhsildə inklüzivliyi təmin edər. Yəni təhsil müəssisələrində düzgün və uyğun şəraitin qurulması bütün tələbələrin hətta müəyyən imkanlardan məhdud tələbələrin belə uğurlu təhsilinə təminat verər. Rəqabət gücünün artırılması da effektiv idarəçilikdən qaynaqlanan bir təsirdir ki, bir ölkənin təhsil sisteminin dünya sıralamasında necə olduğunu təyin etmək üçün onun idarəçiliyinə xüsusi əhəmiyyət vermək lazımdır. Bu da tələbələri beynəlxalq və regional rəqabətdə yüksək mövqe əldə etməyə təhrik edə bilər. Ali təhsil müəssisələrində yaradılan sosial mühit amilini də nəzərdən qaçırmaq olmaz. Belə ki, tələbələrin davranış tərzləri, oyrenme xüsusiyyətləri, cəmiyyət içində özlərini apara bilmə kimi sosial davranışların təməli buradan qaynaqlanır.

Tələbələr üzərində göstərdiyi təsirlərdən bir digəri də mədəniyyətlə bağlıdır. İdarəetmə prinsipləri tələbələri mədəni, humanist və insanlığa dəyər verən bir fərd kimi yetişməyə vadar edir. Digər bir amil də tələbələrin öz hüquq və məsuliyyətlərini öyrənməyə köməklik göstərməsidir. Və son olaraq idarəçilik prinsiplərinin həyata keçirilməsi tələbələrin mənəvi inkişafını da təmin edir. Bunun sayəsində tələbələr daha geniş düşünür, problemləri həll etmək üçün daha yaradıcı yollar axtarmağa çalışırlar.

## NƏTİCƏ

Bu məqalədə ali təhsil sisteminin prinsiplərinə ayrı-ayrılıqda aydınlıq gətirdik və onların tələbələr üzərindəki əhəmiyyəti və təsirlərini təhlil etdik. Müstəqil tələbələrin dəstəklənməsi, istər təhsil haqqı, istərsə də inkluziv təhsilin təmin edilməsi, sosial mühitin formalaşması və daha yaxşı bir təhsil keyfiyyəti üçün prinsiplər və qanunlar tələbələr üçün əhəmiyyətli bir rola sahibdir.

Məqalədə ortaya qoyduğumuz məlumatlar, təhsil prinsiplərinin tələbələr üzərindəki pozitiv təsirlərini aydın şəkildə göstərmişdir. İdarəetmə prinsiplərinin tətbiq edilməsi, tələbələrin öyrənmə prosesini daha effektiv və sürətli həyata keçirmələrinə yardım edir.

Ədəbiyyat, məsələnin təhlilinə dair daha ətraflı məlumatlar verir və təhsil sistemi ilə bağlı idarəetmə prinsiplərinin və qanunlarının daha da ön plana gətirilməsini və təkmilləşdirilməsini müzakirə edir.

Bu, təhsil sahəsində prinsiplərin və qanunların tələbələr üzərindəki əhəmiyyətini və onların təhsil prosesinə necə təsir etdiyini aydın şəkildə izah edən bir məqalədir. Bu məqalə, təhsilin daha effektiv və inkluziv hala gəlməsinə kömək edən prinsiplər və qanunların əhəmiyyətini özündə əks etdirir.

## Ədəbiyyat:

*Aydın, M.* (2010). Eğitim yönetimi, 2010, Ankara, S.275
*Azərbaycan Respublikasının Təhsil Qanunu*. (1992). Bakı, S.6
*Cahangirov A.* (2021). Təhsilimiz dünəndən sabaha, Bakı, S.57
*Əhmədov, H.* (2010) Azərbaycan Təhsilinin inkişaf strategiyası, Bakı, S.56
*Həmidov, H. & Əliyev, H.* (2007). Azərbaycanda təhsil siyasəti, Bakı, S.34
*Karingo, K.* (2019). Educational management and school administration,New York, P.60
*Okumbe, J.A.* (1998). Educational management, Nairobi, P.28-29
*Rüstəmov, E., Əliyeva, M. & Allahverdiyeva, M.* (2014). Təhsildə psixoloji xidmətin əsasları, Bakı. S.33-34.
*Süleymanova, A.* (2014). Təhsilin əsaslari, Bakı, S.45.
*Белова, Н. & Николаевна Э.* (2023). Образовательный менеджмент, Красноярск, С.145-147.

# VƏTƏNDAŞ CƏMİYYƏTİNİN FORMALAŞMASINDA ŞƏXSİN ROLU

**Süleyman SÜLEYMANOV**
Bakı Dövlət Universiteti,
Sosiologiya kafedrasının "Sosial problemlər" ixtisası üzrə doktorantı,
*Azərbaycan, BAKI*
suleyman-suleymanov-1996@bk.ru

## XÜLASƏ

Adekvat vətəndaş cəmiyyətinin formalaşması istənilən problemin həlli yolunda əsas məsələlərdən biridir. Problemli olan cəmiyyətin daxilində yaşayan şəxslər müəyyən edə bilərlər ki, hansı sahədə çətinliklər var və bunun həlli üçün nə etmək daha yaxşı olar. İnsan tarixi boyu vətəndaş cəmiyyəti mövcud olub və sosial, iqtisadi, siyasi problemlərin həllində əsa rol oynayıb. İnsanların bir yerə toplaşıb hansısa məsələni həll etmələri təcrübəsi vətəndaş cəmiyyətinin əsas aspektlərindən biri idi.

Vətəndaş cəmiyyətinin formalaşmasında şəxsin rolu isə onunla səciyyələnir ki, individual olaraq hər kəs cəmiyyət çərçivəsində subyektiv düşüncəyə sahib lakin, həmin cəmiyyətin bir üzvü olaraq fəaliyyət göstərən varlıqdır. Belə şəxslər toplusu isə vətəndaş cəmiyyətini formalaşdırmaqla onun adekvat olmasını göstərir. Hər nəqədər fərqli baxışlara sahib olsalarda ümumi problem onları birləşməyə çağırır. Bu isə öz növbəsində təhsil, mədəniyyət və bir sıra psixo-sosial əlamətlərdən xəbər verir ki, sağlam cəmiyyət buna deyilir.

**Açar sözlər:** vətəndaş cəmiyyəti, şəxs, şəxsiyyət, fərd, sosail problemlər.

# THE ROLE OF THE PERSON IN THE FORMATION OF CIVIL SOCIETY

**Suleiman SULEYMANOV**
Baku State University,
Doctoral student of the Department of Sociology,
majoring in "Social Problems",
*Azerbaijan, BAKU*
suleyman-suleymanov-1996@bk.ru

## SUMMARY

The formation of an adequate civil society is one of the main issues in solving any problem. Individuals living within a troubled community can determine where the problems are and what can be done to address them. Throughout human history, civil society has existed and played an important role in solving social, economic, and political problems. The practice of people coming together to solve a problem was one of the main aspects of civil society.

The role of the individual in the formation of the civil society is characterized by the fact that each individual is a being who has subjective thinking within the framework of society, but acts as a member of that society. Such a group of people forms a civil society and shows its adequacy. Although they have very different views, the common problem calls them to unite. This, in turn, indicates education, culture and a number of psycho-social signs, which is called a healthy society.

**Key words:** Civil society, person, identity, personality, social problems

İlk başda bəzi anlayışları dəqiqləşdirmək vacibdir ki, məqalədə qeyd olunan məsələləri və məqsədləri aydın və dəqiq dərk edək.

Şəxs ağıl və düşünmək qabiliyyətinə malik olan bəşər övladıdır. Fərd müstəqil varlıqdır, özünəməxsus xüsusiyyətlərinə və keyfiyyətlərinə görə başqalarından fərqlənən unikal fərddir. Şəxsiyyət insanın fərdi xüsusiyyətlərinin, özünəməxsus xarakter xüsusiyyətlərinin, inanclarının, dəyərlərinin, davranış vərdişlərinin və s. məcmusudur. Şəxsiyyət daxili və xarici amillərin təsiri altında formalaşır və o, hər bir insanın fərdiliyini və unikallığını müəyyən edir.

Bu anlayışlar bir çox məndələrdə fərqli göstərilir lakin, ümumiləşdirərək demək olar ki, şəxs, fərd və şəxsiyyət ifadələri bir insanın inkişaf etdikcə formalaşdırdığı sosial formalardır.

Cəmiyyətin problemlərinin həlli üçün xalqın birlikdə yığışması və müəyyən məsələni müzakirəsi bir çox qədim ölkələrdə əsas sosial proses olub. Misal olaraq:

Veçe - qədim və orta əsr Rusiyasında milli məclis;

Komitiya - Qədim Romada xalq yığıncağı;

Qurultay - türk-monqol xalqları arasında milli məclis;

Məclis - müsəlmanlar arasında milli məclisdir;

“Mart Fields” - Franklarda xalq yığıncağı;

Məslixat - qazaxların milli məclisidir;

Thing (Tag) - Skandinaviya xalqlarının və qədim almanların xalq yığıncağı;

Ekklesia - Qədim Yunanıstanda məşhur bir məclisdir [Vygotsky, 2019: 3].

Müasir cəmiyyətin formalaşmasında əsas yer tutan “vətəndaş cəmiyyəti” anlayışı hər bir sosial-iqtisadi formasiyaların fundamentini təşkil edən funksional faktor olaraq çıxış etməkdədir. Vətəndaş cəmiyyətinin formalaşması ümumi məqsəd və baxışlardan irəli gələrək fərdlərin bir istiqamət üzərində düşüncə tərzlərinin reallaşmasını səciyyələndirir [Leontyev, 1975: 2].

Vətəndaş cəmiyyəti azad və ədalətli cəmiyyətin yaradılmasında böyük rol oynayır. O, vətəndaş hüquq və azadlıqlarının avtoritarizm və despotizmdən qorunmasının təminatçısı kimi çıxış edir. Vətəndaş cəmiyyəti həm də siyasi qərarların qəbulunda vətəndaşların iştirakını təmin etməklə demokratiyanın güclənməsinə kömək edir. Vətəndaş cəmiyyətinin fəaliyyəti sayəsində bir çox qanunlar, islahatlar daha açıq və şəffaf olur.

Ümumiyyətlə, vətəndaş cəmiyyəti hər bir müasir dövlətin ən mühüm elementlərindən biridir. O, ölkənin idarə olunmasında vətəndaşların bilavasitə iştirakını təmin edir, siyasətin formalaşmasına mühüm təsir göstərir [Baturin, 1989: 8], vətəndaşların hüquq və azadlıqlarının qorunmasına və müdafiəsinə töhfə verir. Vətəndaş cəmiyyətinin gücləndirilməsi siyasi vəziyyətin sabitləşməsinə, hakimiyyətin şəffaflığının artırılmasına və demokratiyanın möhkəmlənməsinə aparan yoldur.

Bu tip anlayışın yaranmasında ciddi zərurət vardır. İnsanlıq inkişaf etdikcə bir çox yerdə dövlət və cəmiyyət bir-birindən uzaqlaşır, qarşıdurmada mövcud olmaqla eyni zamanda birlikdə reallaşırlar. Çox zaman cəmiyyətin tələbatları ikinci planda qalır [Rubinstein, 2017: 4].

Vətəndaş cəmiyyətinin tərifini iki şəkildə formalaşdırmaq olar:

- Bu, dövlət orqanlarının birbaşa müdaxiləsindən və özbaşına tənzimlənməsindən müvafiq qanunlarla qorunan azad vətəndaşların və könüllü şəkildə yaradılmış birlik və təşkilatların özünü ifadə etmə sahəsidir;
- Bu, qeyri-siyasi münasibətlərin məcmusudur, yəni hökumət və dövlət strukturları çərçivəsindən kənar ictimai münasibətlərdir.

Vətəndaş cəmiyyətinin təzahürlərinə nümunələr:

- Müstəqil media (mətbuat, radio yayımı, televiziya);
- Ekoloji təşkilatlar (təbiəti mühafizə cəmiyyətləri);
- İttifaqlar;
- İnsan hüquqları təşkilatları;

- İdman təşkilatları;
- Yaradıcılıq və mədəniyyət birlikləri və s.

Vətəndaş cəmiyyətinin əsas xüsusiyyətlərindən biridə cəmiyyət-dövlət arasında tarazlığı qoruyan bir struktur olaraq çıxış etməsidir:

Vətəndaş cəmiyyəti müasir cəmiyyətin nəzarət və tarazlıq sisteminin mühüm elementidir, dövlət institutlarının və biznesin fəaliyyətinə nəzarət və məhdudlaşdırmağa imkan verir, qanun pozuntularının və onların vətəndaşların şəxsi həyatına həddindən artıq müdaxiləsinin qarşısını alır [Alekseev, 2000: 7].

Vətəndaş cəmiyyəti qanunvericilik təşəbbüslərinin təşviqi də daxil olmaqla, müxtəlif sosial qrupların maraqlarını səmərəli şəkildə təşviq etməyə və onların hüquqlarını müdafiə etməyə imkan verir. Müxtəlif sosial qrupların əməkdaşlığı və qarşılıqlı kooperativ hərəkəti əsasında fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutları sosial ziddiyyətləri hamarlayır, sosial münasibətləri harmoniyalaşdırır.

Vətəndaş cəmiyyəti qeyri-dövlət tipli cəmiyyətdir. Müasir anlayışda vətəndaş cəmiyyəti insanlar arasında iqtisadi, siyasi, hüquqi və mədəni əlaqələri inkişaf etmiş, dövlətdən asılı olmayan, lakin onunla qarşılıqlı əlaqədə olan cəmiyyətdir.

Vətəndaş cəmiyyəti ictimai maraqları həyata keçirmək üçün fəaliyyət göstərən, lakin siyasi və ya kommersiya məqsədləri güdmədən fəaliyyət göstərən və maddi qazanc məqsədi güdmədən ictimai həyatda iştirak edən könüllü vətəndaşları birləşdirən qeyri-kommersiya təşkilatlarının üfüqi strukturlaşdırılmış şəbəkəsidir.

Vətəndaş cəmiyyəti dövlətdən fərqli olaraq, hakimiyyət münasibətləri və biznes əsasında qurulan, eqoist əxlaq və rəqabət münasibətləri çərçivəsində deyil, fəaliyyət göstərən sosial həmrəylik münasibətlərinə əsaslanır.

Vətəndaş cəmiyyəti dövlətlə birlikdə inkişaf etmiş hüquq münasibətləri yaradan yüksək sosial, mədəni, mənəvi və iqtisadi statusa malik insanların cəmiyyətidir.

Vətəndaş cəmiyyəti kompleks struktura malikdir, o cümlədən iqtisadi, iqtisadi, etnik, dini və hüquqi münasibətlər. Vətəndaş əlaqələri hüquqi cəhətdən bərabər tərəfdaşlar arasında rəqabət və həmrəylik münasibətləridir.

Vətəndaş cəmiyyətinin yaranmasının şərti cəmiyyətin vətəndaşları arasında xüsusi mülkiyyət əsasında iqtisadi müstəqilliyin, habelə vətəndaş azadlıqlarının yaranmasıdır. Vətəndaş cəmiyyəti sivil bazar münasibətləri cəmiyyətidir.

Vətəndaş cəmiyyətinin mühüm xarakterik xüsusiyyəti cəmiyyətin özünütəşkili və özünütənzimləməsinin yüksək səviyyəsinə nail olmasıdır.

Vətəndaş cəmiyyəti dövlət və vətəndaş arasında təsir dairələrinin bölünməsindən sonra təşkil olunur. Dövlətin ümumi səlahiyyətlərinin daraldılması müəyyən qeyri-siyasi kateqoriyalarda insan hüquqlarının ayrılmaz şəkildə tətbiqi yolu ilə həyata keçirilir. Ayrılmaz hüquqların kateqoriyaları əmək (təsərrüfat), milli mədəni dəyərlərə (mədəniyyət), dini ayinləri yerinə yetirmək hüququ, məlumat mübadiləsi azadlığı və özünü həyata keçirmək azadlığıdır. Vətəndaşlar arasında bütün mübahisəli məsələlər müstəqil məhkəmə tərəfindən həll edilir.

Vətəndaş cəmiyyəti qlobal fenomenə çevrilir. Bu isə dövlət və cəmiyyət arasında uçurumun nəqədər dərinləşdiyini göstərir.

Vətəndaş cəmiyyətinin formalaşması son illər cəmiyyətin transformasiyasında əsas tendensiyadır. Bu problem onilliklər ərzində nəzərdən keçirilib və müasir dövrdə daha çox aktuallaşır. Vətəndaş cəmiyyəti strukturlarının formalaşması, bu prosesdə dövlətin və fərdin rolu, vətəndaş cəmiyyətinin formalaşması prosesi ilə şəxsiyyətin əlaqəsi ilə bağlı məsələlər xüsusi maraq doğurur.

Fərd vətəndaş cəmiyyətinin əsas subyektlərindən biridir. Üstəlik, deyə bilərik ki, ayrı-ayrı fərd olmadan cəmiyyətin mövcudluğu qeyri-mümkündür, çünki o, ümumi maraqlarla birləşən fərdlərin daxil olduğu müxtəlif növ sosial qruplardan formalaşır.

Fərdin cəmiyyətdəki fəaliyyəti vətəndaş cəmiyyətinin əsaslandığı sosial kapitalın formalaşmasını müəyyən edir. Müasir tədqiqatçılar fərdin (yəni tək bir şəxsin) ictimai-siyasi fəaliyyətinin vətəndaş cəmiyyəti institutlarının formalaşması prosesində müəyyənedici amil olduğunu iddia edirlər.

Tədqiqatçıların xüsusi marağına səbəb şəxsiyyətin cəmiyyətdəki hüquqi fəaliyyətidir. Eyni zamanda, qeyd edirlər ki, bu növ fəaliyyət müasir cəmiyyətdə formalaşması üçün zəruri olan bir sıra şərtlərə malikdir:

- dövlət hakimiyyətinin xarakteri;
- ictimai həyatın müxtəlif sahələrində həyata keçirilən siyasət prosesləri;
- demokratiyanın inkişafı;
- hüquqi tərbiyə və s.

Qeyd etmək lazımdır ki, hüquq müstəvisində fəal şəxsiyyətin formalaşması prosesini nəzərdən keçirərkən tədqiqatçılar məhz şəxsiyyətin hüquqi tərbiyəyə xüsusi diqqət yetirirlər. Bundan əlavə, onların fikrincə, müasir dövlətdə şəxsi prinsipin təzahürü əsasən fərdi azadlığın hüquqi formalarından asılıdır.

Hüquqi dövlət idealında şəxsiyyət hüquq normalarının formalaşmasında fəal iştirak edir, həmçinin vətəndaş cəmiyyətinin təşkilinin lazımi səviyyədə saxlanmasına öz töhfəsini verir. Müvafiq olaraq, vətəndaş cəmiyyətinin bütün təsisatlarının inkişafı və dövlətin hüquqi anlayışın yeni səviyyəsinə keçməsi üçün fəal şəxsiyyət lazımdır.

Şəxsiyyətə vətəndaş cəmiyyətinin dəyəri də deyilir. Eyni zamanda tədqiqatçılar qeyd edirlər ki, şəxsiyyət insan inkişafının müəyyən səviyyəsi ilə səciyyələnən sırf fəlsəfi anlayışdır. Əsasən, şəxsiyyət yüksək əxlaqlı insan davranışı ilə xarakterizə olunur ki, bu da müasir cəmiyyətdə hər bir insanın fəlsəfi nöqteyi-nəzərdən tam hüquqlu şəxs kimi tanınmasının mümkün olmadığını göstərir. Fəlsəfə nöqteyi-nəzərindən sözün tam mənasında şəxsiyyət olmaq üçün konkret şəxsiyyətdə ümumi inkişafla yanaşı, yüksək mənəvi-əxlaqi keyfiyyətlər də tələb olunur.

Qanun fərdi şəxsin mənəvi inkişaf səviyyəsindən təcrid olunmuş şəkildə nəzərdən keçirir - təhsilindən və digər amillərdən asılı olmayaraq, hər bir şəxs şəxsiyyət kimi tanınır və qanunla müəyyən edilmiş hüquq və azadlıqlara malikdir.

Bu müddəaya əsaslanaraq, öz vətəndaş mövqeyini fəal şəkildə ifadə edən hər bir şəxs mənəvi cəhətdən nə qədər inkişaf etməsindən asılı olmayaraq, vətəndaş cəmiyyətinin formalaşması prosesində iştirak edir.

Şəxsiyyət, eləcə də fərdlər arasında ünsiyyət vətəndaş cəmiyyətinin formalaşmasında mühüm amillər kimi tanınır. Şəxsiyyətə bu münasibət ondan irəli gəlir ki, vətəndaş cəmiyyəti vətəndaş cəmiyyətində ilk növbədə fərd kimi deyil, müəyyən təşəbbüs göstərən subyekt qismində fəaliyyət göstərən vətəndaşların fəal davranışı sayəsində yaranır, dəyişir və mövcuddur.

Müvafiq olaraq, vətəndaş cəmiyyətinin formalaşması zamanı şəxsiyyətin bu prosesə təsir edən amillərdən biri deyil, vətəndaş cəmiyyəti strukturunun əsas elementi olmasını inkar etmək olmaz. Fərd, əvvəllər deyildiyi kimi, vətəndaş cəmiyyətinin əsasına çevrilir, çünki o, vətəndaş cəmiyyətinin subyektləri kimi tanınan bütün qrupların formalaşmasında onunla bərabər əsasda iştirak edir [Berdyaev, 2018: 13].

Cəmiyyətdə fəal şəxs kimi çıxış edən subyekt bir çox amillərin təsiri altında digər fərdlərlə birləşir ki, bunlardan da başlıcası maraqlar birliyidir. Müasir şəraitdə bunun əsasında formalaşan qruplar koordinasiyalı fəaliyyət göstərə, cəmiyyətdə gedən proseslərə münasibətini daha aydın reallaşdıra bilir.

Şəxsiyyətin formalaşması prosesi çoxqatlıdır və bir çox amillərin qarşılıqlı təsirini ehtiva edir ki, bunlar arasında dövlət fərdin yaşadığı, öyrəndiyi və inkişaf etdiyi mühit kimi xüsusi əhəmiyyət kəsb edir. Dövlət vətəndaşların şəxsiyyətinin formalaşmasına, onların dəyərlərinin, inanclarının, davranış və düşüncə tərzinin müəyyən edilməsinə mühüm təsir göstərir.

Müasir cəmiyyətdə şəxsiyyətin sosiallaşması prosesində dövlət əsas rol oynayır. Hökumətin siyasəti, qanunları, təhsil sistemi, media, mədəni dəyərlər - bütün bunlar fərdin inkişafına təsir edən mühiti formalaşdırır. Məsələn, dövlətdə təhsil sistemi vətəndaşların əsas bilik, dəyər və bacarıqlarını formalaşdırır, onların peşə maraqlarını və imkanlarını müəyyən edir.

Dövlət də mədəniyyət siyasəti ilə şəxsiyyətin formalaşmasına təsir göstərir. Mədəniyyətin, incəsənətin və elmin dəstəklənməsi və inkişafı vətəndaşların təhsil üfüqlərinin genişlənməsinə, yaradıcı təfəkkürün stimullaşdırılmasına və estetik dəyərlərin inkişafına kömək edir. Bundan əlavə, dövlət vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi yolu ilə şəxsi ifadəsinə şərait yarada bilər [Losev, 2003: 12].

Lakin dövlətin şəxsiyyətin formalaşmasına təsiri həmişə aydın olmur. Bəzi siyasi rejimlər fikir və söz azadlığını məhdudlaşdıra bilər ki, bu da şəxsiyyətin azad inkişafına mane olur. Bundan əlavə, dövlətin şəxsiyyətin formalaşmasına təsirinin səmərəliliyi cəmiyyətin inkişaf səviyyəsindən, təhsilə çıxış imkanlarından, mədəni imkanlardan və digər amillərdən asılıdır.

Ümumiyyətlə, dövlətin vətəndaşların şəxsiyyətinin formalaşmasına, onların sosiallaşmasına, təhsilinə və inkişafına şərait yaradılmasına mühüm təsiri var. Dövlət siyasətinin və praktikasının fərdin çoxşaxəli inkişafına, vətəndaşların hüquq və azadlıqlarına hörmət edilməsinə, həmçinin hər bir fərdin öz potensialını və bu potensialını reallaşdıra biləcəyi harmonik cəmiyyətin formalaşmasına töhfə verməsini təmin etməyə çalışmaq vacibdir.

Vətəndaş cəmiyyətinin formalaşmasında fərdiliyin əhəmiyyətini qiymətləndirmək olmaz. İstənilən vətəndaş cəmiyyətinin əsasını güclü vətəndaşlıq borcu, empatiya hissi və sosial məsuliyyətə sadiq olan şəxslər təşkil edir. Bu şəxslər öz icmalarında və bütövlükdə cəmiyyətdə müsbət dəyişikliklərin arxasında hərəkətverici qüvvə kimi xidmət edirlər [Korzhevskaya, 1983: 6].

Şəxsi dəyərlər və inanclar vətəndaş cəmiyyəti daxilində fərdin hərəkətlərinə və qərarlarına böyük təsir göstərir. Fərdlər bərabərlik, ədalət, dürüstlük və başqalarına hörmət kimi prinsipləri dəstəklədikdə, daha əhatəli və harmonik cəmiyyətin yaradılmasına töhfə verirlər. Bu dəyərləri müdafiə etməklə, fərdlər icma daxilində müxtəlif qrupların dinc yanaşı yaşaması üçün vacib olan əməkdaşlıq, tolerantlıq və qarşılıqlı anlaşma mədəniyyətini inkişaf etdirirlər.

Bundan əlavə, fəal və məşğul olan şəxslər demokratiyanın qorunmasında və institutların məsuliyyət daşımasında mühüm rol oynayırlar. Şəxslər söz azadlığı, sərbəst toplaşmaq və ictimai həyatda iştirak hüquqlarından istifadə etməklə cəmiyyətin bütün üzvlərinin səsinin eşidilməsinə və hakimiyyətin nəzarətdə qalmasına kömək edir. Bu fəal vətəndaşlıq ictimai institutlar arasında şəffaflıq, aşkarlıq və məsuliyyətlilik mədəniyyətini inkişaf etdirir və nəticədə demokratik prosesə daha çox inam və etimada səbəb olur [Çetvernin, 2010: 9].

Vətəndaş iştirakını təşviq etməklə yanaşı, fərdilik vətəndaş cəmiyyəti daxilində innovasiya, yaradıcılıq və tərəqqinin təşviqi üçün də vacibdir. Fərdləri tənqidi düşünməyə, status-kvona meydan oxumağa və yeni ideyalar ardınca getməyə təşviq etməklə cəmiyyət problemlərin həlli üçün müxtəlif perspektivlərdən və yanaşmalardan faydalanır. Vətəndaş cəmiyyəti fərdiliyi dəyərləndirərək və qeyd etməklə, mürəkkəb sosial problemləri həll etmək və müsbət dəyişikliklərə təkan vermək üçün üzvlərinin unikal istedad və güclü tərəflərindən istifadə edə bilər [Goethe, 2015: 5].

Vətəndaş cəmiyyətinin formalaşmasında fərdiliyin əhəmiyyətini nəzərdən qaçırmaq olmaz. Cəmiyyətin fəal və etik üzvləri kimi fərdlər icmaları daha ədalətli, ədalətli və əhatəli gələcəyə doğru ruhlandırmaq, onlara rəhbərlik etmək və səfərbər etmək gücünə malikdirlər. Vətəndaş cəmiyyəti daxilində hər bir fərdin potensialını tanımaq və inkişaf etdirməklə biz hamı üçün daha canlı, möhkəm və demokratik cəmiyyət yarada bilərik.

Sosial, hüquqi və fəlsəfi baxımdan şəxs, fərd və şəxsiyyət anlayışları fərqlənir. Geniş mənada təqribi olaraq eyni məna daşımaqlarına baxmayaraq dar mənada fərqli aspektləri vardır [Polyakov,2003: 10].

Vətəndaş cəmiyyətinin formalaşmasında və möhkəmlənməsində şəxsiyyət mərkəzi rol oynayır. Vətəndaş cəmiyyəti, vətəndaşların ortaq dəyərlər və inanclar əsasında birlikdə hərəkət etmək üçün bir araya gəldiyi, hökumət və biznesdən ayrı, ictimai həyatın sahəsidir. O, cəmiyyətin özünütənzimləmə mexanizmi kimi xidmət edir, vətəndaş şüurunun inkişafına, hər bir fərdin hüquq və azadlıqlarına hörmətlə yanaşılmasına kömək edir.

Vətəndaş cəmiyyətinin əsas aspektlərindən biri də fərdlərin ictimai həyatda fəal iştirakıdır. Fərd ictimai təşkilatlarda iştirakı, ictimai tədbirlərdə fəallığı, sosial problemlərin həlli təşəbbüsü ilə vətəndaş cəmiyyətinin inkişafına töhfə verir. Beləliklə, fərd cəmiyyətdə dəyişikliklərin hərəkət-verici qüvvəsinə çevrilir, onun inkişafına və təkmilləşməsinə öz töhfəsini verir.

Vətəndaş cəmiyyətində şəxsiyyətin əhəmiyyəti həm də onun tənqidi düşünmək, sosial hadisələri təhlil etmək, fikrini ifadə etmək bacarığında özünü göstərir. Cəmiyyətdəki rolunu dərk edən insan ictimai rəyə təsir göstərə, ictimai dəyərləri və davranış normalarını formalaşdıra bilir. Beləliklə, fərd cəmiyyətə müsbət dəyişikliklər gətirməyə qadir, sosial məsuliyyət və təşəbbüs daşıyıcısına çevrilir [Solovyov, 1993: 11].

Vətəndaş cəmiyyətində şəxsiyyət həm də vətəndaş kimliyinin və həmrəyliyinin formalaşmasında mühüm rol oynayır. Fərd müxtəlif ictimai təşəbbüslərdə və təşkilatlarda iştirakı ilə digər vətəndaşlarla əlaqələrini gücləndirir və ümumi dəyərləri və məqsədləri olan bir cəmiyyətin formalaşmasına töhfə verir. Belə icmalar vətəndaş cəmiyyətinin inkişafına yaradıcı təsir göstərir, onun strukturunu gücləndirir, vətəndaş ruhunun güclənməsinə töhfə verir [Stolyarenko, 2014: 1].

Vurğulamaq lazımdır ki, vətəndaş cəmiyyətində şəxsiyyətin əhəmiyyəti təkcə ictimai həyatda fəal iştirak etməklə deyil, həm də qanunlara əməl etmək, digər vətəndaşların hüquq və azadlıqlarına hörmətlə yanaşılması ilə özünü göstərir. Cəmiyyətdəki rolunu dərk edən fərd əməkdaşlığa, tolerantlığa və fərqliliklərə hörmət etməyə çalışmalıdır ki, bu da bütövlükdə vətəndaş cəmiyyətinin inkişafına töhfə verir.

## Ədəbiyyat:

*Stolyarenko L.D.* (2014). Şəxsiyyət psixologiyası. Rostov-na-Donu: Feniks. 576 s. (rus dilində)
*Leontyev A.N.* (1975). Fəaliyyət. Şüur. Şəxsiyyət. M.: Politizdat. 304 s. (rus dilində)
*Vygotsky L.S.* (2019). Düşüncə və nitq. M.: AST. 368 s. (rus dilində)
*Rubinstein S.L.* (2017). Varlıq və şüur. SPb.: Peiter. 288 s. (rus dilində)
*Goethe I.V.* (2015). Gənc Verterin əzabları. M .: ABC. 2015. 192 s. (rus dilində)
*Korzhevskaya N.* (1983). Sosial institut sosial fenomen kimi. (Sosioloji aspekt). 173 s. (rus dilində)
*Alekseev S.S.* (2000). Yeni minilliyin astanası haqqında qanun. M.: Status, 256 s. (rus dilində)
Философская антропология, представляя собой концептуальное знание о человеке, владея возможностью синтеза разных научных знаний, объединяет вокруг себя различные сферы науки, занимающиеся исследованием человека и общества. В результате этого объединения происходит взаимообмен философской антропологии и частных наук, и как результат взаимообогащение теоретического и частнонаучного знания о человеке. В результате проведенного исследования была установлена необходимость применения интегрального подхода для решения современных проблем человека и общества, в частности в философской антропологии. Раскрыты и проанализированы суть и основы интегрального подхода в философской антропологии. Рассмотрены основные аспекты существования человека: духовный, телесный, культурный и социальный. Установлено, что интегральный подход может выступать как общая методология познания человека, системно объединив все сферы знания о человеке.

## Литература:

*Аквинский, Ф.* (2004). Сочинения / сост., пер., вводная статья, комментарии А.В. Апполонова. – М.

*Акияма, Т.* (2016). К созданию интегральной науки: в чем смысл интеграции? Bull. Jpn. Soc. Глоб. Syst. Этика. 11, 144-148.

*Брентано, Ф.* (2000). О происхождении нравственного познания / пер. с нем. А.А. Анипко. – СПб.

*Великие мыслители Запада* / Пер. с англ. – М.: КРОН-ПРЕСС, 1999. – 656с.

*Витгенштейн, Л.* (2005). Избранные работы / Пер. с нем. и англ. В. Руднева. М.: Издательский дом «Территория будущего», — С. 440.

*Qurbanov, F., Əlibəyova, T.* (2022). Qnoseologiya və epistemologiya: müqayisəli fəlsəfi təhlil // "Metafizika" Journal, vol 5, issue 3, serial 19, pp.43-57 43 UOT: 1.101.8 KBT: 87.22 MJ № 130. *Гуссерль, Э.* (1999). Идеи к чистой феноменологии и феноменологической философии / пер. с нем. А.В. Михайлова. – М.. – Т. 1.

*Деннет, Д.* «Сознание объясненное» Деннет Д. С. Виды психики: на пути к пониманию сознания. [Электронный ресурс]. URL: http://filosof.historic.ru/books/item/f00/s00/z0000838/st000.shtml

*Дэвидсон Д.* (1993). Об идее концептуальной схемы. — Аналитическая философия. Избранные тексты. — М. - С. 144–158.

*Ласло, Э.* (2004). Наука и поле Акаши: интегральная теория всего; Внутренние традиции: Рочестер, штат Вирджиния, США; Американская психологическая ассоциация: Вашингтон, округ Колумбия, США.

*Остин, Дж.* (1999). Избранное / Дж. Остин ; пер. с англ. Л. Б. Макеевой, В. П. Руднева. М. : Идея-Пресс : Дом интеллектуальной книги. 332 с.

*Серль, Дж.*Р. (1986). Классификация иллокутивных актов / Дж. Р. Серль //Новое в зарубежной лингвистике. Вып. 17 : Теория речевых актов / отв. ред.Б. Ю. Городецкий. М.: Прогресс. - С. 170–194.

*Смэтс, Дж.К.* (1926). Холизм и эволюция; Макмиллан: Нью-Йорк, Нью-Йорк, США, 1926.

*Уилбер, К.* (2000). Теория всего: интегральное видение бизнеса, политики, науки и духовности; Шамбала: Бостон, Массачусетс, США.

*Уилбер, К.* (2002). Око духа: Интегральное видение для слегка свихнувшегося мира / К. Уилбер ; [пер с англ. В. Самойлова, под ред. А. Киселева]. – М. – 476 с.

*Уотсон, Д.* (1998). Основные направления психологии в классических трудах. Бихевиоризм. Э.Торндайк. Принципы обучения, основанные на психологии. Джон Б. Уотсон. Психология как наука о поведении. - М.: ООО "Издательство АСТ-ЛТД". - 704 с.

*Эдвард, О.У.* (1998). Консилиум, Единство знания; Альфред А. Кнопф: Нью-Йорк, Нью-Йорк, США.

*Франкл, В.* (2017). Доктор и душа: Логотерапия и экзистенциальный анализ. М.: Альпина-нон-фикшн. 338 с.

*Эволюционная эпистемология и логика социальных наук: Карл Поппер и его критики*. (2000). / Сост. Д.Г. Лахути, В.Н. Садовского, В.К. Финна. – М..– 464с.

*Akiyama, T.* (2022). Integral Studies and Integral Practices for Humanity and Nature. Philosophies. 7, 82. https://doi.org/10.3390/ philosophies7040082

*Grice H. P.* (1975). Logic and Conversation / H. P. Grice // Syntax and Semantics /ed. by P. Cole and J. L. Morgan. N. Y. : Academic Press. P. 41–58.

*Strapasson, B.* An Updated Bibliography of John B. Watson, Perspectives on Behavior Science, https://www.researchgate.net/publication/341466150 An Updated Bibliography of John B. Watson

*Tortoreto, A.* (2022). “Intentionality and Dualism: Does the Idea that Intentionality Is the MOM Necessarily Entail Dualism?”, Phenomenology and Mind, 22. P. 82-91.

INTERNATIONAL INTERDISCIPLINARY SCIENTIFIC CONGRESS ON SOCIAL SCIENCES / *IISCSS 2023 - BAKU*
05-06 October 2023, Baku, AZERBAİJAN
*PROCEEDİNG BOOK-2024*, ISBN: 978-9952-39-217-3

# TELLUROKRATİYA VƏ TALLASOKRATİYA: GEOPOLİTİK DUALİZM

**Nəzakət KƏRİMOVA**
Bakı Dövlət Universiteti,
Fəlsəfə kafedrasının baş müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru,
*Azərbaycan, BAKI*
kerimova.nezaket@gmail.com

## XÜLASƏ

Geopolitikada həm tallasokratik istiqaməti ətraflı şəkildə işləyib hazırlayan, həm də "dəniz hakimiyyəti" anlayışını elmi dövriyyəyə ilk daxil edən şəxs admiral Alfred Mehen olmuşdur. Bu sahədə xüsusi xidmətinə görə Helford Makinderin də adını çəkmək yerinə düşər. H.Makinder 1904-cü ildə yazdığı «Tarixin coğrafi oxu» adlı məqaləsində geopolitik təsnifatı vermişdir. Geopolitika təliminin inkişafı tarixində Makinderin məqaləsi əsil çevriliş yaratmış, sonralar fransız Vidal de Lyablaş, alman Karl Haushoffer, rus Pyotr Savitsiki bu metodologiyadan bəhrələnmişlər. Tədricən bu ikilik – tellurokratiya (quru hakimiyyəti) və tallassokratiya (dəniz hakimiyyəti), daha dəqiq desək, sivilizasiyaların dualizmi qlobal və lokal proseslərin təhlili zamanı normativ yanaşmaya çevrilməyə başlamışdır.

*Metodlar:* Sistemli yanaşma metodu, tarixi ilə məntiqinin vəhdəti, müqayisəli təhlil metodu.

**Açar sözlər:** geopolitika, quru hakimiyyəti, dəniz hakimiyyəti, sivilizasiya.

# TELLUROCRACY AND THALLASOCRACY: A GEOPOLITICAL DUALISM

**Nazakat KARIMOVA**
Baku State University,
Head teacher of the Department of Philosophy, Doctor of Philosophy,
*Azerbaijan, BAKU*
kerimova.nezaket@gmail.com

## SUMMARY

Admiral Alfred Mehen was a person who developed the thalassocratic trend in geopolitics in detail, and was the first to introduce the concept of "sea power" into scientific circulation. Halford Mackinder should also be mentioned for his special services in this area. G. Mackinder gave a geopolitical classification in his 1904 article "Geographic Axis of History". Mackinder's article produced a real revolution in the history of the development of geopolitics, and later this methodology was used by the Frenchman Vidal de Liablash, the German Carl Haushofer and the Russian Peter Savitsik. Gradually, this duality — tellurocracy (land power) and thalassocracy (sea power), more precisely, the dualism of civilizations — has become a normative approach in the analysis of global and local processes.

*Methods:* Method of systematic approach, unity of history and logic, method of comparative analysis.

**Keywords:** geopolitics, land power, sea power, civilization.

P.N.Savitski və L.N.Qumilyov hesab edirdilər ki, «quru hakimiyyəti» (tellurokratiya) və «dəniz hakimiyyəti» (tallasokratiya) qarşıdurması sivilizasiyaların dualizmini ifadə edir. Quru hakimiyyəti hərbi avtoritar sivilizasiya şəklində (Qədim Sparta, Qədim Roma), ikinci isə ticarət sivilizasiyası (Qədim Afina, Qədim Karfagen) kimi meydana gəlmişdir. Geopolitikanın banilərinin,

xüsusən A.Mexen və N.Makinderin fikrincə, bu dualizm ilk vaxtlar özündə düşmənçilik toxumu daşımış, yəni əlverişli torpaqları zəbt etmək məqsədi güdmüş, iki kortəbiiliyin – yəni, maye (axıcı), bərk (daimi, qalıcı) barışmaz əksiliyinin meyvəsi olaraq yaranmışdır. Quru hakimiyyəti, yaxud tellurokratiyanın xarakterik xüsusiyyətləri bunlardır: aydın təyin edilmiş sərhədlər; əhalinin həyat fəaliyyəti üsulları ilə qəti müəyyən edilmiş məkan, onların keyfiyyət oriyentasiyalarının davamlılığı; oturaq həyat; əməyin sərf edilməsində seçimin məhdud olması; mühafizəkarlıq; sərt hüquqi və əxlaqi norma və qanunların mövcudluğu; bütün fərdlərin, insan qruplarının, nəsillərin, tayfaların, xalqların, ölkələrin, imperiyaların tabe olduğu sərt hüquqi və əxlaqi norma və qanunlar. Quru həmişə möhkəmdir, davamlıdır, bu isə əxlaqın və qanunun möhkəmliyini, ənənənin möhkəmliyini formalaşdırır. Əxlaq ictitmai şüurda möhkəm yer tutur, irsən ötürülür, etik norma və prinsiplər kodeksini formalaşdırır. Quru hakimiyyətində xalqlar, əsasən, oturaq həyat təzi keçirirlər, individualizmə nisbətən kollektivizm hisslərinə bağlılıq üstünlük təşkil edir. Kiçik və yaxud böyük qrupların idarə edilməsində başlıca prinsip iyerarxiklikdir.

Dəniz hakimiyyəti, yaxud talassokratiya, bu konsepsiyanın müəllifi A.Mexenə görə, tellurokratiyaya tamamilə əks sivilizasiya tipidir. Tallasokratiya, yaxud ticarət sivilizasiyası daha dinamikdir. Texniki yenilikləri daha tez qavrayır. Onun səciyyəvi xüsusiyyətlərinə daxildir: individualizm; asan qazanc, zəhmətsiz gəlir; sahibkarlıq, işbazlıq, fırıldaqçılıq. Mexenə görə, fərdin və ya qrupun bu və ya digər məxsusi xüsusiyyətlərini dəniz təyin edir. Daha doğrusu, dəniz ekstremal şəraitdə yaşamağı bacaran şəxsiyyət tipi tələb edir. Ona görə də tallassokratiya sivilizasiyasında yaşayan fərd asan qazanc əldə etmək və qeyri-standart qərarlar verməyə qabildir. Buna uyğun olaraq bu cür sivilizasiyanın əxlaqi və hüquqi normaları da nisbi xarakter daşıyır. Bu cür sivilizasiya tellurokratiyaya nisbətdə daha aktiv inkişaf tempinə malikdir. Dəniz hakimiyyətində əxlaqi və mədəni dəyərlər asanlıqla dəyişilir. Bu sivilizasiya tipində heç zaman dəyişikliyə uğramayan əsas qayda bu olur: irəliyə doğru getmək, yeni kəşf və ixtiralara, macəralara, asan qazanc, gəlir əldə etməyə can atmaq.

Yüzilliklər boyu kontinental sivilizasiya (quru sivilizasiyası) dəniz sivilizasiyası üzərində təzyiq göstərmişdir (Sparta və Afina, Roma və Karfagen). Lakin texnikanın get-gedə inkişafı, gəmiqayırmanın səviyyəsinin yüksəlməsi, silahların təkmilləşdirilməsi, ictimai əmək bölgüsünün dərinləşməsi, onun ardınca mal mübadiləsi və ticarət dövriyyəsinin artması dənizin mövqeyini obyektiv olaraq gücləndirmişdir. Bu isə öz növbəsində dəniz sivilizasiyasının güclənməsinə gətirib çıxarmışdır. Buradan geopolitikanın digər qanunu meydana çıxır: bəşər tarixində məkan faktorunun güclənməsi.

Bəşər tarixində məkan faktorunun güclənməsini Mexen özünün «Dəniz qüvvələrinin tarixi təsiri» əsərində xüsusi ilə vurğulayaraq ingilis xalqının digər xalqlardan daha çox dəniz əzəmətinə sahib olduğunu bildirirdi. Beləliklə, tallasokratiya böyük coğrafi kəşflər epoxası ilə birlikdə başlayır. Özünün ən nəhəng, qüdrətli zirvəsinə XX əsrin sonlarında - anqlosakson kapitalizmi və industralizminin vahid kompleks kimi formalaşdığı dövrdə çatır. XX əsrin ortalarından başlayaraq tallasokratiyanın başlıca dayağı ABŞ hesab olunur. Tellurokratiyanın SSRİ, tallassokratiyanın isə ABŞ-la eyniləşdirildiyi vaxtdan etibarən geopoitik dualizm özünün ən yüksək zirvəsinə yüksəlir [Дугин, 2000].

Tellurokratiya sivilizasiyası özünü mühafizəkar strukturu ilə təqdim edir: son dərəcə ləng inkişaf, sədaqət, düzlük, iyerarxiya, daimilik, vətənpərvərlik kimi dəyərlər burada üstünlük təşkil edir. Bu qəhrəmanlıq sivilizasiyasıdır. Geopolitik dualizmi simvolizə etmək üçün Şmidt iki Bibliya nümunəsini misal çəkir: o, quru sivilizasiyasını yerdəki bədheybət – Begemot, dəniz sivilizasiyasını Leviafan şəklində təsvir edir. O, quru və dəniz yırtıcısı arasında gedən əbədi müharibəni (Sparta ilə Afina, Roma ilə Karfagen) quru ilə dəniz arasında gedən əbədi müharibə kimi qiymətləndirir [Колосов и Мироненко, 2007].

Dəniz sivilizasiyası daha çevik, dinamik inkişafa və ticarətə daha çox meylli sivilizasiyadır. Roma ilə Karfagen arasında gedən üç pun müharibəsi bu sivilizasiyaların bir-birinə həm paradiqmal olaraq, həm də geopolitik baxımdan zidd mövqedə olmasının nəticəsi idi: Roma özünün ordusunu yaradarkən ona ciddi, sərt təlimlər keçir, onu hərbi ruhda tərbiyə edirdi. Roma həyata keçirdiyi istilaçı hücumları, müharibələri özünün şərəf və iftixarı hesab edirdi. Öz ordusu olmayan Karfagen isə muzdlu ordu saxlayırdı. Romada iyerarxiya və ənənə hökm sürürdüyü halda, Karfagendə Molox kultu, pul və qana pərəstiş («hər şey satılır, hər şey alınır» ideyasına inam) ön plana çəkilirdi. Karfagen sivilizasiyası ticarətin, incəsənətin, yeni çevik texnologiyanın, müasirliyin inkişafına son dərəcə güclü təsir göstərdi. Bu mövzu geopolitikanın atalarından hesab edilən Karl Şmidtin əsərlərində daha ətraflı təhlil edilmişdir. Yeri gəlmişkən qeyd edək ki, geopolitika terminini ilk dəfə dövlətin məkanla qarşılıqlı əlaqəsi mənasında isveçli Rudolf Çellen işlətsə də, bu anlayışı elmi dövriyyəyə Fridrix Ratsel daxil etmiş, amma onun üzərində siyasi coğrafi anlayış kimi fikri əməliyyat aparmamışdır.

Geopolitikada tallassokratik istiqaməti ilk dəfə geniş şəkildə inkişaf etdirən admiral Alfred Mehen olmuş, "dəniz hakimiyyəti" anlayışını elmi dövriyyəyə əsas anlayış kimi daxil etmişdir. Geopolitikaya ən mühüm töhfə verən şəxs Helford Makinder olmuşdur. İngilis siyasi xadimi, siyasi analitiki olan Makinder 1904-cü ildə o qədər də böyük olmayan «Tarixin coğrafi oxu» məqaləsində əsas geopolitik təsnifatı verməyə müyəssər olmuşdur. Geopolitika elminin sonrakı inkişafı tarixində Makinderin məqaləsi əsil çevriliş yaratmışdır. Sonralar fransız Vidal de Lyablaş, alman Karl Haushoffer, rus Pyotr Savitsiki bu metodologiyadan bəhrələnmişlər.

Zaman keçdikcə, sivilizasiyaların dualizmi tədricən qlobal və lokal proseslərin təhlili zamanı normativ yanaşmaya çevrilmişdir. Geopolitikaya töhfələr vermiş müəlliflər sırasında alman filosofu Karl Şmidtin xidmətlərini də qeyd etmək yerinə düşər. Özünün «Quru və dəniz» adlı klassik əsərində Makinderin dualist paradiqmasını inkişaf etdirən Karl Şmidt onu hərtərəfli fəlsəfi təhlil etmişdir. Şmidtə görə, sivilizasiyanın dəniz sivilizasiyası olması üçün bir çox dəniz koloniyalarının və inkişaf etmiş donanmaların mövcudluğu kifayət etmir, bunun üçün dünyaya dənizin gözləri ilə baxmaq lazımdır. Onun fikrincə, dəniz qurudan bir sıra parametrlərinə görə fərqlənir: birinci növbədə, daha çox özgələşmə dərəcəsinə görə fərqlənir: dənizdə olan insan onun üçün yad olan bir mühitə düşür, suda yaşayan canlıları qurudakılara nisbətən əhliləşdirmək olmur. İkincisi, dəniz özünün xüsusi mühitində uzun müddət fəaliyyət göstərə bilən, daxili rəqabətin mövcud olduğu qapalı kişi kolektivlərinin yaradılması zərurətini tələb edir. Bu mənada, dənizin klassik fiquru piratlardır. Üçüncüsü, dəniz daim dəyişkən peyzajı, axıcılığı ilə seçilir. Dördüncüsü, dəniz sivilizasiyası, bir qayda olaraq, ticari xarakter daşıyır. İlk tacirlərin soyğunçular və piratlar olması da bu amillərin məntiqi davamı sayılmalıdır.

Quru sivilizasiyası isə əksinə, mühafizəkar sistem olmaqla son dərəcə aydın iyerarxiyaya malikdir, boy atdığı ətraf mühit əsrdən əsrə dəyişməz statik peyzajı ilə seçilir. Ona görə quru sivilizasiyasında yaşayan insanların psixologiyası məkandan irəli gələrək dayanıqlı və dəyişməzdir. Quru sivilizasiyasında elmi tərəqqi son dərəcə ləng inkişaf edir, əsasən əvvəlki mədəni irs mühafizə edilərək qorunub-saxlanılır. Quru sivilizasiyası sabitlik, daimilik, ənənəvilik sivilizasiyasıdır. Dəniz sivilizasiyası isə tərəqqi, dinamik inkişaf edən, kinetik dəyişikliklər sivilizasiyasıdır.

Sosioloq Verner Zombratın yazdığı «Qəhrəmanlar və tacirlər» kitabından sitat gətirsək, deyə bilərik ki, quru sivilizasiyası qəhrəmanlar sivilizasiyasıdır (qəhrəmanlıq üslubunun əsasında fədailik, güc, qüdrət, şücaət dayanır). Amma dəniz sivilizasiyası ticarət sivilizasiyasıdır, onun da müsbət və mənfi cəhətləri vardır: öz xeyrini güdmək, yaradıcılıq, hiyləgərlik, cəldlik, texniki yeniliklərə meyllilik, rahat həyatın qayğısına qalmaq, sahibkarlıq ruhunun inkişafı, individualizm və s.

Quru və dənizsiz geopolitika yoxdur. Müasir elmi ədəbiyyatda quru və dəniz hakimiyyəti aşağıdakı adlarla ifadə olunur:

1) «Kontinental-okeanik dixotomiya»;

2) «Materiki-okeanik qütbləşmə»;
3) «Planetar dualizm»;
4) «Kontinent-okean».

Klassik qərb geopolitikasının baniləri hesab edilən Mehen, Makinder, Haushoffer, Şmidt və başqaları hesab edirdilər ki, hazırki tarixi antaqonizm zaman keçdikcə qlobal və əbədi xarakter daşıyacaq. Alman mənşəli geosiyasətçi alim Otto Maul həmyerlisi Fridrix Ratseli geopolitikanın həqiqi atasıhesab edirdi. O, bu münasibətlə yazırdı: «Ratselsiz geopolitikanın inkişafı mənasız olardı, buna görə də Çellen, yaxud kimsə başqasını bəzən bilməyərəkdən geopolitkanın atası adlandırırlar. Onun yaradıcısı Ratseldir» (Maqdd O). F.Ratsel (1844-1904) Karleryedə texniki uqiversiteti, sonra isə Heydelberq Universitetini bitirmişdir. Burada o, professor Ernst Hekkelin («ekologiya» terminini elmi dövriyyəyə daxil edən şəxs - N.Kərimova) mühazirələrini dinləmişdir. Ratselin dünyagörüşü və metodologiyası təkamül ideyası və darvinizmdən ibarət olmuşdur. Doğrudur, alman aliminin baxışlar sistemində fransız sosioloqu Oqyust Kontun da bir çox ideyalarına rast gəlinir: təkamülçülük; dövlətin və xalqın inkişafına ətraf mühitin təsiri; siyasi sistemin fəaliyyətində, etnosun və dövlətin həyatında demoqrafik və kosmik amillərin rolu və s. O.Kontun bu təsirləri Ratselin «Yer və həyat. Müqayisəli torpaqşünaslıq», «Siyasi coğrafiya» əsərlərində özünü daha aydın göstərir.

Ratsel insanların dənizə doğru ilk addımlarını bəşəriyyətin ümumdünya tarixinin başlanğıcı kimi müəyyən edirdi. Onun fikrincə, dəniz xalqları özünəməxsus, orijinal qrup təşkil edirlər: onların yayılması, evləri, fəaliyyətləri tamamilə özünəməxsusdur. Dəniz xalqarı adadan adaya, bir sahil zolağından digərinə sıçrayışla yayılmışlar. Bu cür dəniz köçəri həyatına Ratselin fikrincə, bir neçə nəsildən bir təkrarlanan əhali artıqlığı səbəb olmuşdur. Dəniz bu xalqların tarixində müəyyən rol oynamışdır. O, əminliklə bildirirdi ki, Misir və Çinin tarixində dəniz köçərilik həyatı olmamışdır. Bunun nəticəsi olaraq ziddiyyətlərin canlı mübadiləsi çatmamış və o çox tez durğunluğa gətirib çıxarmışdır. Buradan da Ratsel belə bir nəticə çıxarırdı ki, qapalı materik torpaqları mühitində yalnız yarımmədəniyyət inkişaf edir, maldar tayfalar isə mədəniyyət sərhədlərindən kənar yaşayır, ona düşmən kəsilir. Ratselə görə, əsl dünya dövlətləri o dövlətlərdir ki, onlar Roma, İspaniya, İngiltərə kimi dənizə sahibdirlər. Ratsel xalqların həyatında mühitin rolunu təhlil edərək belə bir qənaətə gəlirdi ki, isti, havanın təzyiqi və rütubəti insan bədəninə və psixikasına, iqlim insanın həyat tərzi obrazına əhəmiyyətli dərəcədə təsir göstərir. Ratsel sivilizasiyanın inkişafı üçün dənizin böyük əhəmiyyətə malik olduğu fikrini irəli sürən ilk alimlərdən biri olmuşdur. Onun «Dəniz – xalqların qüdrət mənbəyi» adlı əsərində irəli sürdüyü ideyalar geopolitika elminin istinad etdiyi ideyalar olmuşdur. Ratselin gəldiyi mühüm qənaət bundan ibarət olmuşdur: "Hər bir güclü dövlət özünün hərbi dəniz qüvvələrini inkişaf etdirməlidir. Bunu planetar miqyasda ekspansiya tələb edir" [Давыдова и др., 2007].

Sonralar Ratselin tədqiqatları onun bir çox davamçıarı üçün əsas nəzəri baza rolunu oynamış, ilk növbədə Rudolf Çellen və Karl Haushofferin yaradıcılığına güclü təsir göstərmişdir. «Geopolitika» anlayışının banisi, Rudolf Çellen (1864-1922) milliyyətcə isveç olsa da, ruhi cəhətdən almanları sevmiş və özünü F.Ratselin tələbəsi hesab etmişdir. O, yeni elm olan geopolitikanı politologiyanın bir hissəsi kimi qiymətləndirərək ona "coğrafi orqanizm kimi məkanda təcəssüm tapmış dövlət haqqında elm" kimi tərifvermişdir. Çellenin əsas tezisi belədir: «Dövlət qapalı orqanizmdir» o, bu tezisi özünün başlıca əsəri olan «Dövlət həyat forması kimi» adlı əsərində (1916) inkişaf etdirmişdir. Xüsusilə o yazırdı ki, dövlət bəşər həyatının müxtəlif tərəflərinin süni və təsadüfi konqlemeratı kimi yaranmayıb, o, dərin tarixi inkişaf yolu keçmişdir və konkret reallıqla bağlıdır. Dövlətə özünəməxsus üzvi inkişaf, artım, böyümə xasdır. Dövlət özünü bioloji təşkil, yaxud canlı varlıq kimi göstərir, o, artım qanuna əməl edir, çünki güclü dövlətin məkan sərhədləri var, kaloniya yaratmaq, yaxud işğılçılıq yolu ilə ərazilərini genişləndirmək kimi qəti imperativə tabedir.

Çellen «Dövlət həyat forması kimi» əsərində dövlətin coğrafi əsaslarını və gücünün anatomiyasını təhlil edir. O, güman edir ki, siyasətin öz aralarında qarşılıqlı təsirdə olan beş elementini nəzərə almaq zəruridir:

1. Dövlət coğrafi məkan kimi;
2. Dövlət xalq kimi;
3. Dövlət təsərrüfat kimi;
4. Dövlət cəmiyyət kimi;
5. Dövlət idarəetmə mexanizmi kimi.

Özünün fiziki-coğrafi əlamətlərindən başqa dövlət, Çellenə görə, öz mahiyyətini dörd digər formada büruzə etdirir:1) Təsrrüfat formasında – ekopolitika; 2) Özünün milli-etnik xüsusiyyətləri ilə birlikdə xalq kimi – demopolitika; 3) Müxtəlif siniflərdən və peşələrdən ibarət sosial birlik kimi – sosiopolitika; 4) Özünün konstitutsion və inzibati strukturları ilə birlikdə dövlət idarəçiliyi formasında. Dövlətin fiziki-coğrafi xarakteristikaları ilə birlikdə Çellenə görə, bir əldə beş barmaq kimi 5 elementi birində yaradır. Bu əl sülh şəraitində işləyir, müharibədə döyüşür, vuruşur. Çellen Ratselin bioloji, yaxud üzvi mahiyyəti ideyasını davam etdirmişdir.

Helford Con Makkinder (1861-1947) geopolitiklər içərisində ən nüfuzlu şəxslərdən biri olmuşdur. İngilsi mənşəli alim Oksford Universitetində dərs demiş, Londonda İqtisadi məktəbin direktoru olmuşdur. Siyasi fəaliyyətlə məşğul olmuş, 1919-1920-ci illərdə Rusiyanın Cənubunda səfir kimi fəaliyyət göstərmişdir. O, dünya siyasi tarixi haqqında ən orijinal və inqiabi fikirlərin banisi sayılır. Onun əsas fikirlərinə 1904-cü ildə «Coğrafiya» jurnalında dərc etdirdiyi «Tarixin coğrafi oxu» məruzəsində rast gəlinir. Burada o, siyasi coğrafiya haqqında əvvəllər söylənilmiş ideyaları ümumiləşdirmiş və geopolitikanın əsas qanunlarını formulə etmişdir. Makkinderin əsas tezisi bundan ibarətdir ki, dövlət üçün ən sərfəli coğrafi şərait, vəziyyət mərkəzi yerdə olmaqdır. «Mərkəzi» anlayışı burada nisbidir. Çünki ingilis alimi planetar miqyasda mərkəzi anlayışını nəzərdə tutur. Makkinderə görə, dünyanın mərkəzində avroasiya kontinenti dayanır, sonuncunun mərkəzində «dünyanın ürəyi», yaxud «Heart Land» Avroasiyanın kontinental kütləsi, bütün dünya üzərində nəzarət etmək üçün ən əlverişli ərazi dayanır. Makkinder dünya geopolitik tarixini üç dövrə bölür:

1. Kolumbaqədərki dövr. «Dünya adası»ndan uzaqda yaşayan xalqlar (məsələn, romalılar) daim «əsas torpaqlar»ın qüvvələri tərəfindən işğalçı yürüşlərə məruz qalırdılar. Bu qüvvələr germanlar, hunlar, parfiyalılar, orta əsrlərin eykumeni - Qızıl Orda tərəfindən işğalçı hücumlara məruz qalırdılar.
2. Kolumbun yaşadığı dövr. Bu dövrdə «daxili ayparanın» nümayəndələri (sahil zonaları) məlum olmayan əraziləri işğal edirdilər. Bir qayda olaraq, onlar heç bir yerdə ciddi müqavimətə rast gəlmirdilər.
3. Kolumbdan sonrakı dövr. Artıq işğal edilməmiş ərazilər qalmamışdır. Sivilizasiyanın dinlamik nəbzi xalqarı torpaq uğrunda toqquşmalara, vətəndaş mühariblərinə məhkum edir, xalqları kainatda vətəndaş müharibələrinə ruhlandırır.

Ötüb keçmiş iki min il yenidən Mərkəzi Asiyanı önə çıxarır – o, tarixin ox sahəsinə, Heart Ləndə çevrilir. Burada hunlar, alanlar, XIII əsrdə monqollar öz təsirini qurunun Asiya və Avropa hissəsinə yayır, onlar buna mobil, hərəki qoşunlarının hesabına nail olurdular. Makkinder sonda belə bir maraqlı nəticəyə gəlir ki, məhz xarici barbarların hücumu nəticəsində Avropa öz sivilizasiyasını yaratmağa qadir oldu. Avropa və Avropa tarixi Asiya və Asiya tarixinə tabe olan, ondan asılı olan hadisədir, törəmədir. Böyük coğrafi kəşflər zamanı və ondan sonrakı dövrlərdə tarazlıq dəyişdi: tarix səhnəsinə dənizətrafı, okeanətrafı ölkələr – Portuqaliya, İspaniya, Hollandiya, Fransa, XIX əsrin sonlarında «dünya emalatxanası» adlandırılan İngiltərə çıxdı.

XX əsrin əvvəllərində yeni nəqliyyat texnologiyası, Makkinderə görə, geopolitik tarazlığı quru dövlətlərinin xeyinə dəyişdi. Dənizə çıxışı olmayan bölgələr, ölkələr və zonalar «Heart Land»ın yeni sərhədlərini müəyyən etdilər – Avropanın ortalarından Sakit Okeana qədər. O, Avropa və Asiya materikinin – «daxili aypara»nın sərhədlərindən çıxıb Heart Land Avropanın sərhədlərində olan ada və kontinentlərdən ibarət «xarici aypara» ilə məhdudlaşdı. Bunu zəruri edən səbəb o idi ki, dəniz donanması bu bölgəyə soxula bilməzdi. Dəniz qoşunlarına sahib olan ölkələrin böyük torpaq əraziləri işğal etmək cəhdləri Avroasiyada həmişə müvəffəqiyyətsizliklə sona çatmışdır (XII Karlı, Napoleon və başqaları). Makkinder Heart Land anlayışını işlətməklə bura dünya adasının sərhəddində meydana gələn ölkələri Asiya, Afrika və Avropanı daxil edir [Маккиндер, 1995].

Amerika kapitanı (admiral) Alfred Tayer Mehen (1840-1914) 1890-cı ildə işıq üzü görən ilk kitabı «Dəniz qüvvələrinin tarixə təsiri. 1660-1783-cü il» əsərindən başlayaraq bütün kitablarında («Asiya problemi və onun beynəlxalq siyasətə təsiri», «Dəniz qüvvələri və onun müharibəyə təsiri» və s.) eyni mövzuya toxunmuşdur. «Dəniz qüvvələri və onun tarixə təsiri» əsərini yazmaqla Mehen əslində, XX əsrin əvvəllərində tallassokratiya ideoloqları və siyasətçilərinin fəaliyyət proqramlarını işləyib hazırlamış oldu desək, yanılmarıq. Bu plan əsasında XX əsrin ikncі yarısında SSRİ ilə soyuq müharibədə qələbəni gerçəkləşdirdi və SSRİ-nin dağılması «dəniz qüvvələri»nin strategiyasının uğurlarını daha möhkəmlətdi.

Fransa geopolitik məktəbinin banisi Vidal de la Blaş (1845-1918) coğrafiya mütəxəssisi olmuşdur. F.Ratselin siyasi coğrafiyasından ilhamlanaraq özünün geopolitik konsepsiyasını yaratmış, lakin Alman geopolitikləri tərəfindən ciddi tənqidə məruz qalmışdır. O, 1903-cü ildə işıq üzü görən «Fransanın coğrafi xəritəsi» əsərində yazırdı: «Fransada insanla torpaq arasındakı münasibət qədimdən fasiləsiz xarakter daşımışdır. Qayalıqlar ilk vaxtlar yaşamaq və müdafiə olunmaq üçün əlverişli yer kimi insanları özünə cəlb etmişdir. Bizdə insan torpağın sadiq tələbəsidir. Torpağı öyrənmək əhalinin adət-ənənəsini, onun xarakterini və üstünlüyünü üzə çıxarmağa kömək edir» [Дугин, 2005].

Göründüyü kimi burada o, quru nəzəriyyəsinin möhkəm tərəfdarları sırasındadır. Bundan başqa onun ideyalarının böyük əksəriyyəti zəngin fransız coğrafi və tarix konsepsiyaları ənənəsindən qidalanmışdır. O, bir çox alman siyasi və coğrafi cərəyanlarını ciddi tənqid etmiş, onlardan bəzilərini yenidən işləyərək mühüm düzəlişlər etmişdir. Əgər Ratselin nəzəriyyəsinin nüvəsində məkan, dövlətin coğrafi vəziyyəti, «ərazi tətəbatı», «Məkan hissi» kateqoriyaları dayanırsa, Vidal de la Blaşda isə mərkəzdə insan dayanır. O, fransız siyasi coğrafiyasında antropoloji məktəbin banisi və alman geopolitika məktəbinə alternativ olaraq «passibilizm» məktəbinin yaradıcısıdır. Passibilizmə görə, məkan tarixi təyin etmir, tarixin gedişinə bu və ya digər həvəs oyadır.

Nikolas Spaykmen (1893-1943) holland mənşəli Amerika alimidir, beynəlxalq münasibətlər üzrə professor olmuşdur. Admiral Mehenin nəzəriyyəsinin davamçılarından biridir. Onun fikrincə, geopolitika anlayışı xarici siyasətə dair məsələlərin həlli üçün gərəkli termindir. Onun tədqiqatı sırf praqmatik xarakter kəsb etmişdir. O, dövlətin geopolitik qüdrətinin 10 meyarını müəyyən etmişdir:

1. ərazinin üst qatı;
2. sərhəddin mahiyyəti, təbiəti;
3. əhalinin sayı;
4. faydalı qazıntıların çox olması, yaxud kasadlığı;
5. iqtisadi və texniki inkişaf;
6. maliyyə imkanları, iqtisadi güc;
7. etnik bircinslilik;
8. sosial inteqrasiya səviyyəsi;
9. siyasi stabillik;
10. milli ruh.

Onun fikrincə, əgər dövlətin göstərilən geopolitik imkanlarının meyarlar üzrə məcmusu azdırsa, o zaman həmin dövlət öz müstəqilliyinin əsas hissəsini güzəştə getməli olacaq. Spaykmenin «anakonda» ideyasının məğzi bundan ibarət idi: Avroasiya, Ərəb ölkələri, Hindistan və Çinin sahil ərazilərinə güc yolu ilə nəzarət etmək. O, beynəlxalq münasibətlərdə güc tətbiq edilməsi fikrinə tərəfdar olan alimlərdən biri olmuşdur. Onun fikrincə, güc bütün siyasi nizamın zəruri tərkib hissəsi, uğurlu müharibə aparmaq qabiliyyətidir.

Karl Haushoffer (1869-1946) Münhendə professor ailəsində dünyaya gəlmişdir. Hərbçi olmaq yolunu seçmiş və 20 ildən artıq orduda qulluq etmişdir. 1908-1910-cu illərdə Yaponiya və Mancuriyada Almaniyanın hərbi ataşesi kimi çalışmışdır. 1924-cü ildən başlayaraq 20 il ərzində geopolitik jurnal nəşr etdirmiş və öz əsərərinin əksəriyyətini bu jurnalda çap etdirmişdir. Haushofferin geopolitik problemlərə həsr olunmuş 40-a yaxın kitabı nəşr edilmişdir. 1921-ci ildə coğrafiya üzrə professor elmi dərəcəsinə layiq görülmüşdür. «Kontinental blok» nəzəriyyəsinin banisir olan Haushofferin bu nəzəriyyəsi XXI əsrdə dünyanın qlobal şəkildə yenidən bölüşdürülməsi dövründə tələbat olaraq yaranmışdır. Haushoffer özündən əvvəlki müəlliflərin, xüsusən F.Ratsel, R.Çellen, A.Mehen və Makkinderin əsərlərini dərindən mənimsəmiş və planetar dualizm qanununa yaxşı bələd olmuş, dəniz qüvvələri ilə quru qüvvələri, talassokratiya ilə tellurokratiya, quru hökmranlığı ilə dəniz hökmranlığı arasındakı mübarizəni yaxşı anlamışdır. Alman alimi güman edirdi ki, Almaniyanın intibahı insanların geopolitik düşüncəni küçələrdə öyrənəcəkləri vaxt baş verəcək. O, sıravi alman sakinlərinin geopolitik tərbiyə proqramını irəli sürmüşdü. Hausoffer istəyirdi ki, insanlar bu biliklərə yiyələnməklə ətraf dünya haqqında daha çox bilik və məlumata malik olsunlar.

## NƏTİCƏ

Yüzilliklər boyu kontinental sivilizasiya (quru sivilizasiyası) dəniz sivilizasiyası üzərində təzyiq göstərsə də, texnikanın və gəmiqayırmanın inkişafı, silahların təkmilləşdirilməsi, ictimai əmək bölgüsü, onun ardınca mal mübadiləsi və ticarət dəniz hakimiyyətinin mövqeyini obyektiv olaraq gücləndirmişdir. Bütün bunlar isə bəşər tarixində məkan faktorunun güclənməsi ilə nəticələnmişdir. Tallasokratiya – dəniz hakimiyyəti böyük coğrafi kəşflər epoxası ilə birlikdə başlasa da özünün qüdrətli inkişaf pilləsinə XX əsrin sonlarında - anqlosakson kapitalizmi və industralizminin vahid kompleks kimi formalaşdığı dövrdə çatmışdır. XX əsrin ortalarından başlayaraq tallasokratiyanın başlıca dayağı ABŞ hesab olunmuş və bu dövrdə geopoitik dualizm özünün ən yüksək zirvəsinə yüksəlmişdir. Belə ki, tellurokratiya timsalında keçmiş SSRİ çıxış edirdisə, tallassokratiya ABŞ-la eyniləşdirilirdi.

## Ədəbiyyat:

*Василенко И.А.* (2006). Геополитика современного мира. М., Гардарика.
*Гаджиев К.* (2006). Введение в геополитику. – Москва.
*Давыдова Р.И., Кочкина В.Г., Халин А.А.* (2007). Основы геополитики. – Н.Н..
*Дугин А.Т.* (2000). Философия политики. Москва.
*Дугин А.* (2005). Основы геополитики. Геополитическое будущее России. – М., 2005.
*Колосов В.А., Мироненко Н.С.* (2007). Геополитика и политическая география. – Москва.
*Маккиндер Х.* (1995). Географическая ось истории // Полис, №4.

# TARİXİ ŞƏXSİYYƏTİN DİALEKTİKASI

**Bilal ƏLİZADƏ**
Bakı Dövlət Universiteti,
Fəlsəfə kafedrasının dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru,
*Azərbaycan, BAKI*
alizadebilal3@gmail.com

**XÜLASƏ**

Tarixi proses özünə xas, ardıcıl və obyektiv inkişaf qanunlarına uyğun olaraq cərəyan edir. Bu proses fərdlərin öz fərqli məqsəd və maraqlarını güdən hərəkətləri ilə formalaşır. Tarixi şəxsiyyətin formalaşdırdığını, şəxsiyyətin tarixi aktora çevrildiyini müəyyən etmək və bir şəxsiyyətin tarixdəki rolunu qiymətləndirmək tarix fəlsəfəsi çərçivəsində çox müzakirə olunan bir məsələdir. Müəllif məsələni tədqiq və təhlil edərkən Q.Hegel, Q.Plexanov, K.Yaspers kimi tanınmış filosofların və başqalarının əsərlərinə istinad edir. Məqalə Azərbaycanda hələ XX-ci əsrdə baş verən siyasi proseslərdə tarixi şəxsiyyətin rolu və məsuliyyəti məsələsinə geniş yer ayırır, bu məsələyə müasir baxış prizmasını təqdim edir.

**Açar sözlər:** tarix, şəxsiyyət, tarixi proses, tarixi istiqamət, tarixin məqsədi.

# EXPLORING DIALECTIC OF HISTORICAL FIGURE

**Bilal ALIZADEH**
Baku State University,
Associate Professor of the Department of Philosophy, PhD,
*Azerbaijan, BAKU*
alizadebilal3@gmail.com

**SUMMARY**

Historical process unfolds in accordance with its inherent, coherent, and objective developmental laws. This process is shaped by the actions of individuals pursing their distinct goals and interests. Determining who shapes the history, who becomes a historical actor and assessing the role of an individual in the history constitute a much-debated issue within the realm of philosophy of history. While studying and analyzing the issue, the author references the works of renowned philosophers such as G.Hegel, G.Plekhanov, K.Jaspers, among others. The article delves into the issue of the role and responsibilities of a historical individual in the political developments that occurred back in 20$^{th}$ century in Azerbaijan, offering a contemporary perspective on this issue.

**Key words:** History, personality, historical process, historical direction, purpose of history.

Tarixi proses bir tərəfdən öz daxili immanent məntiqi və obyektiv inkişaf qanunları üzrə gedir, digər tərəfdən isə öz məqsəd və maraqları olan insanların (subyektlərin) fəaliyyətinin məhsuludur. Buradan aydındır ki, tarix obyektiv və subyektirin vəhdəti kimi çıxış edir, yəni insanların iradə və arzusundan asılı olmayaraq inkişaf edir, həm də bu tarix insanların öz tarixidir. Tarixin kimlər tərəfindən yaradılması və tarixin subyektləri sırasına kimlərin daxil edilməsi, tarixdə şəxsiyyətin rolu və yeri tarix fəlsəfəsində geniş müzakirə olunan problemlərdəndir. Bir çox filosoflar (N.Mixaylovski, P.Lavrov və b.) iddia edirlər ki, tarixdə böyük şəxsiyyətlər (qəhrəmanlar) həlledici rol oynayırlar. Məsələn, N.Mixaylovskiyə görə belə qəhrəmanlar kütləyə yaxşı və ya axmaq hərəkət etmək, xeyirxah və ya rəzil hərəkət etmək, ağıllı və ya mənasız hərəkət etməyin

nümunəsini göstərirlər. P.Lavrov isə açıqca bildirir ki, tarixi tənqidi düşünən şəxsiyyətlər yaradır, onlar tarixi öz istədikləri istiqamətə yönəldə bilirlər.

Görkəmli şəxsiyyətlər müəyyən şəraitin təsiri altında və özünün şəxsi keyfiyyətləri sayəsində tarix səhnəsinə çıxırlar. Onların məqsədi və rolu çox vaxt xalqa səfərbəredici təsir göstərməkdir. Belə insanlar təkcə praktiki və siyasi xadimlər deyil, həm də fikirləşməyi bacaran, təfəkkürlü insanlardır. Nəzərə almaq lazımdır ki, bu və ya digər tarixi dövrdə müəyyən görkəmli şəxsiyyətin yetişməsi də təsadüfi deyildir. Görkəmli şəxsiyyətin tarixi prosesə təsir göstərməsi iki şərtlə əlaqəlidir.

Birincisi, bu şəxsiyyətin istedadıdır. Bu şəxsiyyət öz istedadı ilə zamanın ehtiyaxlarına başqalarından daha çox yaxın olur. Bu o deməkdir ki, həmin şəxsiyyətin fəaliyyəti hadisələrin bu zəruri və qeyri-şüuri gedişini şüurlu və azad surətdə ifadə edir. Bu şərtlə əlaqədar onu da demək lazımdır ki, hər bir dövrdə cəmiyyətdə bir neçə görkəmli şəxsiyyət mövcud olur. Amma onlardan yalnız biri ön plana çıxır və başqalarını kölgədə qoyaraq görkəmli şəxsiyyətə çevrilir. İkinci şərt budur ki, mövcud ictimai quruluş, sosial qruplar və təbəqələr şəxsiyyətə öz qabiliyyətlərini reallaşmaqda manecilik törətməməlidir.

Bəşəriyyətin tarixi boyu baş vermiş sonsuz sayda hadisələr müxtəlif mənruiyyata və zəkaya malik şəxsiyyətlərin (dahi və ya küt, istedadlı və ya orta səviyyəli, iradəli və iradəsiz) rəhbərliyi altında həyata keçirilmişdir.

Tarixi prosesdə şəxsiyyətin həm güclü, həm də zərif cəhətləri çox tezliklə və aydın şəkildə üzə çıxır. Hər iki tərəf müvafiq surətdə millətin və ümumilikdə bəşəriyyətin taleyinə əhəmiyyətli təsir göstərir. Görkəmli şəxsiyyətlər öz ağlı, biliyi və təcrübəsi sayəsində hətta müəyyən qisim hadisələri və onların nəticələrini dəyişdirə bilir. Tarixi şəxsiyyətin böyüklüyü onun gördüyü işin miqyası ilə ölçülür. Onun böyüklüyü insanın anadan gəlmə təbii imkanlar, həm də onun şəxsi keyfiyyətləri və tarixi şərait ilə müəyyən olunur.

Dünya tarixini şəxsiyyətin yaratdığını iddia edən fikirlər cəmiyyətdə ideyanın hökmranlıq etdiyi haqda baxışa, yəni tarixin idealist anlaşılmasına əsaslanır. İlk nəzərdə belə görünür ki, doğurdan da görkəmli şəxsiyyətlər tarixi prosesin determinantlarıdır. Məsələn, Makedoniyalı İsgəndər, sonradan Napoleon böyük imperiyalar yaratmışlar. Lakin əgər qədim Yunanıstanda və ya Fransada müvafiq sosial-iqtisadi və siyasi şərait olmasaydı, nə onlar, nə də başqaları belə imperiyalar yarada bilməzdilər. Deyilənlər sübut edir ki, tarixə dərindən yanaşmaq burada materialist mövqeyi görmək zəruridir. Bunu məlumdur ki, K.Marks irəli sürmüşdü. Nəticədə belə bir həqiqət aşkar edildi ki, tarixi prosesi şəxsiyyətlər, qəhrəmanlar deyil, ümumilikdə geniş xalq kütlələri yaradır. Görkəmli şəxsiyyətlər həyata gəlir, yaşayır və sıradan çıxır, xalq isə tarixin başlıca subyekti kimi həmişə mövcud olaraq qalır. Qeyd olunanlar heç də tarixdə görkəmli şəxsiyyətlərin mühüm rolunu inkar etmir. Bu məqamın özünə də dəqiq yanaşmaq lazım gəlir, çünki bəzən görkəmli şəxsiyyətlər dedikdə siyasi xadimlər və dövlət başçıları başa düşülür. Düzdür, onlar öz sosial mövqeyinə görə taleyüklü qərarlar qəbul etməklə tarixi prosesə bu və ya digər dövlətin siyasətinə daha güclü təsir göstərirlər. Amma görkəmli alimləri, ədəbiyyat və incəsənət xadimlərini, habelə tanınmış idmançılar da daxil edilməlidir.

Dahi filosof G.V.Hegel göstərirdi ki, tarixi prosesin gedişində mövcud qaydalar ilə onların dəyişdirilməsinə yenicə yaranmaqda olan imkanlar arasında ziddiyyətlər yaranır. Həmin bu imkanlarda nə isə bir çox böyük ümuməhəmiyyət kəsb edən cəhət vardır, amma bu imkanlar yalnız ən yüksək qabiliyyətlərə malik olan və həmin ümumini həyata keçirməyə hazır olan şəxsiyyətlərin fəaliyyəti ilə reallaşdırıla bilər. Buradan o belə nəticə çıxarırdı: "öz məqsədlərində sözügedən bu ümumini ifadə edən insanlar sözün əsl mənasında tarixi insanlar, ümumdünya tarixi şəxsiyyətlər hesab olunur" [Гегель, 1993: 81]. Onların sırasına Hegel Y.Sezarı daxil edərək yazırdı ki, onun Romanın diktatoru olmaq niyyəti, həm Roma, həm də dünya tarixinin zəruri məqamı idi. Bu təkcə onun şəxsi nailiyyəti olmayıb, həm də öz vaxtında ifadə olunan instikt idi. Beləliklə, Hegelə görə

yalnız "öz şəxsi məqsədlərində ali (ilkin) ruhun substansional elementləri olanlar tarixdə görkəmli şəxsiyyətlərdir" [Гегель, 1993: 82]. Hegelə görə tarixi şəxsiyyətlər o insanlardır ki, böyük bəsirətlə tarixi prosesin perspektivlərini anlayırlar. Belə insanlar tarixi şəxsiyyətlərdir, onların məqsədlərində ən ümumi məzmun vardır, onlar düşünən insanlardır və vaxtında nəyin lazım olduğunu dərk edirlər, yaxın zamanlarda onlar dünyanın inkişafı üçün zəruri olanı bilmək, onu özünün məqsədi etmək və onun həyata keçməsi üçün öz enerjisini qoymaq – bu tarixi şəxsiyyətlərin işi idi. Hegelə görə görkəmli insanlar qəhrəmanlardır, çünki onlar ümumdünya tarixi əhəmiyyət kəsb edən həlledici hərəkətlər etmək üçün zəruri şərtlər yetişdiyi vaxtda meydana çıxırlar. Onlar həm də parlaq zəkaya malik olur və həmin məqamda cəmiyyətə nə lazım olduğunu anlayırlar. Onlar məhz müvafiq dövrdə sosium üçün zəruri olanı və tarixin çoxdan ehtiyac hiss etdiyini öz qarşısına məqsəd kimi qoyurlar. Belə qəhrəmanlar mövcud cəmiyyətin mahiyyətini bütün digər insanlardan yaxşı başa düşürlər. Beləliklə, Hegel göstərdi ki, gərkəmli şəxsiyyətlərin tarix səhnəsinə çıxması zəruri və labüddür, çünki köhnə və yeni arasında toplanmış ziddiyyətlərdən cəmiyyətin gələcək inkişafını qeyri-mümkün edir. Böyük şəxsiyyətlər bu ziddiyyətləri həll edir və hamını ölümdən xilas edir.

Bu məqamda Hegelin dialektik metodundan yararlanaraq qeyd etmək istəyirik ki, tarixi şəxsiyyət cəmiyyətin sonrakı inkişafını təmin etməklə yanaşı, özü də inkişaf edir. Belə tarixi şəxsiyyətlər özü-özünü inkar edərək yeni tarixi məqama yüksəlirlər. Belə tarixi şəxsiyyətlər içərisində Azərbaycanın keçmiş rəhbəri H.Ə.Əliyevin təcrübəsi xüsusi qeyd edilməlidir. Köhnə ictimai-iqtisadi sistemdən dialektik şəkildə imtina edərək yeni siyasi sistemin yaradıcısı ola bildi. Bu tarixi şəxsiyyətin dialektikası idi, inkişafı idi.

Hegel həm də göstərirdi ki, "qarşıda duran məqsəd əldə olunduqda həmin böyük şəxsiyyətlər boş buğda qabığı kimi kənara atılır. Onlar ya İsgəndər kimi vaxtsız ölür, ya da Sezar kimi öldürülür, Napoleon kimi Yelena adasına sürgün edilir" [Гегель, 1978; Гегель, 1993: 82-83].

Hegel yazırdı ki, "ümumdünya tarixi şəxsiyyətlərə bu və ya digər arzuda ifadə olunan sayıqlıq xas deyildir. Onlar çox şeyi hesaba almırdılar, tamamilə özlərini bir məqsədə həsr edirdilər. Hətta belə şəxsiyyətlərin digər böyük, müqəddəs maraqlara yüngül münasibət bəsləmələrinə də rast gəlmək olur və bu cür davranış əxlaqi cəhətdən pislənilməlidir. Belə bir böyük şəxsiyyət zərərsiz gül-çiçəyi tapdalamağa, öz yolunda çox şeyi məhv etməyə məcburdur" [Гегель, 1978; Гегель, 1993:29-30]. Hegel görkəmli şəxsiyyətlərin fəaliyyətinin psixoloji təhlilinin qəti surətdə əleyhinə çıxırdı. Onların hərəkətlərini daxili motivlərlə izah etməyin tam əleyhinə idi. O görkəmli şəxsiyyətlərin fəaliyyətini onların şəxsi insani keyfiyyətlərində görən tədqiqatçıları tənqid edirdi. Hərçənd belə baxışlar da var idi, yəni bir çoxları İsgəndərdə fatehlik ehtiraslarının olmasını əsas götürür, yaxud da Napoleonun hərəkətlərini onun ambisiyalılığı və nəyin bahasına olursa olsun hakimiyyəti ələ keçirmək cəhdi ilə əsaslandırmağa çalışırdılar. Böyük filosofun bu tənqidi tam ədalətli hesab olunmalıdır. Tarixi şəxsiyyətlərin xarakterinin rolu tarixin kritik (böhran) məqamlarında daha aydın surətdə üzə çıxır (Məsələn, müharibə dövründə olduğu kimi). Tarixçilər arasında hələ də belə mübahisə getməkdədir ki, əgər Napoleon özünü pis hiss etməyəcəydi, onda Vaterloo döyüşünün gedişi və aqibəti necə olardı (Unudurlar ki, Napoleon Rusiyadan təzəcə məğlubiyyətlə qayıtmışdı və ona qarşı bir neçə Avropa dövləti koalisiyada birləşmişdi – tarixi şərait xeyli dərəcədə Napoleonun əleyhinə idi. Hərbi, iqtisadi, siyasi cəhətdən Fransa koalisiya dövlətlərinə uduzurdu).

Hegel həm də göstərirdi ki, şəxsiyyətlər ictimai həyatın bütün sferalarında dəyişikliklər yaradır, cəmiyyətin bütün təbəqələrinin marağını ifadə edirlər. Buna görə də bəzən heç də hamı onların fəaliyyətindən razı qalmır, onların hərəkətlərini mühakimə edirlər. Hegelə görə belə mühakimələr yersizdir, çünki görkəmli şəxslərin bu qəbildən olan hərəkətləri obyektiv xarakter daşıyır, cəmiyyətin tərəqqisinə kömək edir və bunun naminə ayrı-ayrı insanların şəxsi maraqları qurban verilə bilər.

Tarixdə insanın yeri və rolunun anlaşılmasında Hegeldə ikilik aşkarlanmışdır. Bir təfdən insanın ictimai-siyasi hadisələrin sərbəst və ya məcburi iştirakçısı kimi mövcud əmək bölgüsü və

tələbatları sistemi hesabına özünün fərdi fəaliyyəti ilə sosial tama daxil olur. Digər tərəfdən fərdi fəaliyyətin əhəmiyyəti tarixi qanunauyğunluğun mexanizmi ilə təmin olunur. Tarixin traktovkasında Hegeldə determinizm tendensiyası həqiqətən vardır, dövlətin rolu isə yüksək dərəcədə şişirdilmişdir. Amma tarix səhnəsində fəal insanın rolu aradan qalxır və ya yox – bu məsələyə Hegelin münasibəti birmənalı deyildir. Digər tərəfdən qanunauyğunluq və insan fəaliyyətinin nisbəti məsələsini təhlil edərkən Hegel ilk dəfə olaraq tarixi determinizmin spesifikası məsələsini irəli sürmüşdür. Bununla əlaqədar olaraq ümumdünya tarixi şəxsiyyətlərin rolunun anlamı xüsusi maraq doğurur. Aydın olmuşdur ki, tarixdə insanların fəaliyyəti, adətən onların cəhd etdiklərinə yox, başqa nəticələrə gətirib çıxarır. Tarixi zərurət baxımından bu fəaliyyət əhəmiyyətinə görə cüzi və təsadüfidir. Amma Hegel hesab edir ki, bəzən konkret hərəkət və davranış heç də təsadüfi və az əhəmiyyətli nəzərə çarpmır. Əksinə, onlarda ən ümumilik momenti ifadə olunmasına görə çox mühüm hesab olunurlar. Belə hadisəni Hegel böyük tarixi münasibətlər kimi dəyərləndirmişdir. Onlar ehtiraslar vasitəsi ilə ifadə olunur və həyata keçirilirlər, amma ehtiraslar və xüsusi məqsədlər ilə başa çatmır. Onların xüsusiyyəti tarixi yeniləşmə ilə bağlı olmasündadır. Hegel cəmiyyətin tarixdə böhranlı dövrlərinin xüsusi mənasını qeyd etmiş və onların məzmunlu xarakteristikasını vermişdir. Burada böyük toqquşmalar meydana gəlir, söhbətin sosial böhran dövrlərindən getməsini başa düşmək çətin deyil, mövcud dəyər və normalar qüvvədən düşür, yaxın vaxtlara qədər qəti və sarsılmaz sosial qaydaların əsası ayaq altına atılır, yeni ictimai formaların yaranması köhnələr üçün dağıdıcı olur. İş ondadır ki, yeni yaranan qiymətli, ağıllı və sadəcə zəruri hesab olunur. "Tarixi hərəkət özünün məqsədini güdən adamlar tərəfindən həyata keçirilir və şəxsi məqsədlər arasında yeni ən ümumi məzmun yerləşir. Belə adamların – maraqları və fəaliyyəti inkişafın tələbatı ilə üst-üstə düşür və meydana gəlmiş tarixi imkanlar həyata keçirilir" [Гегель, 1935:141].

Hegel ümumdünya tarixi şəxsiyyətlərdən, onların rolundan bəhs edərkən şəxsi keyfiyyətlərin mütləqləşdirilməsi ənənəsindən qəti şəkildə uzaqlaşmışdır. Hər bir fərd kimi tarixi şəxsiyyət də eqoist məqsədlər güdür. Sezar özünün şərəfi və təhlükəsizliyi uğrunda mübarizə aparmışdır ki, bu da onun rəqibləri üzərində hərbi-siyasi qələbəsi hesabına təmin oluna bilərdi. Bu məqsədin həyata keçirilməsi qeyri-adi şəxsi keyfiyyətləri tələb edirdi və Sezarın böyük şəxsiyyəti onun fəaliyyət obyektinin nəticələrini yaradırdı. Tarixi şəxsiyyətlər standart fəaliyyət göstərmirlər, prosesin gedişində başqaları üçün gizli olanı sezə bilirlər. Hegelə görə insan şəxsiyyəti məxsus olduğu sosial birliyin bazası əsasında formalaşır. Hər bir insan dünyaya öz xalqının əhatəsində gəlir və onun ruhuna məxsusdur. Onların xarakterik cizgiləri tarixi zərurət baxımından təsadüfidir, onları formalaşdıran sosial mədəni mühit kontekstində isə təsadüfi deyildir.

Böyük rus mütəfəkkiri G.V.Plexanov da tarixdə şəxsiyyətlərin rolunu izah edərkən başlıca diqqəti mövcud ictimai şəraitə yönəldirdi. Onun fikrincə, "müəyyən istedada malik olan insanın böyük şəxsiyyət olması üçün iki şərt lazımdır: 1) onun istedadı həmin şəxsə zamanın ehtiyaclarını digərlərindən daha da tez başa düşməsinə imkan verməlidir; 2) mövcud ictimai quruluş həmin zamanda vacib və faydalı olanı həmin şəxs tərəfindən həyata keçirilməsinə mane olmamalıdır. Böyük şəxsiyyətləri böyük dövr (zaman) yaradır" [Плеханов, 1969:327].

Tarixdə şəxsiyyətin rolundan bəhs edən digər görkəmli alman filosofu K.Yaspers belə hesab edirdi ki, görkəmli şəxsiyyət odur ki, başqalarının azadlığı üçün özünün məsuliyyət daşıdığını hiss edir. O, göstərirdi ki, digər insanları azadlıqdan məhrum edən dövlət xadimi görkəmli şəxsiyyət hesab oluna bilməz, onun fikrincə Sezar respublikanı ləğv edib yerində diktatura bərqərar etdiyi üçün görkəmli şəxsiyyət deyildir. Bununla yanaşı K.Yaspers öz mövqeyini sonralar bir qədər yumşaldaraq yazırdı ki, "bir çox görkəmli şəxsiyyətlər başqalarının azadlığı üçün öz məsuliyyətini hiss etsə də aşağıdakı iki şərt ilə hesablaşmağa məcbur olurlar: zorakılıq və azadlıq" [Ясперс, 1996:152].

Beləliklə, görkəmli şəxsiyyətlərin yetişməsi üçün təkcə tarixi şərait kifayət deyil, şəxsin fərdi keyfiyyətləri də lazımdır. Görkəmli şəxsiyyət olmaq üçün insanın cəmiyyətdə müvafiq siyasi

və sosial mövqeyə malik olmalıdır. Şəxsiyyətin roluna cəmiyyətin sivilizasiyalılıq dərəcəsi, əhalinin siyasi mədəniyyət səviyyəsi də əhəmiyyətli dərəcədə təsir edir. Böyük şəxsiyyətlər müəyyən tarixi fazanı və epoxanı əks etdirirlər. Məsələn, Makedoniyalı İsgəndərin fəthləri, işğalları dövrün tarixi şəraitinə uyğun idi. Amma tarixin heç də bütün dövrlərində zamanın irəli sürdüyü problemləri reallaşdırmağa qabil olan şəxsiyyətlər yaranmır. Tarixi məsələlərin həll edilməsi üçün müvafiq tarixi şərait, insan potensialı, hərbi-texniki potensial və bunun üçün zəruri keyfiyyətlərə malik olan şəxsiyyət yetişməlidir. Hər şeydən əvvəl ona diqqət verməк lazımdır ki, insanlar görkəmli şəxslər kimi doğulmurlar. G.Plexanovun ədalətli olaraq yazdığı kimi görkəmli şəxslər tarixi şəraitə görə formalaşırlar. Rusiyada I Pyotr görkəmli şəxs kimi ona görə formalaşdı ki, XVIII əsrin əvvəllərində ölkədə böyük islahatlara ehtiyac var idi, sanki xalq böyük yola çıxırdı və kiminsə gəlişini gözləyirdi. Belə bir tarixi şəxsiyyət böyük Pyotr oldu. “Tarixdə şəxsiyyətin rolu təkcə tarixi şəraitdən asılı deyil, həm də cəmiyyətdə onun hansı siyasi və sosial mövqeyə malik olmasından da asılıdır” [Гобозов, 1999:146].

Beləliklə, tarixi proses insanların həyat fəaliyyətindən asılı olaraq formalaşır. Onlar çalışırlar, maddi və mənəvi dəyərlər yaradırlar. Onlar bu dəyərləri, ənənələri, adətləri, mədəni nailiyyətləri nəsildən-nəsilə ötürürlər.

Tarixi şəxsiyyətin dialektikasından bəhs edərkən qeyd etmək istəyirik ki, Azərbaycan tarixində bir neçə tarixi şəxsiyyət olmuşdur ki, onların ictimai-siyasi görüşləri zaman-zaman dəyişmiş, yenilənmiş və dialektik, yaradıcı yol keçmişlər. M.Ə.Rəsulzadə, Ş.M.Xiyabani, H.Əliyev və başqa tarixi şəxsiyyətlər belə bir dialektik siyasi inkişaf yolu keçmişlər. M.Ə.Rəsulzadə Azərbaycan siyasi tarixində sosial-demokrat kimi fəaliyyətə başlamış, sonralar onlardan siyasi baxışlarına görə uzaqlaşmış, əvvəl Azərbaycanın Rusiya Federativ dövlətində muxtariyyət statusu uğrunda mübarizə aparmış, sonralar isə Azərbaycanda müstəqil dövlət yaratmaq işinə başlamış və uğurla bu işi yerinə yetirmişdir.

Müstəqil Azərbaycan tarixində H.Ə.Əliyevin tarixi şəxsiyyət kimi xüsusi yeri vardır. H.Ə.Əliyev uzun müddət sovet dövlətinə xidmət etmiş, görkəmli siyasi xadim olmuşdur. Amma tarixi şərait dəyişdikdən sonra böyük dialektik inkişaf prosesi keçərək keçmiş siyasi fəaliyyətindən imtina edərək müstəqil Azərbaycan Respublikasının yaradılmasında əvəzsiz xidmət göstərmişdir.

Tarixi prosesin subyektlərindən bəhs edərkən xalqın tarixdə oynadığı rolu nəzərə almamaq olmaz. Tarixdə xalqın çox böyük rolu vardır. Tarixdə xalqın və tarixi şəxsiyyətin rolu məsələsinə obyektiv yanaşmaq lazımdır. Tarixdə xalqın da böyük rolu var, həm də tarixi şəxsiyyətin rolu böyükdür, bu məsələyə dialektikcəsinə yanaşmaq lazımdır. Biz burada xüsusilə qeyd etmək istəyirik ki, tarixdə şəxsiyyətin rolu uzun müddət Marksist fəlsəfəsində arxa planda qalmışdır. Tarixdə şəxsiyyətlər milyonlarla insanın taleyinə, dünya düzəninə və beynəlxalq münasibətlərə böyük təsir göstərir, əgər onlar xalqın rifahı naminə sosial tərəqqiin həyata keçməsinə, cmiyyətin humanistləşdirilməsinə çalışarlarsa, xalq onları həmişə yad edəcəkdir.

Və nəticə olaraq qeyd etmək istəyirik ki, son dövrlərdə Azərbaycanda yaşanan siyasi, iqtisadi və mənəvi hadisələr şəxsiyyətin cəmiyyətdə yerinin və rolunun çox vacib olduğu, ümummilli məsələlərdə onun öz fəaliyyətinin nəticəsinə görə məsuliyyət daşımasını dərk etməsi çox vacibdir. XX əsrin 20-30-cu illərində və 90-cı illərində Azərbaycana rəhbərlik etmiş şəxslərin çoxu öz məsuliyyətini başa düşmür və dərk etmirdi. Ona görə bu dövrlərdə xalqın başına olmazlar, olaylar qalmadı ki, baş verməsin. Buna görə xalqa rəhbərlik etmək istəyən şəxslər həm ölkə, xalq qarşısında öz məsuliyyətini başa düşməli və dərk etməlidirlər.

**Ədəbiyyat:**

*Гегель, Г.В.Ф.* (1993). Лекции об истории философии. СПб.
*Гегель, Г.В.Ф.* (1978). Философия истории. М., Т. - VIII.
*Гобозов, И.А.* (1999). Введение в философию. М.
*Плеханов, Г.* (1969). Вопросы о роли личности в истории. М..
*Ясперс, К.* (1996). Смысл и назначение истории. М.

# QLOBALLAŞAN DÜNYADA KİMLİK PROBLEMİ

**Məlahət MƏMMƏDOVA**
Bakı Dövlət Universiteti,
Sosial elmlər və psixologiya fakültəsinin Fəlsəfə kafedrasının doktorantı
*Azərbaycan, BAKI*
mila-mamedova@inbox.ru
ORCİD İD: 0000-0002-6875-6483

## XÜLASƏ

Qloballaşma sosial həyatın hər bir sahəsinə təsir etdiyi üçün şəxsiyyət məsələsinə ciddi təsir göstərir. Bu gün insanların şəxsiyyəti təkcə milli deyil, həm də qlobal xarakter daşıyır. Dil, adət-ənənələr, milli özünüdərk kimi şəxsiyyətin aspektləri qloballaşmanın təsiri altında dəyişikliyə məruz qalır və bu, şəxsiyyət böhranına gətirib çıxarır.

**Açar sözlər:** kimlik, insan, mədəniyyət, qloballaşma.

# IDENTITY PROBLEM IN THE GLOBALIZED WORLD

**Malahat MAMMADOVA**
Baku State University,
doctoral student of the Department of Philosophy
of Faculty of Social Sciences and Psychology
*Azerbaijan, BAKU*
ORCID ID: 0000-0002-6875-6483
mila-mamedova@inbox.ru

## SUMMARY

Globalization has a serious impact on the issue of identitiy, as it affects every area of social life. Today, people's identity is not only national, but also global. Aspects of identity such as language, traditions,national self-awerness are subject to changes under the influence of globalization,which leads to an identity crisis.

**Key words**: identity, human, culture, globalization.

## Kimliyin mahiyyəti

Fərdlərin özünü tanımaq, bir yerə və bir qrupa aid olmaq istəyi və ehtiyacı ilə bağlı olan kimlik məsələsi qlobal dövrün mübahisəli mövzularından birinə çevrilmişdir. Fridman qeyd edir ki, kimlik dillə, uşaqlıqla, ənənələrlə birlikdə insan tərəfindən mənimsənilir, insan şüurunun ən dərin qatlarına qədər uzanır. Elmi, texnoloji, siyasi və mədəni ölçüləri ilə çoxşaxəli təsiri olan qloballaşma, bir çox məsələlərə təsir etdiyi kimi kimlik məsələsinə də təsir etməkdədir. Fərdin bir millətin mənsubu olması milli kimlik kimi qəbul olunsa da, fərdin özünü dünya vətəndaşı kimi görməsi onun qlobal kimliyini önə çıxarır. Yaşadığımız dövrdə qloballaşma həm milli, həm də qlobal kimliyə sahib olmağı zəruri etmişdir.

Qloballaşma prosesi milli dövlətlərin hegemonluğu ciddi şəkildə zəiflətmiş və kimlik, yalnız milli deyil, qlobal mahiyyət kimi də müəyyən edilməyə başlanmışdır. Həm də informasiya texnologiyalarının geniş əhatə dairəsinə malik olması kimlikləri daha axıcı formaya salmış və getdikcə yenilənməsinə səbəb olmuşdur. Müasir dövrün insanı artıq tək kimliklə deyil, bir çox

kimlik ilə müəyyən edilir. Bir neçə kimlik içərisində fərdin öz kimliyini seçməsi, formalaşdırması kimlik problemlərini daha da qabartmış olur.

Kimlik anlayışı ümumi mənada həm fərdlərin yaşadıqları mühit daxilindəki statusu, həm də sosial - mədəni keyfiyyətlərinin vəhdətindən ibarət çoxsahəli bir məzmuna malikdir. D. Kellner müasir kimliyin xüsusiyyətlərini belə xarakterizə etmişdir:

Kimliklərin sərhədləri fasiləsiz olaraq genişlənməkdə və yeni ölçülər almaqdadır.

Həyat tərzləri dəyişdikcə insanların kimliklərini seçə bilmə imkanları artır və üstünlük verdiyi dəyərlər dəyişkən xarakter alır.

Müasirləşmə də kimliyi formalaşdıran ünsürlərdəndir. İnsan bu prosesdə kimlik əldə etmək məqsədilə seçim etmək, məcburiyyətindədir.

Kimlik istənilən zaman dəyişdirilə bilən keyfiyyətdir və fərd bunun fərqindədir.

Modernlik keçmiş dəyərlərə bağlı olan kimliklərin tənəzzülünü və yeni kimlik formalarının yaranmasını ifadə edir.

Müasir dövrdə kimlik məsələsi daha çox öz mənimizi necə yaradacağımız və bunu başqalarına necə təqdim edəcəyimizlə bağlıdır [Kellner, 2001: 237].

Bəşəriyyətin inkişafının əsasında dominant olan qərbmərkəzli modeldir. Yəni cəmiyyətlərdə qərb dəyərləri, həyat fəlsəfəsi, üstünlük təşkil edir. Nəticədə, təzyiqə məruz qalan ölkələrin və xalqların böyük qismi qloballaşma prosesinin autsayderi və ya obyekti vəziyyətinə düşmüşdür. Bu isə, öz növbəsində milli-mədəni kimliyin saxlanılması problemini aktual edir.

**Qloballaşma və məsəni müxtəliflik**

YUNESKO-nun mədəni müxtəlifliklə bağlı ümumbəşəri deklarasiyası da qloballaşmanın dialektik xüsusiyyətlərini ifadə edir. Burada qeyd olunur ki, qloballaşma prosesi yeni informasiya və kommunikasiya texnologiyalarını stimullaşdıraraq, mədəniyyətlər və sivilizasiyalar arasında dialoq kimi çıxış etsə də, o, eyni zamanda mədəni müxtəlifliyə çağırışlar edir [Бердяев, 2000: 340-346]. Qloballaşma cəmiyyətlərin hərtərəfli inteqrasiyası sayəsində insanların bir araya gəlməsi, kommunikasiya sahəsinin genişlənməsi, şəxsiyyətin mənəvi inkişafı, insan həyatının yeni biliklərlə, təcrübələrlə texnologiyalarla ideyalarla zənginləşməsi üçün yeni imkanlar açdı. Digər tərəfdən isə destruktiv xarakterli problemlər yaratdı (mədəni xaos, min illiklərlə tarixi olan ənənələrin, dəyərlərin, inancların arxa plana atılması, böhran zeniyyətinin formalaşması) ki, bunlar da çox ciddi fəlsəfi yanaşmalar tələb edir.

Öz milli-mədəni və sivilizasion kimliyini müəyyən etməyə olan ehtiyacın artmasını Hantinqton belə təsvir etmişdir: “Müxtəlif sivilizasiyalardan olan xalqlar arasında qarışılıqlı əlaqə güclənir. Bu, sivilizasion özünüdərkin artmasına səbəb olur. Müxtəlif sivilizasiyalar arasındakı fərq aradan çıxır.” Özünün “Biz kimik?” adlı kitabında Amerikaya münasibətində qeyd edir:

“Amerikan kimliyi unikaldır. Amma Amerika özü unikal deyil, çünki burada kimlik problemi mövcuddur. Demək olar ki, insanlar burada maraqlanır, düşünür, müəyyən etməyə çalışır ki, onları birləşdirən, fərqləndirən ümumi cəhətlər nədir? Qloballaşan müasir dünyada insanlar arasındakı mühüm fərqlər artıq nə ideoloji, nə də iqtisadi-siyasi deyil, mədəni xarakterlidir. Xalqlar və millətlər “biz kimik?”, “biz nəyə aidik?” sualına cavab tapmağa çalışırlar [Bauman, 2001].

Xalqların kimliyi ilə bağlı olaraq Berdyayev yazırdı: “Rusların, fransızların, ingilislərin, almanların və bütün xalqların birliyini, qardaşlığını arzulamaq olar. Amma milli simaların, milli mənəvi dəyərlərin və mədəniyyətlərin Yer üzündən silinməsini arzulamaq olmaz [Бердяев, 2000: 340-346].

Beynəlxalq mədəni əməkdaşlıq prinsiplər haqqında bəyannamədə qeyd olunur ki, “hər bir mədəniyyət özünəməxsus dəyərlərə malikdir və onlara hörmət edib qorumaq lazımdır. “Bioloji müxtəliflik təbiət üçün nə qədər vacibdirsə, mədəni müxtəliflik də insanlıq üçün vacibdir”.

Bu gün, qloballaşma prosesi xalqların, dövlətlərin qarışılıqlı münasibətlərini, insanın bütün həyat fəaliyyəti gedişatında universallaşmasını və inteqrasiyasını qaçılmaz etmişdir. Birincisi, baş

verən proseslər vahid dünya bazarının, ümumi mədəniyyətin formalaşması, malların və pulun sərbəst hərəkəti ilə əlaqədardır. İkincisi, yeni informasiya resurslarının və texnologiyaların geniş istifadəsi ilə bağlıdır. Bununla əlaqədar olaraq, problemlərin qoyuluşu və tədqiq olunması da çətindir. Əslində qloballaşma prosesi sadəcə birləşmə kimi deyil, bəşəriyyətin müxtəlif dini, milli, sivilizasyon və. s.elementlərin universallığı çərçivəsində birləşməsi kimi çıxış edir. Başqa sözlə, qloballaşma insanın bütün fəaliyyət sferalarına inteqrasiyanı təmin edən, bir- biri ilə əlaqəli və bir-birindən asılı olan vahid dünyanın formalaşmasına istiqamətlənən, daha konkret, yeni şərtlər daxilindəki inkişafdır.

**Kimliklərin transformasiyası**

Mədəniyyət sahəsindəki qloballaşma, dünyada, müxtəlif xalqların dəyərlərinə, tarixinə, dilinə etinasız yanaşan ümumi bir mədəniyətin yayılmasına imkan yaradır. Eyni zamanda milli özünüdərkin formalaşması qlobal proseslərin dağıdıcı təsirinə qarşı müdafiə müxanizmi kimi çıxış edir. Bu ənənələr müsbət xarakter daşıyır və xalqların universallaşma və standartlaşma proseslərinə təbii reaksiyasıdır. Çünki milli özüüdərkin formalaşması dəyişən dünyada milli dəyərlərin rolunun güclənməsi, xalqların, eləcə də onların milli kimliyinin qorunub saxlanılması və inkişafının əsas səbəblərindəndir. Təcrübələr göstərir ki, bu məsələləri ciddiyə almamaq, sonda mənfi nəticələrə səbəb olar, hətta münaqişələrin yaranmasına gətirib çıxarar.

Qloballaşma prosesləri təkcə ölkələrin, siyasətlərinə, iqtisadiyyatlarına, mədəniyyətlərinə yeni nələrsə qatmır, həm də, ayrı-ayrı şəxsiyyətlər və ya ümumi xalq səviyyəsində kimliyə təsir göstərir. Dəyişən dünyada əsas məsələlərdən biri əsasında, kimlik böhranının dayandığı qeyri müəyyənlikdir. Onun əsas əlaməti, kollektiv və ya fərdi səviyyədə özünü göstərən kimliyin böhranı, yəni sabitliyin pozulması, “öz” haqqında fikirlərin qeyri müəyyənliyi, norma və dəyərlərin öz əhəmiyyətini itirməsidir. Bəzi tədqiqatçılar haqlı olaraq göstərir ki, cəmiyyəti birləşdirən sistemin hər hansı bir dəyərinin dağılması zamanı milli kimliyin rolu qeyri müəyyənliyə qarşı təbii reaksiya olaraq ortaya çıxır. Milli kimliyə birbaşa təsir göstərən qloballaşma prosesinin məzmununa, demokratikləşmə, informasiyalaşdırma, mədəni standartlaşdırma və dəyərlərin ümumiləşdirilməsi və. s. daxildir.

**Vahid informasiya cəmiyyətində kimliklər**

İnformasiyalaşma da xalqların və dövlətlərin identifikasiasına ciddi təsir göstərir. Heç kimə sirr deyil ki, qlobal şəbəkə cəmiyyəti yaradan ümümdünya informasiya məkanının formalaşması, bütün dünya insanlarına maddi və mənəvi xeyir verməklə, intellektual potensialını artırmaqla yüksək tərəqqi əldə etməyə imkan vermişdir. Bununla yanaşı, informasiya texnologiyaları heç də həmişə insana xeyir vermir. Onlar insanları idarə etmək üçün yeni-yeni imkanlar yaradırki, bu da zamanla milli kimlik üçün təhlükəyə çevrilir. İnformasiyalaşma bütün dünyada ümumi bir mədəniy-yətin yayılması üçün bir vasitə kimi də çıxış edir. İnformasiya təbliğatı sayəsində konkret mədəni standartlaşma, birləşmə baş verir. Bunun da nəticəsində bütün dünya öz mədəni unikallığını, tarixi ənənələrini itirərək qərb dəyərlərinə istiqamətlənir. Yaranmış şəraitdə bir çox az saylı xalqlar öz milli kimliyini itirə bilər. Hal-hazırda bu proses aktiv formada özünü göstərməkdədir. V.Q.Tselişevanın qeyd etdiyi kimi “indi artıq azsaylı xalqlardan olan gənc nəsil nümayəndələri praktik olaraq öz dilini, mədəniyyətini bilmir”. [Целищева, 2007: 122-127]. Digər müəllif E.A.Pain isə qeyd edir ki, qloballaşma prosesi təkcə etnik azlıqların deyil, etnik çoxluqların da millətçilik meyllərini artırır.

Təbii ki, hər bir ölkənin və xalqın qloballaşma çağırışlarına cavabı öz mədəni irsinin, “milli mentalitetinin”, “milli ruhunun” qorunub saxlanması ilə dialektik vəhdət təşkil etməlidir. Hər bir halda, ənənələr və dəyərlər şəxsiyyət, bütöv xalq üçün ontoloji məna kəsb edir, onların həyat fəlsəfəsini müəyyənləşdirir. Onlar həm də insanın özünə və başqa insanlara münasibətini müəyyən edir.

Ən müasir informasiya texnologiyalarının köməyi ilə qloballaşma, heç bir müqavimət görmədən, müxtəlif mədəniyyətlər arasınada əvvəllər keçilməz qalaya bənzəyən sədləri hal hazırda rahatlıqla keçməkdədir. Bu burulğanda yalnız dəyişən dünyaya adaptasiya oluna bilən, sivilizasiyanın yeniliklərini qəbul edən, bununla belə öz mövcudluğunu itirməyən mədəniyyətlər tab gətirə bilir.

Milli kimliyin hərtərəfli böhranı vəziyyətində hər bir dövlət təbii olaraq, bu çətinlikdən çıxmaq üçün əlindən gələni edir. Bu da var ki, bir çox hallarda öz kimliyini müdafiə etmək cəhdləri digər dövlətlərin bənzər cəhdləri ilə toqquşur, "kimlik münaqişələri" baş verir. Bu rəqabətdə heç kimə güzışt olmur. Və zəngin tarixə, mədəniyyətə, etnik, siyasi gücə malik dövlətlər bu mübarizədən qalib çıxır. Bu münasibətlərdə zəif olan dövlətlər isə milli kimliklərinin qloballaşma proseslərində sadəcə necə əriyib yox olduğunu izləməli olurlar.

Bir tərəfdən qloballaşma xalqlar və dövlətlər arasında sərhədləri görünməz edir, milli dövlət, onunla əlaqədar olan milli kimlik məsələsini sual altında qoyur. Digər tərəfdən isə eyni qloballaşma müxtəlif etnik birliklərin yaxınlaşmasını təmin edərək, insanın mədəni və milli kimliyini müəyyənləşdirmək ehtiyacı yaradır. Açıq informasiya məkanında kütləvi informasiya vasitələrinin əlçatan olması həm ayrı-ayrı fərdlərə, həm də bütün milli icmalara meydana oxuyur. Bu zaman əksər hallarda mədəni nüvəsi parçalanan, milli dövlətlər olur. Bütün dünyada, o cümlədən bir çox inkişaf etmiş Qərb ölkələrində milliyətçilik meyllərinin artması, qloballaşmanın çağırışlarına cavab sayıla bilər [Aydın, 1998:135]. Beləliklə, qloballaşma milli kimliyi parçalamağa çalışır, onu qlobal iqtisadiləşmə, demokratikləşmə, informasiyalaşdırma, mədəni standartlaşdırma və dəyərlərin universallaşması kimi qlobal proseslərdə itirməyə çalışır. Qloballaşmanın bu çağırışlarına milli kimlik, milli icmalar səviyyəsində milliyyətçiliyin yüksəlişi, həm də bu icmaların daha kiçik hissələrə parçalanması ilə cavab verir.

**Tətbiq edilən metodlar**

Tədqiqatda qloballaşma, onun kimliklərə təsiri, sistemli yanaşma metodundan, analiz, sintez, müqayisəli təhlil metodlarından istifadə edilməklə təsvir olunmuşdur.

**Nəticə və tövsiyyələr**

Bu gün baş verən proseslər fərdləri bir ölkənin deyil, vahid dünyanın vətəndaşı olmağa məcbur edir. Xüsusilə, qlobal isinmə, iqlim dəyişiklikləri və qida çatışmazlığı bütün insanlar üçün ortaq problemə çevrilmiş və nəticədə hər kəs, dünyanı "vətən" kimi qəbul etmişdir. 2020 ci ildə dünyanı bürüyən pandemiya da bunu bir daha təsdiqləmiş oldu.

Müasir dünyada kimliklərin qorunub saxlanılması olduqca vacib, həm də çətin məsələdir. Milli, dini, etnik zəmində ayrıseçkiliklərin aradan qaldırılması, kimliklərin qorunub saxlanılması bu gün, prioritet olmalıdır. Təbii ki, bu məslələr təkcə sözdə, sənəd üzərində deyil, beynəlxalq təşkilatların və əsas aktorların fəaliyyətində, həmrəyliyində öz əksini tapmalıdır.

**Ədəbiyyat:**

*Aydın, S.* (1998). Kimlik sorunu ulusalcılık Türk kimliği. Ankara. Öteki Matbaası. 135 s.

*Kellner, D.* (2001). Popüler Kültür ve Postmodern Kimliklerin İnşası. Doğu-Batı düşünce dergisi 15.səh 237.

*Бердяев, Н.Я.* (2000). Русская идея. Оснавные проблемы русской мысли XIX века и начала XX века. Москва. С.340-346.

*Целищева, В.Г.* (2007). Особенности этнической идентичности молодежи малочисленных народов Дальневосточного региона. Социологические исследования. №1. С122-127.

*Bauman. Z.* (2001). Individualized Society.Cambridge UK Malden MA: Polity Press.

https://www.cram.com/flashcards/social-10-1-chapter-1-2-review-identity-and-globalization-6305889

https://psixologiyainstitutu.az/2021/12/20/m%C9%99d%C9%99niyy%C9%99tl%C9%99rarasi-munasib%C9%99tl%C9%99r%C9%99-milli-identikliyin-t%C9%99sirinin-sosial-psixoloji-xususiyy%C9%99tl%C9%99ri/

https://www.iemed.org/publication/globalisation-and-identity-2/

https://ecpr.eu/Events/Event/SectionDetails/1048

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ FƏLSƏFƏ TƏDRİSİNİN YERİ, ROLU VƏ PROLEMLƏRİ

**Əladdin MƏLİKOV**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,
*Azərbaycan, BAKI*
aladdin.malikov@gmail.com;
https://orcid.org/0000-0001-5830-6764

**XÜLASƏ**

Fəlsəfənin təhsil və tədrisi hazırkı dünyanın təhsil problemlərindən biridir. Bunun barəsəndə dünyadakı fəlsəfə institutları geniş və ətraflı şəkildə müzakirələr aparıb və qərarlar veriblər. O qərarlardan ən başlıcası uşaqlar üçün fəlsəfi kitabların yazılması və fəlsəfi düşüncələrlə uşaqlıq və gənclik illərindən tanış etmək missiyası dururdu. Lakin təcrübə göstərdi ki, bu məsələ o qədərdə asan məsələ deyilmiş. Çünki bu sahədə yazılan bəzi əsərləri istisna etsək, yazılan kitablar nə qədər də sadələşdirilsə yenə uşaqlar və gənclərdə maraq oyatmır və aydın şəkildə mənimsənilməmişdi. Bu səbəbdən fəlsəfənin tədris və təhsilinə öncəki vəziyyətlə davam edilir.

**Açar sözlər:** fəlsəfə, pedaqogika, müasir elm, inkişaf, ali təhsil, təhsil, tədris.

# THE PLACE OF PHILOSOPHY TEACHING IN GLOBALIZATION, ROLE AND PROBLEMS

**Aladdin MALIKOV**
ANAS Institute of Philosophy and Sociology,
PhD in philosophy, Associate Professor,
*Azerbaijan, BAKU*
aladdin.malikov@gmail.com;
https://orcid.org/0000-0001-5830-6764

**SUMMARY**

Education and teaching of philosophy is one of the educational problems of the current world. Due to this, philosophical institutes around the world have discussed and made decisions in a wide and detailed manner. The most important of those decisions was the mission of writing philosophical books for children and introducing them to philosophical thoughts from childhood and youth. But experience has shown that this issue is not so easy. Because if we exclude some works written in this field, no matter how simplified the written books are, they still do not arouse interest in children and young people and were not clearly mastered. For this reason, the teaching and learning of philosophy continues with the previous situation.

**Key words:** philosophy, pedagogy, modern science, development, higher education, education, teaching.

## GİRİŞ

Bütün dünyada fəlsəfənin təhsil və tədrisinin sıxışdırılmasına bir növ siyasi rəng verilir və "düşüncənin sıxışdırılması və önünün alınması" kimi təqdim olunur. Fəlsəfə arqumentsiz inanmağı, öz inamın üçün hər bir problemə cəsarətlə sinə gərməyi, öz təfəkkürünü əsaslandırmaq üçün dayanıqlı və davamlı şəkildə təhsil almağı və bilik toplamağı, ən vacibi isə öz düşüncənə özgüvənin

olmasını aşılayır və nəticədə şəxsiyyət sahibi olmanı formalaşdırır. Qısacası, fəlsəfə azad düşüncənin məhsuludur. Dövlətlər bunun əleyhinə olmalıdırmı?! Düşünmürəm. Azərbaycanda cənab Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin yubileyindəki məruzəsində qeyd edirdi: "Onlar (Azərbaycanı istəməyənlər) gəncləri əsas hədəf seçiblər və gəncləri yoldan çıxarmaq istəyirlər, onların beyinlərini zəhərləmək istəyirlər, onları xalqa qarşı, Vətənə qarşı, ənənəvi dəyərlərə qarşı qaldırmaq istəyirlər. Alınmır və alınmayacaq. Çünki Azərbaycan gəncləri vətənpərvərdir, Vətəni sevəndirlər, Vətənə bağlıdırlar. Ancaq o niyyət var və biz bunu bilməliyik, müəllimlər də bilməlidirlər. Müəllimlər tələbələrə nəinki biliklər verməlidirlər, onları tərbiyə də etməlidirlər" [Qurbanlı, 2018]. Nəticə etibarı ilə, dövlətlər şüursuz, savadsız gənclərin formalaşmasını dəstəkləmir. Zira, məhz elə fərdlərin hansısa qüvvələrin "xammalına" dönmə ehtimalı daha çoxdur. Prezident İlham Əliyev ali təhsilin qarşısında tələb qoyur ki, "Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq. Hesab edirəm ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir- bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq. Elə olmalıdır ki, Azərbaycanın dövlət müstəqilliyi güclənsin" [Qurbanlı, 2018].

Doğrudur, Vətən, tədbirli, təfəkkürlü və şüurlu gəncləri ilə güclüdür. Respublikanın müstəqilliyini qoruyan idarəetmənin prioritet yolu sırf müstəqil düşüncənin formalaşdırılmasından keçir.

Ali təhsil müəssisələrinə də baxmaq lazımdır. Hər şeydən öncə tələbəyə fəlsəfənin əhəmiyyəti, düşüncənin necə gizli bir xəzinə və böyük güc olmasından təfərrüatlı şəkildə bəhz etmək və nümunələrlə izah etmək lazımdır. Sonradan gənclərin maraq dairələrini öyrənib, tədris və müzakirə üçün maraqlı mövzulara toxunmaq lazımdır. Nəhayət, fəlsəfənin əsas mövzuları keçirilməlidir. Amma bütün bunlar üçün ilk öncə proqramlar yenilənməli və günün tələblərinə uyğun olmalıdır.

Əlbəttə qeyd etmək lazımdır ki, təfəkkür və düşüncə formalaşdırmaq yalnız parta arxasında olmur. Fəlsəfəni öyrənmək fəlsəfə kursunda keçid balı alıb, qəbul olmaqla da olmur. Neçə görkəmli fikir sahibləri var ki tamamilə başqa sahənin- riyaziyyatın, fizikanın, tarixin yetirməsidir. Lakin bu da bir faktdır ki, fəlsəfə xüsusi bir elm olaraq, təhsil və tədrisin güclü şəkildə gedişindən keçir. Nəzəriyyələri öyrənmək, fəlsəfi düşüncənin formalaşması üçün zəruri xarakter daşıyır.

**Metod və metodlogiya**

Tədqiqatın nəzəri metodoloji əsasını sosial reallığın təhlilinə sistemli, pedaqojik və struktur-funksional yanaşma, elmi və akademik təhlilin əsas müddəaları, yerli və beynəlxalq tədris üsullarının qarşılıqlı təhlili təşkil edir. İstifadə olunan üsullar olk öncə deskreptiv və sonra nəzəri ümumiləşdirmə və konseptual yanaşma xarekteri daşıyır.

**Tədqiqatın mənbə bazası**

Burada fəlsəfənin və ümumiyyətlə abstrakt mövzuların təhsil və tədrisində milli və beynəlxalq pedaqoji baza və əsas beyin fırtınalarında təcrübə edilən üsul və üslubları öyrənmək və izah etməkdir.

**Tədqiqatın elmi yeniliyi**

Əsas istiqamət qeyd edilən və təklif edilən mövzunun aktuallığıdır. Respublikamızda fəlsəfə kifayət qədər fəlsəfi ruhlu təhsil və tədris olunub, lakin bu təhsil və tədrisin prdaqoji yönləri zaman-zaman nəzərə alınmayıb. Burada əsas olaraq milli və beynəlxalq durumu spesifik olaraq ilk öncə öyrənmək və sonra bu problemin öhdəsindən necə uğurla gəlməyi təhlil etməkdir.

**Azərbaycanda fəlsəfənin tədris və təhsili**

Qeyd olunanlarla yanaşı, bəzilərinin respublikada fəlsəfə yıxılmış və baltalanmış kimi düşüncələrini doğru hesab etmirəm. Lakin onu ideal vəziyyətdə olduğunu da bildirmək niyyətim yoxdur, əksinə, məqsədim onu bu hala salan, hazırda da ayağa qalxmağa mane olan səbəbləri

araşdırmaqdır. Aydındır ki, səbəb elə təhsil və tədrisin özündədir. Sanki özgələr yox məhz özümüz fəlsəfənin qəsdinə dayanmışıq.

Azərbaycan Respublikasında fəlsəfənin tədris və təhsili məsələsinə nəzər saldıqda bir sıra problemlərin olması müşahidə edilir. İlk olaraq, ali təhsil müəssisələrində fəlsəfənin saatlarının ümumilikdə azaldılıb və bir sıra hallarda da seçmə fənn kimi təqdim olunmasıdır. Lakin bəzən düşünürəm fəlsəfənin seçmə fənn kimi təqdim edilməsi niyə bu qədər narahatçılıq doğurmalıdır? Təfəkkürü bacaran tələbə zatən fəlsəfəni seçəcək, əksinə, "düşünən şəxs" anlayışından uzaq olan və fikirləşmək ona ağır gələn fərd isə fəlsəfəni yük sayaraq seçməyəcək. Başqa tərəfdən baxdıqda isə belə bir mənzərə ilə qarşılaşırıq ki, məcburi fəlsəfə fənni vətəndaşa nə verə bilər ki? Əslində, bu fikrə belə cavab tapmışam ki, insan hələ orta təhsil alarkən düşünməyi öyrənməyə başlamalıdır, çünki bu zehni fəaliyyət tələb edən bir prosesdir. Bu ilk olaraq olmalıdır ki, sonra da ali təhsil alarkən onun davamını axtarıb tapsın. Bəzən bu mövzu haqqında düşünərkən, orta məktəbin son illərində fəlsəfənin tədris edilməsinin zərurətinə varıram. Bu məsələni fəlsəfə ilə tanışlıq baxımdan da çox faydalı hesab edirəm. Təəssüf ki, bizim təhsil sistemimizdə bu problem hələ də öz həllini tapmayıb. Nəticədə fəlsəfə daha ciddi bir böhrana girməkdə davam edir. Digər bir tərəfdən, gəlib o müstəviyə çatmışıq ki, bu gün onun ümumiyyətlə, tədris və təhsil sistemindən yığışdırılması məsələsi vurğulanır. Əgər bu sadəcə söz-söhbətdən ibarət olsa belə, fəlsəfə kimi elmlərin şahı və ya anası adını almış bir sahənin "sahibsiz yetim" kimi təhsil və tədrisdən sıxışdırılması, haqqında xoşagəlməz ifadələrin işlədilməsi heç də xoş mənzərə vəd etmir. Burada əsas sual budurki, hansı amillər "elmlərin anası"nın bu günə qoyulmasına səbəb olub?

İllər öncə "Fəlsəfə və onun ictimai həyatda yeri" adlı məqalədə belə qeyd olunurdu: "Son illərdə Azərbaycan ali məktəblərinin tədris planlarında fəlsəfəyə və ictimai-siyasi fənlərə ayrılan saatların azaldılması, bu fənlərin bir çoxunun ixtisar edilməsi, orta məktəblərdə "İnsan və cəmiyyət" fənninin tədrisi üçün hələ də müəllim kadrlarının hazırlanmaması, kütləvi informasiya vasitələrində fəlsəfi fikir tariximizə və ümumiyyətlə, mənəvi təkamülə, dünyagörüşünün genişlənməsinə xidmət edən verilişlərə çox az yer ayrılması, habelə, mədəniyyətşünaslıq və maarifçilik yönlü verilişlərin azlığı, mədəni-mənəvi dəyərlərin yetərincə təbliğ olunmaması-bütün bunlar bizi narahat edir". Bu fikirdə problemin mahiyyətini üç hissəyə bölmək olar:

a) kadr hazırlığının olmaması;

b) tədris proqramında lazımi materialların diqqətdən kənar qalması;

c) fəlsəfəyə kifayət qədər təşviqatın olmaması [Axundov, 1990:16].

Həmin dövrdə "Fəlsəfə bizə lazımdırmı?" adlı məqalə "525-ci qəzet"də dərc edildi. Orada isə qeyd edilirdi: "Bu gün fəlsəfə mənim deyil, bizim deyil, çünki fəlsəfə onu yaradanın, ona sahib çıxanındır. "Fəlsəfə heç kimin deyil" fikri ilə də razılaşmaq olmaz. Çünki fəlsəfənin sükanı hələ də Qərbin əlindədir. Bəli, dünya onu anlayanındır. Fəlsəfə kimindirsə, dünya da onundur" [Mehdiyev, 2010]. Müəllif bu fikirlərlə fəlsəfənin yalnız mütəxəssislər üçün deyil, hər kəs üçün zəruri olduğunu xatırlayır və bu səhlənkarlığın sonuçunu naqis şəxsiyyət və cəmiyyət ilə nəticələnəcəyinə eyham vururdu. Fəlsəfəsi olmayan bir xalqın öz fəlsəfəsi də qələmə alınmayacaq və beləcə, o, daim Qərbin, xarici qüvvələrin kölgəsində getməli olacaq. Əlbəttə, problem burada bitmir. Fəlsəfənin sadəcə bir fənn olmayıb, sağlam düşüncəli, düzgün inanclı vətəndaş yetişdirməklə köklü cəmiyyətin formalaşmasını təmin edən qüvvə olduğu bilinməlidir.

**Nə etmək lazımdır?**

Bu problem həm milli həm də qlobal məsələdir. Bir çox fikir adamları bununla bağlı nəzəriyyələr irəli sürüb, öz növbəmdə məndə fikir səsləndirmişəm. Bəziləri bildirir ki, fəlsəfəni öyrətmək mümkün deyil, ona yalnız həvəs yaratmaq, maraq oyatmaq, təhrik etmək lazımdır. Mən bu fikirlə qismən razı olsamda, bu yanaşma ilə tam razı deyiləm. Təbii ki fəlsəfə həm tədris olunmalı və həm də təhsil verilməlidir. Bəli bu kifayət deyil. Bu minimumdur. Bütün bunlarla

yanaşı fəlsəfə mərkəzləri, kafedraları, institutları, şöbələri bir-biri ilə diskusiyaya girməli və müsbət mənada rəqabət aparmalıdırlar [Xəlilov, 2005]. İndi yalnız konkret təklifləri qeyd edirəm:

1. Hər şeydən əvvəl qeyd edim ki, bütün yük ancaq ali təhsil müəssisələrinin üzərinə düşməməlidir. Doğrudur orada tələbələr yetişir, Fəlsəfə İnstitutları və mərkəzlərində isə həmin tələbələri yetişdirən müəllimlər və nəzəriyyəçilər də özlərinin varlıqlarını təsdiqləməlidirlər.

2. Fəlsəfə proqramlarında mütləq milli şüur, milli düşüncə kodeksləri ağırlıq təşkil etməlidir. Antik Yunan, Orta əsrlər, İntibah dövrü, Müasir dövr və sair başlıqlar ilə fəlsəfəni öyrənən tələbə əvvəlcə özünüdərk məsələsini təkmilləşdirməli və öz kökünü dəyərləndirməyi bacarmalıdır. Nə qədər dərdli də olsa, etiraf etməliyik ki, bugünkü iqtisadi şəraitdə fənn olaraq fəlsəfənin "müştərisi" azdır, bu səbəbdən də onun "istehsalını" azaldırlar. Əlavə olaraq, nəzərə alaq ki, bizim bu bazarda əsasən "xarici mal" satılır. Həqiqi alıcı zatən gedib onu elə yerindən almaq istəyir, əldən ələ kimsəyə sərf eləmir. R.Dekartı seçən, yaxud Hind fəlsəfəsini istəyən daha dərin bilik axtarır və bizim təhsildə onu tapa bilmir. Bu, bir dərddir. Başqa bir dərd isə budur ki, həmin tələbə elə öz fəlsəfə müəlliminə, elmi rəhbərinə sual verir, daha doğrusu, irad tutur: "Azərbaycanda filosof varmı?" Əgər bu sualı verirsə, deməli, düşüncə müstəvisində həmin gənci artıq itirmişik. Ona Ş.Sührəvərdini də gətirsək, inanmaz, onu başqa millətə aid edər. Bəli, mütləq şəkildə bütün yüksək fəlsəfələri öyrənmək lazımdır. Qədimdən bu günə uzanan bütün hikmətləri mənimsəmək zəruridir. Amma öz hikmət və fəlsəfəmizin kökü üzərində. Həm gənclər öz təməlini tanımalı, qürur duymalı, inanmalı, həm də formalaşan yeni təfəkkür və şəxsiyyət sahibləri ilk növbədə öz xalqına faydalı olmalıdır. Universitet rəhbərlərinin əmrlərinə tabe olmayan, azad bir fakültə olmalıdır.

3. Dünya fəlsəfə irsi Azərbaycan dilinə tərcümə edilməlidir və bu, həvəskar şəkildə, pərakəndə halda deyil, mütəxəssislərin nəzarəti altında olmalıdır. Bura Şərq və Qərbin qovşağıdır. Həm klassik, həm də müasir müəlliflər tərcümə edilməlidir. Bununla həm Azərbaycan dili, həm də fəlsəfənin dili inkişaf edəcək, həm də tələbələr, tədqiqatçılar fəlsəfi irslə yaxından tanış olmaq imkanı qazanacaqlar. Həmçinin dissertant və doktorantların tədqiqat sahələri də genişlənəcək. Həmçinin ən ümdəsi uşaqlar üçün fəlsəfi kitabların yazılması və fəlsəfi düşüncələrlə uşaqlıq və gənclik illərindən tanış etmək missiyası durur. Əlbəttəki bu kifayətqədər çətin və mürəkkəb məsələdir [Əlfioğlu, 2003: 13].

4. Azərbaycan filosofları haqqında sənədli filmlər və ya qısa metrajlı roliklər çəkilməlidir. Bu, yalnız fəlsəfənin təbliğinə deyil, həm də maariflənməyə xidmət edəcək. Millət öz mütəfəkkirlərini tanımalı və bilməlidir ki, yalnız oxuyub çalmaqdan əlavə həm də düşünməyi bacarır. Filosoflardan bir deyirdi ki, "Universitet rəhbərlərinin əmrlərinə tabe olmayan, azad bir fakültə olmalıdır" [Məlikov, 2019: 7]. Fikrimcə bu fəlsəfəyə aid sahə olmalıdır.

5. Universitetlər, kafedralar, İnstitutlar arası fəlsəfə gecələri, saatları keçirilməli və məktəblərlə əməkdaşlıqlarını sıxlaşdırmalıdırlar. Aktual mövzular haqqında birgə fəlsəfi konfranslar, seminarlar, dəyirmi masalar keçirməlidirlər. Bütün bunlar geniş auditoriya üçün açıq olmalıdır. Bu seminarlar yalnız dəvətlilər və institutun əməkdaşları üçün yox, geniş auditoriya üçün açıq olmalı və öncədən elan edilməlidir. Düşüncələr dinlənilməli və dəyərləndirilməlidir. Mütəxəssislərə söz verilməlidir. İştirakçılar suallarını azad şəkildə verməlidirlər. Əks təqdirdə, axarı olmayan su kimi tədricən fəlsəfə bataqlığa çeviriləcək, bu isə cəmiyyətdə əks olunacaq [Soames, 2003]. Necə ki, uşaqkən şahmat oynamağı öyrənmək, onun məntiqinin, fikir ardıcıllığının inkişaf etməsinə kömək edir. Beləcə də fəlsəfi təfəkkür insanın bütün həyatına işıq saça bilər və düyünə düşmüş işlərini anlamağa kömək edər.

## NƏTİCƏ

Müəyyənlik ilk öncə yaşayış sonra isə təhsil mühitindən gəlir. Xarici aləmdə baxdığımız hər şey əminliyi artırır və ya azaldır. İnsanlar reallıq mühitində asudə deyillər. Hər bir insan öz mentalitetinə görə bir şeylər yaradır və buna inanır. Buna görə də düşüncələrin təhlili və biliyə

yiyələnmə həyatın bütün dövrlərində zəruridir. Amma riyaziyyat, həndəsə və məntiq kimi güclü intellektual alətləri olmayan fəlsəfədə təhlükəli ola bilər. Fəlsəfi təfəkkürdə yeni və köhnə fəlsəfələr arasında heç bir fərq yoxdur. Hər iki fəlsəfə növü bir universal tərif altında ümumiləşdirilə bilər. Ümumi xülasədə belə bir nəticəyə gəlmək olar ki, yer üzündə həyatımızın ilk dövrlərindən bəşəriyyət ya dünyanı yaradana inanırdı, ya da dünyanın hərəkətinin avtomatik və mexaniki olduğunu düşünürdü. Yunan ideyalarının eklektizmi İslam ideyaları ilə kütlələrdə intellektual və kimlik böhranına səbəb olmuş, bir dinə çevrilmişdi. Ona görə də peripatetizm, işraq və transsendental hikmət fəlsəfələrinin bir çox mövzularının mənbəyi eynidir. Təbii ki, bu mənbər də ona görə qurudur ki, bu mənbədən su qaynamır.Sədranın fəlsəfi fikirləri nəticəsiz qalır. Fəlsəfə deyil, fəlsəfi anlayış önəmlidir. Həqiqi fəlsəfə ancaq ilk öncə mətnləri dərk etməklə əldə edilə bilər. Ona görə də onun qarşısına fəlsəfi idrak qoyulmamalıdır. Birinci növ periferik, ikincisi isə periferikdir. Qeyb aləmi mütləq olduğu və varlığın ilk sahibinin icazəsi olmadan bu dünyaya girə bilməyəcəyi üçün dünya həqiqətlərini səlahiyyətli şəxslərdən öyrənmək lazımdır.

Ümumilikdə xalqların inkişaf yolu heç də həmişə düz və hamar olmur. Bu tarixin zərurəti kimi də qəbul edilə bilər. Ancaq yalnız öz düşüncəsinə əmin olan, öz varlığını dərk edərək bunu dünyaya elan edə bilən xalqlar taleyin çətin məqamlarından çıxa bilir. Məsələn, bu gün alman xalqı az qala fəlsəfənin şahı kimi tanınır. Halbuki XIX əsrdə almanlar dərin bir böhran içərisində idilər və bunu ilk növbədə onun düşüncə sahibləri görür və həll yolları axtarırdılar. Hegel dövrünün reallığının boğucu olduğunu, insanların tədricən mənən rəzilləşdiyini görüb bildirirdi ki, "alman həyatı indiki vəziyyətində qala bilməz, çünki hər şey bütün qüvvəsini, bütün ləyaqətini itirib, nə isə mənfi bir hadisəyə çevrilib" [Hacıyev, 2002:25; Bünyadzadə, 2010]. Eyni proses XX əsrin əvvəllərində Azərbaycanda da mövcud idi: aydınlar səfərbər olunaraq nəşr etdikləri jurnallar, məqalələr vasitəsilə xalqı sanki xəstəlik kimi bürümüş mövhumat və cəhalətdən xilas etməyə çağırır və çalışırdılar. Nəticədə Azərbaycanda bütün sahələrdə yüksək bir dirçəliş yaşandı.

Elmin, mənəviyyatın, mədəniyyətin, dinin- hər birinin öz missiyası var. Fəlsəfənin missiyası isə düşüncə qabiliyyətini inkişaf etdirmək, özünüdərk, özünəqayıdış və özünüifadəyə qadir insanlar yetişdirməkdir. Şəksiz bu gün Fəlsəfə katarsis yaşayır. Yalnız azərbaycanda yox, bütün dünyada bu belədir. Düşüncələr, maraqlar ələnib ələkdən keçir. Əslində, sənayeləşmə, robotlaşma və rəqəmsallaşma ilə bu gün insan özü bir özgələşmə halı yaşayır. Bu səbəbdən onun əlaqəli olduğu hər bir sahə, hər bir istiqamət böhran içindədir. Belə böhranlar tarixən çox olub. Məhz belə böhranların əsası olan insan böhranının kökünü, səbəblərini, xüsusiyyətlərini öyrənməklə onların öhdəsindən gələ biliblər. Bütün istiqamətləri böhrandan çıxartmaq və ya fürsətə çevirmək üçün məhz insanın özü, təfəkkürü böhrandan çıxmalıdır. Bu isə birbaşa fəlsəfənin missiyasıdır. Doğrudur, hikmət və hikmətə eşqi olan *FƏLSƏFƏ*, insanlığın özü kimi, həmişə, qədimdə də, indi də risk zolağında olub. Amma o, fundament və kök olduğuna görə, onu yox eləmək mümkün olmayıb, yenə də olmayacaq!

## Ədəbiyyat:

*Hacıyev, Z.* (2002). "Fəlsəfə" (Ali məktəblər üçün dərslik). Bakı. Adiloğlu, 488 s.

*Axundov, M.A.* (1990). Zamanı qabaqlayanlar. Bakı. Azərbaycan dövlət Nəriyyatı. 200 s.

*Xəlilov, S.* (2005). Təhsil, təlim, tərbiyə. Bakı. Azərbaycan Universiteti nəşriyyatı. 650 s.

*Mehdiyev, R.* (2010). Fəlsəfə. Bakı. Şərq-Qərb nəşriyyatı, 360 s.

*Bünyadzadə, K.* (2010). İslam fəlsəfəsi: tarix və müasirlik. Bakı, Çaşıoğlu nəşriyyatı. 154 s.

*Məlikov, Ə.* (2019). Tərəqqi naminə elm dinə bənzədilməməlidir. Elm qəzeti, Bakı, №14 (1228), s.7.

*Qurbanlı, Mübariz.* (2018). Heydər Əliyev siyasəti: Tolerantlıq (çıxışlar, nitqlər, görüşlər, təbriklər). Ön söz. Buraxılışa məsul: Səyyad Salahlı, Şərq-Qərb nəşriyyatı, 504 s.

*Soames, Scott.* (2003). Philosophical Analysis in the Twentieth Century.

*Əlfioğlu, İ.* (2003). Uşaqlar üçün fəlsəfə, Qanun nəşriyyatı, 360 s.

# GENETİK DETERMİNASİYA İNSAN ŞƏXSİYYƏTİNİN FƏRDİLİYİNİN ƏSASI KİMİ

**İsmayıl ƏLƏKBƏROV**
Bakı Dövlət Universiteti,
Sosial elmlər və psixologiya fakültəsi,
Fəlsəfə kafedrasının magistrantı
*Azərbaycan, BAKI*
ismayil2285@gmail.com

**XÜLASƏ**

Şəxsiyyətin inkişafında genetik faktorların rolu mühümdür. Genlər irsiyyətin maddi daşıyıcısı hesab edilir. Genetik determinizm şəxsiyyətin formalaşmasında genlərin roluna çox böyük önəm edir. İnsanların davranışı və onun nəticəsini müəyyənləşdirən genetik faktorlardır. Müasir dövrdə aparılan tədqiqatlar içərisində insan genetikası ilə bağlı olan tədqiqatlar aparıcı yer tutur. İnsan genofondunun öyrənilməsi, həmçinin genomun yazılması və oxunması sahəsində əldə olunmuş məlumatlar bu tədqiqatlar sayəsində mümkün olmuşdur.

**Açar sözlər:** şəxsiyyət, irsiyyət, genlər, determinizm, davranış.

# GENETIC DETERMINATION OF HUMAN PERSONALITY AS THE BASIS OF INDIVIDUALITY

**Ismail ALEKBAROV**
Baku State University,
Faculty of social sciences and psychology,
Graduate student of the Department of Philosophy
*Azerbaijan, BAKU*
ismayil2285@gmail.com

**SUMMARY**

The role of genetic factors in personality development is important. Genes are considered the material carriers of heredity. Genetic determinism emphasizes the role of genes in the formation of personality. Genetik factors determine human behavior and its outcome. Researches related to human genetics occupy a leading place in the research conducted in modern times. The study of the human gene pool, as well as the information obtained in the field of writing and reading the genome, became possible thanks to these studies.

**Key words:** personality, heredity, genes, determinism, behavior.

## GİRİŞ

**Mövzunun aktuallığı.** Fəlsəfi biliyin mühüm sahələrindən biri fəlsəfi antropologiyadır. Fəlsəfi antropologiya insan problemini hərtərəfli və kompleks şəkildə öyrənir. Ümumiyyətlə, insan probleminin ciddi şəkildə tədqiq olunması onunla bağlıdır ki, bütün elm sahələrində antropolojiləşmə prosesi gedir. Fəlsəfədə insan probleminin öyrənilməsi hər dövrdə xüsusi aktuallıq kəsb etmişdir. Fəlsəfə tarixinə ümumi şəkildə nəzər salsaq görə bilərik ki, filosofların insan probleminə yanaşması müxtəlif olmuşdur. Fəlsəfədə insanın öyrənilməsi bu problemlərlə bağlıdır: insanın mənşəyi, insanın təbiəti, insanın mahiyyəti, insanın həyatının mənası, ölüm və ölməzlik, insanda şüuri və qeyri-şüurinin nisbəti, insan ontogenezində bioloji və sosial amillərin nisbəti.

Müasir dövrdə xüsusi aktuallıq kəsb edən problemlərdən biri məhz şəxsiyyətin inkişafında bioloji və sosialın nisbəti məsələsidir. Bu problemə yanaşma birmənalı deyildir. Hər daim olduğu kimi müasir dövrdə də bu problem mübahisəli olaraq qalır. Bu onunla bağlıdır ki, filosof və alimlər bu problemə yanaşmada iki istiqamətə ayrılırlar: panbiologizm və pansosiologizm. Birinci istiqamətin nümayəndələri bioloji və ya genetik amillərin rolunu şişirtməklə, sosial tərəfə məhəl qoymurlar. İkinci istiqamətin nümayəndələri isə qeyd edirlər ki, insanın inkişafı yalnız sosial tərəflə bağlıdır. Bu mövqelərə nəzər salmaqla görə bilirik ki, bu problem hələ tam həllini tapmamışdır.

Bizi maraqlandıran əsas problem isə müasir yanaşmalarda şəxsiyyətin inkişafında genetik amillərin nə qədər əhəmiyyətli olduğunu araşdırmaqdır. Bu araşdırma ilə sübut edə bilərik ki, şəxsiyyətin inkişafında genetik amillər mühüm əhəmiyyətə malikdir və hətta genlər insanı idarə edir. Genetik amillərin əhəmiyyətini müxtəlif nəzəriyyələr sübut edir (“İrsiyyət”, “Biogenetik”, “Freydist”, “Bioloji təkamül” və sairə). Araşdırdığımız bütün fəlsəfi-elmi nəzəriyyələr və müasir dövrdə alimlərin yanaşması bu problemin həllində mühüm idraki və metodoloji əhəmiyyət kəsb edir.

**Tədqiqatın məqsədi.** Bu tədqiqatın məqsədi şəxsiyyətin inkişafında genetik determinasiyanın rolunu əsaslandırmaq və bununla bağlı olaraq fəlsəfi-elmi nəzəriyyələrə, eyni zamanda müasir yanaşmalara diqqət yetirməkdir.

**Metodlar.** Tədqiqat zamanı sənədli mənbələrin (ədəbiyyatın) öyrənilməsi, məzmun təhlili (kontent – analiz), müqayisəli yanaşma, ümumiləşdirmə, sistemli yanaşma metodlarından da istifadə edilmişdir. Genlərə geniş məna yükləyən yanaşma kimi genetik determinizm, həyatımızın hər bir anını əhatə edir. Bu yanaşmaya görə, insan dünyaya bioloji fərd kimi gəlir və ona görə də irsiyyət qanunu ona öz təsirini göstərir. Genetik determinizmlə bağlı olan fikirləri araşdırdıqda məlum olur ki, genlər sosial mühitdən və mədəni faktorlardan daha vacibdir. Genetik determinizmin mərkəzi anlamı genlərdir. Bu yanaşmanın tərəfdarları iddia edirlər ki, genlər insanın yarandığı vaxtdan həyatı boyunca malik olduğu biliklərinin, hisslərinin və davranışlarının əsasında durur. Genetik determinizmdə ifadə olunan əsas cəhətlərdən biri odur ki, genlər insanların fiziki xüsusiyyətlərinin, sağlamlığının və xəstəliyinin əsas faktorudur. İnsanların xüsusiyyətlərini və davranışını müəyyən edən məhz genlərdir.

## ƏSAS HİSSƏ

İnsan şəxsiyyəti bir çox amillərin təsiri və qarşılıqlı fəaliyyətinin nəticəsi kimi formalaşır. Bu prosesdə bioloji və ya genetik amillər özünəməxsus rol oynayır.

İnsan dünyaya bioloji fərd kimi gəlir, buna görə də ona irsiyyət qanunu ona öz təsirini göstərir. Fiziki-kimyəvi əsaslar, həmçinin fizioloji əlamətlər irsən nəsildən-nəslə keçir. İrsiyyətin maddi daşıyıcısı isə genlərdir. Genetik faktorların rolu mühümdür. Bu yanaşmadan aydın olur ki, irsiyyət şəxsiyyətin formalaşması və inkişafı üçün əsas və mühümdür. Bunlara aşağıdakılar daxildir:

- imkanlar;
- fiziki keyfiyyətlər;
- sinir sisteminin növü və spesifikliyi [Bozcuk, 2007: 123].

İnsanların gələcəyi bilmək və öyrənmək arzusu, onların genetika haqqında biliklərə marağını artırmış və bu səpkidə tədqiqatlar aparmağa sövq etmişdir. Genlərlə bağlı bütün biliklər insanın dərinliklərindəki gizli məqamların açılmasına kömək edir. Bu fikir insanların şəxsi özəlliklərinin mərkəzində genlərin durduğunu iddia edən yanaşmaların yaranmasına səbəb olmuşdur. Genlər bu anlamda bizim gündəlik həyatımızda tez-tez işlətdiyimiz sözcüyə çevrilmiş, həyatımızın bütün sahələrində, o cümlədən sağlamlıqda, texnologiyada mühüm yer tutmuşdur. Genlərlə bağlı olan determinist yanaşma insanların həyatında öz bədənlərinə fərqli baxışla baxa bilməsinə şərait yaratmışdır. Bu genetik xəstəliklərin qarşısının alınmasında böyük rol oynasa da,

eyni zamanda gen manipulyasiyası kimi həll olunması çətin olan problemlər doğurur. Genetik determinizm şəxsiyyətin inkişafında genlərin roluna həddən-ziyadə önəm verir və bu baxışa görə genlər müqəddəsdir.

Genlərə geniş məna yükləyən yanaşma kimi genetik determinizm, həyatımızın hər bir anını əhatə edir. Genetik determinizm molekulyar biologiya, gen mühəndisliyi və genetika elmləri ilə sıx bağlıdır. Genetik determinizmin teoloji, fəlsəfi və psixoloji şərhi məlumdur.

Genetik determinizmlə bağlı olan fikirləri araşdırdıqda məlum olur ki, genlər sosial mühitdən və mədəni faktorlardan daha vacibdir. Genetik determinizmin mərkəzi anlayışı genlərdir. Bu yanaşmanın tərəfdarları iddia edirlər ki, genlər insanın yarandığı vaxtdan həyatı boyunca malik olduğu biliklərinin, hisslərinin və davranışlarının əsasında durur. Genetik determinizmdə ifadə olunan əsas cəhətlərdən biri odur ki, genlər insanların fiziki xüsusiyyətlərinin, sağlamlığının və xəstəliyinin əsas faktorudur. İnsanların xüsusiyyətlərini və davranışını müəyyən edən məhz genlərdir.

Çox zaman iddia olunur ki, genetik determinizmlə bioloji determinizm eyni mənalı anlayışlardır. Amma dəqiq şəkildə baxdıqda bununla bağlı ontoloji bir fakt tapılmamışdır. Bioloji determinizmdə insanın sosial fəaliyyəti və fəallığının bioloji mexanizmlərini öyrənmək əsasdır. Genetik determinizmdə isə insanın xüsusiyyətlərinin genlər tərəfindən idarə olunması əsas götürülürdü [Temizkan, 2013: 64].

Bioloji determinizmə görə, insan hər şeydən əvvəl bioloji varlıq hesab olunur və bioloji təsnifata görə o Homo sapiens növünə daxil edilir. Bioloji növ kimi çıxış edən insan xüsusi bədən strukturuna və müəyyən anatomik-fizioloji imkanlara malikdir. Bu elə imkanlardır ki, onlar bu növün şəxsiyyətə çevrilməsində çox mühüm rol oynayır. Buna görə də deyə bilərik ki, insanın gələcəkdə şəxsiyyətə çevrilə bilməsi üçün onda anadangəlmə irsi imkanlar vardır. İnsan anadangəlmə irsi imkanlara malik olan canlı varlıq hesab olunur. Bu fikirlərdən çıxış edərək deyə bilərik ki, insan öz təbiətinə görə bioloji hesab olunduğu halda, mahiyyətinə görə sosialdır.

Bioloji proqram hər şeydən əvvəl insan orqanizminin quruluşunu, strukturunu və fizioloji funksiyalarını müəyyən edir. Qeyd edə bilərik ki, bioloji proqram insan cəmiyyətinin uzun sürən təkamülü nəticəsində formalaşmışdır. Bioloji proqramın daşıyıcısı valideynlərdən yeni nəslə ötürülən irsiyyət elementləri kimi çıxış edən, xromosomlarda yerləşən DNT – dir.

Genetik determinizmin mərkəzində iki ideya durur:

- Birincisi, insanların davranış özəlliyini və onun nəticəsini müəyyən edən, genetik faktorlar;
- İkincisi, sosial olaraq gözə görünən, insanların davranış özəlliklərində və onun nəticəsində ifadə olunan, genetik olmayan faktorlar [Bozcuk, 2007: 36].

Genetik determinizmdə “hər şey genlərdədir” inamı hakimdir. İnsanlar genlər tərəfindən yaradılmış maşın kimi təsvir olunur. Genlər insanları uzun və ya qısa boylu edir, onun gözlərinin boyasını müəyyən edir.

Genetik determinizmin nümayəndələri onu zəif, orta və güclü genetik determinasiyaya ayırırlar. Zəif genetik determinasiyada X geni bəzən Y fenotipinə yol açır. Bu ehtimal 50% - dən azdır. Orta genetik determinizmdə X geni çox vaxt Y fenotipinə yol açır. Bu ehtimal 50% - dən yüksəkdir. Güclü genetik determinizmdə isə X geni hər zaman Y fenotipinin yaranmasına səbəb olur. Bu ehtimal isə 95% - dən yüksəkdir. Davranışı müdafiə edən genetiklər güclü genetik determinizmi müdafiə edirdilər [Brown, 2023: 326] .

Son olaraq qeyd etmək lazımdır ki, “genetik determinizm” insan həyatının bütün sahələrində mühüm rol oynayır. Genetik determinizmə görə, genlər keçmişdən günümüzə qədər dəyişir. Genlər həyatımızdakı fiziki xüsusiyyətlərə və bir sıra davranışlarımıza təsir edir.

## NƏTİCƏ

Şəxsiyyətin formalaşması və inkişafında genetik və sosial amillərin nisbəti məsələsi fəlsəfi bilik sistemində mühüm əhəmiyyət kəsb edir. Genetik amillər şəxsiyyətin təbiətini ifadə etdiyi

halda, sosial amillər onun mahiyyətini ifadə edir. Bizi ən çox maraqlandıran bu nisbətdə genetik amillərin rolunu araşdırmaqdır. Genlərə geniş məna yükləyən yanaşma kimi genetik determinizm, həyatımızın hər bir anını əhatə edir. Genlər insanların bilik və davranışlarını müəyyən edir. Bioloji növ kimi qəbul olunan insan müəyyən anatomik-fizioloji imkanlara malik hesab olunur. Buna görə də insanın gələcəkdə şəxsiyyətə çevrilə bilməsi üçün onda anadangəlmə irsi imkanlar olur. Genetik determinizmdə "hər şey genlərdədir" inamı hakimdir. İnsanlar genlər tərəfindən yaradılmış maşın kimi təsvir olunur. Nəticədə qeyd edə bilərik ki, genetik determinizm insan həyatının bütün sahələrində mühüm rol oynayır və genlər keçmişdən günümüzə qədər dəyişir.

**Tövsiyələr**

Müasir dövrdə şəxsiyyətin inkişafında genetik faktorların rolu ilə bağlı çoxlu sayda araşdırmalar aparılır. Bu sahədə araşdırma aparan alimlər müxtəlif nəzəriyyələr yaradaraq öz fikirlərini əsaslandırmağa çalışırlar. Genlərin insan həyatındakı rolu üzərində aparılan araşdırmalar şəxsiyyətin inkişafında genetik faktorların rolu haqqında kifayət qədər təbii-elmi biliklər ortaya qoyur. Bu sahədə aparılan tədqiqatlar və yazılan kitablar çoxdan bəri unudulan genetika elminin yenidən dirçəlməsində səbəb oldu. Şəxsiyyətin inkişafında genetik və sosial amillərin nisbəti hər zaman xüsusi aktuallıq kəsb edən məsələ olaraq qalır. Qeyd etmək lazımdır ki, bu sahədə aparılan əvvəlki və müasir araşdırmalar, ortaya qoyulan nəzəriyyələr hələ son demək deyildir. Bu məsələ həllini tapana qədər bu sahədə olan araşdırmalar davam edəcək və yeni fikirlər ortaya qoyulacaqdır.

**Ədəbiyyat:**

*Əliyev, Q.M.* (2018). İnsan genetikası mövzularının öyrənilməsi yolları // Elmi əsərlər. Azərbaycan Respublikası Təhsil İnstitutu. C. 85, № 7. S. 120–124.

*Əhmədov, İ.* (2009). Genetika genlər irsi məlumat daşıyıcısıdır. Bakı, 500 s.

*Bozcuk, Ali Nihat.* (2007). Genetik. Palme Yayıncılık, 367 s.

*Temizkan, Güler*. (2013). Moleküler Genetik. Nobel Tıp Kitabevi, 370 s.

*Brown, T.A.* (2023). Genomes. ERC Press, 548 p.

# MƏNƏVİ ÖZGƏLƏŞMƏ PROBLEMİNİN FƏLSƏFİ TƏHLİLİ

**Sevinc HÜSEYNOVA**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti,
Humanitar fənlər kafedrasının müəllimi
*Azərbaycan, BAKI*
sevincismaylova90@gmail.com

## XÜLASƏ

Müasir dünyamızda gedən gərgin proseslər bir çox qlobal problemlərin ortaya çıxmasına səbəb oldu. Bunlara ekologiya problemini, terrorizmi, nüvə müharibəsi təhlükəsini və demoqrafik böhranı aid etmək olar. Bütün bunlar həm sosial həm də dərin ekzistensial mahiyyət daşıyır. Qlobal fəlsəfi problemlərdən biri olan özgələşmə problemi müasir sosial–fəlsəfi fikrin ən aktual problemlərindən biridir.

Fikrimizcə, özgələşmə həm müəyyən tarixi şəraitdən qaynaqlanan sosial fenomen, həm də ekzistensial, antropoloji fenomen kimi qəbul edilməlidir. Oxuculara təqdim olunan bu məqalədə biz özgələşmə fenomeninin hər iki alternativini açmaqla yanaşı onları aradan qaldırmağın konkret yollarını göstərməyə çalışaraq cəmiyyətin inkişafı üçün mühüm olan mənəvi özgələşmə probleminə nəzər yetirməyə çalışmışıq.

**Açar sözlər:** özgələşmə, insan, müasir dünya, əxlaq, mənəviyyat.

# A PHILOSOPHICAL ANALYSIS OF THE PROBLEM OF SPIRITUAL CHANGE

**Sevinj HUSEYNOVA**
Azerbaijan State Oil and Industry University,
Teacher of the Department of Humanities
*Azerbaijan, BAKU*
sevincismaylova90@gmail.com

## SUMMARY

The intense processes in our modern world have led to the emergence of many global problems. These include environmental problems, terrorism, the threat of nuclear war, and the demographic crisis. All this has both a social and deep existential meaning. The problem of alienation, which is one of the global philosophical problems, is one of the most urgent problems of modern socio-philosophical thought.

In our opinion, alienation should be considered both as a social phenomenon arising from certain historical conditions and as an existential, anthropological phenomenon. In this article presented to the readers, we have tried to look at the problem of moral alienation, which is important for the development of society, by revealing both alternatives of the phenomenon of alienation and showing concrete ways to eliminate them.

**Key words:** alienation, human, modern world, morality, spirituality.

## GİRİŞ

**Mövzunun aktuallığı.** Özgələşmə problemi müasir sosial–fəlsəfi fikrin ən aktual problemlərindən biridir. Ən “əbədi” fəlsəfi problemlərdən biri olan özgələşmə problemi həm qneseoloji, həm ontoloji, həm də sosial-mədəni amillərlə şərtlənir. Özgələşmə problemini həll etmədən, cəmiyyətin mədəni şəkildə qurulmasını və münaqişələrin həlli yollarını göstərmək sadəcə

mümkün deyil. Özgələşmə şəxsiyyətin formalaşmasında əsas rol oynayan insan "mən"inə, fərdin şüuruna və özünüdərkinə birmənalı şəkildə dağıdıcı təsir göstərməkdədir. Özgələşmə şəxsiyyətin formalaşmasında əsas rol oynayan insan "mən"inə, fərdin şüuruna və özünüdərkinə birmənalı şəkildə dağıdıcı təsir göstərməkdədir. Özgələşmənin təzahürünün dağıdıcı xarakterini aradan qaldırmaq kifayət qədər çətindir. İnsan daim dünyanı mənimsəməli və sosial reallıqdakı yerini təhlil etməli, onu dərk etməli, cəmiyyətin ona təklif etdiyi yeni dəyər oriyentasiyalarına tənqidi şəkildə yanaşmalıdır. Əks halda, cəmiyyət konformizm şüarı altında insanları "sosial sistemin standart mexanizminə" çevirmək təhlükəsi qarşısındadır. Özgələşmənin təzahürünün dağıdıcı xarakterini aradan qaldırmaq kifayət qədər çətindir. İnsan daim dünyanı mənimsəməli və sosial reallıqdakı yerini təhlil etməli, onu dərk etməli, cəmiyyətin ona təklif etdiyi yeni dəyər oriyentasiyalarına tənqidi şəkildə yanaşmalıdır. Əks halda, cəmiyyət konformizm şüarı altında insanları "sosial sistemin standart mexanizminə" çevirmək təhlükəsi ilə qarşı-qarşıya qoymaqdadır.

**Metodlar**

Mənəvi özgələşmə fenomeninin təhlili insan varlığı, insan azadlığı problemlərini, cəmiyyətin mənəvi həyatının ziddiyyətlərini daha dərindən dərk etməyə kömək etmək məqsədini daşıyır. Digər özgələşmə növlərinin strukturunda mənəvi özgələşmənin mahiyyəti və statusunun təhlili humanist gələcəyə doğru irəliləyişdə düzgün istiqamət seçməyə imkan verəcəkdir.

## ƏSAS HİSSƏ

XX əsrin sonu - XXI əsrin əvvəllərində dünyada baş verən dərin dəyişikliklər həyatın bütün sahələrinə öz təsirini ğöstərmişdir. Bu gün dünyada gedən proseslər ümumbəşəri deyilən qlobal problemlərin ortaya çıxmasına səbəb oldu. Bunlara ekologiya problemini, terrorizmi, nüvə müharibəsi təhlükəsini və demoqrafik böhranı aid etmək olar. Bütün bunlar təkcə sosial deyil, həm də dərin ekzistensial problemlərdir. Aydındır ki, cəmiyyətdə baş verən problemlərin həllində fəlsəfə bilavasitə iştirak etməlidir. Məhz buna görə də qlobal fəlsəfi problemlərdən biri olan özgələşmə problemi müasir sosial–fəlsəfi fikrin ən aktual problemlərindən biridir. Özgələşmə bir proses kimi bütün insan həyatını əhatə edərək, insanın öz fəaliyyətinin məhsulları üzərində nəzarəti itirməsində, insan mahiyyəti ilə sosial münasibətlərin xarakteri arasında yaranmış ziddiyyətlərdə özünü göstərir.

Fikrimizcə, özgələşmə həm müəyyən tarixi şəraitdən qaynaqlanan sosial fenomen, həm də ekzistensial, antropoloji fenomen kimi qəbul edilməlidir. Oxuculara təqdim olunan bu məqalədə biz özgələşmə fenomeninin hər iki alternativini açmaqla yanaşı onları aradan qaldırmağın konkret yollarını göstərməyə çalışaraq cəmiyyətin inkişafı üçün mühüm olan mənəvi özgələşmə probleminə də nəzər yetirməyə çalışmışıq.

Müasir dövrün inkişaf dinamikası özü ilə yeni təfəkkür və yeni inkişaf tempi gətirdi. Elmi texniki tərəqqinin nailiyyətlərinə böyük etimadla inanan alimlər zəkanın geniş imkanlarının yaratdığı qeyri-rasionallıq və antihumanist faktlardan məyusluq hissini yaşayırlar. Hazırda elmin tərəqqisi, humanizmin təntənəsi və bəşəriyyətin yüksək dəyərlərə söykənəcəyi fikrinin özünü doğrultmadığı bir fakt olaraq qalmaqdadır. Müasir dövr özü ilə misilsiz əzablar ,mənəviyyata zidd insan davranışları, totalitar rejimlər, əxlaqsızlıq, texnoloji əsarət gətirməkdədir. İctimai şüur formalarından biri olan elm və onun əldə etdiyi nailiyyətlər sosial həyatı kökündən dəyişdirdi. Hazırda elmi biliklər bəşəriyyətin gələcək inkişafını təhlükə altına almaqdadır. Yeni dövrdən başlayaraq alimlər hesab edirdilər ki,bütün gələcək problem və məsələlər elmi prinsiplərə söykənməlidir. Cəmiyyəti elmin nöqteyi nəzərindən çıxış edərək maarifləndirmək və yüksək dəyərlərə yiyələnmək arzusu təəssüflər olsun ki, özünü doğrultmadı. Elmiləşmə ,rasionallaşma insan və cəmiyyət arasında həll olunması gərəkən fundamental problemlərin aradan qaldırılmasının gərəkdiyini vacib bilir. Müasir dövrdə texniki sivilizasiya ilə mənəvi mədəniyyət arasında, biliyin indiki səviyyəsi ilə əxlaqi şüur arasında yaranan ziddiyyət bunu deməyə əsas verir. Amma texnikanın inkişafı, maddi sərvətlərin artması hələ sosial, siyasi, iqtisadi sferada yaranan mənəvi problemlərin aradan

qaldırılması demək deyil. Texniki şüur və onun dagıdıcı fəaliyyəti özgələşmə faktınının yaranmasına, fərdin mənəvi sarsılmasına şərait yaratmaqla insan probleminin öyrənilməsi üçün geniş imkanlar yaratdı. Totalitar rejimlərin təsirinin artması və demokratik azadlıqların məhv edilməsi şəraitində müasir dövrün reallıqları bəşəriyyəti fəlsəfi refleksiyaya ehtiyacı olmayan itaətkar fərdiyyətçi istehlakçılar sürüsünə çevirdi.

Müasir dövrün bəşəriyyətə hansı töhvələri bəxş etməsi haqqında mübahisələr dayanmır. Bəziləri həmin əsri inteqrasiya etməkdə olan bəşəriyyətin yeni qlobal dövrünün başlanğıcı adlandırırlar. Digərləri qeyd edirlər ki, XX əsr yer üzündə yaşayanların hamısına misilsiz əzablar gətirdi: iki dünya müharibəsi və bir çox lokal müharibələr milyonlarla insanı məhv etdi. Bundan başqa, soyqırım və konsentrasiya düşərgələrini, atom bombalarını və s.-də qeyd etmək lazımdır. Bir sözlə, Yer kürəsinin yüzillik tarixini birmənalı qiymətləndirmək mümkün deyil. Fukonun "Sözlər və şeylər" əsərində yazdığı kimi, "Bu gün "biz ancaq itmiş adamın qoyduğu boşluğu düşünə bilərik". Levi-Stros isə əlavə etdi: "Dünyanın əvvəlində insan yox idi; onda sonunda heç ola bilməz" [Реале & Антисери, 1997:641]. Tarixi təcrübə göstərir ki, şəxsiyyətin və cəmiyyətin maraqları arasındakı ziddiyyətin yalnız maddi köklərini aradan qaldırmaqla mənəvi özgələşməni aradan qaldırmaq mümkün deyil. İqtisadi sahədə irəliləyiş heç də həmişə mənəvi yüksəlişlə yekunlaşmır. İctimai inkişafın və onun iqtisadi, sosial və mənəvi tərəflərinin inkişafının qeyri-bərabərliyi onları uyğunlaşdırmaq üçün səylər tələb edir. Mənəviyyat insanın mənəvi həyatının bütün sahələrinə nüfuz etdiyinə görə, o, insan varlığının atributudur və onun insandan tam özgələşməsi onun varlığının sonuna çatdırır. Mənəvi özgələşmənin aradan qaldırılmasının mümkünlüyünün sosial-mənəvi əsasların işlənməsi və dərk edilməsi etikanın ən çətin problemlərindən biri olan əxlaqın personifikasiyası probleminə toxunur.

XIX əsrdən başlayaraq elmi biliyin, demək olar ki, bütün sahələrində yüksək nailiyyətlər müşahidə olunmağa başladı. Kosmosu və elementar hissəcikləri, biosferi və genləri, bütövlükdə bəşəriyyəti və onun çoxsaylı mədəniyyətlərini öyrənərək, XX əsrin elmi hər yerdə bütün elmi bilikləri inqilabiləşdirmiş yeni kəşflər etdi. Onlarla yeni elmlər (kibernetika, ekologiya, gen mühəndisliyi, sinergetika və bir çox başqa elmlər) yaradılmışdır ki, onların da əhəmiyyəti hələ indi-indi açılmaqdadır. Təəssüflər olsun ki, XX əsrin elmi əsasən təbiətin və ya insan varlığının sirrləri ilə deyil, hərbi-texniki sahənin təkmilləşdirilməsi ilə ayrılmaz şəkildə bağlıdır, buna görə də bu gün təkcə bütün canlıları deyil, həm də Yer planetinin özünü məhv etmək üçün kifayət qədər silah ehtiyatı var. Silahlanma yarışı və müxtəlif növ hərbi blokların yaradılması kəskin qarşıdurmaya səbəb oldu. Dünya xeyr və şər, güclü və zəif arasında qarşıdurmaya, bölünüb ki, bu da dünyanın inkişaf konsepsiyasının məzmununu qeyri –müəyyənliyə məhkum edir.

Hazırda bəşəriyyətin özünü məhv etmək təhlükəsi ilə üzləşdiyi və mənəvi böhran içində olduğu bir vaxtda insanların şüurunda ümumbəşəri dəyərlərin prioritetliyini qoruyub saxlamaq zərurəti yaranır. Məhz bununla bağlı olaraq insan, onun dünyada tutduğu mövqe, onun təbiətə, cəmiyyətə olan münasibəti bir çox qərb fəlsəfi istiqamətlərin ideyalarının tərkib hissələrinə çevrildi. Müasir cəmiyyətin inkişafını tədqiq edən sosioloq Z.Bauman "yetkin moderniti"nin ziddiyyətlərini və qüsurlarını üzə çıxarır. O, yazır: "...modernitiyə məxsus olmaq özünü həmişə qabaqlamaq, daima transqressiya vəziyyətində olmaq, yalnız natamam layihə şəklində mövcud ola bilən fərdiliyə malik olmaq deməkdir" [Бауман, 2002:131].

Müasir dünyada qloballaşmanın transformasiyası proseslərinin inkişafı ilə həm milli mədəni kimlik problemləri, həm də əxlaqi-mənəvi dəyərlər problemi aktual xarakter daşıyır. Milli mədəniyyətlərin dəyərləri ilə sivilizasiyanın ümumbəşəri standartları arasında kəskin uygunsuzluğun yaranması insan varlığında ciddi problemlərə yol acır. Müasir qloballaşmanın genişlənmə sürətinin artması ilə əlaqədar olaraq müasir dünya mədəniyyətində adət ənənələrin və milli mədəniyyətin qorunub saxlanılması olduqca əhəmiyyətli xarakter daşıyır. *Özgələşmənin aradan qaldırılması ictimai həyatın sosial və mənəvi sferalarında baş verməli olan mürəkkəb* çoxsəviyyəli proses kimi

nəzərdən keçirilməlidir. Mənəviyyat problemi həm nəzəri, həm də praktik əhəmiyyət daşıyan problemlərdən biridir. Postindustrial cəmiyyətlər dövründə həm xarici, həm də yerli fəlsəfi fikirdə yaranan əxlaq fəlsəfəsinə, sosial və mənəvi proseslərin etik ölçüsünə maraq durmadan artmaqdadır. Bu maraq həm qlobal amillərlə, həm də mənəviyyatın böhranı və transformasiyası ilə bağlıdır. Müasir dövrdə insanların bir-birinə, cəmiyyətə, təbiətə olan münasibətini tənzimləyən imperativlər dəyişərək yeni xarakter almışdır. Sosial-iqtisadi dəyişikliklərin episentrində olan müasir cəmiyyət dərin ideoloji və əxlaq böhranı yaşayır. Radikal sosial yeniliklər, ziddiyyətli və mürəkkəb yenilənmə prosesləri, əsasən Qərb standartlarına uyğun liberallaşma və demokratikləşmə çoxsaylı mənəvi problemlərə yol acmışdır; ənənəvi mənəviyyat və əxlaqın məhvi, dəyərlərin, xüsusən də gənc nəsillərin oriyentasiyasının pozulması, nihilizmin, cinayətkarlığın, narkomaniyanın, intiharın, ailə dəyərlərinin məhv edilməsinin və s. kimi sosial mənəvi problemlərlə üzləşən bəşəriyyətin hansı şəkildə inkişaf etdiyini görməmək olmur.Əxlaqi dəyərlər getdikcə dəyişərək sivilizasiyanın gətirdiyi yeniliklərlə dəyişməyə və transformasiyaya məruz qalmaqdadır. Bizim zəmanəmizdə - deyə Yaspers yazırdı - insan qəribə məxluq çevrilmişdir.,bizim həyatımız mənasızlıqdır,insan indi öz mənliyindən uzaqlaşmışdır, o, öz-özündən özgələşmiş - özünü funksiyalara çevirmişdir. (Bu günün üzləşdiyi davamlı şəkildə artan böhran vəziyyəti insan həyatının bütün sahələrini əhatə edir .Maddi tərəfin mənəvi tərəfdən qat-qat üstün inkişaf etməsinin nəticəsində bəşəriyyətin gələcəyinə inam azalmaqdadır. Sivilizasiyanın möhtəşəmliyi və ya ecazkar yenilikləri insan oğlunu valeh deyil ,məyus etməyə başladı. Maddi ılə mənəvi arasında tarazlığın pozulmasının nəticəsi olaraq hər iki sfera arasında dialektik əlaqə itmişdir. Təbiətdən biz lütf gözləyə bilmərik, təbiətin sirlərini öyrənmək bizim əsas vəzifəmizdir" kimi şüarlar uzun müddət insanların zehninə hakim kəsilmişdir. İctimai əlaqələr inkişaf etdikcə dəyərlər sistemi ılə yanaşı mənəvi sərvətlər dağılmağa başlayır. Fərdin varlığı xüsusi mülkiyyətinin quluna çevrilir. İnsan kiçik şüur dünyasına sığınaraq texnologiyanın sərhədləri daxilində sığınacaq axtarır, İnsan cəmiyyətin standartları içərisində mahiyyətini itirmək təhlükəsi ilə qarşılaşaraq sanki ruhunu texnologiyanın səltənətində dondurulub. Haydeggerin fikrincə, bu müddəalar müasir texniki dövrdə, Qərbi Avropa insanının hakim mövqeyinin bərqərar olduğu bir vaxtda təşəkkül tapır. Haydeggerə görə, texnoloji cəmiyyət dövründə insanın fikri həmişə texnologiyanın mahiyyəti ilə məşğul olur, özü də o qədər qətiyyətlə məşğul olur ki, yalnız bunun sayəsində o, insan ola bilir [İsmayılov, 2011:214; Хайдеггер, www.heidegger.ru/documents/vopros-o_tehnike.doc].

Əxlaqi dəyərlərin itirilməsi, narkomaniyanın, mənəviyatsızlıga zidd ailə prinsiplərinin bərqərar olması, eqoist şüurun hökmranlığı, aldadıcı ictimai əyləncələr öz kəskin ifadəsi ilə günümüzan ən vacib problemini təşkil edir. Mənəvi məyusluq, inamsızlıq çağdaş dünyanın əsas simasını əks etdirir. Texnoloji tərəqqi və getdikcə mürəkkəbləşən qlobal problemlər bəşəriyyəti özünü təkmilləşdirməyə və qlobal problemlərin həll yollarını axtarmağa vadar edir. Bu gün müasir cəmiyyətdə sosial fikrin problemləri müxtəliflik təşkil edir. Lakin bütün bəşəriyyət üçün vacib, taleyüklü bir tədqiqat sahəsi var. Bu isə müasir dünyada insan cəmiyyətininin gələcək inkişafı üçün yeni, sabit və təhlükəsiz sivilizasiya tipini təmin etməyə qadir olan strategiyanın təyinatını tapmaqdır. Şəxsiyyətin mənəvi zənginləşməsi öz müqərratını təyinetmə imkanlarının genişlənməsi əsas prinsipə cevrilməlidir.

Müasir dünyanın inkişafının qanunauyğunluqlarını və tendensiyalarını onun kifayət qədər ziddiyyətli olan, sürətlə artan qloballaşma prosesindən ayrı anlamaq mümkün deyil. Beləliklə, bir tərəfdən cəmiyyət ictimai həyatın bütün sahələrində inteqrasiya prosesinin miqyası və intensivliyi baxımından misli görünməmiş yeni imkanlara malik olmağa yönəlir, digər tərəfdən isə yüksək tərəqqinin zənginliyi insan varlığını boş və məzmunsuz edir. Əminliklə deyə bilərik ki, müasir kapitalist cəmiyyəti əxlaqi dəyərləri bulandırmağa, insan varlığının maddilik içərisində yox olmağını və insanı insanlıqdan çıxarmağa meyillidir. Bu baxşmlndan, Marks mənəvi yadlaşmanın təhlili üçün əsas metodoloji konvensiyalar təklif etdi. O, xüsusi mülkiyyətin hökmranlığı altında

yadlaşmanın insan həyatının bütün sahələrində xüsusən də cəmiyyətin mənəvi həyatında nüfuz etdiyini vurğulamışdır. Məhz burada insan fərdiliyi, onun əxlaqı əmtənin prinsiplərinə tabe olur. İnsanın mənəvi varlığı mübadilə dəyərinə enir. Nəticədə insanı dəyərlər, əlaqələr deformasiyaya uğrayır. Kapitalist cəmiyyətində özgələşmənin total xarakter aldığını və faciəvi gərginliyə çatdığını qeyd edən Marks insan azadlığının yolları ilə bağlı sualları ətraflı araşdırdı. Ümumiyyətlə, qərb filosofları əmindirlər ki, əxlaqla ictimai həyat arasında yaranan uyğunsuzluq cəmiyyətdə mənəvi yadlaşma fenomeninin mövcudluğu üçün ilkin şərtlər yaradır. XXl əsrdə qloballaşma ilə əlaqədar olaraq bütün dövlətlərin dünya birgəyaşayışının mənəvi sisteminin qurulması, yeni dünya nizamının qurulması təklifləri verilir. Bəşəriyyətin əsas məqsədi uzun tarixi inkişaf yolu ərzində əxlaqi dəyərləri və ümumbəşəri normaları inkişaf etdirmək olsa da müasir dünyanın reallıqları bunun tam əksini deyir. Müasir dünyada mənəvi abı-hava intensiv şəkildə dəyişirərək fundamental problemlərin yaranmasına şərait yaratdı. Məhz buna görədə əxlaq məsələləri fəlsəfənin ən mühüm elementinə çevrilir. Əxlaq cəmiyyətdə düzgün və yanlış davranışı müəyyən edən dəyər və inanclar sistemidir. Əxlaq normaları mədəniyyətimizin və adət ənənələrimizin əsasını təşkili səviyyələrdə və müxtəlif səviyyələrdə necə davranmalı olduğumuzu müəyyən etməyə kömək edir. Bəşəriyyət XXI əsrdə heyrətamiz elmi nailiyyətlərə qədəm qoyur. Elmi duşuncə planetar hadisəyə çevrilərək bəşəriyyətin inkişaf səviyyəsinə möhtəşəm təsir göstərdi. Lakin buna baxmayaraq elm nümayəndələrinin və geniş kütlələrin təmsil etdiyi bəşəriyyət III min illiyə böyük narahatçılıqla qədəm qoyur. Artıq qeyd etdiyimiz kimi müasir insan və cəmiyyət psixoloji böhran vəziyyətindədir. Bu böhranın əsası cəmiyyətin əsrlər boyu yaratdığı və insanın kamilləşməsində mənəvi dayaq rolunu oynayan ənənəvi dəyərlərın sarsılmasıdır.

Yeni dövrdən başlayaraq elmi biliyə pərəstiş üstünlük təşkil etməyə başlayır və bununla da dəyər daşıyıcısının kriteriyası da daim dəyişməyə məruz qaldı. XlX əsrdən etibarən böyük dəyişiklərlə qarşılaşan bəşəriyyət sürətli texnoloji inkişaf dövründə texnologiyanın ən üstün səviyyəsinə yüksəlsə belə, konformizm şəraitinin yaratdığı abı-hava insana mükəmməl varlıq kimi yaşamağı öyrətməyə qadir ola bilmədi. Məlum oldu ki, bəşəriyyəti təkcə elm və texnikanın yüksəlişi nailiyyətləri deyil, insanın dünyaya düzgün və ağıllı baxış bucağı xilas edə bilər. Qətiyyətlə deməliyik ki,elm və texnologiyanın inkişafı insan amilinin rolunu dünya üçün əhəmiyyətsiz etməməlidir.Müasir dövr maddi texnologiyaların inkişafına imkan verən elmlərin inkişafı ilə deyil, insan və cəmiyyət elmlərinin inkişafı ilə yüksələ bilər. XX əsrin görkəmli mütəfəkkiri Klod Livi Şlaus yazır XlX əsr humanitar elmlər əsri olacaq, yada heç olmayacaq. Bu fikir onu təsdiqləyir ki, texnologiyanın hakim olduğu XXl əsr cəmiyyəti gələcəyin kamil insan modelini insan faktorunun ön plana çıxarırması ilə qura bilər.

## NƏTİCƏ

Beləliklə, humanizm prinsiplərini gerçək həyatımıza daxil etmək ən mühüm məsələdir. Mənəviyyatın mahiyyətinin öyrənilməsi insanların mənəvi həyatının fəlsəfi və elmi-tətbiqi inkişafındakı “boşluğu” aradan qaldırmaq ehtiyacından irəli gəlir.

Mənəvi özgələşmənin aradan qaldırılması sistemində ümumbəşəri dəyərlərin yeri və rolunu üzə çıxarmaq və inkişaf etdirmək aktual məsələlərdən biridir.

Mənəvi özgələşmənin aradan qaldırılması mexanizmi yalnız zorakılığa yol verilməməsi, ictimai və şəxsi maraqların uzlaşdırılması prinsipinə əsaslanan cəmiyyətdə işləyə bilər.

Mənəvi özgələşmə təkcə iqtisadi, siyasi və hətta ümummədəni transformasiyalarla aradan qaldırıla bilməz. Hesab edirik ki , ruhun bütün sferalarında əsaslı transformasiyalar mənasını verən həqiqi mənəvi Reformasiyaya ehtiyac var. Bu baxımdan M.Veberin bir konsepsiyası nəzərdən keçirilir. Həmin konsepsiyaya görə, özgələşmənin, o cümlədən mənəvi özgələşmənin aradan qaldırılmasında uğurlar “yeni pulların” axını ilə deyil, “yeni ruh” axını ilə bağlıdır. Onun ən mühüm komponentlərinə etik maarifləndirmə və əxlaqi tərbiyə aid edilməlidir.

## Ədəbiyyat:

*Бауман З.* (2002). Индивидуализированное общество / Пер. с англ. М., Логос, С. 131.

*Реале, Д. Антисери, Д.* (1997). Западная философия от истоков до наших дней. Том 4. От романтизма до наших дней. СПб.: «Петрополис», С.641.

*İsmayılov, Fərman.* (2011). Seçilmiş əsərləri. S.421.

*Хайдеггер, М.* Вопрос о технике / М. Хайдеггер. [Электронный ресурс] / Режим доступа: http // www.heidegger.ru/documents/vopros-o_tehnike.doc

# ƏXLAQİ VƏ HÜQUQİ ŞÜURUN VƏHDƏTİNİN MÖHKƏMLƏNMƏSİ

**Aygün MƏMMƏDOVA**
Azərbaycan Memarlıq və İnşaat Universiteti,
"İctimai fənlər" kafedrasının müəllimi,
BDU-nun «Fəlsəfə» kafedrasının doktorantı
*Azərbaycan, BAKI*
aygun.memmedova.1976@mail.ru

**XÜLASƏ**

Məqalədə multikultural və tolerant Azərbaycan cəmiyyətində mənəvi-hüquqi şüurun vəhdətinin möhkəmləndirilməsi məsələsinə sosial-fəlsəfi aspektdən baxılır.

Müəllif problemi aktual materiallar üzərində təhlil edərkən ənənəvi və müasir dəyərlərin təsirini, mənəvi-hüquqi şüurun möhkəmlənməsini, ölkədə demokratiyadan asılılığını araşdırıb. Müəllif belə qənaətə gəlib ki, bəşəriyyətin bu ciddi probleminin Azərbaycanda reallaşması vətəndaşların mənəvi-hüquqi tərbiyəsində əsas amilə çevrilib.

**Açar sözlər:** demokratiya, alçaqların hökmranlığı, etik və hüquqi şüurun birliyi, azadlıq, əxlaqi və hüquqi tərbiyə.

# STRENGTHENING THE UNITY OF ETHICAL AND LEGAL CONSCIOUSNESS

**Aygun MEMMEDOVA**
Azerbaijan University of Architecture and Construction,
Teacher of the Department of "Social Sciences",
doctoral student of the Department of" Philosophy" of BSU
*Azerbaijan, BAKU*
aygun.memmedova.1976@mail.ru

**SUMMARY**

The article considers the issue of strengthening the unity of moral and legal consciousness in a multicultural and tolerant Azerbaijani society from a socio-philosophical aspect.

The author explored the impact of traditional and modern values, the consolidation of moral and legal consciousness, and it`s dependence on democracy in the country while analyzing the problem on actual materials. The doctor concluded that the realization of this serious problem of humanity in Azerbaijan has become a major factor in the moral and legal education of citizens.

**Key words**: democracy, rule of low, unity of ethical and legal consciousness, liberty, moral and legal education.

## GİRİŞ

### Mövzunun aktuallığı

Cəmiyyətin yeniləşməsi şəraitində insan davranışının normativ-dəyər tənzimləyiciləri kimi əxlaq və hüququn sosial-fəlsəfi təhlili olduqca aktual problemdir. Bu onunla əlaqədardır ki, ənənəvi sivilizasiyalardan liberal sivilizasiyalara keçid dövrü oturuşmuş sivilizasiyaların yenidən nəzərdən keçirilməsini, tədqiq olunan mövzuya yeni metodoloji yanaşmalar tələb edir - əxlaq və hüququn dəyər vəhdətinin, eləcə də qanunda təcəssüm olunan əbədi mənəvi ümumbəşəri dəyərlərin - azadlıq, ədalət, bərabərlik kimi dəyərlərin sosial-fəlsəfi tədqiqinə ehtiyac var.Müasir Azərbaycan

cəmiyyətində əxlaqi və hüquqi tənzimləşmə zamanı inam və məcburietmə hüquq pozuntusuna və cinayətə qarşı mübarizədə əsas rol oynayır. Hüququn əxlaqiliyinin, yəni əxlaqi və hüquqi şüurun vəhdətinin möhkəmlənməsinin reallaşması üçün hər cür cinayətə (korrupsiya, rüşvətxorluq) qarşı amansız mübarizə aparan Azərbaycan dövləti ideoloji, mənəvi, hüquqi tərbiyəyə xüsusi diqqət yetirir. Müasir dövrdə «inam, əqidə insanların baxışlarını və davranış normalarını formalaşdıraraq onlara təsir edən əsas vasitəyə çevrilmişdir… Praktikada əqidə ... insan fəaliyyətinin sosial və iqtisadi sferalarında təzahür edir və əhalinin ideoloji, mənəvi, o cümlədən hüquqi tərbiyəsi prosesində formalaşır» [Карпец, 1985: 31].

**Tədqiqatın metodologiyası**

Tədqiqatın metodoloji və nəzəri əsasını ümumi fəlsəfi prinsiplər və tədqiqat metodları, sistemli, aksioloji, kompleks, struktur-funksional yanaşmalar, eləcə də təsvirlərin bir-birini tamamlayan postklassik prinsipi təşkil edir.

Qarşıya qoyulan vəzifələri həll etmək üçün klassik əxlaq və hüquq nəzəriyyələrini inkişaf etdirən filosofların əsərləri, habelə hüquq fəlsəfəsi sahəsində müasir nəzəriyyəçilərin araşdırmalarından istifadə edilmişdir. Yerli və xarici hüquqşünasların və filosofların əsərləri böyük metodoloji əhəmiyyət kəsb edirdi.

## ƏSAS HİSSƏ

Mənəvi və hüquqi tərbiyənin məqsədi vətənpərvər, ədalətli, humanist, qanunpərəst, vicdanlı, fiziki və mənəvi cəhətdən sağlam, saf, tolerant Azərbaycan vətəndaşı yetişdirməkdir. Cəmiyyətimiz insanları kamillik dərəcəsinə yüksəldən ictimai həyatın bütün sahələrində əxlaqa, yüksək mənəviyyata əsaslanan qanunlarla inkişaf edir. Azərbaycanın ənənəvi milli mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan islam dini «insana əxlaqi fəzilətlər və yüksək mənəviyyat qazanmaq üçün lazım olan qayda-qanunları çox dəqiqliklə göstərir» [Musavilari, 2004: 124].

Hüququn əxlaqiliyində qanunla ictimai rəy vəhdət təşkil edir. Onun reallaşmasında dövlətin və xalqın ümumi iradəsinin birliyi əsas rol oynayır:

«Müasir dünyanın demokratik sistemlərində qanunun əsaslandığı mənbə xalq və əksəriyyətin rəyidir» [Musavilari, 2004: 124].

Dünyəvi dövlətlərdə, o cümlədən Azərbaycanda cəmiyyətdə milli-mənəvi dəyərlərə əsaslanan qanun və hüquq əsas rol oynadığı halda, islam dövlətlərində şəriət əsas tənzimləyici vasitədir. İslam qanunvericiliyin də ilahi xarakter kəsb etdiyini göstərir.

Azərbaycanda hüququn əxlaqiliyi konstitusiyada, cinayət-prosessual və müxtəlif məcəllələrdə də öz əksini tapmışdır. Azərbaycan Respublikasının Konstitusiyasının 46-cı maddəsində göstərilir ki, «şəxsiyyətin şərəf və ləyaqəti dövlət tərəfindən qorunur. Heç bir hal şəxsiyyətin ləyaqətinin alçalmasına əsas verə bilməz» [Azərbaycan Respublikasının Konstitusiyası, 2005: 25]. Bu müddəa hüququn əxlaqiliyini göstərməklə, həm də insan və vətəndaş hüquqlarının qorunmasını özündə əks etdirir.

Müasir Azərbaycan cəmiyyətində hüququn əxlaqiliyinin, əxlaqi və hüquqi şüurun vəhdətinin möhkəmlənməsinin əhəmiyyəti daha da artmaqdadır. Buna görə də fəlsəfə və hüquq elmləri sahəsindəki alimlər onun tədqiqinə xüsusi diqqət verirlər: «modernləşmə modelinin, azərbaycançılıq ideologiyası və informasiya cəmiyyətinin dəyərlərinin öyrənilməsinə və yayılmasına sosial fəlsəfə, sosiologiya, eləcə də hüquq elmi cəlb edilmiş, mənəvi, vətənpərvər, estetik tərbiyə məsələlərilə məşğul olmaq üçün tətbiqi etika və estetikanın əsasları qoyulmuşdur. Bu məsələlərin həllinə hüquq elmini cəlb etməklə biz onun imkanlarını genişləndirmək fikrindəyik. Ümumiyyətlə, hüquq elminin imkanlarından ölkənin modernləşməsi, informativlik problemlərinin tədqiqi, vətəndaş və hüquqi şüurun tərbiyə olunması işində geniş istifadə edilməlidir. Bu sahədə müəyyən işlər görülməkdədir, lakin təəssüf ki, hələ də bir çox məsələlərə postsovet təfəkkürü prizmasından yanaşılır, milli şüur və əxlaq xüsusiyyətləri nəzərə alınmır» [Məmmədzadə, 2010,

http://phillav.az.org.1,p=469]. İ.Məmmədzadə haqlı olaraq sosial fəlsəfə və hüquq elmlərinin ayrı-ayrılıqda öz tədqiqat obyektlərini araşdırdıqlarını və bizi maraqlandıran problemin hüququn əxlaqiliyinin kifayət qədər tədqiq olunmadığını tənqid edir [Məmmədzadə, 2010, http://phillav.az.org.1,p=469].

Azərbaycan Respublikasına görə vətəndaş hüquqi müdafiənin obyekti mülkiyyət, əqli mülkiyyət, təhlükəsiz yaşamaq, şəxsi toxunulmazlıq hüququdur (Maddə 29-32). 2009-cu ildə iyulun 22-də əlavələr və dəyişikliklər təsdiq edilmiş Azərbaycan Respublikasının Cinayət Məcəlləsində altıncı bölmədə tibbi xarakterli məcburi tədbirlər qadağan edilir, yeddinci- on ikinci bölmələrdə sülh və insanlıq, şəxsiyyət, ictimai təhlükəsizlik, sosial qaydalar əleyhinə, dövlət hakimiyyəti əleyhinə, hərbi xidmət əleyhinə cinayətlər, iqtisadi sahədə cinayətlər öz əksini tapıb. Cinayətlər cəmiyyətə həddindən artıq ziyan vurur, anti-sosial xarakter daşıyır. Ictimai təhlükəli hadisələr dövlətin, cəmiyyətin, şəxsiyyətin hüquq mühafizə maraqlarına ağır zərbə vurur. Maddi, fiziki itkilər, hərbi cinayətlər inzibati hüquq pozuntuları cəmiyyətə ciddi ziyan vuran qeyri-əxlaqi davranışlardır.

Qeyri-əxlaqi davranışların obyekti cinayətin obyektindən çox genişdir, şəxsiyyətlərarası münasibətlər əsasən əxlaq vasitəsilə tənzim olunur. Qeyri-əxlaqi davranışlar antisosial xarakter daşıyır və sosial-psixoloji məzmun kəsb edir. Mülki hüquq pozuntuları ilə iqtisadi cinayətlər arasında fərq çoxdur. Mülki hüquq pozmalara nisbətən iqtisadi cinayətlər daha ağır nəticələr verir. Bu zaman maddi itkilər, «çirkli» pulların yuyulması, qeyri-qanuni sahibkarlıq və inhisarçılıq fəaliyyəti baş verir.

Hüququn əxlaqiliyi məsələsində şərəf və ləyaqətin şəxsi həyat hüququnun müdafiəsi əsas yer tutur. Mülki xəta və hüquq pozuntusu sırasında şəxsiyyətin ləyaqət və şərəfinin, işgüzar reputasiysı və nüfuzunun təhqir olunması və ona atılan böhtanı göstərmək olar. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 147-ci maddəsində «böhtan, yəni yalan olduğunu bilə-bilə hər hansı şəxsin şərəf və ləyaqətini ləkələyən və ya onu nüfuzdan salan məlumatları kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə və ya kütləvi informasiya vasitəsində yayma» kimi səciyyələndirilir. S.Məcidli şərəf və ləyaqət kimi dəyərlər arasında hüququn əxlaqiliyinin balanslı mövqe tutmasını tövsiyə edir: «Hüquq normalarının əsas missiyası da məhz insana məxsus olan bu dəyərlər arasında elə balanslı mövqe ortaya qoymaqdır ki, bu zaman birinin öz fikrini ifadə etmə azadlığı başqasının şərəf və ləyaqət hissinə toxunmasın» [Məcidli, 2012, 456: 40]. Deməli, hüququn əxlaqiliyi məhz insan şərəf və ləyaqətinin müdafiəçisi kimi çıxış edir.

Müstəqil Azərbaycanda demokratiyanın inkişaf səviyyəsi yüksəldikcə hüquq sisteminin əxlaqiliyi də artır. Hüququn əxlaqiliyi nəzəri və praktiki əhəmiyyət kəsb edir. «Nəzərə alınmalıdır ki, liberal düşüncə tərzinə əsaslanan müasir sivill cəmiyyətlərdə insanın hüquq və azadlıqlarının müdafiə olunması və inkişaf etdirilməsi başlıca məqsəd rolunu oynayır. Bununla əlaqədar olaraq hüquqi normaların məzmununda əxlaqın yeri və rolunun açılması, onun xüsusi çəkisinin çoxalmasının azadlığın inkişafı baxımından mənalandırılmasının zəruriliy daha aydın görünür» [Allahverdiyev, 2009: 263].

Əxlaqın hüquqla qarşılıqlı əlaqədə xidməti funksiyası əxlaqın hüquqi və ümumiyyətlə, bütün ictimai quruluşun keyfiyyətini yüksəltməsi ilə ifadə olunur. Bunu ictimai asayişin tənzimlənməsində "Qanunla qadağan olunmayan hər şeyə icazə verilir" müddəasının təsirindən də görmək olar. Bu prinsipin həyata keçirilməsini tamamilə başa düşmək olmaz, o mənada ki, insan yalnız adı çəkilən prinsipi rəhbər tutmalıdır. Fərd şüurunda məsuliyyət, vicdan, şərəf, ləyaqət, vəzifə kimi insanın hüquqi şüuruna nüfuz edən, onlarla qarşılıqlı əlaqədə olan, hüquqi davranışını islah edən amillər vardır. Ölkəmizdə bazarın formalaşması şəraitində xüsusi mülkiyyətin hüquqi əsasları, müqavilə münasibətləri təkmilləşdirilir. Şəxsi maraq, sahibkarlıq təşəbbüsü, mənfəət getdikcə daha çox üstünlük qazanır.

Hər bir qanun pozuntusu əxlaqsız hərəkətdir, lakin əxlaq normalarının hər pozulması qanunsuz əməl deyil. Bəzi hallarda hüquq cəmiyyəti köhnəlmiş əxlaqi ehkamlardan təmizləməyə kömək edir.

Hüquqi normalarda əxlaqilikdən danışarkən əxlaqla adət xarakterli hüququn vəhdətini qeyd etmək olar [Крапивенский, 1998: 241]. Ölkəmizdə azərbaycançılıq və vətənçilik ideyalarının reallaşması hüququn əxlaqiliyinə – hüquqi-ideoloji və mənəvi-psixoloji amilin vəhdətinə əsaslanır. Hüququn əxlaqiliyi mənəvi-siyasi imperativ kimi təkcə milli deyil, həm də ümumbəşəri problemdir. Hüququn «Məlum olduğu kimi, hüquqi şüurun ideoloji səviyyəsi rasional-əxlaqi mahiyyət kəsb etdikdə, hüquqla əxlaq vəhdət təşkil etdikdə hüququn əxlaqiliyi insanların, bütövlükdə cəmiyyətin mənəvi-hüquqi həyatının ayrılmaz tərkib hissəsinə çevrilir. «….Hüquq ilə əxlaq faktiki olaraq sosial münasibətlərdə xeyirxahlığın, borcun əsas yer tutmasına çalışır» [Allahverdiyev, 2009: 265].

## NƏTİCƏ və TÖVSİYƏLƏR

Beləliklə, hüququn əxlaqiliyi, əxlaqi və hüquqi şüurun vəhdətinin möhkəmlənməsi bütün bəşəriyyəti düşündürən ciddi məsələlərdən biridir. Azərbaycanda onun reallaşması vətəndaşların mənəvi, hüquqi tərbiyəsində həlledici amilə çevrilməkdədir.

Hüquq və əxlaq sıx vəhdət və qarşılıqlı təsirdədir. Hüquq normalarının köməyi ilə dövlət mütərəqqi əxlaq normalarının təsdiqinə can atır ki, bu da öz növbəsində bütün cəmiyyətin sosial dəyəri kimi qəbul edilən hüququn mənəvi nüfuzunun möhkəmlənməsinə kömək edir: Normalara əməl olunması bura daxildir. Əxlaqi-hüquqi şüurun inkişafı ilə hüquq normalarının nüfuzu artır, həm əxlaq normaları, həm də hüquq normaları təkmilləşir.

Hüquq cəmiyyətdə xeyirxahlıq və ədalət ideallarının bərqərar olmasına töhfə verməlidir.. Qanun vasitəsilə əxlaq normalarının və əxlaqi əsasların qorunması həyata keçirilir.

Hüquq normalarının səmərəliliyi, onların bir çox cəhətdən həyata keçirilməsi; əxlaqın tələblərinə necə cavab verməlri ilə müəyyən edilir. Hüquq normalarının işləməsi üçün o, ən azı əxlaq qaydalarına zidd olmamalıdır. Qanun bütövlükdə cəmiyyətin mənəvi baxışlarına uyğun olmalıdır.

## Ədəbiyyat:

*Allahverdiyev Q.* (2009). Azadlıq (sosial-fəlsəfi təhlil). Bakı: Adiloğlu, 320 s.

*Azərbaycan Respublikasının Konstitusiyası.* (2005). Bakı: Qanun, 62 s.

*Məcidli S.* (2012). Beynəlxalq hüquq və Azərbaycan Respublikasının media qanunvericiliyi. Bakı: Elm və həyat. 456 s.

*Musavilari S.M.* (2004). Islam və Qərb mədəniyyəti. Darul-bəşir, 2004, 264 s.

*Карпец И.И.* (1985). Уголовное право и этика. Москва: Юридическая литера- тура. 1985, 256 с.

*Крапивенский С.Э.* (1998). Социальная философия. М.: ВЛАДОС, 1998, 411 с.

*Məmmədzadə I.R.* (2010). Informasiya cəmiyyətinə aparan yol: modernləşmə və Azərbaycan elmi qarşısında duran problemlər və vəzifələr // Strateji təhlil, iyul-sentyabr, 2010, №1(1) // http: //phillav.az.org.1,p=469.

# РАСШИРЕНИЕ СПОСОБНОСТИ СТУДЕНТОВ К ГИБКОМУ МЫШЛЕНИЮ ЧЕРЕЗ ИЗУЧЕНИЕ ФИЛОСОФИИ

**Омар ИСМАИЛЗАДЕ**
Национальная Академия Авиации Азербайджана, студент,
член Российского философского общества
Российской академии наук
*Азербайджан, БАКУ*
ismailzadeomar82@gmail.com
orcid:0009-0009-8252-8768

**Аннотация**

Студентам, начинающим свой путь в мировых знаниях, стоит задаться вопросом: почему философия так важна и как она может помочь им в достижении успеха? В этой статье мы рассматриваем, как философское мышление способствует формированию целей, почему каждый студент должен изучить ее, и предложим практические шаги для продвижения философских идей в образовательном процессе. В современном обществе, где образование играет ключевую роль в будущем граждан и развития страны, необходимо тщательно настроить, чтобы справедливая система образования могла обеспечить личностному и профессиональному росту студентов.

**Ключевые слова:** критическое мышление, философия, образование.

# EXPANDING STUDENTS' CAPACITY FOR FLEXIBLE THINKING THROUGH THE STUDY OF PHILOSOPHY

**Omar ISMAILZADEH**
National Aviation Academy of Azerbaijan, student,
member of the Russian Philosophical Society
Russian Academy of Sciences
*Azerbaijan, BAKU*
ismailzadeomar82@gmail.com
orcid:0009-0009-8252-8768

**SUMMARY**

Students starting their way in world knowledge should ask the question: why is philosophy so important and how can it help them achieve success? In this article, we look at how philosophical thinking contributes to the formation of goals, why every student should study it, and propose practical steps to promote philosophical ideas in the educational process.In modern society, where education plays a key role in the future of citizens and the development of the country, it is necessary to carefully adjust so that a fair education system can ensure the personal and professional growth of students.

**Key words:** critical thinking, philosophy, education.

Философия – это искусство размышления, а это, ключ к гибкому мышлению и способности принимать обоснованные решения. В современном мире, где скорость изменений и сложные задачи постоянно растут, умение гибко мыслить становится активной задачей для студентов.Эффективное применение философской методологии в системе

образования является ключом к формированию нового поколения, способного создать новое и инновационное будущее для своей страны. Это средство для подготовки лидеров следующего поколения.

Изучение философии означает не просто знакомство с великими философами и их идеями, но и развитие способностей к анализу, критическому мышлению и поиску ответов на сложные вопросы. Эти навыки помогают студентам выходить за рамки стандартных шаблонов и рассматривать проблемы с разных точек зрения.

1. Критическое мышление: философия учит анализу и оценке информации с разных точек зрения. Это помогает студентам развивать способность выявлять ошибки в аргументах и логике других, а также в нормальных убеждениях [Дьюи, 1916:1].
2. Развитие аналитических навыков: изучение философии, развитие навыков разбираться в сложных текстах, предлагать ключевые идеи и анализировать их содержание.
3. Формулирование аргументов: Философия требует от студентов разработки разумных аргументов и навыков, чтобы четко и логично выражать свои идеи.
4. Разносторонний взгляд на проблемы: Философия позволяет рассматривать проблемы с разных философских и этических точек зрения, что способствует более глубокому пониманию сложных вопросов [Гадамер, 1960:2].
5. Этическое развитие: Философия обучения может помочь учащимся развить свои моральные принципы и этические знания, которые могут играть решающую роль в личной и профессиональной жизни.
6. Умение решения проблем: Философский анализ помогает разрабатывать креативные и гибкие методы решения проблем, которые полезны в различных сферах жизни [Руссо, 1762:3].

Изучение философии не только обогащает умственный опыт, но и развивает навыки, которые могут быть применены в разных областях, что делает его ценным источником для личного и профессионального роста.

Философия способствует формированию личной жизни студентов. Она размышляет над вопросами о смысле жизни, нравственности, свободе воли и других фундаментальных аспектах бытия. Это помогает студентам лучше понять себя и свои ценности [Хайдеггер, 1927:4].

*Применение философского мышления в образовании*

1. Включение философии в учебный план:
   - Разработайте курс философии или интегрируйте философские темы в дополнительные курсы.
   - Предложите факультету или администрации включить философию в образовательную программу [Дьюи, 1934:5].

2. Формирование дискуссионных групп:
   - Создайте дискуссионные группы, где студенты смогут обсуждать философские темы и идеи.
   - Поощряйте активное участие, обмен мнениями и аргументированные дебаты.

3. Чтение и анализ философских текстов:
   - Предложите студентам читать философские тексты, начиная с возрожденных классических работ и заканчивая современными.
   - Задайте вопросы, чтобы оценить понимание и анализ текстов.

4. Формулирование философских вопросов:
   - Побуждайте студентов формулировать философские вопросы и искать ответы на них.
   - Поддерживайте развитие функций критического мышления.

5. Проведение философских дебатов:
   - Организуйте дебаты по философским темам [Петерсон, 2018:6].
   - Поощряйте студентов аргументировать свои позиции и выслушивать точки зрения других.

6. Практика этического размышления:
   - Задавайте этические вопросы и сценарии, требующие от студентов принятия моральных решений.
   - Рассмотрите этические теории и подходы.

7. Интердисциплинарный подход:
   - Содействуйте сотрудничеству между различными дисциплинами, чтобы расширить область философского мышления.
   - Совмещайте философские концепции с другими учебными предметами.

8. Философские исследовательские проекты:
   - Поддерживать студентов в рамках честных философских исследований и проектов.
   - Поощряйте публикацию и обменивайтесь идеями.

9. Внедрение технологий:
   - Используйте онлайн-ресурсы и форумы для обсуждения философских тем и совместных работ.
   - Предоставьте доступ к цифровой библиотеке с философской литературой.

**Поддержать обмен мнениями между студентами и преподавателями.**

Цель – это своего рода компас, указывающий путь в жизни. Без цели человек просто плывет по течению, ничего не добиваясь. Для целей необходимо осознать собственную личность, понять, чего ты хочешь и чего ты должен добиться успеха. Это процесс, который может начаться еще на ступенях образования [Зиглар, 2019:7].

Будь то личные или профессиональные мотивы, могут стать мощной военной мотивацией. Когда человек знает, чего он хочет достичь, он обретает цель и смысл в учебе и жизни. Это может помочь студентам преодолеть трудности и сохранить упорство в достижении своих целей. Знание целей помогает студентам лучше ориентироваться в своих учебных установках. Личностный рост - это процесс, в ходе которого учащиеся развивают свои навыки, ценности, идеалы и становятся более профессиональными и ответственными гражданами [Кови, 1989:8].

Процесс определения целей включает в себя исследование своей личности, ценностей и страстей. Это позволяет студентам лучше понимать, кто они есть, и какие пути наиболее соответствуют их индивидуальным особенностям. Осознание личности помогает исключить ошибки в выборе профессии, которые могли бы привести к неудовлетворенности.

Определение цели требует разработки планов и стратегий для ее достижения. Это развивает у студентов умение планировать, сохранять приоритеты и управлять своим временем – навыки, которые будут играть важную роль в любой сфере жизни.

Целеполагание и достижение целей требуют самодисциплины и упорства. Эти качества необходимы для студентов и будут ценными во всех аспектах их будущей карьеры и жизни.

Владеть определенной целью и их осознание играют ключевую роль в образовании и развитии студентов. Помогая им определить свои цели и планы, механизмы могут обеспечить не только их личностное развитие, но и подготовить мотивы более продвинутых и последовательных выходов, что, в свою очередь, оказывает позитивное воздействие на развитие страны в целом [Кант, 1781:9].

Своеобразное направление, внести инновации и дополнить свой вклад обществом в будущее. Гибкое мышление, развитое благодаря философии, помогает им видеть свою форму не как статическую цель, а как непрерывное путешествие, в котором они могут использовать новые возможности и идеи для творческого развития [Адлер, 1940::10].

Способность гибко мыслить и строить свои жизненные и профессиональные цели, связанные с философией, помогает студентам стать специалистами в своих областях. Они учатся видеть связи между различными дисциплинами и применять философское мышление в зависимости от конкретных задач.

Философия также способствует формированию критического взгляда на общество и мировоззрение. Студенты, изучающие философские теории и размышления над ними, могут начать видеть, как их идеи могут повлиять на будущее страны и общества в целом. Они становятся активными участниками формирования будущего, стремясь к поиску решений для сложных проблем.

Когда студенты начинают рассуждать о философских понятиях, они становятся более осознанными гражданами. Они начинают задавать важные вопросы социальной справедливости, прав человека, устойчивости и других актуальных тем. Эта информированность и активное участие в дискуссиях способствуют развитию общества [Поппер, 1945:11].

Студенты, обладающие навыками философского мышления, имеют больше шансов стать специалистами в своих профессиях. Они способны анализировать сложные проблемы, находить нестандартные решения и работать над инновациями. Эти навыки ценятся среди многих профессий, от науки до бизнеса.

Наконец, студенты, изучающие философию, становятся архитекторами страны будущего. Их способность видеть проблемы с другой стороны и искать конструктивные решения может привести к позитивным изменениям в обществе. Они могут стать лидерами, способными объединять людей вокруг важных идей и целей.

Философия, помимо своей фундаментальной разработки в области критического мышления и философских концепций, также обучает студентов необходимым навыкам анализа информации и аргументации. Эти навыки играют решающую роль в современном обществе, особенно в эпоху информационного перенасыщения, когда доступ к информации легче, чем когда-либо. Вот как философия обеспечивает развитие критической оценки и анализа:

| | |
|---|---|
| 1. Аргументы анализа: | Философия учит студентов выявлять и анализировать аргументы, представленные в текстах, высказываниях или дебатах. Это позволяет определить силу и слабость аргументов и принять обоснованные решения на основе логических обоснований. |

| | |
|---|---|
| 2. Развитие логического мышления: | Философские дискуссии часто требуют анализа сложных концепций и их логических последствий. Это помогает изменить способность к логическому размышлению и пониманию простых аргументов. |
| 3. Источники оценки надежности: | Философия студентов дает грубую оценку источника информации. Они учатся различать достоверные и ненадежные источники, что особенно важно в цифровую эпоху, когда ложная информация может распространяться широко и быстро. |
| 4. Работа с мифами и псевдонаукой: | Философия помогает развивать способность различать между традиционными идеями и мифами, ложными утверждениями или псевдонаучными теориями. Это помогает обеспечить более объективное и осознанное восприятие мира. |

Эти навыки, являются частью образования и помогают студентам стать более серьезными мыслящими гражданами, способными осознанными решениями в сложном информационном мире.

Философия также поощряет диалог и обмен мнениями. Студенты, изучающие философские теории и учения, учатся выражать свои мысли и уважать точки зрения других. Это способствует созданию толерантного и разнообразного общества, где ценятся различия и диалог.

Когда студенты начинают понимать философию и ее влияние на свою жизнь, они становятся более мотивированными для обучения. Они поддерживают связь между изучаемыми предметами и философией, что делает учебу более инновационной и прогрессивной.

| | |
|---|---|
| 1. Понимание ценностей образования: | Философия помогает студентам осознать ценность образования и его роль в их мировоззрении. Они видят начало изучения различных предметов, связанных с философскими концепциями и идеями, что стимулирует интерес к учебе. |
| 2. Интеграция знаний: | С пониманием философии студенты начинают видеть, как различные предметы и дисциплины взаимодействуют. Это позволяет им интегрировать знания и применять философский подход к анализу и решению проблем, что делает учебу более инновационной и интересной. |
| 3. Способность к критическому мышлению: | Философия развивает способность к критическому мышлению и анализу, что может стать мощным стимулом для студентов. Они начинают видеть, как эти навыки применяются в разных аспектах их образования и повседневной жизни. |

| | |
|---|---|
| 4. Моральная и этическая рефлексия: | Философия способствует моральной и этической рефлексии студентов, что может быть мотивирующим поводом для более глубокого изучения и понимания различных дисциплин. Студенты начинают видеть, как философские аспекты влияют на их личные ценности и мораль. |
| 5. Исследовательский подход: | Философия поощряет студентов обсуждать и задавать вопросы, что делает учебу более инновационной и прогрессивной. Они могут взять на себя активную роль в своем образовании и рассмотреть темы, которые им интересны. |

Таким образом, понимание философии и ее работа в жизни студентами могут стать мотивацией для более глубокого и инновационного образования, поскольку они начинают видеть ценность научных исследований и их применение в представлении жизни.

В конце концов, философия не только расширяет способность студентов к гибкому мышлению, но также формирует их как разносторонние и грамотные граждане, способные внести вклад в будущее страны и создать общество, основанное на знании, этике и диалоге. Философия – это инструмент личного и общественного развития, который способствует формированию страны будущего.

С философией студенты не только могут рассматривать свою жизнь и будущее страны, но и разрабатывать конкретные стратегические решения. Это включает в себя способность анализировать сложные ситуации, возможное предвидение результатов и разработку плана для достижения желаемых целей. Философия становится их надежным компасом в быстро меняющемся мире.

В обсуждениях философских вопросов студенты учатся выслушивать друг друга и находить общие позиции, даже если их взгляды различны. Эта возможность к диалогу и конструктивному взаимодействию не только обеспечивает гармоничные отношения в обществе, но и способствует нахождению более эффективных решений для решения таких проблем.

Исследования показывают, что студенты, изучающие философию, добиваются больших успехов в обучениях других предметов, так как их способности анализа и критического мышления распространяются на различные области знаний. Это делает их более компетентными в своих профессиональных достижениях и способствует развитию инноваций.

## ЗАКЛЮЧЕНИЕ

Изучение философии предоставляет студентам мировой инструмент для развития гибкого ума, нравственности и критического мышления. Оно позволяет им формировать свои личные цели и ценности, а также активно участвовать в общественной жизни и развитии страны. Философия - это не только наука о мышлении, но и источник вдохновения и мудрости, который создает более справедливое, толерантное и инновационное общество. Студенты, оснащенные философскими методами, могут действительно формировать будущее страны, и это делает философию важной частью современного образования.

## Литература:

*Адлер, Мортимер Дж.* (1940). Как читать книги. Нью-Йорк.

*Гадамер, Ханс-Георг*. (1960). Истина и метод. Тюбинген.

*Даксон, Грит*. (2014). Мотивация в образовании: теория, исследования и практика. Лондон.

*Джон, Коттер*. (1996). Ведение изменений: Почему обычные усилия приводят к результатам. Бостон.

*Доран, Джордж. Б*. (1981). Смарт-цели: использование понятий, характеристика, измеримость, достижимость, релевантность и временные рамки для достижения целей. Нью-Йорк.

*Дьюи, Джон*. (1916). Демократия и образование. Нью-Йорк: Макмиллан.

*Дьюи, Джон*. (1934). Искусство как опыт. Нью-Йорк: Макмиллан.

*Зиглар, Зиг*. (1983). Секреты достижения целеполагания. Даллас.

*Зиглар, Зиг*. (2019). Цели. Как получать от жизни максимальную отдачу. Нью-Йорк.

*Кант, Иммануил*. (1781). Критика чистого разума. Кенигсберг.

*Кови, Стивен П*. (1989). 7 навыков высокоэффективных людей. Нью-Йорк.

*Пауэрс, Ричард и Клейнман, Гари*. (1992). Личная эффективность: Сборник статей. Чикаго.

*Петерсон, Джордан Б*. (2018). 12 правил жизни: Антидот против хаоса. Торонто.

*Поппер, Карл*. (1945). Открытое общество и его враги. Лондон.

*Рассел, Бертран*. (1945). История западной философии». Нью-Йорк.

*Рон, Джим*. (1988). Ключевые качества успешных людей». Лос-Анджелес.

*Руссо, Жан-Жак*. (1979). Эмиль, или О воспитании». Нью-Йорк: Классика пингвинов.

*Хайдеггер, Мартин*. (1927). Бытие и время». Марбург.

*Шульц, Кеннет Л. и Деб, Стивен Э*. (2017). Развитие профессиональных и личностных качеств студентов». Бостон.

# PHILOSOPHY AND AI TECHNOLOGY: EXPLORING THE BOUNDARIES OF CONSCIOUSNESS AND ETHICS

**Rufat HASANOV**
Azerbaijan Labor and Social Relations Akademy,
Computer Engineer,
*Azerbaijan, BAKU*
baki15ruf@yahoo.com

**SUMMARY**

Artificial Intelligence (AI) technology has rapidly evolved in recent years, prompting profound philosophical inquiries into its nature, capabilities, and implications. This essay delves into the multifaceted relationship between philosophy and AI technology. It examines the philosophical questions AI raises about consciousness, ethics, and the role of humans in a world increasingly intertwined with intelligent machines.

**Key words:** philosophy, technology, consciousness, ethics.

# FƏLSƏFƏ VƏ AI TEXNOLOGİYASI: ŞÜUR VƏ ETİKANIN SƏRHƏDLƏRİNİ ÖYRƏNƏRƏK

**Rüfət HƏSƏNOV**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,
Kompüter mühəndisi,
*Azərbaycan, BAKI*
baki15ruf@yahoo.com

**XÜLASƏ**

Süni intellekt (AI) texnologiyası son illərdə sürətlə inkişaf edərək, onun təbiəti, imkanları və nəticələri ilə bağlı dərin fəlsəfi araşdırmalara səbəb olur. Müəllif bu məqalədə fəlsəfə və AI texnologiyası arasındakı çoxşaxəli əlaqəni və süni intellektin getdikcə daha çox ağıllı maşınlarla qarışan dünyada şüur, etika və insanların rolu ilə bağlı qaldırdığı fəlsəfi sualları araşdırır.

**Açar sözlər:** fəlsəfə, texnologiya, şüur, etika.

## AI and the Philosophy of Mind

One of the central philosophical questions surrounding AI technology is the nature of consciousness. Can machines truly possess consciousness, or are they limited to simulating it? This question touches upon the longstanding debate between dualism and materialism in the philosophy of mind.

Kitapçı, Zekeriya. (1995). *Orta Asya Türklüğünün Büyük İslâm Kültür ve Medeniyetindeki Yeri*, Konya: Damla Matbaası.

Kutlu, Sönmez. (2018). "İslam Medeniyetine Yön Veren Müslüman Türk Âlimleri". Orta Asya Âlimlerinin İslam Medeniyetine Katkıları.

Okur, Mehmet Akif. (2011). *Yeni Çağın Eşiğinden Avrasya'nın Kalbine Bakmak*. Ankara.

Özbayraktar, Aykut. (2014). Abbasîlerin İlk Döneminde Mâverâünnehir. Yüksek Lisans Tezi, Selçuk Üniversitesi Sosyal Bilimler Enstitüsü, Konya.

Radtke, Bernard. (2009). Maveraünnehir'de Din Alimleri ve Mutasavvıflar, Çev. Ergin Ayan Horasan, *Uluslararası Sosyal Araştırmalar Dergisi/The Journal of International Social Research*, Volume 2/9 (Fall): 359-373.

Sayılı, Aydın. (2002). "Orta Çağ Bilim ve Tefekküründe Türklerin Yeri", Türkler, V.: 614-622.

Şentürk, Recep. (2016). "Açık Medeniyet İstanbul Yaklaşımı". *Tohum Dergisi*, Güz, İstanbul.

Vurgun, Seda Yılmaz. (2016). "Buhara Emirliğinin İki Önemli Şehri: Buhara ve Semerkant". *Türk Tarihi Araştırmaları Dergisi / Journal of Turkish History Researches*, 1/1 (Fall): 148-151.

Wang-Zin-Shan. (1958). "Çin'de İslamiyet". *İslam Tetkikleri Enstitüsü Dergisi*, İ.Ü. Edebiyat Fakültesi Yayınları, c. 2-4, Cüz. 2 (İstanbul): 163.

# XX YÜZİL AZƏRBAYCAN TÜRK FİLOSOFLARI İNSAN, DÜNYA VƏ TƏKAMÜL HAQQINDA

**Faiq ƏLƏKBƏRLİ**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,
aparıcı elmi işçi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
*Azərbaycan, BAKI*
faikalekperov@mail.ru;
http://orcid.org/0000-0002-8865-568x

**XÜLASƏ**

Məqalədə insan, dünya və təkamül bütünlüyündə yüksək dəyərlərə, mədəniyyətə sahib insanların və toplumların fəlsəfi-kulturoloji aspektdə necə formalaşa bilməsi tədqiq olunmuşdur. Burada göstərilir ki, ali mədəniyyətə sahib insanların cəmiyyətlərin formalaşması üçün, ilk növbədə dünya və insanın təkamül içində inkişafı vacibdir. Başqa sözlə, insan və dünya təkamüllə inkişafa doğru getməli, harmoniya gözlənilməli və sçırayışlardan mümkün olduqca yan qaçılmalıdır. Çünki insan və dünyanın təkümllə inkişafı sıçrayşa çevrilib bir-birinin əleyhinə yönəldikdə harmoniya pozulur. Eyni zamanda, məqalədə mövzu ilə bağlı Azərbaycan Türk mütəfəkkirlərindən Abbas Səhhət, Məhəmməd Hadi, Hüseyn Cavid, Abdulla Şaiq, Əhməd bəy Ağaoğlunun çox dəyərli fikirlərinə də müraciət edilmişdir. Belə ki, onların da fəlsəfi-kulturolji irsində insan, dünya, təkamül və bütün bunların yekununda ali mədəniyyətə sahib insan məsələsi dəyərləndirilmişdir.

**Açar sözlər:** mədəniyyət, təkamül, ədəbi-əxlaqi məsələlər, insan və mədəniyyət, insanlıq, ədalət.

# XXth CENTURY AZERBAIJAN TURKISH PHILOSOPHERS HUMAN, ABOUT THE WORLD AND EVOLUTION

**Faiq ALKBARLI**
ANAS Institute of Philosophy and Sociology,
leading researcher, doctor of philosophy, Associate professor,
*Azerbaijan, BAKU*
faikalekperov@mail.ru;
http://orcid.org/0000-0002-8865-568x

**SUMMARY**

In the article, it was studied how people and societies with high values and culture can be formed in the philosophical and cultural aspect of human, world and evolution as a whole. It is shown here that for the formation of societies of people with high culture, first of all, the development of the world and man in evolution is important. In other words, man and the world should move towards development through evolution, harmony should be expected and deviations should be avoided as much as possible. Because when the evolutionary development of man and the world turns into a leap and goes against each other, the harmony is broken. At the same time, the valuable opinions of Azerbaijani Turkish thinkers Abbas Sahhat, Muhammad Hadi, Huseyn Javid, Abdulla Shaiq, Ahmed Bey Agaoglu were addressed in the article. Thus, in their philosophical and cultural heritage, the issue of man, world, evolution and, at the end of all this, a person with a higher culture was valued.

**Key words:** culture, evolution, literary and moral issues, man and culture, humanity, justice.

## GİRİŞ

İnsan, ona münasibət, həyatının mənası və bütün bunların fəlsəfi anlamda mədəniyyətlə qarşılqlı əlaqəsi hər zaman mütəfəkkirləri düşündürmüşdür. Əlbəttə, mütəfəkkirlərin təbiət, kosmos və digər hadisələrə münasibəti insana münasibətdən fərqli xarakter daşımaqdadır. Çünki araşdırdığımız mövzuda insanın pzünün özünə münasibəti daynmaqdadır. O zaman belə bir sual meydana çıxır ki, insan özü özünü necə dəyərləndirə bilər və burada obyektiv olmaq mümkündürmü? Bizcə, bu mövzu olduqca həssasdır və birmənalı fikir yürütmək mümkün deyildir. Birincisi, ona görə ki, insanın özü özünü dəyərləndirməsi, həyatının mənasını müəyyənləşdirməsi və üstəlik, əxlaqi dəyərlər çərçivəsində hərəkət etməsi çox da asan bir məsələ deyildir. Əksinə, insanın özünün özünə münasibətində yetərli qədər ziddiyyətlər vardır. Bu ziddiyyətlərin qaynağı da fərqli coğrafim məkanlarda, fərqli şərtlər altında, fərqli mədəniyyətlərə sahib olmasıdır. Əslində burada son olaraq qeyd etdiyimiz fərqli mədəniyyətlər və onun keçdiyi təkamül yollarının özü də birmənalı deyildir. Yaxud da güclü mədəniyyətlərə (maddi-fiziki və mənəvi-psixoloji) sahib olan toplumların özündən qat-qat zəif olanları özünə bənzmətmələri də bir gerçəklikdir. Hətta, mədəni-əxlaqi anlamda bir qədər geridə olan toplumların özündən "güclü" toplumlar üzərində qalibiyyətdən sonra sonuncuların təsir dairələrinə düşməsinə də tarixdə dəfələrlə rast gəlinmişdir. Belə olduğu təqdirdə yüksək mədəniyyətə sahib insan və insan toplumları haqqında fikir yürüdərkən problemə hərtərəfli yanaşmaq lazımdır. Başqa sözlə, mövzunu dərindən təhlil etmədən hər hansısa hökmlər vermək doğru olmazdı.

Biz bu mövzu ilə bağlı sadəcə olaraq, bir neçə Azərbaycan Türk mütəfəkkirinin düşüncələrinə istinad etmək qərarına gəldik. Həra halda burada qoyduğumuz mövzu ilə bağlı mütəfəkkirlərimizin gəldikləri müəyyən qənaətlər var ki, onların üzərindən bu məsələyə aydınlıq gətirməyi daha məqbul saydıq. Burada dünyanın və insanın təkamül içərisində götürülməsi mühüm əhəmiyyət kəsb edir. O başqa məsələdir ki, insan özünü və dünyanı təkamül məsələsində qabaqlamaqla bəşəriyyət üçün ciddi təhlükələrə, qlobal böhranlara da səbəb olur. Ona görə də, ən doğru olanı insanın təkamül məsələsində dünyanı və özünü təhlükəyə atmamsıdır. Əslində təkamül məsələsində özünü və dünyanı sürətlə qabaqlayan (sıçrayışlara üz tutan) insanlar və xalqlar üçün mədəniyyət, əxlaqi-estetik anlayışlar əhəmiyyətini itirməyə başlayır. Artıq təkamül deyil, sıçrayışlarla dünyanı və özünü idarə etməyə çalışan bəşəriyyət üçün ali mədəniyyət mənasızlaşır. Əgər dünya sürətlə dəyişirsə, onu dəyişən insan özü də sürətlə dəyişir və bununla da dünya və insanın təkamül içində irəliləyişi harmoniyası pozulur. Çünki tərəqqi, dəyişiklik təbiətin qanunlarına antaqonizm dərəcədə zidd olmamlıdır. Bizcə, bununla vağlı Azərbaycan Türk şair-mütəfəkkiri Abbas Səhhət "Tərəqqi və təbiətin qanunu" adlı əsəri olduqca diqqətə layiqdir. O, həmin əsərində yazırdı:

*Bir müəyyən qanun üzrədir həyat,*
*Bir doğuş, bir təkamül, bir inhitat.*
*Böylə qoyulmuş aləmin banisi,*
*Dəyişməkdir tərəqqinin əsası.*
*Dəyişmək olmasa tərəqqi olmaz,*
*Təbiətin bu qanunu pozulmaz* [Səhhət, 2005: 56].

Müstəqil Ağayev hesab edir ki, "təbiət hadisələrində dəyişilmə hadisəsi baş verdiyini bildirən A.Səhhət bu dəyşilmə qanununu tərəqqi və təkamülün əsası hesab edir. Həm də belə bir müddəa irəli sürür ki, təbiətin bu qanunu əbədidir, pozulmazdır. Onun fikrincə, dünyanın əsası belə qoyulmuşdur, bu qanun əzəli bir qanundur" [Ağayev, 2010: 13]. Bizcə də, təkamül və tərəqqinin mümkünlüyündən bəhs edən Səhhət, bu qanunu sosial hadisələrin inkişafında da görmüşdür:

*Dəyişməklə mümkün olur təkamül,*
*İnsan doğar, törər, edər tənasül*
*Təbiətdən gərək alınsın ibrət,*

*Təsəddüdlə olur bəqayi-millət* [Səhhət, 2005: 56].

Hər zaman fəlsəfi-etik anlamda insanlıq vəzifəsini millət və vətən anlayışları ilə bərabət tutan, hətta ondan üstün tutanlar da tapılır. Bəs, Səhhət üçün insanlıq, yüksək dəyərlərə sahib insan nə deməkdir və o, milli-dini anlayışlardan nə ilə fərqlənir, ya da üst-üstə düşür? O, yazırdı:

*Namusi-rəayani çəkən bir ümarəyə,*
*Əlbəttə, dilü canla itaət gərək olsun.*
*İnsanlara xidmət edən ərbabi-dühayə,*
*Təkrim edilib şəni, riayət gərək olsun.*

*Onlar ki, bizə rahibəri-elmü ədəbdir,*
*Şükraneyi-ehsanların ifa edərik biz.*
*İnsanlara insanlığı təlim səbəbdir,*
*Həqdən olara ömür təmənna edərik biz* [Səhhət, 2005: 76].

Xüsusilə də, o, "Şair, şeir pərisi və şəhərli" əsərində insanlıq məsələsinin üzərində xüsusi dayanmışdır. Çünki ümmət, millət və vətən naminə çalışdığı bir zamanda bəziləri şairə qənim kəsilirdilər ki, bu da Səhhətə təsirsiz ötüşmürdü. Səhhət əvvəlcə "Şeir pərisi"nin "insanlıq" fəlsəfəsinə uyub ümmət, millət, vətən dərdindən uzaqlaşmaq istəsədə, ancaq bunu yenə də son anda bacarmır. Çünki "Şəhərli"nin dili ilə desək, ziyalı millətin, vətənin halına görəndə yanmırsa, onun dərdinə şərik olmağı özünə borc sayıb çarə tapmağa çalışmırsa, o şair, ya da ziyalı deyil [Səhhət, 2005: 93]. Səhhət belə bir qənaətə gəlirdi ki, əslində ümumi insanlıqdan danışanlar deyil də, ümmət, millət, vətən naminə, onların azadlığı naminə həqiqəti yazanlar daima incidilmiş, təqib və təzyiqlərə məruz qalmışdır [1, s.94]. Səhhət hesab edirdi ki, digər sahələrdə olduğu kimi, əxlaq məsələsində də tənəzzüldə olmağımıza əsas səbəb bir tərəfdən islam dininin artıq tələblərə cavab verə bilməməsi və ruhanilərin əlində oyuncağa çevrilməsi, digər tərəfdən Qərb xalqları tərəqqiyə üz tutduğu bir zamanda onlardan çox geri qalmağımızdır. Səhhətə görə, bununla da hazırda millətin rəisi-füqərası, yaşlı-cavanı, dindarı-dinsizi, cahili-alimi olsun demək olar ki, əsasən milli-dini dəyərələrə, o cümlədən milli əxlaqi dəyərlərə əməl etmirlər [Səhhət, 2005: 106].

Azərbaycan Türk mütəfkkirlərindən Məhəmməd Hadi isə insan, dünya və təkamül məsələsində bir qədər fərqli yol tutmuşdu. O, dünyada gedən dəyişilmələri ibtidadan aliyə doğru hesab etsə də, ancaq bu "ibtida"nın özünün nisbi olduğunu yaxşı anlamışdır. Əslində Yer kürəsi ilə bağlı "ibtida"dan "ali"yə doğru hərəkətin, dəyişilmənin özü zaman zaman fərqli olmuşdur, buradakı təkamül, ya da sıçrayış prosesləri, böyük ehtimala yalnız daxildən qaynaqlanmamış, onun "qonşular"ın da burada müəyyən rolu olmuşdur. Maraqlıdır ki, Yer kürəsindəki dəyişikliklər, xüsusidən "ibtida"dan "ali"yə doğru gedən yolda baş verənlərin təkamüldən çox, sıçrayışla izahlarında səmavi dinlər önə çıxır və Yaradan ideyası aktuallıq kəsb edir. Sıçrayış prosesində Yaradan ideyasının aktuallığı isə "qonşular"ın (Yer kürəsinin də yer aldığı Ulduzlar sistemindəki digər ulduzlar nəzərdə tutulur) da, burada "əməy"ini gündəmə gətirir. Hər halda səmavi dinlərdə də Yaradan Yer kürəsindəki bəşəriyyətə qayda-qanunlarını "Göy"dən, Kainatdan mələkləri vasitəsilə çatdırır. Bu zaman istisna etmək olmaz ki, digər "qonşu" ulduzlarda sivilizasiyalar var və "mələklər", ya da digər şüurlu varlıqlar onlardan birində, ya da bir neçəsində məskunlaşmışlar.

Ancaq Yer kürəsində gedən hadisələri, prosesləri təkamüllə izah etsək, o zaman Yaradan ideyası arxa plana keçir və burada "ibtida"idən "ali"yə yüksəlmə dövri olaraq təbiətin, cəmiyyətin öz daxili qanunauyğunluqları ilə izah olunur. Burada cismani və mənəvi nə varsa Yer kürəsinin daxili qanunauyğunluğu kimi təkamül vasitəsilə "tərəqqi"dən "tənəzzü"lə, "tənəzzül"dən "tərəqqi"yə, "ibtida"dan "ali"yə, "ali"dən "ibtida"ya doğru durmadan baş verməkdədir. Hadi yazırdı:

*Dirilmək arzusilə ölür, öldükdə millətlər,*
*İnanmışdır buna dünyadakı əhli-həqiqətlər.*

*Ölənlər, öldürənlər həp bu məqsədlə mübarizdir,*
*Bu qanuni-təbiətdir, bütün aləmdə barizdir* [Hadi, 1957:244].

Hadi digər tərəfdən də iddia edir ki, inkişaf ancaq irəliyədir, geri dönməzdir, yəni hər şey "ibtida"dan "ali"yə, sadədən mürəkkəbə doğru getməkdədir. Ancaq Yer kürəsinin "ibtida"dan "ali"yə doğru hərəkətinin özü cəmiyyətlərə görə dəyişir. Hər halda ayrı-ayrı cəmiyyətlər eyni dövrdə "ibtida"dan "ali"yə doğru getməmişdir və indi də aşağı-yuxarı getmir. Burada iki məsləni fərqləndirmək lazım gəlir. Birincisi, ümumilikdə Yer kürəsinin "ibtida"dan "ali"yə, ikincisi ayrı-ayrı cəmiyyətlərin, sivilizasiyaların "ibtida"dan "ali"yə doğru inkişafıdır. Bu heç də eyni məsələ deyildir və ola da bilməz. Hər halda Hadi özü də "ibtida"dan "ali"yə doğru hərəkəti bir tərəfdən dünyəvi olaraq, digər tərəfdən islam dini çərçivəsində izah etməyə çalışmışdır. O, bu məsələni dünyəvi şəkildə qiymətləndirməyə çalışarkən dini dünyagörüşdən, o cümlədən idealizmdən kənara çıxır, müsəlman olaraq ələ aldığı zaman isə islam fəlsəfəsi əsasında idealist mövqe tuturdu. Bu ikisinin arasında tərəddüd edən Hadi hərəkət və inkişaf konsepsiyasını əsasən Qurani-Kərim fəlsəfəsi ilə izah etməyə çalışsa da, [Məmmədova, 2003:72] bununla yanaşı qeyri-ixtiyari "dünyəvi" misallar gətirir. Bu zaman məlum olur ki, insan Adəmdən deyil heyvandan insana çevrilmiş, ancaq heç zaman "heyvani xisləti"ndən tam uzaqlaşamamış, bunun nəticəsində də insanlıq tarixi müharibələr, cinayətlər tarixidir. Çünki insan nə qədər "heyvan xisləti"ndən uzaqlaşıb saflaşmaq, mərifətləşmək istəsə də, əsasən bunlar faydasız olmuşdur.

Hadinin düşüncəsindəki insan Yaradana məxsus insan deyil, bu insan Yer kürəsinin, təbiətin məhsuludur. Deməli, şairin fəlsəfi dünyagörüşündə insana münasibətdə ikilik var; bir tərəfdə heyvandan insana çevrilən təbiətin yaratdığı insan, digər tərəfdə səmavi dinlərdə ortaya qoyulan Yaradanın yaratdığı Adəmdən törəmiş insan. Bizcə, Hadinin daha çox tənqid etdiyi Təbiətə məxsus insandır, çünki Yaradanın yaratdığı insanda o, Allahın zərrəsini görür. Ancaq maraqlıdır ki, o, bir tərəfdən insanın Allah tərəfindən yaradıldığına inanmaqla yanaşı, ancaq darvinistlərin düşüncəsindən çıxış edərək 40 milyon il bundan əvvəl təkümül yoluyla insanın balıqdan quruda yaşayan heyvana, daha sonra da heyvandan insana çevrildiyini yazırdı.

İnsan, dünya və təkamül məsələsində Azərbaycan Türk mütəfəkkiri Hüseyn Cavid belə qənaətə gəlirdi ki, yüksək dəyərələrə sahib insan, cəmiyyət arzu edənlər dini əfsanələri bir kənara qoyub bu dünyanın özündə məscidləri, kilsələri, sinaqoqları məktəblərə, kitabxanalara çevirməlidir. Onun fikrincə, yaınız mərifətli, bilikli bir cəmiyyətdə cənnəti yaratmaq; şərəf və qürurla yaşamaq mümkündür [Cavid, 2005, 1:157]. Əlbəttə, Cavidin bu dediklərində xeyli dərəcədə həqiqət olmaqla yanaşı, elmlə, biliklə yəni maariflənməklə hər şeyin öz həllini tapacağına ümid etmək də doğru deyil. Biz bunu, maariflənmiş "sovet cəmiyyəti"ndə də gördük. Deməli, əsas problemi yalnız hərf tanımaqla, ya da müxtəlif kitablardan müxtəlif biliklər almaqla həll etmək çox zordur. Bu, yəni bütün cəmiyyətin hərf tanıyıb maariflənməsi ən yaxşı halda, insanlıq yolunda gediləcək yolun başlanğıcı ola bilər. Ancaq işin çox çətin olanı insanlıq fəlsəfəsinin bütün insanlar tərəfindən qəbul edilməsidir. Yəni müharibə yox sülh olsun, şər deyil xeyir olsun, nifrət deyil sevgi olsun deməklə, insanlıq fəlsəfəsi olmur. Çünki insanlıq fəlsəfəsinin özü elə bütün bunları: sülh üçün savaşmağı, sevgi üçün nifrəti öldürməyi, xeyir üçün şəri dəf etməyi tələb edir. Bu zaman da məlum olur ki, insanlar da, cəmiyyətlər də Tanrılardan, dinlərdən, Ədalətli cəmiyyətdən, Demokratiyadan, Sosializmdən çıxış edərək bu ikili mübarizələrdə məhz özünün doğru yolda olduğunu iddia edirlər. Caviddə bu cür ziddiyyətləri göstərərək, bir çox hallarda sülh deyənlərin əslində müharibə üçün, müharibə deyənlərin isə əslində sülh üçün çalışmaları kimi qəribəlikləri ifadə etmişdir [Cavid, 2005, 1:160].

Bir sözlə, Cavidin təbrincə desək, "insan olursa insanlar" kainatda sevgi, ədalətlilik, bərabərlik hökm sürər. Bu isə heç bir zaman olmamışdır, bu gün də gerçək deyil və görünən odur ki, gələcəkdə də olmayacaq. Ən yaxşı halda ayrı-ayrı cəmiyyətlərdə bu olmuşdur, indi də bəzi cəmiyyətlərdə az-çox var, gəlcəkdə də hansısa toplumlarda olacaqdır, deyə bilərik. Ancaq yenə də

Cavid ümid edir ki, ağıl insanın rəhbəri olsa, nə zaman müharibə, nə zaman sülh etməyin yerini bilsə insanlıq qalib gələcək. Başqa sözlə, qüvvəti ağıl ilə idarə etməklə digər yalançı, zərərli ideyaları aradan qaldırmaq mümkündür. O, yazırdı:

*Bən derim: "Həpsi laf, inanma saqın!*
*Rəhbər olsun da qüvvətin, ağlın.*
*Yeri gəldikdə sülh üçün çabala,*
*Öylə yer var ki, hərbi alqışla.*
*Quzu gördünmü sev, o, kin bilməz;*
*Canavar qarşı gəlsə parçala, əz.*
*Qüvvət üstündə varsa əqli-səlim,*
*Sana kainat olur təslim"* [Cavid, 2005, 1:.161].

Cavidə görə, ağıllı insan üçün önəmli olan "yaşatmaq" ideyasıdır, "yaşatmamaq" yox. Onun fikrincə, insanın yonulmuş heyvan, meymun hesab olunmasında müəyyən həqiqət payı olsa da, ancaq bunu tam eyniləşdirmək də doğru deyil. Çünki insanın zəkası var, ancaq bu zəkanı hansı məqsədə xidmət etməsi məsələsi də istisna olunmamalıdır. Cavid yazırdı:

*İnsan yonulmuş bir heyvan olsa da,*
*Endirilməz hiçə ondakı zəka.*
*O yalnız düşünməz, düşündürər də,*
*Kəşf edər gündə bir qaranlıq pərdə.*
*Hər gün beynində bir yıldırım çaqar,*
*Dilərsə bir anda bir cihan yıqar.*
*İnsan pək tuhafdır, o hər şey yapar,*
*Onda yaşatmaq da, yaşatmaq da var.*
*"Yaşatmam, yaşarım" deyən səfillər*
*Qan içən vəhşilər yolunu izlər* [Cavid, 2005, 1:195].

Beləliklə, Cavidə görə, ağıllı insan həyat və ölümün mənasını vaxtında anlamalı, heç bir şeydə ifrata varmamalıdır. Bir sözlə, insan bilməlidir ki, bəzən yaşamaq kimi, ölmək də xoşbəxtlikdir. Sadəcə, hər bir şeydə anlam olmalıdır. Cavidə görə, insan ancaq böyük bir eşq üçün hər şeyi gözə ala bilər. Bunun üçün insan ali bir idealın daşıyıcısı olmalı, nəfsinə xor baxan qəhrəman olmalıdır [Cavid, 2005, 1:.212].

Cavid bir tərəfdən hər adətin köhnəlmiş, çürümüş hesab olunub atılmasının da, hər yeniliyə də mədəniyyət deyilib qəbul olunmasının da əleyhinədir. Bir sözlə, köhnə adətlərlə yeni adətlər məsələsində ifrata varmamaq üçün insan doğru seçim etmək iqtidarında olmalıdır. O, yazırdı:

*Dəmin güləşməyə "əski adət"dedin,*
*Bən şaşırdım, bəlkə onu fərq etmədin.*
*Əski olsun, bu xoş adət ən mədəni,*
*Ən yaldızlı adətlərdən daha yeni..*
*Cahil-alim həp çarpışır, həp güləşir,*
*Meydanda tək qalmaq için pənəcələşir.*
*İnsan var ki, gülüb durukən qüvvətə,*
*Qarşı gəlsə məcbur olur itaətə.* [Cavid, 2005, 1:220].

O, belə bir qənaətə gəlirdi ki, hər hansı təhlükələrə üstün gəlmək üçün ali dəyərlrə sahib bəşər övladı qorxusuz olmalı, mücadilə aparmalıdır. Çünki qorxu içində yaşamaq insanı da, cəmiyyəti də yavaş-yavaş öldürür [Cavid, 2005, 1:213].

Hüseyn Cavidə görə, dünyada ən yüksək dəyərələrə sahib millətlərdən biri türklər, türk xalqlarıdır. Çünki türklər müharibədə olduğu kimi, siyasətdə, elmdə və mədəniyyətdə də hiyləgərlik nədir bilməzlər. Ona görə də, hərb meydanında yenilməslər də, siyasətdə yenilmişlər. Cavid yazırdı:

*Türk ordusu daim basaraq ölkələr almış,*
*Ən sonda siyasətdə basılmış da bunalmış.*
*İdraki sönük başçıların qəfləti ancaq*
*Etmiş, edəcək milləti həp əldə oyuncaq.*
*Turana qılıcdan daha kəskin ulu qüvvət,*
*Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət...* [Cavid, 2005, 3: 264].

Cavidin fikrincə, millətin həyatında özəlliklə, elm və mədəniyyət elə bir anlayış, ünsürdür ki, bu sahədə görülən hər iş irəliyə doğru bir addımdır. Hər kəs mədəniyyət və elmin təməlinə bir daş atmalıdır ki, gələcək nəsillər ondan qidalansın. Başqa sözlə, elm və mədəniyyətdə geridə qalmaq bir millətin gələcəyi üçün çox təhlükəlidir. Ona görə də, bir millətin savaşda məğlub olması deyil, elm və mədəniyyətdə geridə qalması fəlakətdir. Cavid Əmir Teymurun dilindən yazırdı: "Bununla bərabər yapdıqlarımız hiç bir şey deyil. Bu, yalnız mədəniyyətə doğru, bir addım, gələcək üçün bir başlanğıcdır. Bizim başladıqlarımızı gələcək nəsil ikmal etməli. Yalnız beş-on şəhər deyil, bütün məmləkət tərəqqi və gözəlliklər için birər nümunə olmalı. Əvət, biz təməl daşı atıyoruz. İştə bu təməl üzərində möhtəşəm binalar qurmaq və bu şüarı çiçəkləndirmək... ancaq yeni nəslə, ancaq sarsılmaz gəncliyə aiddir" [Cavid, 2005, 3: 265].

Azərbaycan Türk mütəfəkkiri Abdulla Şaiqin dünyagörüşündə isə ali mədəniyyətli insan üçün "hamımız bir Günəşin zərrəsiyik"dir. Əslində bütün insanların bir Günəşin zərrəsi olması İnsanlıq fəlsəfəsinin təzahürüdür. İnsanlar tək bir Günəşin zərrəsi olub, müxtəlif dillərə və dinlərə bölünüb ayrı-ayrı yerlərdə məskən salqıdlarını bilməli, bir-birləri ilə savaşmağı dayandırmalıdırlar. Şaiq yazırdı:

*Hamımız bir günəşin zərrəsiyik!*
*Hamımız bir yuva pərvərdəsiyik!*
*Ayıramaz bizləri təğyiri-lisan,*
*Ayıramaz bizləri təbdili-məkan.*
*Ayıramaz bizləri İncil, Quran,*
*Ayıramaz bizləri sərhəddi-şəhan,*
*Ayıramaz bizləri ümmanü-mühit,*
*Ayıramaz bizləri səhratyi-bəsit,*
*Ayıramaz bizləri həşmətli-cibal,*
*Ayıramaz: şərq, cənub, qərb, şimal* [Şaiq, 2005:.29].

Bizcə, Şaiq "İdeal və insanlıq" pyesində də ali mədəniyyətə sahib insan, yəni insanlıq məsələsinin mahiyyətini açmağa çalışır. Burada "İnsanlıq" üçün problem oğlu "İdeal"ın "xəstə" və ümidsiz olmasıdır. Üstəlik, "İnsanlığ"ın davamçısı olan "İdeal"ın belə bir vəziyyətdə olması üçün ana rolundakı "İnsanlıq" günahkardır[7, s.305]. Şaiqə görə mübarizənin bir tərəfində Ədalət, Səadət, Mərhəmət, Vicdan, digər tərəfində isə Şeytan, Fəlakət və Zülm durmuşdur. Şeytan üzünü "İdeal"a tutaraq deyir ki, ona hər şey: mal-dövlət, məmləkətlər, şan-şöhrət vermişdi. Ancaq bütün bunların müqabilində "İdeal" könlünü başqasına vermişdir. Zülm və Fəlakət də Şeytanın sözlərini təsdiq edirlər [Şaiq, 2005: 308]. "Bu aləmdə insan insan gəmirir. Yer, göy bütün qandır, ana, qandır, qan!" deyən, İdeal İnsanlığa sarılaraq onlardan uzaqlaşmaq istəyir. İnsanlıqda Ədalət, Səadət, Mərhəmət və Vicdandan yardım istəyir. Vicdan İdeala diqqətlə baxaraq deyir:

*Dəhşətlidir bu xəstənin əhvalı,*
*İnsanlığın ölgün, solğun idealı!*
*Milyon illik tarix alnında zahir,*
*Gələcək də dumanlıdır kim bilir?!*
*Halın isə acınacaq bir haldır* [Şaiq, 2005: 311].

Ədalət, Səadət, Mərhəmət və Vicdan birləşərək Şeytan, Fəlakət və Zülm üzərində qalib gəlirlər. İnsanlıq bundan sevinib İdealı bunu görməyə səsləsə də, anca İdeal onu tələsməməyə

çağırır. İdeala görə, bütün zülmün kökündən həll etməyin yeganə yolu hər bir insanın özü özünü islah etməsi, yüksək mədəniyyətə sahib olmasıdır:

*Var, ana, bu dərdə yalqız dərman,*
*İslah etsin özünü hər bir insan.*
*Uymasın öz içindki iblisə,*
*Bir yamanlıq eyləməsin heç kəsə.*
*İnsanlığın mənasını öyrənsin,*
*Sağlam əqlə, təmiz qəlbə güvənsin.*
*Sarılsın bu sevimli qüvvətlərə,*
*Zülmətlərdən uzaqlaşsın bir kərə* [Şaiq, 2005: 314].

Şaiq başqa bir əsərində də artıq insanları real həyatda mübarizəyə səsləyirdi. Başqa sözlə, xəyallar aləmindəki "həqiqət aləm"ini obyektiv aləmdə əldə etmək üçün mübarizə aparmağı məsləhət görürdü. O, yazırdı: "Zalimləri yaşadan məzlumlardır, zülmə boyun əymək, insanlığı alçaltmaqdır, zülmə qarşı zülmə ədalətdir". Eyni zamanda, o, artıq bir məsələnin həllini sabaha ümid edərək saxlamağın deyil, həmin anda və zamanın şərtlərinə uyğun həll etməyin tərəfdarı idi. O, yazırdı: "Bugünkü məsələni bu gün həll etmək lazımdır. Zaman nə doğsa, ona görə iş görməlidir" [Şaiq, 2005: 347].

Artıq bu düşüncələr onu göstərir ki, Şaiqin insanlıq fəlsəfəsində bəşəriyyətin zalımla məzluma bölünmüş hissəsi arasında mübarizə gedir və bu mübarizədə həlledici rol məzlumların özü ilə bağlıdır. Başqa sözlə, xeyrin şərə qalib gəlməsi üçün, insan özündə güc tapmalı, daxili problemlərini – içgüdülərini həll edib, daha sonra da şərə qarşı mübarizəyə başlayıb onu məğlub etməlidir.

Bizcə, Azərbaycan Türk mütəfəkkiri Əhməd bəy Ağaoğlunun "Mən kiməm?" etik-fəlsəfi əsəri insan, dünya və təkamül mövzusuna aid ən dəyərli kitablardan biridir. Həmin əsərində Ağaoğlu yazırdı ki, insanın söz aləmi ilə iş aləmi, təsəvvürdəki fəaliyyətlə həqiqi fəaliyyət arasında çox dərin fərqlər olur, onlar nəinki bir-birinə bənzəyir, hətta bir-birini inkar edirlər. Kənardan baxanlar isə belə adamları "dəyişkən", "qeyri-sabit" adlandırırlar. Halbuki burada gunahkar insan deyil, bütün bunlar onun İçilə Çölü arasındakı təzaddan irəli gəlir. Ağaoğlunun fikrincə, əslində buruda problem insanın İçi ilə bağlı deyil, çünki insanın İçi xeyirə xidmət edir. O, yazırdı: "Doğrusunu söyləmək lazım gəlsə, mənim İçim çox yaxşı təbiətli, xoş niyyətli, yaxşılıq sevən, başqaları üçün xeyir istəyən, qəhrəmanlığa aşiq, sədaqətə, doğruluğa məftun bir varlıqdır; elə buna görədir ki, mən danışıq və təsəvvür aləmində qəhrəmanlıqdan, doğruluqdan, sədaqətdən, vətəndaşlara yaxşılıq eləməkdən hərarətlə, həyəcanla söz açır, yazıram və sizi inandırram ki, bunları edərkən çox səmimiyəm [Ağaoğlu, 2007:50].

Onun fikrincə, insanın İçilə Çölü arasındakı bütün təzadların bircə qaynağı var – Eqoizm! O yazır: "Çölümün ən canlı səciyyəsi özünü istəməkdir, öz nəfsini və faydasını hər şeydən üstün tutmaqdır. Əsas bəla budur, digər təzadlar bundan doğur" [Ağaoğlu, 2007:51]. Yoxsa, insanın İçi çox yüksək, nəcib, əsil insani duyğularla doludur; insaniyyət, haqq, Vətən və vətəndaş uğrunda mal və nəfs fədakarlığı onun ən çox sevdiyi şeylərdir. Bir sözlə, insan İçində qüvvətli bir altruizm, yəni başqalarının yaxşılığı uğrunda özünü qurbanvermə eşqi vardır. Ancaq insanın İçi nə qədər altruistdirsə, Çölü də bir o qədər eqoistdir.

İnsanın İçi ilə Çölü arasındakı bu təzadları araşdıran Ağaoğluya görə, eqoizm və altruizm insanda sonradan əmələgəlmə xüsusiyyətlər deyil, bunlar bioloji, yəni lap əzəldən varlıqla bərabər doğulan amillər imiş. Hətta bu xüsusiyyətlər heyvanlarda da var. O, yazırdı: "Xülasə, canlı kainat bu iki əsas üzərində bərqərar olmuşdur. Lakin varlıqlar təkamül etdikcə altruizm xüsusiyyəti eqoizm üzərində qələbə çalır. Hətta heyvan növləri yüksəldikcə, bunun müqabilində fədakarlıq və bərabərlik kimi altruizm əlamətləri də qüvvətlənmişdir. Əksinə, altruizm xüsusiyyəti az olan heyvan növləri isə dəyişilməkdədir" [Ağaoğlu, 2007: 54].

O qeyd edir ki, bu iki amillə bağlı instinkt hərəkət edən heyvanlardan fərqli olaraq, şüurlu insanlar təcrübələrindən, müşahidələrindən nəticə çıxarmaq etibarilə özlərində altruizmi inkişaf etdirməyə çalışırlar. Ancaq bəzi millətlər, xüsusilə Qərb cəmiyyətləri altruizm instinktini inkişaf etdirdikləri halda, Şərq xalqları eqoizmə yuvarlanmışdır. Belə ki, Şərqdə bir şəxs milyonların arasında yaşadığı halda heç kəs ona diqqət yetirmir, təkbaşına buraxılır: "Xəstələri, acları, evsizləri heç kəs düşünmür, vecinə almır. Hələ yoxsul və işsiz yaşlıların qayğısına qalmaq, əlillərin fikrini çəkmək kimsənin ağlına gəlmir. Qərbdə isə belə deyil. Hər kəsin haqqında düşünülür və nəticədə unudulan bir kimsə qalmır. Qərb cəmiyyəti bütün bunları vətəndaşlarının izzəti-nəfslərini incidən və təhqir edən mərhəmət şəklində deyil, onların qarşısında bir borc və vəzifə kimi yerinə yetirir" [Ağaoğlu, 2007: 54]. Ağaoğluna görə, eqoizmlə altruizm arasındakı müvazinətin Qərbdə altruizmin, Şərqdə isə eqoizmin xeyrinə bu qədər pozulmasının səbəbləri 1) Ailə və ailədə qadının vəziyyəti; 2) Məktəb və ədəbiyyatın təsiri; 3) Çox uzun sürən anarxist istibdadın təsiri və sairdir.

## NƏTİCƏ

Beləliklə, insan, dünya və təkamül məsələsində birmənalı nəticələrə gəlmək mümkün deyildir. Çünki sosial-tarixi proseslərdə bu məsələyə münasibət hər zaamn fərqli olmuşdur. Bizcə, insan və dünyanın təkamülündə harmoniyanəın gözlənilməsi mütləqdir. Yalnız bu harmoniya çərəçivəsində yüksək mədəniyyətə sahib olan insanlar və cəmiyyətlər formalaşdırmaq olar. Əgər dünya təkamül məsələsində irəli gedib sıçrayışlara üz tutursa o zaman insanlar v toplumlar təbii axarından çıxır. Eyni fikirləri insana da aid etmək olar ki, dünyanı təkamül məsələsində qabaqlamamalıdır. Ancaq son əsrlərdə biz insanın dünya ilə birlikdə təkamülünü müşhahidə etmirik. Artıq insan dünyanın təkamüllə inkişafını pozur və sıçrayışlar edir. Belə olduğu təqdirdə də, yüksək mədəniyyətə sahib insanlar və toplumlar formalaşa bilmir. Ona görə də yeganə çıxış yolu insanın dünya ilə təkamül içində olması vacibdir.

Eyni zamanda, bir çox hallarda "mədəniyyət" anlayışı altında əslində əxlaqi dəyərlərdən uzaqlaşmaq da çox təhlükəlidir. Xüsusilə də, mövcud olan milli və dini adət ənənələrin "müasir bəşəri mədəniyyət" adı altında dəyərsizləşdirilməsi doğru deyildir. Hər bir toplumun özünəməxsus dəyərləri qorunub saxlanmalı, sadəcə burada uzlaşdırma yolları tapılmalıdır.

## Ədəbiyyat:

*Səhhət, Abbas.* (2005). Seçilmiş əsərləri. Bakı, «Lider nəşriyyatı».
*Ağayev, M.* (2010). Abbas Səhhət (Fəlsəfi və sosial-siyasi görüşləri). Bakı, Elm və təhsil.
*Hadi, Məhəmməd.* (1957). Seçilmiş əsərləri. Bakı, ADU nəşr.
*Məmmədova, Afaq.* (2003). XX əsr Azərbaycan romantizminin fəlsəfəsi. Bakı, "İqtisad universiteti" nəşr.
*Cavid , H.* Əsərləri. (2005). Beş cilddə I cild. Bakı, «Lider nəşriyyat».
*Cavid, H.* Əsərləri. (2005). Beş cilddə III cild. Bakı, «Lider nəşriyyat».
*Şaiq, Abdulla.* (2005). Seçilmiş əsərləri. Üç cilddə. II cild. Bakı, AVRASİYA PRESS.
*Ağaoğlu, Əhməd.* (2007). Seçilmiş əsərləri. Bakı, «Şərq-Qərb».

# МНОГОКОНФЕССИОНАЛЬНЫЙ ХАРАКТЕР КУЛЬТУРЫ ТЮРКСКИХ НАРОДОВ

**Гезяль ГУСЕЙНОВА**
Бакинский Государственный Университет,
докторант кафедры Истории философии и культурологии,
*Азербайджан, БАКУ*
gozel.huseynova.1995@mail.ru

**Аннотация**

Тюркская культура отличается своим богатством и разнообразием, и ее изучение невозможно без учета религиозного фактора. Главной особенностью исторического развития тюркских народов является их исповедование различных религий: тенгрианства, ислама, христианства и др. Памятники материальной культуры свидетельствуют о широком распространении среди тюрков мировых религий.

**Ключевые слова:** религии, тюркские народы, тюркская культура.

# MULTI-CONFESSIONAL CHARACTER OF THE CULTURE OF TURKIC PEOPLES

**Gezal HUSEYNOVA**
Baku State University,
Doctoral student of the Department of History of Philosophy and Cultural Studies,
*Azerbaijan, BAKU*
gozel.huseynova.1995@mail.ru

**SUMMARY**

The Turkic culture is distinguished by its richness and diversity, and its study is not possible without taking into account the religious factor. The main feature of the historical development of the Turkic peoples is their practice of various religions: Tengrianism, Islam, Christianity, etc. The monuments of material culture testify to the wide spread of world religions among the Turks.

**Key words:** religions, Turkic peoples, Turkic culture.

## ВВЕДЕНИЕ

В статье рассматриваются исторические особенности процесса исповедания тюрками различных религий. До появления мировых религий древние тюрки верили в единого и вечного Бога – Тенгри. В VIII веке население Семиречья исповедовало различные религии: ислам, христианство, манихейство, буддизм. X век был важным в истории развития тюркских народов: создавались новые тюркские государства, правители которых реализовали политику исламизации тюркских племен. Большая роль в распространении ислама среди тюрков принадлежит также мусульманским проповедникам и ученым. О христианстве X-XIV веков в Центральной Азии можно получить ценные сведения из записок различных средневековых путешественников.

**Методы исследования.**

В статье применяются описательный, исторический методы исследования.

**Цель исследования** заключается в определении особенностей исторического развития тюркских народов, придерживающихся того или иного вероисповедования.

## ОСНОВНАЯ ЧАСТЬ

Тюркская цивилизация является одной из древних цивилизаций мира. В настоящее время понятие «цивилизация» используется во многих смыслах. Наряду со многими определениями термин характеризуется в качестве особого типа общества, возникающего на определенной ступени исторического развития. В философии принято рассматривать цивилизацию в качестве культурных достижений того или иного общества. При таком определении рассматривается взаимосвязь между цивилизацией и культурой, согласно чему под цивилизацией подразумевается социальный организм, предполагающий особый тип культуры. Тюрки внесли весомый вклад в мировую историю, сформировав неповторимый тип самобытной культуры. Характерными предметами их материальной культуры являются войлочные юрты, шерстяные ковры, каменные изваяния и т.д. Духовные же составляющие тюркской культуры отображены в памятниках древнетюркской письменности, традициях, ценностях, религиозно-мифологическом мировоззрении и т.д.

Ознакомление с религиозными обрядами и обычаями древних тюрков обеспечивает понимание их картины мира. Под религией принято подразумевать одну из форм общественного сознания – совокупность духовных представлений, основывающихся на вере в сверхъестественные силы и существа(богов и духов), являющихся предметом поклонения. [Ожегов и др., 2002: 675]. Главной особенностью исторического развития тюркских народов является исповедание ими различных религий: тенгрианство, ислам, христианство и т.д.

Первоначально древние тюрки исповедовали тенгрианство, в основу чего лег культ Неба-Тенгри. В связи с тенгрианством в тюркских языках используются два основных понятия «Тенгир дин» (в качестве религии) и «Тенгиршилик» (в качестве мировоззрения, мироотношения). Употребление термина несколько меняется в зависимости от народа: «Тенгир»(тувинцы), «Тенри» (алтайцы), «Тангри» (узбеки), «Тангара» (якуты), «Тәңір» (казахи) и т.д. [Аюпов, 2012: 18-19]. В древнетюркском словаре слово «Taŋrı» переводится как «небо», «бог», «божество», «божественный», «повелитель», «господин» [Наделяев, 1969: 544]. В научный же оборот термин «тенгрианство», автором которого был Ч.Валиханов, был введен французским историком Жан-Полем Ру. Представления о Тенгри зародились еще в V—IV тысячелетиях до н. э. Тенгрианство связывает человека с окружающим его миром и природой, требующее проявления уважения и благодарности к ней. Его характерными особенностями считаются обожествление природы, почитание духов предков, вера в кут(жизненную силу), отсутствие наличия определенных религиозных доктрин. В нем наряду с верой в Единого Бога Тенгри, сохранялась вера в силу природы и других Богов. Все божества в мире были распределены в небесной и земной зонах, а также зоне подземного мира. Все на земле подвластно богу неба Тенгри – распорядителю судьбой всех людей, обладающему свободой и справедливостью. В тюркском тенгрианстве наряду с культом высшего божества Неба-Тенгри, имелся культ Земли-Йер. Тюрки признавали их власть над собой: если Земля наделяла человека материальным обличием, то Тенгри наделяла его кутом [Безертинов, 2006: 2-27].

Для тенгрианства как мировоззрения древних тюрок характерно особое представление о душе человека, согласно чему душа человека не умирает, а продолжает свое существование в мире умерших. Тенгри, по воле которого человек появлялся на свет и умирал, посылал людям с момента рождения тын (дыхание), кут (жизненную силу) и сюр (облик), которые покидали человека во время его смерти. Смерть рассматривалась как возможность перехода в иной мир. Обряд захоронения сопровождался жертвоприношениями, сожжением умершего(в дальнейшем захоронением без сожжения) на костре и погребением пепла, строительством надмогильных сооружений и т.д. Наказание за совершение грехов наступало при жизни или в течении шестидесяти лет. Со смертью дух человека

наделялся свободой и превращался в свободное божество (унган). Умершего человека хоронили вместе с его убитой лошадью, а также с принадлежавшими ему вещами. Животные приносились в жертву не только божествам, тем самым, восстановив спокойствие, нарушенное злыми духами, но и духу умершего, придавая жертву огню и обращаясь к умершему таким образом: «Ты умер, не плачь, не ты первый: ешь мясо, пей араки, пей чай» [Безертинов, 2006: 82-97].

Для древних тюрок-тенгрианцев было характерно почитание культа предков – героев, прославившихся за подвиги во имя народа, а также создание в их честь каменных стел. На месте нахождения памятников проводились памятные жертвоприношения. Древние тюрки также почитали священных животных. Тенгри использовался тюрками в значении духа и для придачи чему-либо божественного происхождения ими употреблялось название «кок»: конь (кок ат), олень (кок болан), волк (кок бору) и т.д. Главным тотемным животным, занимающим особое место в тюркской мифологии, и предком для всех тюрков был «небесный волк», отличающийся смелостью и преданностью. Волк считался для них духом-покровителем, ниспосланным Тенгри [Безертинов, 2006: 89-92].

Тюрки обладали определенными мифологическими представлениями о сотворении мира, происхождении рода: миф о создании утками (первая утка – Тенгри, вторая утка - Эрлик хан) Неба, Земли, людей и т.д.; миф о продолжении рода мальчика из тюркского племени Ашина, которого вырастила волчица и т.д. Они считали себя сынами неба и верили в наделение Тенгри каганов (ханов) властью и мудростью, а воинов силой и бесстрашием, о чем свидетельствуют древнетюркские рунические памятники. В надписи в честь Кюльтегина, выступающей в качестве главного источника о тюркском тенгрианстве, записано следующее: «Когда было сотворено (или возникло) вверху голубое небо (и) внизу темная (или:бурая) земля, между (ними) обоими были сотворены (или: возникли) сыны человеческие (т.е. люди). Над сынами человеческими воссели мои предки Бумын-каган и Истемикаган. Сев (на царство), они поддерживали и устраивали племенной союз и установление тюркского народа»; «Небо-подобный, неборожденный («на небе» или «на небе возникший») тюркский каган, я нынче сел (на царство)»; «Небо, дарующее (ханам) государства, посадило меня самого, надо думать, каганом, чтобы не пропало имя и слава тюркского народа»; «Так как Небо даровало (им) силу, то войско моего отца-кагана было подобно волку, а враги его были подобны овцам». Иными божествами, также дарующими тюркам успех и победу в ходе сражения были женское божество Умай и божество Йер-су. В орхоно-енисейской надписи в честь Тоньюкука было обнаружено следующее: «Тенгри, (богиня) Умай, священная Йер-Су (земля-вода) – вот они, надо думать, даровали (нам) победу» [Малов, 1951: 33-68]. Божество Умай поддерживало жизненную энергию и физическую силу, олицетворяло женское начало, несущее ответственность за жизнь детей до шести лет. [Безертинов, 2006: 47-50].

Исследования многих ученых, занимающихся изучением истории тюркских народов, сводятся к тому, что представления древних тюрок о мире разделяют макрокосм на несколько миров: верхний, средний, нижний. Божеством верхнего мира является Тенгри – Небо, которое почитали еще племена хунну. Средний мир является местом нахождения божества Йер-Су, почитание которого нашло проявление в поклонении священным горам. Данный ритуал занимал особое место в религиозной жизни тюркоязычных народов Южной Сибири [Потапов, 1972: 265-266]. Хозяином нижнего – подземного мира является Эрклиг. Его имя упоминается в енисейской рунической надписи, обнаруженной вблизи Алтын-Келя и датируемой первой половиной VIII века: «Нас было четверо высокородных, Эрклиг нас разлучил, увы!» Из текста становится очевидным, что Эрклиг определял срок жизни и судьбу каждого человека. [Кляшторный, 1976: 261]. И.В.Стеблева представила древнетюрк-

скую мифологию в виде системы и разделила ее на несколько уровней, где каждое божество занимает определенное место. В этой религиозно-мифологической системе высшим божеством является Тенгри,затем следуют Умай и Йер-су,а четвертый уровень занимает культ предков [Стеблева,1972: 213-217].

О сохранении культа неба, соблюдении обряда жертвоприношения, характерных для религиозно-мифологических представлений древних тюрков, свидетельствуют китайские источники. В Вэйшу даются ценные сведения об их верованиях в период образования Первого Тюркского каганата: «Хан всегда живет у гор Дугинь. Вход в его ставку с востока, из благоговения к стране солнечного восхождения. Ежегодно он со своими вельможами приносит жертву в пещере предков; а в средней декаде пятой луны собирает прочих, и при реке приносит жертву духу неба». Согласно этой китайской летописи древние тюрки поклонялись духам, верили в волхвов [Бичурин, 1950: 230-231].

На протяжении исторического развития религиозные представления тюрков подвергались изменениям, кроме веры в Тенгри, некоторые тюркские народы и племена со временем становились приверженцами и других религий(ислам, христианство, буддизм и т.д.).

В идейных основах тенгрианства и ислама наблюдались как схожие (вера в Единого Бога), так и отличительные моменты(расхождения в ритуалах жертвоприношения животных), что оказывало особое влияние на процесс исповедания тюрками новой религии.

Решающим событием в истории исламизации тюркских народов Центральной Азии была Таласская битва, произошедшая в 751 году между китайцами(династия Тан) с одной стороны и арабами (династия Аббасидов) и тюрками-карлуками с другой, завершенная победой последних. Победа Аббасидов с карлуками заложило основу распространению мусульманской культуры в Центральной Азии и Мавераннахре [Рахманалиев, 2013:157-158].

Среди тюркских племен Семиречья, Восточного Туркестана ислам начал распространяться начиная с 900 года, в чем значительную роль сыграли мусульманские ученые. Одним из таких ученых был Абунаср Самани, которому было назначено распространить ислам среди карлуков в Кашгаре, что в свою очередь подчеркивает роль Саманидов в исламизации тюркских племен. В 942 году создается первое тюрко-мусульманское государство Караханидов, правитель которого Абд ал-Карим Сатук Бугра Хан исповедует ислам и объявляет его в качестве официальной религии,что приводит к его широкому распространению среди местного населения: в 960 году численность тюрок, принявших ислам составляла «200 тысяч шатров» [Джамоли, 2018: 95-96]. Деятельность Сатук Бугра Хана унаследовал и вставший на трон его сын - Муса Арслан-хан, награжденный в дальнейшем титулом «Шихаб ад-дауля ва захир ад-да’ва» («Свет державы и опора призыва к вере»).В годы его правления произошла массовая исламизация населения Семиречья. При Караханидах оказывалась поддержка строительству мечетей, обращение в ислам происходило за счет многих проповедников из Средней Азии и Ирана (Сайд ал-Усбаникати, Келимати) [Дашковский, 2012:42-44].

В 962 году на территории нынешнего Афганистана тюрками были заложены основы нового мусульманского государства Газневидов, правители которого способствовали исламизации населения.Султан Махмуд Газневи, в годы правления которого территория государства сильно расширилась, вел борьбу с неверующими, служил распространению ислама на завоеванных территориях и не раз был награжден за победу над еретиками Ирана священными титулами (Низам аддин-«Порядок веры», Насир ал-хакк - «Защитник истины»). [Рахманалиев, 2013: 181-188].

Начиная с X века в числе тюрок, принявших ислам, были и племена огузской ветви. Интересные сведения об отношении огузов к исламу как к новой для них религии можно получить из записок арабского путешественника X века Ибн Фадлана, посетившего по пути в Волжскую Булгарию племена тюрок и заставшего их заинтересованными в исламе и в

какой-то мере ознакомившимися с ним. Ибн Фадлану удалось близко ознакомиться с образом жизни огузов, стать свидетелем их отношения к исламу: «Один из них сказал: «Дай мне услышать чтение». Итак, ему понравился Коран, и он начал говорить переводчику: «Скажи ему: не умолкай». Однажды этот человек сказал мне языком переводчика: «Скажи этому арабу: разве господь наш могучий и великий женщина?» Я же ужаснулся этому, произнес прославление аллаху и прошение о помиловании. И вот он также произнес прославление и прошение о помиловании так же, как это сделал я» [Материалы по истории туркмен и Туркмении, 1939, 1: 159].

В 1038 году огузами-выходцами из Средней Азии, принявшими ислам, создается новое тюркское государство Сельджуков. В период их правления наряду с мечетями появляются новые исламские учебные заведения – «религиозные колледжи». Под их руководством широко функционировали медресе, а также учебные заведения «Низамийа», название которых связано с именем инициатора их строительства - сельджукского визиря Низам ульмулька [Кныш, 2015: 59]. В XI-XII веках тюрки-мусульмане будучи газиями (защитниками веры) вели борьбу против византийцев в Малой Азии. Их традицию продолжили и Османы, во время правления которых население принимало ислам [Кныш, 2015: 78-79].

В XIII веке значительной частью Евразии овладевает новое государство – Золотая Орда. Золотоордынский хан Берке-хан воспитывался в духе ислама, встречался с мусульманскими учеными, строго соблюдал предписания шариата и требовал соблюдения их остальными. Под его руководством строились мечети, проводились дискуссии по поводу вопросов шариата, велись переговоры с мусульманскими странами [Салмин, 2017: 63-64]. Успеху в массовой исламизации удалось достичь также видному золотоордынскому правителю Узбек хану, во время правления которого эта религия была признана государственной религией. Узбек хан вступив на трон начал проводить строгую политику исламизации, предпринимая соответствующие меры по уменьшению количества неверующих, вытеснению из общественной жизни тюрков-монголов буддизма, шаманизма. Четкая позиция правителя находила проявление как во внутренней, так и во внешней политике. В годы правления Узбек-хана строились мечети, медресе, мавзолеи и т.д, налаживались тесные отношения с Мамлюкским султанатом, правившим Египтом [Рахманалиев, 2013: 354-358]. Он прилагал особые усилия по массовому переходу населения в ислам. В одном из сообщений к султанату говорилось, что в государстве его (Узбека) оставалась еще шайка людей, не исповедовавших ислама, но он, воцарившись, предоставил им выбрать или вступление в мусульманскую религию, или войну. Они отказались (от принятия ислама) и вступили в бой. Он напал на них, обратил их в бегство и уничтожил их посредством избиения и пленения” [Тизенгаузен, 1884: 163].

В доисламскую эпоху на территории Центральной Азии наряду с тенгрианством, население исповедовало множество религий (христианство, манихейство, буддизм и т.д.). Согласно Аль-Бируни христиане появляются в Мерве спустя 200 лет после смерти Христа. На территории этого города функционировал христианский некрополь (III-VI века), было создано епископство, переименованное в дальнейшем в митрополию, были построены христианские сооружения(церковь Хароба Кошук, «Овальный дом»в Гяур-кале и т.д.). В городах Семиречья и Южного Казахстана христианство распространяется в VII-VIII веках. Патриарх Тимофей I, в годы правления которого усиливалась миссионерская деятельность в Средней Азии, обратил в христианство тюркского, видимо, карлукского кагана [Жукова, 1994: 10-31].

После распада Восточно-тюркского каганата на его территории уйгурами создается сильная кочевая держава. Проникновение манихейства в Уйгурский каганат произошло благодаря войне с мятежниками, с которыми вместе с уйгурами вела борьбу Китайская

династия Тан. После встречи с миссионерами-манихеями в китайском городе Лояне правитель каганата Бегю-каган (759-779) принял религию и возвысил ее до ранга государственной религии. Доминирующее положение в обществе манихейству удалось сохранить до распада каганата, после чего в Центральной Азии широкое распространение приобретает христианство и буддизм [Дашковский, 2012: 16-19]. Подтверждением этого являются записки итальянского путешественника Плано Карпини (1182-1252), согласно которому уйгуры считались христианами несторианского толка [Шастина, 1957: 39].

О пребывании христианской культуры в период средневековья на территории Казахстана, Кыргызстана свидетельствуют памятники христианства, в числе которых можно выделить как религиозные сооружения: церковь на городище Ак-бешим (VII-VIII века), церкви в Таразе и Мирке (VIII-IX века), так и христианские каменные надмогильники – кайраки с выбитами на них крестами и надписями, относящиеся к XIII-XIV векам: кладбища в районах Пишпека и Токмака, кайрак в Алмалыке и т.д. [Жукова, 1994: 84-95]. О христианах, проживающих на территории Аксу и Кочо, писал арабский путешественник X века Абу Дулаф. В XI-XII веках христианство принимают такие тюрко-монгольские племена как кераиты, найманы, онгуты, гузы и чигили [Дашковский, 2012: 34-41].

Широкое распространение буддизма среди тюрков связано с деятельностью правителей Первого Тюркского каганата: Мухан-кагана (553–572), Таспар-кагана (572–581), подтверждением чего служит Бугутская надпись,где дается информация об учреждении в каганате буддийской сангхи («учреди великую новую сангху») [Кляшторный, 1971: 131-132]. На территории Центральной Азии вследствие археологических экспедиций было обнаружено множество памятников материальной культуры, относящихся к буддизму: храм в Куве(Ферганская долина), храм в Ак-бешиме (Чуйская долина), храм городища Красная Речка, монастырь Аджинатепе в Тохаристане, рукопись в Зангтепе, датируемые VII-VIII веками и т.д. [Дашковский,2012: 9].

Среди тюрков, принявших иудаизм, были хазары, потомками которых являются караимы. Им удалось отделиться от Западного Тюркского каганата и в 650 году создать собственное государство. Первоначально хазары исповедовали язычество. На территории Хазарского каганата проживали еврейские общины, что создало условия для широкого распространения здесь иудаизма в VIII веке [Дашковский, 2012: 150].

Тюркские народы сохраняют приверженность традиционным верованиям и в настоящее время. В то время как большинство тюркских народов исповедуют ислам (турки, азербайджанцы, киргизы, казахи, узбеки), остальные являются сторонниками христианства (гагаузы, чуваши), буддизма (тувинцы), иудаизма (караимы) и т.д.

## ЗАКЛЮЧЕНИЕ

Тюркская культура отличается богатством, многообразием и ее изучение не возможно без учета религиозного фактора. Хотя традиционной религией всех тюрков было тенгрианство, в дальнейшем существенные отличия в сфере вероисповедания у них все же имеются. Многообразие в силу наличия различий в области формирования религиозных представлений не исключает факт принадлежности тюркских народов к единой этноязыковой общности. Факторы единой языковой основы, схожести традиций, обычаев, ценностей являются связывающим звеном многовекового тюркского этноса, обеспечивающего ему единство и целостность.

## Литература:

*Аюпов, Н. Г.* (2012). (Казах.)рус.. Тенгрианство как открытое мировоззрение: Монография. — Алматы: КазНПУ имени Абая; Изд-во «КИЕ», 256 с.

*Безертинов, Р.Н.* (2006). Древнетюркское мировоззрение “ Тэнгрианство” Учебное пособие.- Казань: РИЦ “Школа”, 164с.

*Бичурин, Н.Я.* (1950). Собрание сведений о народах, обитавших в Средней Азии в древние времена / Н.Я. Бичурин. - М.; Л.: Изд-во АН СССР, Ч. 1. 381 с.

*Джамоли, С.К.* (2018). Особенности исламизации караханидов (IX - XI века) [Текст] / С. К. Джамоли // Известия высших учебных заведений. Северо-Кавказский регион. Общественные науки. № 1. С. 94-98.

*Жукова, Л.И.* (1994). Из истории древних культов Средней Азии. Христианство. Ташкент: Малое предприятие "Комрон". 120 с.

*Рахманалиев, Рустам.* (2013). Империя тюрков. История великой цивилизации. /Науч. ред. Н.Н. Цовма. – М.: РИПОЛ классик, 704 с.

*Кляшторный С.Г. и Лившиц В.А.* (1971). Согдийская надпись из Бугута. — В сб.: «Страны и народы Востока», т. X. М., стр. 121-146; с.131-132.

*Кляшторный, С.Г.* (1976). Стелы Золотого озера (к датировке енисейских рунических памятников) / С.Г. Кляшторный // Turcologica. К семидесятилетию академика А.Н. Кононова. - Л.: Наука, С. 258-267.

*Кныш А. Д. и Маточкина А. И.* (2015). Ислам: история, культура и практика. Вводный курс : учебное пособие / А. Д. Кныш, А. И. Маточкина ; С.-Петерб. гос. ун-т. – Санкт-Петербург : Президентская библиотека. 159 с.

*Малов С.Е.* (1951). Памятники древнетюркской письменности. Тексты и исследования. // М.-Л.: 451 с. Материалы по истории туркмен и Туркмении. Том I. VII—XV вв. Арабские и персидские источники / Под редакцией С. Л. Волина, А. А. Ромаскевича, А. Ю. Якубовского.М.; Л.,1939, Т.1, 613с.

*Наделяев В.М., Насилов Д. М., Тенишев Э. Р и Щербак А. М.* (1969). Древнетюркский словарь. — Ленинград: Наука, 677с.

*Потапов, Л.П.* (1973). Умай – божество древних тюрков в свете этнографических данных / Л.П. Потапов // Тюркологический сборник 1972. М.: Наука, 1973. - С. 265-286.

Путешествия в восточные страны Плано Карпини и Рубрука. Редакция, вступительная статья и примечания *Н.П. Шастиной*. (1957). // М.: Гос. изд-во геогр. лит-ры. 270с.

Религия в истории народов Южной Сибири и Центральной Азии: Хрестоматия. Часть II. Эпоха Средневековья. (2012). / сост. *П.К. Дашковский*. – Барнаул : Изд-во Алт. ун-та, 2012. – 307 с.с.42-44

*Салмин А.К.* (2017). Исламизация тюрков Поволжья // Исламоведение. Т. 8. № 4. С. 61–71, с.63-64

*Стеблева, И.В.* (1972). К реконструкции древнетюркской религиозно-мифологической системы / И.В. Стеблева // Тюркологический сборник - 1971. М.: Наука. С. 213- 226.

*Тизенгаузен В.Г.* (1884). Сборник материалов, относящихся к истории Золотой Орды. Извлечения из сочинений арабских. Т.I. СПб. — 564 с.

*Ожегов, С.И. и Шведова Н.Ю.* (2002). Толковый словарь русского языка. Около 80 000 слов и фразеологических выражений, 4-е издание-дополненное; Издательство: Азбуковник, Москва. 939 с.

# MULTİKULTURALİZM VƏ MƏDƏNİYYƏTLƏRARASI DİALOQ

**Lalə RƏHİMLİ**
Azərbaycan İlahiyyat İnstitutu,
Dinin tarixi və fəlsəfəsi ixtisasının doktorantı,
*Azərbaycan, BAKI*
lala.rahimli@inbox.ru

## XÜLASƏ

Bilindiyi kimi dinin birliyi prinsipi dialoq mədəniyyətini zəruri etmişdir.Dialoq müəyyən həqiqətə çatmaq üçün elm və bilik sahələrindən birinə aid hər hansı bir mövzunun işlənməsinin üslubi vasitəsidir. O tərəflərdən birinin sual verməsi, digərinin isə onun cavablandırması əməliyyatıdır. Bununla da qarşı tərəfin iddialarına münasibət bildirməyi zəruri edən qarşılıqlı cavab axtarışının baş verməsidir.

Müsəlmanlar dialoqdan bir neçə mühüm müstəvidə yararlanmışlar.Bu müstəvilərdən ən əhəmiyyətlisi islam maarifləndirilməsi - dəvət müstəvisidir. Dialoq islama dəvət işində rasional vasitədir. Qeyri-müsəlmanlara islam və onun etiqad prinsipləri haqqında qənaətbəxş məlumat vermək və "Dində heç bir məcburiyyət yoxdur" düsturunu tətbiq etmək baxımından dialoq zərurəti ortaya çıxmışdır.

Müasir dövrümüzdə bir çox dövlətlərin din siyasətinin prioritet istiqamətlərindən biri məhz tolerantlıq və multikulturalizmlə bağlıdır. Hər bir dövlətin əsas hədəflərindən biri odur ki, məxsus olduqları dinləri yerli və beynəlxalq səviyyədə təşviq və təbliğ edə bilsinlər. Dövlətlərin tolerantlıq və multikulturalizm prinsiplərinə yanaşmasını həm dini konfessiyalara, müxtəlif dinlərin nümayəndələrinə, tarixi-dini abidələrin bərpasına, həm bu istiqamətdə təşkil etdiyi beynəlxalq konfranslara münasibətdə, həm də milli qanunvericiliyin mahiyyətində açıq-aydın görmək mümkündür.

İslamın dialoqa münasibəti digər dinlərlə müqayisədə daha müsbətdir.Bu münasibət dərhal qəbuletmə, avtomatiklik və qəlizləşdirməmə kimi keyfiyyətlərdə öz əksini tapıb.Bəşəriyyətə sevgi bəsləmək, ədalət, sevgi və xeyirxahlıq əsasında insanların qarşılıqlı təmasına çalışmaq sözügedən münasibətin başlıca prinsipidir.

**Açar sözlər:** dinlərarası dialoq, multikulturalizm, dialoq mədəniyyəti, xarici dialoq, Vatikan bəyannaməsi.

# MULTICULTURALISM AND INTERCULTURAL DIALOGUE

**Lala RAHIMLI**
Azerbaijan Institute of Theology,
Doctoral student of History and Philosophy of Religion,
*Azərbaijan, BAKU*
lala.rahimli@inbox.ru

## SUMMARY

As is known, the principle of unity of religion has necessitated a culture of dialogue.Dialogue is a stylistic means of processing any topic belonging to one of the branches of Science and knowledge in order to achieve a certain truth.

Muslims have benefited from the dialogue in several important areas.The most important of these spheres is Islamic Enlightenment-the plane of invitation. One of the main goals of each state is that they can promote and promote the religions they belong to locally and internationally. Islam's attitude to dialogue is more positive compared to other religions.This attitude is reflected in such

qualities as immediate acceptance, automaticity and non-complicity. Nurturing love for humanity, striving for human interaction on the basis of justice, love and kindness is the main principle of this relationship.

**Key words:** interreligious dialogue, multiculturalism, culture of dialogue, foreign dialogue, Vatican declaration.

## GİRİŞ

Təqdim edilmiş məqalənin əsas məqsədi Qərbin əsas mövzusuna çevrilən dini ekstremizm, islam və terror, islam və demokratiyanı araşdırıb təhlil etmək, digər tərəfdən Avropa ölkələrində müsəlman miqrantlara qarşı artan aqresiya və dünya üçün "təhlükə mənbəyi" kimi təqdim olunan müsəlman ölkələrinə yanlış münasibəti ön plana çəkmək, tolerantlıq, multukulturalizm, dinlərarası, mədəniyyətlərarası münasibəti dəyərləndirməkdir.

Bugün qlobal miqyasda islami həyat tərzi təhlükə kimi göstərilməyə çalışılır. Qərbin daxilində mühüm faktora çevrilən islamafobiya meylləri müsəlman ölkələrinə qarşı yönəlmiş bir alət rolunu oynayır. Lakin araşdırmada bu münasibətin, islamafobiya meyllərinin arxasında dini düşmənçilikdən çox siyasi səbəblər vardır.

Məqalədə dinlərarası dialoqun həm Şərq, həm də Qərb prizmasından baxılaraq nə dərəcədə önəmli faktor olduğu ortaya qoyulmuşdur.

Məqalədə dialoq mədəniyyətinin qurulması üçün təlim-tədris və tərbiyə proqramlarında zəruri dəyişikliklərin aparılmasının vacibliyindən, belə olacağı təqdirdə dialoqa, tolerantlığa, birgə-yaşayışa imkan yaranmasından, başqa din və mədəniyyətlərə hörmət bəslənilməsindən, müsəlman dünyası barədə sağlam maarifləndirmə işi aparılmasından bəhs olunub. Mədəni sahədəə dialoq mədəniyyəti və ümumiyyətlə, mədəniyyətlər haqda maarifləndirmə işinin aparılması, mədəni mübadilənin genişləndirilməsi, sivil xitab tərzinin təkmilləşdirilməsi olduqca zəruridir. Sivil xitab tərzinin təkmilləşdirilməsi mədəni plüralizmə xidmət edir, hüquq və vəzifələrini hər bir fərdə başa salır, qeyri-müsəlmanların hüquqları haqda maarifləndirmə işinin aparılmasına rəvac verir. Bu səbəbdən sivil xitabın da əhəmiyyəti xüsusilə qeyd olunmuşdur.

Sosial müstəvidə sosial münasibətlərin yaradılmasının həm müsəlmanların, həm də qeyri-müsəlmanların hüquqlarına hörmət edilməsinə gətirib çıxarmasından bəhs edilmişdir. Xüsusi məziyyətləri, identikliyi qoruyub saxlayaraq, hamının hüquqlarını nəzərə alaraq müsbət sosial açılmanın təmin edilməsinin vacibliyi vurğulanmışdır.

Dünyamızda baş verən uşaq cinayətlərindən, qadın azadlığının tanınmasından, sosial-siyasi gerilik, yersiz mübahisələr, dini ayrıseçkilik, çoxmillətlilik, tarixi təzyiqlər və istismarlardan qorunmaq üçün bir sıra dövlətlərin təşəbbüsü ilə həyata keçirilən tədbirlərdən də bəhs edilmişdir. Eyni zamanda qeyd edilməlidir ki, bu tədbirlərdə sivilizasiyalı münaqişələrin, qarşıdurmaların neqativ nəticələrinin necə aradan qaldırılması məsələsinə də toxunulmuşdur.

## Metodlar

Dialoq mədəniyyətinin qurulması üçün təlim-tədris və tərbiyə proqramlarında zəruri dəyişikliklərin aparılması dialoqa, tolerantlığa, birgəyaşayışa imkan yaradacaq, başqa din və mədəniyyətlərə hörmət bəslənilməsini öyrədəcək, müsəlman dünyası barədə sağlam maarifləndirmə işi aparacaq. Mədəni sahədə dialoq mədəniyyəti və ümumiyyətlə, mədəniyyətlər haqqında maarifləndirmə işinin aparılması, mədəni mübadilənin genişləndirilməsi, sivil xitab tərzinin təkmilləşdirilməsi olduqca zəruridir.

### *I. Qərb-İslam dünyası münasibətlərinə tarixi baxış*

Qərb ilə müsəlman Şərqi arasında münasibətlər tarixən öz ziddiyəti ilə seçilmişdir. İslam dinin yaranandan bəri onun davamçıları Qərbdə kafir olaraq qəbul edilirdi. Uzun əsrlər boyu avropalı xristianlar da müsəlman ölkələrində eyni cür qarşılanmışdır. Həm islam dünyasının intibah

dövründə, həm də Qərbin inkişafının yüksək mərhələsində işğal, zorla dini qəbul etdirmə, müstəmləkə siyasəti Qərblə müsəlman Şərqi arasında münasibətlər üçün xarakterik olmuşdur. Hər iki halda fərqli dinlərin daşıyıcıları br-biriləri üçün yad, bəzən də düşmən kimi qəbul edilmişdir.

Bununla belə, Qərblə islam dünyası münasibətlərində fərqli yanaşmaya da diqqət çəkmək istərdik. Birincisi, islam ölkələri coğrafiyasında tarixən mövcud olan xristian icmalarına tolerant münasibət olmuşdur. Bunun nəticəsidir ki, xristianlığın beşiyi olan Yaxın Şərqdə xristian icmaları indi də öz mövcudiyyətlərini saxlayırlar. Azərbaycan da daxil olmaqla digər müsəlman ölkələrində də min illərdir xristian dini daşıyıcıları yaşamaqdadırlar.

Eyni tolerant yanaşmaya Qərbdə rast gəlmirik. Məlum olduğu kimi, ərəb və türk passionarlığı dövründə Kordova Xilafəti və Osmanlı imperiyası zamanında Avropanın müəyyən hissəsi islam mədəniyyətinin əhatə dairəsinə daxil olmuşdur. VIII əsrdə Priney yarımadasına ərəblərin daxil olması ilə XV əsrədək burda islam dini hakim olmşdur.Əndəlüs torpaqlarında bra gələn müsəlmanlar, islamı sonradan qəbul edən yerli əhali və xristianlar yanaşı yaşamışdır. Lakin 1492-ci ildə sonuncu müsəlman əyaləti olan Qrenadanın süqutu ilə İspaniyada qeyri-xristianların məhvinə yönəlmiş rekonkista siyasəti Qərb sivilizasiyasının tolerant olmadığını bir daha göstərdi. 1610-cu ilədək İspaniyada müsəlmanların yaşayışına son qoyuldu. 1492-1610-cu illər arasında müsəlmanların kütləvi qırğını və mühacirəti nəticəsində İspaniyanın əhalisi üç milyon nəfərə qədər azaldı. Müsəlmanlarla bərabər yəhudilərin də İspaniyadan qovulması Qərbin tarixən digər dinlərə qarşı dözümsüzlüyünü bir daha təsdiq etdi.

İspaniyadan başqa Portuqaliya, Cənubi İtaliya,Malta da ərəb işğalı dövründə islamlaşmaya məruz qalmışdır.Müsəlmanlar bütün bu coğrafiyadan tam sıxışdırıldılar.İslamı sonradan qəbul edən əhalini inkvizisiya tonqalı aqibəti gözləyirdi, ərəblər isə ümumiyyətlə bu coğrafiyadan silindilər. Hazırda yalnız Maltada bir neçə minlik müsəlman icması qalmaqdadır. Baxmayaraq ki, XIII əsrdən islam bir din olaraq burda qadağan edilmişdir.

İndi isə müqayisə üçün Qərbin müsəlman Şərqinə doğru müdaxiləsinin pik dövrlərindən biri olan səlib yürüşləri zamanı olan münasibətlərə baxaq. Səlibçilər üçün müsəlmanlar din düşmənləri idi və müsəlmanların öldürülməsi şərəfli iş sayılırdı. Doğrudur, həmin dövrün əsas oyunçularından olan xristian tampliyerlərlə müsəlman assasinlər arasında iş birlikləri də tarixə məlumdur. Lakin bu artıq müharibə qanunları idi. Ümumilikdə isə səlib yürüşünün istirakçıları, Vatikan kilsəsi başda olmaqla onların avropadakı havadarları müsəlmanlara qarşı tam dözümsüklük nümayiş etdirirdilər.

Beləliklə, tarixi rakursdan qiymətləndirdikdə Qərbdə islam dini daşıyıcılarına qarşı tolerantlıq heç vaxt müşahidə olunmamışdır. Bu mənada indiki anlamla islamafobiya yeni bir hadisə deyil. Tarixin müxtəlif vaxtlarında Qərbin müsəlman Şərqə münasibətində özünü göstərmşdir. Lakin müasir dövrümüzdə şərait olduqca fərqlənir. Keçən əsrdə Qərb ölkələrinin ucuz işçi qüvvəsi kimi gətirdiyi müsəlman miqrantlar indi əksər ölkələrdə hadisələrə təsir göstərə biləcək qüvvəyə malikdirlər. Artıq kimlərinsə bunu istəyib-istəməməyindən asılı olmayaraq islam Qərbin daxili faktoruna çevrilib və günü-gündən də güclənməkdədir.

Demokratiya, insan haqları və azadlıqları kimi günümüzün aktual çağırışları isə Qərbin artıq bir dəfə təcrübədən çıxardığı rekonkista siyasətinə yenidən imkan vermir.Görünən odur ki, indi rekonkistanı islamafobiya əvəz edib. Avropanın bir sıra islam memarlığına qarşı qadağa, islami həyat tərzinə ikrah dolu münasibət, xüsusilə də təhqirlərlə dolu karikatura qalmaqalı, Qərb cəmiyyətində islama qarşı digər mənfi münasibət əks olunan hadisələr islamafobiya elementləridir. Lakin islam dəyərinə qarşı bu cür münasibət qlobal və universal dəyərlərin müdafiəçisi kimi çıxış etməyə iddia edən Qərb üçün heç nə yaxşı vəd etmir.

## II. *Qərblə dialoqdakı axsamaların ləğvi yolları.*

### Problemin mahiyyəti

Şübhə yoxdur ki, islamafobiya islamdan və müsəlmanlardan qorxma şüurunu aşılayan Qərbin siyasi oyunudur. Qərblə dialoqdakı axsamaların bir çox digər səbəbi olsa da, dialoqun

yenidən baş tutması müsəlmanlarla əlaqələri t\nzimləmək məqsədilə Qərbin təsis etdiyi nəzəriyyələrə münasibətin necəliyindən asılıdır. Qərb bu nəzəriyyələri yaradıb ki, islamdan qorxma ideyası vüsət kəsb etsin. Bunnlar – sivilizasiyaların toqquşması, islamın qərb mədəniyyəti üçün təhlükəsi və düçmən islam nəzəriyyələridir.Nəzəri müstəvidə bu üç nəzəriyyə həm bir çox müsəlman, həm də qərbli tərəfindən müzakirə edilib, tənqid atəşinə tutulub. Çünki bunlar səhv nəzəriyyələr olub mıntiqə uymur, islamın və mədəniyyətinin mahiyyəti də onlarla səsləşmir.

Bu nəzəriyyələri kağız üzərində tənqid etmək çox asandır.Ancaq onların müsəlmanlara psixoloji təsirindən, mənəvi zərərindən xilas olmaq çox çətin məsələdir. Çünki bu nəzriyyələr, ələlxüsus 11 sentyabr hadisəsindən sonra Qərbin müsəlmanlara qarşı yürütdüyü siyasi kursa çevrilib. Məqsəd aydındır; insanlarda islamdan və müsəlmanlardan qorxu hissi yaratmaq!

Gözlənilir ki, 11 sentyabr hadisələrinin nəticəsi olaraq dialoqdakı axsamaların psixoloji səbəbləri zamanla dəyişiləcəkdir. Ümid edirik ki, bu psixoloji böhranın kəskinliyi azalmağa başlayıb, hər dəfə zaman etibarı ilə bu hadisədən uzaqlaşdıqca onun təsiri də azalır. Ancaq əsas problem hələ də mövcuddur. Bu yuxarıda adı çəkilmiş üç nəzəriyyənin doğurduğu siyasi, dini və mədəni problemlərdir. Bu nəzəriyyələr hələ də yaşayır və onlar islamafobiyanın vüsətində əhəmiyyətli rola malikdirlər.Bu nəzriyyələr hamıya diktə edir ki, müsəlmanlar yadellidirlər, yad məxluqdurlar, yəhudilər və xristianlardan fərqlənirlər, özünü yeganə sayan Qərbə düşməndirlər.Bu barədə İftixar Malik yazır;

"Həm Hantinqton, həm də Fukuyama Sivilizasiyalararası toqquşma və Tarixin sonu nəzəriyyələri ilə Qərbdə təntənəli surətdə qarşılandılar.Çünki onlar Qərbə yeganə əsas (baza) kimi baxmış, qeyri-qərb cəmiyyətlərini, xüsusilə də müsəlmanları "başqalarını təmsil edənlər" kimi nəzərdən keçirmişdilər.Bu nöqteyi-nəzərə görə, müsəlmanlar nəinki xristian və yəhudi Qərbindən fərqlənirlər,həm də ona düşməndirlər.Qərb özünün üstünlüyünü qəbul etməklə bu nöqteyi-nəzəri təsdiqləmiş olur.Qərb və qeyri-qərb arasındakı əlaqə üstünlə-üstün olmayanın (fəzilətli ilə rəzilin) əlaqəsidir" [Malik, 2006:10-11].

Bu nöqteyi-nəzər fonunda İslam mədəniyyəti Qərb dəyərləri ilə rəqabət apara bilməyən, Qərb üçün böyük təhlükə yaradan mədəniyyət kimi təsvir edilir.İslamın belə mənfi formada təsviri, əslində ənənəvi şərqşünaslığın məqsədəuyğun fəaliyyətinin davamıdır.O şərqşünaslığın ki, islamı başqasının gözü ilə təsvir etmişdir.

Sözügedən nəzriyyələrin hələ də Qərbin siyasi siyasi arenalarında qüvvədə olması bir sıra mühüm məsələlərlə əlaqəlidir.Bu məsələlərdən biri Fələstin problemi və bu problemdən irəli gələn Ərəb – İsrail mübarizəsidir. Şeyx Raşid əl-Qənnuşi bu problemi islamafobiyanın əsas mənbəyi hesab edir:

"İslama və müsəlmanlara qarşı ədavətin və şübhələrin bir çox səbəbi olsa da, Fələstindəki Ərəb – İsrail mübarizəsi həmin ədavətin əsas "yanacağı" olaraq qalır.Bu ədavət isə getdikcə kəskinləşir.Çünki islamla Avropanın Fələstin uğrundakı mübarizəsi dinlərin və mədəniyyətlərin mübarizəsidir" [Rəşid əl-Qənnuşi, 2006:45].

Ərəb-İsrail probleminin həlli Qərbdə yəhudiliklə xristianlığın dini –mədəni "birliyi" nəticəsində daha da çətinləşmişdir.Belə birlik yəhudiliyə imkan vermişdir ki, xristianlıqla yanaşı, o da Qərbin mədəni irsinə ortaq olsun. Bununla da yəhudilik protestantlığın əsas "müqəddəs"bünövrəsinə çevrilmiş, sionizm layihəsinin həyata keçirilməsində xristianlığın "razılığını" almışdır; çünki yəhudilərin Fələstinə sahib olub Süleyman mədəni inşa etmələri İsa Məsihinin qayıdışı üçün zəruridir" [Raşid əl – Qənnuşi, 2006: 45-46]

Bu təmayülün yəhudi-sionist və xristian –sionist rəhbərləri islama qarşı düşməncəsinə müvqe nümayiş etdirdilər. Yevangelist-missioner amilin xristian-sionist rəhbərlərə təsiri böyük idi. Nəticədə bu liderlər İslam ölkələrinin və Qərbdəki müsəlman azlıqların əleyhinə zorakı siyasət kursunun qəbulunu özlərinin dini- əxlaqi vəzifəsi hesab etdilər [Malik, 2006:20-21].

Təbii məsələdir ki, məlum "birlik" xristian-yəhudi irsi anlayışı vasitəsi ilə müsəlmanların və islamın daha da təcridinə səbəb olmuşdur.Bu anlayış islamla Qərbin münasibətlərindəki başlıca maneənin aradan qaldırılmasına əngəl yaradır.Qənnuşiyə görə, bu maneə "sinonizm maneəsi"dir. Müəllif qeyd edir ki, sinonizm islama və qərbdəki müsəlman azlıqlara qarşı təhrikçiliyə rəvac verir [Qənnuşi, 2006:49].

İslamafobiyaya rəvac vermək məqsədilə məlum nəzəriyyələrin səbəb olduğu ikinci problem müsəlman azlıqlar və Qərbdə islamın varlığının genişlənməsi fenomeni problemidir.Bu fenomen Qərb üçün potensial təhlükə mənbəyi kimi nəzərdən keçirilir və belə bir iddia irəli sürülür ki, müsəlman azlıqlar Qərb cəmiyyətinə inteqrasiya üçün hazır deyil, bu azlıqlar öz müsəlman identikliyinə muhafizəkarcasına bağlı olduqlarından daima təcrid vəziyyətindədirlər ki, bu da onların qərb həyat tərzindən uzaqlaşmasına səbəb olur. Həmçinin, bu müsəlman azlıqların mütəmadi immiqrasiya və təbii artım sayəsində genişlənməsi Qərbə kabus kimi görünür. Genişlənmə isə öz növbəsində bir tərəfdən, demoqrafik problem yaradır, digər tərəfdən isə kəmiyyət və keyfiyyətdə nüfuzun artması ilə gələcəkdə müsəlmanların siyasi və iqtisadi vəziyyətə təsir göstərə bilmələri təhlükəsindən xəbər verir .

Sovet İttifaqının yıxılıb kommunist təhlükəsinin aradan qalxması yeni nəzəriyyənin təsis edilməsinə ehtiyac yaratdı.Bu "islam-növbəti düşmən nəzriyyəsi idi. Kommunizm təhlükəsinin can verdiyi andan islam Qərb üçün yeni təhlükə mənbəyinə çevrilmişdir.Hantinqton, Bernard Luis, Kepel "düşmən" islam ideyasını inkişaf etdirərək, onu Berlin divarının yıxılması ilə süqut edən kommunizm təhlükəsinin varisi kimi təqdim etdilər.İddia edildi ki, nəinki islam fundamentalizmi, hətta islamın özü belə, Qərb dəyərləri belə səsləşmir, onunla "toqquşur".

**Problemin həlli yolları**

**1. İnformasiya bilik mübarizəsi**

İnformasiya nöqteyi-nəzərindən islam və müsəlmanlar əleyhinə təbliöatla məşğul olan, insanlarda bu din barəsində səhv təsəvvürlər yaradan Qərb mediası ilə mübarizə informasiya sahəsində böyük zəhmət tələb edir. Tələb edir ki, islam haqqında yanlış təsəvvürlərə düzəliş verilsin, informasiya vasitələri ilə islam yenidən qərbə təqdim edilsin.Ancaq etiraf etmək lazımdır ki, bu istiqamətdə böyük boşluq vardır.Çünki hələ də müsəlmanların vahid informasiya strategiyası müəyyənləşdirilməyib, Qərbin informasiya müharibəsinə müqavimə göstərən, Qərb tamaşaçısını və dinləyicisini obyektiv məlumatla təmin edən özünəməxsus mexanizm işlənib hazırlanmayıb. Halbuki belə strategiya və mexanizm başlıca Qərb dillərində təsis edilməli, Qərb insanına islam və müsəlman cəmiyyətlər haqda məlumat verən mənbələrin tarazlığını yaratmalıdır.o Qərb insanına ki, yalnız Qərbin informasiya vasitələri ilə əhatə olunub və bu səbəbdən islam haqda səhv təsəvvürlərə malikdir.

Koqnitiv cəhətdən islam və müsəlmanlar barədə məlumatsızlıq islamafobiyanı gücləndirir. Qərblilərin böyük əksəriyyəti də islam dünyası haqqında heç nə bilmir.Məsələn, Ərəb - İngilis qarşılıqlı anlaşmasının İnkişafı Şurasının mətbuat katibinin hesabatına görə, britaniyalıların 78 %-i islam haqda heç bir məlumata sahib deyildir.

İslamafobiyanın yayılmasında bu cəhətin rolundan danışan almaniyalı şərqşünas Anna Mari Şimel yazır :

"Cahillik (məlumatsızlıq) nifrət və qəzəbə səbəb olur. Cəhalətin qoorxuya səbəb olması bir həqiqətdir . Bu qaranlığı isə aydınlatmaq lazımdır" [Şimel, 2000: 22].

İslam haqda Qərbin məlumatsızlığının baiskarı müsəlmanlar və müsəlman KİV-i və mediasıdır. Avropa dillərində müsəlman ictimaiyyəti və islam haqqında maarifləndirmə işinin aparılması olduqca zəifdir. Buna görə də, islam dünyası son illər ərzində bu axsamanı aradan qaldırmaq üçün media işini gücləndirmişdir.

**2. İslam mədəniyyəti və ictimaiyyəti haqda doğru-dürüst məlumatlandırma mexanizmi**

Müxtəlif Avqopa dillərində islam dini, müsəlman mədəniyyəti və ictimaiyyəti haqda yeni kitablar qələmə alınmışdır. Bu kitablarda islam və mədəniyyəti dini-kəlami qəlizliklərə yol verilməməklə elmi üslubda təqdim edilmişdir. Bu kitablar islam məzmununa xələl gətirməyəcək yığcamlıqda tərtib edilmişdir.

İslam dini, mədəniyyəti və cəmiyyəti haqda əsas mənbələr də avropa dillərinə tərcümə edilmişdir və islam dünyası haqqında qısa metrajlı filmlər hazırlanmış, Avropa və Amerikanın müxtəlif televiziya kanallarında bu filmlər nümayiş etdirilmişdir.

Avropa dövlətlərində müsəlman ölkələri səfirlikləri və mədəniyyət mərkəzlərinin fəallığı artırılmışdır.

Qərb ölkələrindəki müsəlman diasporların imkanlarının artırılması üçün lazımi dəstək göstərilmişdir.

Qərb üniversitetlərində, səfirlik və mədəniyyət mərkəzlərində qərbliləri həvəsləndirmək məqsədilə ərəb dilinin və digər müsəlman ölkələri dillərinin tədrisinə şərait yaradılmışdır.

Müsəlman və qərbli ziyalılar arasında əlaqələr yaxşılaşdırılmışdır.Qərbli mütəfəkkirlərin islam ölkələrində keçirilən konfrans və seminarlarında, kitab sərgilərində, bədii-ədəbi festivalların-da iştirakına şərait yaradılmışdır. Bununla da şərqli və qərbli ziyalılar, mütəfəkkirlər arasında əlaqələr gücləndirilmişdir.

İslam ölkələrində mədəni-tarixi turizmin inkişafına şərait yaradılmışdır.Qərbli şagirdlər və tələbələrin islam ölkələrinə səfərlərinə imkan yaradılmışdır ki, onlar tarixi və müasir islam abidələri ilə tanış olsunlar, müsəlman cəmiyyəti və mədəniyyətini yaxından tanısınlar.

İslam incəsənətini tanıtmaq üçün beynəlxalq sərgilərdə, ədəbi-bədii tədbirlərdə fəal şəkildə iştirak edilərək incəsənət nailiyyətləri əldə edilmişdir.

Beynəlxalq informasiya şəbəkələrində sağlam islam nöqteyi-nəzərini əks etdirən zəruri materiallarla əks etdirilmişdir. Bu materiallarda polemikalardan uzaqlığa, müsbət təsvirə və birbaşa informasiyaya üstünlük verilir.

**3. İslamı və müsəlman mədəniyyətini təcrid fəaliyyəti ilə mübarizə**

İslamı təcrid edib onu Qərb dinlərinə - xristianlıq və yəhudiliyə yad din kimi təqdim etmək əsas problemlərdəndir. Bunu aradan qaldırmaq üçün, sübut etmək lazımdır ki, islamla digər dinlər arasında yaxınlıq mövcuddur, islam monoteist dinlərdir. Həmçinin xristianlıq, yəhudilik və islam arasındakı üzvü əlaqəni müəyyənləşdirmək,islamın həmin iki dinin mövcudluğu şəraitində monoteist din kimi meydana gəlməsini əsaslandırmaq tələb olunan məsələlərindəndir.

İslamı təcrid fəaliyyətini dini-mədəni səviyyədə, ciddi və elmi şəkildə tənqid etmək, onunla mübarizə aparmaq lazımdır ki, qərb mədəniyyəti ilə müsəlman mədəniyyəti arasındakı mədəni əlaqələrin mövcudluğu təsbit edilsin.

***III. Xarici dialoq***

Xarici dialoq deyildikdə ümumi şəkildə həm dinlərarası, həm də məzhəblərarası dialoq nəzərdə tutulur.Əbdüssəttar əl–Heyti yazır: "Əgər dinlər və mədəniyyətlərarası dialoq bir çoxlarına görə müasir həyatın, şəraitin diktə etdirdiyi zərurətdirsə, islama görə isə bu, dini vəzifə və mükəlləfiyyətdir. Allah bu vəzifəni müsəlmanlara ona görə yükləyib ki, onlar bəşəri cinsin birliyi çərçivəsində həmrəylik və tolerantlıq dəyərlərini yaysınlar".

Uzaq Şərqdəki islam ölkələri Hindistandakı, Çin və Yaponiyadakı dinlərin mənsubları ilə, ərəb ölkələri xristian və yəhudilərlə dialoq içərisindədir.

Müsəlman coğrafiyası imkan vermişdir ki, islam bütün dinlərlə təmasda olsun. Odur ki, tələb olunan dialoq islamın bütün dünyadakı dinlərlə aparacağı dialoqdur. Bu dialoq öz növbəsində zəruri edir ki, müsəlmanlar müxtəlif din və mədəniyyətlərə dair obyektiv məlumatlara sahib olsunlar.

Bəzi məqamlarda xarici dialoqun məqsədləri daxili dialoqunkundan fərqlənir. Belə ki, daxili dialoqun qarşısına qoyduğu məqsədlər məhduddur. Burada əsas məqsəd "ÖZ"ün formalaşdırılmasıdır. Xarici dialoq isə müsəlman "Öz"lə digər "Özlər" arasında əlaqələrin müəyyənləşdirilməsi məqsədi güdür. Yəni, daxili dialoqun məqsədi bir müsəlman cəmiyyəti daxilində müxtəlif dinlərin mənsubları arasında yaxınlaşmanı təmin etməkdirsə, xarici dialoq daxili dialoqun bir sıra məqsədlərini də nəzərə almaqla dünya dinləri müstəvisində bu yaxınlaşmanı reallaşdırmaqdır.

Daxili dialoqu reallaşdırmadan, yeni "Öz"ü formalaşdırmadan xarici dialoqun baş tutması çətin məsələdir.Çünki daxili dialoq dini-mədəni identikliyin formalaşmasına xidmət edir. Belə identiklik isə xarici dialoqda dini təmsil edə, birgə dini yaşayışı reallaşdıra bilər.

**Xarici dialoqun məqsədləri**

1. *Digər dinlərin, mədəniyyətlərin mənsubları ilə birgə yaşamanı təmin etmək.*

Başqa dinlərin mənsubları ilə birgə yaşayışı təmin etmək xarici dialoqun qarşısında duran ən mühüm məqsədlərdəndir. Bəşəriyyətin dini gerçəkliyi göstərir ki, dünyanın bütün ölkələrində real dini ünsiyyət, inteqrsiya mövcuddur. Elə bir ölkə yoxdur ki, orada dini azlıq mövcud olmasın. Dini plüralizm dövrümüzün reallığıdır. İqtisadi amillərin doğurduğu insan axını həm Şərqdə, həm də Qərbdə dini azlıqların yaranmasına səbəb olub.Demək olar ki, dünyanın bütün ölkələrindən Qərbə insan axını orada dini azlıqların yaranması ilə müşayiət edilir. Vaxtı ilə Qərbin imperialist dövlətlərinə onların müstəmləkəçilərindən işçi axını baş vermişdir. Məsələn, Böyük Britaniyaya Hindistandan, Fransaya Şimali və Mərkəzi Afrikadan mühacir axını olmuşdur.Amerika Birləşmiş Ştatlarının əhalisi isə, demək olar ki, dünyanın bütün ölkələrindən köçən mühacirlər hesabına çoxalıb. Belə dini reallıq birgə dini yaşayışla, dini plüralizmlə barışma zərurəti yaradıb.

İslam yarandığı andan birgə yaşayış dini olmuş,dini-mədəni və etnik müxtəlifliyə dözümlü yanaşmış, insanla insan kimi davranmış, onun bütün hüquqlarının qorunmasına zəmanət vermişdir. Məhz buna görə açıq və tolerant islam cəmiyyəti formalaşmışdır.Bu cəmiyyətin müxtəlif dinə, mədəniyyət və etnik mənsubiyyətə malik fərdləri bir-birindən təcrid edilməmiş, əksinə, tam inteqrasiya əsasında birgə yaşamışlar.

2. *Başqaları ilə birgə ortaqlığın yaradılması.*

Xarici dini-mədəni dialoqun ikinci məqsədi olan bəşəri müştərəkliyin formalaşmasının aşağıdakı elementləri vardır.

*Bəşəri qardaşlıq* - bu prinsipə görə insanlar qardaşdırlar, kökləri də birdir. Adəm və Həvva onlarən valideynləridir. Rəng, dil, görünüş, adət-ənənə, mədəniyyət və din müxtəlifliyinə baxmayaraq, insanları bir-birinə bağlayan yaxınlıq mövcuddur. Sözügedən fərqlər isə müxtəlif mühitlərin, məkan və zamanın, iqlimin diktəsi altında meydana çıxıb.

Həmçinin insan növ etibarı ilə digər canlılardan ağlına və psixikasına görə fərqlənir, insanlar bir-birilə tanış olub ünsiyyət qurmağa meyllidirlər.

*Bəşəri qonşuluq* – Birgə yaşayışa aparıb çıxaran məsələrdən biri də bəşəri yanaşılıqdır.Bir fərd digər insanlardan təcrid edilmiş formada yaşaya bilməz.İnsanlar bir-birilə mənzildə, küçədə, işdə,şəhərdə yanaşı olurlar. Belə qonşuluğun ən geniş forması dövlətlərin bir-biri ilə qonşuluğudur. Qonşuluq, yanaşılıq qonşuluq hüquqlarını formalaşdırır. Burada tək müsəlmanların qonşuluğu nəzərdə tutulmur, rəngindən, dinindən, mədəniyyətindən asılı olmayaraq bütün insanların qonşuluğu nəzərdə tutulur.

İnsanoğluna ehtiram - Bəşəri müştərəklik və ona rəvac verən birgə yaşama Allahın insana ehtiramının təzahürü olmalıdır. Qurani-Kərimin əl-İsra surəsinin 70-ci ayəsində də deyilir ki: "Biz, Adəm övladını şərəfli və hörmətli elədik....".

Ümumiyyətlə, insan bu ehtirama, şərəfə şərikdir.İnsana hörmətin göstəricisidir ki, onunla yaşamağı qəbul edəsən, onunla insan kimi davranasan, hüquqlarını, həm də yaşama haqqını gözləyəsən.

*Yer üzünün abadlaşdırılması üçün həqiqi varislik.*

Insanların yaradılma məqsədi birdir və onlar yer üzünə varis çıxıb onun abadlaşdırılmasında şərikdirlər. Əsrlər boyu formalaşmış bəşər mədəniyyəti, əslində Yer üzünün müştərək abadlaşdırılmasının nəticəsidir.

Heç bir bəşər mədəniyyəti iddia edə bilməz ki, o, təkbaşına yer üzünü abadlaşdırıb.Yer üzünün abadlaşdırılması müştərək nailiyyətdir.Bütün mədəniyyətlər bu işdə iştirak edib. Nəticədə ümumbəşər mədəniyyəti formalaşıb.Deməli, yer üzünə varis çıxıb onu abadlaşdırmaq mədəniyyətin qurulmasının ilkin səbəbidir.

İnsanlar yer üzünə yayıldıqca müxtəlif mədəniyyətlər yaranmış, əvvəlki mədəni nailiyyətlər sonrakı mədəni uğurlara və inkişafa təkan vermişdir.

*Bəşəri tanışlıq* - Ortaq kökə sahib insanlar əvvəlcə bir yerdə yaşamış, sonra zaman keçdikcə müxtəlif qəbilələrə, tayfalara, xalqlara, irqlərə ayrılmışlar. Daha sonra isə bu birliklər arasında bir-birini tanımaq ehtiyacı yarandı.Bəşər tarixinin şahidi olduğu bu üç mərhələ - icmalar halında yaşamaq, ayrılmaq və tanışlıq heç də bir-birinə zidd deyildir. Quranda bu barədə deyilir: "Əgər Allah istəsəydi, sizi vahid bir ümmət edərdi" (əl-Maidə, 48)

"Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun qüdrət əlamətlərindəndir (ər-Rum, 22)

İnsanların birliyi ilə onların müxtəlifliyi arasında bəşəri müştərəklik gizlənir. Məhz bu müştərəklik insanları bir-birilə tanış olmağa , bəşəri birliyə səsləyir.

*Bəşəri əməkdaşlıq* – Əməkdaşlıq İslamın prinsiplərindən biri olub Quranın bir sıra ayələrində öz təsdiqini tapmışdır.Məsələn:

"Yaxşılıq etməkdə və pis əməlllərdən çəkinməkdə əlbir olun, günah iş görməkdə və düşmənçilik etməkdə bir-birinizə kömək göstərməyin" (əl-Maidə, 2)

Xeyir işlərdə əməkdaşlıq olmadan bəşəri müştərəkliyi formalaşdırmaq mümkün deyildir. Odur ki, bu əməkdaşlıqda insanların mənafeyi nəzərə alınmalı, qarşılıqlı ədavətə, kin-küdurətə yol verilməməlidir. Əməkdaşlıq islam prinsipi olub cəmiyyət daxilində müştərəkliyə, qaynayıb qarışmağa rəvac verir, cəmiyyətin ümumi mənafeyini təmin edir. Əməkdaşlıq qardaşlığa, altruizmə, sevgiyə səsləyən prinsipdir.

*Bəşəri vətəndaşlıq* - Vətəndaşlıq ədalət və bərabərlik əsasında eyni vətənə mənsubluqdur.Vətəndaşlığın diktəsi ilə insanlar arasında din, dil, rəng cins ayrı-seçkiliyinə yol verilmir. Ədalətə, bərabərlik və vicdan azadlığına əsaslanan bəşəri vətəndaşlığın fonunda bəşəri müştərəklik formalaşır. Bəşəri müştərəklik öz vətəndaşları arasında ayrı-seçkiliyə yol verməyən vahid vətənə mənsubluq şüurunun aşılanması ilə baş verir. Məhz bu səbəbdən qeyri-müsəlmanların islam mədəniyyəti və cəmiyyətindəki yeri yüksək və həqiqi olmuşdur. Çünki qeyri-müsəlmanlar vətəndaşlığın nə olduğunu dərindən başa düşmüşdülər.

**Vatikan Bəyannaməsi: islam və müsəlmanlarla münasibətlərin yaxşılaşdırılması**

Vatikan bəyannaməsi 1964-cü ildə xristianlarla müsəlmanlar arasında imzalanmış bir bəyannamədir. Bu bəyannamə müasir xristianlıq tarixində mütərəqqi addım olub islama müsbət münasibəti əks etdirirdi. Bu bəyannamə xristian vicdanını islam haqda obyektiv düşünməyə sövq etdi. Kommunizmin dünyada yayılması ilə mübarizədə islamla Vatikan eyni cəbhədən çıxış edərək həmin sistemin süqutunu tezləşdirmişdilər. Çünki hər iki dinin alimləri kommunizmi sərt şəkildə tənqid edirdilər. Bütün bunlar kommunizmin hüdudlarını azaltmış, Sovet İttifaqının süqutundan dərhal sonra kommunizm öz ideoloji-siyasi kəsərini itirmşdi. Kommunizmin iflasından sonra da bütöv ölkələrdə ənənəvi dinlər bərpa edildi, milyonlarla insan ənənəvi inanclarına qayıtdı.

Dialoqun nəticəsində islam Vatikan tərəfindən xristianlıqdan ayrı müstəqil din kimi təsdiqləndi, etiraf edildi. Vatikan bəyannaməsi nəticəsində islamın yəhudilik və xristianlıqla əlaqəsi təsdiqlənmişdir. Vatikan bu əlaqəni "İbrahim irsi" çərçivəsində nəzərdən keçirmişdi. Bununla da Vatikan yəhudilik, xristianlıq və islam arasında dini yaxınlığa eyham vurmuş, xüsusilə də tövhid,

vəhy və peyğəmbərlik, əksər peyğəmbərlərə iman, ölümdən sonra təkrar dirilmə, mükafat və cəzalandırma, cənnət və cəhənnəm kimi etiqad təlimlərində onların müştərəkliyini təsdiqləmişdir. Bu bəyannamə ilə İsa peyğəmbərin islama görə statusu - yəni onun Allah deyil, peyğəmbər olmağı Vatikan tərəfindən qəbul edilmişdi.

Xristian-müsəlman dialoqu Vatikan vasitəsi ilə baş tutmuş, sonralar isə bu dialoqun əhatə dairələri genişlənərək xristian təriqətlərini də əhatə etmişdir. Vatikan "Vatikanla dialoq" komitəsinə oxşar xristian-müsəlman komitələri təsis etmişdir.XX əsrin ikinci yarısı, xüsusilə də məlum bəyannamənin elanından sonrakı dövr xristian-müsəlman dialoqu sahəsində böyük canlanmanın şahidi olmuşdur. Bu da dünyanın bütün dinləri ilə dialoqa qapı açmışdır.

## NƏTİCƏ və TÖVSİYƏLƏR

Bu izahlardan sonra bu nəticəyə gəlmək olar ki, 11 sentyabr hadisəsindən qabaq Qərblə dialoq ruhu yüksək idi. Ancaq bu hadisədən sonra bu ruhun üstündən xətt çəkildi. Qərblə İslam dünyasının dialoqunu təmin etmək üçün XX əsrin ikinci yarısındakı cəhdlər, çəkilən zəhmətlər hədər olub getdi. Nəticə etibarı ilə Qərbdə ədavət abu-havası zehinlərə hakim kəsildi, islamafobiya geniş vüsət kəsb etdi. Qərb informasiya vasitələrində islamın və müsəlmanların saxta stereotipi formalaşdırıldı. Belə ciddi siyasi oyunun nəticəsində Qərblə müsəlman dünyasının dini, mədəni münasibətlərində ətalət yarandı. Dialoq fəaliyyətinin olmamağı hər iki tərəfin əlaqələrinin hardasa bütövlükdə dondurulmasına gətirib çıxardı. Odur ki, Qərblə dialoqu əvvəlki məcrasına qaytarmaq üçün hər iki tərəfdən böyük zəhmət tələb olunur.Çünki dialoq dini-mədəni ünsiyyət vasitəsi kimi çıxış etməklə Qərblə müsəlmanların əlaqələrini mədəni təmas prizmasında əvvəlki müstəviyə qaytara bilər.

Bu məqalədə dialoqa mane problemlərin həlli ,dinlər və mədəniyyətlərarası dialoq fəaliyyətində, dialoq mədəniyyətinin inkişafında müsəlmanları pay yiyəsinə çevirmək istiqamətində bu tövsiyyələrə riayət etmək olduqca mühümdür.

İxtisaslı müsəlman dialoqçuların hazırlanması üçün müsəlman dünyasında dinlərin və mədəniyyətlərin dialoqu sahəsində elmi-tədqiqat mərkəzləri yaradıla bilər. Dinlərin tədqiqi fəaliyyətini genişləndirmək məqsədilə islam universitetlərində tədris proqramlarına yeniliklər gətirilə bilər. Müsəlman ölkələrindəki mühüm dini qurumlarda dini dialoq birliklərinin təsisi də dialoq fəaliyyətinə müsbət təsir göstərəcəkdir. Dini-mədəni dialoq problemlərinin davamlı surətdə mediada işıqlandırılması dünya mədəniyyətlərinə açılmanı təmin edəcək, din və mədəniyyətlərin mənsubları arasında tolerantlıq dəyərlərini yayacaqdır. Qərbdəki müsəlman azlıqları yaşadıqları ölkənin əhalisi ilə dini-mədəni dialoqa ruhlandırmaq lazımdır ki, müsəlmanlar və islamın saxtalaşdırılmış stereotipini düzəltsinlər.

## Ədəbiyyat:

*Şimel, Anna Mari.* (2000). İslam bəşəriyyətin dinidir/ tərcümə edən Saleh Məhcub. İslam tədqiqatları silsiləsindən, № 60. Qahirə: İslam Məsələləri Ali Şurası, S.22.

*Malik, İftikhar H.* (2006). Crescent between Cross and Star: Muslims and The West after 9/11, Oxford Univ.Press, P. 10-11, P. 20-21 .

*Şeyx Raşid əl-Qənnuşi.* (2006). Avropada islam // "Hivar əl-Qərb" jurnalı, Beyrut, №21, S.45.

# QƏDİM UYĞURLARIN YAZI MƏDƏNİYYƏTİ HAQQINDA

**Zöhrə YUSİFZADƏ**
Bakı Dövlət Universiteti,
Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının doktorantı,
*Azərbaycan, BAKI*
zohrayusif@mail.ru

**XÜLASƏ**

Mənşəyi Soqd yazısına əsaslansa da, uyğurlar tərəfindən türk milli yazısı kimi tarixə düşən, erkən orta əsrlərdə türk mədəniyyətinin inkişafının, tərəqqisinin nümunəsinə çevrilən və monqollar hakimiyyəti dövründə çox geniş əhatə dairəsinə sahib olan uyğur yazısı təxminən 1000 illik bir tarixə sahibdir. İslam dininin türklər arasında yayılması nəticəsində ərəb əlifbasının yavaş-yavaş nüfuz qazanması, daha sonrakı dönəmdə isə Orta Asiyada Mancurların ağalığı uyğur yazısının istifadə dairəsini məhdudlaşdırdı.

**Açar sözlər:** Uyğurlar, yazı mədəniyyəti, uyğur əlifbası.

# ABOUT THE WRITING CULTURE OF ANCIENT UIGURS

**Zohra YUSIFZADA**
Baku State University,
Doctoral student of the Department of History of Philosophy and Cultural Studies,
*Azerbaijan, BAKU*
zohrayusif@mail.ru

**SUMMARY**

Although its origin is based on the Sogdian script, the Uyghur script, which went down in history as the Turkish national script by the Uighurs, became an example of the development and progress of the Turkish culture in the early Middle Ages, and had a very wide scope during the Mongol rule, has a history of about 1000 years. As a result of the spread of Islam among the Turks, the Arabic alphabet slowly gained influence, and in the later period, the domination of the Manchus in Central Asia limited the scope of use of the Uyghur script.

**Key words:** Uyghurs, writing culture, Uyghur alphabet.

Bəşəriyyətin tarixi boyu dünya mədəniyyəti xəzinəsinin formalaşmasında mühüm töhfələr vermiş türk xalqları görkəmli alimlərin tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Böyük türk superetnosuna daxil olan subetnosların həyat və düşüncə tərzi, adət-ənənələri, dini inanclar sisteminin araşdırılması hələ də öz aktuallığını itirməmişdir.

Türk xalqları arasında özünəməxsus yerə sahib olan qədim uyğur türkləri haqqında yazılan əsərlərin sayının kifayət qədər olmaması, bu xalq haqqında tam dolğun təsəvvürlərin yaranmaması ilə nəticələnir. Halbuki böyük dövlətçilik ənənələrinə, dini inanclar sisteminə, qədim yazı mədəniyyətinə sahib olan bu xalqlar haqqında tədqiqatların artırılması tarixi ədalətin bərpasına kömək edir. Qədim Uyğur türklərinin tarixi e.ə IV-III əsrlərə uzanır onlar əvvəlcə Hun İmperiyası daha sonra Göytürk xaqanlığı kimi güclü türk dövlətlərinin daxilində fəaliyyət göstərmiş, Göytürk dövlətinin 744-cü ildə parçalanmasından sonra Orxon çayı sahilində öz dövlətlərininin əsasını qoymuşlar. Uyğurlar köçəri türk xalqları arasında oturaq həyata keçən ilk xalq hesab olunur. Çox geniş coğrafiyada məskunlayaşan Uyğurlar öz mədəniyyətlərinə aid çoxsaylı nümunələr yaratmışlar. Çin mənbələrində onların artıq VI əsrdə yüksək mədəniyyətə sahib olduqları haqqında məlumatlar verilir.

Dünya tarixində elmin, mədəniyyətin təməlində və inkişafında, ən vacibi isə gələcək nəsillərə ötürülməsində yazı əsas şərtlərdən biri olduğuna görə əminliklə deyə bilərik ki, türklər bu baxımdan olduqca şanslıdır. Hər bir xalqın tarixini araşdırmaq üçün ən vacib elemenetlərdən biri yazılı qaynaqlardır. Bəşəriyyətin tarixini bu günə qədər gəlib çatmış yazılı mənbələr vasitəsilə daha dəqiq öyrənirik. Çünki yazılı sənədlər bizə daha mühüm ipucları verir və qəti mühakimə yürütməyə imkan yaradır. Türklərdə istifadə olunan yazını iki kateqoriya üzrə dəyərləndirmək olar: islamdan öncə və islamdan sonrakı yazı sistemi.

**Uyğur əlifbası haqqında**

Yüksək yazı mədəniyyətinə sahib olan Uyğur türkləri müxtəlif zamanlarda Göytürk (Runi), Soqd, Ərəb və s. kimi əlifbalardan istifadə etmişlər. Uyğurlar ilk vaxdlarda Runi əlifbasından, daha sonra türk əlifbası ilə paralel soqd əlifbasından da istifadə etmişlər. Orta Asiyada yaşayan Soqdialılar uyğurların mədəni, ticari və siyasi həyatında dərin izlər buraxmışdır. Soqd əlifbasından istifadə edən uyğurlar daha sonra bu əlifba əsasında öz yazı sistemlərini - Uyğur əlifbasını yaratdılar. Uyğurlar soqd əlifbasını ilk dəfə Qarabalqasun abidəsində istifadə etmişdilər. Tədqiqatçılar bu əlifbanı gördükdə Uyğur əlifbası zənn etmiş daha sonra soqd əlifbası olduğu qənaətinə gəlmişlər. F.Müller və R.Gauthiot Uyğur əlifbasının Arami əsilli Soqd əlifbasının dəyişikliyə uğramış şəkli olduğunu vurğulayır. Mənbələrə əsasən Türklərin ikinci milli əlifbası olan Uyğur əlifbası əvvəlcə 3 sait və 15 samitdən ibarət olmuş, daha sonra isə 24 hərfə çatmış və sağdan sola doğru yazılan bir yazıdır. Bəzi tədqiqatçılar isə Uyğur yazısının 28 hərfdən ibarət olduğunu qeyd edir [Turan, 2006: 64]. Uyğur əlifbasının türklər tərəfindən nə vaxtdan bəri istifadə edildiyi haqqında dəqiq məlumat yoxdur. Bu yazı sistemindən V əsrdən bəri istifadə edildiyi haqqında çoxsaylı görüşlər mövcuddur. Lakin V-IX əsrlərdə, xüsusən də Göytürk xaqanlığı dövründə Uyğur əlifbası məhdud şəkildə istifadə edilmişdir daha doğrusu, istifadə dairəsi ancaq uyğurlara aid idi. Uyğur arxeoloqu Qurban Vəli Turfanda tapılan sənədlərə əsasən qeyd edir ki, uyğurlar V əsrdə Soqd yazısı əsasında formalaşan Uyğur əlifbasından istifadə etməyə başlayıblar [Yasin, 2011: 92]. Uyğur yazıları müxtəlif coğrafiyalarda əsasən kağız üzərində, həmçinin daş və qayaya, müxtəlif əşyalar üzərində yazılmışdı.

**Kağız üzərində yazılmış uyğur yazıları haqqında**

IX-XIII əsrlər Uyğurlar bütün sahələrdə o cümlədən elm və yazı sahəsində daha da inkişaf etdilər. Uyğurlar elmi, hüquqi, ticari, dini sahələrdə dövlətin rəsmi yazısı olan uyğur əlibasından istifadə edirdilər. Tapılan əlyazmaların böyük hissəsi həmin dövrlərə aiddir. XIX-XX əsrdə Şərqi Türküstanda araşdırma aparan S.Malov, A.Stein, A.Qrünvedel, A.V.Le Coq, P.Pelliot və s. kimi rus və avropalı tədiqatçılar Turfan və ətraf ərazilərdə türklərə aid xeyli sayda uyğur əlyazmalarını və sənədlərini aşkarlamış, öz ölkələrinə aparmışlar. Səfərlər zamanı aşkarlanan yazılı sənədlər Almaniyada və Rusiyada qədim uygur dili ilə bağlı nəşriyyat işlərinin başlanmasına şərait yaratdı. Qədim uyğur dili ilə bağlı ilk araşdırmalar F.W.K.Müllerin "Uigurica", W.Radloffun "Alltürkische Studien", A.V.Le Coqun "Türkice Manichaica aus Chotscho and Willi Bang", V.Gabain və G.Rachmatinin "Türkische Turfan-Txte" kimi əsərlər kimi nəşr olunmuşdu. Sonralar qədim uygur dili ilə bağlı araşdırmalar geniş vüsət aldı və dünyanın müxtəlif yerlərində bu haqda əsərlər nəşr oldu.

Tədqiqatçılar qeyd edir ki, Qədim Uyğur yazısıyla yazılmış əlyazmaların bir hissəsinin məzmunu iqtisadiyyat, dil, tibb, təhsil, tarix, falçılıq, ədəbiyyat və s. kimi sahələrə aid olmuş, müəyən parçalar və kitabların əksər hissəsi isə müxtəlif dinlərə (məlum olduğu kimi uyğurlar ən çox din dəyişdirən xalqlardan biridir və onların mədəniyyətinə 4 din - maniçilik, buddizm, xristian və islam təsir göstərmişdir) aid tərcümə əsərləri və hüquqi sənədlərdir. Uyğurlar istər fərqli mədəniyyətlərin təsirindən, istər çox din dəyişmələrindən, istərsə də İpək Yolunun mərkəzi

şəhərlərinə sahib olub güclü ticarətlə məşğul olmaları səbəbindən həddindən çox dilə yiyələnmişlər. Məlumatlara görə əsərlərin böyük bir hissəsi Çin, Sanskrit, Soqd, Tibet, Toxarcadan tərcümə edilmişdir. 1997-ci ildə L.Clark, 1998-ci ildə isə N.C.Samuel Lieu tərəfindən qədim uyğurca mani mətnləri üzərində çalışmalar aparılmışdı

Uyğur əlifbası ilə yazılmış abidələr arasında həcminə görə ən böyüyü buddizmə həsr edilmiş Altun Yaruk (Qızılı İşıq) Sudurudur. Əsəri Çin dilindən qədim Uyğur dilinə X əsrin birinci yarısında Beşbalık şəhərinin sakini Sınku Seli Tudun tərcümə etmişdir. Tərcüməçi əsərin məzmunu saxlayaraq formasına xeyli dəyişiklik etmiş və əsərə yaradıcı yanaşmışdır [Binark, 2002: 3]. Altun Yarukla bağlı Çində aparılan araşdırmalar A.Semet və S.C.Raschman tərəfindən həyata keçirilmişdir.

Paul Pelliot qeyd edir ki, Türklərin ən qədim və ən böyük dastanı olan Oğuz xan dastanı 1300-cü illərdə Turfanda Uyğur əlifbası ilə yazılmışdır [Pelliot, 1995:103]. Türk tarixi və mədəniyyətinin öyrənilməsi baxımından bu əsər çox qiymətlidir.

İslam dinin türklər arasında yayılması sırasında Uyğur əlifbası öz əhəmiyyətini itirməmiş, ərəb əlifbası ilə yanaşı işlənərək, digər xalqlar arasında da istifadə edilmişdir. Daha sonra Mərkəzi Asiyanın Səmərqənd, Buxara kimi İslam mədəniyyəti mərkəzlərində ərəb əlifbası istifadə edilməsilə uyğur əlifbası tarix səhnəsindən tədricən silinmişdir. Şərqi Türküstanda istifadə olunan uyğur əlifbası isə bu sırada əvvəlki əhəmiyyətini qoruyub saxlamışdı. Tarixi qeydlərə əsasən XIII əsrdə Monqollar müstəqil Uyğurları öz hakimiyyəti altına aldıqdan sonra onların yüksək səviyyəli mədəniyyətlərinin təsiri altına düşdülər və uyğur əlifbasından istifadə etdilər. Uyğur yazısı Monqol hakimiyyəti dövründə bu dövlətin rəsmi dövlət yazısına çevrildi. Sonrakı dövrlərdə Uyğur katibləri və dövlət adamları bütün dövlət idarəetməsini əllərinə aldılar. Orta Asiyanın bir çox şəhərlərindəki dəftərxanalarda uygur türkləri fəalliyyət göstərdi. W.Bartold və R.Groussetin dediyi kimi XIII əsrdə monqolların "Müəllimləri" uyğurlar olmuşdur. Monqollardan sonra Teymurilər dövründə də rəsmi sənədlərin yazılmasında uyğur əlifbasından istifadə edildiyi, katiblik işlərində uyğurların üstünlük təşkil etdiyi haqqında fikirlər mövcuddur.

**Uyğurlarda mətbəə sənəti**

Uyğur mədəniyyəti tarixində mətbəəçilik də olduqca əhəmiyyət daşıyır. Mətbəənin ilk olaraq Mərkəzi Asiyada tətbiq edilməsi haqqında çoxsaylı mülahizələr mövcuddur. Ancaq mətbəə sənətinin yaradıcısının çinlilər yoxsa uyğurlar olması uzun zaman müzakirə mövzusu olmuşdur. Turfan, Qaraxoca, Yarkən, Xotan kimi Uyğur şəhərlərində tapılan sənədlərə əsasən sərt ağacdan hazırlanmış qarşılıqlı hərflər Uyğurlarda mətbəə sənətinin mövcudluğunu sübut etmişdir [Binark, 2002:62]. Çinlilərdəki blok basqı ilə çoxaltmaq texnikasından fərqli olaraq sərt ağacdan tək-tək hərəkətli Uyğur hərfləriylə kitab basmağı ilk olaraq Uyğurlar həyata keçirmişlər. Turfanda Uyğur əlifbası ilə sərt ağacdan hazırlanmış yüzlərlə hərf tapılıb. Fransız tədqiqatçısı J.R.Risler Avropadan 600 il öncə türklər tərəfindən kitablar basıldığını, uyğur mətbəə texnikasınının Monqollar vasitəsilə Avropaya gəldiyini bildirir. Həmçinin uyğurların basqı üçün istifadə etdikləri kağız da çinlilərinkindən fərqli olmuşdur [Ağca, 2019: 52]. Uyğurların kağız və mətbəəni kəşf etməsi ilə başlanan cildləmə, kitab nəşrləri, çap fəaliyyətləri onların elm və təhsilə nə qədər əhəmiyyət verməsnin göstəricisidir. İslam müəllifləri uyğur türklərinin özlərinə aid yazı sistemlərinin mövcudluğunu, kitabları olduğunu və bunları uşaqlarına öyrətdiklərini yazırlar.

**Daş üzərində yazılmış uyğur yazıları**

Peter Zieme qeyd edir ki, kağız üzərindəki yazılardan başqa Uyğur yazısıyla daşa və qayaya yazılmış yazılar da mövcuddur. Bu günə qədər məlum olanların sayı 5-dir və bu 5 yazıdan ikisinin tarixi qeyri-müəyyən, digər üçü isə Monqollar dövrünə aid olub müvafiq olaraq 1326, 1334 və 1345-ci illəri əhatə edir [Zieme, 1982:230].

Türkoloq A.M.Şerbak müxtəlif vaxtlara və müxtəlif yerlərə aid olan Uyğur əlifbası ilə yazılmış 7 nümunə haqqında məlumat verir [Şerbak, 2014:190].

1. Qəbir daşı üzərindəki yazı (Monqolustanda Ulanqomun şimal-şərqində).
2. Gümüşü sarı qabın altında yazılmış yazı (Sibir, Yeniseyin sol sahilində, Abakan ərtafında).
3. Bir daş üzərindəki yazı (Tamerlan yazısı, şimal-şərqi Qazaxıstan).
4. Bir qayın ağacı üzərindəki yazı (Aşağı Volqanın sol sahilində).
5. Bir mağara monastrının divarındakı yazı (Zaqafqaziya).
6. və 7 isə Dunhuanqda bir mağaranın içərisində tapılan yazılardır.

Ulanqom yazılarının VIII ərsə, Abakanda tapılmış qab üzərindəki yazı daha sonrakı dövrə, Tamerlan yazılarının isə XIV əsrə aid olması ehtimalı yüksəkdir. Ulanqom yazıları ilk dəfə A.M.Şerbak tərəfindən elmi dövriyyəyə gətirilmişdir. Uyğur yazılarının oxunmasında S.G.Klaştornı və L.N.Qumilyev kimi alimlərin xüsusi rolu olmuşdur [Rəcəbli, 2010].

Hazırda Urumçi, İstanbul, Sankt-Peterburq, Kyoto, Pekin, Tokio kimi bir çox yerlərdə Uyğur mətn araşdırmaları bu gündə davam edir.

**Ədəbiyyat:**

*Rəcəbli, Ə.* (2010). Qədim türk yazısı abidələri, 4 cilddə, IV cild. Qədim uyğur yazısı abidələri, II hissə. Bakı, «Elm və təhsil», 500 s.

*Binark, İ.* (2002). Uyqurlarda matbaa.Yeni Türkiye III cilt, Ankara. S.40-66.

*Zieme, P.* (1982). Uygur yazısıyla yazılmış Uyğur yazıtlarına dair bazi düşünceler. Türk dili araştırmaları yıllığı. Cilt:30-31, S.229-247.

*Turan, Osman*. (2006). Türk Cihan hakimiyyeti mefkuresi tarihi. Ötüken neşriyyatı, İstanbul. 549 s.

*Yasin, Y.* (2011). Uygur yazısının tarihi dönemleri ve yayıldığı bölgelere bir bakış. Dil araştırmaları, №9. S.91-103.

*Pelliot, P.* (1995). Uyğur yazısı ile yazılmış Uyğur destanı üzerine. Ankara. 103 s. (çev.V.Köken).

*Şerbak, A.M.* (2014). Uygur alfabesi hakkında. (çev.Ö.Tabaklar). İlmi araştırmalar. S.189-194.

*Ağca, M.* (2019).Türk dil ve kültür evreninde eski uygur türklerinin yeri. Türk Ekini. S.50-54.

# AZƏRBAYCANIN QARABAĞ HƏQİQƏTLƏRİ VƏ ERMƏNİ TERRORİZMİNİN AĞ BAYRAĞI

**Tahir AĞAYEV**
Bakı Dövlət Universiteti,
Sosiologiya kafedrasının dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru,
*Azərbaycan, BAKI*
t.aqaev@mail.ru

**Fazil VAHİDOV**
Bakı Dövlət Universiteti,
Sosiologiya və Politologiya kafedrasının dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru,
*Azərbaycan, BAKI*
t.agaev@mail.ru

## XÜLASƏ

Məqalədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri, Ermənistanın uzun illər ərzində Azərbaycan xalqına qarşı həyata keçirdiyi təcavüzkarlıq siyasəti, eləcə də II Qarabağ müharibəsində Azərbaycanın qələbəsini şərtləndirən amillərdən bəhs edilir. Həmçinin, uzun illər Ermənistanın terrorizm, saxtakarlıq və vandalizm yolu ilə tarixi həqiqətlərin ziddinə olaraq, ölkəmizə qarşı ərazi iddiasında olması, Rusiyanın Qafqaz siyasətini təhrif etməsi, bölgədə vəziyyəti gərginləşdirməsi məsələləri araşdırılır. Post-konflikt dövründə Azərbaycan-Ermənistan münasibətləri, bu problemə dair təklif və tövsiyələr, xarici qüvvələrin regionda maraq, məqsəd və mənafeləri də təhlil olunur. Məqalədə belə bir fikir əsaslandırılır ki, münaqişə problemini etiraf etmək və onun həllinə yardım göstərmək həm tarixi baxımından, həm də qərarlaşmış münasibətlər baxımından daha əhəmiyyətlidir.

**Açar sözlər:** münaqişə, terrorçuluq, post-konflikt, tarixi həqiqətlər, tarixi saxtakarlıq, ikili standartlar, dövlətlərarası münasibətlər.

# AZERBAIJAN KARABAKH RULES AND ARMENIANS THE WHITE FLAG OF TERRORISM

**Tahir AGHAYEV**
Baku State University,
Associate Professor of the Department of Sociology, PhD
Azerbaijan, BAKU
t.agaev@mail.ru

**Fazil VAHIDOV**
Baku State University,
Associate Professor of the Department of Sociology and Political Science, PhD
Azerbaijan, BAKU
t.agaev@mail.ru

## SUMMARY

The article discusses the historical roots of the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict, the policy of aggression carried out by Armenia against the Azerbaijani people for many years, as well as the factors that determined Azerbaijan's victory in the Second Karabakh War.

Also, the issues of Armenia's territorial claims against Azerbaijanis, Russia's distortion of the Caucasus policy, and tension in the situation in the region, contrary to historical facts, through terrorism, forgery, and vandalism, are being investigated. Azerbaijan-Armenia relations in the post-conflict period, proposals and recommendations regarding this problem, interests, goals, and benefits of foreign powers in the region are also analyzed. The article justifies such an idea that the conflict and helping to resolve it is more necessary both historically and in terms of settled relations.

**Key words***:* conflict, terrorism, post-conflict, historical truths, historical fraud, double standards, interstate relations.

Hər bir xalqın tarixi çox ciddi və önəmli bir problemdir; bu tarix əsaslı elmi təhlillərə istinad etməli, faktları düzgün, obyektiv araşdırmalı, ağ ləkələrdən mümkün qədər uzaq olmalıdır. Bir şərq müdrikliyində deyilir ki, "Tarix ... gəminin arxasındakı işıqlar kimidir – ancaq iz buraxır. Tanrı mənə qüvvət versin ki, bacardığımı dəyişdirim, fədakarlıq versin ki, dəyişdirə bilmədiklərimi qəbul edim və müdriklik versin ki, birini digərindən fərqləndirə bilim [Mahmudov və b., 2005: 3]. Biz tarixin buraxdığı izi həyatın reallığı kimi hərtərəfli araşdırmaqla nəyin dəyişməli olduğunu, nəyi qəbul etməyin məqbulluğunu, bunların fərqli məqamlarını dəqiqləşdirə bilərik, keçiləcək yolu optimallaşdırmağı bacararıq. Lakin görkəmli filosof G.Hegelin qeyd etdiyi kimi, işin mahiyyəti öz məqsədi ilə yox, özünün həyata keçirilməsi ilə ehtiva olunur.

Tarixi faktların, hadisələrin necə təqdim olunması ilə tanışlıq göstərir ki, son iki əsr ərzində bu məsələ kifayət qədər aktuallaşıb. Bu baxımdan bəzi məqamları yığcam şəkildə nəzərdən keçirməyə ehtiyac vardır.

14 fevral 2012-ci ildə Rusiya Federasiyası prezidentinin 183 saylı fərmanı ilə 2012-ci il Rusiyanın tarixi ili elan edilmişdir [14 fevral 2012-ci ildə Rusiya prezidentinin 183 saylı fərmanın surəti]. Fərman istər Rusiya tarixində, istərsə də dünya tarixi prosesində Rusiyanın roluna cəmiyyətin diqqətini gücləndirməyi, bu ölkənin milli maraqlarına zərər vurmaq məqsədi ilə tarixi faktların və hadisələrin saxtalaşdırması cəhdlərinin qarşısını almağı nəzərdə tutur. Araşdırmalar göstərir ki, Rusiya kimi böyük dövlətçilik ənənələrinə malik olan ölkənin tarixində müxtəlif səbəblərlə əlaqədar müxtəlif xarakterli ağ ləkələr mövcuddur. Amma, axı onlar mövcuddur. Onları şərti olaraq üç dövrə bölmək olar.

Birinci dövrə nəzər salmaq üçün XIX əsrin sonlarına qayıdaq. Çar III Aleksandr erməni millətçiliyinə qarşı qətiyyətli ölçülər görülməsi ilə bağlı 1882-ci ildə Daxili İşlər naziri Tolstoya müvafiq göstərişlər verir. 80-ci illərin sonlarında hökumətin sərəncamı ilə, demək olar ki, bütün ermənilər yüksək dövlət vəzifələrindən kənarlaşdırılır. 1885-ci ildə 160 erməni prixod məktəbi bağlanır. 1889-cu ilin mart ayında Ermənistanın tarixi və coğrafiyasının tədrisinin orta məktəb proqramından çıxarılması haqqında fərman verilir. Bu sərt tədbirlər daşnakların Rusiyanın dövlət quruluşunun əsaslarını dağıtmağa yönələn xain niyyətlərinə adekvat cavab idi.

1902-ci ildə rus çarı II Nikolay erməni kilsəsinin mülkiyyətinin müsadirəsi və erməni məktəblərinin bağlanması haqqında fərman vermiş, erməni kilsəsinin fəaliyyətinə qadağalar qoymuş, Rus pravoslav kilsəsi erməni kilsəsini lənətləyən çağırışlar etmişdir. Faktlar göstərir ki, II Nikolay öz babası I Nikolayın siyasətinin tam əksinə olaraq, bu qədər radikal tədbirlər görməyə məcbur olması səbəbsiz deyildi.

Məsələ ondadır ki, birinci rus inqilabı ərəfəsində bütün Qafqaz üzrə bir çox erməni kilsələrində gizli silah saxlanan yerlər, döyüş sursatları, qeyri-leqal mətbəələr aşkar edilmişdir. Çar mütləqiyyəti anlamışdır ki, Qafqazdakı təbii görünən çaxnaşmalar xaricdən idarə olunur və başlıca tədbirlər erməni təşkilatları, əsasən Daşnaksutyun vasitəsilə həyata keçirilir. Erməni terrorçularının cinayətkarlığı haqqında məlumatları B.Veliçko, imperator Elmlər Akademiyasının müxbir üzvü

N.Kaptelev, kilsənin tarixi üzrə doktor A.Annunskiy, məşhur qafqazşünas İ.Kanadeyev və başqaları ürək ağrısı ilə yazmışlar. Amma bu gün həmin müəlliflərə az diqqət yetirilir. Rusiya tarixinin bu səhifələrində ağ ləkələr hələ də qalmaqdadır.

1912-ci ildə Peterburqda 150 müttəhim və 850 şahid cəlb edilməklə Daşnaksutyun partiyasının üzərində möhtəşəm məhkəmə prosesi getmişdir. Təsəvvür etmək çətin deyildir ki, XX əsrin birinci onilliyində Rusiyanın ərazisində erməni millətçilərinin qanlı terroru hansı həddə çatmışdır.

Məlum həqiqətdir ki, erməni millətçi hərəkatının əsasını terror təşkil edir. Mütəmadi olaraq dövlət məmurlarına qarşı bir sıra sui-qəsdlər təşkil edilirdi. 1903-cü ilin oktyabrında terror dalğası özünün ən yüksək pik nöqtəsinə çatdı. Erməni terroristləri Rusiyanın Qafqazdakı canişini knyaz Q.S.Qolitsını ağır yaraladılar. Başından xəncər zərbəsi almış knyaz tezliklə öldü. Araşdırmalar göstərir ki, 1897-ci ildə Q.S.Qolitsın Tiflisdə və Bakıda ermənilərin bütün hakimiyyəti ələ keçirdikləri barədə məlumatlar vermişdir. Buna görə də çar ermənilərin şəhər seçkilərində iştirakdan tamamilə kənar edilməsi haqqında fərman vermişdir. Çar məmurlarına Daşnaksutyun partiyasından erməni terrorçularının hücumu II Nikolayı Daşnaksutyunun fəaliyyətini qadağan etməyə məcbur etdi və uzun müddət ərzində partiya qanundan kənar elan edildi [https://genprosecutor.gov.az/az/page/azerbaycan/ermeni-terroru].

Rusiya milli tarixində ağ ləkələrin ikinci dövrü M.S.Qorbaçovun Sovet İttifaqı Kommunist Partiyası MK-nın birinci katibi vəzifəsində fəaliyyəti ilə erməni terrorçularının Qafqazda tam şəkildə fəallaşmasına, qol-qanad açmasına kömək etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2020-ci ilin oktyabrın 28-də Rusiyanın İnterfaks agentliyinin müxbirinə müsahibə verərkən demişdir: ”Son 200 ilin tarixini, Qafqazın tarixini izləsək, ermənilərin ucbatından neçə müharibə baş verməsini, onların başqa ölkələr üçün necə təxribat yaratmasını görərik”. [“Azərbaycan” qəzeti, 2020].

1988-ci ildə Daşnaksutyunun ofisi Afinadan Yerevana köçdü və bu hadisə sovet dövlətinin əsas televiziya proqramlarında təntənəli surətdə nümayiş etdirildi. Beləliklə, Rusiyanın dövlət quruluşuna qarşı sistematik vandalizm aktlarına görə qadağan edilmiş partiya SSRİ-nin dağılması ərəfəsində Rusiya imperiyasının yeritdiyi siyasətin ön cəbhəsinə qayıtdı. Elə bu dövrdə də, M.S.Qorbaçov Dağlıq Qarabağın Ermənistana verilməsinin mümkünlüyü barədə Daşnaksutyun partiyasının liderlərinə vədlər verdi. Daşnaksutyun Ermənistanda əsas sistem təşkil edən, şovinist bir partiya olaraq Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlarda daim barışmaz mövqelər göstərirdi. Burada ciddi izah tələb edən ağ ləkələr hələ də qalmaqdadır. Həmin ağ ləkələrin arxasında hiyləgərliyin və saxtalaşdırmanın çoxəsirlik tarixi durur. Yeni dünya nizamının formalaşdığı müasir dövrdə onların araşdırılması və aradan qaldırılması mühüm əhəmiyyət kəsb edir.

Sözügedən dövrdə SSRİ-ə rəhbərlik edən şəxslərin Dağlıq Qarabağ münaqişəsinə münasibətdə ciddi yanlışlıqlara və qanun pozuntularına yol verdikləri məlumdur. Məlumdur ki, həmin dövrdə Ermənistan SSRİ Ali Sovetinin Dağlıq Qarabağı Ermənistana birləşdirmək haqqındakı qərarı SSRİ Konstitusiyasına zidd idi və bu problem həmin anda həll oluna bilərdi. Lakin M.S.Qorbaçov nəinki ermənilərin bu qanunazidd hərəkətinin qarşısını almamış, əksinə, onların bu separatçı, işğalçı siyasətinə dəstək vermişdi. Nəticədə bu yanlışlıq, ədalətsizlik, xristian həmrəyliyi sovet dövlətinin özünün başında çatlamış SSRİ-nin süqutunu şərtləndirən mühüm səbəblərdən biri olmuşdur.

Üçüncü ağ ləkələr dövrü isə müstəqillikdən sonrakı mərhələni əhatə edir. Özünü SSRİ-nin varisi elan etmiş Rusiya dövləti, gözləntilərin əksinə olaraq, sözügedən məsələdə Sovet İttifaqının səhvlərindən yetərincə nəticə çıxarmamışdır, bu yanlış siyasəti xeyli dərəcədə davam etdirməkdədir. Bu münaqişədə Rusiya ATƏT-in Minsk qrupunun üzvü kimi öz öhdəliklərini icra etmək əvəzinə, Türkiyə Cümhuriyyətinin prezidenti Rəcəb Tayyib Ərdoğanın dediyi kimi, digər üzv dövlətlərlə birlikdə 28 ildir ki, hər vasitə ilə işğalçı Ermənistan dövlətinə köməklik göstərməkdə davam edir.

Cəzasızlıqdan, zəruri təzyiqlərin olmamasından istifadə edən Ermənistanın silahlı birləşmələri 27 sentyabrda ölkəmizin yeni ərazilərini işğal etmək məqsədi ilə bir sira istiqamətlərdən şəhər və kəndlərimizi artilleriya atəşinə tutmuşdur. Bununla da, Azərbaycan üçün vətən müharibəsi xarakteri daşıyan 2-ci Qarabağ müharibəsi başlanmışdır. Ölkəmizdə qismən səfərbərlik elan edilmiş, bir sıra şəhər və rayonlarda müharibə qaydalarına uyğun olaraq komendant saatı müəyyən edilmişdir. Əks-hücum əməliyyatına keçən rəşadətli ordumuz qısa bir müddət ərzində 5 şəhər, 3 qəsəbəni, 300–ə yaxın kəndlərimizi işğaldan azad etmişdir. 44 günlük müharibədə Azərbaycan ordusu döyüş meydanında Ermənistanı darmadağın etməklə, 30 ilə yaxın davam edən işğala son qoydu. Ermənistan ağ bayraq qaldıraraq təslim oldu.

Uğurlarımızı gözügötürməyən qüvvələr (elə ATƏT-in Minsk qrupunun üzvləri) hər vasitə ilə ölkəmizə təzyiq göstərərək müharibənin dayandırılması, atəşkəs elan edilməsinin vacibliyinə çağırışlar edirlər. Hərbi əməliyyatların getdiyi bir şəraitdə atəşkəs çağırışları ilk öncə erməni işğalçılarına qüvvələrini səfərbər etmək, yeni silahlar gətirmək istəyinə xidmət edir. Bütün bunlara baxmayaraq, ölkəmiz atəşkəsə razılıq versə də, müvafiq qaydalara əməl etsə də, erməni işğalçıları min bir dil tökərək elan olunmuş humanitar atəşkəsə əməl etməyərək müharibə zonasından xeyli uzaqda yerləşən Gəncə, Bərdə, Mingəçevir və digər şəhərlərə raket artilleriya zərbələri endirirlər. Xüsusi ilə, gecə yarısı qadağan olmuş raketlərlə Gəncədəki yaşayış məntəqələrinə endirilmis zərbələr erməni terrorunun, vəhşiliyinin, insanlığa sığmayan hərəkətlərinin yeni səhifəsidir. Bu müharibə cinayətlərinin nəticəsində yüzlərlə yaşayış evləri dağıdılmışdır. Dinc sakinlər və uşaqlar arasında çox sayda ölənlər və yaralanalar vardır.

Rusiyanın milli tarixinin müstəqillik dövründə ağ ləkələrin aradan qaldırılmasının mühüm istiqamətlərindən biri Dağlıq Qarabağ münaqişəsinə münasibətlə bağlıdır. Sirr deyil ki, Rusiya 80-ci illərin sonunda baş vermiş bir sıra hadisələrə, məsələn, (Sumqayıt, konfliktin mahiyyəti və s.) obyektiv yanaşma sərgiləməmiş, əksər hallarda erməniləri müdafiə etmişdir. Münaqişə aktiv hərbi qarşıdurmaya çevrildikdən sonra prezident V. Putin Valday diskussiya klubunda çıxış ederkən müharibənin Azərbaycan dövlətinin ərazisində getdiyi üçün Rusiyanın müdaxilə etməyəcəyini bəyan etmişdir. Qafqaz bölgəsində yaranmış geosiyasi şərait, Putinə görə, dövlətin milli maraqlarının xarici siyasətdə prioritet kimi dəyərləndirilməsini aktuallaşdırır. Beləliklə, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll ediməsi Rusiyanın daxilində də təhdid xarakterli separatçı meyillərin aradan qaldırılmasına, suverenlik maraqlarına və sabitliyin qorunmasına tamamilə uyğundur.

Ermənistan isə keçdiyi yolu diqqətlə təhlil etməli, vandalizmdən imtina etməli, terrorçu təşkilatlarını buraxmalı, dəyişən reallıqları hərtərəfli nəzərə almalıdır. Bilməlidir ki, terrorizim siyasi cəhətdən motivləşdirilmiş qeyri-hümanist fəaliyyət olub, özündə sosial-psixoloji (qorxutma, hədələmə) və fiziki (zorakı fəaliyyət) komponentləri birləşdirir. Ən müxtəlif formalarda təzahür edir, bir sıra hallarda cinayətkarların, pisxopatların imkanlarından yararlanır. Erməni terrorizmi artıq çoxdan milli hüdudları aşıb, beynəlxalq arenada möhkəmlənmək üçün öz səylərini artırmaqla yeni-yeni fəlakətlər törədir. Terrorist qruplar müxtəlif vasitələrdən istifadə edirlər: müəyyən insan qruplarının oğurlanması, ictimai yerlərdə bomba partladılması, təyyarələrin, digər nəqliyyat vasitələrinin qaçırılmasına cəhtlər göstərilməsi, mülkiyyət, vəsait əldə etmək üçün qarışıqlıq salması, bankların talan edilməsinə, işgəncə verilməsinə cəhtlər və s. bu qəbildəndir. Belə qrupların fəaliyyəti dövlətə qarşı çevrilə bilər, sabitliyin pozulmasına xidmət edə bilər, dövlət tərəfindən təşkil olunaraq terrorizim kimi də təzahür edə bilər. Adətən terrorçu qrupların məqsəd və tələbləri çoxşaxəli olub, geniş diapazonu əhatə edir.

Azərbaycan Ermənistanın terrorizimınə, vəhşiliyinə və vandalizminə qarşı uğurla müharibə aparır. Müstəqilliyimizi möhkəmləndirmək üçün müxtəlif istiqamətli tədbirlərin reallaşdırılması nə qədər vacib olsa da, onu qoruyub saxlamaq, qüdrətli bir ölkəyə çevrilmək əsl müstəqilliyə çatmaq üçün bu hələ azdır. Ulu Öndər qeyd edirdi ki, “Gərək hər bir insan və xüsusən gənc nəsil

müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumağa və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır olsun. Bunun üçün isə o, ilk növbədə yüksək mənəviyyata malik olmalıdır. Xalqımızın milli - mənəvi dəyərləri onun şəxsiyyətinin mahiyyətini təşkil etməlidir" [Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında: Azərbycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına Müraciəti, 2001:119].

Yazımızı görkəmli sosioloq R. Darendorfun münaqişələrlə bağlı əsaslı bir mülahizəsi ilə bitirmək istəyirik: "Kim münaqişələrin etiraf olunması və nizamlanması yolu ilə onların öhdəsindən gələ bilirsə, o, tarixin ritmini öz nəzarətinə götürür. Kim bu imkanı əldən buraxırsa, ritmi özünə düşmən kimi qəbul edir" [Капитонов, 2006: 266].

Bəli, Azərbaycan xalqı tarixin ritmini öz nəzarətinə götürərək 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanatın müddəalarına zidd olaraq Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin mövcudluğunu davam etdirməsi, regional sülh və sabitlik, həm də burda yaşayan əhali üçün ciddi təhlükə mənbəyi olması ilə barışmadı.

2023-cü ilin sentyabrın 19- da düşmənin pozuculuq fəaliyyətinə son qaymaq və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədi lə ordumuz Qarabağ bölgəsində Ermənistan silahlı qüvvələrinin qanunsuz hərbi birləşmələrinə qarşı lokal xarakterli antiterror əməliyyatı keçirdi. Bu tədbirlər çərçivəsində Azərbaycan Ordusu yüksək peşəkarlıq nümayiş etdirərək qanunsuz erməni silahlı birləşmələrinin ön xətt və dərinliklərdə olan mövqelərini, döyüş vasitələrini, hərbi obyektləri və infrastrukturunu nöqtə atışlı zərbələrlə məhv etdi. Ermənistan silahlı qüvvələrinin qanunsuz hərbi birləşmələri ağ bayraq qaldıraraq təslim oldu. Son iki yüz illik tarixdə ilk dəfə olaraq Azərbaycan müharibədən ərazi bütövlüyünü bərpa edərək çıxdı. Bu qələbə özünün əhəmiyyətinə və regionda gedən proseslərə təsir imkanlarına görə Azərbaycan dövlətinin imkanlarını nümayiş edirdi, nüfuzunu gücləndirdi. 15 oktyabr 2023-cü ildə Prezident İlham Əliyev Xankəndi şəhərində çıxış edərkən demişdir: "Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir ... Azərbaycan xalqı elə bir qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də əbədi bu qələbə bizimlə olacaq. Əbədi bu qələbə bizim tariximizdə olacaq. Bizdən sonra gələn nəsillər əbədi bu qələbə ilə haqlı olaraq, fəxr edəcəklər." ["Azərbaycan" qəzeti, 2023].

## Ədəbiyyat:

*Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında: Azərbycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına Müraciəti*: Bakı: (2001). Bakı Unversiteti nəşriyyatı,

*"Azərbaycan" qəzeti*, (2020). 29 oktyabr.

*"Azərbaycan" qəzeti*, (2023). 16 oktyabr.

*Mahmudov, Y. və Şükürov, K.* (2005). Qarabağ. Real tarix, faktlar, sənədlər." Təhsil" nəşriyyatı. Bakı.

*Qaraoğlu, F.* (2013). Ermənistan və həqiqətlər (Rəsmi sənədlərlə) IV cild, Bakı.

*14 fevral 2012-ci ildə Rusiya prezidentinin 183 saylı fərmanın surəti.*

*Капитонов, Э.А.* (2006). Социология XX века. Ростов на Дону: Издательство «Феникс».

https://genprosecutor.gov.az/az/page/azerbaycan/ermeni-terroru

# İLK AZƏRBAYCAN CÜMHURİYYƏTİNİN QADIN SİYASƏTİNİN MÜASİR DÖVRDƏ TƏCƏSSÜMÜ

**Sevda SÜLEYMANOVA**
Bakı Dövlət Universiteti,
Tarix fakültəsi, tarix elmləri doktoru, professor
*Azərbaycan, BAKI*
s.u.suleymanova@mail.ru

## XÜLASƏ

Müasir dövrdə qadınların kişilərlə bərabər hüquqlara malik olması, təhsil alması, yüksək dövlət vəzifələrində çalışması, lider olması çox vacibdir. 19-cu əsrin sonu, 20-ci əsrin əvvəllərində Azərbaycan qadınlarının əksəriyyətinin savadsızlığı onların ictimai-siyasi hərəkatdan kənarda qalmasına səbəb olmuşdur. Avropa, rus və yerli ziyalılar, mətbuat bunun səbəbini müsəlman qadının İslam dininə görə heç bir haqqının olmamasında görürdü. Bununla belə, Cənubi Qafqazın Şeyxülislam Axundu Əbdüssəlam Axundzadə yeni nəslin tərbiyəsində ən mühüm rolun anaya aid olduğunu vurğulayıb: "Uşaqlar ananın bütün keyfiyyətlərini özlərində hopdururlar. İslam dini kişilər üçün təhsildə heç bir fərq qoymur. və qadınlar Məhəmməd peyğəmbər "elm əldə etmək bütün müsəlman kişilər və qadınlar üçün vacibdir" dedi.

**Açar sözlər:** Azərbaycan Cümhuriyyəti, maarifçilik, ictimai-siyasi hərəkat, qadın siyasəti, Müstəqil Azərbaycan Respublikası, Ümummilli lider

# THE WOMEN'S POLICY OF THE FIRST REPUBLIC OF AZERBAIJAN INCORPORATION IN THE MODERN PERIOD

**Sevda SULEYMANOVA**
Baku State University,
Faculty of History, doctor of historical sciences, professor
*Azerbaijan, BAKU*
s.u.suleymanova@mail.ru

## SUMMARY

In modern times, it is very important for women to have equal rights with men, to receive education, to work in high government positions, to be leaders. At the end of the 19th century and the beginning of the 20th century, the illiteracy of the majority of Azerbaijani women caused them to be excluded from the social and political movement. European, Russian and local intellectuals, as well as the press, saw the reason for this in the fact that a Muslim woman had no rights according to the Islamic religion. However, South Caucasus Sheikhul-Islam Akhund Abdussalam Akhundzade emphasized that the most important role in the upbringing of the new generation belongs to the mother: "Children imbibe all the qualities of the mother in themselves. Islam does not make any difference in education for men and women. Prophet Muhammad said that "acquiring science is important for all Muslim men and women."

**Key words:** Republic of Azerbaijan, enlightenment, socio-political movement, women's policy, Independent Republic of Azerbaijan, National leader.

## GİRİŞ

Müasir dövrdə qadınların kişilərlə bərabər hüquqa malik olması, təhsil alması, yüksək dövlət vəzifələrində çalışması, lider olması çox vacibdir. XIX əsrin sonu - XX əsrin əvvəllərində azərbaycanlı qadınların böyük əksəriyyətinin savadsızlığı, onların ictimai-siyasi hərəkatdan kənarda qalmalarına səbəb olmuşdu. Avropa, rus və yerli ziyalılar, eləcə də mətbuat bunun səbəbini, guya İslam dininə görə müsəlman qadının heç bir hüququnun olmamasında görürdülər. Halbuki Cənubi Qafqazın Şeyxülislamı Axund Əbdüssəlam Axundzadə yeni nəslin tərbiyəsində ən mühüm rolun anaya məxsus olduğunu vurğulayırdı: "Uşaqlar ananın bütün keyfiyyətlərini özlərində əxz etdirirlər. İslam dini kişi və qadınlara təlim-tərbiyə məsələsində heç bir fərq qoymur. Məhəmməd Peyğəmbər demişdir ki, "Elmlərə yiyələnmək bütün müsəlman kişi və qadınlar üçün vacibdir" [Kaspi,1901].

Ə.Ağayev "İran qadını" əsərində yazır ki: "Məhz islamçılıq onu … qısa bir müddət ərzində gərəkli bir varlığa, qüdrətli tərəqqi carçısına çevirdi" [Xəzər, 190: 92]. Məhəmməd Peyğəmbər qız uşağının doğulmasını ulu göylərin xüsusi xeyirxahlığı adlandırır, ananın ayaqlarının dəydiyi yeri cənnət hesab edirdi. Beləliklə, islam hüququ, Şərq qadınına daha geniş fəaliyyət meydanı verirdi. Ə.Ağaoğlu qadının zəngin mənəvi dünyası olduğunu qeyd edərək yazırdi: "O, ömür sürür, bu həyata elə-belə gəlmədiyini sübut etməyə çalışır, ailə yükünün altına zərif çiynini mətanətlə verir, evdə, çöldə-bayırda, tarlada ərinin sağ əlinə çevrilir. O, cəsarət və sədaqət rəmzidir, işə, zəhmətə nə qədər bağlıdırsa, öz ərinə, övladlarına sevgiləri daha sonsuzdur" [Xəzər, 1990: 94-95].

Azərbaycan qadını da bütün bu keyfiyyətləri özündə təcəssüm etdirməklə yanaşı, başqa müsəlman qadınları kimi işıqsız və havasız qapalı vəziyyətdə yaşayırdı. Bu isə onun savadsız və ümumi mədəni inkişafdan geri qalmasına səbəb olurdu. Azərbaycan qadınının ağır vəziyyəti ilə bağlı "Vestnik Evropı" jurnalı 1900-cü ildə yazırdı ki, Bakı küçələrində qadına rast gəlmək mümkün deyildi. Evdən çıxmaq məcburiyyətində qalanlar isə başdan ayağadək uzun örtüyə bürünərək gün işığından qorxan ürkək məxluq təəssüratı yaradırlar [Вестник Европы, 1900:295]. Azərbaycanda "qadın məsələsi"ni doğuran səbəblər də məhz onların aşağı hüquqi və sosial statusu, qadın təhsili sisteminin olmaması, ona münasibətdə ayrı-seçkilik salan qanunlar idi. Müsəlman modernizminin ardıcıllarından olan H.Şirvanski çox düzgün olaraq düşünürdü ki: "Qadının vəziyyəti ölkənin və yaxud xalqın mədəni inkişaf göstəricisidir [Ширванский, 1907].

Məhəmməd ağa Şahtaxtlı hələ 1896-cı ildə yazırdı ki: "Qadın təhsili elementar ümumtəhsil bilgiləri verəcək və islam dünyasını "köklü sosial mərəzdən" sağaldacaq", çünki "qadınların yaşadığı qapalı həyatda fiziki və zehni sağlamlıq üçün vacib olan hərəkətlərin, özünü idarə etmək və fəaliyyət azadlığının yoxluğu onları dəymə-düşər və miskin, solğun və ölgün edir. Təbii ki, ana öz qüsurlarını irsən təkcə öz qızlarına deyil, həm də oğlanlarına ötürür" [Шахтахтинский, 1989: 311]. Buna görə də Bakıda 1901-ci ildə Hacı Zeynalabdin Tağıyevin vəsaiti ilə ilk rus-müsəlman qızlar məktəbinin açılması bütün müsəlman-türk dünyasında mühüm hadisə oldu. Belə ki, Azərbaycan qadınını bu ağır vəziyyətdən yalnız məktəb-təhsil çıxara bilərdi.

XIX-XX əsrlərdə savadlı azərbaycanlı qadınların sayının günü-gündən artması onların cəmiyyətdə rolunu artırdı. Bu mənada, böyük mesenat, milli burjuaziyanın ən görkəmli nümayəndəsi H.Z.Tağıyevin 1901-ci ilin oktyabr ayında açdığı qızlar məktəbinin Azərbaycan qadınlarının ziyalı təbəqəsinin meydana gəlməsində xüsusi rolu olmuşdur. Məhz həmin məktəbin müəllimləri və məzunları azərbaycanlı qadınların sosial həyatda, xüsusilə ictimai-siyasi hərəkatda fəal iştirakına vəsilə oldular. Onlar ilk növbədə Müsəlman qadın xeyriyyə cəmiyyətləri yaradaraq onların savadlanması və cəmiyyət üçün yararlı olmaları uğrunda mübarizə aparırdılar. 1917-ci il fevral burjua inqilabından sonrakı dövrdə Azərbaycan qadınlarının siyasi aktivliyi daha da yüksəldi [Əliyeva, 2018: 152]. Aprelin 15-dən 20-ə qədər Bakıda keçirilən Qafqaz müsəlmanlarının, may ayında isə Moskvada Ümumrusiya müsəlmanlarının I qurultaylarında iştirak etməsi Azərbaycan qadınlarının ictimai-siyasi hərəkatda fəaliyyətini sübut edir.

## ƏSAS HİSSƏ

1918-ci ilin 28 may günü Müsəlman Şərqində ilk Xalq Cümhuriyyətini elan etmiş Azərbaycan xalqının, o cümlədən qadınının həyatına bir günəş doğdu. Azərbaycan Cümhuriyyətinin həmin gün qəbul etdiyi ilk proqram sənədi olan "İstiqlal bəyannaməsi"nin 4-cü bəndində milli mənsubiyyətindən, dini etiqadından, sosial mənşəyindən və cinsindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşlarına vətəndaşlıq və siyasi hüquqlarına zəmanət verilirdi [Əhmədov, 2018:148]. Bu isə, demokratik ABŞ və Avropadan xeyli əvvəl məhz Azərbaycanda ilk dəfə qadınların kişilərlə hüquq bərabərliyinin rəsmən elan olunması demək idi. İlk mərhələdə deklarativ xarakter daşıyan bu prinsipləri həyata keçirərkən fədakar vətənpərvər Cümhuriyyət qurucuları ağır çətinliklərlə qarşılaşdılar. Milli Şuranın və Fətəli xan Xoyskinin başçılıq etdiyi müvəqqəti hökumətin demokratik dəyişikliklər etmək cəhdi, xüsusilə qadınlara kişilərlə bərabər hüquq verməsi cəmiyyətin bəzi dairələri tərəfindən onların imtiyazlarına təhlükə kimi qiymətləndirilirdi.

23 avqust 1918-ci il tarixli "Azərbaycan vətəndaşlığı haqqında" Əsasnamə və 11 avqust 1919-cu ildə Parlamentin qəbul etdiyi "Azərbaycan vətəndaşlığı haqqında" Qanunda da milli, siyasi, dini, sosial və cinsi mənsubiyyətindən asılı olmayaraq, vətəndaşların hüquq bərabərliyi təsbit olundu. Azərbaycan Cümhuriyyətinin seçki qanununa görə, ilk dəfə qadınlara seçib – seçilmək hüququ verildi. Azərbaycan qadınına hüquqlarını tanıdan Xalq Cümhuriyyəti qısa vaxtda dövlət daxilində bir çox islahatlar keçirdi. İlk növbədə qız və qadınların təhsilə cəlb edilməsi sahəsində tədbirlər görüldü. Milli hökumət qızların savadını artırmaq məqsədilə kurslar, ardınca məktəblər aşdı. Beləliklə, azad Azərbaycan qadını obrazı gerçəkləşdi. Ziyalı qadınlar dövlətin onlara verdiyi hüquqlardan istifadə edərək ölkənin ictimai-siyasi həyatında daha fəal iştirak etməyə başladılar. Baş nazir N.Yusifbəylinin həyat yoldaşı Eynülhəyat xanım ilk milli qız gimnaziyasında müəllim, Maarif nazirliyində inspektor işləmişdir. Sankt-Peterburqda təhsil almış ilk azərbaycanlı qızı Səlimə Yaqubova Bakıda I Ünas Milli Gimnaziyasının müdiri təyin edilmiş, Azərbaycanın milli dirçəlişinin fəal qadınb qurucularından biri olmuşdur. 1918-ci ildə Qazax qəzası xalq məktəblərinin inspektoru təyin olunmuş görkəmli maarif xadimi Mədinə Qiyasbəyli 1919-cu ildə Azərbaycanın ilk maarifpərvər qadınları Şəfiqə Əfəndizadə və Xədicə Ağayeva ilə birlikdə Bakıda öz mənzilində pedaqoji kurs açmışdı. Digər belə bir kursu Hüseyn Əfəndi Qayıbovun qızı Gövhər xanım da Bakıda öz mənzilində təşkil etmişdi.

1918-1920-ci illərdə Azərbaycanın tərəqqipərvər ziyalı qadınlarından Məryəm Bayraməlibəyova Lənkəranda, Gövhər Şövqiyyə Şamaxıda, Bülbül Kazımova Gədəbəydə, Firuzə Ağayeva, Yaqut Ağayeva, Fərəmuş Paşayeva Gəncədə, Səidə Şeyxzadə, Rəhilə Hacıbababəyova, Sara Vəzirobva, Hənifə Məlikova, Zərri Şahtaxtinskaya və b. Bakıda xalq maarifinin inkişafına böyük kömək göstərmişlər [Azərbaycan Respublikası 1991-2001, 2001:262].

Milli-azadlıq hərəkatının lideri M.Ə.Rəsulzadə cümhuriyyət dövründə qadınların vəziyyəti haqqında yazırdı: "Kişi və qadınlar... hər hansı imtiyazsız ölkənin idarə edilməsində və qanunvericilik orqanlarına daxil olmaq hüququna malik idilər" [Rəsulzadə, 1991:53].

1920-ci ilin aprel ayında RSFSR-in XI Qırmızı ordusunun təcavüzü nəticəsində müstəqil cümhuriyyətimiz süqut etdi. 70 illik sovet dövründə də qadınların əldə etdikləri hüquqları saxlandı. Azərbaycan qadını mürəkkəb və şərəfli inkişaf yolunu davam etdirdi. Qısa müddət ərzində qadınlar arasında savadsızlığın ləğvi, onların ən müxtəlif peşlərə yiyələnərək cəmiyyətdə kişilərlə bərabər hüquqlara malik olması, öz istedad və bacarığını gerçəkləşdirə bilməsi istiqamətində tədbirlər görüldü. Azərbaycan qadınları istədikləri təhsili alır, dövlət orqanlarında təmsil olunur və azad surətdə əmək fəaliyyəti ilə məşğul olurdular. Bununla belə, sovet dövründə milli və ənənəvi xüsusiyyətlər, sırf Azərbaycan qadınına məxsus cəhətləri bəzən nəzərə alınmır, məşğulluğun forması, qadının daxili tələbatı ilə bu əməyin uyğunluğu çox vaxt unudulurdu.

Azərbaycan qadınları 1980-ci illərin sonunda müstəqillik uğrunda başlayan ümumxalq hərəkatında və Ermənistanın respublikamızın ərazi bütövlüyünə qarşı təcavüzkar niyyətlərinə qarşı

mübarizədə də fəal iştirak etmidilər. Sovet ordusunun xalqımıza qarşı törətdiyi 1990-cı il 19-20 yanvar qanlı faciəsinin qurbanları arasında da qadınlarımız var.

1991-ci il 18 oktyabrda Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa olunduqdan sonra dövlətin qadın siyasəti yeni inkişaf mərhələsinə qədəm qoydu. Lakin 1991-1993-cü illərdə ölkədə gedən hakimiyyət uğrunda mübarizə digər sahələrdə olduğu kimi, qadın hərəkatının da inkişafına mane oldu. Yalnız 1993-cü il iyunun 15-də görkəmli ictimai-siyasi dövlət xadimi Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ölkədə siyasi sabitlik yaratdı, müstəqil hüquqi, demokratik dövlət quruculuğunu genişləndirmək istiqamətində addımlar atılması üçün əlverişli şərait yaratdı, qadın hərəkatına qayğı gücləndi. Ümummilli lider Azərbaycan qadınının mərdliyini, dözümlüyünü, səmimiyyətini, sədaqətini, vəfa və ismətini ən ali dəyər kimi qiymətləndirirdi.

Müstəqil Azərbaycan Respublikasının 12 noyabr 1995-ci ildə qəbul etdiyi ilk Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiq etdi və demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını yaratdı. Bu hüququndan istifadə edən qadınlar qısa müddətdə 41-ə yaxın təşkilat yaratdılar: "Sevil" Qadınlar Məclisi, Neftçi Qadınlar Cəmiyyəti, Bakı Qadınlar Assosiasiyası, "Qadın və İnkişaf" Mərkəzi, D.Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyəti, "Əsgər anaları", Şəhid anaları cəmiyyətləri və başqaları [Azərbaycan Respublikası 1991-2001, 2001:264]. Onlar Azərbaycan qadınının vəziyyətini yaxşılaşdırmaq, sosial-iqtisadi problemlərinin həlli və digər məsələləri nizama salmaq sahəsində dövlətin fəaliyyətini gücləndirmək üçün yollar axtarırdılar. Beləliklə, qadın hərəkatı müstəqillik şəraitində öz inkişafının yeni mərhələsinə qədəm qoydu və beynəlxalq əlaqələrini genişləndirdi. Azərbaycan qadın təşkilatlarının 1995-ci ilin iyulunda Pekində keçirilən IV Ümumdünya Qadınlar Konfransında iştirakı respublikamızda qadın hərəkatının ümummilli platformasının işlənib hazırlanmasıda nühüm rol oynadı.

Ölkəmizdə dövlət qadın siyasətinin əsas prinsiplərinin müəyyən edilməsi və dövlət səviyyəsinə qaldırılması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, məhz o, 1998-ci ildə "Azərbaycanda qadınların rolunun artırılması haqqında" fərman imzalamışdır. Azərbaycanda qadın hüquqlarının qorunması və onlara yüksək imtiyazların verilməsi bu siyasətin ayrılmaz tərkib hissəsidir. H.Əliyevin 14 yanvar 1998-ciil tarixli fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı və ona böyük səlahiyyətlər verildi. Bazar iqtisadiyyatının təşəkkül tapması, ölkəmizin müxtəlif sahələrində aparılan islahatlar qadınların cəmiyyətdəki rolunu artırmağı tələb edirdi. Bu məqsədlə sentyabrın 14-15-də özlərinin ilk qurultaylarını keçirdilər. Qurultayın gedişində Azərbaycan qadınları bütün ümummilli məsələlərdə daim milli dövlətçilik mövqeyindən çıxış etdiklərini nümayiş etdirdilər. Qurultayın qərarları dövlət qadın siyasətinin həyata keçirilməsi vaxtının çatdığını göstərdi. Məhz bu qurultay Azərbaycan qadınlarının ictimai-siyasi həyatında dönüş mərhələsinin başlanğıcı oldu. 2000-ci il martın 6-da "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanı elan edildi. Fərmanda Azərbaycanda qadın hərəkatının bütün sahələrinə toxunulmuş, onların rəhbər vəzifələrdə kişilərlə bərabər təmsil olunmaları, iqtisadi vəziyyətinin yaxşılaşdırılması, gender siyasətinin tələblərinin rəhbər tutulması, qaçqın və məcburi köçkün qadınların məşğulluğunun təmin edilməsi, qadınların hüquqlarının müdafiəsinin gücləndirilməsi məqsədi ilə mövcud qanunvericiliyə təkliflər verilməsi və s. öz əksini tapmışdı. Fərmanın icrasını təmin etmək üçün təsdiq edilmiş Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 26 sentyabr tarixli qərarına əsasən nazirlik, komitə, şirkət və digər dövlət müəssisələrində daxili imkanlar çərçivəsində gender məsələləri üzrə məsul şəxslər təyin edildi. Elə həmin il Nazirlər Kabineti "Azərbaycan Respublikasında Qadın Məsələləri üzrə 2000-2005-ci illər üçün Milli Fəaliyyət Planı"nı qəbul etdi.

Azərbaycan qadınlarının 2003-cü ildə keçirilən II qurultayında da çıxış edən H.Əliyev zəkası və fədakarlığı ilə seçilən qadınlarımızın əsrlər boyu böyük əziyyət və zəhmət çəkməsinə baxmayaraq, bütün bunların öhdəsindən əzmlə gəldiklərini vurğulayıb.

İlham Əliyevin 2003-cü ildən Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə dövlət qadın siyasəti yeni meyarlarla zənginləşdirilərək yüksək səviyyədə davam etdirilir. Prezident İ.Əliyevin sərəncamı ilə 2006-cı ildə Qadın Problemləri üzrə Dövlət Komitəsi Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi kimi yenidən formalaşdırıldı. Həmin ildə qadınlarla bağlı işlərin daha mütəşəkkil və ardıcıl şəkildə aparılması, ictimai həyatın bütün sahələrində bərabər hüquqların təmin olunması sahəsində hüquqi bazanın təkmilləşdirilməsi üçün "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının qanunu qəbul olundu.

## NƏTİCƏ

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Birinci xanım Mehriban Əliyeva özünün geniş fəaliyyəti ilə Azərbaycan qadınının nüfuzunu həm ölkə daxilində, həm də beynəlxalq aləmdə yüksəldərək dünya dövlətlərinə öz timsalında dərin bilik və intellekt sahibi olan vətənpərvər ziyalı, peşəkar siyasətçi, humanist, xeyriyyəçi Azərbaycan qadını obrazını təqdim edir. Heydər Əliyev Fondu da Azərbaycanda həyata keçirilən dövlət qadın siyasətinə, gender bərabərliyinin təmin olunmasına mühüm töhfələr verir. Fondun təşkilatçılığı ilə 2008-ci ildə keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda Beynəlxalq Bakı Forumu da sivilizasiyalararası dialoqda qadınların rolunun araşdırılmasında mühüm əhəmiyyət təşkil edir.

Azərbaycan ailəsində qadının yeri və rolu xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan qadını yeni nəsil həyata gətirmək, onu tərbiyə etmək, vətənə layiq böyütmək kimi çox vacib bir vəzifəni yerinə yetirməklə yanaşı ölkənin ictimai-siyasi həyatında da fəal iştirak edir.

## Ədəbiyyat:

*Azərbaycan Respublikası 1991-2001.* (2001). Bakı:XXI-Yeni Nəşrlər Evi, , .280 s.

*Əhmədov A.* (2018). Azərbaycanda qadın təhsili və maarifçiliyi sahəsində xeyriyyəçilik tarixindən (XIX ə. II yarısı, XX ə.ə.) // Cümhuriyyətə işıq saçan qadınlar. Araşdırma yazılar toplusu. "Nurlar" Nəşriyyat Poliqrafiya Mərkəzi, Bakı: 496 s.

*Əliyeva L.* Azərbaycan qadınları emansipasiya yollarında (1918-1920), "Ecoprint", Bakı:2018, 280 s.

*Xəzər*. (1990). № 2.

*Каспий*. (1901). 7 октября.

*Rəsulzadə M.Ə.* (1991). Əsrimizin Siyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 110 s.

*Шахтахтинский М.А.* (1989). Культурное значение мусульманской женской школы // Анто логия педагогической мысли Азербайджанской ССР. Москва: Педагогика, 592 с.

*Ширванский Г.* (1907). К положению мусульман // Бакинский день, 22 июля, № 36Вестник Европы, 1900, т. V, СП-б,295 с.

https://family.qov.az / *Qadin-siyaseti.*

INTERNATIONAL INTERDISCIPLINARY SCIENTIFIC CONGRESS ON SOCIAL SCIENCES / *IISCSS 2023 - BAKU*
05-06 October 2023, Baku, AZERBAİJAN
*PROCEEDİNG BOOK-2024*, ISBN: 978-9952-39-217-3

# КУЛЬТУРНЫЕ ОТНОШЕНИЯ МЕЖДУ НАРОДАМИ УЗБЕКИСТАНА И АЗЕРБАЙДЖАНА: СХОДСТВО И ВЗАИМОДЕЙСТВИЕ

**Садокат Максудовна МАТКАРИМОВА**
"УНИВЕРСИТЕТ-МАЪМУНА"
профессор кафедры “Истории НОУ”, DSc., доцент
*Узбекистан, ХОРЕЗМ*
ms.mnm.79@mail.ru

**Назокат Максудовна МАТКАРИМОВА**
"УНИВЕРСИТЕТ-МАЪМУНА"
доцент кафедры “Истории НОУ” PhD., доцент
*Узбекистан, ХОРЕЗМ*
ms.mnm.79@mail.ru

**Аннотация**

В данной статье представлены сведения об истории культурных связей между народами Узбекистана и Азербайджана, сходстве и гармонии представителей двух национальных искусств, фольклора, музыки, танца и эпоса, музыкальных инструментов. В частности, сообщалось, что некоторые узбекские писатели, вдохновленные произведениями великих представителей азербайджанской литературы, посвятили свои произведения своим произведениям, а азербайджанские мыслители, вдохновленные узбекской литературой, в своих произведениях ссылались на их произведения. Сходство между азербайджанской и узбекской культурами особенно очевидно в музыкальном искусстве, и мы видим, что даже музыкальные инструменты практически одинаковы. В статье также представлена информация об изучении азербайджанской литературы в Узбекистане, узбекской литературы в Азербайджане и исследованиях, проводимых в этом направлении. Также в статье вновь развивается культурное сотрудничество между двумя братскими народами, редчайшие произведения народов Узбекистана и Азербайджана переводятся на языки друг друга, пропагандируются былины и эпосы, повествующие историю народа. Налаживается активное сотрудничество между государственными библиотеками, совместное кино и театральное сотрудничество, дается информация о реализации проектов. Кроме того, в статье отмечается, что активное участие представителей обеих стран в международных статусных арт-конференциях друг друга, фестивалях искусства мугама и других мероприятиях является свидетельством прочности взаимных культурных связей.

**Ключевые слова:** культура, литература, искусство, музыка, музыкальные инструменты.

# CULTURAL RELATIONS BETWEEN THE PEOPLES OF UZBEKISTAN AND AZERBAIJAN: SIMILARITIES AND INTERACTION

**Sadokat Maksudovna MATKARIMOVA**
"UNIVERSITY-MAMUNA"
Professor of the Department of "History of NOU", DSc., Associate Professor
*Uzbekistan, KHOREZM*
ms.mnm.79@mail.ru

**Nazokat Maksudovna MATKARIMOVA**
"UNIVERSITY-MAMUNA"
Associate Professor of the Department of "History of NOU" PhD., Associate Professor
*Uzbekistan, KHOREZM*
ms.mnm.79@mail.ru

## SUMMARY

This article presents information about the history of cultural ties between the Uzbek and Azerbaijani peoples, the similarity and harmony of representatives of the two national arts, folklore, music, dance and epic, and musical instruments. In particular, it was reported that some Uzbek writers, inspired by the works of great representatives of Azerbaijani literature, dedicated their works to their works, and Azerbaijani thinkers, inspired by Uzbek literature, referred to their works in their works. The similarities between Azerbaijani and Uzbek cultures are especially obvious in the art of music, and we see that even musical instruments are almost the same. The article also provides information about the study of Azerbaijani literature in Uzbekistan, Uzbek literature in Azerbaijan and research conducted in this direction. Also, the article again develops cultural cooperation between the two fraternal peoples, the rare works of the peoples of Uzbekistan and Azerbaijan are translated into each other's languages, epics and dastans telling the history of the people are promoted. Active cooperation between state libraries, joint film and theater cooperation is being established, information is provided on the implementation of projects. In addition, the article notes that the active participation of representatives of both countries in each other's international status art conferences, mugham art festivals and other events is evidence of the strength of mutual cultural ties.

**Key words:** culture, literature, art, music, musical instruments.

## ВВЕДЕНИЕ

История культурных связей между народами Узбекистаана и Азербайджана, язык, культура и искусство, обычаи и традиции которых близки друг другу, насчитывает много лет. Сходство и гармония представителей литературы узбекского и азербайджанского народов, представителей фольклора, представителей двух национальных искусств, народного устного творчества, музыки, танца и эпоса, музыкальных инструментов показывают, что эти два народа имеют одну и ту же душу и имеют общую историю. Тому есть несколько примеров.

## ОСНОВНАЯ ЧАСТЬ

Творчество одного из великих деятелей азербайджанской литературы, поэта Низами Гянджеви оказало большое влияние на узбекскую литературу. Низами Гянджеви (Низами Гянджеви - псевдоним; настоящее имя Абумухаммад Ильяс ибн Юсуф ибн Закий Муайяд, родился в 1141 году в городе Гянджа, Азербайджан, умер в 1209 году) представлял собой

сборник стихов, состоящий из 20 000 стихов. Лирические стихи поэта составлены из различных баязов и сборников. Но сохранились некоторые его фрагменты: 16 касыдов, 192 газели, 5 китъа, 68 рубаев и 17 байтов [Очилов, 2013].

Основным произведением Низами Гянджеви является «Хамса»: 1. «Махзан ул-асрар» («Сокровище тайн») помимо введения и заключения содержит 20 статей, к каждой статье прилагается по 20 рассказов. В произведении отражены важные общественно-политические и нравственно-воспитательные проблемы периода, в котором жил поэт. Позднее по результатам этого произведения было создано более 40 эпосов в персидской и турецкой литературе (в частности, «Хайрат уль-Аброр» Навои). 2. «Хусрав и Ширин» на тему любви и верности; 3. Эпос «Лейли и Меджнун» создан на основе арабских повествований; 4. Эпос «Хафт пайкар» основан на событиях, связанных с Бахромом Гёром и его именем. Произведение написано в стиле рассказа в рассказе, в них представлены идеи, связанные с воспитанием и поведением человека. В его рассказах заметно влияние народных сказок; 5. В эпосе «Искандарнома» Низами Гянджеви через образ Александра и воображаемые образы выразил свои мечты о справедливом и просвещенном царе, совершенном человеке и идеальном обществе.

Произведение Низами Гянджеви «Хамса» оказало большое влияние на развитие литературы народов Востока. Начиная с XIII века, несколько поэтов, в частности, Амир Хусрав Дехлави, Алишер Навои, Абдурахман Джами и другие, подверглись влиянию творчества Гянджеви и написали свое произведение «Хамса» [Каримов, 2010:34]. В отличие от Низами, Алишер Навои завершил «Хамсу» на туркском языке и продемонстрировал силу этого языка. Конечно, создавая эпос «Хамса», Навои чувствовал, что перед гением Низами стоит огромный вызов. Он с гордостью упоминал Низами в каждом предисловии к своим эпосам и выражал ему свое огромное уважение и преданность [Шофиев, 2017]. Это также можно узнать из этих стихов Навои:

*Эмас осон бу майдон ичра турмоқ,*
*Низомий панжасига панжа урмоқ.*

Мы не ошибемся, если скажем, что каждый азербайджанец и узбек знает эти строки наизусть.

Все узбекские поэты, начиная с Алишера Навои, считали Низами Гянджеви своим учителем. Навои упомянул его в числе шейхов в «Насаим уль-Мухаббат» [Очилов, 2013].

Поэт и переводчик Кутб Хорезми, живший в Хорезме в XIV веке, написал свой эпос «Хосрав и Ширин» по мотивам эпоса Низами Гянджеви [Каримов, 2010:34]. Кутб Хорезми поставил перед собой цель продемонстрировать богатые возможности узбекского языка при создании этого эпоса, и ему это удалось. Этот перевод был не только важным источником для изучения узбекского языка в то время, но и сыграл важную роль в развитии узбекского языка и литературы. «Хусрав и Ширин» в переводе Кутба Хорезми представляет собой редкий образец маснави в узбекской литературе после «Кутадгу билиг» и «Хибат уль-хакаик». «Хусрав и Ширин» занимает особое место в развитии узбекской эпической поэзии и развитии художественного перевода [Очилов, 2012].

В ответ на произведение Низами Гянджеви «Махзан ул-асрар» («Сокровище тайн») Хайдар Хорезми создал свой эпос «Гюльшан ул-асрар». Влияние азербайджанской литературы на узбекскую можно почувствовать и в творчестве классиков узбекской литературы, таких как Лютфи, Хорезми, Дурбек, Гадойи, Атойи, Саккоки. Поэт, историк, переводчик Мухаммад Эрниезбек угли Агахи перевел «Хафт пайкар» Низами Гянджеви, в прозе, сделав его понятным широкому кругу читателей [Жумаев, 2017].

В целом в Узбекистане отрывки из эпосов Низами Гянджеви «Семь красавиц», «Сокровище тайн», «Искандарнома» опубликованы в книгах «Гульдаста», «Избранные стихи», «Океан жемчуга», «Лайли и Меджнун», «Хусрав и Ширин» и др. Его произведения

были переведены с персидского на узбекский и опубликованы. В 1983 году Шоислам Шомухамедов опубликовал сборник стихов Низами. В нем собраны образцы од, газелей, стихов, рубаи и мудрости поэта, а также фрагменты из эпосов «Махзан уль-асрар» и «Хафт пайкар».

В связи с большим вниманием, уделяемым деятельности Низамия Гянджеви в Узбекистане, 1947 году Ташкентскому педагогическому институту было присвоено имя Низами. Также по мотивам произведений Низамия Гянджеви созданы и экспонируются фильмы, балеты, визуальные полотна.

Здесь уместно вспомнить азербайджанского поэта Мухаммада Физули. Физули считал Алишера Навои своим учителем и следовал за ним на газели. Кроме того, представители узбекской литературы также признали Физули своим учителем и отдали дань уважения его газелям (Олмос, 2017:64). В частности, примерами этого могут быть такие узбекские поэты, как Мухаммад Реза Агахи, Амир Умархан, Андалиб, Мукими, Увайси, Роким, Султан Сайид Насирхан, Табиб Хорезми, Садир Эркин. Имя Физули признано великим деятелем литературы всех тюркских народов. Эркин Вахидов, один из крупнейших представителей узбекской литературы XX века, также очень любил творчество Физули и написал посвященное ему стихотворение «У статуи Физули». Правильнее было бы сказать, что эти строки пришли в мир в результате восхищения и любви поэта:

*Еллар, бир дақиқа тўхтанг эсишдан,*
*Сернаво булбуллар, сайраманг бир оз.*
*Карбало даштида яёв кезишдан*
*Чарчаб тин олмоқда Фузулий устоз* [Шофиев, 2017].

Много связей и сходств между этими двумя народами можно наблюдать в жанре фольклора. В частности, изучение азербайджанского фольклора в Узбекистане и узбекского фольклора в Азербайджане представляет собой отдельную страницу в рамках сравнительно-типологического анализа и исследований. А.Набиев опубликовал книги «Азербайджано-узбекские фольклорные связи (на примере эпосов «Кёроглы» и «Гёроглы»)», «Типология и взаимоотношения азербайджано-узбекского фольклора» и «Народная литература Азербайджана».

Известно, что музыка, как и слова, – это загадочный мир с неограниченными возможностями. Мелодия – это средство выражения внутренних чувств человека с помощью звуков. Наши национальные музыкальные инструменты, дошедшие до нас на протяжении веков, и замечательные образцы исполняемых на них музыкальных мелодий до сих пор дарят людям радость и умиротворение своим красочным блеском и мелодичными напевами. Развитие музыкальной культуры и исполнительского искусства на земле Великого Турана восходит к глубокой древности. Великие учёные Востока Мухаммад Аль-Хоразми, Абу Наср Фараби, Ахмад аль-Фаргани, Абу Али ибн Сина, Пахлаван Махмуд, Омар Хайям, Мирза Улугбек, Захириддин Мухаммад Бабур, Абдуррахман Джами, Алишер Навои, Пахлаван Мухаммад, Наджмуддин Кавкаби, Дарвиш Али Чанги и другие предки в своих трактатах изложили ценные сведения об исполнительском искусстве, музыкальной науке и истории, строении музыкальных инструментов, методах исполнения, правилах артистизма.

В знаменитом дидактическом произведении «Кабуснома» также есть отдельная глава, посвященная правилам вежливости и артистизма. В результате исторических раскопок, проведенных в нашей стране, слова, подобные дутору, трубе, закону и флейте, выгравированные на камнях изображения музицирующих музыкантов, изображения музыкантов и хафизов в миниатюрных произведениях свидетельствуют о том, что искусство музицирования Представление развивалось в нашей стране с давних времен. Например, в Карабахском регионе Азербайджана, на склонах крепости Айритом близ Термеза, одного из древних городов Узбекистана, на музыкальных табличках, изображенных на стенах «Тупроккала»,

расположенного в Хорезмской области, изображены изображения музыкальные инструменты были найдены во время археологических раскопок, проводимых на «Хумбуз-тепе».

Сходства между азербайджанской и узбекской культурой особенно очевидны в музыкальном искусстве. Музыкальное наследие народов Востока, таких как Маком, Мугам, Дастгох, Навба, Рага, Кюи, передавалось из уст в уста из поколения в поколение. Согласно историческим источникам, мнениям мастеров-художников и научным исследованиям, в музыке народов Средней Азии, Хорасана и Азербайджана в XIII-XVII веках существовали следующие двенадцать (дувоздах) статусов. Это состоит из "Ушшака", "Наво", "Бузалика", "Роста", "Хусайни", "Хиджоза", "Рахави", "Зангулы", "Ирака", "Исфахана", "Зирофканда", "Бузурга". и др. [Маннопов, 2019:29].

У узбекского (хорезмийского) и азербайджанского народов есть схожие между собой музыкальные инструменты. По строению, способу производства звука и материалам изготовления эти музыкальные инструменты подразделяются на группы ударных, духовых и струнных смычков [Рахимов, 2022:26].

Со второй половины XIX века между Россией и народами Туркестана установились связи большого исторического и культурного значения, осуществлялась торговля. Музыкальные инструменты, такие как орган, скрипка, кларнет и фисгармония, были среди коммерческих продуктов, появившихся в тот период. Появление этих инструментов за короткий период оказало серьезное влияние на культуру узбекского народа, и они стали популярны среди народных музыкантов. К началу XX века гармошка была внедрена в традиционное музыкальное исполнительство Азербайджана, в исполнительскую практику народных музыкантов и халф Хорезма. Имена ряда мастеров, в том числе Курбана (композитора) Исмаилова в Хорезме, Сафо Муганни, Мадрахима Шерози, Джуманёза (композитора) Хаитова, Ходжи (композитора) Отаджанова, Арифа (гармониста) Тошматова в Фергане и других (с именем композитор) прославился. В Азербайджане фисгармония, среди других народных инструментов, используется в ансамблях, в частности, при исполнении национальной танцевальной музыки на фольклорных праздниках. В 50-х и 60-х годах 20 века в Узбекистане получили широкое распространение усовершенствованные виды аккордеона и баяна, которые стали известны в нашем народе как соз.

Autizm sindromlu uşaqların bu problemə necə yaxalanmaları barədə tam dəqiq səbəbin bilinməməsi ailənin düşünməsinə səbəb olur. Sindromun yaranmasında əsas səbəblər sırasına daxil olan genetika faktoru ailəni psixoloji cəhətdən sarsıdan əsas məsələdir. Autizmin səbəblərinin araşdırılması zamanı ailənin də araşdırılması bu faktorun üzərində cəmləşən səbəbdir. Azərbaycanda autizmin səbəblərinin araşdırılmasına dair geniş tədqiqatlara rastlanmasa da, Türkiyə araşdırılmasında bu səbəbin təhlilləri aparılmışdır. Türkiyədə araşdırma üçün 20 autizmli və 20 normal uşağa sahib olan ailə üzvü seçilmiş və təhlil edilmişdir. Araşdırmanın nəticəsinə görə, autizmli uşağa sahib ailənin keçirdiyi depressiya səviyyəsi normal uşağın valideyninin keçirdiyi depressiya hissindən qat qat artıqdır. Aparılan ikinci araşdırma üç ailə arasında aparılmışdır. Ailənin biri autizmli, biri xroniki xəstəliyi olan, digəri isə normal uşaq valideynləri olmuşdur. Tədqiqatın nəticələrində aşkarlanmışdır ki, xroniki xəstəliyi olan uşağın valideynlərindəki narahatlıq hissi autizmli uşağı olan valideynlərin keçirdiyi narahat hissindən daha yüksək səviyyədədir. Bu araşdırmalardan gəlinən nəticəyə görə, autizmli uşağa sahib olmaq ailəyə daha çox narahatlıq və depressiya kimi hisslər verir. Növbəti araşdırma Balton, Pickles, Murphy, Rutter tərəfindən aparılmışdır. Araşdırmanın məqsədi autizm və daun sindromlu uşaqların valideynlərini müqayisə etmək olmuşdur. Autizm uşaqlarının 99, daun sindromlu uşaqların isə 36 qohumu aparılan 35 araşdırmada iştirak etmişlər. Çıxarılan nəticəyə görə depressiya, stress, duyğu pozuntuları autizmli uşağa sahib valideynlərdə daha yüksəkdir. Shahrokh Amiri və yoldaşlarının 2016-cı ildə İran və Təbriz şəhərlərində apardığı araşdırma diqqət çəkmişdir. Araşdırmada autizmli və normal uşaqların valideynlərində görülən kliniki şəxsiyyət pozuntuları müqayisə edilmişdir. Tədqiqatda 130 autizmli uşaq valideyni və 154 sağlam uşaq valideyni iştirak etmişdir. Tədqiqatın nəticələrinə görə, autizmli uşağa sahib olan valideynlərdə kliniki şəxsiyyət pozuntuları digər valideynlərə nisbətən daha yüksək görülmüşdür. Tədqiqatda iştirak edən autizmli uşaqların valideynləri Təbrizdəki Autizm Cəmiyyətinin Reabilitasiya Mərkəzindən seçilmişlər [Воронкова, 2012: 1-17].

Autizmli uşaqların valideynlərində tədirginlik uşaqlara qoyulan autizm diaqnozundan sonra başlanılır. Belə ki, valideynlər bu vəziyyətdə necə davranacaqları və nə etməli olduqları, uşaqlarla necə vaxt keçirməli, onlara nəyi öyrətməli olduqlarını bilmirlər. Buna görə də, valideynlər üçün nəzərdə tutulan əsas davranışlar bunlardır [Чуприков, 2017: 80-88].

- Diaqnoz qoyulduqdan sonra ilk öncə valideynlərə sakit, səbrli olmaları tövsiyyə edilir.
- Uşaqların müsbətə doğru inkişafı yolunda tək bir yol yoxdur. Ona görə də, valideynlər uşaqların davranışlarını, hisslərini nəzərə alaraq davranmalıdırlar.
- Uşaq mümkün olduğu qədər təcrid edilməməyə, sosial əlaqələr ortamında olmalıdır.
- Uşaq üçün valideynlərin və yaxın qohumların birgə çalışması önəmlidir. Bütün məsuliyyəti tək valideyn fərdi öhdəsinə götürməməlidir.
- Valideynlər özlərini təcrid etməməli, hər kəsdən uzaqlaşmamalı, əksinə daha sosial olmalıdırlar. Bu onlara daha çox güc verəcəkdir
- Autizm sindromu ilə bağlı olan işlərə qatılmalı, daim yeni arayışlar və məlumatlar öyrənmə aşamasında olunmalıdır.
- Valideynlər uşaqda olan problemlərin düzgün müalicə metodları ilə zəifləyə, onun normal inkişaf edə biləcəyinə inanmalıdırlar.

- Uşaqlar valideynlər tərəfindən daim izlənməli, hansı davranışlar, hərəkətlər göstərdiklərini nəzarətdə saxlamalı, uşağın rutin, gündəlik vərdişlərin nələrdən ibarət olduğunu, nələri sevib sevmədiklərini izləməlidirlər.
- Uşağın həssas olduğu davranışlara, yaratdığı düzənə diqqət edilməli, yaratdığı düzənin pozulmamasına çalışılmalıdır.
- Uşağın edə bilmədiklərinə deyil, nələri edə bildiklərinə diqqət edilməlidir. Uşağın doğru olmayan davranışlarının tənqidinə deyil, doğru davranışların uşağa öyrədilməsinə, göstərilməsinə çalışılmalıdır.
- Autizmli uşaqlarla digər uşaqlar arasında ayrıseçkiliyə valideynlər tərəfindən yol verilməməlidir. Ailədə digər uşaq varsa, onu da diqqətdən kənar qoymamalı və autizmli uşaqla arasındakı münasibətlərin qurulmasına yön vermək lazımdır.
- Uşağın təhsil aldığı zamanda daha səbrli və diqqətli olmaq lazımdır.

Keçirilən sinir krizləri anında valideynlər tərəfindən hansı davranışlar göstərilməlidir. Bu krizlər ən çox uşaq yaşda olan autizmli uşaqlarda görülür. Uşağın istədiyi hər hansı bir şey edilmədikdə, gündəlik rutin fəaliyyətinə qarışıldıqda və ya dəyişdirilməyə çalışıldıqda, uşağın istəmədiyi bir hadisə anidən baş verdikdə bu krizlər yaşanır. Bu zaman valideyn tərəfindən diqqətə alınmalı və həyata keçirilməli olan davranışlara daxildir:

- Valideynlər uşaqda yaranan sinir krizlərinin hansı hadisələr zamanı və nələrdən yarandığını özləri üçün qeyd etməlidirlər. Beləliklə bu cür halların baş verəcəyi təqdirdə önünə keçilməsi mümkündür.
- Bu cür krizlərin baş verməsi zamanı valideyn tərəfindən hər hansı hərəkətlərə qadağa qoyulmasına çalışılmamalı, bunun əvəzinə diqqətini başqa yerə yönəltməyi bacarılmalıdır.
- Uşaqda sinir krizi başladığı zaman onun yanından uzaqlaşmaq onu sakitləşdirə bilər. Əsəbi olduğu zaman onun yanında dayanılması bu əsəbi daha çox artıracaqdır.
- Evdəki şərait mümkün qədər sadələşdirilməlidir. Belə ki, uşağın özünə zərər verə biləcəyi bütün əşyalar kənarlaşdırılmalıdır.
- Əgər bu əsəb krizləri dayanmazsa, qarşısı alına bilməyəcək hala gələrsə, ozaman bir psixoloqdan, həkimdən yardım istənilə bilər.

Autizmli uşaqların valideynləri ilə müsahibələr aparılmış və sual cavab şəklində aparılan müsahibələr zamanı onların nə hiss etdiyi, necə davrandıqları təhlili edilmişdir. Bu müsahibə gedişatı aşağıdakı şəkildə aparılmışdır [Симашкова, 2016: 288].

1. Valideynlərə ilk olaraq uşağına autizm sindromu diaqnozu qoyularkən, nə hiss etdiyi soruşulmuşdur. Müsahibə zamanı alınan nəticələrin çoxluğunda bəlli olmuşdur ki, valideynlər bu sindromun diaqnozunun qoyulmasından sonra ilk olaraq sindrom haqqında məlumatlarının olmadığını və məlumatlı olmaq istədiklərini qeyd ediblər. İlk öncə özlərini çox üzgün hiss etsələr də, daha sonra bu vəziyyəti qəbul edib öyrəşməyə başlayıblar
2. Valideynlərə verilən ikinci sualda bu sindromun digər ailə üzvlərtərəfindən necə qəbul edildiyi olmuşdur. Valideynlərin bir qisminin dediyinə görə, bu vəziyyət ailənin üzvləri tərəfindən normal qarşılanmışdır. Onlar ailə üzvlərinin bu vəziyyəti normal qarşıladıqlarından və dəstək olduqlarından bəhs ediblər. Valideynlərin bir qismi isə ailə üzvləri tərəfindən bu vəziyyətin qəbul edilmədiyini, yalnız buraxıldıqlarını və vəziyyətlə tək başına mübarizə aparmalı olduqlarını qeyd ediblər.
3. Üçüncü sual qəbul edilən vəziyyətin çətinliklərinə ilk baxışdan ibarət olub. Valideynlərin əksəriyyəti bu vəziyyətin qəbul edilməsinin onlar üçün çətinliyini vurğulayıb və qəbul etdikdən sonra yaşanan üzüntü, stress və depressiyadan bəhs edib. Bəzi ailələr isə qəbul etmə prossesində rahat olduqlarını, heç bir stresslə qarşılaşmadıqlarını, normal qəbul etdiklərini bölüşüblər.

4. Valideynlərə ünvanlanan digər sual bu vəziyyətin onların ailələrinə və həyatlarına necə təsir etdiyi ilə bağlı olub. Sualın cavabında bir çox valideyn artıq özünə məxsus həyatın qalmadığını, bütün həyatını uşağa sərf etdiyini qeyd edib. Özlərini ətraf mühitdən təcrid edərək sadəcə uşaqlarına diqqət ayırdıqlarını vurğulayıblar. Vaxtının çoxunu gəzməyə, sosial əlaqələr qurmağa sərf edən ailə artıq bu kimi sosial fəaliyyətləri dayandırmış, bütün vaxtını uşağına sərf etməyə başlamışdır. Bəzi valideynlər isə təcrid edildiklərindən bəhs ediblər. Uşaqlarının vəziyyətləri barədə çox danışılması, bu vəziyyətlə bağlı mənfi rəylərin bildirilməsi onların zamanla qonşulardan, ətrafdan uzaqlaşmasına gətirib çıxarmışdır. Bəzi valideynləri isə ailə həyatlarında heç bir dəyişiklik görülməmişdir.

5. Uşaqlar böyüdükcə, valideynlərin qayğılarının dəyişməsi ilə bağlı valideynlərə növbəti sual ünvanlanmışdır. Valideynlərin bir qismi uşaqların böyüdükcə özünə baxımlarının çətinliyini vurğulayıblar. Əsasən də tualet tədrisinin uşaq tərəfindən zəif öyrənilməsi valideynin vəziyyətini, ona baxa bilməsini çətinləşdirir. Valideynlərin çoxu uşaqlarının böyüdükcə baxımlarının da ağırlaşdığını bildiriblər. Böyüsələr də bəzi sözləri hələ də anlamamaq, keçirilən tədrisə baxmayaraq əsas özünə baxım bacarıqlarını inkişaf etdirməmək valideynin əziyyətini artırır, uşağına qulluğu çətinləşdirir. Bəzi valideynlər isə bunun əksini vurğulayıb. Uşaqların böyüdükçə çox şey öyrəndiyini və öyrəndiklərini tədbiq etməklə, valideyndən asılılığını azaltmaları valideynlərin getdikcə rahatlanmalarına səbəb olmuşdur.

6. Uşaqların qazandıqları hansı uğurlar valideynləri xoşbəxt etmişdir. Valideynlərin çoxu tərəfindən qeyd edilmişdir ki, uşaqların özünə qulluq bacarıqları, ünsiyyət qurmalarında inkişaf, sosial əlaqələrə qatılmaq onların ən çox xöşbəxt olduqları bacarıqlardır. Bir sıra valideynlərə görə, uşaqların ana, ata müraciəti, digərlərinə görə isə motor bacarıqlarının inkişafı ən xoş olan bacarıqlardandır.

7. Valideynlərin girdikləri mühitdə autizmli uşaqlarının qüsurlu davranışlarının qarşılığında hansı reaksiyaları göstərmələri bu vəziyyətdə həddən artıq əsəbləşdiklərini, uşaqlarına hirsləndiklərini və olduqları yerdən uzaqlaşdıqlarını bildiriblər. Bu səbəblərdən çox vaxt evdə qalmağı seçdiklərini qeyd ediblər.

8. Başqalarının valideynlərə və uşaqlara qarşı necə olmalarını gözləmək ailələrin hamsı başqaları tərəfindən sadəcə anlayış gözlədiklərini qeyd ediblər. Bu anlayış həm özlərinə, həm də uşaqlarına qarşı olmalı olduğunu vurğuluyublar. Ailələri ən çox üzən hadisə başqalarının uşaqlarına fərqli gözlə baxmaları, fərqli yanaşmaları və qəbul etmək istəməmələridir.

9. Övladlarının gələcəklərilə bağlı hansı qorxularının, narahatlıqlarının olması ilə bağlı valideynlərinin fikirlər, valideyn istisna olaraq, qalanlarının əsas qorxusu uşaqların öz qulluq bacarıqlarında olan problemlərin bir ömür davam etməsidir. Bir ömür baxıma ehtiyacları olduqları təqdirdə onlara kimin baxacağının sual altında olması valideyni narahat edən əsas məsələdir.

10. Uşaqları ilə bu cür dərindən maraqlanmaq valideynlərdə hansı hisslərin yaratdığına dair fikirlər valideynlərin hamsı uşaqları ilə bu cür dərindən maraqlanmağın çətin olduğunu amma eyni zamanda gözəl duyğu olduğunu qeyd ediblər. Uşaqların qüsurlu olmalarına baxmayaraq, onları valideyn etdiklərinə görə övladlarına minnətdardırlar. Buna görə də övladlarını çox sevdiklərini qeyd ediblər. Uşaqlarının fiziki qüsurlu olmaması onları rahatlayan səbəblərdəndir.

11. Son sual valideynlərin həyata baxışı ilə əlaqədar olmuşdur. Valideynlərin əksəriyyəti uşağın autizm sindromunun üzə çıxdıqdan sonra dünyaya baxışlarının dəyişdiyini söyləyiblər. Valideynlərin çoxu kədərli, üzüntülü, bədbin olduğunu, həyata baxışlarının mənfi yöndə olduğunu deyiblər. Yaşadıqları çətinliklər, depressiya onlardakı kədərin artması üçün səbəb yaratmışdır. Digər qrup valideynlərə görə isə ilk zamanlarda kədərin, ümidsizliyin çox olmasına baxmayaraq, zamanla bu kədər qəbul etmək hissi ilə əvəzlənir.

Araşdırmaların nəticələrinə görə, autizmli uşağa sahib ailələrin çox maddi cəhətdən aşağı səviyyəli ailələrdir. Maddi vəziyyəti aşağı olan ailə uşağının müalicəsinə pul yatıra bilmədiyi üçün

düzgün müalicə ala bilməyən uşaq inkişaf mərhələsində yüksək nəticələr göstərə bilmir və bu vəziyyət ailənin vəziyyətini çətinləşdirir. Autizmli uşağa sahib ailələr uşaqları üçün hansı davranışların daha doğru olacağını düşünüb qərar verməkdə çətinlik çəkirlər. Qüsurlu uşağın ailəyə, ailədəki münasibətlərə necə təsir edəcəyini bilmədikləri üçün bunun narahatlığını keçirirlər. Bu narahatlıqların kökündə qorxu hissi durur. Ailə uşağa olan münasibətlərin ona mənfi təsirindən qorxur. Autizm problemi bilindikdən sonra uşaq üçün mərhələli şəkildə müalicə yollarının tətbiqi başlayır. Uşağın həm özündə, həm də təhsilində uğurlu inkişafın yaranması və davam etməsi üçün müalicəyə ailə də daxil edilir. Belə ki, ailədə gündəlik fəaliyyətlərin tətbiqi, uşağa öyrədilməsi ailə tərəfindən gerçəkləşdirilir. Uşaq üçün müalicə metodları tətbiq edilərkən ailənin iştirakı və fikirlərinin müalicə metodlarına daxili mütləqdir. Çünki hər ailənin uşağından gözləntiləri fərqlidir. Dr. Çetin Özbeyin fikrincə pedaqoq tərəfindən həyata keçirilən təlimlər evdə ailə tərəfindən davam etdirilməli, vərdiş halına çevrilməlidir. Pedaqoq tərəfindən autizmli uşağın bütün həyatını əhatə edən təlimlər keçirilir və bu təlimlər ailə tərəfindən davam etdirilir. Pedaqoq tərəfindən uşağa öyrədilənlər uşağın özü tərəfindən həyata keçirilməlidir. Çox vaxt evdə ana tərəfindən uşağın etməli olduqları fəaliyyətlər edilir. Bu davranış ananın uşağına qıymayıb özü tərəfindən edilərək uşağa yaxşılıq kimi nəzərdə tutulsa da, əslində elə deyil. Çünki bu cür davam etdikdə uşaqda irəliləyiş baş vermir. Ona görə də uşağa tapşırılan, verilən tapşırıqlar onun özü tərəfindən həyata keçirilməli, vərdiş halına gətirilməlidir. Bunun sayəsində uşaq müəyyən bir vaxt keçdikdən sonra özü sərbəst bu öyrədilən fəaliyyətləri həyata keçirə bilir. Tədris zamanı valideynlər uşağın yanında və ya gözləmə otağında gözləyə bilərlər. Lakin autizmli uşaqlarda diqqət dağılması yüksək olduğu üçün ana şox vaxt gözləmə otağında gözləməli olur. Gözləmə otaqlarında quraşdırılmış kameralar vasitəsi ilə valideynlər rahatlıqla həkimlə uşaq arasındakı tədrisi izləyə bilərlər. Xarici ölkələrdə olan bir çox mərkəzdə kameralarla çəkilən tədris dərsin sonunda valideynə video disk şəklində təqdim edilir. Valideyn bu yolla həm tədrisi daha rahat işləyə bilir, həm də uşağın davranışlarını, fərqlilikləri daha rahat şəkildə üzə çıxarda bilir. Bu cür tədrislər masa arxasında oturmaqla verilmir. Daha çox praktiki, təbii şəkildə verilir.

Tədris zamanı mütəxəssis tərəfindən planlaşdırılmış, uşağa uyğun dildən istifadə olunur. Uşaq üçün keçirilən xüsusi tədris 21 qaydadan ibarətdir. Tədris evdə davam etdirilməli və evin bir otağı uşağın tədrisi üçün ayrılmalıdır. Ayrılmış otaqda valideynlər və digər ailə üzvləri tərəfindən uşağa müalicə qaydaları tətbiq edilməyə çalışılır. Ailənin müalicə tətbiqində iştirakı mütləqdir. Ailə tərəfindən göstərilən fəaliyyətlər dəstək çalışmalar hesab edilir. Lakin ailə dəstək çalışmaları öz başına aparılmamalı, həkim tərəfindən verilən çalışmalar əsasında həyata keçirilməlidir. Bunun üçün ailəyə "Ailə Tədris Proqramı" tətbiq edilir, öyrədilir. Bu proqram ailəyə Seminar şəklində tətbiq edilə bilər. Ailəyə öncə uşağın indiki və gələcək inkişafı haqqında ətraflı məlumatlar verilməlidir. Ailəyə uşağın olduğu kimi qəbul edilməsinin vacibliyi vurğulanır və bunun üçün lazımi dəstək verilməlidir. Uşağın yaşadığı ev onun problemləri, ehtiyacları nəzərə alınaraq hazırlanmalıdır. Uşağa qadağaların, cəzaların tətbiq edilməməli olduğu, valideynlərə isə həddən artıq qoruyucu olmamalı olduğu izah edilir. Uşaqda olan davranış problemlərinin öhdəsindən gəlmək üçün necə davranılmalı olduğu, problemlərin yarandığı əsnasında hansı tədbirlərin görülməli olduğu izahlı şəkildə anladılır.

## Ədəbiyyat:

*Воронкова, К.В.* (2012). Эпилепсия и аутизм // Аутизм и нарушения развития. № 2. – С.1-17.

*Забозлаева, И.В.* (2016). Нейробиологические маркеры аутистических расстройств // Вестник союза молодых ученых и специалистов Челябинской области. Т.1, № 2. – С.40-48.

*Симашкова, Н.В.* (2016). Клинико-биологические аспекты расстройств аутистического спектра // М.: ГэотарМедиа. 288с.

*Чуприков, А.П.* (2017). Можно ли предотвратить рождение ребенка с аутизмом? / А.П. Чуприков // Аутизм и нарушения развития. № 2 (55). – С. 80- 88.

# MƏKTƏBƏQƏDƏR TƏHSİLDƏ İKT-nın TƏTBİQİ

**Səbinə RƏHİMOVA**
“Cahan” körpələr evi və uşaq bağçası,
metodist
*Azərbaycan, BAKI*
sabinarahimova74@gmail.com

## XÜLASƏ

Təhsil fəaliyyəti prosesində informasiya və kompüter texnologiyalarından kifayət qədər fəal istifadə olunur. Kompüter texnologiyalarından istifadə təhsil prosesini cəlbedici edir, təhsil məlumatlarının təqdim edilməsi imkanlarını genişləndirir və uşağın motivasiyasını artırır. Məktəbəqədər təhsildə İKT-nin tətbiqinə şərait yaradılması, kadrların təkmilləşdirilməsi vacibdir. Müasir standartlara cavab verən təlim prosesi müasir nəslin marağını düzgün istiqamətləndirməlidir.

**Açar sözlər:** informasiya kommunikasiya texnologiyaları, məktəbəqədər təhsil, ilk addım, rəqəmsal dünyaya hazırlıq, sevərək öyrənmə, maraqları istiqamətləndirmək.

# APPLICATION OF ICT IN PRE-SCHOOL EDUCATION

**Sabina RAHIMOVA**
"Jahan" nursery and kindergarten,
Methodist
*Azerbaijan, BAKU*
sabinarahimova74@gmail.com

## SUMMARY

In the process of educational activity, information and computer technologies are used quite actively. The use of computer technologies makes the educational process attractive, expands the possibilities of presenting educational information and increases the child's motivation. It is important to create conditions for the application of ICT in preschool education, and to improve personnel. The training process that meets modern standards should properly guide the interest of the modern generation.

**Key words:** information and communication technologies, preschool education, first step, preparation for the digital world, loving learning, directing interests.

Kəşflərlə dolu bu dünyanın müəllimi olmaq çox məsuliyyətlidir. Hər gün uşaqları təəcübləndirəcək yeniliklər axtarışındayıq. Sevərək öyrənmənin yollarını araşdırırıq. Onların marağına, potensial imkanlarına, intellektinə uyğun öyrənmə prosesini qurmalıyıq, yaratmalıyıq. Bəli yaradırıq. Uşaqyönümlülüyü, inteqrativliyi, şəxsiyyətyönümlülüyü, dünyaviliyi, inkişafyönümlüyü, nəticəyönümlüyü və s. didaktik prinsiplərə əsaslanaraq şəxsiyyətin formalaşmasında təməl qoyuruq. Dayanıqlı inkişafın qurucularına və ya keşikçilərinə çevrilirik. Dayanıqlı inkişaf nədir?

Dayanıqlı inkişaf — hazırkı zamanın tələblərini ödəyən, lakin gələcək nəsillərin öz şəxsi tələbatlarını ödəməyi təhlükə altına qoymayan və bu zaman digər ölkələrin milli suverenliyinə təhlükə yaratmayan inkişafdır. Ona iki əsas anlayış daxildir:

- tələbatlar anlayışı, xüsusi olaraq birinci dərəcəli prioritetlərin predmeti olmalı olan kasıb əhali təbəqəsinin mövcudluğu üçün lazım olan tələbatlar;

- məhdudiyyətlər anlayışı, ətraf mühitin indiki və gələcək tələbatları ödəmək bacarığına qoyulan, cəmiyyətin təşkili və texnologiyaların vəziyyəti ilə şərtlənən.

Elə isə biz təhsil işçilərinin öhdəsinə nə düşür?
Ətrafda çoxlu sayda cəlbedici fəaliyyətlər varkən, biz necə edək ki, uşaq düzgün istiqamətlənsin. Ona ömür boyu gərəkli olan təməli bilik, bacarıq və vərdişlərə yiyələnsin. Öyrənməyə, araşdırmaya həvəsli olsun.

- Uşaqların maraq və tələbatlarına uyğun öyrənmə prosesi.
- Uşaqları cəlb edən fəaliyyətləri düzgün dəyərləndirmələri üçün dünyagörüşlərini zənginləşdirmək.
- Maraq və meyllərini istiqamətləndirmək.

Biz bilirik ki, cəmiyyətin inkişafında təhsilin rolu əvəzedilməzdir. Təhsilin ilk pilləsi olaraq məktəbəqədər təhsil demək olar ki, təməl xarakter daşıyır. Bunun üçün özümüz də daim inkişafda olmalıyıq. Ömürboyu təhsil…. Tərbiyəçi-müəllimlərin daim inkişafının təmin olunmasının vacibliyi təhsilverənlərin hüquq və vəzifələrində, təhsilverənlərin bacarıqlarına dair tələblərdə də öz əksini tapmışdır.

Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” dayanıqlı inkişafa hədəflənmişdir. Qarşıya qoyulmuş bu mühüm vəzifədən irəli gələrək “Strategiya”da beş strateji istiqamət nəzərdə tutulur ki, onlardan ikinci istiqamətdə bir sıra amillərlə yanaşı, “innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənlərin peşəkarlığının yüksəldilməsi” də diqqət mərkəzində dayanır [“Azərbaycan” qəzeti, 25 oktyabr 2013 –cü il].

Təhsil fəaliyyəti prosesində informasiya və kompüter texnologiyalarından kifayət qədər fəal istifadə olunur. Kompüter texnologiyalarından istifadə təhsil prosesini cəlbedici edir, təhsil məlumatlarının təqdim edilməsi imkanlarını genişləndirir və uşağın motivasiyasını artırmağa imkan verir. Məktəbəqədər təhsil müəssisələrində İKT-dən istifadə:

1. İKT uşaqların idrak fəaliyyətini stimullaşdırmağa və yeni biliklərin inkişafında iştirak etməyə imkan verən interaktiv təlim vasitəsidir. Söhbət müəllimlər tərəfindən proqram tələblərinə cavab verən oyunlardan gedir. Bu oyunlar uşaqlarla qrupda və ya möhkəmləndirmə məqsədi ilə evdə istifadə üçün nəzərdə tutulur. İnteraktiv oyun alətləri müxtəlifdir və imkanları genişdir.
2. İnteqrativ fəaliyyət üçün səmərəlidir. Bütün inkişaf sahələrini əhatə edə bilir.
3. İKT vasitəsi ilə idarəetmə sisteminin avtomatlaşdırılması da zaman itkisinin qarşısını alır. Bu texnologiya müəssisədə şəbəkənin idarə edilməsi, pedaqoji prosesin təşkili və digər işlərin həyata keçirilməsini asanlaşdırır, keyfiyyətini artırır. Müəllimlərin, mütəxəssislərin, həkimlərin işinin planlaşdırılmasını, nəzarətini, monitorinqini, əlaqələndirilməsini təmin edir.
4. Müəllimlərin elektron təhsil resurslarından istifadəsi uşaqyönümlülüyün, inteqrativliyin, əyaniliyin, dünyaviliyin və s. didaktik prinsiplərin tələblərini həyata keçirməyə daha rahat və müasir imkanlar yaradır.Uşaqlarla öyrənmədə elektron təhsil resurslarından istifadə, onların idrak motivasiyasının artırılmasına xidmət edir, müvafiq olaraq onların nailiyyətlərində, əsas səriştələrində inkişaf müşahidə olunur.

Uşaq bağçalarında tədris üçün kompüter texnologiyaları tətbiq edilərkən iqtisadi çətinliklər də yaranır: binaların texniki təchizatı, müəssisə daxilində lokal şəbəkənin yaradılması, lazımi texniki dəstəyin təmin edilməsi, lisenziyalı proqram təminatının əldə edilməsi və tətbiqi proqram təminatı.· Tərbiyəçi-müəllimlərin İKT bacarıqları problemi aktual olaraq qalır: təkcə müasir texnologiyalardan istifadə etməyi deyil, həm də öz təhsil resurslarını yaratmağı, səriştəli internet istifadəçisi olmağı bacarmaq lazımdır.

Məktəbəqədər yaşlı uşaqların idrak qabiliyyətlərinin inkişafında informasiya texnologiyalarından istifadənin məqsədəuyğunluğu xarici tədqiqatçıların (S.Papert, B.Hanter, E.N.İvanova, N.P.Çudova və s.) işi ilə təsdiqlənir. Riyazi inkişaf məqsədi ilə kompüter mühitindən istifadəni öyrənən müəllimlər (G.A.Repina, L.A.Paramonova) məktəbəqədər təhsil müəssisəsində kompüter mühitindən istifadənin uşaqların psixi sağlamlığının qorunması amili olduğu fikrini bildirirlər. Araşdırmalara görə düzgün seçilmiş vasitələrlə, resurslarla uşağın öyrənməyə hazırlığını təmin edən psixofizioloji funksiyaların inkişafı (incə motor bacarıqları, optik-məkan oriyentasiyası, əl-göz koordinasiyası); dünyagörüşünün zənginləşdirilməsi; sosial rolun mənimsənilməsində yardım; təhsil motivasiyasının formalaşması, idrak fəaliyyətinin şəxsi komponentlərinin inkişafı (idrak fəaliyyəti, müstəqillik, özgüvən); yaşa uyğun ümumi intellektual bacarıqların formalaşdırılması; inkişaf üçün əlverişli mühitin təşkili üçün effektivdir. Belə ki, texniki vasitələrdən düzgün istifadə etməklə, tədris prosesinin düzgün təşkili ilə məktəbəqədər yaşlı uşaqlar üçün kompüter proqramlarından uşaqların sağlamlığına təhlükə yaratmadan praktikada geniş istifadə oluna bilər. Bununla yanaşı, İKT-ni "oyuncaq" kimi təqdim edərkən aşağıdakı suallar ortaya çıxır: uşağın kompüterdə nə qədər vaxt keçirməsi, oyunun psixi və fiziki sağlamlığına təsiri, süni "autizasiya" və kommunikativ münasibətlərin rədd edilməsi, erkən kompüterin yaranması, asılılıq... Lakin hər şeyi düzgün tənzimləyəndə faydası mükəmməldir.

Müasir dövrdə təlim nəticələrinə nail olmaq üçün bir çox vasitələr, alətlər var ki, onların köməyi ilə biz təlim prosesini maraqlı, əlçatan edə bilirik. Öyrənmə prosesini stressiz, dəstəkləyici mühitdə və uşaqlar üçün istədiyi zaman əlçatan olmasını təmin edir. Web 2 alətləri vasitəsilə müxtəlif oyunlar yaradaraq mövzuların daha rahat mənimsənilməsini təşkil edə bilirik. Onlayn siniflər yaradaraq bu oyun tipli tapşırıqları istədiyi zaman oynayaraq işləməsi uşaqların və valideynlərin xoşuna gəlir. Proses isə uşaqların tətbiq edərək, təkrarlayaraq, yaradaraq öyrənməsi ilə nəticələnir. Bu o demək deyil ki, uşaqlar bütün günü kompüter, telefon, planşetdən asılı qalır. Öyrənmə prosesi açıq havada, qrupda müxtəlif vəsaitlərlə, təbiət materialları ilə də təşkil olunur. Hər bir şey tənzimlənməli olduğu kimi, bu da tənzimlənməlidir. Uşaqların inkişafı, şəxsiyyət kimi formalaşması naminə maraqlarından səmərəli istifadə edib, onları düzgün istiqamətləndirməyi bacarmalıyıq.

Təlim prosesinin təşkili üçün hazırladığımız vəsaitlər, resurslar İKT bacarıqları tələb edir. Bəli bunun üçün bacarıqdan əlavə şərait, avadanlıq təminatı da olmalıdır. Qrup otağında kompüterin, rəngli printerin, elektron lövhənin olması tərbiyəçi-müəllimin və eyni zamanda uşağın inkişafının təminatıdır. Yaradıcı yanaşmanın təminatıdır.

Məşğələlərin maraqlı təşkili üçün istifadə etdiyim proqramlardan ən səmərəliləri mimio, activlnspire, mc. Office proqramlarıdır. İstifadə etdiyim Web 2 alətlərindən learningapps.com, wordwall.net, jigsaw puzzle, thinglink.com, ourboox.com, liveworksheets.com və s. gözəl nəticələr verir. Web 2 alətləri ilə uşaqlara müqayisə, əlaqələndirmə, uyğunlaşdırma, yaratma və s bacarıqları inkişaf etdirə bilirik. Öyrədici oyunları uşaqlarla birlikdə də yaradırıq.

Məktəbəqədər təhsildə informasiya-kommunikasiya texnologiyalarından istifadə, müəllimə öyrənilən materialın daha dərin və şüurlu mənimsənilməsinə kömək edən müxtəlif vasitələri peşəkarcasına istifadə etməsinə imkan verir. Məsələn mən kodlaşma metodikasını araşdırıb tətbiq etdikdə uşaqların bu fəaliyyətlə bir çox bacarıqlar əldə edə biləcəkləri faktı ilə üzləşdim. Yəni mən idrakın inkişaf üçün fəaliyyətlər planlaşdıranda, mövzuların uşaqlar tərəfindən daha rahat mənimsənilməsi üçün müxtəlif vəsaitlər araşdırıram və tərtib edirəm. İKT bacarıqlarımı təkmilləşdirərərk buna daha rahat nail oluram. Öz ideyalaraımı fəaliyyətə çevirə bilirəm. Kodlaşma fəaliyyəti üçün vəsaitlər tərtib etdikdə xalqımızın məşhurlarını, təbiəti və s mövzulara toxunaraq ümumilikdə dünyagörüşünün zənginləşməsinə istiqamətləndim. Mc.office ppt proqramında və canva web 2 alətindən istifadə etdim. Fəaliyyətin təlim nəticəsi inteqrativ idi. Burada uşaqların sadə

riyazi və məntiqi təfəkkürü, dünyagörüşünün genişlənməsi və estetik inkişafında qənaətbəxş nəticələrimiz oldu.

Təsviri fəaliyyətin rəsm məşğələsində rəssamlar və onların əsərləri ilə tanışlıq istiqamətində təşkil etdiyimiz fəaliyyətdə google.com brayzerində axtarış edərək məlumatları bir təqdimata toplayıb uşaqlara təqdim etdim. Rəssamların əsərlərinin saytlardan yüklədiyim rəngləmələrindən və multimediyadan istifadə etməyim uşaqların qavrama prosesini asanlaşdırdı. Onlayn rəngləmə oyunları ilə mövzumuzun möhkəmləndirilməsini evdə təşkil edə bildim. Tərs sinif modelinin təlim prosesinin tamlığına faydası danılmazdır. Bu modeldə valideynlərlə maarifləndirmə işi çox əmək tələb etsə də, gözəl nəticələr əldə olunur. Birgəfəaliyyət, ünsiyyət bacarıqları, kiçik və hissi motorika və s. istiqamətlərdə uşaq əylənərək inkişaf edir. Multimedia proqramlarına daxil olan oyun komponentləri məktəbəqədər uşaqların idrak fəaliyyətini aktivləşdirir və materialın mənimsənilməsini artırır. Məktəbəqədər təhsil müəssisəsində kompüterdən istifadə mümkündür və zəruridir. Bu, öyrənməyə marağın artmasına, onun effektivliyinə kömək edir və uşağı hərtərəfli inkişaf etdirir.







Kodlama fəaliyyəti üçün hazırladığım iş vərəqləri:








İnformasiya və kommunikasiya texnologiyalarının təhsildə tətbiqi qaçılmazdır.

İnformasiya əsrimizdə tədris prosesinin informasiyalaşdırılmasının aktuallığı, əhəmiyyəti və yeniliyi müəllimdən tədris prosesində yeni texnologiyalardan istifadə etməyi tələb edir.

Məktəbəqədər təhsildə informasiya-kommunikasiya texnologiyaları təhsil prosesinin informasiyalaşdırılmasının perspektivli sahələrindən biridir. Onun perspektivi proqram-metodiki təminatın, maddi-texniki bazanın təkmilləşdirilməsində, o cümlədən müəllimlərin məcburi ixtisasının artırılmasındadır.

Müasir dövrün inkişaf dinamikası tələb edir ki, dövlət layihələri ilə paralel olaraq, biz müəllimlər də öz təhsil müəssisələrimizdə bu istiqamətdə tətbiqi işləri başladaq, inkişafdan geri qalmayaq.

Təhsil fəaliyyəti prosesində informasiya və kompüter texnologiyalarından kifayət qədər fəal istifadə olunur. Kompüter texnologiyalarından istifadə təhsil prosesini cəlbedici edir, təhsil məlumatlarının təqdim edilməsi imkanlarını genişləndirir və uşağın motivasiyasını artırmağa imkan

verir. İnformasiya-kommunikasiya texnologiyalarının (rəng, qrafika, səs, müasir video avadanlıq) istifadəsi müxtəlif vəziyyətləri simulyasiya etməyə imkan verir. Multimedia proqramlarına daxil olan oyun komponentləri məktəbəqədər uşaqların idrak fəaliyyətini aktivləşdirir və materialın mənimsənilməsini artırır. Məktəbəqədər təhsil müəssisəsində kompüterdən istifadə mümkündür və zəruridir, bu, öyrənməyə marağın artmasına, onun effektivliyinə kömək edir və uşağı hərtərəfli inkişaf etdirir.

Təlim prosesinin təşkilində vizual diapazon, obyektlərin təsnifatı, ümumiləşdirmə, istisnalar əsasında səs təhlili və sintezini inkişaf etdirmək üçün multimedia, kompüter təqdimatları, loqopedik oyunlar istifadə olunur.

Məktəbəqədər təhsil müəssisələrinin pedaqoji və inzibati heyyətinin İKT bacarıqlarını təkmilləşdirmək, məktəbəədər yaşlı uşqların təlim prosesinin müasir standartlara uyğun təşkil etmək vacib məsələlərdəndir.

Bu istiqamətdə informasiya və kompüter texnologiyalarından istifadənin nəticələri:

1. Uşaqların onlar üçün çətin olan fəaliyyətlərə həvəsinin artırılması.

2. Nitq istehsalının təkmilləşdirilməsi.

3. Məktəbəqədər uşaqların dünyagörüşlərinin genişləndirilməsi, onların idrak proseslərinin inkişafı üçün uyğun şəraitin yaradılması.

4. Materialın uşaqlar tərəfindən mənimsənilməsinin səmərəliliyinin artırılması (materialın görünməsi və əlçatanlığı prinsipini həyata keçirir).

5. Yadda saxlama sürətinin artırılması (uşaqların yaddaşının üç növü daxildir: vizual, eşitmə, motor).

6. Məktəbəqədər təhsil işçilərinin müasir tələblərə uyğun inkişafa, özünü təkmilləşdirməyə istiqamətləndirmək.

9. Gündəlik həyatda görünməyən real obyektləri, hadisələri nümayiş etdirməyə imkan verən çəkilmiş şəkillərdən, videolardan istifadə etməklə elmilik prinsipinin həyata keçirilməsinin tamamilə yeni səviyyəsi.

10. Uşaqları rəqəmsal dünyaya hazırlamaq.

**Ədəbiyyat:**

*Məktəbəqədər təhsil kurikulumu*. (2022). Bakı.

*M/NDSTORMS Children, Computers, and Powerful Ideas Seymour Papert* https://www.semanticscholar.org/paper/Mindstorms%3A-Children%2C-Computers%2C-and-Powerful-Ideas-Papert/fa772fd0049de6d3643f71c5ed784f48bb7fc0b4

# ETİK MÜNASİBƏTLƏRDƏ ÜNSİYYƏTİN TƏZAHÜR XÜSUSİYYƏTLƏRİ

**Aynurə ƏHMƏDOVA**
Bakı Slavyan Universiteti,
Azərbaycan tarixi və ictimai elmlər kafedrasının müəllimi,
Bakı Dövlət Universitetinin doktarantı
*Azərbaycan, BAKI*
a_akhmedova@mail.ru

## XÜLASƏ

Məqalə fəlsəfə tarixində etik baxışlara həsr edilmişdir. Etika və ünsiyyətin qarşılıqlı əlaqəsi də müəyyən edilmiş, etikanın ünsiyyətə təsiri öyrənilmişdir. Ünsiyyətin mənəvi tərəflərini qiymətləndirmək üçün dəyərlər problemi araşdırılmış və onun insan həyatındakı rolu qiymətləndirilmişdir. Məqalədə göstərilir ki, ünsiyyət universal dəyər hesab edilə bilər. Ünsiyyət insan həyatının mənəvi tərəfidir. Qloballaşan dünyada kommunikasiyanın rolu və ona təsir edən amillərdən bəhs edilir. Həmçinin müasir Azərbaycan cəmiyyətində multikultural dəyərlər kontekstində kommunikasiyanın mövcudluğuna diqqət yetirilib.

**Açar sözlər:** etika, ünsiyyət, əxlaq, insanlararası münasibətlər, mədəniyyət, dəyər

# CHARACTERISTICS OF COMMUNICATION IN ETHICAL RELATIONS

**Aynura AHMADOVA**
Baku Slavic University,
Teacher of the Department of History and Social Sciences of Azerbaijan,
Doctoral student of Baku State University
*Azerbaijan, BAKU*
a_akhmedova@mail.ru

## SUMMARY

The article is devoted to ethical views in the history of philosophy. The interaction of ethics and communication was also determined, the influence of ethics on communication was studied. To assess the moral aspects of communication, the problem of values was investigated and its role in human life was assessed. The article shows that communication can be considered as a universal value. Communication is a spiritual aspect of human life. The role of communication in the globalized world and the factors influencing it are discussed. Also, attention was paid to the existence of communication in the context of multicultural values in modern Azerbaijani society.

**Key words:** ethics, communication, morality, interpersonal relations, culture, value.

Etika fəlsəfənin mühüm tərkib hissəsidir. Burada insanların bir-birilərinə, ictimai hadisələrə münasibətlərinin meyarı, qiyməti təzahür edir. Qiymətləndirmə artıq formalaşmış xüsusi meyarlar əsasında həyata keçirilir. Bu meyarlar sosial normalarla bağlı olub, hər bir insanın və ya onun üzv olduğu sosial qrupun fəaliyyəti ilə bağlıdır. Ümumi şəkildə ideal meyar xeyir və şərdir. Bununla yanaşı, insanın həyat mövqeyinin qiymətləndirilməsi üçün yaxşılıq, pislik ifadələrindən də istifadə olunur.

Etik dəyərlər insan nəsli icma halında, ibtidai cəmiyyətdə yaşadığı andan meydana gəlmişdir. Çünki birgəyaşayış qaydaları olmadan cəmiyyət fəaliyyət göstərib inkişaf edə bilməzdi. Hər bir kəsin hansı dərəcədə müəyyən əxlaqi keyfiyyətlərə malik olub-olmamasını təyin etmək

üçün onun əməlləri, praktik fəaliyyəti qiymətləndirilirdi. Bunu isə yalnız ünsiyyət vasitəsilə həyata keçirmək mümkün olurdu.

Hər bir etika nəzəriyyəsinin əsasında insanın gerçəkliyə münasibəti dayanır. Həyata, gerçəkliyə münasibət barədə əsrlərlə davam edən fikir ayrılığı bu problemin daim aktual qalmasına, axtarışların davam etdirilməsinə səbəb olur.

“Klassik dövrün fəlsəfi-etik təlimləri maraqlı, həm də müasir dövr baxımından bir qədər qəribədir: burada borc hissini bilik məsələsi ilə məhdudlaşdırırdılar. Belə yanaşma qədim mütəfəkkirlərə xas olan sadəlövh optimizmdən irəli gəlirdi. Hadisələrin xarakteri və gedişatı yalnız dəyişməz və zəruri deyil, eyni zamanda məziyyətli, insanların isə bütün meylləri təbiət qanunlarına ahəngdar, uyğun olaraq görünürdü. Müəyyən hallarda mübahisə olarsa, bunun səbəbi insan cahilliyi, ətraf hadisələrin və onlara qarşı münasibətin kifayət qədər dərk edilməməsi kimi müəyyən olunurdu. Yaxşılığa doğru yeganə yol bilikdir, bütün əxlaq – hikmətdir. Həqiqi və bilik sahibi olan şəxs pis ola bilməz” [Коркунов, 1915: 3].

Deməli, burada təbiətlə ünsiyyət onun sirlərini üzə çıxarılması yolu ilə aparılır, nəticədə isə insanın özü də ucalır və inkişaf edir. Dövrdən dövrə insanlar yüksək qiymətləndirilir.

Etik mənada ünsiyyət insanın ona qarşı qoyulan əxlaqi meyarlara cavab verməsidir. Bu da onun davranışında, hər hansı həyati hadisəyə münasibətində özünü ifadə edir. Hörmət, ehtiram, sevgi, onların antipodlarını bildirən və bir çox digər keyfiyyətlər insan davranışını idarə edərək, fərdlərin, sosial qrupların qarşılıqlı münasibətlərini təyin edir. Burada ünsiyyət insanların bir-birinə olan münasibətidir. Bu münasibət sözlə, jestlə, hərəkət və ya əməllə ifadə oluna bilər.

Dövrdən dövrə insan fəaliyyətində mənəvi tərəf barədə təsəvvürlər dəyişilir. Artıq orta əsrlərdə antik düşüncələrin intellektuallığı volyuntarizm ilə əvəz edildi. Ağıl yox, iradə ön plana çıxarılır və əxlaqın və hüququn təməli kimi qəbul olunur. Bilik və fəzilət artıq eyniləşdirilmir, əksinə, bir-birinə qarşı qoyulur. Etik normalar təbiət qanunlarından kəskin şəkildə fərqləndirilir. Əvvəllər əxlaq təlimləri insanın təbiətin obyektiv qanunlarına tabe olması, yaxşılığa gətirib çıxarması üçün əsas idi. Orta əsr doktrinası, əksinə, insanın təbiətə qarşı olmasından irəli gəlir; onun idealı təbiətə ahəngdar olan həyat deyil, günahlardan azad olmaqdır.

Etika mənəviyyat sahəsi ilə əlaqəli olduğu üçün burada ünsiyyət psixoloji amil kimi də nəzərə alınmalıdır. İnsanın iradi-emosional sahəsi mənəvi cəhətdən qiymətləndirilmiş və sosial normaya çevrilmişdir. Burada xeyir-şər baxımından münasibətlər formalaşaraq insan davranışının bir çox tərəflərini təyin edir.

Doğru olaraq qeyd edilir ki, “ünsiyyət strukturun proses ilə, sabitliyin fəaliyyətlə əlaqəsini gerçəkləşdirərək, ictimai münasibətləri “gerçək münasibətlər”ə çevirərək, istənilən insan fəaliyyətinə xidmət edir. Hər hansı bir fəaliyyət obyektiv zəruri qarşılıqlı təsiri nəzərdə tutur. Məhz buna görə bütün fəaliyyət növləri burada yaranan münasibətləri təkrar istehsal etməyə qadirdir və ünsiyyət insan fəaliyyətinin vacib bir hissəsinə çevrilmişdir” [Резаев, 1993: 12].

Ünsiyyətin mənəvi tərəfini qiymətləndirmək üçün dəyərlər probleminə və insan həyatında onların roluna müraciət edək.

Sosial əlaqələr sistemində insanların məqsədyönlü fəaliyyəti həyatın mənası ilə bağlı prioritet mücərrəd fikirlərə əsaslanır. Bu fikirlər sosial fikir tarixində, aksiologiya çərçivəsində araşdırılır. Bunlar dəyərlərdir, yəni, “reallığın müəyyən hadisələrinin insani, sosial və mədəni əhəmiyyətinin” vurğulanmasıdır. Bu hadisələr "yaxşı və pis, həqiqət və ya yalan, gözəllik və ya eybəcərlik, icazə verilən və ya qadağan olunan, ədalətli və ya ədalətsiz və s. ilə əlaqəlidir. Burada qiymətləndirmə metodları və meyarları (meyllər və qiymətvermələr, imperativlər və qadağalar, məqsədlər və normativlər) fərdin dəyərləri ilə əlaqələndirilir; ümumiyyətlə, “müxtəlif sosial qrupların və fərdlərin bilik, maraq və üstünlüklərinin istiqamətlənmə həddini” dəyər kateqoriyalarında ifadə edir [Сумерки богов, 1990: 496].

Bu gün dəyərlər problemləri ictimai və humanitar elmlərdə geniş işlənir. Çünki insan davranışının, onun fərdi xüsusiyyətlərinin və mövcud dövrün məzmunu ictimai münasibətləri arasında əlaqələndirici bir vasitədir. Mədəniyyət tam şəkildə özündə həmin tarixi dövrün mövcud dəyərlərini əks etdirir

Fərd tərəfindən dəyərlərin qavranılması mürəkkəb prosesdir və onun bütün şüurlu həyatı davam edir; burada körtəbiilik və şüurluluq iki amil olaraq müxtəlif dərəcədə insana təsir edir və onu idarə edir. Mədəniyyətin formalaşması mövcud insan kapitalı, yəni insan tərəfindən dəyərlərin qəbul edilməsinə və ehtiyac olduğu halda onların dəyişilməsinə hazır olması ilə bağlıdır.

Freyd hesab edirdi ki, mənəviyyata və sosiallaşmaya "fövqəl Mən"-in gücləndirilməsi vasitəsilə qoşulmaq olar. Bu isə mədəniyyətin ən yüksək dərəcədə qiymətləndirilə biləcək dəyərli psixoloji qazancıdır. Mədəniyyəti qiymətləndirərkən yalnız "mədəniyyət tələblərinin qavranılma" ölçülərini, yəni yalnız onun iştirakçılarının mənəvi səviyyəsini deyil, həm də sənətin idealları və yaradıcılığını, yəni, hər ikisi tərəfindən verilmiş məmnuniyyətin, həzzin növlərini nəzərə almalıyıq [Суханов, 1976: 118] Freyd davam edərək göstərir ki, "biz, bu və ya digər mədəniyyətin idealı hesab edilən ali və ən prestijli nailiyyətlərin qiymətləndirilməsini onun psixoloji sərvətinə aid edirik. İlk baxışda belə təəssürat oyanır ki, mədəniyyətin uğurları bu ideallarla müəyyənləşdirilir, real asılılı**q** isə başqa cür də ola bilər: ideallar daxili istəklər və xarici şəraitin qarşılıqlı təsirinin nəticəsində əldə olunan ilk **uğur**lardan sonra formalaşır və bu ilk uğurlar onları yenidən təkrar etməyə çağıran ideallarda qeydə alınır. İdeal, mədəniyyət istirakçılarına bağışladığı təminat, narsis təbiətinə malikdir. O, artıq əldə olunmuş uğurları qürurunda özünə yer tapır. Tamamlanmaq üçün o, digər nailiyyətlər və idealları əldə etmiş digər mədəniyyətlərlə müqayisəni tələb edir. Bu cür fərqlər isə bir mədəniyyətin digərinə nifrətini əmələ gətirən başlıca səbəbdir. Bu yolla mədəni ideallar müxtəlif mədəni regionlar arasında parçalanmaya və düşmənçiliyə gətirib çıxarır: bunu daha aydın şəkildə millətlər arasında müşahidə etmək olar [Суханов, 1976: 103].

İdeallar burada dəyərlər mənasında istifadə olunur. Təsadüfi deyil ki, burada ideallarin formalaşmasına imkan yaradan müvəffəqiyyətlərin təkrarına ehtiyacın mövcudluğu vurğulanır. İdeallara və ya dəyərlərə sadiq olmaq mədəniyyətin əhəmiyyətli keyfiyyətidir. Freyd dini təsəvvürləri də həmçinin mədəni normaların və qadağaların formalaşmasının zəruri ilkin şərtlərinə aid edirdi. Bütövlükdə dəyərlər strukturu kifayət qədər sahələrə ayrılmışdır. Normalarla birlikdə o istənilən mədəniyyətin məzmununu təşkil edir.

Normalar və dəyərlər, müxtəlif işarələr mənalarında real ifadəyə malik olaraq, mədəniyyətdə konkret elm sahələri tərəfindən öyrənilir (etnoqrafiya, tarix, antropologiya, psixologiya, sosiologiya və s.). Beləliklə, normaların və dəyərlərin təzahür formalarından biri adət və ənənədir. Bunlar, ictimai rəyin gücü ilə dəstəklənərək böyük sabitlik əldə edir, bir növ keçmişin nailiyyətlərinin qoruyucusu olurlar. Amma bu qorunma prosesi cürbəcür olur. Çünki "adət həmişə konkret vəziyyətdə hərəkətin ətraflı təlimatını verir və eyni zamanda insanın mənəvi keyfiyyətlərinə tələblər vermir", amma ənənədə "iddia edilən hərəkətlərin və bu mənəvi keyfiyyətlərlə formalaşdırılan hərəkətlərin arasında səbəb-nəticə əlaqəsi təsbit edilir. Yəni normalar, hərçənd həmişə ənənələr, adətlər [Суханов, 1976: 25] əsasında işləyir.

Ənənəvi adlandırılan cəmiyyətlər tam olaraq adət və ənənələrin sabit bir sisteminə və bunlara əsaslanan normalara malik olanlardır. Bu normalar müəyyən bir gücə, möhkəmliyə malikdir: liberal sistem, bazar iqtisadiyyatı və demokratik idarəetmə prinsipləri olan ölkələr bunlardan məhrumdur. Hər halda, mədəniyyət fəlsəfi fikirlərlə əlaqəli ən ümumi mənəvi əsaslara malikdir.

Fəlsəfə, elm, din, sənət və təhsil kimi ictimai təsisatların inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmiş bir mənəvi fenomen olaraq, mədəniyyətdə, ilk növbədə aksiologiya kimi, təmsil olunur. Aksioloji problemlərin elmi təhlili sayəsində (əsasən Kant və Hegeldən başlayaraq) bu sahə yeni insan keyfiyyətlərini daha yaxşı planlaşdırmaq və proqnozlaşdırmaq üçün cəmiyyətdə

araşdırma obyekti oldu. Beləliklə, F. Hegel, insan keyfiyyətləri ilə əlaqəli kateqoriyalara nəzər saldıqda burada refleksiv (nəzəri) tərəfi və ictimai praktikanı vurğulayırdı: məsələn, onun fikrincə, əxlaq, subyektiv iradə olaraq, həmçinin hüquq ideyası, yalnız abstrakt anlardır və bu anlar özləri tərəfindən bir fikrin tam həyata keçirilməsini ifadə etmirlər. Onların varlığı vəhdət və həqiqət kimi təqdim olunan bir sahədə, yəni əxlaq sahəsində "ifadə olunur". Özü də üç mərhələdən ibarətdir: ailə, vətəndaş cəmiyyəti və nəhayət, dövlət". Hegelə görə, mənəviyyat xeyir haqqında bir düşüncədir.

Beləliklə, elmin fəlsəfəsi ilə sərhədin son nailiyyətlərinə əsaslanan dəyərlərin fəlsəfi təhlili, xüsusilə də siyasət, təhsil və incəsənət sahələrində, sosial idarəetmədə öz bəhrəsini verə bilər. Bu cür işlərin aparılması üçün bizim, dəyərlərin hər hansı bir kateqoriyasını formalaşdırmaq, onların formalaşması və assimilyasiyasının sosial-psixoloji mexanizmlərini öyrənmək üçün tarixi şərtlərin təhlilinə əsaslanan metodikaya ehtiyacımız var. Bu cür tədqiqatlar sayəsində müasir cəmiyyət ictimai şüura təsir göstərmək, onunla manipulyasiya etmək, hakimiyyət elitasının lehinə dəyərlərə münasibətin dəyişdirilməsi və s. üçün güclü bir aparata malikdir. Bu mənada fəlsəfənin də qarşısında bu cür hərəkətlərin nəticələrini göstərmək və qiymətləndirmək vəzifəsi durur.

XX əsrin fəlsəfəsində ünsiyyət və ya kommunikasiya məsələləri ön plana çəkilir. Belə ki, J. Habermasın irəli sürdüyü kommunikasiya qabiliyyəti ideyası olduqca maraqlıdır. Burada ictimai həyatın ideal bir formasını əks etdirən ünsiyyət normaları araşdırılır. Asimmetrik ictimai əlaqələr şifahi ünsiyyət formalarını təhrif edir [Буева, 1978: 136-137].

Ünsiyyətin xarakteristikasının verilməsi üçün müxtəlif ünsiyyət sahələrinin mövcud olduğunu xatırlamaq lazımdır. Onlar insan fəaliyyəti ilə, insanlar arasında əlaqələrin təbiəti və ünsiyyətin irəli sürdüyü şərtləri ilə əlaqəlidir. Beləliklə, ünsiyyətin aksioloji aspekti çox vacibdir. Bu, dəyər yönümlü fəaliyyətlə, yəni insanlar arasındakı əlaqələrdə inkişaf edən dəyər əlaqələri sistemi ilə əlaqələndirilir. Aksiyoloji səviyyədə ünsiyyət yalnız insan fəaliyyətinin bu dəyərliliyini özündə əks etdirir.

Ünsiyyət anlayışı olduqca zəngin bir məzmuna malikdir. Bu, çoxölçülü, çox dəyişkən prosesdir və insan fəaliyyətini, onun şüurunu, dünyəvi baxışlarını, həyata münasibətini əhatə edir. Ünsiyyətə ehtiyac insanın baza tələblərini təşkil edir. Bu, bir növ şüurda varlığın inikası, xarici mühitə reaksiya verməkdir və insana faydalı anlar vermək deməkdir. Bu, yeni bilik, bacarıq və dəyər mənalarını əldə etmək, şəxsi inkişafın müəyyən üstünlüklərini əldə etmək, özünü təsdiqləməyə nail olmaq və s. bildirir.

Ünsiyyətə həmişə ehtiyac var. Dünyaya yeni gəlmiş uşağın da belə ehtiyacı var. Ac uşağı qidalandıran anaya olan xüsusi bağlılığını fizioloji bir şəfqət kimi qiymətləndirmək olmaz. Ünsiyyətə ehtiyac insan həyatının bir çox sahələrində ortaya çıxır. İnsan həyatının hər bir mərhələsində ünsiyyətə ehtiyac yaranır və hər bir mərhələdə daha çox və ya az ifadə olunsa da, o həmişə mövcuddur. Ahıl yaşda ünsiyyətə daha böyük ehtiyac var ki, bu da təsadüfi deyil. Çünki yaşlı insanlar çox vaxt özlərini tənha hiss edir və ünsiyyət onlar üçün ən böyük dəyərdir.

İctimai elmlərin digər sahələri kimi fəlsəfə də insan həyatında və cəmiyyətdə verdiyi bütün dəyişikliklərə həssas olmalı, özündə bütün müxtəlifliyi, ictimai həyatın inkişafını, insan şüurunda meydana gələn bütün dəyişiklikləri əks etdirməlidir. Xüsusilə əhəmiyyətli olan problemlər sırasında ünsiyyət də var.

Ünsiyyət problemi üzrə ədəbiyyatın təhlili göstərir ki, bu kateqoriyanın problemləri olduqca genişdir. Bura insan həyatının inkişafının estetik, mənəvi- əxlaqi, sosial-psixoloji aspektləri ilə bağlı suallar daxildir.

Ünsiyyət fəlsəfəsi məsələsinin fəlsəfə elminin ayrılmaz hissəsi olan etika baxımından təhlili də kifayət qədər aktualdır. Ünsiyyət probleminə etik yanaşma ünsiyyət konsepsiyasının dəyərliliyi baxımından, yəni dəyər komponentinin nəzərdən keçirilməsini nəzərdə tutur.

Məlumdur ki, insan ən müxtəlif formalarda ünsiyyətin qurulmasına ehtiyac duyur. Bunlar duyğuların bildirdiklərinə, şüurun koqnitiv tərəfinə, müəyyən qaydalara və idarəetmə qanunlarına əsaslanan və s. ünsiyyət növləridir.

Yalnız dəyərli tərəfi vurğulayarkən və ya təhlil edərkən, ünsiyyət və ya ünsiyyətin mənəvi tərəfi haqqında danışmaq olar. Ünsiyyət dəyərlərini dəyər kimi müəyyən etmək üçün ilk növbədə ünsiyyətin funksiyaları və məqsədləri üzərində dayanmaq lazımdır. Məhz ünsiyyətin funksiyaları və məqsədləri insan üçün onun dəyərini müəyyən edir.

Ünsiyyətin funksiyası hər şeydən əvvəl praktiki xarakter daşıyır. O, birbaşa insanın müxtəlif ehtiyacları ilə bağlıdır. Bunlar maddi, mənəvi, sosial ehtiyaclardır və onların təmin olunması hər bir insanın ünsiyyətə girməsinə və müxtəlif vasitələrlə və üsullarla həyata keçirilməsinə köməklik edir. Məsələn, əgər kimsə musiqi sevirsə, musiqini dinləməyə başlayır, musiqili tamaşalara və konsertlərə gedir, musiqi sevərlər ilə ünsiyyət qurur və s. Ünsiyyət vasitəsilə o, estetik zövqə olan ehtiyacını təmin edir. Eynilə, insan həyatının mənəvi-əxlaqi təcrübəsi, həyatın digər formaları və sahələri ilə bağlı ehtiyacları xarakterizə edə bilərik.

Xüsusilə, bir insanın həyatında təkrarlanan həyati fəaliyyətin hadisələri, forma və metodları ilə əlaqəli ünsiyyətə ehtiyac var ki, bu da xüsusi ünsiyyət qaydalarının formalaşmasına səbəb olmuşdur. Xüsusi olaraq bu, ənənələr, adətlər, mərasimlərdir. Onlar yalnız ünsiyyət qaydalarına riayət etməyi məqsəd qoyurlar. Bu qaydalar ünsiyyət tələblərinə cavab verir və istənilən nəticəyə nail olmaq imkanı verir. Hər bir millət və ya etnik qrup mütləq təqlid edilməli olan öz ritual qaydalarına malikdir.

Müasir elmdə əsas ünsiyyət növlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

Vasitələrinə görə - verbal və qeyri-verbal ünsiyyət;

Məqsədlərinə görə - bioloji və sosial;

Məzmuna görə - koqnitiv, maddi, şərti, motivasiya, fəaliyyətlə bağlı olan;

Vasitəli olub-olmamasına görə - birbaşa əlaqəli, dolayı, vasitəli, birbaşa;

Fəaliyyətin mənəvi aspektini nəzərdən keçirmək üçün hər bir ünsiyyət növü nəzərdən keçirilməlidir, çünki hər biri qiymətləndirici tərəfə malikdir. Müəyyən bir ünsiyyət növünün etik tərəfini təhlil etməzdən əvvəl problemin fəlsəfi yanaşmasının ümumi konsepsiyasını nəzərdən keçirmək lazımdır.

Hesab olunur ki, "XX əsrin sonunda ünsiyyət probleminin fəlsəfə dilinə keçməsi müşahidə olunur. Funksional-rol, sosial-etik, mədəni-tarixi aspektləri ilə yanaşı ünsiyyətin fəlsəfi təhlilinə yeni, birbaşa epistemoloji, ontoloji, metafizika fəlsəfi sahələri də əlavə olunur" [Буева, 1976: 34]. Göründüyü kimi, müəllif ünsiyyət probleminin varlığın mövcudluğu və dərk edilməsi baxımından qiymətləndirilməsini nəzərə almışdır. Ümumiyyətlə, metafizik tərəf həm gnoseoloji, həm də ontoloji aspektləri olan fəlsəfi tərəfdir.

Bir insanın fəaliyyətinin təsir etmək üçün hər hansı bir fürsəti ünsiyyət kimi qəbul edilə bilər. Lakin, insan öz nəslinin təkrarsız bir nümayəndəsi olduğundan, ünsiyyət növləri və ya ona təsir etmək imkanları da olduqca müxtəlifdir, ünsiyyət özü də ünsiyyətə olan ehtiyacına təsir edir. Məhz bu ehtiyac ünsiyyətin dəyərində əks olunur. Yəni, ehtiyacımız varsa, ünsiyyəti dəyər kimi qəbul edirik.

Bu baxımdan, hansı ünsiyyət növündən istifadə edildiyi vacibdir. Məlumdur ki, müxtəlif ünsiyyət vasitələri var. Onlar şifahi və ya qeyri-şifahi ola bilərlər, yəni sözlə əlaqəli və əlaqəsi olmayan ola bilərlər. Aydındır ki, kompleks və inkişaf etmiş ünsiyyət sistemlərindən biri kimi dil olduqca mürəkkəb bir fenomen olaraq, düzgün ünsiyyət qurma qabiliyyətinə malikdir. Deyə bilərik ki, bu hər bir şəxs üçün danışdığı dildən asılı olmayaraq universal ünsiyyət vasitəsidir. Sözün bu və ya digər hərəkətə təsiri çox böyükdür.

Bununla belə, qeyri-şifahi ünsiyyət vasitələri də var. İnsan universal bir varlıqdır. Jestlər və üz ifadələrini, duruşu, gedişi, digər qeyri-şifahi ünsiyyət vasitələrini istifadə edə bilir. Bu,

intonasiya, səs ucalığı, yüksəkliyi, danışma sürəti və s. ola bilər. Bütün bunlar ünsiyyətin səmərəliyini müəyyənləşdirir.

İnsanlar birgə yaşadıqları dövründə çox sayda fərqli ünsiyyət vasitələrinə sahib olduğundan, ünsiyyətin dəyərliliyi baxımından onun seçim imkanı meydana gəlir. Bu ünsiyyətin dəyərli tərəfidir və onun mənəvi tərəfi ilə bağlıdır. Söhbət bu və ya bir başqa ünsiyyət vasitəsi, yəni sözlə və sözsüz olan vasitələrdən gedir. Bütün bunlar ünsiyyətin səmərəliyinə təsir edir.

Əsrlər boyu birgə fəaliyyət şəraitində insanlar müəyyən bir hərəkətin, hadisənin, əlaqənin faydalarını və ya zərərlərini başa düşmək üçün bir sıra mənəvi qiymətləndirmələri formalaşdırmışlar. Bu, yaxşı və ya pis anlayışlarla əlaqəli idi. Bu mənada xarici və daxili ünsiyyət amillərindən danışa bilərik.

Ünsiyyət üçün xarici amillər arasında yaşayış şəraiti, hər hansı bir insanın yaşadığı tarixi dövr, müəyyən bir sosial vəziyyət və ya sosial inkişaf kimi şərtlər daxildir. Bunlara etnik mənsubiyyət, sivilizasiya mərhələsi, mədəni komponent, mənəvi birlik, dinləmə bacarıqlarının inkişafı və s. daxildir. Ünsiyyət bacarıqlarının inkişafı bir şəxsin onun yerləşdiyi bütün mühitlə formalaşması ilə bağlıdır. Burada irsi amil də müəyyən dərəcədə vacibdir.

İnsan davranışı mənəvi tərəfə də bağlıdır. Buna təhsil və tərbiyə təsir göstərir. Bundan əlavə, hər hansı bir insana məxsus olduğu sosial təbəqəni, onun yaşadığı yerini, yaşadığı tarixi dövrünü nəzərə almaq vacibdir. Bütün bunlar ünsiyyətin qiymətləndirilməsinin təbiətində əks olunur və bu ünsiyyətin əhəmiyyətini təşkil edir. İnsanın başqalarının dediklərini dinləməyə qadir olmaq bacarığı onun təhsil və tərbiyə səviyyəsini, ünsiyyətə hazır olmaq dərəcəsini göstərir. Bu da onun həyatının mənəvi tərəfini təşkil edir.

Hal-hazırda bir çox ünsiyyət qaydaları var. Bunlar ünsiyyətin mənəvi tərəfi ilə əlaqələndirilir. Bundan əlavə, bu qaydalar insanın statusu, yaşı, cinsi, ictimai vəziyyəti, ona qarşı digər insanların münasibəti, onun tərbiyəsi, yaşadığı ailə ilə müəyyən edilir. Bütün bunlar ünsiyyət tərzinə təsir göstərir. Bu çox vacibdir. Hər bir cəmiyyət elə bir ünsiyyət quruluşunu təşkil edir ki, bu da insanların münasibətlərində qabarıq şəklində əks olunur.

Birlik, bərabərlik, həmrəylik fərqli sosial qruplarda insanların formalaşdırdığı xüsusiyyətlərdir. Burada əlaqənin mənəvi qiymətləndirilməsi müəyyən sosial və ya etnik qrupların əlaqəsi baxımından düzgün aparıldığını göstərir. Ancaq biz onu da bilirik ki, cəmiyyətdə vətəndaş sülhü həmişə mövcud deyildir. Sosial qruplar, müxtəlif təbəqələr, müxtəlif idarəetmə strukturları arasında ziddiyyətlər mövcuddur və bütün bunların mənəvi əsasları var. Hobbs deyib ki, siyasət əxlaqla bir araya sığmır. Ağılın tələblərinə uyğun olaraq, insanlar bir-birinin özbaşınalıqlarını məhdudlaşdırmaq və bir növ davamlı sülhü təmin edə biləcək tək bir iradəni qəbul etməlidirlər. Hobbs bu iradənin daşıyıcını dövlət olduğunu bəyan edir. Beləliklə, Hobbsa görə sosial orqanizmin əsasında sosial atomizm nəzəriyyəsinin və insanın qəddar iradəsinin əxlaqi-etik fikri durur [Гобс, 2021: 231].

Burada suallar hümanizm, vicdan və ya vətəndaş cəmiyyət ilə bağlı qaydalarla həll edilmir. Burada əsas rol oynayan müəyyən ictimai qrupların maraqlarıdır. Yəni, müəyyən bir rəhbər təbəqənin xeyrinə siyasət adından əxlaqsız hərəkətlər etmək mümkündür.

Ünsiyyət üslubları əsasən cəmiyyətin inkişaf səviyyəsi və onun tarixi mövcudluq dövrü ilə müəyyən edilir. Bu gün qloballaşma kontekstində informasiya və kommunikasiya texnologiyalarının sürətlə inkişafı və tətbiqi zamanı ünsiyyətin müxtəlifliyi hər kəsin şəxsi keyfiyyətlərini tam şəkildə inkişaf etdirməyə və cəmiyyətin fəal üzvü kimi formalaşmağa imkan verir. Düşüncə tərzi ünsiyyət üslubunu müəyyənləşdirir. Müxtəlif icmalarda ünsiyyətin təbiəti, mövzular, hətta ünsiyyət dili fərqli olaraq. Həm də cəmiyyətdəki müxtəlif sosial qruplarında da ünsiyyət tərzləri fərqlənir. Bu baxımdan filosoflar, psixoloqlar və elmi ictimaiyyətin digər nümayəndələri üçün araşdırma meydanı olduqca genişdir.

Qeyd etmək lazımdır ki, ünsiyyət tərzi fərdin xüsusiyyətlərini müəyyənləşdirir. Ünsiyyətin səmərəliliyinə, cəmiyyətin mənəvi tələblərinə uyğunluğuna təsir edən insan keyfiyyətləridir.

Psixoloqlar ünsiyyətin öyrənilməsinin səmərəliliyinə təsir edə biləcək fərdin psixoloji xarakterinin xüsusiyyətlərini dərindən öyrənmişlər. Bu ekstravertlik, introvertlik, empatiya, bu bir sıra digər xarakter xüsusiyyətləri, məsələn, zabitəlilik, münaqişəyə meyillik, təcavüzkarlıq, dözümlülük, utancaqlıq, sərtlik, rigidlik və mobillik.

Təsadüfi deyildir ki, qrupda, iş qrupunda, ailədə əlaqələrin qurulması işi üçün bir çox idarəçilik üsulları inkişaf etdirilir. Bu istiqamətdə görülən işlərə sahib olan psixoloqlardır. Onların xidmətidir ki, kollektivdə mənəvi əlaqələrin xarakterinə təsir edən müəyyən psixoloji keyfiyyətlərin üstünlükləri və mənfi cəhətləri ortaya qoyulub.

Məsələn, Azərbaycanda tolerantlıq konsepsiyası dövlət siyasəti səviyyəsinə qaldırılmışdır. Məlumdur ki, dində tolerantlıq, etnik qruplar arasındakı münasibətlər, hər bir etnik qrupun mədəniyyət statusuna hörmət – bunların hamısı multikulturalizm siyasəti səviyyəsinə ucaldılmışdır.

Multikulturalizm çərçivəsində mədəni və milli dəyərlərin qorunmasının əsas istiqamətləri Azərbaycan cəmiyyətinin hər bir nümayəndəsinin ümumi humanist keyfiyyətlərinin formalaşdırılması təşkil edir.

Bir-biri ilə ünsiyyət quran insanların əxlaqi keyfiyyətlərinin öyrənilməsinin əhəmiyyəti həm sosial inkişafın obyektiv şərtləri, həm də müəyyən bir şəxsin şəxsi keyfiyyətlərinə, xüsusiyyətlərinə görə müəyyən edilir.

Bu gün qloballaşma kontekstində informasiya və kommunikasiya texnologiyalarının sürətlə inkişafı və tətbiqi zamanı ünsiyyətin müxtəlifliyi hər kəsin şəxsi keyfiyyətlərini tam şəkildə inkişaf etdirməyə və cəmiyyətin fəal üzvü kimi formalaşmağa imkan verir. Düşüncə tərzi ünsiyyət üslubunu müəyyənləşdirir. Müxtəlif icmalarda ünsiyyətin təbiəti, mövzular, hətta ünsiyyət dili fərqli olaraq. Həm də cəmiyyətdəki müxtəlif sosial qruplarında da ünsiyyət tərzləri fərqlənir. Bu baxımdan filosoflar, psixoloqlar və elmi ictimaiyyətin digər nümayəndələri üçün araşdırma meydanı olduqca genişdir.

Qeyd etmək lazımdır ki, ünsiyyət tərzi fərdin xüsusiyyətlərini müəyyənləşdirir. O, ünsiyyətin səmərəliliyinə, cəmiyyətin mənəvi tələblərinə uyğunluğuna təsir edən insani keyfiyyətdir. Bir-biri ilə ünsiyyət quran insanların əxlaqi keyfiyyətlərinin öyrənilməsinin əhəmiyyəti həm sosial inkişafın obyektiv şərtləri, həm də müəyyən bir şəxsin şəxsi keyfiyyətlərinə, xüsusiyyətlərinə görə müəyyən edilir.

Müasir insanın dünyagörüşünün ən mühüm hissəsi ondan ibarətdir ki, müasir cəmiyyət inkişaf edən qarşılıqlı asılılıq və qarşılıqlı təsir istiqamətində inkişaf edir. Bütöv bir insan cəmiyyəti meydana gəlir. Əxlaqi imperativlərin yalnız bir istiqamətdə yaranması mümkündür – elmi dünyagörüş, hümanizm, qarşılıqlı hörmət və tolerantlıq ilə əlaqəli yeni insan keyfiyyətlərinə əsaslanan ölkələr və xalqlar arasındakı münasibətlər. Məhz bu istiqamətdə gənc nəslin yetişdirilməsi və tərbiyəsi, şəxsiyyətin sosiallaşması, cəmiyyət üçün hazırlanan hər bir mütəxəssisin peşəkar mənəvi keyfiyyətlərinin formalaşması prosesləri gedir.

Aydındır ki, gənc nəslin formalaşması qarşılıqlı hörmət və qarşılıqlı dəstəyin universal prinsiplərinə əsaslanır. Bu halda xahiş, məsləhət, inandırma, təriflәmə, dəstək, təsəlli kimi müsbət mənəvi keyfiyyətlərə əsaslanan təhsilin imkanlarından istifadə etmək mümkündür. İctimaiyyət tərəfindən mənəvi cəhətdən təsdiqlənən ünsiyyət tərəfdaşlarına məhz bu cür təsir etmək mümkün olur [Cəfərov və İmaməliyev, 2012: 7].

Məlum olduğu kimi, sosial fəlsəfənin nəzəri problemləri arasında ən əhəmiyyətli şəxsiyyətin formalaşması problemidir. Hər bir insanın fərd, insan və vətəndaş olaraq cəmiyyətdə özünü realizə etmək imkan verən zəruri tərbiyə və keyfiyyətləri ala bilməsi üçün onunla ünsiyyət quramaq lazımdır. Bu vaxt isə özündə tərəfdaşlara təsir göstərmə formalarını tətbiq etməyə imkan verəcək mənəvi keyfiyyətləri formalaşdırmaq lazımdır. Bu formalar kifayət qədərdir. Bununla belə inandırma formalarla yanaşı imperativ metodlarla əlaqəli təsir üsulları da var. Bu əmr, tələb,

qadağan, məcburiyyət, təhdiddir. Bundan əlavə, özünü tərifləmə, tənqid, söz-söhbət və dedi-qodulardan istifadə etmək və s. kimi keyfiyyətlər var.

Hər hansı ünsiyyət formasını tətbiq etmək imkanları olduqca genişdir. Onlar insan keyfiyyətləri, insan təbiətinə münasibətlərin müsbət və mənfi yolları ilə əlaqəlidirlər. Əlbəttə ki, intizam tənbehi ilə, zorakılıqla birləşən və əlaqəli olan bütün ünsiyyət üsulları həmişə təsirli olmur. Buna baxmayaraq, ünsiyyətin əxlaqi təməlləri çərçivəsində onlar nəzərə alınmalıdır. Bütün bunlar şəxsiyyətin formalaşmasında, ləyaqət, qürur, özünü qoruya bilmək və hətta mətanət göstərmək və s. kimi keyfiyyətlərin əmələ gəlməsində əks olunur.

Məlumdur ki, totalitar və avtoritar rejimi olan cəmiyyətlərdə ünsiyyət vasitəsi ilə insan şüuruna mənfi təsir imkanları birbaşa bu şüurun manipulyasiyası və eyni zamanda güc göstərmək üçün, həm də qarşı tərəfin zəifliyi və çarəsizliyini axtarmaq üçün istifadə olunur.

Qarşı tərəfin ya da əlaqələndirici tərəflərdən hər biri əldə edilə biləcəyini manipulyasiya yolu ilə, yalan, yaltaqlıq, məddahlıq və ya aldadıcılığı istifadə edəcəkdir. Yalan, aldatma, və ya, əksinə, zəiflik, çarəsizliyin nümayişi – bütün bunlar bir şəxsin əxlaq xüsusiyyətləridir. Bütün bunlar ictimaiyyətin fikirlərini, bir şəxsin davranışını manipulyasiya etmək üçün istifadə edilə bilər. Xüsusilə ayrı-ayrı şəxslər insanı manipulyasiya etməyə və bu fürsətdən istifadə etməyə qadirdirlər.

Sosial fəlsəfənin inkişafında mühüm bir istiqamət fərdi amillərin öyrənilməsidir. İnsan davranışının və cəmiyyətin inkişafının səmərəliliyi böyük dərəcədə cəmiyyəti, insanları idarə edənlərlə əlaqəlidir. Bu halda şəxsiyyət amilinin əxlaqi təməlləri olduqca vacibdir. Bu, əlaqənin, ünsiyyətin səmərəliliyi ilə bağlıdır. Ünsiyyətin səmərəliliyi baxımından şəxsiyyətin, onun imkanlarının öyrənilməsi çox vacibdir. Ünsiyyət mədəniyyəti kimi anlayış da var.

İdarəetmə sistemində qarşılıqlı münasibətlər mədəniyyətinə dair bir çox araşdırmalar var. Xüsusilə korporativ mədəniyyətin inkişaf istiqamətləri və təşkilatın ideologiyası açıqlanıb öyrənilməkdədir. Bu, müəyyən prinsiplərə və ideyalara əsaslanan münasibətlərin formalaşma imkanları ilə bağlıdır [Məmmədov, 2013, 453].

Kommunikativ mədəniyyət çərçivəsində informasiya mənbəyinin etibarlılığı, bu məlumatı qəbul edən şəxsin sosial rifahı, fərd və peşəkar işçi kimi xüsusiyyətləri çox vacibdir. Bundan əlavə, psixoloji xüsusiyyətlər kompleksi var ki, bunlar təlqin prosesinə, negativizmin və ya, əksinə, etibarlılığın formalaşmasına, eləcə də informasiya mənbəyinə güvənməməyə səbəb olur.

Bütün bunlar çox vacibdir. Təsadüfi deyil ki, kollektivdə mənəvi-psixoloji iqlim illər ərzində formalaşır və əsasən kollektiv üzvlərinin insani keyfiyyətləri ilə bağlıdır. Xüsusilə, burada işləyən kişi və qadınların sayı, onların yaşı, fəaliyyət xarakteri, peşəkar məsuliyyət səviyyəsi və insan faktoru kimi digər elementlər nisbətində də açıqdır.

Məlumdur ki, sosial qruplardakı insanların əxlaqi keyfiyyətləri də onların emosional vəziyyəti ilə bağlıdır. Bəzən bir şəxsin davranışının əxlaqi məzmununu onun xüsusi emosional vəziyyətindən ayırmaq çox çətindir. Hər bir insanın zəngin emosional xüsusiyyətlərinə sahib olduğu məlumdur. Ünsiyyət qurarkən, həmişə müəyyən emosional keyfiyyətlər ifadə olunur. İnsanlar müəyyən bir emosional vəziyyətdədilər və bu, onların xarakter və temperamentindən çətin fərqləndirilir. Bu, həm də etnik identiklik, sosial mənşə, yaşayış yeri, fəaliyyətin xarakteri, yaş, qrup üzvlüyü və bir çox başqa amillərlə əlaqələndirilir.

Bunlar, məsələn, əyləncə, qarışıqlıq, qorxu, məyusluq, qəzəb, kədər, dərd, qəm, qorxu və s.-dir. Əlbəttə ki, insanın emosional vəziyyəti və əxlaqi keyfiyyətləri arasında birbaşa əlaqə yoxdur. Bununla belə, hər birimizin davranışı həyatın mənəvi cəhətlərini və emosional-iradi tərəflərini birləşdirir. Bunlar bir-birinə qarşılıqlı şəkildə bağlıdır [Ağayeva, 2007: 87].

Ünsiyyətin yaş xüsusiyyətlərini nəzərə almaq vacibdir. Əxlaq və əxlaqsızlıq anlayışı bir hərəkətin, sözün, formanın, ünsiyyət xarakterinin dərhal meydana gəlməməsi. Bu baxımdan fərqli inkişaf dövründə ünsiyyət xüsusiyyətlərini bilmək çox vacibdir. Məsələn, psixoloqlar bu dövrləri gənc uşaqların yaşına, məktəbəqədər uşaqlar arasında əlaqə qurmağa, daha sonra kiçik məktəblilərə,

daha sonra isə cavanlıq dövrünə, yeniyetmələrə və s. əlaqə qurur. Yaşlılıq dövründə ünsiyyət xüsusiyyətləri var.

Əsrlər boyu inkişaf etdirilən ünsiyyətin mənəvi cəhəti həm də əsaslı şəkildə müxtəlif yaş həddində olan insanlar üçün mənəvi xarakterin prinsiplərini və tələblərini özündə əks etdirir. Yəni şəxsiyyətin kommunikativ xüsusiyyətlərinin yaş göstəricilərini və bununla yanaşı, bu şəxsin mənəvi inkişafının yetkinliyini nəzərə almaq lazımdır.

**Ədəbiyyat:**

*Ağayeva, K.* (2007). Etika və gender: sosial-əxlaqi davranışın təhlili. Bakı, "Sabah", s.196

Azərbaycanın ictimai həyatında gənclərin rolu. (2012). / *A.M.Cəfərovun, E.B.İmaməliyevin* redaktəsilə. Bakı, s.100.

*Alışova, N.* (2011). Milli-mənəvi dəyərlərin təbliğində kitabxanaların rolu. Bakı, s.85.

*Məmmədov, F.T.* (2013). İdarəetmə mədəniyyəti. Xarici ölkələrin təcrübəsi. Bakı, "Apastrof", s.672.

*Буева, Л.П.* (1978). Человек, деятелность, общение. Москва, с. 216.

*Резаев, А.В.* (1993). Общение как обьект философский рефлексии. Афтореф. Санкт-Петербург, с.45.

*Коркунов, Н.М.* (1915). История философии права. Санк-Петербург, с.431.

*Сумерки богов*. (1990). Москва, Политиздат, с.398.

*Суханов, И.В.* (1976). Обычаи, традиции и преемственность поколений. Москва, с.216.

*Гоббс, Т.* (2001). Философские основания учения о гражданине. Москва, Харвест, с.304.

# İNKLÜZİV TƏHSİLDƏ TEXNOLOGİYA VƏ YAXŞI DİZAYN

**Cəbrayıl ŞİRƏLİYEV**
İmişli rayonu Xoşçobanlı kənd İ.Əhmədov adına tam
orta məktəbinin riyaziyyat müəllimi, əməkdar müəllim,
*Azərbaycan, İMİŞLİ*
cotuziki@mail.ru

**XÜLASƏ**

İnklüziv təhsil forması özündə təhsilə, təlim prosesində iştiraka, akademik və sosial nailiyyətə əngəl olan maneələrin müəyyən edilməsi və aradan qaldırılmasını ehtiva edir. Bu prosesdə həmçinin, bütün şagird və tələbələrin texniki avadanlıqlardan istifadəsinə də ehtiyac duyulur. Universal Təlim Dizaynına istinadən, qeyd edə bilərik ki, bütün uşaqların texnoloji avadanlıqlarla təmin edilməsi, onların bu avadanlıqlardan istifadəsinə kömək etmək lazımdır. Belə ki, bu öyrənmə dizaynının əsas tövsiyələrində də hər kəs üçün əlçatan resurs sahələrinin təklif edilməsi, rəqəmsal resurs və materialların inteqrasiyası barədə bildirilir. Universal Təlim Dizaynının məqsədi bütün uşaqlar üçün öyrənmənin əlçatan, eləcə də təlimdə uşaqların bacarıqlı, təhlükəsiz və uğurlu olmasını təmin etmək, təlim mühiti yaratmaq və dayanıqlığını saxlamaqdır.

**Açar sözlər:** inklüziv təhsil, texnologiya, dizayn.

# TECHNOLOGY AND GOOD DESIGN IN INCLUSIVE EDUCATION

**Jabrayil SHIRELIYEV**
Khoshchobanli village, Imishli district named after I.Ahmadov
secondary school mathematics teacher, honored teacher,
*Azerbaijan, IMISHLI*
cotuziki@mail.ru

**SUMMARY**

The form of inclusive education includes identification and removal of barriers to education, participation in the learning process, and academic and social achievement. In this process, it is also necessary for all students to use technical equipment. With reference to Universal Instructional Design, we can note that all children should be provided with technological equipment and help them to use this equipment. Thus, the key recommendations of this learning design also include offering accessible resource areas for everyone and integrating digital resources and materials. The goal of Universal Instructional Design is to create and sustain a learning environment that is accessible to all children, as well as to ensure that children are competent, safe and successful in their learning.

**Key words:** inclusive education, technology, design.

Texnologiyaların təhsil prosesinin bütün mərhələlərinə inteqrasiyası, təhsilin inkişafında əhəmiyyətli rol oynayır. Təhsil müəssisələri dövlət tərəfindən kompüter və zəruri rəqəmsal avadanlıqlarla təmin edilir.

Məlum olduğu kimi, İKT avadanlıqları inklüziv təhsil alan şagird və tələbələrin də tədris prosesində istifadə edilir. Hamıya məlumdur ki, Xüsusi qayğıya ehtiyacı olan uşaqların daha keyfiyyətli təhsilə yiyələnməsi, onların cəmiyyətə daha tez uyğunlaşmasında texnologiyaların rolu çox mühümdür.

*Psixoloqun fikrincə, inklüziv təhsil alan şagird və tələbələrin texniki avadanlıqlarla davranış qaydalarının tənzimlənməsi müəllim-valideyn əməkdaşlığı sayəsində ola bilər:* "İKT mütəxəssisi M.P.Radaboughun da qeyd etdiyi kimi, əksər insanlar üçün texnologiya hər şeyi asanlaşdırır. Lakin əlilliyi olan insanlar üçün texnologiya hər şeyi mümkün edir. İnklüziv təhsil alan şagirdlərdə İKT avadanlıqlardan istifadə yardımçı texnologiyaların vasitəsilə olur. Təbii ki, bu prosesdə əməkdaşlıq çərçivəsində müəllimlərin rolu böyükdür. Belə ki, BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasında da inklüzivliyin tam şəkildə təmin olunması hədəfinə uyğun olaraq, akademik və sosial inkişafa maksimum şərait yaradan mühitlərdə fərdi ehtiyaclara uyğunlaşdırılmış dəstək tədbirlərini təmin etmək barədə qeyd olunub. Yəni, müəllimlər uşaqların fərdi ehtiyaclarını nəzərə alaraq, onlara, həmçinin, İKT avadanlıqları ilə işləməyi də öyrətməlidir. Hər şeydən əvvəl isə, sinifdə uşaqlara sağlam psixoloji mühit yaratmaq lazımdır. Yardımçı texnologiyalardan istifadə zamanı müəllimlər uşaqların əllillik dərəcəsinə uyğun olaraq onlarla birlikdə İKT avadanlıqları ilə çalışa bilər. Misal olaraq, görmə əlilliyi olan uşaqlar ilk olaraq, ekranı paylaşmaq tətbiqetməsi olan "ağıllı" lövhə kimi ağ interaktiv lövhədən istifadə etməlidir. Beləliklə lövhədə yazılanları oxuya bilmələri üçün görmə əlilliyi olan uşaqlar kompüter və ya tabletdən istifadə edə bilərlər. Yaxud müəyyən məsafədən daha yaxşı görə bilmələri üçün uşaqlara binokl, monokl və ya böyüdücü cihazlardan istifadə etməyə icazə və şərait yaradılmalıdır. Həmçinin, kompüterin ekranındakıları şifahi olaraq təsvir edən proqram tətbiqetməsindən istifadə etməklə, zamanla uşaqlarda İKT avadanlıqları ilə işləmək bacarıqlarını formalaşdıra bilərlər. Fiziki əlilliyi olan uşaqların kompüterdən istifadəsinə yardımçı olması üçün isə müəllimlər hazırlanmış alternativ giriş cihazları sensor ekranlar, dəyişdirilmiş klaviatura, əyləncəli idarəedici çubuqlar, və s. yazmaqda çətinliyi olan uşaqlar üçün isə kompüter, yardımçı proqram təminatı, qeydə alan cihazlar təmin etməlidir. Unutmaq olmaz ki, bütün uşaqlar ümumi, hər uşaq isə xüsusidir".

*Texnologiyanın uşaqlara mənfi və müsbət təsirləini qeyd etməmək mümkünsüzdür:* "Digərləri kimi eyni əsasda dərsə yanaşmalarını təmin etmək məqsədilə əlilliyi olan bəzi uşaqlar üçün yardımçı texnologiya vasitəsilə xüsusi dəstəyin olması tələb olunur. Yardımçı texnologiya əlilliyi olan uşaqlara sinifdə daha yaxşı təlim almasına kömək etmək üçün düşünülüb. Yardımçı texnologiya təhsildə əlilliyi olan uşaqların təlim prosesində optimal iştirakına əngəl olan maeələrin aradan qaldırılmasına kömək edir. Uşaqların müvafiq texnologiya ilə təmin edilməsi onların kommunikasiya bacarıqlarına, baxışları, eşitməsi, təhsildə iştirakı və həmçinin, dərsə yanaşmasına kütləvi təsir edə bilər. Bundan əlavə, inklüziv siniflərdə şagirdlər arasında əməkdaşlığın mədəniyyətinin formalaşmasına da şərait yaradıla bilər. Başlanğıcda texnoloji avadanlıqlarla çalışmaq uşaqlara çətin gəlsə də müəyyən zaman çərçivəsində müəllim-şagird və valideyn əməkdaşlığı ilə bu problemi həll etmək mümkündür".

Yazımın bu yerində sizləri inklüziv təhsil üçün gərək olan texnoloji resursla tanış etmək istəyirəm.

Kroki na guki (Belarus dilindən "səsə doğru addımlar") adlı gözdən əlillər üçün səsli naviqasiya sisteminin Belarus layihəsidir. Kiçik səs mayakları sosial əhəmiyyətli şəhər obyektlərində, yəni mağazalarda, apteklərdə, banklarda, poçt şöbələrində və sairdə quraşdırılır və korların kosmosda daha yaxşı naviqasiyasına kömək edən ümumi geolokasiya sistemi təşkil edir. Bundan əlavə, hər bir mayakın yanında sistem insana ətrafdakı vəziyyət barədə məlumat verir - bordür və ya məhəccər var, qapı hansı istiqamətdə açılır və pilləkənlər neçə pilləli olacaq.

Anladığınız kimi, "Kroki on the gook" təkcə gözdən əlillər üçün deyil, həm də sadə insanlar, xüsusən də pensiyaçılar üçün faydalıdır.

Ağıllı qələm - 2000-ci illərin əvvəllərində meydana çıxdı və "koordinat qələmi" adını daşıyır. Quraşdırılmış çip qələmin hərəkətlərini xüsusi planşetdə izləyir, bütün lazımi koordinatları yadda saxlayır və tələb əsasında yazılan hər şeyi mətnə çevirə bilir. Belə qələmlər rəssamlar üçün stilusları və rəqəmsal planşetləri əvəz etmək üçün nəzərdə tutulub.

Alexa - səsli axtarışı təmin edən inklüziv cihazdlr. İnklüziv təhsildə, görmə məhdudiyyətli təhsilalanlar üçün bu cihaz çox vacibdir.

Burada sual yaranır ki, bəs insan danışa bilmirsə? Tərtibatçılar bunu amili nəzərə alaraq, əmrlərin əl ilə yazılması funksiyasını əlavə ediblər. Bəs yaza bilmirsə? Amazon düymələri olan intuitiv proqram yaratdı. İndi onlar müxtəlif nitq pozğunluğu olan insanların ifadələrini tanımaq üçün ayrıca Voiceitt startapını işə salıblar.

Susam Telefonu-İsrail ixtirası olan bu gihaz, toxunmadan, ancaq baş hərəkətləri ilə idarə oluna bilən telefondur. O, bir dəfə jest tanıma texnologiyasını tətbiq etmək üçün iflic olmuş elektrik mühəndisinin ona müraciət etdiyi oyun tərtibatçısı tərəfindən yaradılmışdır. O dövrdə PlayStation Move və Xbox Kinect sistemləri populyarlıq qazanırdı, ona görə də onlardan yalnız cəmiyyətin xeyrinə istifadə etmək qalırdı.

Zamanla Sesame Phone texnologiyası Android üçün Open Sesame proqramı kimi bütün smartfonlarda peyda oldu. Bu, toxunmağa müraciət etmədən, uyğun əməliyyat sistemi olan istənilən cihazdan istifadə etməyə imkan verir.

İnklüziv təhsil üçün texnologiya mühüm olduğu qədər, inkülziv mühitin – yəni universal dzaynın da olması ilk şərtlərdən biridir. İnklüziv dzayn dedikdə nələri nəzərdə tuturam ?

Məsələn, dövlət məktəbində ideal inklüziv mühiti təsəvvür edək:

- Sinifdən kənar - işarələr - əlçatan mühit və mümkün maneələr haqqında məlumat işarələri;
- Sürüşməyən örtüklər;
- Avtomatik qapılar;
- Səs naviqasiyası - Crooks on gooks kimi;
- Brayl şrifti - mümkün olan hər yerdə;
- Kömək düymələri;
- Panduslar;
- Sinifdə - Xüsusi mebel - masa əlavələri, ortopedik stullar, əlil arabası üçün oturacaqlar və s. interaktiv lövhə;
- Kompüter kompleksləri - gözdən əlillər üçün (Brayl əlifbası, ekran böyüdücü və böyüdülmüş şriftlərlə) və ya eşitmə qabiliyyəti zəif olanlar üçün (birbaşa eşitmə cihazına ötürülən müəllimin səsi ilə).
- Xüsusi klaviaturalar;
- İstirahət otaqları - onlara sensor otaqlar da deyilir. Orada uşaqlar psixoloji fonu bərpa edə, stresdən azad edə bilərlər.

## NƏTİCƏ

İnklüziv dizayn terminini ortaya qoyan Ronald Mays son çıxışlarının birində maneəsiz mühiti inklüziv dizaynla qarışdırmamağa çağırıb. O bildirib ki, əlillər üçün müxtəlif cihazların xüsusi yaradılması yaxşı işdir ki, xüsusi şirkətlər görməlidir. Və sözün həqiqi mənasında hər kəs inklüziv dizayn haqqında düşünməlidir.

İnklüziv təhsil forması özündə təhsilə, təlim prosesində iştiraka, akademik və sosial nailiyyətə əngəl olan maneələrin müəyyən edilməsi və aradan qaldırılmasını ehtiva edir. Bu prosesdə həmçinin, bütün şagird və tələbələrin texniki avadanlıqlardan istifadəsinə də ehtiyac duyulur. Universal Təlim Dizaynına istinadən, qeyd edə bilərik ki, bütün uşaqların texnoloji avadanlıqlarla təmin edilməsi, onların bu avadanlıqlardan istifadəsinə kömək etmək lazımdır. Belə ki, bu öyrənmə dizaynının əsas tövsiyələrində də hər kəs üçün əlçatan resurs sahələrinin təklif edilməsi, rəqəmsal resurs və materialların inteqrasiyası barədə bildirilir. Universal Təlim Dizaynının məqsədi bütün uşaqlar üçün öyrənmənin əlçatan, eləcə də təlimdə uşaqların bacarıqlı, təhlükəsiz və uğurlu olmasını təmin etmək, təlim mühiti yaratmaq və dayanıqlığını saxlamaqdır.

# ƏMƏKDAŞLIQ ŞAGİRDLƏRİN ƏQLİ VƏ SOSİAL İNKİŞAF AMİLİ KİMİ

**Hikmət ƏLİZADƏ**
Bakı Dövlət Universiteti,
Pedaqogika kafedrasının professoru, pedaqogika üzrə elmlər doktoru,
*Azərbaycan, BAKI*
hikmet56@gmail.com

## XÜLASƏ

Masir təlim konsepsiyaları müstəvisində əməkdaşlıq şagirdlərin əqli və sosial inkişafının hərəkətverici qüvvəsidər. Sinif məkanında əməkdaşlığı formalaşması müəllim şagird münasibətləri çərçivəsində həyata keçir. Bu münasibətlərin formalaşmasına müxtəlif amillər təsir edir. Məqalədə valideynin pedaqoji savadı, demoqrafik proseslər, həmyaşıd uşaqlar qrupunu müəllim-şagird əməkdaşlığına təsir edən amil kimi dəyərləndirilir.

**Açar sözlər:** müəllim-şagird əməkdaşlığı, müəllim-valideyn əməkdaşlığı, demoqrafik proseslər, ailə münaqişələri, sosial inkişaf şəraiti, valideynin pedaqoji savadı.

# COOPERATION AS A FACTOR OF INTELLECTUAL AND SOCIAL DEVELOPMENT OF STUDENTS

**Hikmat ALI-ZADA**
Baku State University,
Professor of the Department of Pedagogy,
Doctor of Sciences in Pedagogy,
*Azerbaijan, BAKU*
hikmet56@gmail.com

## SUMMARY

Cooperation at the level of Masir learning concepts is the driving force of students' intellectual and social development. The formation of cooperation in the classroom is carried out within the framework of teacher-student relations. Various factors affect the formation of these relations. In the article, the parent's pedagogical literacy, demographic processes, peer group of children are evaluated as factors affecting teacher-student cooperation.

**Key words:** teacher-pupil cooperation, teacher-parent cooperation, demographic processes, family conflicts, conditions of social development, parent's pedagogical literacy.

## GİRİŞ

Sovetlər dönəmində insan münasibətləri cəmiyyətdə hökm sürən avtoritar münasibətlər çərçivəsində inkişaf edirdi. Müasir dövrdə cəmiyyət həyatına demokratiklik və humanizm prinsiplərinin daxil olması bu münasibətlərində keyfiyyət dəyişikliklərinin yaranmasına təkan verdi.

Cəmiyyət həyatında hökm sürən münasibətlər sistemi gözəgörünməz tellərlə məktəb həyatına daxil olur. Bu öz əksini pedaqoji ünsiyyət prosesində əks etdirir. Pedaqoji ünsiyyətdə müəllimlərlə şagirdlər müəyyən rol normaları ilə bir-birinə bağlıdırlar. Avtoritar rejimdə rol normaları təlim prosesində müəllimin subyekt, şagirdin isə obyekt kimi fəaliyyət göstərməsini şərtləndirirdi. Təhsil sahəsində demokratiklik və humanizm prinsiplərinin bərqərar olması ilə həm müəllim, həm də şagird təlim prosesinin subyekti kimi qiymətləndirildi. “Subyekt-subyekt”

münasibətlərində “subyekt-obyekt” münasibətlərindən fərqli olaraq pedaqoji prosesdə əməkdaşlıq prinsipini aktuallaşdırdı.

**Metod və metodologiya**

Tədqiqatda müşahidə, müsahibə, anket sorğusu, təhlil, tərkib, məktəb sənədlərinin və şagirdlərin demoqrafik bioqrafiyasının öyrənilməsi, metodlarından istifadə olunmuşdur. Tədqiqatın aparılmasında məqsəd sinif məkanında həyata keçirilən əməkdaşlığın şagirdin əqli və sosial inkişafında rolunu öyrənmək və ona təsir edən amilləri aydınlaşdırmaqdan ibarətdir.

**ƏSAS HİSSƏ**

Müasir təlim konsepsiyaları kontekstində əməkdaşlıq interaktiv təlimin də əsas prinsiplərindən birinə çevrilmişdir [Veysova, 2007: 10]. Bu o deməkdir ki, sinif şəraitində şagirdlərin əqli və sosial inkişafı, ilk növbədə, müəllim-şagird əməkdaşlığı müstəvisində inkişaf edir. Yeni təlim konsepsiyaları müstəvisində əməkdaşlıq məktəb həyatında şagirdin əqli və sosial inkişafının əsas hərəkətverici qüvvəsinə çevrilib. İnteraktiv təlim metodlarının tətbiqi müəllim-şagird əməkdaşlığını yeni mərhələyə qalxmasına imkan verir. Lakin interaktiv təlim yalnız müəllim-şagird əməkdaşlığı əsasında deyil, həmçinin şagirdlərarası əməkdaşlıq çərçivəsində reallaşır. Müzakirə, qrupla işi, rollu oyunlar, layihələr və bu kimi interaktiv təlim metodları öz pedaqoji effektlərini şagirdlərarası əməkdaşlıq müstəvisində göstərə bilir.

Şagirdlərarası əməkdaşlıq müəllim-şagird əməkdaşlığı müstəvisində yaranır. Başqa sözlə desək, müəllimin pedaqoji ustalığı şagirdlərarası əməkdaşlığın formalaşmasında mühüm rol oynayır. Əməkdaşlığın yaradılması nəticəsində təlim prosesində şagirdlərin fəallığı artır, sinif məkanında yaradıcı mühüt yaranır, şagirdlər yeni ideyalar irəli sürərək inkişaf edirlər. Bu prosesdə onlarda eyni zamanda şəxsiyyət keyfiyyətləri formalaşmağa başlayır. Dərs şagirdin sosiallaşma amilinə çevrilir. Belə ki, şagirdlərin bir-biri ilə ünsiyyəti prosesində fikir mübadiləsinin, qarşılıqlı hörmət və ehtiramın artması sinif məkanında yeni sosial inkişaf mühiti yaradır.

Lakin pedaqoji təcrübədə müəllim-şagird münasibətləri heç də həmişə pozitiv məzmun daşımır. Hətta bu münasibətlərdə münaqişələrin də olmasına təsadüf edilir. Bu amil təbii ki, təlim prosesini əməkdaşlıq müstəvisində təşkil etməyə mane olur. Müəllim-şagird münasibətlərinin necə xarakter daşıması öz əksini onlar arasında hökm sürən emosional vəziyyət müstəvisində əks etdirir. B.V.Boqoslovskaya müəllimlərin şagirdlərlə münasibətlərinin üç emosional vəziyyəti ayırd etmişdir. Müəllimin şagirdə emosional vəziyyəti onun tədqiqatında belə təsnif edilmişdi: açıq (gizli) pozitiv, neytral, açıq (gizli) neqativ **[**Богословская, 1973: 152].

Burada qeyd olunan ikinci və daha çox üçüncü emosional vəziyyət müəllim şagird münasibətlərinin müsbət aurada formalaşmasına öz mənfi təsirini göstərir. Məktəblərdə apardığımız tədqiqatlar da B.V.Boqoslovskayanın tədqiqatının nəticələrini təsdiq edir. Şagirdlərlə həyata keçirilən anket sualları vasitəsi ilə biz onların müəllimlərə münasibətlərinin xarakterini öyrənməyə çalışdıq. Məlum oldu ki, bütün siniflərdə şagird müəllim münasibətində mənfi çalarlar vardır. Sinifdən asılı olaraq, müəllimlərdən narazı olan şagirdlər sayı müxtəlif olmuşdur. Əlbəttə şagirdlər narazılıqlarını müxtəlif səbəblərlə izah edirdilər. Münasibətlərdə narazılıqların olması təbiidir, lakin alimlər bu narazılıqların aradan qaldırılması və ya heç olmamasını müəllimin fəaliyyəti ilə əlaqələndirirlər. K.S.Xanovanın qeyd etdiyi kimi, müəllimin yaratdığı müsbət emosional mühit psixoloji qorxu və maneələri aradan qaldıraraq, şagirdin təşəbbüskar olmasına” [Ханова, 2002: 98] təkan verə bilir. Pedaqoqların və psixoloqların hamısının fikirləri bu məsələdə bir mənalıdır. Lakin bu onların nəzəri yanaşmasıdır. Nəzəri fikirlər isə heç də həmişə öz praktik təcəssümünü tapmır və fakt faktlığında qalır, bütün siniflərdə müəllimdən narazı olan şagirdlər var. Görəsən bunun səbəbi nədir? Bu məsələni izah edək.

Şagirdin əqli və sosial inkişafı təkcə məktəbdə həyata keçmir, onun məktəbdən kənar fəaliyyəti də bu istiqamətdə mühüm rol oynayır. Burada, ilk öncə, uşaqların formalaşmasının əsas tərbiyə institutlardan biri olan ailəni qeyd etmək lazımdır. Uşaqların ailədə formalaşması orada

yaradılan sosial inkişaf şəraiti ilə bağlıdır [Nuriyeva, 2017: 184]. Tədqiqatlar göstərir ki, ailədə heç də həmişə şagirdin əqli və sosial inkişafı üçün məqsədəuyğun mühit olmur. Məktəb ilə ailənin sosial inkişaf şəraiti bir-birinə uyğun olmayanda şagirdin əqli və sosial inkişafında ləngimələrin baş verməsi bu gün artıq pedaqoji aksioma kimi dəyərləndirilir. Ailədə sosial inkişaf şəraitinin olması isə, ilk növbədə, valideynlərin pedaqoji savadından asılıdır. Məsələyə bu konteksdən yanaşanda məktəbin ailə ilə əlaqə saxlaması və valideynlərin pedaqoji savadını artırması zəruri amilə çevrilir. Dialoji mədəniyyətin hökm sürdüyü müasir dövrdə valideynlərin pedaqoji savadının artırılması müəllimlərin onlarla əməkdaşlığını aktuallaşdırır. Bu istiqamətdə məktəbin özünəməxsus təcrübəsi vardır. Düzdür, heç də bütün hallarda məktəb bu imkanları lazımi səviyyədə reallaşdıra bilmir. Amma sevindirici haldır ki, qabaqcıl müəllimlər bu məsələdə İKT-nin imkanlarından yararlanaraq yeni təcrübədən uğurla istifadə edirlər. Artıq belə əlaqə növü öz arealını kifayət qədər genişləndirmişdir.

Aparılan tədqiqatların nəticələri göstərir ki, ailədə sosial inkişaf şəraitinin aşağı olmasının səbəblərindən biri də ailədə baş verən demoqrafik proseslərdir. Öyrənilmişdir ki, demoqrafik proseslərin neqativ təsiri özünü təkcə şagirdlərin akademik göstəricilərində deyil, həm də sosial inkişafında göstərir [Əlizadə, 1993: 230]. Belə ki, boşanma, ölüm, işsizlik, miqrasiya və s. bu kimi demoqrafik proseslərin neqativ təsiri nəticəsində ailədaxili münasibətlər sistemində özünəməxsus gərginliklər formalaşır. Bu gərginliklər ailənin sabit həyat tərzinə nüfuz edərək, onu öz "relsindən" çıxara bilir. Valideynlərin pedaqoji savadı yüksək olduqda onlar uşaqları ailədaxili münasibətlərdə yaranan gərginliklərdən kənar tutmağın yollarını bu və ya digər dərəcədə tapa bilirlər. Lakin apardığımız tədqiqatlar göstərir ki, demoqrafik proseslərin neqativ təsiri şəraitində hətta pedaqoji savadı yüksək olan valideynlər belə neqativ təsirləri aradan qaldırmaqda çətinlik çəkirlər. Bunun səbəblərində biri uşaqların dərsdən sonra evdə nəzarətsiz qalmasıdır. Valideyn nəzarətindən kənar qalan şagirdlər ev tapşırıqlarını yerinə yetirmirlər və s. Bu onun təlimdə geridə qalmasını şərtləndirən amilə çevrilir.

Təlimdə geridə qalan şagirdlər həmişə olub. Müəllimlər müxtəlif yollarla geriliyi aradan qaldırmağa cəhd ediblər. Pedaqoji ədəbiyyatda təlimdə geridə qalmanın iki qrup səbəbləri ayırd edilir. Birinci qrup səbəblər şagirdin zehni fəaliyyətinin xüsusiyyətləri, ikinci qrup səbəblər isə şagirdin həm məktəbdə, həm də ailədə mövcud olan sosial inkişaf şəraiti ilə [Дубровиной, 2004: 592; Менчинская,1971:272; Əlizadə, 1993:230] bağlıdır. İkinci səbəblər ierarxiyasında demoqrafik amillərin təsirinin nəticəsi xüsusi olaraq vurğulanır. Boşanma, ölüm, miqrasiya və s. demoqrafik proseslərin neqativ təsiri nəticəsində geridə qalma hadisəsinə tez-tez rast gəlinir. Bu demoqrafik proseslərin təsiri nəticəsində əksər hallarda uşaq üzərində valideyn nəzarətsizliyi artmasının nəticəsidir. Bu şagirdlərin zehni fəaliyyətlərin xüsusiyyətinə görə deyil, sosial inkişaf şəraitinin aşağı səviyyədə olmasının nəticəsində təlimdə geridə qalan şagirdə çevriliblər.

Görəsən şagirdlərin təlim fəaliyyətinin neqativ xarakter daşımasını demoqrafik proseslərin təsiri kimi dəyərləndirmək olar? Bu sual çərçivəsində biz ailədə baş verən demoqrafik proseslərlə şagirdlərin təlim nəticələrini arasında əlaqənin olmasını araşdırdıq. Bu zaman müxtəlif demoqrafik xarakteristikalar əsasında (məsələn, nuklear ailə ilə natamam ailədən olan uşaqların və s.) şagirdlərin təlim fəaliyyəti arasında korrelyativ əlaqənin olub-olmadığını tədqiq etdik. Məlum oldu ki, müxtəlif demoqrafik xarakteristikaya malik olan şagirdlər arasında həm yüksək, həm orta, həm də aşağı səviyyəyə malik olan şagirdlər vardır. Düzdür, tədqiqatımızda məsələn, nuklear ailədə şagirdlərin təlim nəticələri natamam ailədən olan şagirdlərlə müqayisədə daha yüksək idi və əksinə, aşağı səviyyəyə daxil olan şagirdlər arasında natamam ailədən olan şagirdlər üstünlük təşkil edirdi. Lakin onların hər ikisində aşağı səviyyəyə malik olan şagirdlərin olması səbəbin təkcə demoqrafik proseslər olmadığını göstərir. Burada hər bir halda valideynin pedaqoji savadı yenidən diqqəti özünə cəlb edir. Buna görədə biz demoqrafik amillərin neqativ təsiri və valideynlərin pedaqoji savadı ilə şagirdlərin təlim nəticələri arasında əlaqənin olub olmadığını müəyyən etmək üçün əldə

etdiyimiz məlumatları deyilən parametrlər arasında müqayisə etdik. Daha dəqiq ifadə etsək, müxtəlif pedaqoji savada (yüksək, orta, aşağı olmaqla) malik olan valideynləri eyni demoqrafik xarakteristika əsasında müqayisə etdik. Məsələn, natamam və nuklear ailədə valideynin pedaqoji savadı əsasında şagirdlərin təlim nəticələri arasında korrelyativ əlaqənin olub olmadığını müəyyən etdik. Məlum oldu ki, yenə bütün hallarda şagirdlər müxtəlif təlim nəticələrinə malikdirlər. Məsələn, natamam ailədə pedaqoji savadın həm yüksək, həm orta, həm də aşağı səviyyələrinə malik olan şagirdlər həm yüksək, həm orta, həm də aşağı təlim nəticələri göstərmişlər. Burada yenə fərq ondan ibarət olmuşdur ki, pedaqoji savadı yüksək olan valideynlərin övladları pedaqoji savadı aşağı olan valideynlərin övladları ilə müqayisədə daha yüksək nəticələrə malik olmuşlar.

Əldə etdiyimiz məlumatları daha dərindən təhlil edəndə yeni bir amilin də olduğu üzə çıxdı. Belə ki, valideyn nəzarətsizliyinin çoxaldığı şəraitdə şagirdin əqli və sosial inkişafında həmyaşıd uşaqların rolu artır. Pedaqoji, psixoloji və sosioloji ədəbiyyatda həmyaşıd uşaqlar şəxsiyyətin sosiallaşması amillərindən biri kimi dəyərləndirilir. Bu birmənalı qəbul edilən məsələlərdən biridir. Amma həmyaşıd uşaqlar qrupunun keyfiyyət baxımından təhlil edəndə müxtəlif məqamlara təsadüf etmək olur.

Şagirdlər sinif şəraitində həmyaşıd uşaqların arasında fəaliyyət göstərirlər. Bu məkanda onları təlim maraqları birləşdirir. Onlar müəllimin rəhbərliyi ilə yeni bilik və bacarıqlar əldə edirlər. Müəllim onlar arşında əməkdaşlığı təşkil edəndə, şagirdlər həm məktəbdə, həm də məktəbdənkənar vaxtlarda bir-birləri ilə öyrəndikləri məsələ ilə bağlı fikir mübadiləsi aparırlar. Şagirdlərarası fikir mübadiləsi dialoq və müzakirə müstəvisində baş verir. Onlar özləri də heç bilmədən bu zaman bir-birlərinə "əqli hücum" edir, yeni ideyalar irəli sürür, eyni ideya əsasında qruplaşa bilir, ideyalarını sübut etmək üçün arqumentlər axtarıb tapır və s. Fikir mübadiləsini xarici görünüşü baxımından şagirdlərin ancaq əqli inkişafı kimi dəyərləndirmək olar. Lakin unutmayaq ki, bu prosesdə onların şəxsiyyət keyfiyyətləri (özünüifadə etmək, özünüidarə etmək, özünütəsdiq etmək, özünüreallaş-dırmaq və s.) də formalaşır. Başqa sözlə desək, şagirdlərin fəaliyyəti əməkdaşlığa əsaslananda və bu onların həm də həmyaşıdlar qrupunun fəaliyyətinə çevriləndə (şagirdlərin əksəriyyəti bir-birinə yaxın olduğu üçün onlar məktəbdən sonra bir yerdə ünsiyyətə girmək imkanına malik olurlar) onlarda həm əqli, həm də sosial inkişaf baxımından böyük dəyişikliklər baş verir.

Lakin apardığımız tədqiqat çərçivəsində biz belə bir faktı da aşkarladıq ki, demoqrafik proseslərin neqativ təsirini altında şagirdlər bəzi hallarda məktəbə emosional vəziyyətdə gələ bilirlər. Bu halət onların həm müəllim, həm də şagirdlərlə münasibətində münaqişələrin formalaşmasına səbəb olur. Belə faktlar kütləvi olmasa da, mövcuddur. Təbii ki, belə hallarda müəllimin pedaqoji ustalığı yaranmaqda olan problemi həll etməyə qadirdir. Amma müəllim şagird üçün taleyüklü olan bu mələsəyə biganə yanaşanda (belə hallarda onun şagird yoldaşları da onu başa düşməkdə çətinlik çəkir və onunla münaqişəyə daxil olurlar) şagird sinif kollektivindən əvvəl mənəvi cəhətdən, daha sonra fiziki cəhətdən uzaqlaşmağa başlayır. Adətən məktəbdə və ailə şəraitində özünə yer tapmayan uşaqlar özlərini təsdiq etmək üçün müxtəlif qruplarda birləşirlər. Bu qruplar da həmyaşıd uşaqlar qrupudur. Bu qrupların fəaliyyətində bir çox hallarda anti-sosial hərəkətlər üstünlük təşkil edir. Onlar təlim maraqlarından uzaq olur, məktəbə gedəndə yaxşı oxuyan şagirdlərə "lağ" edir, onları öz tərəflərinə çəkməyə cəhd edir (iradə keyfiyyətləri zəif olan şagirdlər belə təsir dairəsinə düşə bilirlər) və beləliklə sinfin nizamını poza bilirlər.

Həmyaşıd uşaqların ünsiyyəti vacibdir. Amma bu qruplar yaşlıların nəzarəti ilə faydalı işlərlə məşğul olduqda onların sosiallaşması məqsədəuyğun məzmun daşıyır. Amma nəzarətdən kənar olduqda isə neqativ davranışların sayı çoxalır. Heç bir müəllim öz şagirdinin, heç bir valideyn övladının inkişafının səhv istiqamət almasını istəməz. Amma bir halda valideynin pedaqoji savadı, digər halda müəllimin biganəı münasibəti, üçüncü halda demoqrafik amillərin neqativ təsiri şəraitində şagirdin həm əqli, həm də sosial inkişafına təsir edə bilir. Bu sinifdə əməkdaşlığın həyata keçirilməsinə neqativ təsir göstərir.

## NƏTİCƏ

Apardığımız tədqiqatlar göstərir ki, məktəbdə müəllim şagirdlərarası əməkdaşlığı səmərəli təşkil etdikdə, ailə və həyət qruplarının neqativ təsirini aradan qaldırmaq imkanı genişlənir. Şagirdlər nəinki məktəbdə, həm də dərsdən sonra bir yerdə fəaliyyət göstərirlər. Bu fəaliyyətdə onların həm əqli, həm də sosial inkişafları üçün yeni üfiqlər açılır. İnteraktiv dərslərin şagirdlərarası əməkdaşlıq üzərində qurulması bu istiqamətdə mühüm əhəmiyyət kəsb edir. Əməkdaşlıq şagirdlərin əqli və sosial inkişafını təmin edən amil kimi üzə çıxır. Bu istiqamətdə məktəbdə şagirdlərarası əməkdaşlığın öz arealını genişləndirilməsi günün aktual pedaqoji probleminə çevrilir. Şagirdlərin əməkdaşlıq keyfiyyətləri inkişaf etdicə, dərsdən sonra onların ünsiyyəti idrakı əhəmiyyət daşımağa başlayır. Bu şagirdlərin həm əqli, həm də sosial inkişaf imkanlarını genişləndirir.

### Ədəbiyyat:

*Veysova, Z.A.* (2007). Fəal/interaktiv təlim. Bakı: UNİSEF, s.156.

*Богословская, Б.В.* (1973). Отношение как проблема психологии восприятие М.: Педагогический Институт им. Герцена, с.152.

*Ханова, К.С.* (2002). Формирование взаимоотношений учителя и подростков в современных социокультурных условия//дис... канд. пед. наук. Волгоград, с.204.

*Nuriyeva, R.M.* (2017). Ailədə uşağın sosial inkişaf şəraiti və valideynlərlə pedaqoji işin xüsusiyyətləri. Bakı, Bakı Universiteti, s.184.

*Əlizadə, H.Ə.* (1993). Tərbiyənin demoqrafik problemləri. Bakı, Maarif, s.230.

Практическая психология образования. (2004). - Под ред. *И.В. Дубровиной,* - 4-ое изд. Перераб. и доп. – СП(б), с.592.

Психологические проблемы неуспеваемости школьников. (1971). - Под. ред. *Менчинская, Н.А.* М.: Педагогика, с.272.

# SEMİNAR MƏŞĞƏLƏLƏRİNİN TƏŞKİLİ MÜASİR TƏLİM KONSEPSİYALARI KONTEKSTİNDƏ

**Rəhimə MAHMUDOVA**
Bakı Dövlət Universiteti,
Pedaqogika kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru,
*Azərbaycan, BAKI*
rahimamahmudova@bsu.edu.az

## XÜLASƏ

Müasir dövrdə ali məktəblərdə seminar məşğələlərinin qarşısına yeni vəzifələr qoyulur. Bu vəzifələr tələbələrdə yaradıcılıq keyfiyyətinin formalaşmasına istiqamətlənib. Pedaqoji təcrübədə seminar məşğələlərinin müxtəlif tipləri mövcuddur. Hər bir seminar məşğələsinin tipinə uyğun vəzifələrin əvvəlcədən müəyyən edilməsini dərsin keyfiyyətinin artmasına xidmət edir. Problemi bu müstəvidə araşdıran müəllif interaktiv təlim metodlarının tətbiq edilməsi və məşğələnin yaradıcı tapşırıqlar üzərində qurulmasını tələbələrdə yaradıcılıq keyfiyyətlərinin formalaşdırılması və inkişaf etdirilməsi yolu kimi dəyərləndirir.

**Açar sözlər:** seminar məşğələsi, tələbə müstəqil fəaliyyəti, məqsəd, vəzifə, interaktiv təlim metodları, yaradıcı tapşırıqlar.

# ORGANIZATION OF SEMINAR CLASSES IN THE CONTEXT OF MODERN TRAINING CONCEPTS

**Rahima MAHMUDOVA**
Baku State University,
Associate Professor of the Department of Pedagogy,
Doctor of Philosophy in Pedagogy,
*Azerbaijan, BAKU*
rahimamahmudova@bsu.edu.az

## SUMMARY

In modern times, seminar classes in higher schools are faced with new tasks. These tasks are aimed at the formation of creative quality in students. There are different types of seminar exercises in pedagogical practice. Pre-determining the tasks according to the type of each seminar exercise serves to increase the quality of the lesson. Examining the problem at this level, the author evaluates the application of interactive learning methods and building the lesson on creative tasks as a way of forming and developing the creative quality of students.

**Key words:** seminar exercise, student independent activity, goal, task, interactive learning methods, creative tasks.

## GİRİŞ

Seminar məşğələləri ali məktəbdə təlimin əsas təşkili formalarından biri olub, latınca "seminarium" sözündən götürülmüşdür. Qədim Yunan və Roma məktəblərində dərslər disput üzərində qurulurdu. Şagirdlərin bütün mülahizələri müəllimin izahı ilə bitirdi. Müəllim-şagird münasibətlərinin belə təşkili məşğələnin adının seminar qoyulmasına gətirib çıxarmışdır.

XX əsrin ortalarına qədər seminar məşğələlərinin vəzifələri mühazirədə verilən biliklərin necə mənimsənildiyinin müəyyən edilməsi və onun tətbiqi yollarının ıöyrədilməsi kimi

dəyərləndirilmişdi. Zaman kontekstində təhsilin fəlsəfəsinə baxış bucağının dəyişməsi, yaddaş paradiqmasının təfəkkür paradiqması ilə əvəz olunması seminar məşğələsinin vəzifələrinin yeni məzmun kəsb etməsinə səbəb olmuşdur. Bu istiqamətdə seminar məşğələlərinin yeni vəzifələrə uyğun təşkil edilməsi yollarının araşdırılması aktual pedaqoji problemlərdən birinə çevrilmişdir

**Metod və metodologiya**

Tədqiqatda müşahidə, müsahibə**,** nəzəri və praktik məlumatların təhlili, tərkib, qabaqcıl təcrübənin öyrənilməsi, pedaqoji konsilium metodlarından istifadə olunmuşdu. Tədqiqatın əsas məqsədi ali məktəblərdə seminar məşğələlərinin keçirilmə təcrübəsini öyrənmək, onların müasir təhsil konsepsiyaları müstəvisində dəyərləndirmək, dövrün tələbləri çərçivəsində seminar məşğələlərinin qarşısına qoyulan vəzifələri müəyyən etmək, seminar məşğələlərinin yeni modellərini hazırlamaqdan ibarət idi.

## ƏSAS HİSSƏ

Müasir təhsil konsepsiyalarının təhsil qarşısına yeni məqsədlər qoyması seminar məşğələlərinin vəzifələrinin yeni məzmunda araşdırılmasını aktuallaşdırmışdı. Yeni yanaşmalar çərçivəsində seminar məşğələlərində yaradıcı təfəkkürün formalaşması və inkişafı prioritet istiqamətə çevrilib. Seminar məşğələlərini bu müstəvidə dəyərləndirən M.İsmixanov və R.Bəxtiyarova onun vəzifələrini aşağıdakı kimi açıqlayırlar:

a) mühazirədə keçirilən nəzəri biliklərin öyrənilməsini və konkretləşməsini təmin etmək;

b) nəzəriyyə və təcrübəni əlaqələndirmək, bacarıq və vərdişlər formalaşdırmaq;

c) tələbələri təlim-idrak və elmi tədqiqat fəaliyyətinə cəlb etmək;

ç) elmi təhlil, müzakirə və mübahisə mədəniyyəti, öz fikirlərini ifadə etmək və əsaslandırmaq, başqalarını dinləmək, tənqid etmək bacarığını tərbiyə etmək;

d) təlim materialının mənimsənilməsinə nəzarət etmək” [İsmixanov və Bəxtiyarova, 2014:130).

Müəlliflər bu vəzifələrin seminar məşğələlərində həyata keçirilməsini yaradıcı təfəkkürün tələbələrdə yaradıcılıq keyfiyyətlərinin formalaşması və inkişafı baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayırlar. Onlar bu zaman interaktiv təlim metodlarının tətbiqi vasitəsi ilə tələbələrin tədqiqat fəaliyyətinə cəlb edilməsinə üstünlük verirlər.

F.Rüstəmov və T.Dadaşova “tələbələri nəzəri biliklərin tətbiqi ilə bağlı bacarıq və vərdişlərlə silahlandırmağı” [Rüstəmov və Dadaşova, 2007: 234] seminar məşğələlərinin əsas vəzifəsi hesab edirlər. Müəlliflər tələbə müstəqil fəaliyyətinə önəmli yer verərək seminar məşğələlərində “yaradıcı təfəkkürü və idrak motivlərini inkişaf etdirmək; professional bilikləri tədris prosesində tətbiq etmək; müvafiq elmin anlayış-terminologiya sistemini mənimsəmək; anlayışlardan, təriflərdən, formullardan, qaydalardan istifadə bacarığı aşılamaq; intellektual problem və məsələləri qoymaq və həll etmək bacarığı formalaşdırmaq; öz mülahizələrini, baxışlarını, mövqelərini, yanaşma tərzlərini əsaslandırmaq bacarığı inkişaf etdirmək; biliklərin təkrarı və möhkəmləndirilməsini təmin etmək; nəzəri biliklərin dərinləşdirilməsi, genişləndirilməsi, konkretləşdirilməsi və sistemləşdirilməsini təmin etmək; müstəqil işləmək bacarıq və vərdişləri formalaşdırmaq; nəzarət və korreksiya; pedaqoji kommunikasiyanı reallaşdırmaq” kimi alt vəzifələri irəli sürmüşlər. Onlar seminar məşğələsinin vəzifələrini bütünlüklə müasir təlim konsepsiyalarına uyğunlaşdırmağa nail olmuşlar.

A.M.Matyuşkinin tədqiqatları da bu istiqamətdə maraq kəsb edir. O “tələbənin nəzəri biliklərini öyrəndiyi sahənin xüsusiyyətlərinə uyğun tətbiq etmək bacarıq və vərdişlərinə yiyələnməsini” fikri müstəvisində seminar məşğələlərinin aşağıdakı vəzifələrini ayırd edirlər: yaradıcı peşə təfəkkürünü inkişaf etdirmək; idrakı motivasiya yaratmaq; bilikləri tədris prosesində peşəkar tətbiq etmək; müvafiq elmin dilini mənimsəmək; anlayışlardan, təriflərdən, formullardan istifadə vərdişləri aşılamaq; intellektual problem və məsələləri, təkzib etmək, öz noqteyi-nəzərini

müdafiə etmək bacarığı və vərdişlərinə yiyələnmək; Bunlarla yanaşı o biliklərin möhkəmləndirilməsi və təkrarını, nəzarəti və pedaqoji ünsüyyəti də bu vəzifələr sırasına daxil edir [Матюшкин, 1972: 208].

Seminar məşğələlərinin qarşısına qoyulan yeni vəzifələri təhlil edəndə onların beş istiqamətdə mühüm əhəmiyyət kəsb etdiyi aydın olur:

I - Tələbələrdə yaradıcı müstəqil fəaliyyət üçün stimul formalaşdırmaq;

II - Tələbələrdə müstəqil işləmək üçün zəruri bacarıq və vərdişlər aşılanmaq;

III - Nəzəri bilikləri dərinləşdirilmək, konkretləşdirilmək, sistemləşdirilmək və möhkəmləndirmək;

IV - Pedaqoji kommunikasiyanı reallaşdırmaq;

V - Tələbə müstəqil fəaliyyətinə nəzarət və onun korreksiya etmək.

Vəzifələrin seminar məşğələlərində səmərəli yerinə yetirilməsi onun tiplərinin düzgün müəyyən edilməsində asılıdır. Pedaqoji ədəbiyyatda seminar məşğələlərinin aşağıdakı tipləri ayıtrd edilir: Seminar sorğu, seminar-diskussiya (disput), referativ seminarlar, problematik seminarlar, seminar-işgüzar oyunlar, seminar dəyirmi massa, seminar yoxlama işi, seminar müsahibə, seminar oxu, seminar-şifahi məruzə, seminar nəzəri konfrans, seminar tədqiqat, seminar sərgi, axtarıcı seminarlar, icmal seminarlar, fərdi işlə seminar, qrupla işlə seminar (təlimdə «beyin həmləsi»), evristik seminar, seminar dəyirmi massa, nəzarət-ümumiləşdirici seminarlar və s. [Белых, 2018: 248: Пономарев, 2020:204; Качуровский, 2015:150].

Mövzu ilə bağlı dərs zamanı, ev tapşırığını yerinə yetirərkən, eləcə də layihələrin icrasında maketlərin, fiqurların hazırlanması, tikmələr və s. əl işləri texnologiya fənninə inteqrasiyanı təmin edir.

Azərbaycan dilli dərsliklərində milli bayramlara aid olan mətnlər və bədii əsərlərdə xalqın adət-ənənələrini əks etdirən sujetlər şagirdlərdə milli-mənəvi dəyərlərə hörmət və sevgi hissi aşılayır. Məsələn, Novruz bayramı haqqında mətnlərin tədrisi zamanı xalqın milli adət-ənənələrinə geniş yer verilir. Şagirdlərin onların həyatında mühüm yer tutan bayram və çərşənbə adətlərini müzakirə etməsi onlarda həyati bacarıqlar, humanist hislər, milli dəyərlərə sevgi formalaşdırır. Mövzu ilə bağlı onların ailə üzvlərindən məlumat toplaması onlarda araşdırma və müsahibə bacarığı yaradır. Şagirdlərin bununla bağlı internetdə araşdırmalar aparması isə onlarda media savadlılığını formalaşdırır.

Bütün fənlərin tədrisində olduğu kimi, Azərbaycan dili və ədəbiyyat fənninin tədrisində fəndaxili və fənlərarası inteqrasiyanın aparılması şagirdlərin təfəkkürünün inkişafına, onların lazımi bacarıqlara yiyələnməsinə, hərtərəfli bacarığa malik şagird şəxsiyyətinin formalaşmasına kömək edir.

## Ədəbiyyat:

*Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları).* (2010). //Kurikulum. № 3.

*Ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün fənn kurikulumları.*

*Ümumi təhsilin fənn standartları (I-XI siniflər).* (2012). Bakı, “Mütərcim”, 402 s.

*Azərbaycan Respublikasının ümumi təhsil sistemində qiymətləndirmə konsepsiyası.* (2009)/ // “Kurikulum” jurnalı, Bakı, №2.

# MƏKTƏBƏQƏDƏR UŞAQLARA İNGİLİS DİLİNİ ÖYRƏTMƏK ÜSULLARI

**Günay SÜLEYMANOVA**
Bakı Slavyan Universiteti,
İngilis Filologiyası kafedrasını müəllim,
*Azərbaycan, BAKI*
gunayenglish@gmail.com

## XÜLASƏ

İngilis dilini bilmək şəxsiyyətin formalaşmasına və daim dəyişən multikultural mühitdə sosial şəraitə uyğunlaşmasına kömək edir. Dil ən vacib ünsiyyət vasitəsidir. İngilis dilini öyrənməyin əsas dəyəri uşaqların şəxsiyyətlərarası və mədəniyyətlərarası ünsiyyəti həyata keçirməyə hazır olmasına töhfə verən kommunikativ səriştənin formalaşmasıdır.

Məktəbəqədər yaş xarici dil öyrənmək üçün ən əlverişli dövr hesab olunur. Uşaqları öyrətməyin kommunikativ üsulu bu yaşda aparıcı olaraq qalır; həmsöhbətlə ünsiyyət qurur, səsə, mətnə və təsvirə maraq oyadır, cavab verməyə həvəsləndirir.

**Açar sözlər:** məktəbəqədər, oyun, təlim, üsul.

# METHODS OF TEACHING ENGLISH TO PRESCHOOL CHILDREN

**Gunay SULEYMANOVA**
Baku Slavic University,
Teacher of the Department of English Philology,
*Azərbaijan, BAKU*
gunayenglish@gmail.com

## SUMMARY

Knowing the English language helps to form a personality and adapt to social conditions in a constantly changing multicultural environment. Language is by far the most important means of communication. The main value of learning English is the formation of communicative competence, contributing to the readiness of children to carry out interpersonal and intercultural communication.

Preschool age is considered the most favorable period for learning a foreign language. The communicative method of teaching children remains the leading one at this age; interacts with the interlocutor, arouses interest in sound, text and images, encourages to answer.

**Key words:** preschool, game, training, method.

*XXI-ci əsrin cahili o kəslər olmayacaq ki, onlar oxuma-yazma bilmirlər, o kəslər olacaq ki, onlar öyrənə bilmir, yenilənə bilmirlər.*
***Alvin Toffler***

## GİRİŞ

Psixoloqlar və pedaqoqlar məktəbəqədər yaşın xarici dilin ilkin mənimsənilməsi üçün ən yaxşı dövr olduğunu deyirlər. Məhz bu yaşda uşaqlarda təbii maraq, səslərin qavranılmasına həssaslıq, təqlid və təqlidə meyl, dil materialının tez və asan mənimsənilməsi xarakterikdir. Xarici dil öyrənmək uşağın təfəkkürünü, yaddaşını, diqqətini, təxəyyülünü inkişaf etdirir, ümumi nitq

inkişafını yaxşılaşdırır. Xarici dillə tanış olan uşaq ətrafındakı dünya haqqında bilikləri genişləndirir, digər insanlarla ünsiyyət təcrübəsi qazanır – onun sosiallaşması prosesi baş verir.

Son illərdə daha geniş vüsət alan, əlçatan və rəngarəngləşən məktəbəqədər yaşlı uşaqların xarici dilin öyrənilməsi ümumi təhsil sistemində xüsusi əhəmiyyət kəsb etmişdir. Ümumilikdə, məktəbəqədər təhsil siteminin yenidən qurulması ilə əlaqədar belə təhsilin təşkili üçün qanunvericilik bazası əhəmiyyətli dərəcədə dəyişmişdir. Dünyada toplanmış təcürbəni nəzərə alaraq ikidillilik probleminə yeni tərzdə yanaşmaq imkanı yarandı.

Cəmiyyətdə formalaşmış ehtiyaclar təhsilin məqsəd və vəzifələrinin müxtəlif normativ sənədlərdə öz əksini tapır, burada hədəf dildə uşaqlarda ünsiyyət bacarıqlarının inkişafı prioritet kimi önə çəkilir.

Xarici dilin erkən öyrənilməsi təhsildə prioritet sahələrdən biridir. Bir çox metodistlər və təcrübəçi müəllimlər belə qənaətə gəlirlər ki, xarici dilin tədrisinə ən əlverişli hesab olunan məktəbəqədər dövrdən başlamaq daha məqsədəuyğundur. Bir çox valideynlərinin uşaqları xarici dil öyrənmələrinə mümkün qədər tez başlamaq cəhdləri, bir çox hallarda dil biliklərinin öz səviyyəsindən narazı olması ilə izah olunur. Uzun illər öyrənilən dildə ünsiyyət qura bilməmək də qismən öyrənməyə gec başlaması ilə əlaqələndirilir. Buna görə də, uşaqlarını məktəbəqədər yaşda xarici dil öyrənməyə göndərən böyüklər, uşaqlarının həqiqətən bu dildə ünsiyyət qura bilməsini gözləyirlər. Bununla belə, təcrübə göstərir ki, uşaq bağçasında bir neçə il təhsil aldıqdan sonra uşaqlar hələ də ünsiyyət prosesində dildən istifadə etməkdə əhəmiyyətli çətinliklər yaşayırlar və çox vaxt bu vəzifənin öhdəsindən gəlmirlər. Buna görə də tədqiqat işinin aktuallığı ikinci dildə ünsiyyətin inkişafı metodologiyasının yaş və sosial-mədəni adekvatlıq və fəaliyyət istiqaməti keyfiyyətlərinə cavab verən psixoloji əsasların yaradılmasından ibarətdir.

Məktəbəqədər yaşlı uşaqlara ingilis dilini öyrənməyin, ən effektiv nəticə əldə etməyin xüsusiyyətlərini öyrətməyə əsaslandırılır. Məktəbəqədər təhsil proqramı ikinci dilə yiyələnməkdə məktəbəqədər yaşın üstünlüyündən bəhs edir. Xarici dilin erkən öyrənilməsi məktəbəqədər uşağın şəxsiyyətinin inkişafına müsbət təsir göstərir, həmçinin uşaqlarda xarici dilə maraq aşılamaq məqsədi daşıyır.

Belə bir tədqiqatın aktuallığı məktəbəqədər uşaqlarda kommunikativ şəraiti nəzərə alınmaqla başqa dildə ünsiyyət qurmaq və nitq davranışlarını qurmaq bacarığının inkişafının vacibliyi ilə müəyyən edilir.

Tədqiqat işi prosesində aşağıdakı metodlardan istifadə edilmişdir: elmi ədəbiyyatın təhlili, ümumiləşdirilməsi və təsviri, müqayisə, təsnifat və modelləşdirmə. Məqalədə, ilk növbədə, nəzəri təhlil metodundan istifadə etməklə proqramda, təlim vəsaitlərində, pedaqoji ədəbiyyatda problemin qoyuluşu təhlil edilmişdir.

## ƏSAS HİSSƏ

Xarici ölkələrlə birbaşa əlaqələrimizin yaranması nəticəsində həmin ölkələrin təhsil sistemləri ilə daha yaxından tanış olaraq qabaqcıl iş təcrübələrindən faydalanaraq tədris prosesində tətbiq etmək imkanı əldə etmişik. əcnəbi təcrübə ilə daha yaxından tanış olmağımız onu da göstərir ki, xarici dillərin öyrənilməsində kommunikativ üsula daha çox diqqət yetirilməsi lazımi faktorlardandır. Yəni mərkəzləşmə həm müəllimin, həm də dil öyrənənin üzərinə yüklənməməli, bərabər şəkildə paylanmalıdır. Bu məqsədlə fəal təlim metodlarından geniş istifadə edilməsi məqsədə uyğundur.

Təhsil prosesinin ən vacib qaydası erkən ingilis dilinin öyrədilməsi dilin özünə maraqdır, ünsiyyət bacarıqlarının inkişafıdır, həmçinin uşağa özünü ifadə etməkdə köməklik etməkdir.

Bu yaş mərhələsində baş verən öyrənmə təkcə verilən materialın miqdarına əsaslanmır, həmçinin uşaqların materialın mənimsənilməsinin keyfiyyətinə, gələcəkdə uşaqlara yeni linqvistik vahidləri tez mənimsəməyə imkan verməyə və onları öz nitq bacarıqlarına daxil etməyə kömək edir.

Erkən öyrənmə üçün tətbiq olunan bir çox fəaliyyət formaları var.

Onlardan bir neçəsini nəzərdən keçirək:

**1) "Gündəlik fəaliyyətlər"**

Ən çox istifadə edilən təcrübə formalarından biri hər gün dərslərin keçirilməsidir. Bu dərs növü xarici dilləri mükəmməl öyrənilməsində ixtisaslaşdırılmış uşaq bağçalarında, eləcə də valideynlər tərəfindən müstəqil olaraq istifadə olunur.

Bu məşğələnin xüsusiyyətləri aşağıdakılardır:

- dərslər 15-25 dəqiqə davam edir;
- öyrənilən dildəki nitq ana dili ilə əvəzedici kimi istifadə olunur, tez-tez uşağın hərəkətlə əlaqəli hər hansı bir hərəkəti yerinə yetirməsini təmin etmək üçün istifadə olunur.

**2) "Həftədə iki dəfə dərslər"**

Uşaqların ingilis dilinin erkən öyrənilməsi prosesində repetitorların istifadə etdiyi ən məqbul dərslərdir.

Bu siniflərin xüsusiyyətləri bunlardır:

- dərslər 25-45 dəqiqə davam edir;
- öyrənilən dil üzərində aktiv oyunlar, habelə dərsin mövzusu ilə bağlı rəsm çəkmək və ya sənətkarlıq etmək üçün nəzərdə tutulmuşdur;
- daha çox uğurlu təhsil prosesinə töhfə verən aktiv fəaliyyət dəyişikliyinə səbəb olan dərslərdə video fraqmentlərdən də istifadə edilməsi.

**3) "Əlavə dərslər"**

Təlimin bu forması öyrənilən mövzuya dair material verilməsi və ya yeni mövzuya giriş edilməsi üçün idealdır. Bu təlim forması həftədə iki dəfə formatında keçirilən dərslər arasında əlavə vaxt üçün uyğundur

Bu məşğələlərin xüsusiyyətləri:

- evdə, dərsdən kənarda həyata keçirilir;
- müəllimin iştirakı olmadan baş verə bilər;
- 15 dəqiqədən çox olmayan və uyğun gələn yaxşı seçilmiş video materiallara (nağıllar, cizgi filmləri) əsaslanır.
- tələbələrin dil səviyyəsi və onların yaşları nəzərə alınmaqla həm dərsin mövzusuna, həm də mövcud mövzuya uyğunlaşdırılır.

**4) "Xarici dildə bayramlar"**

Artıq müəyyən dil bazası olan uşaqlar üçün nəzərdə tutulmuşdur, bayram uşaqların iştirakı ilə keçirilir (eskiz, tamaşa, şeirlər, mahnılar, rəqslər).

Bu təlim formasının xüsusiyyətləri:

- tədbirin ssenarisi, həmçinin valideynlərin tamaşada iştirakı;
- eyni anda bir neçə uşağın iştirakı və ya passiv iştirakçı;
- bayram ssenarisində uşaqların dil bacarıqları və yaşları nəzərə alınmalıdır.

**5) "Açıq hava fəaliyyəti"**

Bu dərslərin xüsusiyyətləri:

- dərslər açıq havada keçirilir;
- dərslərin vaxtı məhdud deyil;
- müəllim rəhbəri ilə dərslərin mövzusu və konkret ssenarisi olmalıdır.

Amma nəzərə alsaq ki, bütün uşaqlar eyni şəkildə inkişaf etmir və bəziləri nitqdə axsamalar aşkar edilir, və ana dili və ingilis dillərini qarışdırmamaq üçün nitq qüsuru olan uşaqlara xarici dilləri öyrətməyi tövsiyə etməyən psixoloqların və nitq terapevtlərinin rəyini qeyd etmək vacibdir [Утехина, 2015: 76-79].

Rus pedaqoqları Qalskova və Şibkoya görə fəal təlim metodları effektiv istifadə edildikdə üç vəzifəni həll etməyə imkan verir. Birincisi, müəllim bununla uşaqları öyrənmə fəaliyyətlərinə həvəsləndirə bilər, təlim prosesinə tabe edər, həm dili yeni başlayanlar, həm də uzun müddət öyrənənlər üçün materialı yadda saxlamaq asanlaşar [Гальскова, 2007; Шибко, 2015].

Fəal təlim metodları məktəbəqədər uşaqların sərbəst düşüncəsinin inkişaf etməsinə, öyrənmə prosesini oyuna çevirmək və nitqin inkişafı üçün zəruri şərait yaratmağa kömək edir. Fəal təlim metodları məktəbəqədər yaşlı uşaqların bilik, bacarıq və vərdişlərinin formalaşdırmağa imkan verir, uşaqları oyuna cəlb etməklə onlarda fəal təlim və idrak fəaliyyəti uşaqların şəxsi biliyinə ötürürlür.

İngilis dili dərslərində müəllim məktəbəqədər yaşlı uşaqlarla aşağıdakı aktiv üsullardan istifadə edə bilər:

**1. “Fəal Dinləmə”**

Fəal dinləmə üsulu psixologiya sahəsində həmsöhbətin vəziyyətini daha yaxşı başa düşmək üçün istifadə olunur. Bu üsul ən çox valideynlər və uşaqlar arasında, eləcə də xidmət və biznes sahələrində istifadə olunur. Bu üsul müəllimə elə mühit yaratmağa imkan verir ki, təlim prosesində uşaqlar obyekt kimi deyil, subyekt kimi dərs ərzində fəal iştirak etsinlər. Uşaqların yaşını və inkişaf səviyyəsini nəzərə alaraq, müəllim yalnız tənqidi düşünən şəxsiyyətin yaranmasının ilk addımlarını atır. Fəal dinləmə metodikasına əsasən, müəllimin nitqini dinləməklə, ingilis dilində qısa metrajlı cizgi filmləri izləməklə, eləcə də şəkil, əşya və s. ilə bağlı tağşırıqları yerinə yetirməklə məktəbəqədər yaşlı uşaqlar özləri üçün tamamilə yeni bir dil öyrənə bilirlər.

Fəal dinləmə metodu psixologiya səhəsində daha çox tətbiq olunur, lakin uşaqların psixi-fizioloji xüsusiyyətlərini, düşüncə səviyyəsini, aparıcı nitq fəaliyyətini nəzərə alaraq, bu metodun məktəbəqədər yaşlı uşaqlara tətbiq edilməsi məqsədəuyğundur:

a) “**Draw on the spot**” – bu üsul ingilis dilində “1-dən 10-a qədər saymaq”, “İstiqamətlər (sağ, sol, yuxarı, aşağı)” mövzusunu işləməyə kömək edir. Əsasən, 3,5 – 5 yaşlı uşaqlar üçün ingilis dilində sayları, istiqamətləri öyrətmək üçün nəzərdə tutulur. Həmçinin müəllim 5-8 hərəkətdən çox olmayan sadə rəsm hazırlamalıdır. Uşaqlara birdən ona qədər rəqəmlər oxunur və onlar da müəllimdən sonra təkrar edərək rəsmi rəngləyirlər.

b) “**Find a picture**” üsulu ingilis dilinin erkən öyrənilməsi prosesində istənilən mövzunun öyrənilməsi üçün əla mərhələdir. Bu texnikanın bir xüsusiyyəti odur ki, müəyyən səs və şifahi uyğunluq əsasında şəkillərin düzgün təqdim edilməsidir. Uşaqlara mövzu ilə bağlı videoya baxıldıqdan sonra şəkillər təklif olunur, uşaqlar müəllimin dediyi sözə görə şəkili düzgün göstərməlidir. Bu üsul yeni mövzunun öyrənilməsinin ilkin mərhələsində uşaqların nə dərəcədə sözlərin düzgün anlamasına kömək edir.

c) **“Paint it right”** – bu üsul “rənglər”, “geyim”, “bədən üzvləri”, “heyvanlar” və s. mövzuları üzrə artıq keçirilmiş materialın möhkəmlənməsinə xidmət edir. Bu texnikanın xüsusiyyəti ondadır ki, müəllim və məktəbəqədər yaşlı uşaqların birlikdə verilən rəsmləri rəngləməsidir. Müəllim bədənin (paltarın, heyvanın və s.) bir hissəsini adlandırır və rənglənməsi lazım olan rəngi deyir. Bu üsul artıq öyrənilmiş mövzuları və ümumiyyətlə dili öyrənməyə davam etmək üçün əhəmiyyətli dərəcədə uşaqlarda motivasiya yaradır. Bu üsul həmçinin məktəbəqədər yaşlı uşaqların biliklərə yiyələnməsini yoxlamaqda müəllimə kömək edir.

**2. "Oyun".**

Oyunların uşaqların fəallığı şəraitində canlı, maraqlı keçməsi üçün onların həyat təsəvvürləri ilə zənginləçdirilməsi vacidir. Ona görə də yaşlıların oyuna rəhbərlik etməsinə nail olmaq lazımdır. Bu, uşaqların müstəqilliyi və yardıcılıq fəallığının artmasını, emosionallığını təmin edir. Oyunların ən geniş yayılmış növləri hərəkətli, yaradıcı və didaktik oyunlardır. Kiçik qrupda bu oyunların yeri və uşaqların lüğətinin zənginləşdirilməsi baxımından əhəmiyyəti nəzərdən keçirək.

*Hərəkətli oyunlar* bütün uşaqların ən sevimli oyunlarıdır. Bu, ilk növbədə uşaq orqanizminin ehtiyacından irəli gəlir. Hərəkətli oyunların uşaqların fiziki inkişafı ilə bağlı olmasına baxmayaraq belə oyunlar uşaqların inkişafının bütün sahələrinə, o cümlədən lüğət ehtiyatının zənginləşməsinə güclü təsir göstərir. Oyunları müşayiət edən söz və ifadələr, mahnılar uşaqların nitqinə daxil olur, lüğətin sürətlə zənginləşməsini təmin edir.

*Yaradıcı oyunlarda* uşaqlarda yamsılamaının güclü olması müstəqilliyə aparır. Yaradıcı oyunlar süjetli-rollu olmaqla özfəaliyyət xarakteri daşıyır. Uşaq özünün həyat hadisələrinə, insanlara, canlılara marağını süjetli-rollu oyunda göstərir.

*Didaktik oyunlar* təlim məqsədi daşıyır. Oyunun bu növü uşaqların ətraf aləm haqqında biliklərinin inkişafına və biliklərin əldə edilməsi üzrə vərdişlərinə yiyələnmələrinə xidmət edən əlverişli təlim formasıdır.

Oyunla bağlı hər bir sistemdə təhsil vəzifələri ön plana çəkilmişdir. Oyun imkan daxilində uşaqların nitqinin inkişafına, onlara saymağın öyrədilməsinə yönəldilir. Ona görə də oyunun məzmunu, formaları, metodları kiçik qrupda təhsil xarakterli məşğələlərin məzmunu, formaları və metodlarına uyğun gəlir.

Sonrakı yarım fəsildə bu oyunlarla əlaqədar nitq inkişafı üzrə işin təşkili yolları üzərində dayanacağıq. Aşağıda verilmiş fəal metod kimi bəzi oyunların təsnifatını nəzərdən keçirək:

a) **"What is missing?"** oyunu. Bəzi hallarda kiçik yaşlı uşaqlar üçün yeni sözləri əzbərləmək çətin və ən əsası həvəssiz olur. Bu prosesi maraqlı oyuna çevirmək üçün bir üsul vardır. Bu oyun hər yaşda olan məktəbəqədər uşaqlar üçün uyğundur və öyrənilən mövzunun möhkəmlənməsinə hədəflənir. Bu oyunun əsas məqamı ondan ibarətdir ki, müəllim şəkilləri və ya əşyaları uşaqların qarşısına qoyur və onlardan soruşur: *"Close your eyes!"* Bundan sonra oyuncağı gizlədir və uşaqlardan gözlərini açmasını söyləyir: *"Open your eyes!"* Uşaq nəyin əskik olduğunu görür və *"What is missing?"* sualına cavab verir, - *a dog*. Oyunun didaktik vəzifəsi uşağın itmiş oyuncağı ingilis dilində deməsidir. Oyun həmçinin yaddaş, görmə və eşitmə qabiliyyətini inkişaf etdirir.

b) **"Odd one out"** / "Nə fərqlidir?" oyunu. Bu oyun yuxarıdakı oyuna çox bənzəyir, lakin uşaqlar artıq bir neçə mövzuda kifayət qədər söz əldə etdiklərinə görə lüğəti təkrarlamaq üçün uyğundur. Bir mövzuya uyğun şəkilləri olan kartları bir sıraya düzülür. Məsələn, "*Farm Animals*" mövzusudur və ardıcıl olaraq bu heyvanların şəkilləri qoyulur: at (horse), donuz (pig), toyuq (hen), qoyun (sheep), qaz (goose) və dovşan (rabbit). Sonra uşaqlar gözlərini yumurlar və müəllim adları çəkilən şəkillərin yanına fərqli bir əşya, məsələn bir alma (apple) şəkli əlavə edir. Uşaqlar hansı kartın artıq fərqli olduğunu başa düşməli və bu sözü ingilis dilində söyləməlidirlər. Eyni zamanda vizual yaddaş, həm də abstrakt-məntiqi təfəkkür yaxşı inkişaf edir. Bundan əlavə, eyni anda iki və ya üç kart əlavə etməklə tapşırığı çətinləşdirə bilərik, onlardan biri ümumi mövzuya uyğun olacaq, digərləri isə yox.

c) **"Theatre"** oyunu 2,5 yaş və daha yuxarı uşaqlar üçün nəzərdə tutulub və uşaqların yaradıcı potensialının inkişafına, öyrənilən lüğətin möhkəmlənməsinə töhfə verir. Bu oyunun məqsədi uşaqlara arasında müsbət münasibətlərin qurulması, natiqliyin inkişaf etdirilməsidir. Oyunun vəzifəsi oyun fəaliyyətlərini formalaşdırmaq, hekayəni inkişaf etdirmək, rolları təyin etmək, planlaşdırmaq, atributları seçmək, oyun yerini təchiz etmək, uşaqlarda mədəniyyəti tərbiyə etməkdir. Bu oyunun mahiyyəti ondan ibarətdir ki, səhnədəki

uşaqlar bir və bir neçə mövzuda öyrəndikləri hər şeyi nümayiş etdirirlər. Bütün mini dialoqlar yalnız ingilis dilində qurulur. Müəllim qabaqcadan hər uşağa kim olduğunu, nə etdiyini başa salır, onunla birlikdə replikaları öyrədir. Səhnəcik əvəlcədən yazılmış ssenariyə və ya video-mahnıya əsasən həyata keçirilir. Bütün uşaqlara nəyi, nə vaxt və necə etməli olduqları aydın olur. Bununla belə, bunu nəzərə almaq lazımdır ki, uşaqlar sadəcə sətirləri söyləməməlidir, nə etdiklərini başa düşməlidirlər.

**d)** **"Who are you?"** oyunu hər yaşda olan uşaqlar üçün uyğundur, artıq öyrənilmiş materialın möhkəmlənməsi və inkişafına, eləcə də uşaqlarda məntiqi təfəkkürü və müqayisə etmək bacarığını formalaşdırmağa xidmət edir. Oyunçular bir peşəni təxmin edirlər. Fasilitator hər bir oyunçuya bir top atır və soruşur: *"Are you a cook?"* Oyunçu bu peşəni təxmin edirsə, cavab verir: *"Yes"*, yoxsa *"No"*.

Məktəbəqədər uşaqlar üçün xarici dilin erkən öyrənilməsi uşağın ümumi zehni inkişafı, nitq mədəniyyətinin inkişafına müsbət təsir göstərir, ümumi dünyagörüşünü genişləndirir. Uşaq bağçasında xarici dilə yiyələnmə prosesi kommunikativ xarakter daşıyır. Məktəbəqədər uşaqlar dialoq və monoloqlarda ibtidai kommunikativ bilik və bacarıqlara yiyələnirlər.

Uşaqlara ingilis dilini öyrətməyin erkən mərhələsində müəllimin əsas vəzifələrindən biri bu fənni həyəcanlı və maraqlı etməkdir. Məktəbəqədər yaşda uşaqlar çox emosional və hərəkətlidirlər, onların diqqəti qeyri-iradi və qeyri-sabitliklə xarakterizə olunur. Bu yaşda olan uşaqların öyrədilməsi prosesində onların psixoloji xüsusiyyətlərini nəzərə almaq vacibdir. Xarici dil öyrənməyə başlayanda uşaq kifayət qədər inkişaf etməlidir, bu yaş məktəbəqədər uşağın yaşı ilə deyil, onun əqli və fiziki fərqli xüsusiyyətləri ilə müəyyən edilir. Dil öyrənməyə başlamaq üçün əlverişli dövr 6-7 yaşdır. Bu yaş, uşaqların dil hadisələrinə ən həssas olduğu və böyük miqdarda məlumatı şüursuz şəkildə mənimsədiyi ən həssas yaş hesab olunur. Bununla belə, 5-7 yaşlı uşaqda xarici dil öyrənməyə başlamaq üçün nə maraq oyatmaq olar? Bu sualın cavabı çoxdan tapılıb. Bu yaşda uşağı yalnız oyun və oyun hərəkətləri maraqlandıra bilər, çünki oyun yuxarıda da qeyd etdiyimiz kimi, məktəbəqədər uşaqların aparıcı fəaliyyətidir.

Uşağın həyatında oyunun əhəmiyyəti 1961-ci ildə yaradılan Uşaq Oyun Hüquqlarının Müdafiəsi üzrə Beynəlxalq Assosiasiya dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilmişdir. 1977-ci ildə assosiasiya Bəyannamə dərc etdi. Burada bəyan edilir ki, uşaq gələcəyin təməlidir, oyun isə bu təməlin tərkib hissəsidir:

- əsas qidalanma, sağlamlıq, təhlükəsizlik ehtiyacları kimi oyun və təhsil uşağın potensialını inkişaf etdirmək üçün həyati əhəmiyyət kəsb edir;
- oyun düşüncəni və fəaliyyəti birləşdirən ünsiyyət və özünüifadə vasitəsidir;
- oyun uşaqlarda məmnunluq və uğur hissi aşılayır;
- oyun instinktiv, ixtiyari və kortəbii olur;
- oyun uşaqların fiziki, intellektual, emosional və sosial inkişafına kömək edir;
- oyun sadəcə əyləncə deyil, yaşamağı öyrənmə üsuludur [Тарасюк, 1999: 13].

Didaktik oyun, uşağın eyni vaxtda oynadığı və yeni bir şey öyrəndiyi bir təhsil fəaliyyəti növüdür. Didaktik oyun pedaqoji praktikada və nəzəriyyədə bilikləri genişləndirmək, dərinləşdirmək və möhkəmləndirmək üçün istifadə olunan əsas metodlardan biridir. Belə oyunları təşkil edib keçirərkən uşaqlarda intellektual, əxlaqi-iradi və emosional inkişafın birləşməsi baş verir. Oyun prosesi kurrikulumun müəyyən bir mövzusu ilə əlaqəli olan didaktik tapşırığın həllinə tabedir. Bu, oyun planının həyata keçirilməsi üçün lazım olanı təmin edir.

Didaktik oyunlar uşaqların idrak fəaliyyətinin tərbiyəvi məzmunu, oyun hərəkətləri və qaydaları, uşaqların təşkili və münasibətləri, müəllimin rolu ilə fərqlənir. Xarici dil öyrədərkən

uşaqlar əlavə çətinliklə üzləşirlər: motivasiyanın və idrak fəaliyyətinin azalması, ana dilində nitq fəaliyyəti bacarıqlarının mənimsənilməsinin çətinliyi ilə əlaqələndirilə bilər.

Məktəbəqədər təhsil müəssisəsində ingilis dili müəllimi üçün ilkin mərhələdə xarici dil tədrisini bacarıqla qurmaq vacib hesab olunur. Məktəbəqədər yaş dövrünün xarakterik xüsusiyyətləri uşağın xarici dili müvəffəqiyyətlə mənimsəməsinə faydalı təsir göstərir. Məktəbəqədər uşaqlar xarici dil materialını tez yadda saxlamaq qabiliyyətinə malikdirlər. Məktəbəqədər təhsil müəssisəsində xarici dil dərsində uşaqlar oyun fəaliyyəti ilə zaman keçdikcə, xarici dil mühitinə cəlb olunurlar. Məktəbəqədər uşaqların təlim-tərbiyə prosesinin təşkilində əsas məsələ oyun texnikası və metodlarından istifadə hesab olunur [Бим, 1977: 133].

Oyun texnikası və metodları çox yönlülüyü ilə xarakterizə olunur: onlar öyrənmənin müxtəlif mərhələlərində istifadə oluna bilər, müxtəlif məqsəd və vəzifələrə uyğunlaşdırıla bilər. Oyun uşağın inkişafı prosesində bir çox funksiyaları yerinə yetirir, öyrənmə prosesini asanlaşdırır, materialı mənimsəməyə kömək edə bilər, lazımi səlahiyyətləri inkişaf etdirir.

Oyun vasitəsilə müəllim məktəbəqədər uşaqlarda bacarıq və qabiliyyətlərini formalaşdırır. Buna görə də, uşağın əsas fəaliyyətini təmsil edən oyun, xarici dil ünsiyyətinin nisbi təbiəti ilə əlaqəli çətinliklərin əksəriyyətini dəf etməyə və xarici dilin şəxsiyyətin inkişafına müsbət təsirini artırmağa imkan verir. Çoxlu oyun situasiyaları, mifik süjetlər sinifdə əyləncə, yaradıcılıq, əlverişli emosional ab-hava yaradır.

İngilis dilinin bilik səviyyəsinin müəyyənləşdirilməsi aşağıdakı meyarlar əsasında aparılmışdır: fonemik şüur; leksik materiala yiyələnmək; danışıq dilini dinləmək və başa düşmək bacarığı (dinləmə).

Böyük məktəbəqədər yaşlı uşaqlar arasında ingilis dilinin bilik səviyyəsinin artırılmasına yönəlmiş aşağıda verilmiş didaktik oyunların planı:

Oyunun adı **“Who is in your family?”** (“Ailənizdə kim var?”)

Məqsəd: ‘Ailə’ mövzusunda lüğətin möhkəmləndirilməsi. Müəllim ailədən bir nəfəri göstərir və “*Who is in your family?”* sualını verir, uşaqlar onları ingiliscə çağırır, məsələn, “*mother, father, sister, brother, grandmother, grandfather*”.

**“Execute the commands”** (Əmrləri yerinə yetir)

Məqsəd: “Hərəkət” mövzusunda lüğəti birləşdirmək. Uşaqlar bir-bir çıxır və sözlər olmadan, yalnız jestlərlə vasitəsilə bir növ hərəkət göstərirlər, qalan iştirakçılar isə bunun nə olduğunu təxmin edir və ingiliscə adlandırırlar, məsələn: *run, jump, swim, fly.*

**“Grocery store”** (Ərzaq mağazası)

Məqsəd: tərəvəz və meyvələrin adlarını öyrənmək. Müəllim stolun üzərinə oyuncaq meyvə və tərəvəzləri düzür. Uşaqlar növbə ilə gəlir, istədikləri əşyanı götürür və adını ingiliscə tələffüz edirlər.

**“Guess the fruit”** (Meyvəni tap)

Məqsəd: “Tərəvəz və meyvələr” mövzusunda lüğətin təkrarı. Müəllim stolun üzərinə tərəvəz və meyvələri qoyur. Sonra bir uşaqdan ona bir şey verməsini xahiş edir və deyir: “*Give me, please, a pear.”* Uşaq meyvənin adını özünə düzgün tərcümə edib müəllimə verməlidir. Əgər müəllimi düzgün başa düşdüsə, o zaman müəllimin yerini tutur və eyni konstruksiyanı yalnız başqa bir əşyanın adı ilə tələffüz edir.

**“I love cooking”** (Mən yemək bişirməyi sevirəm)

Məqsəd: “*bread, poridge, soup, salad”* sözlərini yadda saxlamaq. Müəllim uşaqlara boşqab və ya tava şəklində kiçik qablar paylayır. Kağızın və ya kartın kəsilmiş hissələri qabların içərisinə düzülür. Uşaqlar bu hissələri bir bütöv şəkildə toplayır və üzərində göstərilənləri adlandırırlar.

**“Find the right picture”** (Doğru şəkli tapın)

Məqsəd: "Bitki aləmi" mövzusunda lüğəti möhkəmləndirmək. Müəllim müxtəlif bitkilərin (çiçək, ağac, ot) şəkillərini göstərir. Uşaqlar müəllimi diqqətlə dinləyir və ingilis dilində sualı anlamağa çalışırlar: *What is this?* (bu nədir?) - və cavab verirlər, məsələn: *It's a flower/ a tree* və s.

Didaktik oyunlar təlim məqsədi daşıyır. Oyunun bu növü uşaqların ətraf aləm haqqında biliklərinin inkişafına və biliklərin əldə edilməsi üzrə vərdişlərinə yiyələnmələrinə xidmət edən ən əlverişli təlim formasıdır. Didaktik oyunlar prosesində uşaqlar əşyanın forması, böyüklüyü, rəngi, hansı materialdan hazırlanması, nəyə lazım olması haqqında biliklər əldə edirlər.

Didaktik oyunların bir sıra müsbət cəhətləri vardır: oyun fəaliyyətinin gedişində şagirdlərin fəallığı və səmərəliliyi yüksəlir, linqvistik bacarıqlar və intellektual qabiliyyətlər formalaşır [Вронская, 2001: 201].

Didaktik oyunlar obyektlərin fərdi keyfiyyətlərinin qavranılmasının formalaşmasına və dəqiqləşdirilməsinə, müşahidənin formalaşmasına, ümumiləşdirmələrin inkişafına və intellektual fəaliyyətin digər aspektlərinə kömək edir. Məktəbəqədər yaşlı uşaqların təhsil və tərbiyəsində didaktik oyunlar xüsusilə zəruridir. Oyunlar sayəsində, hətta, ən nizamsız uşaqları belə diqqət və marağı cəmləmək mümkündür. Əvvəlcə onları yalnız oyun hərəkətləri, sonra isə bu və ya digər oyunun öyrətdikləri cəlb edir. Zaman keçdikcə uşaqların özündə təlimin mövzusuna maraq oyanır. Beləliklə, didaktik oyun məqsədyönlü yaradıcılıq fəaliyyətidir ki, bu zaman şagirdlər ətrafdakı reallıq hadisələrini daha hərtərəfli və rəngarəng öyrənirlər və dünyanı dərk edirlər.

Xarici dil öyrənmək sosial bir hadisə kimi qəbul edilir, burada müəllim və uşaqlar bir-biri sosial münasibətlərə girirlər və təlim prosesi bütün olanların qarşılıqlı əlaqəsidir. Oyun uşaqların bir-biri ilə əlaqə qurmaq istəyini inkişaf etdirir. Xüsusilə də rol oyunlarında hər bir kəs bir rol alır və nitq üsniyyətində fəal tərəfdaş olmalıdır.

Oyunlar zamanı azyaşlı uşaqlar ünsiyətə, söhbətə başlamaq, nitqi saxlamaq və ya kəsmək, doğru zamanda həmsöhbətinin fikri ilə razılaşmaq və ya onu təkzib etmək, həmsöhbəti məqsəd-yönlü şəkildə dinləmək, aydınlaşdırıcı suallar vermək və s. kimi bacarıqları artıq mənimsəmiş olurlar. Rol oyunlarında demək olar ki, bütün vaxt nitq təcrübəsinə həsr olunur, eyni zamanda nəinki danışan, hətta bacardıqca dinləyən də aktiv olur, çünki tərəfdaşın iradlarını başa düşməli və yadda saxlamalıdırlar, vəziyyətə necə uyğun gəldiyini müəyyən etmək üçün onu vəziyyətlə əlaqələndirməyə, ünsiyyət tapşırığını və replikaya düzgün cavab verməyə həsr olunur.

Oyunlar kiçik yaşlı uşaqlarda koqnitiv maraqların formalaşmasına müsbət təsir göstərir, şüurlu inkişafa qatqı təmin edir, xarici dildə müstəqillik, təşəbbüs kimi keyfiyyətlərin inkişafına töhfə verir.

Uşaqlar həvəslə, fəal işləyir, bir-birinə kömək edir, yoldaşlarını diqqətlə dinləyir, müəllim isə ancaq təlim fəaliyyətini idarə edir.

Rol oyunları üçün əsas tələblər aşağıdakılardır:

- Oyun öyrənmə, səbəb motivasiyasını stimullaşdırmalıdır, şagirdin və ya uşağın tapşırığı yaxşı yerinə yetirmək marağı və istəyi nəzərə alınmalıdır.
- Rol oyunu məzmun, eləcə də forma baxımından yaxşı hazırlanmalıdır, aydın şəkildə təşkil edilməlidir.
- Rol oyunu bütün qrup tərəfindən qəbul edilməlidir.
- Bu, şübhəsiz ki, dostluq yaradıcılıq şəraitində keçirilir, uşaqlarda məmnunluq hissi oyadır. Uşaq özünü rol oyununda nə qədər sərbəst hiss edirsə, ünsiyyətdə daha fəal olacaq. Zamanla o, özündə inam hissi yaranacaq ki, o, müxtəlif rollar oyana bilər.
- Oyun elə təşkil olunur ki, uşaqlar bacara bilsinlər, maksimum səviyyədə fəal nitq ünsiyyətində işlənmiş dil materialından istifadə etsinlər.
- Müəllimin uşaqlarla sıx əlaqə qurmaq bacarığı böyük əhəmiyyət kəsb edir.

Rol oyunlarına aşağıdakıları nümunə göstərə bilərik:

Rol oyunu **"In the shop"** ("Mağazada")

Uşaqlar satıcı və alıcı roluna bölünür. Satıcı məhsulları hazırlayır və alıcılarla görüşür.

- *What would you like?*
- *I'd like…..*
- *Here you are.*
- *Thank you.*
- *My pleasure.*

Rol oyunları uşağın təxəyyülünün və peşəyə marağının inkişafına kömək edir.

Yuxarıdakıları ümumiləşdirərək qeyd etmək lazımdır ki, məktəbəqədər yaşlı uşaqların həyatında oyun əhəmiyyətli dərəcədə yer tutur.

**"Rain"** ("Yağış") oyunu

Oyunun məqsədi: [r], [w], diftonq [eı] səslərinin tələffüzünü məşq etmək; müxtəlif əmrləri yerinə yetirmək bacarığı. Bir neçə uşaq (4-5) başlarına yağış damcılarını təsvir edən karton başlıqlar taxırlar. Digərləri isə yağışı qovmağa başlayırlar:

*Rain, rain go away!*
*Boys and girsl want to play.*

Məktəbəqədər uşaqların tədrisində oyundan istifadə edilməsinin zəruriliyi haqqında bəyanat artıq pedaqoji və psixoloji ədəbiyyatda ümumi bir yerə çatmışdır. Təhsildə oyundan istifadə edilməsi yalnız xüsusi didaktik vəzifəni və oyunun istifadə məqsədini aydın başa düşmək deyil, həm də onun uşaqlar üşün necə cəlbedici olacağını, nəyin bu qədər "oynaq" olacağını yaxşı başa düşmək lazımdır. Oyun fəaliyyəti axtarmaq, tapmaq, gizlənmək, tapmaca, həmcinin süjet və rolların təsviri şəklində ibarət ola bilər. Əgər "oyun" adlandırdığımız bu proses oyun fəaliyyətindən və vəzifəsindən məhrumdursa, uşağın fəaliyyəti öyrənmə səmərəliliyi xeyli aşağı olur.

Bununla belə, xarici dili öyrətmək üçün müxtəlif tədris vəsaitlərində təklif olunan bütün oyunlar sözün tam mənasında oyun deyil. Məsələn, uşaqlardan növbə ilə obyektlərin təsvirləri olan kartları götürmələrini və onların üzərində çəkilənləri ingilis dilində danışmalarını xahiş etsəniz bu, artıq oyun deyil, tapşırıqdır (drill).

Çox vaxt xarici dilin erkən öyrənilməsinə dair ədəbiyyatlarda müəyyən oyunların hansı yaşda daha uyğun olduğu müzakirə olunmur, sadəcə olaraq dərslərin "oynaq şəkildə" aparılmasından bəhs edilir, konkret oyunlar verilir.

Uşaqlarda oyun fəaliyyəti öz-özünə yaranmır. Uşağın əvvəlcə böyüklərlə, sonra isə həmyaşıdları ilə ünsiyyəti prosesində tədricən inkişaf edir.

Barmaq hərəkətləri uşağa yaxşı danışmağı öyrənməyə kömək edir. Üç-dörd yaşında olsa belə, hər dərsdə onları yerinə yetirmək faydalıdır. Bu yaşda öz ana dilində barmaq oyunları uşaq üçün o qədər də maraqlı deyil. Kiçik uşaqlarla oyunlarda həm hərəkətlər, həm də mətnlər çox sadədir, onların qafiyəli olması lazım deyil: hətta fərdi sözləri təsvir edə bilərsiniz (zıplayan top – "b –b-b –ball", yellənən zəng "bell – bel-l-l" və s.).

Uşaqda müstəqil oyunun inkişafında ilk nailiyyətlərdən biri onun əvəzedici əşyalardan (at yerinə çubuq) istifadə etməyi öyrənməsidir. Təxminən bir yaş yarımda başlayır, lakin hələ 3-4 yaşında xəyali obyektlərlə məşğul olmaq özlüyündə həyəcanverici bir oyundur.

Belə bir imitasiya oyunu tədricən rol oyununa çevrilir. Xarici dildə ilk rollar – ayının ("a bear") necə getdiyi, dovşanın ("a hare") necə tullandığı, itin ("a dog") necə qaçdığı, qurbağanın ("a frog") necə tullandığını göstərə bilərik. Sadə qaydaları olan oyunlar, xüsusilə hərəkətli oyunlar əsasən 4-5 yaşlı uşaqlar üçün əladır. Aşağıda verilmiş belə hərəkətli oyunlardan birinə nəzər salaq:

*"Cat and Mouse"* oyununun sadə qaydası belədir: 'pişik' və 'siçan' rollarını oynamaq istəyən uşaqlar arasından seçilir. Müəllim oyuna bu cür başlaya bilər: *Evdə "Mice" – siçanlar peyda oldu. Bizə tez bir zamanda pişik lazımdır. İngilis dilində pişik – "a cat" adlanır.* Müəllim uşaqları seçir. Qalan uşaqlar bir dairədə durur və əllərini tuturlar, siçan üçün pişikdən gizlənəcəyi ev təşkil edirlər. Pişik siçanın arxasınca qaçır və onu tutmağa çalışır.

Uşaqlar (Children):
*Little Mouse, little Mouse,*
*Run, run to your house!*
*One, two, three, four,*
*Don't forget to shut the door!*

Bundan əlavə oyunun əvvəlində pişik və siçan arasında belə maraqlı dialoqdan da istifadə edə bilərik:

Pişik (Cat):
*Little Mouse, little Mouse,*
*Where is your house?*
Siçan (Mouse):
*Little Cat, little Cat,*
*I have no flat.*
*I am a poor Mouse,*
*I have no house.*

Pişik (Cat):

*Little Mouse, little Mouse,*
*Come to my house!*
Siçan (Mouse):
*Little Cat, little Cat,*
*I cannot do that.*
*You want to eat me.*

## NƏTİCƏ

Tədqiqat zamanı əldə edilən nəticələrə əsasən, aşağıdakı nəticələr əldə edilmişdir:

İngilis dilini bilmək daim dəyişən multikultural mühitdə şəxsiyyətin formalaşmasına, sosial şəraitə uyğunlaşmasına kömək edir. Dil onsuz ən vacib ünsiyyət vasitəsidir. İngilis dilini öyrənməyin əsas dəyəri kommunikativ səriştənin formalaşması, uşaqların şəxsiyyətlərarası və mədəniyyətlərarası əlaqəni həyata keçirməyə hazırlığına töhfə verməsidir.

Xarici dilə yiyələnmək üçün ən əlverişli dövr məktəbəqədər yaş hesab edilir. Uşaqları öyrətməyin kommunikativ metodu bu yaşlarda aparıcı olaraq qalır; həmsöhbətlə qarşılıqlı əlaqə, səslənmə, mətn və şəkillərə maraq oyadır, cavab verməyə təşviq edir.

Bu işin məqsədinin formalaşmasında məktəbəqədər yaşlı uşaqlarda xarici dil öyrənmək bacarığı, xarici dil öyrənərkən dərslərdə oyun üsulları müstəsna rol oynayır. Bu məqsədə nail olmaq üçün məktəbəqədər uşaqların xarici dilin öyrənilməsində oyunun nəzəri əhəmiyyəti öyrənilib və təhlil edilib. Metodik ədəbiyyatın təhlili prosesində də ətraflı məlumat verilmişdir.

Kommunikativ bacarıqlarının inkişafı və dil əsaslarının formalaşması vasitəsilə xarici dilin öyrənilməsinin erkən mərhələsində sinifdə oyun və oyun texnikalarından fəal istifadə edilir.

Rabitəli nitqin inkişaf etdirilməsi üzrə işdə çalışmaların növünün və xarakterini müəyyənləşdirərkən mterial seçilərkən böyük qrup uşaqlarının yaş xüsusiyyətlərini nəzərə almaq son dərəcə vacibdir.

INTERNATIONAL INTERDISCIPLINARY SCIENTIFIC CONGRESS ON SOCIAL SCIENCES / *IISCSS 2023 - BAKU*
05-06 October 2023, Baku, AZERBAİJAN
*PROCEEDİNG BOOK-2024,* ISBN: 978-9952-39-217-3

Öyrənmənin aşağıdakı formaları var: passiv, aktiv və interaktiv. Məktəbəqədər uşaqlarla işləmək üçün sonuncu ən məqbuldur. Məkətəbəqədər yaşlı uşağa xarici dilin interaktiv üsulla öyrədilməsi ondan oynaq şəkildə istifadə edtməyin ən təsirli yoludur.

Oyun uşaq və müəllimin bərabər hüquqlu qarşılıqlı əlaqəsinə, xəyali situasiyalarda müxtəlif rolları sınamağa yönəldilmişdir. Bu yanaşma həm leksik, həm qrammatik, həm də kommunikativ mənimsəmək üçün əlverişlidir. Beləliklə, belə bir nəticəyə gələ bilərik ki, oyun məktəbəqədər yaşlı uşaqların materialı öyrənmələrini tez və dərin başa düşməyə yönəlmiş bir fəaliyyət növüdür. Onu da qeyd etmək lazımdır ki, uşağın oyuna müsbət motivasiya və marağı olmalıdır.

## Ədəbiyyat:

*Azərbaycan Respublikasının ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu) // Kurikulum*. (2008). Bakı, № 3.

*Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı* (2007-2010-cu illər) Bakı ş., 12 aprel 2007-ci il. Azərbaycan müəllimi qəzeti, 13 aprel 2007-ci il.

*Azərbaycan Respublikasında Məktəbəqədər Təhsil Proqrami (Kurikulumu) (3-6 yaş)*. (2015). Bakı: Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 96 s.

*İnnovativ dərs modelləri. Müəllimlər üçün metodik vəsait.* (2002). Bakı, Açıq Cəmiyyət İnstitutu – Yardım Fondu.

*Kurikulum islahatı: tədqiqatlat, nəticələr*. (2011). Bakı, TPİ.

*"Məktəbəqədər təhsilin dövlət standartı və proqramı".* 16 iyul 2010-cu il. http://www.edu.gov.az

*Məktəbəqədər təhsil Proqramı (Kurikulum).* (2022). Bakı.

*Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. 5 sentyabr 2009-cu il.*

*Abbasova , S. H. (2005).* İngilis dili fənninin tədrisi metodikasında yeni, müasir təlim metodları. Metodik vəsait, Bakı.

*Əhmədov, A., Abbasov, Ə.* (2011). Məktəbəqədər təhsilin konseptual problemləri. // Kurikulum, № 2, s.8-15.

*Hacıyeva, Ə.H.* (2003). Məktəbəqədər yaşlı uşaqlar üçün İngilis dili (İngilis dili müəllimləri üçün dərs vəsaiti), Bakı, 166 s.

*Hacıyeva, Ə.H. (1990).* Bağçada İngilis dili (məktəbəqədər yaşlı uşaqlarla məşğul olan müəllimlər üçün vəsait), Bakı.

*Агеева, И.Д.* (2001). «Английский язык для детей. / Сборник занимательных заданий». – М., Союз.

***Бим, И. Л.* (1977).** Методика обучения иностранным языкам как наука и проблемы школьного учебника / И. Л. Бим. – Москва: Русский язык, 288 с.

***Вронская, И.В.* (2001).** «Английский язык в детском саду: для воспитателей детского сада и родителей» - СПб.: 318-333с.

*Выготский, Л. С.* (2005). Психология развития человека / Л. С. Выготский. - Москва: Смысл, Эксмо, 1136 с.

***Гальскова, Н.Д.* (2007).** Теория обучения иностранным языкам: лингводидактика и методика: учебное пособие по специальности «Теория и методика преподавания иностранных языков и культур» / Н.И. Гез. – М.: Академия, 336 с.

*Куликова, Ирина*. (1996). Мы учим английский, М., Росмен.

***Тарасюк, Н.А.* (1999).** Иностранный для дошкольников. Уроки общения (на примере английского языка). М.: 5-25 с.

***Утехина , А.Н.* (2015).** Иностранный язык в дошкольном возрасте. Теория и практика. М.: Litres, 184 с.

***Шибко Н.Л.* (2015).** Общие вопросы методики преподавания русского языка как иностранного. – СПб.: Златоуст, – 336 с.

*Jeremy, Harmer*. (2001). The practice of English language Teaching, Third Edition Completely Revised and Updated.

*Negnevickaya, H.* (1987). Foreign language for little children: past, present and future//foreign languages at school. - № 6. – P. 20-26.

*Ŝebedina V.V.* (1997). Teaching children English speaking lessons in the kindergarten // Foreign languages at school –№ 2. – Pp. 55-58.

# ELMİ-PUBLİSİSTİK MƏTNLƏRİN TƏRCÜMƏ PRİNSİPLƏRİ

**Samirə HACIYEVA**
Bakı Slavyan Universiteti,
baş müəllim
*Azərbaycan, BAKI*
samire_65@mail.ru

**XÜLASƏ**

Məqalədə elmi-publisistik üslub və bu üslubda tez-tez işlənən sözlərin tərcümədə çətinlik yaratdığı araşdırılır. Müəllif bu spesifikliyi öyrənərək, tədqiqata əsasən, onların, o cümlədən neologizmlərin, terminlərin, qarşılıqlı sözlərin tərcümə prinsiplərindən istifadə edərək, tras-kağız, transkripsiya, transliterasiya vasitəsilə necə tərcümə olunacağını göstərir.

**Açar sözlər:** tərcümə, üslub, izləmə kağızı, neologizm, metafora.

# PRINCIPLES OF TRANSLATION OF SCIENTIFIC PUBLICISTIC TEXTS

**Samira HACHIYEVA**
Baku Slavic University,
head teacher
*Azerbaijan, BAKU*
samire_65@mail.ru

**SUMMARY**

The subject of the scientific article deals with the specific features of scientific-publisistic style and their principles of translation. With the development and progress of innovations a lot of neologizms, termins, borrowings etc. enter the language. At the same time that kind of words makes difficulties in translation.

The author comes to the conclusion that scientific and publisistic words taking a great place in the dictionary and their translations by calque, translation and transliteration, through-translation takes a special attention.

**Key words:** translation, style, calque, neologizms, metaphora.

Tərcümə sənəti mədəniyyətlərin, dillərin tərəqqisində, zənginləşməsində mühüm amillərdən biridir. Bu gün tərcümə ölkələri, xalqları, cəmiyyətləri, onların iqtisadi, mədəni, sosial həyatlarını bir-birinə yaxınlaşdırır, ünsiyyət vasitəsi funksiyasını daşıyır. Dünyada hər bir elm sahəsində ciddi araşdırmalar, tədqiqatlar aparılır, əldə edilən nəaliyyətlər ölkələr və dövlətlər arasında əlaqələrin, müxtəlif dillərdə danışan xalqlar və ölkələr arasında münasibətlərin genişlənməsinə və inkşafına təkan verir. Tərcümə fəaliyyətinə tələbat artır və aktuallaşır. “Tərcümə” fəaliyyəti sənəti nəzəri və praktik cəhətdən araşdırılır və tədqiq edilir. Elmi-publisistik mətnlərin tərcüməsi müasir həyatın əksər sahələrini əhatə etdiyi üçün çox böyük əhəmiyyət kəsb edir. Hər bir dildə elmi-publisistik mətnlər qəzet və jurnallarda yazılmış mətnlər, elmi, ictimai, siyasi xəbər mətnlərini, oçerkləri, müxtəlif növ məqalələri, eləcə də televiziyada, radioda istifadə edilən materialları (siyasi, iqtisadi, mədəni və s.) əhatə edir. Tərcümə fəaliyyəti dillərin qarşılıqlı öyrənilməsinə, onların müqaisə edilməsinə, fərqli və ya oxşar cəhətlərin, elementlərin aydınlaşdırılmasına şərait yaradır. Azərbaycan və rus dilləri ayrı-ayrı dil ailələrinə aid olsalar da onlar arasında müəyyən ekvivalentlik, müvafiq fikir və mülahizələri müşahidə etmək mümkündür. Hər iki dildə mövcud

olan atalar sözləri, məsəllər, idiomlar və frazeoloji birləşmələr araşdırıldıqda hər iki dil daşıyıcılarının oxşar fikir, mülahizə və təxəyyülə malik olduğunu müşahidə edə bilərik. Azərbaycan və rus dilləri, fonetik, leksik, qrammatik, sintaktik istiqamətlərdə tədqiq olunur, onlar arasında oxşar və fərqli cəhətlər araşdırılır. Azərbaycan və rus dillərinin müxtəlif istiqamətlərdə araşdırılması elmi-publisistik mətnlərin tərcüməsi ilə əlaqədar olan problemlərin həll edilməsində mühüm əhəmiyyət kəsb edir. Elmi-publisistik mətnlərin düzgün, təhrif edilmədən, adekvat tərcümə edilməsi, müasir informasiya bolluğu dövründə çox aktual və vacibdir. Tədqiqat işimizdə elmi-publisistik üslub mətnlər, bu üslubda istifadə edilən dil vahidləri, onların tərcümə metodları, prinsipləri və s. haqqında ətraflı məlumat, təhlil və izahlar əks olunmuşdur.

İntibah dövründə elm adamları elmi məqalələrində emosional, bədii elementlərdən azad olan elmi təsvirin yığcamlığını və dəqiqliyini olduğu kimi ifadə etməyə çalışırdılar. Elmi publisistik əsərlərin spesifikası o qədər üslubi, leksik, qrammatik cəhətdən mürəkkəbdir ki, onların lüğət tərkibini dəqiqliklə işləmək lazımdır. Belə ki, elmi üslubun ədəbi dilin normalarına uyğunluğu, standart söz və söz birləşmələri kimi işlənənən terminlərin, simvolların, formulların qrafikası və s. mətnin ümumi məzmununa uyğun qoyulan tələblərlə ayaqlaşmalıdır. Elmi publisistik əsərlərdə tipik metod olaraq mətnin həcmi, informasiya məzmunu və leksik-semantik tərkibi böyük əhəmiyyət kəsb edir. Elmi publisistik məqalələrin əksəriyyətində alınma sözlərin tətbiqini görmək olar. Bu xüsusiyyətlər əsasən iqtisadi, tibbi, elmi-kütəvi mətnlərə aiddir ki, bunların bəzisi azərbaycan dilinə rus dili vasitəsi ilə, digərləri isə ingilis, fransız dilləri vasitəsi ilə daxil olur. Məsələn, kompüter, brifinq, marketing, tenoter, cluder, qlobalizm, paralelizm, kondinsioner, laptop və s. Belə terminlərin böyük hissəsi isə innovasiyalar texnologiyalarına aiddir. Bu sözlər ekvivalentsiz, yəni hədəf dildə semantik-leksik cəhətdən qarşılığı olmayan sözlərdir. Cəmiyyətin inkişafının müxtəlif mərhələləri də dildə müəyyən temantik qrupların fəallığı ilə müşahidə olunur.Məsələn, elektron hesablama maşınlarının gündəmə çıxması ilə əlaqədar "kompüter", "mikser", "kondisoner" sözləridə peyda oldu. Belə sözlərin tərcüməsinə gəldikdə, dövrümüz innovasiya texnologiyaları ilə sıx bağlı olduğundan tərcüməsi də çətinlik yaradır. Belə ki, “kompüter” azərbaycan və ingilis dilərində eyni anlayışı, əsasən mürəkkəb hesablamaları aparmaq üçün istifadə üdilən elektron qurğunu ifadə edir. Əvvəllər bu anlayış “elektron hesablama maşını [EHM]” terminindən istifadə edilirdi. Bir müddət hər iki termin sinonim kimi çıxış etmiş, son dövrlərdə "komputer"kimi işlənir. Məsələn: "Kompüterdə işlərkən mətn redaktəsi zamanı bir çox səhvlər, nöqsanlar kursor ilə tənzimlənir və düzəlişlər kompüterin yaddaşında saxlanılır". Rus dilinə tərcümə edərkən bəzi məqamlara nəzər salsaq, aydın olur ki, alınma sözlərlə daha diqqəli olmaq yetər. "Во время работой с компьютером, при редактировании текста некоторые ошибки урегулируется курсором и они сохраняются в памяти компьютера." və ya: "Kursorla dəyişiklikləri, düzəlişləri yerinə yetirərkən alınan nəticə ümumi halda displeyin (əksetdirmə) ekranına yazılacaq." Mətnin rusca tərcüməsi: “Выполняя коррекции, изменение с курсором полученный результат будет указан на дисплее экрана.” Göründüyü kimi, "kompüter", "kursor", "displey" sözləri başqa dillərdən (ingilis) alındığından rus və azərbaycan dillərində tərcüməsi yoxdur, onları sadəcə hərfi tərcümə, transkripsiya üsulu ilə tərcümə etsək uyğun olar. Bu cür terminlər, o cümlədən, 80-ci illərdə dilimizə keçən bu sözlər Azərbaycanda 1993-cü ildə çapdan çıxmış, informatika lüğətində də "kompüter" sözü olaraq qeyd olunur. Дисплей - displey əks etdirmə deməkdir, lakin burada hərfi tərcümə üsulu ilə verilmiş, yanında izahatını da vermək olar ki, tam aydın olsun. Ümumiyyətlə, tərcümə nəzəriyyəsi tarixinə nəzər salsaq XX əsrin II yarısı publisistik üslubda yazılan mətnlərin, xüsusilə də elmi-texniki və iqtisadi tərcümənin böyük əhəmiyyət kəsb etdiyinin şahidi oluruq. Terminaloji sözlərin tərcüməsindən bəhs edərkən prof. Q.H.Bayramovun "Tərcümə Sənəti" kitabında bir sıra məsələlərə aydınlıq gətirildiyinin şahidi oluruq. "Terminlərin tərcüməsində iki meyl var; dildə müvafiq termini yaratmaq və ya termini olduğu kimi saxlamaq, məsələn, kompüter (bilgisayar, elektron hesablama maşını) çıxandan sonra

biz onun adını eyniylə saxladıq, türklər isə bilgisayar kimi bu termini dünyaya təqdim etdi. Neologizmlərlə dilimizə gələn terminləri tərcümə edərkən isə məna aydınlaşdırılmalı, əks təqdirdə anlaşılmazlıq yarana bilər" [Bayramov, 2008: 65]. Elm inkişaf etdikcə elmi-publisistik üslub da öz yerini tapdı. Məlumdur ki, hər sahənin öz terminologiyası var. Elm sahələri aşağıdaki kimi təsnif edilir:

- Humanitar;
- Təbiət;
- Texniki.

Elmi-publisistik əsərlərin, xüsusi ilə də məqalələrin əsasında elmi izahlar, qoyulan problemin təbiət və insan, cəmiyyət ilə əlaqədar, məqamların həlli yolları, dəlil və sübutlarla açıqlanır. Bu elə edilir ki, oxucunun qoyulan problemə marağı itməsin. Elmi-publisistik əsəri, məqaləni tərcümə edən mütərcim də burada istifadə olunan, söz ehtiyatını araşdırmalı, faktları düzgün ifadə etmək üçün mövzuya dair düzgün seçilmiş terminlərdən və onların analoqlarından, ekvivalentlərindən düzgün istifadə etməlidir. Beləliklə, funksional üslubun növlərindən olan elmi - publisistik üslub və bu üslubda yazılan mətnlər özünə məxsus dərəcədə elmi fikirləri ifadə edən, elmi problemləri qabardan, onun həlli yollarını göstərən leksik - semantik xüsusiyyətləri fərqlənən mətnlərdir [Федоров, 1983: 26].

Məlumdur ki, mətnlər funksiyalarına, üslublara görə müxtəlif növlərə bölünür və hər bir müəllifin də özünə məxsus üslubi, fərdi cəhətləri var. Üslub tərcümə üçün vacib amillərdən biridir. Bunun A.Taytler, T.Savoriden tutmuş tədqiqatçılara qədər hamı vurğulayır ki, "Təcümə orjinalı olduğu kimi əks etdirməlidir" [Панфилов, 1989: 54].

Tərcümə özü yaradıcı prosesdir. Bəzən elmi üslubda yazılan məqalə təsvir edici funksiya daşıyır. Məsələn: Глицерин – это органическое соединение трёхатомный спирт алимфатичес-кого рода сиропообразная бесцветная жидкость, которую получт омылением жиров или синтетическим способом. Глицерин применяется в производстве взрывчатых веществ и синтетических смол. Очень часто в составе многих косметических средств можно встретить такой компонент как глицерин. Да и в приготовление домашней косметики, особенно, что касается кремов для лица, глицерин играет далеко не последнюю роль. Глицерин является трёхатомным спиртом, который представляет собой не имеющий запаха, прозрачную и бес-цветную жидкость и используется в косметологии в качестве хорошего увлажнителя кожи.

Mətndə kimyəvi maddələrin adı çəkilir, qliserinin kimyəvi mahiyyəti və faydasından bəhs edilir, onların tətbiq dairəsi, xüsusilə də onun kosmetika ilə sıx əlaqəsi xüsusi vurğulanır. Mətnin Azərbaycan dilində tərcüməsinə nəzər salaq: Qliserin üç atomlu spirt və alimfatik növdən olan üzvi birləşmə olub, piylərin sabunlaşması və ya sintetik yolla əldə edilən rəngsiz mayedir. Qliserin sənaye istehsalında geniş istehsal olunur. Qliserindən kosmetik məhlulların tərkibi komponent kimi işlənməsinə tez-tez rast gəlmək olar. Xüsusilə də, üz kremlərinin hazırlanmasında qliserindən geniş istifadə olunur. Qliserin spirt tərkibli olsa da heç bir iyə malik deyil. Şəffaf və rəngsiz olan bu maddənin kosmetologiyada yaxşı nəmləndirici olduğu da məlumdur. Nümunədən göründüyü kimi, "qliserin" kimyəvi maddə olaraq olduğu kimi, yəni transkripsiya üsulu ilə tərcümədə əks olunmuşdur. Bundan başqa "спирт", трехатомный", "алимфатический" sözləri də kimyəvi prosesə, kontekstə aid olub transkripsiya və transliterasiya ilə tərcümə olunur. Elmi-publisistik mətnlər göründüyü kimi mahiyyət cə məzmunca bir - birindən fərqlənir. Deyilənıərdən belə bir fikir, nəticə əldə etmək olar ki, mətnə tərcümədən əvvəl diqqətlə oxunub, təhlil edilməıidir. Məxəz dııdəki mətndə leksik - semantik, qrammatik, üslubi xüsusiyyət aydınlaşdırılır və tərcümə metodları, transliterasiya qaydalarına əməl edilməli və terminlər, elmi sözlərin, fikirıərin, proseslərin hədəf dildə adekvat formada tərcümə mətnini yaratmaqdır. Tərcümə mətni orjinal mətnə tərcüməyə nail olmaq olar. Publisistik janrda yazılan məqalələrdə, qəzet mətnlərində, televiziya, radio reportajlarında və s. tərcümə zamanı başqa dillərdən alınma sözlər, elmi terminologiya,

Brown, A. L., & Campione, J. C. (1994). Guided discovery in a community of learners. In K. McGilly (Ed.), *Classroom lessons: Integrating cognitive theory with classroom practice* (pp. 229-270). Cambridge, MA: MIT Press.

Corno, L., & Mandinach, E. B. (1983). The role of cognitive engagement in classroom learning and motivation. *Educational Psychologist*, *18*, 88-108.

Corno, L., & Mandinach, E. B. (2004). What we have learned about student engagement in the past twenty years. In In D. M McInerney & S. Van Etten (Eds.), *Big theories revisited* (pp. 299-328). Greenwich, CT: Information Age Publishing.

Davis, H. A. (2003). Conceptualizing the role and influence of student-teacher relationships on children’s social and cognitive development. Educational Psychologist, 38, 207-234.

Glassman, M., & Wang, Y. (2004). On the interconnected nature of interpreting Vygotsky: Rejoinder to Gredler and Shields does no one read Vygotsky's words. *Educational Researcher, 33*, 19-22.

Guthrie, J. T., Barbosa, P., Preencevich, K. C., Taboada, A., Davis, M. H., Scafiddi, N. T., & Tonks, S. (2004). Increasing reading comprehension and engagement through concept-oriented reading instruction. Journal of Educational Psychology, 96, 403-423.

Hadwin, A. F., & Winne, P. H. (2001). CoNoteS2: A software tool for promoting self-regulation. *Educational Research and Evaluation, 7(2-3)*, 313-334.

Hickey, D. T. (2003). Engaged participation versus marginal nonparticipation: A stridently sociocultural approach to achievement motivation. *Elementary School Journal*, *103*, 401-429.

Linnenbrink, E. A. & Pintrich, P. R. (2003). The role of self-efficacy beliefs in student engagement and learning in the classroom. *Reading and Writing Quarterly*, *19*, 119-137.

# DİNİ İDENTİKLİK CƏMİYYƏTİN SOSİAL PSİXOLOJİ İMUNİTET SİSTEMİ KİMİ

**Ceyhun ƏLİYEV**
Azərbaycan Dillər Universiteti,
Psixologiya kafedrasının dosenti, psixologiya üzrə fəlsəfə doktoru,
*Azərbaycan, BAKI*
ceyhunaliyev@mail.ru

**XÜLASƏ**

Əgər biz, multikultural cəmiyyəti bir bina kimi təsəvvür etsək, insanlar bu binanın divar daşları, dini identiklik isə bu daşları bir-birinə bağlayan sement sayıla bilər. Divarın möhkəmliyi ora hörüləcək daşları bir-birinə bağlayan sementin möhkəmliyindən asılı olduğu kimi xalqın da birliyi və mütəşəkkilliyi onları birləşdirən ortaq dəyərlərin olmasından asılıdır. Sement işlədilmədən daşlardan hörülən divarın dağılması asanlıqla mümkün olduğu kimi identikliyi zəif olan xalqın da eyni vəziyyətə düşmək ehtimalı çox böyükdür. Deməк ki, müxtəlif etnik mənsubiyyəti olan insanları xalq kimi formalaşdırmağın və bir dövlət içərisində tutmağın sosial-psixoloji mexanizmlərindən biri onlarda identikliyin formalaşdırılmasıdır. Bu məsələdə ən ideal sosial-psixoloji mexanizm dini identikliyin gücləndirilməsidir.

**Açar sözlər:** dini identiklik, sosial immunitet, aidlik tələbatı, sosial məsuliyyət.

# RELIGIOUS IDENTITY SOCIAL PSYCHOLOGY OF SOCIETY LIKE THE IMMUNE SYSTEM

**Jeyhun ALIYEV**
Azerbaijan University of Languages,
Associate Professor of the Department of Psychology, Doctor of Philosophy in Psychology,
*Azerbaijan, BAKU*
jeyhunaliyev@mail.ru

**SUMMARY**

If we imagine a multicultural society as a building, people can be considered as the building blocks, and religious identity is the cement that binds these stones together. Just as the strength of the wall depends on the strength of the cement that binds the stones that will be built into it, the unity and organization of the people depends on the presence of common values that unite them. Just as a wall made of stones without cement can easily fall apart, it is very likely that a people with a weak identity will fall into the same situation. It means that one of the socio-psychological mechanisms of forming people of different ethnicities as a nation and keeping them within a state is the formation of their identity. The most ideal socio-psychological mechanism in this matter is the strengthening of religious identity.

**Key words**: religious identity, social immunity, needs of belongings, social responsibility.

Multikultural ölkədə dini identikliyin, toplayıcı və birləşdirici gücü milli identiklə müqayisədə daha güclüdür. Çünki, dini identiklik milli mənsubiyyətə fokuslanmır, fərqliliklərə əhəmiyyət vermir. Dini identiklik, dövlətin və xalqın birliyinin qorunması yolunda sosial immunitet funksiyasını oynamaqla yanaşı həm də onun sosial orqanizm kimi sağlam və güclü şəkildə inkişafını təmin edən sosial-psixoloji mexanizmdir. Cəmiyyət üzvləri arasında olan emosional əlaqə

və ictimai həmrəylik cəmiyyətin güc qaynağıdır. Qrup üzvləri arasında olan emosional əlaqələr sayəsində məqsədə çatmaq daha asandır. Cəmiyyət müxtəlif sosial qruplardan təşkil olunduğu üçün onlar arasında identikliyin formalaşdırılması, sosializasiya institutları tərəfindən həyata keçirilməli olan sosial-psixoloji və ideoloji işlərin başında gəlir. Fərqli sosial qruplarda təmsil olunan insanları bir araya gətirməyin ən önəmli vasitəsi fərdlər arasındakı emosional əlaqələrin yaradılmasıdır. İnsan cəmiyyətinin bel sütunu, böyük ölçüdə qrup üzvləri arasında formalaşan identiklik hissi əsasında yaranır. İdentiklik insanın sosial mühitdə sosiallaşması və özünüdərketməsi eləcə də həytda məna axtarışı ilə bağlı meydana çıxan sosial-mənəvi tələbatdır. Şəxsiyyətin identiklik tələbatı ilə bağlı humanistik psixologiyanın banilərindən A.Maslou yazır: İdentiklik axtarışı – bu ümumi planda insanın formalaşması, onun olmaq istədiyi kimi olmasıdır [Маслоу, 2005:153]. İdentikliyin cəmiyyətin həyatında oynadığı sosial-psixoloji rol haqqında Z.Freyd yazır: Cəmiyyət üzvləri arasında olan emosional əlaqə və ictimai həmrəylik cəmiyyətin güc qaynağdır. Cəmiyyət üzvləri arasında olan emosional əlaqələr sayəsində gücə, təzyiqə qarşı zəfər qazanması gerçəkdir. Bir cəmiyyət üçün identik şəxslərdən təşkil oldunduğu dövr müddətində problem yoxdur deməkdir [Freud & Einştain, 2000: 31]. Cəmiyyətin bir araya gəlməsində fərdlər arasındakı emosional əlaqələrin əhəmiyyətini qeyd edən Z.Freyd identikliyi insanlar arasında emosional bağları yaşada biləcək qüvvə hesab etmiş və insan cəmiyyətinin bel sütununun böyük ölçüdə identiklik hissi əsasında yarandığı qənaətində olmuşdur [Freud & Einştain, 2000: 41]. Bizə görə cəmiyyətdə dini və milli identiklik tam olaraq insan orqanizmini özündə saxlyan və onun normal fəaliyyətini təmin edən sklet sisteminə bənzəyir. İdentiklik, o cümlədən dini identiklik qrup daxilində sosial məsuliyyət düşüncəsi və hissinin inkişaf etdirir. Qrup üzvlərində identiklik hissinin güclənməsi ilə fərdlərin fikir, düşüncə, hiss və davranışında şəxsi və sosial məsuliyyət hissi və davranışı da mütənasib şəkildə inkişaf edir. Dini idnetiklik qrupa sülh, ədalət, bağışlanma, fədakarlıq, comərdlik kini psixososial zənginlik gətirir.

İnsanı düşündürən və daima axtarışa sövq edən suallardan biri yaşadığı həyatın mənası və həyatda məna anlayışlarını cavablandırması ilə bağlıdır. Bu sual teoloji olduğu qədər həm də psixolojidir. Psixologiya tarixində həyatın mənası ilə bağlı tədqiqat Viktor Franklın adı ilə bağlıdır. İkinci dünya müharibəsində faşist hərbi düşərgəsindən sağ çıxan Frankl öz qeydlərində göstərmişdir ki, əsirlikdə olduğu zaman onun sağ qalmasını təmin edən əsas qüvvə, onu yaşadan güc həyatının məna və məqsədinin olması olmuşdur [Hart, 2022: 129].

Həyatda məna nə deməkdir? sualını Kinq, Heintzelman və Vard belə cavablandırmışlar: həyatda məna, şəxsin öz həyatında mənalı, layiqli məqsədlərin rəhbər tutulması və idarə edilməsi, eləcə də dünyada əhəmiyyət kəsb etmə dərəcəsidir [Hart, 2022: 129]. Onlar həyatın mənasının üç komponentdən təşkil olduğunu göstərmişlər: **koqnitiv, emosional və davranış komponenti.** Hesab edirik ki, həyatı mənalı edən ən güclü komponentlərdən biri şəxsin dini identikliyinə bağlıdır. Apardığımız sorğular və keçirdiyimiz söhbətlər göstərir ki, dini identiklik səviyyəsi ilə həyatın mənalı olması arasında müsbət korelyasiya var. Belə ki, dini idnetiklik səviyyəsinin güclənməsi ilə gəncin həyatını mənalandıra bilməsi də artır. Əksinə, dini identiklik səviyyəsi çox zəif olan gənclər arasında həyatda məna axtarışı yaxud da həyatın mənasızılığı ilə bağlı problemlər daha çox özünü biruzə verir. Bu qrupa daxil olan gənclərdə həyatın mənasızlığı onların keçirdiyi hiss, davranış və fikirlərdə özünü biruzə verir. Insanların öz həyatlarını mənalandıra bilmələri onların yaşdan, təcrübəsindən asılı olaraq dəyişə bilir. Bəzi hallarda mənalandırma tələbatı yaşadığımız gərginliklər, keçirdiyimiz böhranlar səbəbilə meydana çıxır. Yəni, üzləşdiyimiz çətinliklər, uğursuzluqlar, bədbəxtliklər bir dönüş nöqtəsi rolunu oynamaqla həyatımızı mənalandıra bilməyimizə kömək edir. Kanadalı psixoloq Paul Vonq qeyd edir ki, bu həyata bir dəfə gəldiyimizdən ondan maksimum şəkildə yararlanmaq istəyimiz təbiidir. Ən böyük qorxu ölüm deyil, ən böyük qorxu ölüm vaxtı gələndə, əslində heç yaşamadığımızı anlamaqdır. Bu səbəbdən biz ölümdən qorxduğumuz qədər mənasız həyatdan da qorxuruq [Hart, 2022: 201]. Məhz dini identiklik insanları ölüm qədər qorxulu

olan mənasız həyat yaşamaq qorxusundan xilas edəcəyinə ümid etdiyi üçün onlar ən azından ilahi əmrə təslim olaraq müəyyən rituallara əməl etməklə məna boşluğunu dolduracaqlarına inanır və ümid edirlər. İnsanların həyatda qarşılaşdıqları çətinliklər onlarda psixoloji gərginliklərin yaranmasına yol açır. Müşahidələr və apardığımız sorğular göstərir ki, gənclər arasında dini identikliyə aparan ən əsas tələbat məhz yaşadıqları həyatın mənasız olması ilə bağlı gəldikləri qənaətdə olmalrıdır. Belə ki, üzləşdikləıri çətinlik və onu həll edə bilməmələri səbəbindən keçirdikləri gərginlik onlara həyatlarında nəyinsə düz getmədiyi mesajını verir. Bu mesaj gəncin refleksiya etməsinə səbəb olur. Refleksiya hissi gənclərdə həyatını mənalandıra bilmədiyi üçün məna böhranı yaradır. Belə olduqda gənc inrtospeksiya yolu ilə özünütəhlilə baş vurur. P.Vonqun da qeyd etdiyi kimi belə anlarda fərdin məna axtarışına çıxması üçün refleksiya, özünütanıma və özünüqiymətləndirmə kimi koqnitiv bacarığa sahib olması mütləqdir. İntrospeksiya yolu ilə özünü yuxarıda qeyd olunan koqnitiv bacarıqlar üzərindən təhlil edən gənc məna axtarışına çıxdıqda dini identiklik onun üçün ən rahat və sərfəli sığınacaq olur. Çünki, burada sadəcə olaraq təslim olmaq bəs edir. Həyatımıza mən qatan və onu mənalı yaşamağımıza kömək məna mənbələrindən (müvəffəqiyyət, münasibət, intimlik,dürüstük, fədakarlıq və s.) biri kimi Vonq Paulun dini qeyd etməsi fikri ilə razıyıq. Dərin məna, adətən, daha yüksək məqsədə bağlılıqdan qaynaqlanan, beləliklə həyatda məna özünüaktuallaşdırma və öz hüdudlarını aşma ilə əlaqəlidir. Maslou (1987) həyatda mənanı özünüaktuallaşdırmaya, təkan verən ehtiyac kimi qiymətləndirirdi. V.Frankl (1963) qeyd edirdi ki, həyatda həqiqi məna yalnız o zaman aşkarlana bilər ki, insanlar özlərindən daha böyük şeylərə töhfə vermiş olsunlar. Fərdin məna axtarışı tələbatı əsasında yaranan dini identiklik fərdin sosial və psixoloji sağlamlığını qoruyur. Dini identiklik şəxsiyyətin inkişafı nəticəsində baş verən sosial-psixoloji prosesdir. Şəxsiyyətin inkişafı "fərdin sosiallaşması" proses kimi müəyyən ailə, yaxın çevrənin, ölkənin, regionun sosial-siyasi, iqtisadi şəraitdə aid olduğu xalqın milli və dini inancı, etno-mədəni dəyərləri, adət və ənənələrinin təsiri ilə şərtlənən sosial şəraitdə baş verir. Bu şəxsiyyətin inkişafının makroşəraitidir [Психология человека от рождения до смерти, 2010: 256]. L.S.Vıqotskiy qeyd edir ki, həyat yolunun hər bir mərhələsində müəyyən sosial inkişaf şəraiti yaranır və insanda onu əhatə edən sosial gerçəkliyə özünəməxsus münasibət yaranır. L.S.Vıqotskiyə görə sosial inkişaf şəraiti bütövlükdə və tam olaraq elə bir yol, forma müəyyən edir ki, fərd o yol və formaya uyğun olaraq şəxsiyyətəməxsus yeni keyfiyyətlər mənimsəyir. Fərd həmin yeni keyfiyyətləri, inkişafın əsas mənbəyi olan sosial gerçəklikdən mənimsəyir və bu zaman sosial olan keyfiyyətlər artıq individual olur. Bu baxımdan yeniyetmələr və gənclər üçün sosial çevrədə dini identiklik nümunələri varsa onda sosial dini identiklik interiorizasiya yolu şəxsiyyətdaxili dini identikliyə çevrilir. Yox əgər sosial çevrədə dini identikliyi əks etdirən sosial mühit yoxdursa onda dini identiklik koqnitiv səviyyədə olsa da emosional səviyyəyə keçmir. Yəni, fərdin davranış və rəftarında dini identiklik özünü göstərmir. Deməli, dini identiklik əvvəlcə sosial – insanlar arasında yəni interpsixi, sonra isə psixoloji – şəxsiyyətin daxilində yəni intrapsixi kateqoriya kimi meydana çıxır. Yeniyetmə və gəncin sosial varlıq kimi qrup həyatına daxil olması üç mərhələdən keçməklə baş tutur: qrupda mövcud olan normalara, qarşılıqlı təsir formalarına, fəaliyyətə adaptasiya olması; individuallaşması "fərdin tələbatlarının maksimal səviyyədə personallaşdırmasının" ödənilməsi və şəxsiyyətin daxil olduğu qrupa inteqrasiyası. Şəxsiyyətin adaptasiyası, individuallaşması və inteqrasiyası (A.V.Petrovskiyə görə) qrupla qarşılıqlı təsiri, onun sosiallaşması və şəxsi inkişaf mexanizmi qarşılıqlı təsir prosesində meydana çıxan ziddiyyətlərin həlli ilə mümkün olur. Şəxsiyyətin inkişafı onda özünüdərkin formalaşması, "Mən" obrazının (Mən-konsepsiyası, Mən-sistemi) tələbat və motivləşmə sahəsinin, münasibətlər sisteminin istiqaməti, şəxsi refleksiyasının inkişafı, özünüqiymətləndirmə mexanizminin dəyişilməsinə uyğun gəlir. Əxlaq, çoxatributlu anlayış kmi ailə, peşə, sosial və şəxsi əxlaqın inteqrativ bilrliyidir. Əxlaq, şəxsiyyəti formalaşdıran hər dörd atributun sinergi effektidir, birgə təsir effektidir. Dini identiklik insanlarda daha çox sosial əxlaqı inkişaf etdirir və onun inkişafı cəmiyyətdə sosial harmoniyanı, qrupdakı birliyi və

mütəşəkilliyi gücləndirir. Qrupda, insanlarda dini identikliyin zəiflədilməsi nəticəsində bölüşərək, paylaşaraq sevinən insanlar, qazandıqlarını heç kiminlə bölüşmədən yalnız özü və ailəsinə sərf etməkdən zövq alaraq özünü xoşbəxt hiss edən müasir insan tipi ilə əvəz olunmağa başladı. Dini identikliyin interaktiv təsiri altında insanlar arasında olan sosial və psixoloji məsafənin azalması ilə insanlar bir-birinə daha həssas münasibət bəsləməklə diqqətə, qayğıya, sevgiyə, hörmətə və s. sosial tələbatlarının ödənilməsinə kömək edirlər. Əhalinin xalq halına gəlməsi və formalaşması eləcə də onlar arasında birliyin güclənməsi insanlar arasındakı güclü bağların olması ilə gerçəkləşir. Əhalini xalq kimi yaşaması onun ortaq mədəni dəyərlərə sahib olması ilə mümkün olur. Məsələyə bu aspektdən yanaşdıqda dini identiklik qrup daxilində güclü sosial-psixoloji bağların yaranmasında və möhkəmləndirilməsində mühüm rol oynayır. Məsələyə dünyada gedən qloballaşma prosesi müstəvisindən baxdıqda xalqın mənəvi-psixoloji dəyərlərinin qorunması yolunda dini identiklik sosial-psixoloji immunitet kimi qrupdakı sosial bağları gücləndirir. Müasirlik adı altında individuallaşmaq önə çəkildiyi üçün qrup kimliyinə zərər dəyir. Qrup kimliyinin zərər görməsi fərdlərin yaşama səbəbləri və məqsədlərinin ortadan qalxmasına yol açır. Qrupa aid olmaq insanın həyatına məna qatır. Fərdiləşmə insanı qrupa aidlik hissinə zərər verir, onun qrupla əlaqəsini zəiflədir, identikliyini aradan qaldırır. İnsan bioloji olduğu qədər həm də sosial varlıq olduğu üçün psixi və psixoloji cəhətdən sağlam olduğu halda yalnız yaşayaraq xoşbəxt ola bilmir. A.Maslou tələbatlar nəzəriyyəsində insanın təməl tələbatları sırasında aidlik tələbatını qeyd etmişdir. İnsan özündə mütləq olaraq bir qrupa, yerə aid olmaq tələbatı hiss edir. İnsan özünü bir qrupa aid hiss etməzsə onun bacarıq və qabiliyyəti inkişaf edə bilməz.

N.Tusi, yazır: İnsanlar bir-birinə, birinin bitkinlik və kamilliyi öz növündən olan başqalarının bitkinlik və kamilliyinə, bir-birinin zəruriköməyinə möhtac olduqlarından, izah edildiyi kimi, heç kəs təklikdə bir kamala çata bilməz. Beləliklə, bir-birinə kömək edən bütün insanları vahid bir bədən timsalında birləşdirən bir quruluşun yaranması zəruriyyəti meydana çıxar. İnsan öz təbiəti etibarilə inkişafa meyl edən bir varlıq kimi yaradıldığından təbiətən belə birləşməyə möhtacdır. Birləşməyə olan şövq “məhəbbət” adlanır [Tusi, 2005: 193]. Qrup həyatı qarşılıqlı münasibətlərdə tolerantlığı, səbirli olmağı və uyğun şəkildə davranmağı zəruri edir. Fərdiləşmənin, narsizmin, eqoizmin təti kləndiyi dövrdə insanlarda individuallaşma istəyinin irəli çıxması onun başqaları ilə münasibətdə səbirsiz və sərt münasibət bəsləməsilə nəticələnir. İdentiklik isə əksinə tolerantlığı, qarşı tərəfi səbrlə dinləməyi və yeri gəldikdə onun da xəta etmə haqqını qəbul edir. İnsan sosial varlıq kimi qrup içində yaşadığı üçün yiyələnməli olduğu sosial – psixoloji xüsusiyyətlərdən biri davranış və rəftarına, hiss və düşüncəsinə görə məsuliyyət daşımasıdır. Bu mənada sosial məsuliyyət qrup daxilində şəxsiyyətlərarası əlaqələrin güclənməsini və qrup birliyini təmin edir. Sosial məsuliyyətin sərhədləri insanın inancına və dini identikliyinə bağlıdır. Fərdin ailədə, küçədə, iş yerində və digər ictimai yerlərdə necə davranacağı sosial normalara əsasən olur. Dini identiklik, insanın davranış, hiss və düşüncələrinin onun aid olduğu dinin tələb və gözləntilərinə uyğunluğudur. Belə bir tələb və gözləntilərə uyğun davranış sosial öyrənmə və sosial məsuliyyətlə mümkün olur. Dini identilk insanın qrup daxilində şəxsiyyətlərarası münasibətdə sosial məsuliyyət hissini inkişaf etdirdiyi üçün o, “istədiyimi edə bilərəm” düşüncəsindən uzaq olub çevrəsini nəzərə alaraq hərəkət etməyi seçir. İnsan yazılı qaydalara qanuna əsasən əməl edir. Amma, dini identiklikliyin olduğu şəxsdə qrup həyatı üçün zəruri olan sosial məsuliyyət və cavabdehlik fərdin daxili intizamı anlamına gələn vicdanına əsasən əməl edir. Beləliklə, dini identiklik sosial və mənəvi əsaslı tələbat kimi fərdlərin qrup daxilində bir-birinə inam, güvən və etibarını gücləndirməklə, sosial kreditini artırmaqla funksionallığına kömək edir. Dini identikliyə bu aspektdən yanaşdıqda o multikultural mühitdə insanların sosial birliyini və ittifaqını möhkəmləndirməklə onlarda sosial immuniteti gücləndirir. Davranış inkişafı nəzəriyyələri ehtimal edir ki, davranış öyrənilə, unudula (yadırğamaq) və bir sıra proseslər (assosasiyalı öyrənmə, operant şərtləndirmə, modelləşdirmə, özünüdərk, tənqidi düşüncə) vasitəsilə yenidən öyrənilə bilər. Davranışın

transnəzəri əsaslı inkişafı modeli şəxsin dəyişikliyə hazırlığına və ya motivasiyasına fokuslanır. Bu modeldə ehtimal olunur ki, davranış dəyişikliyi ardıcıl addımllar sayəsində baş verən prosesdir. Davranış dəyişikliyinə xidmət edən addımlara – ilkin müzakirə, müzakirə, qərar, hazırlıq, təsir və xidmət daxildir. Müzakirədən əvvəlki mərhələdə insanlar onların davranış, düşüncə və hisslərində problemin olduğunu bilmirlər. Belə olduqda onların dəyişilməyə heç bir tələbatı və motivasiyası olmur. Problemdən xəbərdar olduqda, onu başa düşüb dərk etdikdən sonra şəxs dəyişikliyə qarşı ikili hisslə qarşılaşır. Biliyi, məlumatı davranışa çevirmək dini identikliyin vacib aspektidir. Gənc dini identikliyini və dini dəyərlərini mənalı davranışa çevirməyincə onun dini identikliyin koqnitiv aspektini sadəcə olaraq bilməsi çox azdır. Gəncin dini identikliyə koqnitiv səviyyədə yiyələnməsi onun davranış səviyyəsində də identik qaydada davranacağını təmin etmir. Bu baxımdan gənclərdə dini idnetikliyə olan münasibət sosial çevrədə dini identikliyə olan münasibətlə düz mütənasibdir. Cəmiyyətdə fikir müxtəlifliyinə tolerant münasibətin formalaşdırılması, din və vicdan azadlığına sözdə deyil, əməldə hörmət edilməsi dini identikliyin formalaşdırılmasında əhəmiyyətli dərəcədə təsir göstərir.

İdentiklik, o cümlədən dini identiklik toplum həyatında birlikdə yaşamaq üçün zəruri olan prososial davranışları tətikləyir. Prososiallıq sayəsində insan fiziki və sosial həyatda asanlıqla yaşaya, işləyə və ömrünü acı çəkmədən sağlam şəkildə davam etdirməyə müvəffəq olur. İdentiklik xüsusilə, dini və milli identik istər kiçik, istərsə də böyük qrup daxilində sosial birliyi və mütəşəkilliyi təmin edir.

İnsan bioloji, psixoloji, həm də sosial varlıq kimi dizayn edilmiş varlıqdır və onun həyatı başqaları ilə sıx əlaqələr qurmaqdan keçir. Bu baxımdan sosial-psixoloji xüsusiyyət olan idnetiklik bioloji mənada da sıx sosial əlaqələr qurmaqla həyatını sürdürən fərdlərin sosial və psixoloji birliyə olan tələbatını asanlıqla ödəyə bilir. Tarixin səhnəsində bu gün də yaşayan xalqların ən böyük üstünlüyü onlar arasında identikliyin yüksək olması və bunun nəticəsində sosial birliyin nüvəsində dayanan prososial xüsusiyyətlərin dominantlıq təşkil etməsidir. Sosial həyatda ən yaxşı qaydada identikləşə bilənlər daha yaxşı sosial əlaqələr, iş birliyi qura bilir, Vətənini, torpağını daha yaxşı qoruya və müdafiə edə bilir. Dövlətin və xalqın, eləcə də bəşəriyyətin rifahı naminə eləcə də xalqın və millətin tarix səhnəsində qalmasını təmin edə bilmək üçün əhali arasında prososiallığı və identikliyi gücləndirməklə nail olmaq olar. Beləliklə, əsrlər boyu seçim mexanizmini şəkilləndirən sistem, sosial varlıq olan xalqların, dövlətlərin həyatda qalması identikləşərək prososial xüsusiyyətlərə sahib olmaqla mümkün olmuşdur.

İdentiklik sosial-psixoloji proses kimi mənəvi–psixoloji inkişafa bağlıdır. Məsələyə bu aspektdən yanaşdıqda onu qeyd edə bilərik ki, bəzi hallarda daxili inkişaf (mənəvi-psixoloji) olmadığı halda maddi bolluq və çoxluq identikliyin zəifləməsinə səbəb olur. Bunun nəticəsində fərd və qruplarda prososiallıq azalmağa başlayır, hedonizm və ayrımçılıq güclənir. Lakin, şəxsiyyətdaxili inkişafın müşayəti ilə gedən maddi bolluq prososiallığı gücləndirərək identikliyə təkan verir. İnsan həyatı doğuşdan vəfat edənə qədər qrupla şərtləndiyi üçün yaşa uyğun olaraq keçdiyimiz hər bir sosializasiya mərhələsindəki ünsiyyət və fəaliyyətimiz prososial olmağımızı, identiklıəşməyimizi sosial davranış forması kimi zəruri edir. Hüquq sistemimiz, qanunlarımız, mənsub oldğumuz din, birgəyaşayış normaları, adət və ənənlər sosial sistemimizin və birlikdə yaşamağımızın zəruri şərti kimi identikliyi və prososiallığı şərt olaraq diqqətə çatdırır. Qrup üzvlərinin dini identikliyi qrup üzvləri arasında sosial əlaqələri gücləndirməklə sosial təcridolunmanı, seperatizmi, diskriminasiyanı, qərəzli münasibət və davranışı zəiflədərək tam əksinə "biz" hissini gücləndirir, tolerantlığı isə inkişaf etdirir. Dini identiklik - qrup daxilində mütəşəkillik, birlik hissinin gücləndirdiyi kimi teoloji mənada metafizik aspektdən də qrupun güclənməsinə təsir göstərir. İki əsrdən çox müddət ərzində islam və imanın şərtlərinə uyğun yaşamağı gerilik, Avropa və rus mədəniyyətinə uyğun fikir, hiss və davranışa sahib olmağı isə müasirlik kimi təqdim və təbliğ olunması nəticə etibarı ilə gənclərimizi dini identiklikdən uzaqlaşmasına öz təsirini kifayət qədər göstərə bilmişdir. Müasir

dövrdə də hələ islam və imanın şərt və tələblərinə uyğun yaşamaq hələ də "qara cammat" məşğuliyyəti kimi təqdim edildiyi və qavranıldığı üçün gənclər arasında dini identiklik zəif şəkildə özünü biruzə verir. Demək ki, müasirlik, mədəni olmaq və mədəniyyət anlayışlarını avropasentrik yanaşmadan azad edib onları irfanla yükləməsək xalqımızı o cümlədən gənclərimizi mənəvi-psixoloji eləcə də teoloji mənada metafizik baxımdan gücləndirməyi təmin edən dini identikliklə qüvvətləndirə bilməyəcəyik. Əhali arasında o cümlədən gənclər arasında dini identikliyi formalaşdırmaığn ən əsas və sadə yolu mədəniyyətlə irfanı vəhdət halına gətirə bilməkdən keçir. Fikrimizcə dini identiklik sosial immunitet mexanizmi kimi cəmiyyətdə aşağıdakı funksiyaları yerinə yetirir: müdafiəedici, adaptasiyaedici, tənzimedici və inteqrativ [Жалуев, 2013]. Sosial struktur və funksiyaların birliyinə və onların yerinə yetirilməsinə cavabdehlik işi cəmiyyətin immun sistemini təşkil edir. Beləliklə, dini identiklik əsasında yaranan sosial immunitet, cəmiyyətin daxili birlik və harmoniyasını dağıdan xarici mühitin neqativ təsirlərindən qoruyur. Başqa sözlə desək dini identiklik əsaslı sosial immunitet özünün funksional təbiətinə görə cəmiyyətin təhlükəsiz şəkildə mövcudluğu və inkişafını təmin edir. Sosial immunitet ilk növbədə cəmiyyətin, qrupun xarici amillərlə əlaqəli sosial risk və təhdidlərə qarşı mübarizə aparmaq qabiliyyətidir. Sosial immunitet, sosial mexanizm elementi kimi cəmiyyəti qarşılaşa biləcəyi risk və təhdidlərdən qoruyur eləcə də qrup üzvlərinin daxili mühitə uyğunlaşmasını təmin edir. Sosial immunitet özünün qoruyucu və inkişafetdirici funksiyalarını cəmiyyətin strukturuna və ideoloji əsasına uyğun yerinə yetirir. Məsələn, Sovet hökuməti ölkənin sosial immunitetini özü ilə başqa ölkələr arasında "dəmir pərdə" çəkməklə qoruyurdu. Dövlət müsəqilliyi əldə etdikdən sonra milli və dini identikliyin inkişaf etdirilməsi və gücləndirilməsi cəmiyyətin sosial immunitetini təmin edən sosial-psixoloji mexanizmdir. Onu da qeyd edək ki, dini identikliyin güclənməsinə mane olan məsələlərdən biri şəxsiyyətlərarası münasibətdə yaxud da qarşılıqlı qiymətləndirmə və sosial persepsiyada dini identikliyin mərkəzi yox periferik keyfiyyət kimi qavranılmasıdır. Dini identikliyin periferik deyil mərkəzi keyfiyyət kimi qiymətləndirilməsi sosial mühitdə həmin keyfiyyətə olan tələbatdan asılıdır. Beləliklə, gənclər arasında dini identikliyi gücləndirməyin bir yolu dini identikliyin şəxsiyyətlərarası qiymətləndirmədə mərkəzi keyfiyyət kimi qəbul edilməsinə nail olmaqdan keçir.

## Ədəbiyyat:

*Freud, Sigmund & Einştain. Albert* . (2000). Niçin Savaş? Türkiye, Alter Yayıncılık.
*Маслоу, А.* (2005). Мотивация и личность. СПб.: Евразия. - 478 с.
*Tarhan, Nevzat.* (2019). Değerler Psixolojisi ve İnsan. Türkiye, Timaş yayınlar. 255 s.
*Hart, Rona*. (2022). Pozitiv psixologiya. Bakı.Teas Press nəşriyyatı. - 271 s.
*Майерс, Д.* (2007). Социальная психология. - СПб: Изд. «Питер». -749 с.
*Кадырова, Р.Г.* (2007). Национальная идентичность азербайджанских детей и подростков. Баку, «Кавказ». - 247 с.
*Психология человека от рождения до смерти*. (2010). / Под, ред. А.А. Реана. СПб.: ПРАЙМ-ЕВРОЗНАК. 651 с.
*Bayramov, Ə.S, Əlizadə, Ə.Ə.* (2003). Sosial psixologiya, Bakı,"Qapp -Ploiqraf' 2003. 356 s.
*Tusi, Xacə Nəsrəddin.* (2005). Əxlaqi-Nasiri. Bakı, "Lider nəşriyyatı", 280 s.
*Kalınm, İbrahimm*. (2013). Akıl ve Erdem. Türkiye, Kürü Yayınları, 2013. - 416 s.
*Жалуев, З.А.* (2013). Социальный иммунитет как предмет социологического исследования: концептуализация понятия. https://cyberleninka.ru/article/n/sotsialnyy-immunitet-kak-predmet-sotsiologicheskogo-issledovaniya-kontseptualizatsiya-ponyatiya

# SOSİAL QABİLİYYƏTLƏRİN İNKİŞAFI UŞAQLARIN BAĞÇAYA ADAPTASİYASININ YOLU KİMİ

**Səbinə Hikmət qızı ƏLİZADƏ**
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
Ümumi psixologiya kafedrasının baş müəllimi,
psixologiya üzrə fəlsəfə doktoru
*Azərbaycan, BAKI*
sabina.az@gmail.com

**XÜLASƏ**

Sosial intellektin inkişafı dövrümüzün aktual sosial-psixoloji problemlərindən birinə çevrilmişdir. Sosial intellektin formalaşmasının əsası ailədə qoyulur. İnsanın sosial intellekti həyatının sonrakı mərhələlərində - uşaq bağçasında, məktəbdə və s.-də inkişaf edir. Sosial intellektin inkişafının əsas şərtlərindən biri də insanın həyatının hər mərhələsində uğur qazanmasıdır. İnsanın həyatının hər mərhələsində uğur qazanması onun sosial bacarıqlarından asılıdır.

Sosial bacarıqlar insanın həyatının bir mərhələsindən digərinə keçdikcə daha qabarıq görünür. Yeni mərhələdə uğur qazanmaq üçün sosial bacarıqlar qənaətbəxşdirsə, insan bu mühitə uyğunlaşa bilər, əks halda yeni mühitə uyğunlaşma qabiliyyəti məhduddur. Deadaptasiya yeni mühitdə insanın sosial intellektinin inkişafına mənfi təsir göstərir. Bu, xüsusilə uşaqlar bağçaya gedəndə doğrudur. Məqalədə uşağın bağçaya uyğunlaşa bilməməsinin səbəbləri və onu bağça həyatına hazırlamaq yolları sosial-psixoloji baxımdan təhlil edilir.

**Açar sözlər:** sosial intellekt, sosial qabiliyyətlər, adaptasiya, ailə, uşaq bağçası.

# DEVELOPMENT OF SOCIAL SKILLS IN CHILDREN TO KINDERGARTEN AS A WAY OF ADAPTATION

**Sabina Hikmet ALIZADEH**
Azerbaijan State Pedagogical University,
Head teacher of the department of general psychology,
PhD in psychology
*Azerbaijan, BAKU*
sabina.az@gmail.com

**SUMMARY**

The development of social intelligence has become one of the pressing socio-psychological problems of our time. The basis for the formation of social intelligence is laid in the family. A person’s social intelligence develops at later stages of his life - in kindergarten, school, etc. One of the main conditions for the development of social intelligence is a person’s success at every stage of life. A person's success at every stage of his life depends on his social skills.

Social skills become more prominent as one moves from one stage of a person's life to another. To succeed in a new stage, a person can adapt to this environment if social skills are satisfactory, otherwise the ability to adapt to the new environment is limited. Deadaptation negatively affects the development of a person’s social intelligence in a new environment. This is especially true when children go to kindergarten. The article analyzes from a socio-psychological point of view the reasons for a child’s inability to adapt to kindergarten and the ways of preparing him for kindergarten life.

**Key words:** social intelligence, social skills, adaptation, family, kindergarten.

## GİRİŞ

Həyatda uğur qazanmasında inşanın sosial intellekti mühüm rol oynayır. Sosial intellekt insan həyatının müxtəlif dövrlərində mərhələli şəkildə inkişaf edir. Onun əsası isə hələ məktəbəqədər yaş dövründə ailədaxili münasibətlər müstəvisində sosial bacarıqların formalaşması ilə qoyulur. Sosial intellektin inkişaf etdirilməsinin növbəti mərhələsi uşaq bağçasıdır. Burada uşaqların sosial bacarıqlarinın inkişafı üçün daha məqsədəuyğun sosial mühit mövcuddur. Lakin məlum olduğu kimi, ailə mühiti ilə bağça mühiti arasında köklü fərqlər vardır. Ailədə sosial bacarıqları zəif inkişaf etmiş uşaqlar bu baryerini dəf edə bilmədiyi üçün bağça mühitinə adaptasiya olmaqda çətinlik çəkirlər. Nəticədə bağça mühiti onların sosial inkişafında məqsədəuyğun rol oynaya bilmir. Bu istiqamətdə uşağın bağça mühitinə adaptasiyasının yaxşılaşdırılması yollarının araşdırılması aktual psixoloji problemlərdən birinə çevrilir.

### Ədəbiyyatın icmalı

Sosial intellektinin zəif inkişafı uşağın bağça mühitinə adaptasiyasında çətinlik yaradan əsas səbəblərindən biri kimi dəyərləndirilir. “Sosial intellekt” anlayışı psixologiyada ilk dəfə 1920-ci ildə E.Torndayk tərəfindən irəli sürülmüşdür. Sonrakı illərdə H.Ayzenk [Айзенк, 1995: 111-131], H.Qardner [Гарднер, 2007], C.Gilford [Гилфорд, 1965], Q.Ollport [Allport, 1961], R.Sternberq [Стернберг, 2002], D.Qoulman [Гоулман, 2021] və s. apardıqları tədqiqatlar nəticəsində sosial intellekt psixoloji problem kimi aktuallaşmışdır. S.S.Belova [Белова, 2004], E.V.Belyayeva [Беляева, 2005], D.V.Uşakov [Ушаков, 2019] kimi tədqiqatçılar da sosial intellektin insanın həyatının bütün sahələrində təzahür edən xüsusiyyət olması fikrini irəli sürmüşlər. Aparılan tədqiqatlardan məlum olur ki, fərdin başqaları ilə birlikdə və ya başqalarına münasibətdə etdiyi hərəkətlər zaman öz fəaliyyətini daha səmərəli, hamını qane edəcək tərzdə tənzimləməsi, peşə fəaliyyətində uğur qazanması və s. onun sosial intellektinin əsas göstəricisi kimi çıxış edir. Bunu sosial intellekt ilə insanın düşdüyü mühitə adaptasiyası arasında qarşılıqlı əlaqənin olduğu ilə əlaqələndirirlər.

Adaptasiya sosial psixologiyanın tədqiqat predmetlərindən biridir. Problem müxtəlif alimlər tərəfindən tədqiq edilmişdir. İ.A.Miloslavova [Милославова, 1973:111-120], T.Şibutani [Шибутани, 1998: 537], L.İ.Mardaxayev [Мардахаев, 2006:269], F.B.Berezin [Березин, 1988: 272] və başqalarının apardıqları tədqiqatlarda adaptasiya anlayışı müxtəlif formada izah edilsə də, məzmunu baxımından insanın yeni mühitə daxil olması və onun şərtlərinə uyğunlaşması prosesi kimi dəyərləndirilir. Məlum olur ki, insanın düşdüyü mühitə adaptasiya ola bilməməsi onun inkişaf imkanlarını məhdudlaşdırır, bəzən isə hətta travma ala bilməsi ilə nəticələnir. Bu məktəbəqədər yaş dövründə, xüsusən uşağın bağça, bağçaya getmədiyi hallarda isə hətta məktəb həyatına başlarkən özünü daha qabarıq şəkildə göstərir. Bunun əsas səbəbi uşağın yeni mühitə (bağça və ya məktəbə) ilk dəfə düşməsi və bu istiqamətdə onu ilk təcrübəsi olması ilə bağlıdır. Təsadüfi deyil ki, Ş.A.Amonaşvili [Амонашвили, 2022:176], Q.F.Kumarina [Кумарина, 2013], A.V.Mudrik [Мудрик, 2011: 624], N.D.Vatulina [Ватулина, 1983: 80] və b. öz araşdırmalarında uşaqların bağçaya adaptasiyasının optimallaşdırılması üçün onların bağçaya hazırlığının həyata keçirilməsini zəruri sayırlar.

### Tədqiqatın əsas fərziyyəsi

Uşaqlarda sosial intellekt zəif inkişaf etdikdə onların bağçaya adaptasiyasında çətinliklər yaranır. Məsələnin belə qoyuluşu sosial intellektin inkişafını zəruri edir. Lakin, hazırda ölkəmizdə tək uşaqlı ailələrin sayı getdikcə artır. Ailədə uşağın sayının azalması onun ünsiyyət imkanlarını zəiflədir. Bundan əlavə, hazırda media vasitələrinin çoxalması insanlararası əyani ünsiyyətin zəifləməsini, onlayn ünsiyyətin çoxalmasını şərtləndirmişdir. Müasir dövrümüzdə yaşadığımız hər iki hal sosial intellektin inkişafına mənfi təsir göstərir. Belə uşaqların psixoloji zədə almaması üçün onlar bağça həyatına (təkcə bağça həyatına deyil, həyatının hər bir növbəti mərhələlərinə - məktəbə, ali məktəbə, ailə həyatına və s.) hazırlanmalıdırlar. Orta və ali məktəbdə təhsilalanların, ailə həyatında gənclərin uğursuzluqlarının səbəblərindən birini onların yeni mühitə adaptasiya ola bilməməsində axtarmaq məqsədəuyğun olardı. Adaptasiya resursları ilk təcrübə kimi

bağça həyatından başlayır. Sosial intellektin inkişaf imkanları ailə ilə müqayisədə uşaq bağçasında daha çoxdur. Uşaq bağça həyatına hazırlanarsa, onun bu mühitə adaptasiyası asan olar.

**Metodologiya**

Tədqiqat prosesində müşahidə, müsahibə, anket sorğusu, təhlil, eks-post fakto və b. metodlardan istifadə edilmişdi. Məqsədimiz məktəbəqədər yaş dövründə ailədə uşaqlarda sosial bacarıqlarin formalaşması yollarını araşdırmaq, mövcud nöqsanların aradan qaldırılması və uşaqların bağçaya adaptasiyasının yollarını müəyyən etmək olmuşdur. Bu konteksdə, tədqiqatın metodologiyasını sosial intellekt, sosial adaptasiya haqqında nəzəriyyə, konsepsiya və yanaşmalar təşkil edir.

**Müzakirə**

Uşağın bağça həyatına uğurla daxil ola bilməsi üçün onun sosial qabiliyyətləri mühüm əhəmiyyət kəsb edir. O ilk dəfə bağça həyatına qədəm qoyanda adət etmədiyi, ailə mühitindən köklü surətdə fərqlənən yeni mühitə daxil olur. Bu mühitdə heç vaxt ünsiyyətdə olmadığı uşaqlarla münasibətlər sisteminə daxil olmaq zərurəti yaranır. Bağçaya gedənə qədər uşaq bacısı,qardaşı və ya qohum ailələrdən olan uşaqlarla ünsiyyətə daxil olur. Bu zaman uşaq ən yaxşı halda bir və ya iki uşaqla ünsiyyətə daxil olur, onlarla bir yerdə oynayır (bəzən hətta belə hallarda da bir çox uşaqlar ünsiyyətə daxil olub, bir yerdə oynamaqda çətinlik çəkirlər. Uşaqların oyun prosesində bir-biri ilə dalaşması bunun göstəricisidir.). Ailə çərçivəsində uşaq üçün ünsiyyət subyektlərinin sayı adətən iki-üç nəfər olduğu halda, bağçada onların sayı on nəfər və daha çox olur. Ailə mühitində uşaqların fəaliyyətini onların hər bir şıltaqlığına dözən valideyn tənzimləyir. Bağça mühitində isə uşağın tanımadığı tərbiyəçi-müəllim onların fəaliyyətini təşkil edir. Beləliklə, yeni mühitdə o birdən birə həm yeni tərbiyəçi, həm də yeni uşaqlarla ünsiyyətə daxil olmalı olur. Etiraf etmək lazımdır ki, 3 yaşlı uşaq üçün bu o qədər də asan proses deyil. Bu zaman uşağın bağça həyatına uğurla daxil olub-olmaması onun bu mühitə adaptasiya olma bacarığından və ya sosial bacarıqlarin inkişaf səviyyəsindən asılı vəziyyətə düşür.

Uşaqların bir qisminin bağçaya həvəslə getdiyini, bir qisminin isə getmək istəmədiyini gündəlik həyatımızda adi müşahidə nəticəsində görə bilərik. Bağçaya getmək istəməyən uşaqlar bağçada müxtəlif davranış nümunələri ilə fərqlənirlər. Onların bəzisi "ağlayır, isterika içərisində evə getmək istədiyini bildirir", bəzisi "sakit şəkildə bir ğüncə qısılaraq, əzab çəkə-çəkə evə gedəcəyi anı gözləyir" və s. Bu davranış nümunələri onun yeni mühitə adaptasiya ola bilməməsinin göstəricisidir. Bunun səbəblərini aydınlaşdırmaq üçün adaptasiya anlayışının mahiyyətin açıqlamaq zəriridir.

Adaptasiya anlayışı müxtəlif psixoloji yanaşmalarda da fərqli konteksdə izah edilir. Bihevioristlər təbirincə, sosial adaptasiya sosial mühitdə (mədəniyyətdə) fiziki, sosial - iqtisadi və ya qrup davranışında baş verən dəyişikliklərdi [https://science-education.ru/ru/article/view?id=12090]. Psixoanalitiklər sosial adaptasiya anlayışının mahiyyətini prizmanın başqa bucağından yanaşaraq izah edirlər. Məsələn, Alman psixoanalitiki Q.Qartman bu anlayışı münaqişəli situasiyalarla bağlı olan proses kimi dəyərləndirir [Hartmann, 1958: 121].

Psixologiya lüğətində adaptasiya anlayışı "psixoloji xüsusiyyətlərin (məsələn, emosional əhval-ruhiyyə, vəziyyət və s.), eləcə də insanın davranışının sosial şəraitə, zamanın müəyyən bir anında düşdüyü sosial vəziyyətə uyğunlaşdırılması" [Немов, 2007:13] kimi izah olunur. Bu izahda adaptasiya insanın psixoloji xüsusiyyətlərdən asılı olaraq, davranışının sosial vəziyyətə uyğunlaşdırılması kimi dəyərləndirilir. İ.A.Miloslavova problemə "insanın əsas funksiyalarını yerinə yetirməsi və mürəkkəb yaradıcılıq problemlərini həll etmə şərti kimi" [Милославова, 1973: 111-120] açıqlayır. Müəllif insanın mövcud situasiya görə zəruri olan funksiyaları yerinə yetirməsini üçün insanın yaradıcılıq imkanlarını önəmli hesab edir. T.Şibutani isə "ətraf mühitin aktiv inkişafına, onun dəyişməsinə və uğurlu fəaliyyət üçün lazımi şəraitin yaradılmasına əsaslanan reaksiyalarının məcmusu" [Шибутани, 1998: 537] kimi dəyərləndirir. Bu izahda adaptasiya üçün həm yaradılan lazımi şərait, həm də insan reaksiyalarının məcmusu əsas götürülür. Qeyd olunan müəlliflərin izahında adaptasiya probleminin müxtəlif tərəfləri öz əksini tapır. Bu izahların fonunda

L.İ.Mardaxayevin təqdimatı daha dolğun görünür. Onun fikrincə, "adaptasiya insanın sosial mühitin şərtlərinə (həyat mühitində) aktiv uyğunlaşmasıdır ki, bunun sayəsində özünüidarəetmənin və cəmiyyət tərəfindən qəbul edilmiş məqsədlərin, dəyərlərin, norma və davranış üslublarının təbii mənimsənilməsi üçün ən əlverişli şərait yaranır [Мардахаев, 2006: 81]. Müəllif izahında adaptasiyanın məzmununa həm sosial mühitin şərtlərinə uyğunlaşmanı, həm də onun nəticəsi kimi qəbul edilmiş davranış üslublarının mənimsənilməsi üçün əlverişli şəraitin yaranmasını daxil edir. Bu izah bizim noqteyi nəzərimizə uyğundur.

Son tədqiqatlarda problemin məzmun quruluşunun daha dərin qatları açıqlanır. "Adaptasiya sosial mühitə uyğunlaşmaq üçün sosial, sosial-psixoloji, mənəvi-psixoloji, iqtisadi və demoqrafik münasibətlərin dəyişməsi prosesi" kimi izah edilir. F.B.Berezinin fikrincə, insan cəmiyyəti adaptiv xüsusiyyətlə bərabər özünə adaptasiya etdirən sistemə malikdir. İnsan təbiətində yenidən qurulma, bərpa olunma və yenidən tərbiyə kimi mühüm keyfiyyətlər vardır. Bu səpgidə fikirlərini davam etdirərək, o qeyd edir ki, adaptasiya "fərdlə ətraf mühit arasında optimal uyğunluğun qurulması prosesidir" [Березин, 1988:5].

Müxtəlif müəlliflərin adaptasiya anlayışına yanaşmasında fərqlər olsa da, məzmunu baxımından bu izahlar üç məsələni özündə ehtiva edir.

1.İnsanın yeni mühitə daxil olması;

2.Onun şərtlərinə uyğunlaşması;

3.Davranış üslublarının təbii mənimsənilməsi.

İzahların mahiyyətinə dərindən vardıqda məlum olur ki, adaptasiya passiv proses deyil. Məsələni bu konteksdən dəyərləndirəndə onun nəticələri diqqəti cəlb edir. Bu nəticələr ya pozitiv (orqanizm və psixikanın uğurlu vəhdəti), ya da neqativ (stress) məzmuna malik olur. Pozitiv olduqda davranış üslublarının təbii mənimsənilməsi, başqa sözlə desək, sosial intellektin inkişafı üçün müsbət mühit yaranır, neqativ olduqda isə əksinə, insanın sosial inkişaf imkanları məhdudlaşır.

Beləliklə, adaptasiyanı uşağın şəxsi və psixi keyfiyyətlərindən asılı olaraq fərdi reaksiyasını özündə ehtiva edən yeni şəraitə uyğunlaşması kimi dəyərləndirə bilərik. Başqa sözlə desək, adaptasiya yeni sosial münasibətlərə daxil olarkən qrupun digər üzvləri ilə əlaqələrin formalaşmasını özündə ehtiva edir. Bu zaman onun ətraf aləmi necə dərk etməsindən, hansı davranış mədəniyyətinə malik olmasından, qarşılaşdığı insanlara antipatiya və simpatiyasının yaranmasından asılı olaraq adaptasiya baş verir. Adaptasiya həm bioloji, həm də sosial konteksdə reallaşır. Sosial adaptasiya bioloji adaptasiya ilə müqayisədə həm daha mürəkkəb xarakter daşıyır, həm də daha ağır psixoloji fəsadlara malik ola bilir. İnsanın yeni mühitə sosial adaptasiya ola bilməməsi qrupda təcrid edilmiş uşaqların yaranması timsalında özünü daha aydın əks etdirir.

Sosial adaptasiya kiçik yaşlarında daha mühüm əhəmiyyət kəsb edir. İlk addımlarda yeni mühitə adaptasiya olmaq, həm də adaptasiya təcrübəsi əldə etmək deməkdir ki, gələcəkdə daxil olacağı yeni mühitlərdə bu təcrübə ona kömək reaksiyalarına çevrilə bilir, adaptasiya ola bilməmək isə onun gələcəkdə düşəcəyi yeni mühitlərdə daha böyük çətinliklərlə üz-üzə gələcəyinə təminat verir.

Hər bir uşağın fərdi-psixoloji keyfiyyətləri mövcuddur. Bəzi uşaqlar düşdüyü mühitə tez, bəziləri gec adaptasiya olunurlar. Gec adaptasiya olunan uşağın valideyni onun yeni mühitə məcburi yolla daxil olmasına "nail ola bilirlər". Bu zaman uşaq həmin mühitdə elə bir çətin vəziyyətə düşə bilir ki, bunun fəsadlarını sonrakı vaxtlarda öz gücü ilə aradan qaldıra bilmir, onlarda özünəqapanma müşahidə olunur. Əlbəttə bütün uşaqlarda sosial cəhətdən adaptasiya ola bilməmək eyni səviyyədə olmur. Yeni sosial şəraitə adaptasiya müxtəlif dərəcələrdə (yüngül -7-10 gün müddətinə, orta 20-40 gün ərzində, ağır – 2-6 ay müddətində, çox ağır – 6 aydan çox) baş verir. Bu uşaqların sosial intellektinin inkişaf səviyyəsindən asılıdır. Sosial intellektin inkişaf səviyyəsində müxtəliflik müxtəlif tədqiqatçılar tərəfindən fərqli qiymətləndirilir. H.Ayzenkin qənaətinə görə, fərdi fərqlər əsasən intellektin quruluşundakı fərqlərlə (o həm də bir çox digər

parametrləri ayırd edir) müəyyən edilir. R.Sternberq də bu fikirlə razılaşaraq, sosial intellektin sosial uyğunlaşma üçün İQ-dən istifadə edildiyini bildirir. R.Sternberqin əsərlərində intellektə sosial baxımdan faydalı uyğunlaşmanın təzahürü kimi baxılır [Стернберг, 2021:113].

Q.Ollport sosial intellektin quruluşunu "attidyüd" anlayışına əsasən izah edir. Sosial intellekti bu anlayış əsasında açıqlayarkən onun bir çox funksiyalara malik olduğu məlum olur. Onlardan ən əsası kimi aşağıdakıları ayırd edir: - şüurun və əsəb sisteminin xüsusi vəziyyətinin ifadə edilməsi; reaksiyaya hazırlığının müəyyən edilməsi; keçmiş təcrübə əsasında formalaşması; davranışa istiqamətləndirici və dinamik təsir göstəməsi. Göründüyü kimi, Ollport attityüddün keçmiş təcrübədən asılılığını və onun davranışda istiqamətverici rolunu aydınlaşdırır. Attityüd özünün mürəkkəb quruluşuna görə bir çox funksiyaları yerinə yetirir. Həmin funksiyalar üç-komponentli quruluşa görə ayırd edilir [Allport, 2013; Нарциссова, 2010: 344].

Koqnitiv komponent – sosial yönəliş obyektinin dərk edilməsi.

Davranış komponenti – obyektin münasibətinə uyğun davranış.

Affektiv komponent – obyektin emosional qiymətləndirilməsi, simpatiya, yaxud antipatiya hissinin təzahuru.

Uşağın bağça həyatına daxil olmasını Q.Ollportun təqdim etdiyi quruluşa əsasən təhlil edəndə, onun adaptasiya olmasının iki mühitin qovşağında aşağıdakı ziddiyyətlər fonunda baş verdiyi aydın olur:

1.Uşaq bağçaya gedərkən yeni uşaqlarla münasibətlər sisteminə daxil olur. Müasir dövrdə ailələrdə uşaqların sayının azalması, valideynlərin hər ikisinin işləməsi, onlayn ünsiyyət formasının aktuallaşması insanlarda ünsiyyət təlabatının ödənməməsi ilə bahəm, həm də sosial bacarıqların inkişafının zəifləməsinə səbəb olur. Bu amilə diqqət yetirməyən ailələrdə böyüyən uşaqda ünsiyyət qurmaq bacarıqlarının inkişaf etməməsi uşağın bağçaya gedərkən digər uşaqlarla ünsiyyətə daxil olmasını çətinləşdirir. Belə hallarda uşağın sosial bacarıqları ilə bağçada mövcud olan münasibətlər sistemini dərk etmə imkanları arasında ziddiyyət yaranır.

2. Bağçaya gedərkən uşağın ev şəraitində adət etdiyi gün rejimi dəyişir. Məlum olduğu kimi, evdə uşaq tam sərbəst olur, istədiyi vaxt oynayır, yemək yeyir, televizora baxır, telefonda müxtəlif onlayn oyunlar oynayır, hətta şıltaqlıq edir və s. Bağçada isə müxtəlif məşğələlər həyata keçirilir və həmin məşğələlərdə hamı bir nəfər kimi iştirak etməlidir. Evdəki mühitlə bağça mühiti arasında mövcud olan fərqləri uşağın necə qavraması, mövcud situasiyada tələb olunan davranış modellinin uşaq tərəfindən necə dərk edilməsi ilə real situasiyada tələb olunan zərurət arasında ziddiyyət adaptasiyaya mane olan amillərdən birinə çevrilir.

3.Bağça müəlliminin münasibəti, uşaqlara yanaşma metodikası evdə valideynin uşaqla ünsiyyət tərzindən köklü surətdə fərqlənir. Valideyn-uşaq münasibətləri doğmalıq hissi üzərində köklənir, bu ünsiyyətdə uşağın inkişafı haqqında düşüncələr güzəran səviyyəsi əsasında müəyyən olunur. Bağçada da doğmalıq hissi önəmli olur, lakin bağça müəllimi uşağın inkişafını elmi – pedaqoji tədqiqatların nəticələri əsasında təşkil edir. Məsələn, evdə uşağın qarşısına heç bir tələb qoyulmadığı halda, bağçada onun fəaliyyəti artan tələblər əsasında qurulur. Bu zaman müəllimi necə qavraması, ona necə münasibət bəsləməsi ilə tələb olunan münasibət arasında ziddiyyət həll edilmədikdə adaptasiya məsələsində çətinliklər yaranır.

4.Uşaq bağçaya gələnə qədər evdə bacı-qardaşı və qohum uşaqlarla ünsiyyətə daxil olur. Bu prosesdə valideynlərin səyi nəticəsində uşaqlarda bir-birlərinə simpatiya hissi formalaşır. Bağçaya gələrkən uşaq digər uşaqları ailəsində gördüyü uşaqlar kimi dəyərləndirir. Amma ünsiyyət prosesində uşağın bağça uşaqları ilə ünsiyyəti zamanı o ailədəki uşaqlarla ünsiyyət zamanı adət etmədiyi sosial normalarla rastlaşır. Bu onda bağçada rastlaşdığı uşaqlara antipatiyanın yaranmasını şərtləndirir. Beləliklə, bağça uşaqları ilə ailədəki uşaqların ona münasibəti arasında yaranan ziddiyyət onun fəaliyyətinin səmərəsini aşağı salır.

Bu istiqamətdə bağçaya yeni gələn uşaqların sosial adaptasiya olması üçün iki istiqamətdə işin görülməsi tələb olunur.

1. Bağçaya yeni gələn uşağın yeni mühitə adaptasiya olması üçün tərbiyəçi xüsusi səy göstərməlidir. Qrupa gələn təzə uşaqların həmişə diqqət və qayğıya ehtiyacı olur. Bir çox tədqiqatçılar [Гоулман, 2021; Белова, 2004] bunu əsas götürərək tərbiyəçinin uşağa fərdi yanaşmasını zəruri sayırlar. Fərdi yanaşma kontekstində bağçaya yeni gələn uşağa diqqət və qayğı onların yeni mühitə adaptasiyasını asanlaşdırır.

2. Uşağın bağçaya adaptasiyasının alternativ yolu kimi, bir çox tədqiqatçılar [Амонашвили, 2022; Кумарина, 2013; Мудрик, 2011; Ватулина, 1983] uşaqın bağçaya adaptasiyası üçün onun yeni mühitə hazırlanmasını məqsədəuyğun hesab edirlər. Uşağın yeni sosial mühitə hazırlanması sosial adaptasiyanı asanlaşdıra bilən amillərdən biridir.

**Tədqiqatın keçirilməsi**

Aparılan tədqiqatlar göstərir ki, stressi minimuma endirmək və adaptasiya mərhələsini daha rahat həyata keçirmək üçün uşağı bağça həyatına hazırlamaq, onda düşəcəyi yeni mühit haqqında ətraflı təsəvvür formalaşdırmaq zəruridir. Uşağın bağça həyatına hazırlanması valideyndən övladını tanımağı, onun şəxsi keyfiyyətlərindən və maraqlarından xəbərdar olmağı tələb edir. Övladının psixoloji keyfiyyətlərini bilmək bağçaya hazırlıq mərhələsində uşaqla işləmə strategiyasının müəyyən edilməsi baxımından mühümdür. Valideynlərin övladını bağçaya necə hazırladıqlarını müəyyən etmək üçün biz uşaq bağçasında anket sorğusu keçirdik. Məqsədimiz valideynlərin uşağı bağça həyatına hazırlama səviyyələrini müəyyən etmək idi.

"Uşağı bağçaya gətirmək üçün onunla müəyyən hazırlıq işləri həyata keçirmişiniz?" sualına sorğuda iştirak edən 48 valideynin 20 nəfəri müsbət, 28 nəfəri isə mənfi cavab verdi. Mənfi cavab verən valideynlərin bir qismi müsahibə zamanı "bağça məgər məktəb və ya universitetdir ki, onları hazırlayaq?" kimi fikirlər söylədilər. Bu onu göstərir ki, valideynlər bu barədə məlumatsızdırlar.

"Uşağın psixoloji keyfiyyətləri haqqında nə bilirsiniz?" sualına isə 39 nəfər valideyn pərakəndə və ümumiləşdirilmiş ("ağıllıdır", "sözə baxandır", "nadincdir" və s.) cavablar verdilər. Yalnız 9 valideyn uşağının psixoloji keyfiyyətləri barədə nisbətən ətraflı məlumat verdilər.

"Uşağınız bağçaya həvəslə gəlir?" sualına isə valideynlərin 30 nəfəri müsbət, 18 nəfəri isə mənfi cavab verdilər. Bu üç suala aldığımız cavablar bir-biri ilə ziddiyyət təşkil edirdi. Cəmi 29 valideynin uşağını bağçaya hazırlamasına, 9 nəfərin isə övladının psixoloji keyfiyyətləri haqqında məlumatlı olması ilə bərabər yalnız 18 uşağın bağçaya həvəslə gəlməməsi o qədər də məntiqli görünmür. Buna görə əldə etdiyimiz məlumatları dəqiqləşdirmək üçün nəticələri bağça müəllimi ilə təhlil etdik. Təhlillər nəticəsində daha iki uşağın bağçaya həvəssiz gəldiyi məlum oldu. Dəqiqləşdirmədən sonra, əldə etdiyimiz məlumatlar əsasında uşaqları iki qrupa ayırdıq: - "bağçaya yaxşı adaptasiya olunmuş" və "adaptasiyada çətinlik çəkənlər".

Göründüyü kimi, Azərbaycanda bütün sahələrdə olduğu kimi, sosial sferada da ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra köklü dəyişikliklər baş vermişdir. Keçid dövrünün neqativ təsirlərindən əhalinin, xüsusi ilə də az təminatlı əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması məqsədilə ulu öndər Heydər Əliyev 1994-cü ilin 15 iyun tarixində "Əhalinin

sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında" Fərman, Fərmandan irəli gələn vəzifələrin daha səmərəli yerinə yetirilməsi üçün "Əhalinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" sənəd imzalamışdır. Daha sonra qeyd etmək lazımdır ki, 1995-ci ildə ümummilli liderin birbaşa müəllifliyi ilə hazırlanmış Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi. Qəbul edilmiş yeni Konsstitusiyanın 16-cı maddəsində Azərbaycan dövlətinin xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsinin, onun sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin qayğısına qalması xüsusi olaraq təsbit olunmuşdur.

Qeyd etmək lazımdır ki, Azərbaaycan Republikasında sosial dövlət modelinin ikişaf etdirilməsi və təkmilləşdidirlməsi istiamətində ciddi işlər görülmüşdür.

İlham Əliyevin tapşırıq və sərəncamları Azərbaycanın inkişaf yolunda dayanmadan, sürətlə irəliləməsinə; vətəndaşın sosial yükünün azalmasına, xalqın rahat, firəvan həyata qovuşmasına xidmət edir. Deyilənləri ölkədə yoxsulluq səviyyəsini minmum səviyyəyə (5-6%) endirilməsi, nominal əmək haqqları və pensiyaların yüksəldilməsi, əhaliyə göstərilən təhsil, tibbi və digər sosial xidmətlərin səviyyəsinin yüksəldilməsi, əhalinin mənzil təminatının yaxşılaşdırılması və s. sübut edir. Müasir ədəbiyyatlarda İlham Əliyevin sosial islahatlarının dördüncü mərhələsi kimi dəyərlənirilir. Bu mərhələ sosial dövlət prinsiplərinin tam bərqərar olması ilə diqqəti cəlb edir [https://azerbaijan-news.az/az/posts/detail/ilham-eliyevin-sosial-islahatlarinin-iv-merhelesi-1673902637].

Daha sonra deyilən fikri faktlar nəzərdən keçirilərkən bir daha müşahidə etmək olar. Cənab ilham Əliyevin Azərbaycan Republikasının Prezidenti kimi hakimiyyətinin ilk illərində, yəni beş il ərzində (2003-2008-ci illər) ölkədə vəd olunan 600 min iş yeri əvəzində 900 min yeni iş yeri açıldı ki, bunun da 700 mini daimi iş yerləri idi. Əhalinin məşğulluğunun təminatı sonrakı illərdə də dövlət başçısının diqqəti mərkəzibdə oldu və bu illər ərzində ölkədə 1 milyon 800 mini daimi olmaqla 2 milyon yeni iş yeri açıldı. İşsizlik on dəfə aşağı düşdü. Heç də təsadüfi deyildir ki, ölkəmiz işsizlik göstəricisinə görə dünyada ən öndə gedən ölkələrdən biridir. 2003-cü ildən bu günə qədər ölkədə minimum əmək haqqı 10 dəfədən çox artmış, 2019-cu ildən isə minimum əmək haqqı 250 manat olmaqla yaşayış minimumunu (190 manat) 31.5% üstələmişdir [https://az.trend.az/azerbaijan/politics/3354619.html].

Sosial sferanın bütün sahələrində xalqın rifahının yaxşılaşdırılmsı istiqamətində tədbirlər kompleksi reallaşdırıldı. Bütün bunlar müstəqil Azərbaycan dövləini sosialyönümlü siyasət yürüdən, sosial dövlət kimi xarakterizə etməyə imkan verir. İdeoloji əsasları Azərbaycançılıq ideyalarına əsaslanan mövcud sosial dövlət modelini sosial dövlətin Azərbaycan modeli kimi xarakterizə etməyə imkan yaradır.

**Tədqiqatı nəticəsi**

Müasir dövrdə Azərbaycan Republikasında təşəkkül tapmış sosial dövlət modeli xüsusi model kimi dəyərləndirilə bilər. Həmin model tipində sosial demokrat modeli ilə liberal modelin elementləri diqqəti cəlb edir. Tədqiqatın nəticələri sosial dövlət ilə əlaqədar nəzəri-praktiki əhəmiyyət kəsb edən elmi müddəaları müaviq tədris kurslarının təşkili zamanı istifdə edilə bilər.

**Ədəbiyyat:**

*Quliyev, M.* (2014). Azərbaycan sosial dövlət modeli //http://anl.az/down/meqale/ses/2014/aprel/364113.htm

*Məmmədova, S.* (2017). Azərbaycanda sosial dövlətin formalaşmasının nəzəri-ideodoloji əsasları, Dövlət və Din - № 06 (53) Noyabr - Dekabr, s.21 (21-29).

*Дроздова, А.М.* (2023). Некоторые аспекты соотношения общества и государства на современном этапе // Юридический вестник Чешского государственного университета. №2. URL: https://cyberleninka.ru/article/n/nekotorye-aspekty-sootnosheniya-obschestva-i-gosudarstva-na-sovremennom-etape .

*Кочеткова, Л.Н.* (2008). Теория социального государства Лоренса фон Штейна // Филофофия и общество. №3, с.69-78. URL: https://cyberleninka.ru/article/n/teoriya-sotsialnogo-gosudarstva-lorentsa-fon-shteyna

https://azerbaijan-news.az/az/posts/detail/ilham-eliyevin-sosial-islahatlarinin-iv-merhelesi-1673902637

https://az.trend.az/azerbaijan/politics/3354619.html

# STUDENTS TOTHE WORLD OF PROFESSIONAL VALUES AND THE ROLE OF SOCIAL INTELLIGENCE IN THE FULLNESS

**Umida Aliboevna BUTAYEVA**
Uzbekistan-Finland Pedagogical Institute,
Doctor of Philosophy in Psychology,
Associate Professor of Psychology Department,
*Uzbekistan, SAMARKAND*
botayeva83@mail.ru

**SUMMARY**

The person driving force for the progress of the maturation of the values and directions sosial intelligence as a determinant of subjective and objective scientific and practical researches and study the spectrum of an actual profession. The main essence will help the person to observe the directions of the structure values. Because the individual values, social relations, social requirements, lifestyle, around-connection to the universe, a personal position, the purpose of life, material and spiritual needs, business outlook and fulfilled in life reflects in the components of social intelligence.

**Key words:** person, student, youth movement, occupation, intelligence, sosial intelect, target values, professional formation.

# СТУДЕНТЫ В МИРЕ ПРОФЕССИОНАЛЬНЫХ ЦЕННОСТЕЙ И РОЛЬ СОЦИАЛЬНОГО ИНТЕЛЛЕКТА

**Умида Алибоевна БУТАЕВА**
Узбекистано-Финский педагогический институт,
Доктор философии по психологии,
Доцент кафедры психологии,
*Узбекистан, САМАРКАНД*
botayeva83@mail.ru

**Аннотация**

Личность - движущая сила для прогресса, созревания ценностей и направлений социального интеллекта как детерминанты субъективных и объективных научных и практических исследований и изучения спектра актуальной профессии. Основная сущность социального интеллекта - помогать человеку наблюдать за направлениям структуры ценностей, так как индивидуальные ценности, социальные отношения, социальные потребности, образ жизни, связь со вселенной, личная позиция, цель жизни, материальные и духовные потребности, деловые перспективы и их реализация в жизнь отражаются в компонентах социального интеллекта.

**Ключевые слова:** личность, студент, молодежное движение, профессия, интеллект, социальный интеллект, ценностные установки, профессиональное становление.

## Relevance of the topic

In the case that the object contains a number of human subjects of research, compact, sosiobiologik aspects in a holistic way and to learn from it worthwhile to imagine sosial. The world of education today kompetentsiyaviy approach on the basis of the fullness of the person and provide

them to the sphere of professional activity in topical issues of the development of social intelligence research by creating a healthy environment as one of the priorities being.

*Education of individuals in different age periods, take the master of professional work in different periods of development with the level of intelligence sosial there is no contradiction among the determinant of the following:*

• increase the level of his intellectual activity of the person and the fullness sosial;

• the structure of the phenomenon of man's intellectual activity appeared sosial and his appointing of psychological barriers result in complex matters;

• the formation and maturation of new types of personality in the modern life of the individual've sosial be a manifestation of intellectual activity and the lack of scientific approach based on the study of psychological development;

• for the early detection of the intellectual activity of the person sosial kontsepsiya the necessity to develop its theoretical and methodological basis of the set, the person the high level of psychological support in the development of experimental creation of the program;

• sosial tipologiya of his intellectual activity of the person, taking into account the psychological and pedagogical support of age and sex of the development of scientific and methodical to the practice of the lack of support.

**Method and methodology**

Our students sosial values intelligence and rely on their professional and personal factors determines the formation of their position and their vital role in the research of psychological features to clarify the goal we have set.

As it is known, the values of the person occupies one of leading places in the psychological structure of the individual. For this reason the professional activity of students of the professional features of the individual values for appropriate and professional maturity arises from the need to determine the location. This position identities as students find account the orientation of specialist to determine what values should be found. To do this, "Values in the direction of" questionnaires were learned by students. The methods of the theory of this technique is that the person committed on M.Rokichning critique and Russian scientists on values I will.G.You organizes thoughts.

Dj.Gilford and m.Sallivenning “the diagnosis of social intelligence” methods to use led. This test not only the general level of development of social intelligence, as well as the people of the hulk-yield the results you see beforehand; the ratio of the reflected express verbal and noverbal coming; shaxslararo and executive abilities to learn complex situation in an analysis of mutual ta'sirlashuv infringement is intended.

**Conclusions and recommendations**

1.The obtained data of students, future specialists of social intelligence on the type of occupations suggest that the development of active components sosial.

2.Certain relationships among students research conducted with values on the results of targeted vositali if there are values, they can supplement each other.

3.Students in the professional values of their social intelligence with a positive connection has. Talaba of professional development for which the area of interest to a clear expression as they should would be. Their indicators drastic in the sense that the targetli values with social intelligence between high - level bog'lanish and the relationship of the place takedid. Statistical indicators while students of social intelligence, personal values with the combination of thisshgan situations expressing gave. However some importance possess indicators that there arethem of students, professionals as the formation for professional interaction likely a full justify can't.

4.The sad side is in demand asit was many years ago with the values of social intelletlbee taking a more negative relationship between the level of reliability in the condition at birth and able to korrelyativ koeffisienti represents.

5. Nevertheless, the survey results obtained on your career prospects of students and our professional viewthis intelligence sosial thoughts I with valuesin between settings I have found its confirmation in korrelyativ koeffisienti. They have high values of the material of interest “in the higher prestige” (r= 0,308, P<0,01), “to work on their own” (r= 0,139, P<0.05 up to), “Mental content” (r= 0,486, P<0,01), with positive directions of the relationship korrelyativ form. However, this relevant it is noteworthy that at the level of statistics is insignificant. The purpose of the person with the idea was put between perform much only variations are observed. Exactly what today's students of the day in terms of the problem likely in the profession of Dj.Kelli tied to the three phases of effective activity of the person tied with the idea of konstruktlari psychologist can be explained. Manners suitable to the direction of the man himself chooses. Actions in this direction three phases, that is, to get a reference point, to choose from and is executed. These students have experienced three stages of professional formation and development, but from the stage of the line, which is at the level of their action is not required. This improvement of social intelligence that should be eo'rsatadi.

6.The results of the survey shows, the form of its professional ijtimoiylashuv extend criteria in the process, we self, social relationships, and life satisfaction from work is represented in social intelligence, the determinant ofI's compatibility varies depending on the degree of external factors.

The person the fullness of professional improvement of social relations, and quality of life strategy is an important factor of the features.

7. The success of the educational activities of the research and professional values and social intelligence that means one of the determining factors of professional self will allow you to determine. His professional students in high maturation indicators, early this professionalzini himself, to realize high neck indicator of business educationfor students xarakterliki is present.

## Literature:

*Avlaev, O. U. & Mamatkulova, Z. G.* (2019). The interpersonal relationship of the dynamic components of social intelligence of students. Science and education today, (12 (47)).

*Avlaev, O., Butaeva, U.* (2021). Determinant of personal Psychological development. Scientific-methodical journal of public education. № 6 pages 87-92.

*Butaeva, U., Avlaev, O., Abdumannotova ,N.* (2020). Psychological maturity of scientific and practical studies of the students./ Journal of critical reviews. Is jc. 2020; 7 (12): 3063-3070 provinces: 10.31838 / jc is.07.12.463

*Burkhanov, A., Avlaev, O., Abdujalilov, In Sh.* (2021). As a criterion for determining personal Responsibility / maturity / E3S Web of conferences 2021.

*Русалов, В. М.* Зрелость психологическая: единая или множественная характеристика? / В.М. Русалов // Психологический журнал.. – 2006. – № 5. – S. 83-97.

# MƏDƏNİ İDENTİKLİK PROBLEMİNİN TƏDQİQİ MƏSƏLƏLƏRİNƏ DAİR

**Rəna QƏDİROVA**
Bakı Dövlət Universiteti,
Psixologiya kafedrasının professoru,
psixologiya üzrə elmlər doktoru,
*Azərbaycan, BAKI*
rena_kadirova@yahoo.com

**Təranə BABAYEVA**
Bakı Dövlət Universiteti,
Psixologiya kafedrasının dosenti,
psixologiya üzrə fəlsəfə doktoru,
*Azərbaycan, BAKI*
tt_babayeva@mail.ru

**Aida MİRZƏYEVA**
Bakı Dövlət Universiteti,
Psixologiya kafedrasının baş müəllimi,
psixologiya üzrə fəlsəfə doktoru,
*Azərbaycan, BAKI*
aidakazimqizi@rambler.ru

**XÜLASƏ**

Müasir dövrdə müxtəlif elm sahələinin tədqiq etdiyi mövzulardan birini identiklik problemi təşkil edir. Son dörlərdə qloballaşma ilə əlaqədar olaraq şəxsi və sosial identikliklə bərabər mədəni və multikultural identikliyin tədqiqi xüsusi aktuallıq kəsb edir. Mədəni identiklik kommunukativ seçim əsasında formalaşır və xalqın mədəniyyətlə eyniliyini müəyyən edir.

**Açar sözlər**: identiklik, mədəni identiklik, multikultural identiklik, mədəniyyətlərarası kommunikasiya.

# ON THE RESEARCH ISSUES OF THE PROBLEM OF CULTURAL IDENTITY

**Rana KADIROVA**
Baku State University,
Professor of the Department of Psychology, Doctor of Sciences in Psychology,
*Azerbaijan, BAKU*
rena_kadirova@yahoo.com

**Tarana BABAYEVA**
Baku State University,
Associate Professor of the Department of Psychology, Doctor of Philosophy in Psychology,
Azerbaijan, BAKU
tt_babayeva@mail.ru

**Aida MIRZAYEVA**
Baku State University,
Head teacher of the Department of Psychology, Doctor of Philosophy in Psychology,
*Azerbaijan, BAKU*
aidakazimgizi@rambler.ru

**SUMMARY**

The problem of identity has been in the focus of the attention of researchers in various scientific fields for more than a decade. However, in recent years, in the context of globalization, cultural and multicultural identity has become an increasingly popular area of study, along with personal and social identity.

Cultural identity is a flexible concept that includes related identities, is defined by communicative choice, and determines the sense of identity with the culture of the people.

**Key words:** identity, cultural identity, multicultural identity, intercultural communication.

Müasir dövrdə müxtəlif elm sahələrinin tədqiq etdiyi mövzulardan birini identiklik problemi təşkil edir. Heç şübhəsiz, qlobalaşma ilə bağlı baş verən proseslər cəmiyyətdə bir sıra qaçılmaz və qarşısıalınmaz dəyişikliklərin yaranmasına gətirib çıxara bilir, belə ki, müasir dövrdə mədəniyyətlərarası qarşılıqlı təsirin artması, kommunikasiyanın genişlənməsi diqqət yetirilməsi, araşdırılması vacib olan bir sıra problemlərə yol aça bilir. Dəyərlərin universalizasiyası, cəmiyyətdə şəxsi identikliyin itirilmə təhlükəsi də belə problemlərdəndir. Bu baxımdan qeyd edilən problemlərə, xüsusən də identiklik probleminə diqqətin artırılması heç də təsadüfi xarakter daşımır. Son dörlərdə qloballaşma ilə əlaqədar olaraq şəxsi və sosial identikliklə bərabər mədəni və multikultural identikliyin tədqiqi də xüsusi aktuallıq kəsb edir.

Mədəni identiklik problemi bir çox elm sahələrinin tədqiqat mövzusunu təşkil edir, filosoflar, sosioloqlar, politololar, psixoloqlar tərəfindən araşdırılır, bu da təsadüfi xarakter daşımır və tədqiqat obyektinin mürəkkəbliyi və onu müxtəlif aspektlərdən nəzərdən keçirmənin vacibliyini tələb etməsi ilə əlaqədardır.

İlk öncə mədəni identikliyin roluna dair müxtəlif yanaşmaların mövcud olması diqqəti cəlb edir. Elmi ədəbiyyatda mədəni identikliyin tədqiqinə dair vahid yanaşmanın mövcud olmaması artıq qeyd edildiyi kimi onun mürəkkəbliyi ilə əlaqədardır. Qeyd etmək olar ki, bəzi tədqiqatçılar mədəni identikliyi şəxsi identikliyin əsas elementi hesab ediblər (İ.Kon), digər tədqiqatçılar onu sosial identikliyin aspektlərindən biri kimi nəzərdən keçiriblər. Ümumilikdə problemin tədqiqinə dair mövcud konsepsiyalar üç əsas yanaşma tərzi ilə seçilir: bəşəri, şəxsi və sosioloji.

Birinci yanaşma sivilizasiyanı mədəni identikliyin sosiomədəni tarixi subyekti kimi nəzədən keçirir. Bu yanaşmalada toplumun mədəni əlamətlərinin müəyyənləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Şəxsi yanaşma mədəni identikliyin təşəkkülünü fərdi mədəni identifikasiyanın nəticəsi kimi nəzərdən keçir. Bu yanaşmada konkret şəxsiyyətin mədəni norma və davranış nümunələrini mənimsəməsi prosesi, obyektiv ictimai şüur formalarına münasibəti tədqiq edilir.

Sosioloji yanaşmada ideoloji proseslərlə şərtlənən şəxsi və qrup identikliyi arasındakı qarşılıqlı münasibətlərə diqqət yetirilir. Bu yanaşmalarda şəxsi və kollektiv identikliyin qarşılıqlı münasibətləri tədqiq edilir, ictimaiyyət və dövlətin şəxsiyyətə təsirinin effektivliyi müəyyən edilir, həmçinin şəxsiyyətin bu təsirə reaksiyası təhlil edilir. Qeyd edilən yanaşmalar problemə yanaşmalarındakı fərqliliyi ilə seçilsələr də bir-biri ilə qarşılıqlı əlaqəlidir və onları birləşdirən əsas cəhət ondan ibarətdir ki, bütün yanaşmalarda mədəni identiklik insanın özünü konkret mədəniyyət nümunələri ilə eyniləşdirməsi yolu ilə müəyyən bir mədəniyyətə mənsubiyyətini dərk edilməsi kimi qəbul edilir.

Psixologiyada identiklik anlayışının tədqiqi E.Eriksonun adı ilə bağlıdır. Erikson identiklik anlayışını "Subyektiv və tamlıq, bütövlük hissi" kimi təqdim edir [Эриксон, 1996:28]. Hər dəfə "Mən kiməm?», "Mən niyə mövcudam?" suallarına cavab axtaranda insan identikliyə müraciət edir. Psixoloqun fikrincə inkişaf prosesində identiklik bır sıra böhran dövrlərindən keçir və hər bir dövrdə yeni məzmun kəsb edir. Bu proses yalnız digər insanlarla qarşılıqlı əlaqə və ünsiyyət zəminində mümkün olur. Ətraf aləm, cəmiyyət, mühit şəxsiyyətin öz identikliyini anlamağına kömək edən vasitə kimi çıxış edir. E Erikson yazır – "identiklik "qələbə" nəticəsində "əldə etdikləri" deyil, ad-sanı, nüfuzu deyil, statik və dəyişməz deyildir" [Эриксон, 1996:33]. İdentiklik insanın "indiki anda həm onu əhatə edənləri əks etirməsi və müşahidə"si prosesində formalaşır. Bu zaman insan özünü başqasının nöqteyi-nəzərindən qiymətləndirir, "başqa insanların onun haqqında nə düşünmələrini, həmçinin onlarla, onun üçün əhəmiyyətli olan insanlarla müqayisədə özünün özünü necə qavramasını qiymətləndirir" [Эриксон, 1996:32]. Mədəni identklik insanın məruz qaldığı müxtəlif mədəni təsirlər nəticəsində, mədəniyyətlə qarşılıqlı təsir prosesində formalaşır. Əgər mədəni təsir heç bir ziddiyyətlə üzləşmirsə bu zaman onu əhatə edən mədəniyyətlə şəxsiyyətin tam identifikasiyası baş verir. Bir sözlə, identiklik başqa insanlarla birlik və həmrəylik nəticəsində yaranır və insana öz həyatını qaydaya salması, nizamlaması üçün vacibdir. Qloballaşma dövründə məhz identiklik şəxsiyyətin milli, sosiomədəni və fərdi komponentlərinin sabitliyini təmin edir. İnsanda özü haqqında sabit təsəvvürlərin formalaşması bir tərəfdən cəmiyyətin üzvü kimi, digər tərəfdən xalqının mədəniyyəti ilə eynilik hissi ona qlobal dünyanın çoxmillətli sahəsində yerini müəyyənləşdirməsinə imkan verir.

Mədəni identikliklik tədqiqatçıların elmi maraqlarından və mədəni identikliyin mahiyyəti haqqında əsas baxışlarından asılı olaraq müxtəlif aspektlərdən şərh olunur. Mədəniyyətlərarası kommunikasiya sahəsinə istiqamətlənmiş alimlərin fikricə mədəni identiklik termini şəxsi identiklik, milli, irqi, etnik mənsubiyyət, regional identiklik, etnolinqvistik identiklıiyi özünə daxil edən çevik bir konstrukt qismində çıxış edir. Mədəni identiklik mahiyyət etibarilə çoxşaxəli olub kommunikativ seçim, davranış və razılaşmalar, xüsusən də mədəniyyətlərarası qarşılıqlı təsir çərçivəsində formalaşır.

Qruplararası və mədəniyyətlərarası ünsiyyət sahəsindəki tədqiqatçılarının mədəni identiklik, onun formalaşmasına dair elmi yanaşmalarını təhlil edən Şin və Cekson (2003) belə bir nəticəyə gəlirlər ki, mədəni identikliyin təşəkkülü prosesində etnik və etnolinqvistik identiklik aparıcı rola malikdir. Digər tədqiqatçılar mədəniyyətlərarası kommunikasiya sahəsindəki tədqiqatlarda irqi identikliyin əhəmiyyətini vurğulayırlar [Moon & Holling, 2015; Nakayama & Martin, 1999]. Yanaşmalarında fərqin olmasına baxmayaraq mədəni identiklik həm fərdi, həm də sosial identiklik kimi başa düşülür.

Eyni zamanda mədəni identiklik müxtəlif tarixi dövrlərdə də fərqli aspektlərdən izah edilib. Müasir dövrdə mədəni identiklik probleminin tədqiqində mədəniyyətlərarası kommunikasiya sahəsinə daha çox diqqət yetirilir [Kim, 2007]. Amerikalı alim Kim mədəni identikliyə dair müxtəlif konsepsiyaları təlil edərək öz yanaşmasında mədəni identikliyi üç anlamda təqdim edir. Birincisi, mədəni identiklik həm fərdi, sosial kateqoriya, həm də kommunikativ təcrübə sistemidir. İkincisi, mədəni identiklik həm fərdi seçimin, həm də qrupa mənsub olmanın nəticəsidir. Üçüncüsü, mədəni identiklik adaptiv, inkişaf edən, daimi qarşılıqlı təsirin məhsuludur [Kim, 2007].

Beləliklə, psixologiyada mədəni identiklik dedikdə insanın şüurlu surətdə müvafiq mədəni normaları, davranış nümunələrini, dəyərləri və dili qəbul etməsi, özünü konkret cəmiyyətin mədəniyyət nümunələri ilə eyniləşdirərək dərk etməsi başa düşülür. Hər bir insan kiçik yaşlardan başlayaraq öz xalqının milli-mənəvi dəyərlərini, davranış nümunələrini, mədəni adət-ənənələrini mənmsəyərək şəxsiyyət kimi inkişaf edir. Beləliklə, mədəniyyət insanın psixi həyatına nüfuz edərək bütünlüklə onun davranışını, həyata baxışını, həyat tərzini, bir sözlə, şəxsiyyətin psixi simasını müəyyən edir. Bu baxımdan hər bir insanın nəinki öz xalqının milli-mənəvi dəyərlərini, mədəniyyət nümunələrini mənimsəməsi, davranışını bunlara uyğun olaraq tənzimləməsi, eyni zamanda özünü öz mədəniyyət nümunələri ilə eyniləşdirməsi xüsusi əhəmiyyət kəsb edir. Belə ki, məhz mədəni identiklik insanın bir şəxsiyyət kimi özünü təyininin, təsdiqinin və tamlığının milli, sosiomədəni, fərdi komponentlərin sabitliyini müəyyən edir. İnsanda həm cəmiyyətin bir üzvü kimi özü haqqında sabit təsəvvürlərin formalaşması, digər tərəfdən xalqın mədəniyyətilə eyniliyi hissi ona çox millətli qlobal dünyada öz yeri və rolunu müəyyənləşdirməsinə imkan verir.

Qloballaşmanın mədəni identikliyə təsiri nəticəsində yaranan multikulturtal identiklik isə müasir dövrdə fərdə öz mədəniyyətindən kənara çıxmağa, özünü "dünyanın insanı" olduğunu, yeni mədəni mühitdə yad olmadığını hiss etməsinə imkan verir.

Multikulturalizm insanın iki və daha çox mədəniyyəti mənimsəməsi zamanı qazandığı qarşılıqlı təsir təcrübəsi kimi müəyyən edilə bilər. Bu zaman multikulturalizm anlayışının mürək-kəb və ən vacib komponentlərindən biri olan multikultural identiklik insanın iki və daha çox mədə-niyyətlə tanışlığı, onu öyənməsi deyil, başqa mədəniyyətlərlə tanış olan insanın bu mədəniyyətə bağlılığı və loyallığı zamanı özünü biruzə verir. Multikultural identiklik milli-mənəvi dəyərlərini, mədəniyyət nümunələrini mənimsəyib, qoruyub, gənc nəslə ötürməyə çalışan yaşlı nəsildən fərqli olaraq formalaşmaqda olan gənc nəslə daha çox xarakterikdir. Araşdırmalar nətcəsində məlum olmuşdur ki, multikultural identikliklіyə malik olan insanlar yeni şəraitə daha asan daxil olur, adaptasiya olunurlar, yaradıcılığa açıq olurlar, başqa sözlə, yenilik və inkişaf üçün vacib olan imkanlara malikdirlər.

Amma qeyd edildiyi kimi insanların əksəriyyətində, xüsusən də yaşlı nəslin nümayən-dələrində öz mədəniyyətini, öz mədəni adət-ənənələrini, dəyərlərini qoruyub saxlamaq cəhdi daha çox üstünlük təşkil edir. Bu isə mədəniyyət nümunələrinin, milli-mənəvi dəyərərinin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından xüsusilə əhəmiyyətlidir. Zənnimizcə, öz mədəni adət və ənənələrini, milli-mənəvi dəyərlərni qoruyub saxlamaq, eyni zamanda fərqli mədəniyyətə mənsub olan xalqlara hörmətlə yanaşmaq, tolerantlıq müasir dövrdə mədəni identikliyin əsasını təşkil etməlidir. Mədəni identiklik insanlar arasında ayrı-seçkilik deyil, birləşdirici mexanizm olmalıdır.

## Литература:

*Егоршина, Н.В.* (2002). Нарративный дискурс: Семиологический и лингвокультурологический аспекты интерпретации: дис. д-ра филол. наук. Тверь, 307 с.

*Сыров, В.Н.* (1999). Нарративное производство и современное социальное познание // В.Н. Сыров Социальное знание в поисках идентичности. Фундаментальные стратегии социогуманитарного знания в контексте развития современной науки и философии. - Томск: Водолей, С.20-26.

*Эриксон, Э.* (1996). Идентичность: юность и кризис. Изд. Прогресс, 344с. (с.28).

*Angela-Minh, Tu D. & Nguyen, Verónica Benet-Martínez*. (2010). Multicultural Identity: What It Is and Why It Matters. Article. July.

*Kim, Y.Y.* (2007). Ideology, Identity, and Intercultural Communication: An Analysis of Differing Academic Conceptions of Cultural Identity. Journal of Intercultural Communication Research, 36(3), P.237–253.

*Minakova, L.Yu. & Gural, S.K.* (2015). The Situational Context Effect in Non-Language-Majoring, EFL Students' Meaning Comprehension // Procedia – Social and Behavioral Sciences. Vol.200. P.62–68.

*Moon, D.G., & Holling, M.A.* (2015). A Politic of Disruption: Race(ing) Intercultural Communication. Journal of International and Intercultural. 8(1), P.1–6. Identity. (2007). Journal of Intercultural Communication Research, 36(3), P.237–253.

# STRESS VƏ POSTTRAVMATİK STRESS POZUNTUSUNUN ƏSAS ƏLAMƏTLƏRİ

**Büşra ÖZTÜRK**
Bakı Dövlət Universiteti,
Psixologiya kafedrasının magistrantı
*Azərbaycan, BAKI (Türkiyə)*
busra190535@gmail.com

## XÜLASƏ

Stress həyatımızın bir çox sahəsində qarşılaşa biləcəyimiz və hər insana fərqli təsir edən bir vəziyyətdir. Stress hər insanda təsir etdiyi müddət və şiddətdən asılı olaraq dəyişə bilər. Stressin müsbət ve mənfi tərəfləri vardır. Bu cür müsbət və mənfi olması onun müddətindən və bizə nə dərəcədə təsir etməsindən asılıdır. Stressə nəzarət etməyi öyrənmək, onunla bir yerdə gələn mənfi amillər və xəstəliklerin öhdəsindən gəlməyə kömək edir. Yəni, posttravmatik stress pozuntusu təbii fəlakətlər, sel, yanğın, zəlzələ və ya yol qəzaları, şiddət, fiziki və cinsi təcavüz kimi hadisələr nəticəsində birdən-birə yaxud insanların qorxu, narahatlıq, ümidsizlik, hiss etdiyi vəziyyətlərdə yarana bilər. Pis hadisənin travmatik təsir göstərməsi üçün hadisə gözlənilmədən baş verməlidir. Posttravmatik stress pozuntusunun simptomları şəxslərdə məruz qalma müddətindən asılı olaraq fərqlənə bilər. Bəzi insanlarda stress pozuntusu hadisədən qısa müddət sonra inkişaf edərkən, bəzilərində uzun müddət sonra baş verə biler və əlamətləri bəzən travma sonrası qısa müddət ərzində aradan qalxsa da, bəzən uzun illər davam edə bilər. Bu insanların travmaya necə reaksiya verməsi və travmanın mürəkkəb nəticələri ilə bağlıdır.

**Açar sözlər:** travma, narahatlıq, stress, simptom, xəstəlik.

# MAIN SYMPTOMS OF STRESS AND POST-TRAUMATIC STRESS DISORDER

**Bushra OZTURK**
Baku State University,
Graduate student of the Department of Psychology
*Azerbaijan, BAKU (Turkey)*
busra190535@gmail.com

## SUMMARY

Stress is a condition that we can face in many areas of our lives and affects each person differently. Stress can vary from person to person depending on the duration and severity of its effects. stress has positive and negative aspects. Whether it is positive or negative depends on its duration and how much it affects us. Learning how to control stress helps to overcome the negative factors and diseases that come with stress. In other words, post-traumatic stress disorder can arise suddenly as a result of events such as natural disasters, floods, fires, earthquakes or traffic accidents, violence, physical and sexual aggression, or in situations where people feel fear, anxiety, despair. For a bad event to have a traumatic effect, the event must occur unexpectedly. Symptoms of post-traumatic stress disorder can vary among individuals depending on the duration of exposure. While some people develop stress disorder shortly after the event, others can develop it long after, and the symptoms sometimes go away shortly after the trauma, but sometimes they can last for many years. It is about how people react to trauma and the complex consequences of trauma.

**Key words :** trauma, anxiety, stress, symptom, illness.

Hazırki dövrdə bir çox insanlar stress yaşayır və stress yaşadıqlarının fərqində olmur. Hər kəs müxtəlif növ stress yaşayır və onların stresə dözümlülük səviyyələri fərqlidir. Fiziki və sosial mühitdə uyğun olmayan şərtlər üzündən bir insanın fiziki və psixoloji hüdudlarını aşaraq sərf etdiyi səyə "stress" deyilir. İnsan streslə qarşılaşdıqda, özünü təkmilləşdirmək və inkişaf etdirmək üçün stresdən bir tətik kimi istifadə edə bilər. Belə bir vəziyyətdə stressin müsbət təsirlərini müşahidə etmək olar. Məsələn, stress idarə olunmayanda bizim üçün böyük problem olsa da, idarə olunduğunda motivasiya mənbəyimiz və ən böyük silahımız ola bilər. Stressin bizim üçün faydalı olmasını istəyiriksə, stresə nəzarət etməyi öyrənməliyik. Stress bizi yox, biz stressi idarə etməliyik. Son zamanlar aparılan tədqiqatlar nəticəsində stresslə bağlı yeni bir anlayış olan müsbət stress həyatımıza daxil olmuşdur.

Müəyyən bir həddi aşmayan, yəni qısa müddət ərzində və az intensivliklə yaşanan müsbət stress həyatımızda dağıdıcı təsirdən çox problemlərin öhdəsindən gəlməyə kömək edən bir qüvvə kimi ortaya çıxır. Stress zamanı bədənimiz tərəfindən ifraz olunan hormonlar əslində bir çox funksiyalarımızı gücləndirən, koqnitiv və fiziki performansımızı artıran xüsusiyyətlərə malikdir. Məsələn, stress zamanı ifraz olunan adrenalin enerjimizi artırır və hərəkət etməyimizi təmin edir. Yeni, stress zamanı beynimizdə yaşanan dəyişikliklər bizə diqqətimizi daha yaxşı toplama və yaddaşımızı gücləndirmə imkanı verir. Buna əlavə olaraq həmin vəziyyət düşüncə və təhlil gücümüzü artırır. Bu faydalı təsirlərin meydana çıxması üçün stress ancaq qısa müddət və aşağı intensivlik kimi xüsusiyyətlərə malik olmalıdır. Stressli olduğumuz zaman təsirli olan bu hormonlar uzun müddətli və tez-tez təkrar olduqda hər zaman qaçdığımız mənfi stressə çevrilir və bizə negativ təsir edir. Bu, bizi motivasiya etməkdənsə, məhsuldarlığımızı azaldır [https://uzman.az/blog-psixoloq/93-posttravmatik-stress-pozuntusu-nedir.html].

Psixoloq Selye [1976] stressin 3 dövrlü bir proses olduğu fikrini irəli sürmüşdür. Bu dövrü həyəcan reaksiyası olaraq adlandırır. Stressli stimul və ya mühit davam edərsə, belə halda ikinci dövr baş verir və bu mərhələ müqavimət dövrü adlanır. Üçüncü mərhələ olan tükənmə dövründə insan artıq stressin təzyiqinə dözə bilmir və müqavimətini itirir. İlk həyəcan dövründən bəzi simptomlar qayıdır və xəstəliklər ortaya çıxmağa başlayır [Türkiye kampüsleri yayınları Psikolojinin temelleri: 188]. Travma yaşandığı vaxt və ya dərhal sonra intensiv reaksiyaların meydana gəlməsi mümkün ola bilər. Travma yaşayan şəxsdə simptomların hamısı olmaya bilər, amma hətta bir neçəsinin olması belə travmanın mövcudluğuna kifayət edir. Travma dörd-səkkiz həftə ərzində keçir gedir. Lakin simptomlar dayanmadan davam edərsə, travma sonrası stress pozuntusu yaranır. Ancaq bəzi hallarda reaksiyalarda gecikmə ola bilər, yəni simptomlar bir müddət sonra ortaya çıxır. Ən az altı ay və ya daha çox müddətdən sonra xroniki posttravmatik pozuntusudandan danışmaq olar.

Posttravmatik stress pozuntusundada, stress kimi bir çox simptom və xəstəliklərin yaranmasına səbəb olur.

İnsan stressli bir hadisə ilə qarşılaşdıqda, sinir sistemində pis hadisəyə qarşı müqavimət reaksiyası baş verir. Ürək tez-tez döyünür, qan təzyiqi artır və əzələlər büzülür, gücü və reaksiya sürətini artırır. Təhlükə aradan qalxan kimi sinir sistemi bədəni sakitləşdirməyə başlayır, tez-tez döyünən ürək və artan qan təzyiqini aşağı salır bədən normal vəziyyətinə qayıdır. Posttravmatik stress pozuntusu, ümumiyyətlə insanın çox stresli olduğu hallarda baş verir. Təhlükə keçəndən sonra belə, sinir sisteminiz "ilişib qalır" və insan normal tarazlıq vəziyyətinə qayıda bilmir, hadisənin yaşandığı vaxtda qalır. Posttravmatik stress pozuntusu yaşayan şəxsin sağalması sinir sistemindən asılıdır. Sinir sistemi insanın stress halından çıxmasına kömək etməkdən ibarətdir ki, insan daha tez müddət ərzində tarazlıq vəziyyətinə qayıda bilsin. Yetkin əhalinin təxminən üç faizi posttravmatik stress pozuntusundan əziyyət çəkir. Təcavüzə məruz qalan hər iki qadından birində travma sonrası stress pozuntusunun inkişaf etdiyi görünür. Müşahidələr nəticəsində təxminən yüz nəfərdən ikisinin posttravmatik stress pozuntusundan əziyyət çəkdiyi aşkar olunmuşdur.

Posttravmatik stress pozuntusu birdən-birə baş verən və insanlara qorxu hissi verir, eyni zamanda narahat və çarəsiz hiss etdirən psixi pozuntudur. Bu tərifə görə, misal olaraq, yaşlı qohumun xəstəlik nəticəsində illər sonra vəfat etməsinin psixoloji sarsıntıya səbəb olma ehtimalı az olduğu halda, qohumunun gözlənilmədən - məsələn, zəlzələ vaxtı itirilməsi daha çox şəxsdə travmatik təsir yaranmasına səbəb olur.

Bu psixoloji pozuntunun ortaya çıxma səbəblərinə; təbii fəlakətlər, sel, yanğın, zəlzələ və ya yol qəzaları, şiddət, fiziki və cinsi təcavüz kimi hadisələri daxil etmək olar. Posttravmatik stress pozuntusu üçün ən çox istifadə edilən müalicə üsullarına psixoterapiyanı və dərman müalicəsini daxil etmək olar. Tədqiqatlar göstərir ki, antidepresantların travma sonrası stress pozuntularına təsiri psixoterapiyanın təsirindən daha azdır. Psixoterapiya və dərman mualicəsi birləşməsinin tək psixoterapiyadan daha yaxşı nəticə verdiyinə dair heç bir elmi sübut yoxdur. Lakin birlikdə istifadə etmək psixiatr tərəfindən daha çox tövsiyə olunur. Aparılan tədqiqatlar nəticəsində sınaqlarda bəzi qan təzyiqi dərmanlarının müharibə veteranlarının kabuslarını və posttravmatik stress pozuntusunun ümumi simptomlarını azaltdığı müəyyən edilmişdir.

Əgər, posttravmatik stress pozuntusundan şübhələnirsinizsə diaqnoz qoymaq üçün ilk növbədə psixoterapevtə müraciət edilməsi vacibdir. Xəstə ilə psixoterapevt arasında keçən məxfi müzakirə nəticəsində xəstəliyin dərəcəsi aydınlaşdırılır. Psixoterapevt ilkin anamnez toplayır və xəstədə mövcud olan simptomları qeyd edir. Bəzən standartlaşdırılmış sorğulardan da istifadə olunur.

Travma sonrası stress pozuntusu ilkin olaraq Birinci və İkinci Dünya Müharibəsi zamanı "mərmi şoku" kimi təsvir edilmişdir. İkinci Dünya Müharibəsindən sonra "döyüş yorğunluğu" kimi çoxlu adlardan istifadə edilmişdir. Birinci Dünya Müharibəsindən sonra məlum olan bu xəstəlik, xüsusilə Vyetnamdan qayıdan Amerika əsgərlərində görülən travmatik stress əlamətlərinin ətraflı şəkildə araşdırılması eyni zamanda bir çox kitab və filmlərə mövzu olması səbəbilə bütün dünyada daha çox tanınmağa başlamışdır.

İlk olaraq veteranlarda rast gəlinmiş olsa da travma sonrası stress pozuntusu yalnız döyüş veteranlarına şamil edilmir. Travma sonrası stress pozuntusunu ancaq bir millət, etnik və ya mədəniyyət qrupuna aid etmək olmaz. TSSP hər yaşda və hər kəsdə baş verə bilər [Özgen ve Aydın, 1999: 35]. Travma sonrası stress pozuntusu hər il ABŞ-da yetkin şəxslərin 3,5 faizinə təsir edir. Təxminən 11 nəfərdən ən azı birinə həyatı boyu bu diaqnoz qoyulacaq. Travma sonrası stress pozuntusu kişilərə görə qadınlarda daha çox rast gəlinir. Qadınlar bu xəstəliyə kişilərə nisbətən iki dəfə daha çox tutulurlar.

İnsanlar çox vaxt özlərini qorxu, çarəsizlik və ümidsizlik kimi emosional vəziyyətlərdə hiss edə bilər, lakin onların belə hiss etmələri həmişə travmatik təsir ilə əsaslanmır. Pis hadisənin travmatik təsir göstərməsi üçün hadisə gözlənilmədən baş verməlidir. Bu cür travmanın nəticəsində stress pozuntusu yarana bilər. Posttravmatik stress pozuntusunun əlamətləri hər insanda eyni olmur. Bu pozuntunun aşkar edildiyi şəxslərdə simptomlar fərqli ola bilər. Fərqli olmanın səbəblərindən biri fərdi xüsusiyyətlərə əsaslanaraq şəxsdən asılı olmasıdır. Bəzi insanlarda stress pozuntusu hadisədən qısa müddət sonra inkişaf edərkən, bəzilərində uzun müddət sonra baş verə bilər, yəni eyni səbəbdən asılı olaraq da stress əlamətləri bəzən travma sonrası qısa müddət ərzində aradan qalxsa da, uzun illər davam etmə etimalı da vardır. Bəzən simptomlar qəfildən yaranır. Görüntü, şəkil, səs, bəzi sözlər və ya ətir, qoxu kimi travmatik hadisəni xatırladan bir şey posttravmatik stress pozuntusunun yaranmasına səbəb olur. Bu vəziyyət, insanların travmaya necə reaksiya verməsi və travmanın mürəkkəb nəticələri ilə bağlıdır.

Posttravmatik stress pozuntusunun psixi simptomlarına aşağıdakıları aid etmək olar:

- şəxsin özü və ya yaxınlarının təhlükəsizliyi üçün narahat olması;
- tez qorxma və qəzəb;
- narahatçılıq və ümumi depressiya vəziyyəti;

- təfəkkür və qavrayış problemləri;
- özünü təcrid etmə;
- gələcəyə ümidin olmaması;
- yorğunluq hissi;
- günahkarlıq hissi;
- unutqanlıq və yaddaş problemləri;
- diqqəti bir işə cəmləyə bilməmək;
- dəhşətli yuxular və ya kabuslar görmək;
- davamlı olaraq hadisənin baş verdiyi anı düşünmə;
- yuxu problemləri.

Posttravmatik stress pozuntusunun fiziki simptomlarına isə aşağıdakıları aid etmək olar:
- fəaliyyətin azalması;
- yorğunluq;
- yemək yemə pozuntuları, misal olaraq iştahın artması və ya azalması;
- sosial mühit və ailədən uzaqlaşmaq;
- ünsiyyətdə çətinliklər;
- yaşanan travmatik hadisə haqqında daim danışmaq istəyi;
- tez-tez mübahisələrə girmək;
- qəzəbi idarə edə bilməmək səbəbindən zorakılığa meyl;
- ağlamaq istəyi;
- alkoqol, siqaret, kimi pis vərdişlərin artması;
- özünə zərər verə biləcək vəziyyətlərə düşməkdən qorxmamaq halı;
- travmatik hadisəni xatırladan insanlardan və yerlərdən qaçma;
- iş-məktəb müvəffəqiyyətinin azalması;
- ürək döyüntüsü, titrəmə və nəfəs almaqda çətinlik kimi əlamətlər müşahidə olunur [Məmmədov, və b., 2013: 12].

Bu simptomlar eyni zamanda əksər insanlarda travmadan sonrakı günlərdə izlənilir və adətən bir neçə həftə ərzində öz-özünə keçir, lakin bəzi insanlarda aylar və hətta illərlə davam edə bilər. Əgər simptomlar uzun müddət davam edərsə bu insanda postravmatik stress pozuntusuna rast gəlmək olar. Müşahidələr nəticəsində yaşı 80-dən yuxarı olan İkinci Dünya Müharibəsi veteranları arasında hələ də bu xəstəliyin davam etdiyi aşkar edilmişdir.

Posttravmatik stress pozuntusu yaşayan şəxsdə özünün, əşyaların, hadisələrin real olmadığını hiss etmə, yəni derealizasiya və ya özünüzün özünüz olmadığını hiss etmə (depersonallaşma) halı müşahidə olunur. Bununla yanaşı şəxsdə zamanın qavranılmasında dəyişikliklər baş vərir. Bu narahatlıqdan əziyyət çəkən şəxs özünü duyğusuz kimi hiss edə bilər. Sadaladığımız bu simptomlara dissosiasiya deyilir.

Travma sonrası stress pozuntusu ən çox yetkin, subay şəxslərdə və boşanmış iqtisadi cəhətdən zəif ya da təcrid olunmuş insanlarda rast gəlinir [Özgen ve Aydın, 1999: 34]. Lakin posttrbavmatik stress pozuntusu həmişə yetkin şəxslərdə olmur. Uşaqlarda və yeniyetmələrdə posttravmatik stress pozuntusu yarana bilər. Bu narahatlığın simptomları uşaqlarda, xüsusən də çox balaca uşaqlarda böyüklərdəkindən fərqlənir. Misal olaraq qeyd edə bilərik ki, bu uşaqlar valideyndən ayrılmaqdan çox qorxur, əldə edilmiş bacarıqlarını itirir (məsələn, ayaqyolu vərdişi), yuxu pozuntuları yaranır, qorxulu röyalar görür və travma ilə əlaqəli aspektlərin təkrarlandığı oyunlara rast gəlmək mümkündür. Eyni zamanda bu uşaqlarda travma ilə əlaqəsi olmayan fobiyalar yarana bilər. Bu travmaları oyun, hekayə və ya rəsm vasitəsilə aşkar etmək olar. Uşaqlarda çox vaxt

səbəbi olmayan ağrılara rast gəlinir və bu uşaqlarda aqressivlik müşahidə olunur. Keçirilən travmanın şəxsə nə dərəcədə təsir etdiyi travmanın şiddətindən və mühitin şəraitindən asılı olaraq dəyişir.

Eyni travmatik hadisəni yaşayan fərdlər arasında travma sonrası stress pozuntusu hamıda yaranmaya bilər. Travma sonrası stress pozuntusunun baş verməsi üçün pis hadisəni yaşayan şəxsə hadisənin xüsusi və emosional təsiri olmalıdır. Pozuntunun yaranmasına səbəb olan müxtəlif amillər vardır: psixoloji, etnik-mədəni, bioloji, ailə və sosial. Bəzən simptomlar kəskin stress pozuntusunun davamını ifadə edir və zədədən altı ay sonra ayrı-ayrılıqda baş verə bilər. Bəzi hallarda isə fərdi simptomların yaranması gecikir. Belə halda travmatik hadisədən bir neçə ay, hətta il sonra belə əlamətləri hiss olunmur. Kəskin stress pozuntusu travma sonrası stress pozuntusu kimi travmatik bir hadisəyə reaksiya olaraq baş verir və əlamətləri oxşardır. Lakin əlamətlər travmatik hadisədən üç gün sonra və ya bir ay ərzində izlənilir. Kəskin stress pozuntusu olan şəxslər travmanı tez-tez yaşaya bilər, geriyə dönüşlər (flashback) və ya kabuslar görə bilər və bunun nəticəsində də yuxu pozuntusu müşahidə olunur. Bu əlamətlər ilə bağlı gündəlik həyatlarında daima problemlər yaranır. Kəskin stress pozuntusu olan insanların böyük hissəsi travma sonrası stress pozuntusu keçirir. Kəskin stress pozuntusu zorakılığa məruz qalan insanların 19-50%-də diaqnoz olaraq qoyulur. Psixoterapiya, simptomları nəzarət etməyə kömək edir və onların ağırlaşmasının qarşısını alır. Psixoterapiyadan istifadə edildikdə travma sonrası stress pozuntusunun aradan qaldırılma yolları tapılır. Buna əlavə olaraq dərmanlarda SSRİ antidepresanları simptomları aradan qaldırmağa kömək edə bilər.

Xroniki TSSP xəstələrində depressiya, narkotik vasitələrdən asılılıq və digər narahatlıq pozuntularına tez-tez rast gəlinir. Narahatlığa əlavə olaraq, xəstələr pis hadisə zamanı özlərini günahlandırırlar. Çox vaxt bunu yaxın adamlar ölərkən özlərinin sağ qalmaları nəticəsində fikirləşir və hər hansı birini yaşanan pis hadisəyə məsul olaraq görür. Onların düşündüklərinə görə yaxın adamın ölüm səbəbi kimi özlərini günahlandıran hadisə baş verəndə hər hansı bir hərəkəti etmədikləri, yaxud kifayət qədər etmədiklərini fikirləşib peşmançılıq hissi keçirirlər.

Travma yaşayan hər şəxsdə travma sonrası stress pozuntusu inkişaf etməz və bu səbəblə də travma sonrası stress pozuntusu inkişaf etmiş hər şəxs də psxiatrik müalicə tələb etməyə bilər. Cinayətə məruz qalmış dörd qadından biri, zorakılığa məruz qalmış hər iki qadından biri travma sonrası stress pozuntusundan əziyyət çəkir. TSSP-nin kimdə inkişaf edəcəyini proqnozlaşdırmaq mümkün deyil. Travma sonrası stress pozuntusu, travmadan əziyyət çəkən şəxsə və onların ətrafındaki yaxın adamlara böyük narahatlıq yaradan, lakin müalicəsi mümkün olan bir xəstəlikdir.

Travma bir çox insana təsir edir. Travma yaşayan şəxsdə:

1. yaşadığı hadisənin psixi pozuntu olduğunu bilməməsi öz bacarıqlarının zəifliyi və nöqsanları ilə əlaqələndirməsi;
2. problemlərin asan müalicəsi olması barədə məlumatının olmaması;
3. necə müalicə imkanından istifadə edəcəyini bilməməsi;
4. narahatlıq keçirən şəxsin maddi vəziyyətinin əlverişsiz olması;
5. travmaları haqqında danışmaqdan utanması ilə bağlı olaraq müalicəsini axtarmaması.

Bəzi insanlarda TSSP əlamətləri bir müddət sonra azalır və yox olur. Travmanın, bəzi hallarda həddən artıq narahatçılıq yarada biləcəyini bilmək lazımdır. TSSP insana pis təsir etsə də, müalicəsi mümkündür. İnsan nə qədər tez müalicə alarsa, sağalma etimalı bir o qədər tez və daha da effektiv olar.

Koqnitiv davranış terapiyasından xüsusi olaraq travma sonrası stress pozuntusunun müalicəsi zamanı istifadə olunur. Koqnitiv davranış terapiyası travma nəticəsində yaranan neqativ emosiyaları, məsələn, utanc ve günahkarlıq kimi inancların dəyişməsinə yönəlir. psixoterapevtlər bu kimi pis hisslər və hadisələrlə üzləşmə zamanı xəstələrinə kömək edir və istqamət verirlər.

Uzunmüddətli ekspozisiya müalicəsi travma nəticəsində insanda yaranmış olan qorxu və sıxıntı ilə üzləşməyi və onların bu qorxularına nəzarət etməyini və eyni zamanda öhdəsindən gəlməyi onlara öyrətmə məqsədini güdür.

İdarə olunan şəraitdə travmanın təkrarlanaraq, xəstənin tədricən məruz qalması ilə bağlı müalicə aparılır. Əvvəllər liftdə qalmış bir insanda yaranan klostrofobiyanın müalicəsi üçün əvvəlcə psixoterapevtin nəzarəti altında şəxsi addım-addım liftə ötürərək, onu qorxusu ilə kifayət qədər üzləşdirərək, baş vermiş travmanın öhdəsindən gəlmə məqsədini qüdməyi misal olaraq göstərə bilərik.

Travmaya yönəlmiş koqnitiv-davranış terapiyası travmaya həssas müdaxilələrlə uşaq və yeniyetmələr üçün sübuta əsaslanan müalicə modelidir.

Posttravmatik stress pozuntusunun müalicəsində istifadə edilən təsir edici psixoterapiya yanaşmasından biri də EMDR və yaxud göz hərəkətinin desensitizasiyasıdır. EMDR ekspozisiya terapiyasını bir sıra göz hərəkətləri vasitasilə birləşdirir bu birləşdirmə nəticəsində posttravmatik stress pozuntusundan əziyyət çəkən şəxs travmatik xatirələri beynində "emal" etməyi və onda yaranan mənfi reaksiyanın dəyişməsini öyrənir.

TSSP üçün göz hərəkətinin desensitizasiyası və yenidən işlənməsi təxminən üç ay müddətində aparılan travmaya yönəlmiş psixoterapiyadır. Bu terapiya növünün məqsədi travmaya fərqli bir şəkildə yaşanmasına kömək etməkdir.

İlkin anamnez alındıqdan və müalicə planı tərtib edildikdən sonra, psixoterapevt xəstəyə travmatik xatirələrlə bağlı suallarla istiqamət verir. Bu terapiya növü sürətli göz hərəkətləri, səslər və ya toxunma stimullarından istifadə nəticəsilə beynin adaptiv məlumat emalını sürətləndirməyə yarayır. Psixoterapevt burda fərdin stresli vəziyyət halının öhdəsindən gəlmə və stressi idarə etmə bacarıqlarını inkişaf etdirmə məqsədini güdür. Bütün bu yanaşmalar travmatik hadisə yarandıqdan sonra fərdin baş verən daimi qorxusunu idarə etməsinə kömək edə bilər. Fərdi terapiya və qrup terapiyası travmanın aradan qaldırılmasına kömək edir. Qrup terapiyası oxşar hadisələrdən əziyyət çəkən insanların başqaları ilə əlaqə qurma vasitasilə təcrübə və narahatlıqları bir birlərinə ötürməsidir.

Təkrarlanan seanslar nəticəsində xatirələr daha az mənfi şəkildə yaşanır və dəyişməyə meylli olur. Travma sonrası stress pozuntusunun uzun müddət müalicə olunmaması, bəzi fiziki pozuntulara gətirib çıxara bilər. Məsələn, bu pozuntulara infeksiyalar, ürək problemləri, mədə-bağırsaq ağrıları və immun sistemi xəstəliklərini aid etmək olar [Berger, & Reiter, 2015]. Bəzi insanlarda, posttravmatik stress pozuntusu digər psixi pozuntulara gətirib çıxarır. Posttravmatik stress pozuntusu nəticəsində ən çox rastlanan xəstəlik depressiyadır. Depressiyadan başqa, müxtəlif narahatçılıq, həddindən artıq spirt və ya narkotik maddə istifadəsi də baş verə bilər [https://uzman.az/blog-psixoloq/93-posttravmatik-stress-pozuntusu-nedir.html]. Əvvəllər psixi xəstəlikdən əziyyət çəkən insanlarda travmadan sonra bu xəstəliklərin təkrarlanma riski daha yüksəkdir. Əgər insanda posttravmatik stress pozuntusundan başqa ikinci bir ruhi xəstəlik varsa, insanın yaşadığı sıxıntı və əmək qabiliyyəti azalacaq, şəxsin mualicəsi daha çox və uzun müddət tələb edəcəkdir. Keçmişdə başqa psixoloji travmadan əziyyət çəkən şəxslər və yaxınlarında psixi xəstəliyi olan insanların posttravmatik stress pozuntusuna tutulma etimalı, yaxınlarında psixi xəstəliyi olmayan şəxslərə nisbətən daha yüksəkdir. Travma yaşayan şəxslərdən çoxu, hadisə baş verməmiş kimi davranıb unutmağa çalışır. Lakin bu şəxslərdə xəstəliyin sağalması gecikir, hadisə olmamış kimi davranan şəxslərə nisbətən problemləri üçün kömək istəyən, problemini başqaları ilə bölüşən və haqqını axtaran şəxslərin daha tez sağaldığı aşkar olunmuşdur. Bir insanın əldə edə biləcəyi sosial dəstək də travmadan sonra sağalmağa müsbət təsir göstərir. Sosial dəstək azdırsa, travmadan əziyyət çəkən insanda depressiya əlamətlərinə daha çox rast gelinir. Tədqiqatlar göstərdi ki, travmadan sonrakı ilk günlərdə hadisəni yaşayan insanların əksəriyyəti psixoloji olaraq təsirlənir, qorxur və kabuslar görür, lakin bu əlamətlərin çoxu insan üçün günlər və ya həftələr sonra

yox olur. Belə təsiri olmuş hər 5-6 insandan biri üçün simptomların yaxşılaşması daha uzun müddət tələb edir, bu simptomlar bəzən illərlə davam edə bilər. Travma sonrası stress pozuntusu olan insanlar çox vaxt təşviş pozuntusu və ya depressiya yaşayırlar. Posttravmatik stress pozuntusunun müalicəsində dərmanlar və psixoterapiya kimi müxtəlif üsullarından istifadə etmək olar. Travma sonrası stress pozuntusunun müalicəsini nəzərdən keçirərkən ən vacib məsələ odur ki, iki nəfər heç vaxt eyni təcrübəyə malik deyil və hamıya uyğun olan bir müalicə üsulu yoxdur. Müalicə üsulları fərqli və fərdiləşdirilmiş formada olur.

Posttravmatik stress pozuntusunun müalicəsi üçün istifadə edilən dərman növləri dedikdə seçici serotonin geri alma inhibitorları (SSRİ) antidepresanlar kimi tanınan dərmanlar qrupuna aiddir. Onlar depressiv pozuntu, təşviş pozuntuları və travma sonrası stress pozuntusu kimi narahatlıqların müalicəsi vaxtı istifadə edilən dərmanlardır.

SSRİ'lar sinir hüceyrələri vasıtasilə beyindəki siqnalları ötürür. Bu dərmanlar xəbərçi kimi və ya serotonin səviyyəsini artırmaqla işləyir. SSRİ'lar xoşbəxtlik, yaxşı əhval-ruhiyyə və sülh hisslərini inkişaf etdirir, yaxşılaşdırdığı və sabitləşdirdiyi üçün "yaxşı hiss etdirən" nerotransmitter olaraq adlanır.

Posttravmatik stress pozuntusunu müalicə etmək üçün istifadə olunan SSRİ-lərə aşağıdakılar daxildir:

1. Zoloft (sertralin)
2. Paxil (paroksetin)
3. Prozak (fluoksetin)

Müalicə vaxtı istifadə edilən SSRİ-lərin mümkün ola biləcək yan təsirləri:

1. narahatlıq;
2. yuxusuzluq;
3. ürəkbulanma;
4. ishal;
5. cinsi disfunksiya.

Narahatçılıq əleyhinə dərmanlar:

Əgər təşviş gündəlik həyatdakı fəaliyyətlərdə iştiraka mane olarsa, posttravmatik stress pozuuntusu yaşayan yetkin insanların müalicəsi üçün bu dərman növündən istifadə etmək olar. Misal olaraq, narahatlıq işə və ya məktəbə getməyə manə törədəcək qədər pis vəziyyət halına gələrsə, bu dərmanlar əziyyət çəkən şəxslər üçün faydalı ola bilər.

Posttravmatik stress pozuntusunun müalicəsində istifadə olunan narahatçılıq əleyhinə dərmanlara aşağıdakılar daxildir:

1. Xanax (alprazolam)
2. Klonopin (klonazepam)
3. Valium (diazepam)
4. Ativan (lorazepam)

Bu dərmanların mümkün ola biləcək yan təsirləri:

1. Tükənmişlik
2. Başgicəllənmə
3. Bulanıq Görmə
4. Yaddaş itkisi
5. Bulanık Şüur

Alfa-1 blokerləri travma sonrası stress pozuntusu və kabusları azaltmağa kömək edir. Daha yaxşı, daha dərin yuxu əldə etmək üçün Alfa-1 blokerləri beyindəki alfa-1 reseptorlarını bloklayır. Alfa-1 blokerləri ümumiyyətlə travma sonrası stress pozuntusu kabuslarından əziyyət çəkən insanlara təyin edilir.

Populyar Alfa-1 blokerlərinə aşağıdakılar daxildir:

1. Prazosin
2. Doksazosin

Alpha-1 blokerlərinin mümkün ola biləcək yan təsirləri:

1. Yorğunluq hissi
2. Baş ağrısı
3. Nəfəs darlığı
4. Əllərin, ayaqların, topuqların, aşağı ayaqların şişməsi
5. Anormal Görmə
6. Əzələ ağrısı və ya zəiflik
7. Burun axması

Əhval stabilizatorları:

Posttravmatik stress pozuntularından əziyyət çəkən və antidepresanlara cavab verməyən böyüklərə əhval stabilizatorları təyin oluna bilər. Xəstədə təşviş, qəzəb və ya əsəbilik mövcud olduqda istifadə olunur. Əhval stabilizatorları, emosiyaları tənzimləyən beyin kimyəvi maddələrini balanslaşdırır.

Aşağıdakılar əhval stabilizatorlara daxildir:

1. Opamax (Topiramat)
2. Lamiktal (Lamotrijin)

Posttravmatik stress pozuntusunun müalicəsində istifadə olunan əhval stabilizatorlarının mümkün ola biləcək yan təsirləri:

1. Baş ağrısı
2. Yuxusuzluq
3. Dəri qaşınması
4. Yorğunluq
5. Başgicəllənmə
6. Uyuşma [https://www.psikologofisi.com/blog/travma-sonrasi-stres-bozuklugu-ilaclari].

## Ədəbiyyat:

*Məmmədov, C., Salayev, R., Manuçehri-Lalei, A., Zamanlı, O., Novruzova, L.. Orucova. L.* (2013). Azərbaycan Respublikası Səhiyyə Nazirliyi. Posttravmatik stress pozuntusunun diaqnostika və müalicəsi üzrə klinik protocol. Bakı, 44 s.

*Özgen, Fuat ve Aydın, Hamdullah*. (1999). Travma Sonrası Stres Bozukluğu. Klinik psikiyatri. S.34-41.

*John, W., Barnhill, MD.* (2020). New York-Presbyterian Hospital Посттравматическое стрессовое расстройство (ПТСР) . Апр.

*Smith, M.A., Robinson, Lawrence and Segal, Jeanne*. Post-Traumatic Stress Disorder (PTSD),(p.5,6) https://www.helpguide.org/mental-health/ptsd-trauma/coping-with-emotional-and-psychological-trauma

Türkiye kampüsleri yayınları Psikolojinin temelleri. - St.Clements University publication. Yayın no . 177 (s.188)

*Berger, Ernst & Reiter, Bettina. (*2015). (Psychiatrie, Psychotherapie), Elisabeth Tschachler (Journalistin), Posttraumatische Belastungsstörung (PTBS), 02.12.2015.

https://psikiyatri.org.tr/halka-yonelik/28/travma-sonrasi-stres-bozuklugu

https://www.psikologofisi.com/blog/travma-sonrasi-stres-bozuklugu-ilaclari

https://www.psychiatry.org/patients-families/ptsd/what-is-ptsd

https://www.uplifers.com/iyi-stres-nedir-stresin-destekleyici-oldugu-anlari-kesfedin/

https://uzman.az/blog-psixoloq/93-posttravmatik-stress-pozuntusu-nedir.html

# MOBBİNQ ANLAYIŞI VƏ ONUN XÜSUSİYYƏTLƏRİ

**Seray YILMAZ**
Bakı Dövlət Universiteti,
Psixologiya kafedrası,
"Klinik psixologiya" ixtisası üzrə magistrant,
*Azərbaycan, BAKI (Türkiyə)*
sserayy18@hotmail.com

**XÜLASƏ**

Məqalədə mobbinq mövzusu ilə bağlı müxtəlif məlumatlar verilir. Mobbinq anlayışının tərifi, yaranma tarixi, yaranma səbəbləri, mobbinq prosesi, elementləri, dünyada yayılması, bu prosesdə iştirak edən aktorlar, mobbinqin tərəfləri, aktorların və iştirakçıların məqsədləri, mobbinqin mərhələləri, ən çox yayılmış mobbinq davranışları kimi mövzular qeyd olunur.

**Açar sözlər:** mobbinq, psixoloji zorakılıq, təcavüz, mücərrəd zorakılıq.

# THE CONCEPT OF MOBBING AND ITS FEATURES

**Seray YILMAZ**
Baku State University,
Department of Psychology majoring in "Clinical Psychology",
Graduate student,
*Azerbaijan, BAKU (Turkey)*
sserayy18@hotmail.com

**SUMMARY**

The article provides various information on the subject of mobbing. Topics such as the definition of the concept of mobbing, the history of its creation, the reasons for its creation, the process of mobbing, its elements, its distribution in the world, the actors involved in this process, the sides of mobbing, the goals of the actors and participants, the stages of mobbing, and the most common mobbing behaviors are mentioned.

**Key words:** mobbinq, psychological harassment, aggression, abstract violence.

"Mobbinq"sözü; latınca "mobile vulgus"dan gəlir. İngiliscə "mob" hücum etmək, narahat etmək mənasınadadır. "Mobbinq" termin olaraq Azərbaycan dilində psixoloji terror, şiddət və ya zorakılıq olaraq tərcümə edilir.

Mobbinq, bir və ya bir neçə şəxsin digər insan üzərində tətbiq etdikləri düşməncə, əxlaqa və etikaya uyğun olmayan vasitələrlə həyata keçirdiyi psixoloji terrordur. Yəni iş yerindəki, digər ictimai birliklərdəki emosional istismardır. Psixoloji şiddət, təkləmə, alçatmaq, narahat etmək, iş motivasiyasını, özünə inamı qırmaq və kefini pozmaqdır. Xüsusilə, iyerarxik qruplarda gücü əlində tutan insanın, ya da qrupun psixoloji yollarla uzunmüddətli və sistemli hökmranlıq etməsidir [Erdoğan, 2009: 318].

Bu anlayış ilk dəfə 1960-cı illərdə etioloq Konrad Lorenz tərəfindən heyvanların hərəkətlərini öyrənərkən bəzi heyvanların hərəkətlərini təsvir etmək üçün işlədilmişdir. Lorenz böyük bir heyvanın təhdidinə qarşı, kiçik heyvan qruplarının göstərdiyi reaksiyaya "mobbinq" anlayışı ilə izahat etmişdir. Mobbinq anlayışı bunlara əlavə olaraq əvvəllər, uşaqların bir-birlərinə qarşı olan zorakılıq münasibətlərinin təsvirində işlədilmiş bir anlayışdır. Uşaqların məktəblərdə

davranışlarını müşahidə eden İsveçli həkim Peter Paul Heineman tərəfindən də 1972-ci ildə “bir qrup uşağın tək bir uşağa qarşı hərəkətlərini izah etmək üçün yenə bu termindən istifadə edilmişdir. 1950-1960-cı illərdə iş yerlərində aparılan tədqiqatlara görə mobbinqin yalnız uşaqlar arasında olmadığı müəyyən edilmişdir. Heinz Leyman tərəfindən iş şəraitində mobbinqin "həssas təcavüz" olduğu fikri 1980-ci illərin əvvəlində irəli sürülmüşdür. Heinz Leyman mobbinqi əhatə edən davranışlar, onların xüsusiyyətləri, yaranma forması, ən çox hansı şəxslərin zərər çəkməsi, bunun nəticəsində yaranan vəziyyətlər və s. kimi məsələlərə diqqət yetirib [Öztürk ve b., 2015: 28].

Mobbinq anlayışı haqqda bir çox alim fərqli fikirlər irəli sürmüşdür. Davenport, Şvarts (Schwartz) ve Elliot, mobbinqi bir və ya bir neçə insanın digər şəxsə qarşı istifadə etdiyi qeyri-etik üsullar olaraq bildirmişdirlər. Dr. Leymanın fikrincə mobbinq emosional cinayətdir. Ona görə, bir və ya bir neçə insanın törətdiyi psixoloji terrordur ve fərdlərin başqa bir şəxsə qarşı düşmənçilik və qeyri-etik üsullardan sistematik şəkildə istifadə etməsidir.

Ümumiyyətlə, “mobbinq” xüsusilə iyerarxik quruluşlu qruplarda və nəzarətin zəif olduğu təşkilatlarda, iqtidarda olan şəxs və ya qrup tərəfindən psixoloji vasitələrdən istifadə etməklə, başqalarına qarşı uzunmüddətli, sistematik təzyiq göstərmək, emosional hücum və aşınma kimi müəyyən edilir. Bu, bir insanı yalandan ittiham etməklə, qeybət yolu ilə onun nüfuzuna xələl gətirməklə, onu alçaltmaqla, birbaşa və ya dolayı zorakılıq tətbiq etməklə işini tərk etməyə məcbur etmək üçün qərəzli cəhdlər kimi müəyyən edilir.

Mobbinq qarşıda duran şəxsin yaş, irq, cinsi ayrıseçkilik kimi amilləri nəzərə almadan, onu alçaltmaq, təcrid etmək, narahat etmək yoluna istiqamətlənən təcavüzkar bir prosesdir.

Mobbinqi müəyyən edərkən, onu oxşar hadisələrdən ayırmaq üçün aşağıdakı elementlərin mövcudluğuna diqqət yetirmək lazımdır:

- mobbinq iş yerində baş verməlidir;
- sistemli şəkildə həyata keçirilməlidir;
- davamlı və tez-tez təkrarlanmalıdır;
- bunu qəsdən etmək lazımdır;
- mobbinq insanları kenarlaşdırmağa, təcrid və işdən uzaqlaşdırmağa yönəldilməlidir;
- mobbinq, qurbanın şəxsiyyətinə, peşə fəaliyyətinə və ya sağlamlığına ziyan vurma məqsədi güdür;
- insana qarşı mənfi münasibət və davranışlar gizli və ya açıq ola bilər [Çalışma ve Sosyal Güvenlik Bakanlığı Çalışma Genel Müdürlüğü, İşyerlerinde Psikolojik Taciz (Mobbing), Bilgilendirme Rehberi, 2013: 10-13; Yılmaz ve Kaymaz, 2014: 73-84].

Mobbinq bəzi amillər əsasında yaranır. Məsələn, bunlara təcavüzkarın psixoloji quruluşu, qurbanın psixoloji quruluşu, iş muhiti, sosial və cəmiyyət dəyərləri və mühakimələr və s. aid etmək olar.

Təşkilatlarda mobbinqin bir çox səbəbi vardır. Mobbinqdən əvvəl şəxsiyyətlərarası hər hansı mübahisələr yaranır. Sonra güclü olan şəxs, başqasını hədəf alaraq psixoloji şiddətə başlayır. Bu zorakılığa məruz qalan insan, yaşadığı zorakılığdan özünü müdafiə etmək üçün müqavimət göstərdiyi halda, qəzəbli, təcavüzkar hərəkətə keçir və hücüma başlayır, onu narahat edən hədəfi dayandırmaq, kənarlaşdırmaq, onu peşman etmək, öz eqosunu təmin etmək, onu getməyə məcbur edib, iş yerini tərk etməyini, mümkünsə işdən çıxmağını reallaşdırmaq məqsədini güdür. Mobbinqlə bağlı araşdırmalar göstərir ki, mobbinqə səbəb olan amillər dörd əsas qrupdan ibarətdir [Leymann, 1990: 119-126; Leymann, 1996: 165-184; Leymann ve Gustafsson, 1996: 251-275].

Mobbinqin səbəbləri aşağıdakılardır:

- təcavüzkardan asılı olan səbəblər;
- təcavüzə məruz qalan insanlardan yaranan səbəblər;
- təşkilati səbəblər;
- sosial və mədəni səbəblər.

1. *Təcavüzkardan asılı olan səbəblər:*

Qısqanclıq, pis şəxsiyyət, irqçilik, əyalətçilik, stereotipləşmə (premühakimə), məcbur etməyə meyl, başqa bir işçini təchiz etmək, başqasının vasitəsilə öz pis vərdişlərini mühakimə etmək, psixoloji problemlər, qisas hissi, sonradan korlanmış münasibətlər və s.

2. *Təcavüzə məruz qalan insanlardan yaranan səbəblər:*

Mobbinqi tətbiq edən insanlar eqoist, rəqabətçi və qısqanc, rəqabətə davamlı xarakterlərə malik olmadığı halda, onların hədəflərindəki insanlar, yəni qurbanları, yüksək inkişaf etmiş intellektə malik insanlardır. Qurbanların xüsusiyyəti, - yeni ideyalar yarada bilən, fərqli dünyagörüşlü, təhsilli insanlardır. Onların əksəriyyəti layiqli görünüşə, intellektual qabiliyyətə, emosional zəkaya ve yüksək inkişaf etmiş intellektə malik insanlardır [Cobanoglu, 2005].

3. *Təşkilati səbəblər:*

Zəif idarəetmə, yüksək stresli iş rejimi və iş yeri mühiti, işdə və iş həyatında monotonluq, mükəmməlsizlik, iş yerində qeyri-etik təcrübələr və ədalətsizliklər, iş yerlərində ləyaqətə əhəmiyyət verilməyən təşkilat strukturu, qohumbazlıq, ayrı seçkilik, siyasət, məyusluqlar və işdən narazılıq, təşkilat mədəniyyəti və təşkilati iqlim, qeyri-adekvat ünsiyyət, zəif rəhbərlik strukturu, rəqabətli iş şəraiti, və s. kimi amillər iş yerində psixoloji təzyiqə (mobbinqə) yol açan təşkilati səbəblərdir.

4. *Sosial və mədəni səbəblər:*

Müşahidələrə görə sosial zorakılığa: təhsilin olmaması və sosial həyat kimi iqtisadi amillər səbəb olur. Aşağı səviyyəli yaşayış mühiti, pis vərdişlər, cinayət faizlərinin yüksəlməsi və fərdlərin həyatdan gözləntilərini qarşılaya bilməməsi mobbiqə səbəb olur. İş yerində psixoloji təzyiqin əsasını təşkil edən bəzi sosial amillər, normalar və dəyərlər də böyük əhəmiyyət kəsb edir. Güclülərin zəifləri məhvetmə ideyasını bunlara misal göstərmək olar. Fərdlərə öz imkanlarından artıq iş vermək, ortaq həssaslıq sahələri və birgə iş və əməkdaşlıq mədəniyyətinə uygun gəlməyən iş muhiti, yeniliklərə məhəl qoymamaq kimi vəziyyətləri bunlara aid etmek olar. Bütün bunlara əlavə olaraq zamanla artan qloballaşma cəmiyyətdə bərabərsizliyi, yoxsulluğu və təcrid olma problemlərini artırır. Nəticədə, bu vəziyyət iş mühitində özünü göstərir və psixoloji təzyiqə məruz qalma riskini artırır [Kirel, 2008].

Mobbinqlə məşğul olan şəxslər muxtəlif şəxsiyyət strukturlarına malik ola bilər. Bunlara: paranoid, narsist, sadist, obsesif və antisosial növü aid etmək olar [https://www.doktortakvimi.com/blog/mobbing-nedenleri].

Paranoid pozuntusu olan mobbinq edən insanlar, başqalarının daim onlara qarşı sui-qəsd qurduğunu və onlara zərər verməyə çalışdıqlarını düşünür və bu mümkün “sui-qəsd nəzəriyyələr”i ilə mübarizə aparmaq üçün qarşı tərəfə qarşı davamlı “sui-qəsd”lər hazırlayırlar.

Narsissizm “özünü sevmək” deməkdir. Bu tip zehniyyətə malik insanlar etnik, dini və şəxsi sahələrdə daha üstün olduqlarına inanırlar. Narsistik fərdlər qeyri-məhdud uğur, sərvət və güc əldə etməyə həvəslidirlər. Onlar özlərinə hədsiz inam hissini qorumaq üçün daim təqdir olunmaq və heyran olunmaq istəyirlər. Bu insanlar daim narazıdırlar.

Sadist ruhlu insanlar mobbinq etdikləri zaman, qurbanlarına verdikləri hər cür əzabdan həzz alırlar. Sadist ruhlu insanlar zorakılıq, yaralar, ağrılar və s. kimi mövzularla maraqlanırlar. Mobbinq qurbanının çökməsi və ağlaması ona həzz verə bilər. Hətta son dərəcə sadist tiplərdə bundan cinsi həzz ala bilirlər. Mobbinq edənlər ümumiyyətlə sadist xarakter quruluşuna malik şəxslərdir. Təcavüzləri açıq və ya gizli ola bilər, iş həyatında insanları gözlətmək, əsassız görüşləri uzatmaq kimi davranışlar göstərə bilər.

Obsesif şəxsiyyət pozuntusu işin əsas məqsədini unudacaq qədər mükəmməl, həddindən artıq təşkilatlanmış və nəzarət edən insanlarda özünü göstərir. Şişirdilmiş nizam-intizam, işi ən yaxşı şəkildə yerinə yetirdiyini düşündükləri üçün başqalarına inamsızlıq, xəsislik kimi şəxsiyyət xüsusiyyətləri obsesif pozuntusu olan insanlarda görülə bilər.

Antisosial şəxsiyyət pozuntusu olan şəxs ictimai qaydalara əməl etməyən, birlikdə yaşamaq

anlayışı olmayan, dünyanı öz anlayışı ilə görən, həyasız və yorulmaz rəftar nümayiş etdirən insanlardır. Bu insanlar heç vaxt səhvlərindən dərs almırlar. Onların şəxsi həyatları hamar deyil. Ümumi götürdükdə, onlar alkoqol, siqaret və narkotiki sevirlər. İstədiklərini əldə etmək üçün heç bir qaydaya əməl etmirlər. Qaydalara riayət etmək onlar üçün axmaqlıqdır. Hücum edən şəxs başqalarının üstünlüyünü özünə təhlükə olaraq görür. Onlar təhdid altında özünü mərkəzləşdirirlər.

Mobbinq prosesində iştirak edən tərəfləri 3 qrupa bölmək olar [http://www.turkhukuksitesi.com/makale_1293.htm; Tınaz, 2006: 21]. Bunlar aşağıdakılardır:

1. *Mobbinq qurbanları*: Mobbinqə məruz qalan tərəf "mobbinq qurbanı" olaraq adlanır.

2. *Mobbinqi tətbiq edənlər*: İş yerlərində psixoloji təzyiqi tətbiq edən şəxs üçün "mobbinq tətbiq edicisi", “təcavüzkar”, “şiddət göstərən” kimi ifadələrlə göstərilir.

3. *Mobbinqi izləyənlər*: Mobbinq prosesəsinə birbaşa müdaxilə etməyən, lakin hər hansı bir şəkildə bu prosesi qəbul edən və əks etdirən şexslərə "izləyici”lər, “şahid”lər deyilir. Onlar iş mühitindəki mobbinq faktından xəbərdar olduqları andan etibarən “izləyici” sayılırlar.

Mobbinqi izləyənlər nümayiş etdirdikləri rəftar və davranışlara görə üç qrupda təsnif edilmişdir. Bunlardan birincisi “mobbinqə qarşı duran” izləyənlərdir. İş yerindəki bu gərgin atmosferi sevməyən izləyənlər “qurban”ın yanında dayanaraq mobbinqin qarşısını almaq üçün qurbana kömək edirlər.

İkinci qrup - “mobbinq tərəfdaşları”dır. Bu insanlar cinayətkarın təşəbbüsü ilə mobbinqdə iştirak edirlər. Onlar cinayəti törədən şəxsə mobbinq prosesində dəstək verərək onunla əməkdaşlıq edirlər. Bu səbəbdən onlar “dolayı mobbinq adamları" olaraq da adlanır. Bu qrupdakı insanlar mobbinqi törədənlə eynidirlər. Çünki onlar tecavüzkar ilə eyni məqsədi güdür ve arxasınca gedərək mobbinqə kömək edirlər. Bir müddət sonra onlar, mobbinqi izləyən mövqeyindən, mobbinqi törədən mövqeyinə keçirlər.

Sonuncu qrup isə “mobbinqə biganə qalanlar”dır. Bu cür mobbinq izləyiciləri, mobbinq prosesi ve cinayətkarın hərəkətləri barədə susur, etinasızlıq edir və bunun nəticədə mobbinqin davam etməsinə şərait yaranır. Bu tip insanlar ümumiyyətlə mobbinq prosesində önə çıxmaq istəmir və qruplaşmalardan uzaq durmağa çalışır, davam edən mobbinqin qarşısını almağa, yaxud bu prosesi dayandırmağa heç bir cəhd göstərmirlər. Onlar problemi həll etmək iqtidarındadırlar, lakin bununla bağlı heç bir tədbir görmürlər. Belə halda, bu kimi insanlar mobbinq törədənlərlə eyni statusda qiymətləndirilir.

Məsələn, əgər işəgötürən öz işçilərindən biri tərəfindən, digər işçiyə qarşı mobbinq tətbiq olduğunu bilirsə, vəziyyətdən xəbərdardırsa, lakin bu prosesə mane olmur və heç bir tədbir görmürsə, bu halda işəgötürən əvvəlcə izləyən mövqeyində olsa belə, hazırda dolayı mobbinq törədən adama çevrilir və cinayəti törədən şəxslə eyni statusda hesab edilir.

İzləyənin vəziyyətə münasibəti çox önəmlidir. Çünki bu vəziyyətə qarşı çıxmaqla, o bu prosesi, dayandıra bilər və ya əksinə mobbinqin şiddətini də artıra bilər. Eynilə, mobbinqi izləyən böyük hüquqi əhəmiyyət kəsb edir. Birbaşa tərəf olmadıqlarından məhkəmə mərhələsindəki hərəkətləri və ifadələri, zərərçəkmişin vəziyyətinin sübutu baxımından böyük əhəmiyyətə malikdir.

Heinz Leyman tərəfindən verilən təsnifatda psixoloji zorakılıq, davranışın və qurbanın xarakterindən asılı olaraq davranış təsirlərinə görə beş əsas qrupa bölünür. Bunlar aşağıdakılardır:

a) Qurbanın qrupda özünü göstərməsinə və digər qrup üzvləri ilə ünsiyyət qurmasına mane olan davranışlar.

Bu qrupa aid olan davranış nümunələri: Qurbanın sözünü kəsmək, onun işini tənqid etmək, uğurlu ola biləcək işlərə mane olmaq, şəxsi həyatını tənqid etmək, qarşısında ucadan danlamaq, hərəkətlərini təqlid etmək, jest və mimikalar vasitəsi ilə ünsiyyətdən imtina etmək.

b) İşçinin sosial münasibətləri ilə bağlı davranışları.

Bu qrupa aid olan davranış nümunələri: Digər işçilərin yaxud qrup üzvlərinin qurban ilə ünsiyyət qurmasına mane olmaq, sanki işçi orada yoxmuş kimi davranmaq.

c) Qurbanın xarakteri və şəxsiyyəti ilə bağlı davranışlar.

Bu qrupa aid olan davranış nümunələri: Qurbanın arxasınca dedi-qodu etmək, qrup halında onu incitmək, onu ruhi xəstə kimi göstərmək, üstünə getmək, jestlər və səs tonu ilə onu aşağılamaq, ələ salmaq və onun qərarlarını şübhə altına almaq daxildir.

d) Həyat keyfiyyəti və peşə mövqeyinə yönləndirilmiş davranışlar.

Bu qrupa aid olan davranış nümunələri: İşçinin ixtisasına və xüsusiyyətlərinə uyğun gəlməyən yersiz, xırda, məqsədsiz, özünə inamına mənfi təsir göstərən, alçaldıcı vəzifələr vermək.

e) Fiziki davranışlar.

Bu qrupa aid olan davranış nümunələri: Fiziki zorakılıq üçün ofis avadanlıqlarını qurbana atmaq (qələm və s.) və cinsi təcavüz kimi davranışları bura aid etmək olar.

Mobbinq növlərini üç fərqli şəkildə təsnif edə bilərik [https://acikerisim.tbmm.gov.tr/xmlui/handle/11543/2292]. Bunlar aşağıdakılardır:

1. Yuxarıdan aşağıya doğru olan mobbinq: Daha yüksək vəzifələrdəkilərin tabeliyində olan şəxslərə qarşı psixoloji təqib hallarıdır. Vəzifəli şəxslər sahib olduqları təşkilati güc vasitəsi ilə işçilərinə qarşı təzyiq göstərərək, tabeliyində olanları əzməklə, onları təşkilatdan kənarlaşdırmaq məqsədini güdürlər.

Məsələn, bir vəzifəli şəxsə tabe olan işçinin ondan daha müvəffəqiyyətli olması, yaxud daha gənc, uğurlu işçiyə qarşı, siyasi və mənəvi fikir ayrılıqları və s. bu növ mobbinqin yaranma səbəblərinə aid etmək olar. Üst səviyyədəki icraçı şəxs, özünü daha güclü göstərməklə korporativ şəxsiyyətinin arxasında gizlənərək işçilərini sarsıtmağa çalışır.

Mobbinqin tətbiq edilən bu növündə idarəedici, işə götürən, işə götürənin nümayəndəsi və s. güclərini işdəki iyerarxiyadan alırlar. Təəssüf ki, rəhbərlik idarəetmə, təlimat vermək kimi səlahiyyətləri mənfi yöndə istifadə edirlər.

2. Üfuqi psixoloji təcavüz: İş yerində psixoloji təcavüz eyni səviyyədə və ya eyni iyerarxik qrupda olanların bir-birlərinə qarşı tətbiq etdikləri davranışların hamısını təşkil edir. Mobbinqin bu növünün təsiri nəticəsində bərabər şərtlər altında çalışan işçilərin öz aralarındaki paxıllığı çoxalır, eyni vəzifədəki işçilərin maraqlarının toqquşması, şəxsi narazılıqları, eyni mövqedə olanlar arasındakı rəqabətlər və rəhbərə edilən şikayətlər artır.

3. Aşağıdan yuxarıya doğru olan mobbinq: İşçinin menecerə qarşı olan psixoloji təzyiqi və zorakılığın tətbiqidir. Bu nadir hallarda yaranan bir vəziyyətdir. Məsələn, işçilər meneceri qəbul edə bilmir, işçinin köhnə idarəçiyə qarşı olan sədaqət və ya yeni idarəçiyə qarşı olan paxıllıq kimi hisslər keçirdiyi vəziyyətlərdə yarana bilər. Yəni, tabeçilikdə olan işçilərin rəhbərlərinə qarşı fərdi ya da qrup şəklində hərəkət edərək, tətbiq etdikləri psixoloji təzyiq və zorakılıq davranışları özündə mobbinq təşkil edir.

Burada psixoloji təzyiqin yaranması üçün birdən çox işçinin birgə hərəkət etməsi lazımdır. Beləliklə, aşağı səviyyəli bir neçə işçi mobbinq fəaliyyətini yaratmaq üçün rəhbərlik əleyhinə güc balansını dəyişdirərək birgə hərəkət edirlər. Rəhbərlərin səlahiyyətləri işçilər tərəfindən müzakirə edildiyi hallarda meydana çıxır. Ümumiyyətlə, işdə işçilər qrup halında mobbinqi tətbiq edirlər. Psixoloji təsir göstərənlər idarəçilərini rəhbərlik qarşısında alçaltmağa meyilli olurlar.

Araşdırmalara görə, mobbinq sadəcə bir hadisə deyil, tədricən, ardıcıl, addım-addım baş verən və dəyişkən bir proses olduğu müəyyən olmunmuşdur. Təcavüzün ilkin mərhələlərində mobbinqi müəyyən etmək asan deyildir; çünki təcavüzkar qurbana qarşı adətən dolayı və ağıllı hərəkət edir. Davranışlarını təşkilatın arxasına və statusunun altında gizlədir. Daha sonra birbaşa aqressiv hərəkətlər meydana çıxmağa başlayır [Çobanoğlu, 2014: 75-76].

Qurban açıq şəkildə kənarlaşdırılır və təcrid olunur, ictimaiyyət qarşısında alçaldılır. Nəticədə bütün fiziki və psixoloji zorakılıq vasitələrindən istifadə olunur. Mobbinq prosesində qurbana ən çox təsir edən mobbinqin tezliyi, təkrarlanan olması və məruz qalma müddətidir. Psixoloji zorakılığın şiddəti və müddəti artdıqca təsiri də artır.

Leymann mobbinqi beş mərhələdən ibarət bir proses olaraq tesnif etmişdir. Bu mərhələlər aşağıdakılardır:

1. *Münaqişə və mübahisə*:

Təşkilat daxilində münaqişə, mobbinqə tekan verici, tətikləyici ünsürü təşkil edir. Bu mərhələdə qurbanın hələ də fiziki və ya psixoloji heç bir narahatlıq hiss etməməsi mümkündür.

2. *Aqressiv davranışlar*:

Bu mərhələdə psixoloji hücumlar başlayır. Qurban, qrupda tək qalır və "günah keçisi"nə çevrilir.

3. *Rəhbərliyin iştirakı*:

Rəhbərliyin mobbinqdə iştirak etdiyi prosesdir və qurbana qarşı mövqe tutur. Qurban indi mütəşəkkil və institusional qüvvə ilə üz-üzədir.

4. *Çətin və ruhi xəstə kimi stiqma*:

Qurbanda psixoloji və fiziki pozuntularının başladığı mərhələdir. Təşkilat tərəfindən, paranoid, ruhi xəstə ve çətin insan kimi damğalanmış qurban ona qarşı haqqsızlıq edildiyi və pis reftara məruz qaldığı kimi mənfi hisslərlə güclənir.

5. *İşdən çıxarılma*:

Bu mərhələdə qurbanın iş yerindəki mövqeyi idarəçi tərəfindən dəfələrlə dəyişdirilir. Nəticədə qurban istefa verir və ya erkən təqaüdə çıxmağını tələb edir [https://acikerisim.tbmm.gov.tr/xmlui/handle/11543/2292].

Təşkilatlarda bəzi çox yayılmış mobbinq davranışları mövcuddur [https://mobbing.org.tr/mobbing-nedir-unsurlari-nelerdir/]. Onları aşağıdakı kimi sadalamaq olar:

• görülən işlər daim tənqid olunur;
• insana məhəl qoyulmur və ona qarşı sanki o yoxmuş kimi rəftar edilir;
• məruz qalan şəxslərin dini və siyasi baxışları ələ salınır;
• məruz qalan şəxs haqqında əsassız şayiələr yayılır;
• məruz qalan şəxslərin hərəkətlərini təqlid edərək onları gülünc vəziyyətə salmağa və alçaltmağa çalışırlar;
• cinsi təlqinlər və ya şifahi cinsi təqiblər edilir;
• verilən iş geri əlindən alınır, insanın özünə inamı sarsılır;
• reputasiya və karyerasına xələl gətirmək üçün bacarığından kənar iş verilir;
• psixoloji və fiziki cəhətdən ağır iş təyin edilir;
• qəddar davranış nümayiş edilir;
• digər şəxs tərəfindən lazımsız suallarla narahat edilir;
• hər hansı bir mövzu barədə səhv olsa belə, özünün doğru bildiyi mövqe israr edilir;
• inamsızlıq səbəbindən işçilərə səlahiyyət verilmir;
• tənqid və alçaldmaqla, hədələyici münasibət göstərilir;
• bilə-bilə pis niyyətli və şəxsiyyəti alçaldıcı davranışlar sərgilənir.

Ümumiyyətlə mobbinqin qurbana təsiri mənfidir və şəxsin fərdi xüsusiyyətlərindən asılı olaraq dəyişə bilər. Psixoloji təzyiq qurban üçün fiziki və zehni narahatlığa, sosial və iqtisadi problemlərə səbəb olur. Diqqət, konsentrasiya problemi, sosial təcrid və adaptasiya problemləri, gərginlik, əsəb, hirs, inciklik, yüksək təzyiq, davamlı yuxu problemi, narahatlıq, ümidsizlik, mədə-bağırsaq problemləri, həddindən artıq kilo almaq və ya itirmək, alkoqol və ya dərman asılılığı, müalicə xərcləri, işdən uzaqlaşmaq, tez-tez gecikmək, tez-tez istifadə olunan xəstəliklə əlaqəli icazələri, ağır depressiya və digər ciddi xəstəliklər, müxtəlif psixosomatik xəstəliklər, qəzalar, intihar cəhdləri, çarəsizlik hissi kimi halları mobbinqin təsiri ilə yaranan vəziyyətlərə aid etmek olar [Leymann ve Gustafsson, 1996: 251-275].

Bir işçinin rəhbər və ya iş yoldaşları tərəfindən təcrid olunması, məqsədli şəkildə müəssisədən getməsinə hazırlıq görülməsi, izolyasiya olunması onu çıxılmaz vəziyyətdə qoyur. Bir

neçə Avropa ölkəsində artıq həmkarlar ittifaqı və sosial qurumlar işçinin mobbinqə uğradığı barədə şikayətləri qəbul edir, araşdırır və sübut olunarsa, həmin insana qarşı mobbinq tətbiq edən rəhbər və ya fərd cəzalandırılır.

Bu sahədəki məhdud məlumatlar göstərmişdir ki, "mobbinq" həm ABŞ-da, həm də Avropada qeyri-adi bir vəziyyət deyildir. BƏT (Beynəlxalq Əmək Təşkilatı) "İşdə zorakılıq" adlı hesabatında zorakılıq və mobbinqi müəyyən edir və buraya mobbinqin ən çox yayıldığı ölkələr üçün tövsiyələr daxil edilmişdir.

Bildirilir ki, ABŞ-da təxminən hər 6 işçidən 1-i iş yerində mobbinq qurbanı olur və bu rəqəm 11% təşkil edir. ABŞ-da dövlət işçilərini əhatə edən araşdırmada qadın işçilərin 42%-nin və kişi işçilərin 15%-nin son iki ildə iş yerində emosional təzyiq və zorakılığa məruz qaldığı, İsveçdə isə intiharların 15%-nin "mobbinq" səbəbindən baş verdiyi bildirilir.

"Mobbinq"ə bəzi peşə qruplarında daha çox rast gəlinir. Tayvanda səhiyyə işçiləri arasında aparılan bir araşdırmada, "mobbinq"in yayılmasının son bir ildə 50,9% olduğu və şifahi və fiziki şiddətdən daha yüksək nisbətdə görüldüyü qeyd edilmişdir. Bosniyada tibb işçiləri arasında aparılan bir araşdırmada, insanların 76%-nin "mobbinq" davranışına məruz qaldığı, 26%-nin isə davamlı və təkrarlayıcı olduğu bildirilmişdir. Bu vəziyyətin psixi pozuntularının inkişafı ilə əlaqəli olduğu da qeyd edilirmişdir. Eləcə də Türkiyədə tibb bacıları arasında aparılan araşdırmada son bir ildə "mobbinq" davranışına məruz qalma nisbətinin 86,5% olduğu bildirilmişdir. Fransa mobbinqin ən çox rast gəlindiyi ölkələrdən biridir və kişilər arasında 11,2%, qadınlar arasında isə 8,9% nisbətindədir. Almaniya mobbinq fenomeninə qarşı ən ciddi sanksiyaların tətbiq olunduğu ölkələrdən biridir. Mobbinq qurbanları erkən təqaüd tələb edə bilər və ölkədə mobbinq qurbanlarının kömək və dəstək axtara biləcəyi mərkəzlər mövcuddur. Almaniyada əmək qabiliyyətli əhalinin 2,7%-nin mobbinqə məruz qaldığı məlumdur. İsveçrədə isə mobbinq səbəbilə aşkar olunan intihar nisbəti 10% olaraq təyin olunur [https://dergipark.org.tr/tr/pub/denetisim/issue/22467/240296; https://psikiyatri.org.tr/halka-yonelik/15/yildirma-mobbing].

## Ədəbiyyat:

*Altuntaş, C.* (2010). Mobbing Kavrami Ve Örnekleri Üzerine Uygulamali Bir Çalişma. Yaşar Üniversitesi E-Dergisi , 5 (18) , 2995-3015 . Retrieved from https://dergipark.org.tr/tr/pub/jyasar/issue/19130/203001

*Çalışma ve Sosyal Güvenlik Bakanlığı Çalışma Genel Müdürlüğü,İşyerlerinde Psikolojik Taciz (Mobbing)*, Bilgilendirme Rehberi, Ankara, Mayıs 2013, s.10-13.

*Cobanoglu, S.* (2005). Mobbing: Attack in the workplace and Emotional Control Methods. İstanbul: Timaş Publications.

*Çobanoğlu, Şaban*. (2014). Mobbing Nedir, İş Hayatını Nasıl Etkiler, (Erişim tarihi:10 Şubat). s.75-76.

*Erdoğan, Gülnur*. (2009). Mobbing İş Yerinde Psikolojik Taciz, TBB Dergisi, Sayı:83, s.318.

*Kayhan, N.* (2018). Üniversitelerde Mobbing İle Mücadele Ve Kurumsallaşma Sorunlari. Ombudsman Akademik , (8) , 39-58 . DOI: 10.32002/ombudsmanakademik.443442, s.42

*Kirel, C.* (2008). Psychological Harassment (Mobbing)in Organizations and Management. Eskişehir: Anadolu University Publications.

*Leymann, H.* (1990). Mobbing and Psychological Terror at Workplaces. Violence and Victims, 5 (2), 119-126

*Leymann, H.* (1996). The Content and Development of Mobbing at Work. European Journal of Work and Organizational Psychology, 5 (2), 165-184.

*Leymann, H. ve Gustafsson, A.* (1996). Mobbing at Work and the Development of Post-Traumatic Stress Disorders. European Journal of Work and Organizational Psychology, 5 (2), 251-275.

*Öztürk, Hilal, Dereli, Eke Elif, İpek, Nazenin, Müdüroğlu, Ay* (2015). Nişantaşı Üniversitesi MYO, İstanbul-Türkiye Sağlık Akademisyenleri Dergisi, 2015; 2(1):27-33 ISSN: 2146-8389 27 Derleme / Review Mobbing (psikolojik yıldırma), örgüt üzerindeki etkileri ve çözüm önerileri Mobbing, effects on organizations and solutions.

*Tınaz, Pınar*. (2006). İşyerinde Psikolojik Taciz (Mobbing),Beta Yayınları, İstanbul, s.21.

*Türkiye İşveren Sendikaları Konfederasyonu, Psikolojik Taciz (Mobbing) İle Mücadelede İşletme Rehberi*, 5 Mart (2012),Yayın No: 321, s.7.

*Yılmaz, H. ve Kaymaz, A.* (2014). Kurumsal Bir Risk Unsuru: Mobbing (İş Yerinde Psikolojik Taciz). Denetişim, (14), 73-81.

https://dergipark.org.tr/tr/pub/denetisim/issue/22467/240296 Retrieved from. Yöntemleri, (2005). 1. Baskı, Timaş Yayınları, İstanbul, s.21,22,45.
http://www.turkhukuksitesi.com/makale_1293.htm
https://acikerisim.tbmm.gov.tr/xmlui/handle/11543/2292
https://mobbing.org.tr/mobbing-nedir-unsurlari-nelerdir/
https://psikiyatri.org.tr/halka-yonelik/15/yildirma-mobbing
https://www.doktortakvimi.com/blog/mobbing-nedenleri

# DİQQƏT ƏSKİKLİYİ VƏ HİPERAKTİVLİK POZUNTUSUNUN SƏBƏBLƏRİ HAQQINDA

**Kəmalə AĞAYEVA**
Bakı Dövlət Universiteti,
Psixologiya kafedrasının doktorantı,
*Azərbaycan, BAKI*
kaghayevawall@gmail.com; kamala.aghayeva.sardar@bsu.edu.az
https://orcid.org/0009-0002-6018-1264

**XÜLASƏ**

Diqqət əskikliyi və hiperaktivlik pozuntusunun əsas səbəbləri çoxşaxəlidir və hələ də tam başa düşülmür. Genetik faktorlar əhəmiyyətli rol oynasa da, onlar təkbaşına təsir göstərmir. Prenatal və erkən uşaqlıq dövründəki ətraf mühit faktorları genetik meyllərlə qarşılıqlı təsirdə olaraq DƏHP riskini artırır. Bu faktorların birgə necə qarşılıqlı təsir etdiyini və pozuntunun yaranmasında rolu olan spesifik genetik və ətraf mühit mexanizmlərini müəyyən etmək üçün daha çox tədqiqatlara ehtiyac var. Bu bilik nəticədə diqqət əskikliyi və hiperaktivlik pozuntusunun qarşısının alınması və müalicə üsullarını təkmilləşdirməyə kömək edəcəkdir.

**Açar sözlər:** diqqət əskikliyi, impulsivlik, hiperaktivlik, genetik faktorlar, risk faktorları.

# ATTENTION DEFICIT AND HYPERACTIVITY DISORDER ABOUT THE CAUSES

**Kamala AGHAYEVA-WALL**
Baku State University,
PhD student of Department of Psychology,
*Azerbaijan, BAKU*
kaghayevawall@gmail.com
kaghayevawall@gmail.com; kamala.aghayeva.sardar@bsu.edu.az
https://orcid.org/0009-0002-6018-1264

**SUMMARY**

The underlying causes of DƏHP are multifaceted and remain only partially understood. While genetic factors play a significant role, they do not act in isolation. Environmental factors, both prenatal and early childhood, interact with genetic predispositions to increase the risk of DƏHP. Ongoing research is needed to clarify how these factors work together and to identify specific genetic and environmental mechanisms involved in the disorder's development. This knowledge will ultimately help improve both prevention and treatment strategies for DƏHP.

**Key words:** attention deficit, impulsivity, hyperactivity, genetic factors, risk factors.

## GİRİŞ

Diqqət əskikliyi və hiperaktivlik pozuntusu (DƏHP) uşaqlığın neyroinkişaf pozuntusudur. Son dövrlərdə bu diaqnozun daha çox qoyulması ilə diqqəti cəlb edir. Epidemioloji məlumatlar göstərir ki, dünya üzrə uşaqlar arasında diqqət əskikliyi və hiperaktivlik pozuntusunun yayılma tezliyi 5%-dən 10%-ə qədərdir [Polanczyk and others, 2014]. DƏHP-in yaranma səbəbləri haqda davamlı araşdırmalar aparılır. Bir çox faktorlar nəzərdən keçirilsə də, hələ də pozuntunun dəqiq səbəbləri barədə tam razılıq əldə edilməyib. Genetik faktorlar DƏHP yaranmasında əhəmiyyətli rol

oynayır və genetik təsirlər pozuntunun təxminən 70%-80%-ini izah edir [Faraone and others, 2019]. Əkizlər, övladlığa verilmiş uşaqlarla onların bioloji ailələri üzərində aparılan tədqiqatlar genetik faktorların rolunu daha da təsdiq edir. DƏHP riski bioloji valideynlər və onların övladları arasında daha yüksəkdir, bu da irsi meylliliyi göstərir. Əkizlər üzərində aparılan tədqiqatlar da göstərir ki, monozigot əkizlərin birində DƏHP varsa, digər əkizdə də DƏHP olma ehtimalı dizigot əkizlərdən daha yüksəkdir. Bu güclü genetik komponentə baxmayaraq, DƏHP-in inkişafında iştirak edən konkret genlər hələ tam olaraq müəyyən edilməyib və pozuntu poligenik hesab olunur. Pozuntunun tək bir gen tərəfindən idarə edilmədiyi, əksinə, bir neçə genetik variasiyanın qarşılıqlı təsir göstərərək fərdin həssaslığını artırdığı düşünülür. Genetika şübhəsiz ki, əsas rol oynasa da, təkbaşına fəaliyyət göstərmir. Ətraf mühit risk faktorları da DƏHP-in inkişafında mühüm rol oynayır, xüsusən də genetik meyllərlə qarşılıqlı əlaqədə olduqda. Müxtəlif prenatal və perinatal faktorlar pozuntunun yaranmasına töhfə verə bilən potensial səbəblər kimi müəyyən edilib. DƏHP yaranmasının səbəblərinin bilinməsi həm profilaktik tədbirlərin hazırlanması, həm də düzgün və vaxtında müdaxilə üsullarının seçilməsi baxımından əhəmiyyətlidir.

Diqqət əksikliyi və hiperaktivlik pozuntusunun etiologiyası mürəkkəbdir və tam olaraq başa düşülməmişdir. DƏHP iki əsas simptom qrupunu əhatə edən müxtəlif simptomlarla xarakterizə olunur: diqqətsizlik və hiperaktivlik-impulsivlik. Uşaqda bu qruplara aid olan müxtəlif əlamətlər ola bilər və bunlar müxtəlif kombinasiyalarda təzahür edə bilər ki, bu da xəstəliyin heterogenliyini daha da vurğulayır. Hətta bəzi tədqiqatçılar belə hesab edir ki, DƏHP bir pozuntu deyil, ona spektr kimi də baxmaq olar [Tripp & Wickens, 2009]. Genetik faktorların DƏHP-in inkişafında əsas rol oynadığı geniş şəkildə qəbul olunur [Chen and others, 2017: 231-239; Chen and others, 2008].

Ailələr üzərində aparılan tədqiqatlar davamlı olaraq göstərir ki, hər hansı ailə üzvündə DƏHP olan uşaqlar bu pozuntuya malik olmayan ailələrlə müqayisədə iki-səkkiz dəfə daha yüksək risk altındadırlar. Övladlığa götürülmüş uşaqlar və onların ailələri üzərində aparılmış tədqiqatlar da göstərir ki, uşağın yaşadığı ailə ilə müqayisədə bioloji valideynlərlə övladlığa verilmiş uşaqlar arasında DƏHP riski daha çoxdur. Bu da irsi meyilliyi göstərir. DƏHP-in inkişafında iştirak edən spesifik genlər hələ də geniş şəkildə müəyyən edilməmişdir. Cari tədqiqatlar DƏHP-in poligen pozuntu olduğunu göstərir, yəni onun inkişafına çox güman ki, bir neçə gen təsir edir və bu, tək bir genetik mutasiyadan qaynaqlanmır. Bu poligenik təbiət xəstəliyin dəqiq genetik səbəblərini müəyyən etmə səylərini daha da çətinləşdirir, çünki bir neçə genetik variasiya mürəkkəb yollarla qarşılıqlı təsir göstərərək DƏHP yaranmasına həssaslığı artıra bilər. Bəzi tədqiqatlar göstərir ki, bu genetik faktorlar əsas neyrobioloji proseslərə, o cümlədən dopamin tənzimlənməsinə, impulsivliyə nəzarətə və icraedici funksiyalara təsir edə bilər ki, bunlar da DƏHP simptomları ilə sıx əlaqəlidir. Lakin dəqiq genləri və onların fəaliyyət mexanizmlərini müəyyən etmək hələ də araşdırılır. Genetik meyillikdən əlavə, ətraf mühit və prenatal risk faktorları, xüsusən də genetik həssaslığa malik olan fərdlərdə, DƏHP-in inkişafına əhəmiyyətli dərəcədə təsir edir. Məsələn, hamiləlik zamanı və ya erkən uşaqlıqda qurğuşun kimi ətraf mühit toksinlərinə məruz qalmaq DƏHP riskini artırmaqla əlaqələndirilir. Eyni şəkildə, hamiləlik dövründə ananın spirt istehlakı, siqaret çəkməsi və zəif qidalanma kimi davranışlar da uşaqlarda DƏHP inkişafı ehtimalının daha yüksək olması ilə əlaqələndirilir. Vaxtından əvvəl doğuş və aşağı doğum çəkisi də DƏHP risk faktorları kimi qəbul edilir, çünki bu şərtlər çox vaxt DƏHP-nin inkişaf riskini artıra bilən neyroinkişaf pozuntuları ilə əlaqələndirilir. Hamiləlik dövründə ətraf mühit toksinlərinə, məsələn, qurğuşuna məruz qalmaq, beynin inkişafına mənfi təsir göstərərək DƏHP ehtimalını artırır. Hamiləlik dövründə ananın zərərli vərdişləri, o cümlədən siqaret çəkmək və spirt qəbul etmək də övladlarda DƏHP riskinin artması ilə əlaqələndirilir. Bu maddələr döldə sinir sisteminin inkişafına müdaxilə edə bilər və uzunmüddətli idrak və davranış problemlərinə səbəb ola bilər. Vaxtından əvvəl doğuş, aşağı çəki ilə doğulma və doğuş zamanı ananın yaşının çox aşağı olamsı da DƏHP riskinin artması ilə əlaqələndirilmiş digər faktorlardır. Bundan əlavə, doğuşdan sonrakı dövrdə beyinə travma, xüsusən erkən uşaqlıqda,

DƏHP riskini artıran bir amil ola bilər. Travmatik beyin zədələri beynin diqqəti tənzimləmə və impuls nəzarəti qabiliyyətinə təsir göstərə bilər və beləliklə, DƏHP riskini artırır. Bu prenatal və postnatal faktorların təsiri birlikdə, xüsusən də genetik həssaslıqlarla birləşəndə, DƏHP riski əhəmiyyətli dərəcədə artır. DƏHP olan uşaqların beyni ilə normal uşaqların beyinlərini müqayisə etdikdə bəzi fərqlər görünür, məsələn, beynin bəzi hissələri onlarda daha kiçik, digər hissələri daha böyük olur. Lakin bu fərqlərin nə qədər əhəmiyyətli olduğu haqda dəqiq fikirlər yoxdur. Neyrotransmitterlərin rolu. Beynimiz sanki telefon şəbəkəsi kimidir. Fərq ondadır ki, telefon şəbəkəsində əlaqələr elektrik əlaqələridir, elektrik fiziki əlaqə vasitəsilə keçir. Beyində isə əlaqələr kimyəvi əlaqələrdir. Bir sinir hüceyrəsi müəyyən bir kimyəvi maddəni kiçik miqdarda buraxır, ikinci sinir hüceyrəsi bu kimyəvi maddəni qəbul edir və sanki "alışır". Bu kimyəvi maddələr neyrotransmitterlər adlanır. Hər hansı bir transmitter kifayət qədər olmasa, onda ikinci hüceyrəyə məlumat getməyəcək. Bu zaman sinir hüceyrələri pozulmamış olsa da, əlaqələr qırılır. Beynin müxtəlif hissələrində müxtəlif neyrotransmitterlər vardır. Həmin neyrotransmitterin miqdarı kifayət qədər olmasa, beynin həmin hissəsinin funksiyası normal olmayacaq. Bəzi tədqiqatşılar ehtimal edirlər ki, DƏHP olan uşaqlarda bəzi neyrotransmitterlər çatışmır. Normal beyin doğuş vaxtı tam yetkin deyil. Anadan olanda beyində neyronların sayı böyük adamdakı kimi olsa da, get-gedə neyron əlaqələrinin sayı artır və elə sürətlə artır ki, bir müddətdən sonra bu əlaqələrin sayı həddən artıq olur. Beyin lazımsız neyron əlaqələrinin sayını azaltmalıdır və yeniyetməlik və iyirmi yaşlarında beyində əsasən o neyron əlaqələri olur ki, indiyə qədər yaşadığı mühitdə normal funksiya göstərməsinə faydalı olsun. Bu yaş dövrlərində insanın davranışı elə bu dəyişikliklərə uyğundur. 4 yaşlı uşağın diqqəti məhduddur, 10 yaşına kimi yaxşılaşır, 20 yaşında isə artıq böyüklərə uyğun konsentrasiyaya malik olur və beyin artıq demək olar formalaşmış olur. Bütün digər mürəkkəb funksiyalar eyni yolla inkişaf edir. DƏHP olan uşaq isə öz yaşından üç-dörd il kiçik uşaq kimi davranır. Onun beyni daha az yetkin uşaq beyninə bənzəyir. Bir çox tədqiqatlar göstərmişdir ki, DƏHP olan uşaqlarda diqqət və sair kimi funksiyalar üçün beyin hüceyrələri arasında olan əlaqələr anormaldır, yaxud tam inkişaf etməyib. Bu cür anormallıq çox erkən vaxtlardan, hətta ehtimal olunur ki, doğuşdan bəri mövcud olur və inkişaf prosesinin nəticəsi hesab etmək olar.

Tədqiqatlar həmçinin valideynlərin psixi pozğunluqları ilə onların övladlarında DƏHP inkişafı arasındakı əlaqəni araşdırmışdır. Joelsson və başqalarının apardığı tədqiqat valideynlərin psixi vəziyyəti ilə onların uşaqlarında DƏHP riskinin artması arasında əlaqə olduğunu göstərən güclü sübutlar təqdim etdi [Joelsson and others, 2017]. Bu əlaqənin arxasında duran mexanizmlər mürəkkəb və çoxşaxəlidir. Genetik meyilliklər şübhəsiz ki, əsas rol oynayır, çünki psixi pozuntular genetik həssaslıq səbəbindən ailə üzvlərində daha çox rast gəlinir. Lakin ətraf mühit faktorları da bu əlaqəyə təsir edir. Məsələn, hamiləlik dövründə ananın keçirdiyi stres, psixi pozuntular nəticəsində daha da güclü ola bilər, bu da döldə beyinin inkişafına mənfi təsir göstərə bilər. Hamiləlik zamanı psixotrop dərmanlardan istifadə, bəzən zəruri olsa da, potensial risk faktoru kimi qəbul edilir, lakin sübutlar hələ də qənaətbəxş deyil. Bundan əlavə, psixi pozuntularla tez-tez əlaqəli olan riskli davranışlar, məsələn, maddə istifadəsi və ya zəif prenatal qulluq, DƏHP ehtimalını daha da artıra bilər. Hamiləlik və ya doğuş zamanı yaranan fəsadlar, o cümlədən vaxtından əvvəl doğuş və ya aşağı doğum çəkisi, valideynlərin psixi pozuntuları ilə onların övladlarındakı DƏHP arasındakı əlaqəni gücləndirə bilər. Doğuşdan sonrakı dövrdə ətraf mühitdəki stres yaradan faktorlar, məsələn, psixi xəstəliyi olan valideynlə bir evdə böyümək, mövcud genetik həssaslıqları daha da gücləndirərək DƏHP-in inkişafına kömək edə bilər. Həm anada, həm də atada rast gəlinən psixi pozğunluqların uşaqda DƏHP riskinin artması ilə əlaqəli olduğu müxtəlif tədqiqatlarla müəyyən edilmişdir. Bununla yanaşı, anada olan psixi xəstəliklərin, xüsusən də depressiya, şəxsiyyət pozğunluqları və maddə asılılığı kimi müxtəlif problemlərin uşaqda DƏHP-in inkişafı ilə daha güclü əlaqəsi olduğu müşahidə edilmişdir. Bu problemlərin anada nə vaxt başlaması uşaqda DƏHP riskinə o qədər də təsir etmir. Valideynlərin psixi pozğunluqları təsir göstərmə yolları mürəkkəb və

qarşılıqlı əlaqəlidir. Bu yollar çox güman ki, genetik, prenatal və postnatal təsirlərin birləşməsindən ibarətdir. Psixi xəstəliklərlə yanaşı, anada olan bir sıra digər xronik xəstəliklər də uşaqlarda DƏHP riskini artıra bilər. Şəkərli diabet (1-ci tip), hipotireoz, revmatoid artrit və astma kimi xəstəliklər DƏHP riskini artıran əsas xəstəliklər kimi müəyyən edilmişdir. Bu xəstəliklərin DƏHP ilə əlaqəli olmasının dəqiq mexanizmləri hələ də tam başa düşülməsə də, həm genetik meyllər, həm də ətraf mühit amillərinin əhəmiyyətli rol oynadığı ehtimal edilir. Birinci tip şəkərli diabeti olan valideynlərdən doğulan uşaqlarda DƏHP olma riski daha yüksəkdir [Instanes and others, 2017: 452–459; Ji and others, 2018: 770–774]. DƏHP üçün ən çox öyrənilən prenatal risk faktorlarından biri hamiləlik dövründə ananın siqaret çəkməsidir. Bir neçə tədqiqatın hərtərəfli meta-analizi göstərir ki, ananın siqaret çəkməsi və övladlarında DƏHP riskinin artması arasında güclü əlaqə var. Hətta ailənin psixi sağlamlıq tarixi və sosial-iqtisadi vəziyyət kimi amillərə nəzarət edildikdən sonra belə ananın siqaret çəkməsinin uşaqda DƏHP riskini artırdığını göstərən tədqiqatlar var. Analar hamiləlik zamanı siqareti erkən dayandırsalar belə, prenatal tütünə məruz qalmanın qalıq təsirləri uşağın DƏHP inkişafına təsir göstərə bilər. Hamiləliyin erkən mərhələlərində tütünə məruz qalmaq, xüsusilə sinir sisteminin inkişafı üçün kritik dövrlərdə beyin inkişafını pozaraq, gələcəkdə DƏHP riskini artıra bilər. Bunun əksinə olaraq, atanın siqaret çəkməsi və ikinci dərəcəli tütün tüstüsünə məruz qalmanın DƏHP riskini artırdığı göstərilmir [Dong and others, 2018: 63–70; Kim and others, 2020:55–70]. Lakin bəzi tədqiqatçılar ananın siqaret çəkməsi ilə DƏHP arasındakı güclü əlaqə olması fikrini sual altına alırlar. Onlar digər tədqiqatlarda bu əlaqənin şişirtmiş ola biləcəyini iddia edirlər və qeyd edirlər ki, bu əlaqə birbaşa səbəb olmaqdan çox, ölçülməmiş ailə faktorları ilə, məsələn, genetik meyllər və ya ailələrə ümumi olan ətraf mühit təsirləri ilə izah oluna bilər. Araşdırmalar, vaxtından əvvəl doğuş, xüsusən də həddindən artıq erkən doğuş halları ilə DƏHP riski arasında əhəmiyyətli bir əlaqə olduğunu göstərir. Bu nəticələr, erkən müdaxilələrin uşaqlarda gələcəkdə DƏHP simptomlarının inkişafının qarşısını almağa və ya azaltmağa kömək edə biləcəyini vurğulayaraq, vaxtından əvvəl doğulan körpələr üçün xüsusi qayğı və monitorinqin vacibliyini önə çıxarır. Qeyd olunur ki, hər keçən hamiləlik həftəsinin azalmasının DƏHP riskini daha da artırır. Bu da ana bətnində hər həftənin sinir sisteminin inkişafında nə qədər kritik əhəmiyyət kəsb etdiyini göstərir. Tədqiqatlar həmçinin uşağın anadan olarkən çəkisinin çox aşağı olmasının da DƏHP risk faktoru olduğunu göstərir. Uzunmüddətli tədqiqatlar, vaxtından əvvəl doğulma və DƏHP arasındakı əlaqəni daha da genişləndirərək, əlavə ana faktorlarını müəyyən etmişdir ki, bunlar da DƏHP riskini artırır [Franz and others, 2018]. Xüsusilə, hamiləlik dövründə anada yüksək bədən kütləsi indeksi (BKİ) və ana diabeti kimi xəstəliklərin də DƏHP riskinin artmasında əhəmiyyətli rol oynadığı müəyyən edilmişdir. Bu nəticələr, vaxtından əvvəl doğulmuş uşaqlarda DƏHP riskinin çoxşaxəli xarakterini vurğulayır. Vaxtından əvvəl doğuşla yanaşı, prenatal dövrdə ətraf mühit çirkləndiricilərinə məruz qalma, xüsusən də sosial-iqtisadi çətinliklərlə birlikdə, uşaqlarda DƏHP simptomları riskini əhəmiyyətli dərəcədə artırdığı sübut edilmişdir. Bu, DƏHP və digər neyroinkişaf pozuntularının qarşısının alınması üçün həm ətraf mühit, həm də sosial-iqtisadi faktorları nəzərə alan ictimai səhiyyə müdaxilələrinin vacibliyini vurğulayır. Həddən artıq şəkər qəbulu, televiziya, kompüterdən, telefondan həddən artıq istifadə, səhv tərbiyə, uğursuz ailədə böyümə və sair kimi səbəblər də göstərilir. Lakin bu səbəblərin nə dərəcədə rol oynadığı tədqiqatlarda sübut olunmamışdır (səbəb olduğu, yaxud olmadığı). Uşaqların hansı mühitdə böyüməsi, gördüyü tərbiyə DƏHP-nin əlamətlərini artıra, yaxud azalda bilər, lakin özlüyündə DƏHP yarada bilməz.

DƏHP haqqında araşdırmalarda vacib məqam onun müxtəlif şəkildə təzahür etməsidir. Eyni risk faktorlarına məruz qalan bütün uşaqlarda DƏHP yaranmır və əksinə, heç bir aşkar risk faktoru olmayan bəzi uşaqlarda bu pozuntu özünü göstərə bilər. Bu vəziyyət DƏHP-in mürəkkəb etiologiyaya malik olduğunu göstərir və həm genetik meyllər, həm də ətraf mühit təsirləri burada əsas rol oynayır. DƏHP-in inkişafına tək bir amil deyil, genetik və ətraf mühit faktorlarının qarşılıqlı təsiri mərkəzi rol oynayır. Genetik meyllər uşağın müəyyən ətraf mühit stress faktorlarına qarşı

həssaslığını artıra bilər və bu, DƏHP inkişaf riskini yüksəldir. Məsələn, DƏHP-ə genetik meylliliyi olan uşaq prenatal toksinlərə, erkən uşaqlıq travmasına və ya valideynlərin psixopatologiyasına daha həssas ola bilər ki, bu da DƏHP riskini artırır. Genetik və ətraf mühit faktorlarının qarşılıqlı təsirini araşdırmaq zəruridir, çünki bu, uşaqlarda DƏHP-ə fərqli həssaslığın açarını təşkil edir. Bu mürəkkəb qarşılıqlı əlaqələri müəyyən etmək, həm genetik, həm də ətraf mühit risk faktorlarını daha təsirli şəkildə hədəf alan erkən müdaxilə strategiyalarının inkişafına kömək edəcəkdir. DƏHP-in yayılmasının azaldılmasına yönəlmiş ictimai səhiyyə strategiyaları, prenatal dövrdə qayğını yaxşılaşdırmaq, ətraf mühit çirkləndiricilərinə məruz qalmanı azaltmaq və sosial-iqtisadi fərqlilikləri aradan qaldırmağa fokuslanmalıdır. Bu inteqrativ yanaşma yalnız risk altında olan uşaqlarda DƏHP-in başlanmasının qarşısını almaqla kifayətlənməyəcək, həm də artıq diaqnoz qoyulmuş uşaqlar üçün uzunmüddətli nəticələri yaxşılaşdıracaqdır.

## NƏTİCƏ

DƏHP həm genetik, həm də ətraf mühit mənşəli çoxfaktorlu bir pozuntudur. Genetik faktorlar DƏHP-ə həssaslığın artmasında mühüm rol oynasa da, ətraf mühit təsirləri də onun inkişafına töhfə verir, xüsusilə də genetik meyllərlə qarşılıqlı əlaqədə olduqda. DƏHP-in etiologiyası ilə bağlı anlayışımız əhəmiyyətli dərəcədə inkişaf etsə də, genetik və ətraf mühit faktorlarının bu pozuntunun inkişafına necə birgə təsir göstərdiyini araşdırmaq üçün daha çox tədqiqatlara ehtiyac var. Bu bilik nəticədə DƏHP olan şəxslərin həyatları boyunca diaqnostika, müalicə və qarşısının alınmasına daha fərdiləşdirilmiş yanaşmaların inkişafını təmin edəcəkdir.

## Ədəbiyyat:

*Polanczyk GV, Willcutt EG, Salum GA, Kieling C, Rohde LA*. (2014). ADHD prevalence estimates across three decades: an updated systematic review and meta-regression analysis. Int J Epidemiol. Apr; 43(2): 434-42. DOI: 10.1093/ije/dyt261. Epub 2014 Jan 24. PMID: 24464188; PMCID: PMC4817588.

*Faraone SV, Larsson H.* (2019). Genetics of attention deficit hyperactivity disorder. Mol Psychiatry. Apr; 24(4): Pp.562-575.

*Tripp G, Wickens JR.* (2009). Neurobiology of ADHD. Neuropharmacology. Dec; 57(7-8): 579-89. DOI: 10.1016/j.neuropharm.2009.07.026. Epub 2009 Jul 21. PMID: 19627998.

*Chen, Q; Brikell, I; Lichtenstein, P* et al. (2017). Familial aggregation of attention-deficit/hyperactivity disorder. J Child Psychol Psychiatry; 58, pp. 231-239.

*Chen W, Zhou K, Sham P, Franke B, Kuntsi J, Campbell D, et al.* (2008). DSM-IV combined type ADHD shows familial association with sibling trait scores: a sampling strategy for QTL linkage. Am J Med Genet B Neuropsychiatr Genet. 147B: 1450–60.

*Joelsson, P., Chudal, R., Uotila, J., Suominen, A., Sucksdorff, D., Gyllenberg, D., & Sourander, A*. (2017). Parental psychopathology and offspring attention-deficit/hyperactivity disorder in a nationwide sample. Journal of Psychiatric Research, 94, 124-130. https://doi.org/10.1016/j.jpsychires.2017.07.011

*Instanes, J.T., Halmøy, A., Engeland, A., Haavik, J., Furu, K., and Klungsøyr, K.* (2017). Attentiondeficit/hyperactivity disorder in offspring of mothers with inflammatory and immune system diseases. Biol. Psychiatry 81, pp. 452–459.

*Ji, J., Chen, T., Sundquist, J., and Sundquist, K.* (2018). Type 1 Diabetes in Parents and Risk of Attention Deficit/Hyperactivity Disorder in Offspring: A Population-Based Study in Sweden. Diabetes Care 41, 770–774. doi: 10.2337/dc17-0592

*Dong, T., Hu, W., Zhou, X., Lin, H., Lan, L., Hang, B., et al.* (2018). Prenatal exposure to maternal smoking during pregnancy and attention-deficit/hyperactivity disorder in offspring: A meta-analysis. Reproduct. Toxicol. 76, 63–70.

*Kim JH, Kim JY, Lee J, Jeong GH, Lee E, Lee S, et al.* (2020). Environmental risk factors, protective factors, and peripheral biomarkers for ADHD: an umbrella review. The Lancet Psychiatry. 7(11): 955–70.

*Franz, A. P., Bolat, G. U., Bolat, H., Matijasevich, A., Santos, I. S., Silveira, R. C., et al.* (2018). AttentionDeficit/Hyperactivity Disorder and Very Preterm/Very Low Birth Weight: A Meta-analysis. Pediatrics 141:e20171645. doi: 10.1542/peds.2017-1645

# НАРУШЕНИЯ МЕЖЛИЧНОСТНЫХ ОТНОШЕНИЙ И ЭМОЦИОНАЛЬНОГО РАЗВИТИЯ ДЕТЕЙ-СИРОТ

**Гюльнара РИЗАЕВА**
Азербайджанский Университет Языков,
старший преподаватель кафедры психологии,
*Азербайджан, БАКУ*
grizayeva01@gmail.com

**Аннотация**

Экстремальные события, травмирующие ситуации, которые происходят в жизни детей-сирот или детей, лишенных родительской опеки, могут привести к серьезным последствиям и оказать негативное влияние на жизнь ребенка. Людям, которые окружают ребенка, в условиях, когда он лишен эмоционально близких отношений с членами семьи, необходимо быть очень осторожными с такими детьми.

**Ключевые слова**: дети-сироты, травма, депривация.

# INTERPERSONAL RELATIONSHIP DISORDERS AND EMOTIONAL DEVELOPMENT OF ORPHANS

**Gulnara RIZAEVA**
Azerbaijan University of Languages,
Senior Lecturer, Department of Psychology,
*Azerbaijan, BAKU*
grizayeva01@gmail.com

**SUMMARY**

Extreme events, traumatic situations that occur in the lives of orphans or children deprived of parental care can lead to serious consequences and have a negative impact on the child’s life. People who surround a child, in conditions where he is deprived of emotionally close relationships with family members, must be very careful with such children.

**Key words:** orphans, trauma, deprivation.

## ВВЕДЕНИЕ

На всю последующую жизнь человека огромное влияние имеет период детства, о чем свидетельствуют многочисленные исследования в области психологии и психиатрии. Те условия, в которых растет ребенок, получая при этом психологические травмы в детском возрасте, различные условия воспитания влияют на воспитание ребенка. Безусловно, особую категорию составляют дети, которые воспитываются в специализированных учреждениях, без попечения родителей, потерявшие одного из родителей. Особенностью, указанной группы является то, что при воспитании эти дети лишены возможности близкого отношения со значимыми взрослыми, что приводит к их раннему депривационному опыту.

С учетом вышесказанного является анализ и обобщение уже имеющихся данных по вопросам влияния и последствия детского депривационного опыта, оценивание и распространение этих аномалий на психосоциальную адаптацию, а также на определенное формирование нарушений личности и поведения.

Дети, которые в один миг превращаются в детей-сирот, являются особенными детьми. Особенность эта заключается в том, что люди, которые окружают их, сразу в их понимании превращаются на две категории. Это счастливые и несчастные. Толкование этих слов в их

понимании является очень простым. Те дети, у которых есть оба родителя, являются счастливыми, дети, у которых отсутствует один из родителей, являются несчастными. Вся сложность ситуации и работы с этими детьми заключается в сложности и трудности этого стереотипа. Дети сироты – это дети, которые пережили в младенческом или в подростковом возрасте разлуку, трату, боль и переживания, - это тяжелые дети. Травма у таких детей сидит настолько глубоко, что даже повзрослев, это чувство обиды и тревоги не отпускает их. Такие дети наполнены травматическими переживаниями [Абабков, 1999: 4].

## ОСНОВНАЯ ЧАСТЬ

Этот негативный опыт приводит к психологическим и психотравмирующим последствиям. Соответственно, без их изучения, нельзя говорить о том, что путем каких-то мероприятий можно разрешить проблему.

Насколько показывают исследования в области социальной и клинической психологии, психиатрии, социологии, такие дети особенно нуждаются во внимании. Это связано с тем, что депривация будучи универсальным травматическим состоянием является характеристикой этих детей. Нужно отметить, что именно с депривацией можно связать психотравмирующее состояние таких детей [Абабков, 2013:1]. Несомненно, это связано с фактом дефицита эмоциональных отношений с самыми близкими людьми. У таких детей происходит отсутствие чувства самоконтроля, что повышает риск развития антисоциальных тенденций, которые приводят к нарушению становления личности [Божович, 1999: 4].

*Степень исследованности проблемы*

Нужно отметить, что есть очень много психологических работ, связанных с изучением психологического нарушения, которые связаны с семейной депривацией у подростков. Вопросы, связанные с влиянием депривации поднимали многие психиатры Г.Е.Сухарева (1965), А.Е.Личко (1983), Й.Лангмейер, З.Матейчек (1984), М.А. Буянов (1988), В.В.Ковалев (1995), Эйдемиллер Э.Г. (2001), И.О.Калачева (2003; 2006), Н.В.Вострокнутов (2003; 2008), В.А.Гурьева (1996, 2001).

Во всех психологических источниках подчеркивается важность материнского воспитания в первые три года жизни ребенка. В это время устанавливается эмоциональная взаимосвязь между ребенком и матерью. Отсутствие этого может привести к депривации с тяжелыми психологическими и психотравмирующими последствиями.

*Актуальность работы* заключается в том, что роль психотравматизации в условиях отсутствия одного родителя или тяжелой психологической ситуации в семье остается одной из актуальных тем современности. Это очень хорошо исследовано начиная с работ, посвященных детской депривации у Р.Шпиц (1951) и Дж.Боулби (1951) /R.Shpitz (1951) and J.Bowlby (1951)/.

Даже с учетом того, что термин депривация часто используется в психологической литературе, единства в этом вопросе нет.

В зарубежной литературе термин «депривация «трактуется как потеря чего-либо или недостаточность удовлетворения какой-либо потребности. Потеря здесь имеется в виду не физическая, а именно психологическая [Боулби, 2003: 3].

У.Й.Лангмейера и З.Матейчека (1984) определение депривации дается следующим образом: “Психическая депривация является психическим состоянием, возникшим в результате таких жизненных ситуаций, где субъекту не предоставляется возможности для удовлетворения некоторых его основных (жизненных) психических потребностей в достаточной мере и в течение достаточно длительного времени”. Здесь авторы выделяют 4 вида депривации: стимульную (сенсорную), депривацию значений (когнитивную, информационную), эмоциональную, социальную. Нужно отметить, что современная психология выделяет и

другие виды депривации. Такие как: образовательную, экономическую, этическую [Кулясова, 2014:7].

С точки зрения Дж.Боулби /J.Bowlby/ (1982) у детей, которым не хватает эмоциональной теплоты и привязанности, которые были лишены этого чувства, могут быть различные психические нарушения. В зависимости от категории депривации, это состояние может иметь тяжелое или быть непоправимым. Также, он отмечает и о скрытых формах депривации. Источником ее могут быть разные места, где ребенок находится. Это может быть семья, школа, различные социальные группы [Боулби, 2003: 3].

*Практическое значение*

Данная статья имеет практическое значение, так как может быть полезна для родителей и учителей в работе с такими детьми для раннего выявления депривации.

Здесь можно говорить о том, что матери этих детей не смогли справиться со своими обязанностями, обеспечивать комфортное развитие своих детей. Иными словами, можно сказать, что у детей-сирот не было гармоничного развития, где бы они, не опасаясь за свое существование, росли и познавали бы мир.

Матери этих детей-сирот сократили или лишили полностью удовлетворения основных психологических или физиологических потребностей своего чада.

В науке психологическое или физиологическое лишение называется депривацией. Обладая депривированным состоянием, личность в будущем будет тревожным, с чувством страха, в нем будет неудовлетворенность и собой, и окружением. У таких личностей часто наблюдается депрессия.

Существует материнская депривация, при котором можно говорить о синдроме патологии детских и личностных психических развитий, когда это объясняется отделением младенца от матери. Это может привести к различным серьезным патологическим факторам, связанных с личностными расстройствами. При полном присутствии материнской депривации это может привести к неправильному формированию личности ребенка, его отрицательному психическому и умственному развитию. Очень часто полная материнская депривация является причиной психических расстройств.Это можно назвать специфическим «синдромом сиротства».

К сожалению, дети-сироты, оказываясь в детских специализированных учреждениях, не могут устанавливать правильные и нужные межличностные отношения с теми, кто их окружает. Люди, находясь рядом, не могут формировать у них позитивное отношение к миру. По какой же все же причине происходит такая тенденция? Это, в первую очередь связано с тем, что в таких учреждениях существует сменяемость работающего персонала и детей. Это приводит к чувству нестабильности, изменчивости, незащищенности и как итог может тормозить психическое развитие детей-сирот. Известный английский психоаналитик Джон Боулби, который является основателем теории привязанности отметил, что у таких детей-сирот отсутствует близкие эмоциональные чувства со своим окружением, они не умеют налаживать и поддерживать долгие отношения с людьми, окружающими их. Как не обидно, он называл таких детей, детьми, лишенными любви, и считал, что они не способны любить и жалеть. Связывал он это, с отсутствием матери в раннем возрасте. Также он отмечал, что эти симптомы наблюдаются у детей, которые в какое-то определенное время жили с матерью, но потом, в силу тех или иных обстоятельств были лишены участия в их жизни.

Практически этих же взглядов придерживается другой психоаналитик Дональд Винникотт. Он утверждает тот факт, что дети, лишенные хорошего окружения или не имеющие его никогда, не могут иметь эмоционального развития и привязанности. Они как бы, подавляют в себе чувство любви и у них ко всему появляется ненависть.

Это, безусловно, самое трагичное и несправедливое по отношению к этим детям - отсутствие материнской любви. Установление эмоционального взаимоотношения и связи происходит между ребенком и матерью в первые недели и месяцы жизни младенца. Это служит не только основой взаимоотношения между матерью и ребенком, но и его взаимоотношения с окружающими людьми и отношением к самому себе в продолжении всей жизни.

Если учитывать и тот факт, что эти дети - сироты, в основном находятся в государственных учреждениях закрытого типа, то можно говорить о том, что все перечисленные факторы еще больше усугубляются. Безусловно, в последнее время в стране открыты негосударственные учреждения. Это социальные дома, по типу семей, где ребенок может максимально чувствовать себя как дома. Но эмоциональную привязанность к матери, эти дома не заменят. Обычно в государственные детские учреждения дети попадают из дома малютки, где они воспитываются до трех лет, иногда до четырех лет. У таких детей уже при поступлении в эти учреждения чувства тревожности высокие. Они, как правило, не умеют общаться, строить диалоги. Для них характерно пассивное присутствие во всем.

Дети, которые воспитываются в условиях закрытого типа, у них отсутствует продуктивное общение. Он строит свои отношения с близким окружением поверхностно, нервозно. С одной стороны он хочет привлечь к себе внимание, а с другой стороны отторгает это внимание, если оно направлено на него, ведет себя отчужденно. Казалось бы, он нуждается в любви и в заботе, но не умеет вести себя так, или строить общение таким образом, чтоб с ним дружили и любили его. Ребенок оказывается в замкнутом круге.

Чувства отчужденности, эмоциональной отдаленности, неумение строить чувственное общение - это, перечень тех отклонений, которые есть в развитии детей-сирот. У детей, живущих в детских домах, ярко выраженный эмоциональный дефицит. Когда кто-то приходит в детский дом, то все дети очень легко устанавливают с ними связь. Встречают любого человека, как родного. Смотрят на него, как потенциального родителя. При этом, они предпочитают не общение, а физическое прикосновение. То есть ласку, подержание их за руку, объятия, сидение на коленьях.

Позднее могут возникнуть и деловые отношения со взрослыми. При этом эти отношения также специфичны. Они предпочитают больше наблюдать за взрослыми, а потом выполнять их распоряжения.

У детей этой категории не возникает особого желания что-то делать наедине со взрослыми. Для них это, - как темный лес. То есть изначально такой практики взаимодействия со взрослыми не было. Поэтому этим детям очень сложно чувствовать себя полноценными участниками игр, деятельности. Эти отношения могут внезапно вызвать чувства отчужденности, безразличности. Это есть защитная реакция на испуг, неуверенность, которая хорошо маскируется. Обычно им очень трудно проявлять себя в общении. Ему никто не говорил и не показывал, какое должно быть или может быть культурное, эмоциональное общение. Эмоции являются неотъемлемой частью в общении детей дошкольного возраста. В нем ребенок находит себя и утверждается как личность. Он учится быть нужным, любимым и незаменимым. Эти чувства важны для ребенка. Исходя из этого, можно сделать вывод о том, что в детских учреждениях у ребенка происходит нарушение психического развития, которое меняет развитие его эмоциональной сферы.

Часто у таких детей быстро меняется настроение, происходит однообразность и стереотипность эмоционального проявления. Они неадекватно реагируют на замечания и похвалу; очень импульсивны, взрывные.

Все это объясняется тем, что первые годы жизни у них не было опыта общения с матерью. Безусловно, те или иные перечисленные проблемы есть и у тех детей, которые воспитываются в семье, дома. Но все, вышеперечисленные аспекты, имеют место быть у детей,

воспитывающихся в учреждениях закрытого типа. Они не просто лишены родительской ласки, внимания, заботы. Они лишены эмоциональности, чувственности, общения, проявления характера, установлении своих правил развития. Эти дети, проходят тяжелый жизненный путь становления личности. Всегда ли достигают результата эти дети? Безусловно, нет! Поэтому во взрослой жизни, с учетом даже тех факторов, когда выходцы детских домов, достигают больших высот в карьере, при одном упоминании о матери, у них появляются слезы, недосказанность и обида. Обиды, связанны с тяжелыми эмоциональными потерями, через которые прошли эти дети. Комплексы, которые сопровождают этих детей по жизни, не покидают их никогда. Это те чувства, которые не дают им чувствовать себя людьми, заслуживающими уважения и любви. Очень часто они не верят в тех людей, которые могут реально полюбить их и считать их близкими. Все эти эмоции связанны с тем, что у них не было опыта общения с матерью. Они не знают каково это быть любимым и особенным. Человек устроен таким образом, что он дарит те чувства, которые получает сам. Не получая любви, невозможно делиться им и быть открытым к общению с миром, который окружает нас общении.

## ЗАКЛЮЧЕНИЕ

Таким образом, экстремальные события, травматические ситуации, которые происходят в жизни детей-сирот или детей, лишенных родительского попечения, могут привести к тяжелым последствиям, иметь негативное последствие для жизни ребенка. Люди, которые окружают ребенка, в условиях, если он лишен эмоционально близких отношений с родными людьми, должны быть очень внимательны с такими детьми. Поэтому, задача всех педагогов, работающих с такими детьми, заключается в том, чтобы быть максимально внимательными к этим детям. Эта категория детей может быть представлена также не из закрытого учреждения. Дети-сироты, которые потеряли матерей, могут приходить в детские сады и школы также из семей, которые взяли опекунство над этими детьми. Часто бывает так, что отец сам воспитывает своих детей, без участия мамы. Эти же проблемы могут возникнуть при взаимодействии с такими детьми. Задача всех взрослых заключается в том, что независимо к какой категории относятся дети-сироты, к ним отношения должны быть добродушны. В работе с такими детьми педагоги должны проявлять заботу, внимание и терпение. Лишь в этом случае, мы можем говорить о частичном удовлетворении их потребностей в эмоциональном.

## Литература:

*Абабков, В А.* (2013). Систематическое исследование семейного стресса и копинга. №2. С.4.

*Абабков, В.А.* (2004). Защитные психологические механизмы и копинг :анализ взаимоотношений. Актуальные проблемы клинической психологии и психофизиологии. Санкт–Петербург., С.14.

*Боулби, Дж.* (2003). Привязанность. Пер.с англ. Яз. Общ.ред. Г. В. Бурменская. М., С.480.

*Божович , Л. И.* (1999). Проблемы формирования личности. Избранные психологические труды .3 е изд. Под ред. Д. И. Фельдштейна. М., С.349.

*Гурьева, В.А.* (1996). Психогенные расстройства у детей и подростков. М., С. 208.

*Запорожец, А.В., Неверович, Л. З.* (2007). Развитие социальных эмоций у детей дошкольного возраста. М., С.84.

*Кулясова, Ю.А.* (2014). Особенности воспитания в неблагополучных семьях. № 2.

*Лебедева, Л.Д.* (2001). Педагогические основы арт-терапии в образовании. М., С. 318.

*Лебединский, О.В.* (1998). Эмоциональное нарушение и их коррекция. М., С. 156.

*Ослон, В. и Холмогорова, А.* (2003). Жизнеустройство детей сирот: профессиональная замещающая семья. М., С.368.

*Овчарова, Р.В.* (2006). Родительство как психологический феномен. М., С.496.

*Хорни, К.* (1996). Новые пути в психоанализе (пер с анг. А. Боковикова ). М., С.239.

*Фрейд, З.* (2002). Влечения и неврозы. М., С.32.

*Эриксон, Э.Г.* (2000). Детство и общество. СПб. Речь. С.416.

# İNKLÜZİV SİNİFLƏRDƏ TƏLİM PROSESİNDƏ OYUNLARIN İSTİFADƏSİNİN ŞAGİRDLƏRİN PSİXO-SOSİAL DURUMUNA TƏSİRİ

**Anar XƏLƏFOV**
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
doktorant,
*Azərbaycan, BAKI*
anar.khlalafov@gmail.com
https://orcid.org/0000-0001-9856-0556

**XÜLASƏ**

Məqalə inklüziv siniflərdə təlim prosesində oyunların şagirdlərin psixo-sosial durumuna təsirini araşdırır. Azərbaycan Respublikasında 2020-ci ildən etibarən sağlamlıq imkanları məhdud uşaqların inklüziv təhsilə cəlb olunması hüquqi əsaslarla tanınmışdır. Ancaq bu məktəblərdə ənənəvi təhsil metodikasının istifadəsi inklüziv siniflərin effektivliyini məhdudlaşdırır. Beynəlxalq elmi ədəbiyyatda oyunların təlimin diferensiallaşdırılması və şagirdyönümlü təlim kimi strategiyalarda səmərəli olduğu vurğulanır. Məqalədə oyunların inklüziv siniflərdə təlimin keyfiyyətinə təsirinin araşdırılması üçün Bakı şəhərində fəaliyyət göstərən məktəblərdə tədqiqat aparılmışdır. Oyunların şagirdlərin emosional və sosial inklüziyası, akademik uğurları kimi psixo-sosial faktorlar üzərindəki təsiri "İnklüziyanın dərk edilməsinə dair sorğu anketi" ilə ölçülmüşdür. Nəticələr göstərir ki, oyunların istifadəsi təlimin keyfiyyətini yüksəltməyə və şagirdlərin təlimə daha fəal qoşulmasına müsbət təsir göstərir.

**Açar sözlər:** inklüziv sinif, təlim prosesi, oyunlar, şagird, psixo-sosial durum.

# THE USE OF GAMES IN THE EDUCATIONAL PROCESS IN INCLUSIVE CLASSES EFFECT ON PSYCHO-SOCIAL STATUS OF STUDENTS

**Anar KHALAFOV**
Azerbaijan State Pedagogical University,
doctoral student,
*Azerbaijan, BAKU*
anar.khlalafov@gmail.com
https://orcid.org/0000-0001-9856-0556

**SUMMARY**

The article investigates the impact of games on the psychosocial well-being of students in inclusive classrooms. Since 2020, children with disabilities in Azerbaijan have been legally entitled to inclusive education. However, traditional teaching methods are still used, limiting the effectiveness of inclusive classrooms. International literature highlights the effectiveness of games in strategies such as differentiated instruction and student-centered learning. A study was conducted in schools in Baku to examine the impact of games on the quality of education in inclusive classrooms. The "Perception of Inclusion Questionnaire" was used to assess the effects of games on students' emotional and social inclusion and academic success. The results indicate that using games enhances the quality of education and encourages more active student participation in the learning process.

**Key words:** inclusive class, educational process, games, student, psycho-social condition.

## GİRİŞ

2020-ci ildən etibarən Azərbaycan Respublikasının təhsil qanunvericiliyində sağlamlıq imkanları məhdud uşaqların inklüziv təhsilə cəlb olunması hüququ tanınmışdır. Bakı şəhərində və bölgələrdə hər il inklüziv siniflər təşkil olunur onlarla sağlamlıq imkanları məhdud uşaqlar tipik inkişaf edən şagirdləri ilə birgə təhsilə cəlb olunurlar. Ölkəmizdə inklüziv təhsilin inkişafı üçün qanunvericilik səviyyəsində əsaslı dəyişiklər aparılmasına baxmayaraq sinifdə ənənəvi (seqreqativ) təhsil metodikası istifadə olunmaqdadır. Nəticə etibarı ilə inklüziv siniflərdə sağlamlıq imkanları məhdud uşaqlar iştirak etsə də bir çox halda onlar bu məktəblərdə ayrılmış köməkçi otaqda xüsusi təhsil üzrə mütəxəssislə fərdi iş vasitəsi ilə bilik və bacarıqları öyrənirlər. Ümumi təhsil müəssisələrində inklüziv təhsili dəstəkləyən metodikanın və inklüziv mədəniyyətin tətbiqinin dəstəklənməsi üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 fevral 2023-cü il tarixli 43 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnklüziv təhsilin təşkili Qaydası"nın 3.5-ci bəndinə əsasən sağlamlıq imkanları məhdud uşağın təlim vaxtının minimum 50 faizinin inklüziv sinfində keçirməsi tələb olaraq müəyyənləşmişdir. Bu səbəbdən hazırda ölkəmizdə müəllim hazırlığı sahəsində fəaliyyət göstərən qurumların üzərinə düşən öhdəlik sinifdə inklüzivliyi dəstəkləyən pedaqoji metodların tədqiq edilməsi və müəllimlərə öyrədilməsidir.

Beynəlxalq elmi ədəbiyyatda inklüziv siniflərdə şagirdlərin təliminin birgə təşkil olunması üçün müxtəlif pedaqoji metodlardan və strategiyalardan istifadə olunur. İnklüziv sinifdə şagirdin öz inkişaf potensialını reallaşdırması üçün təlimdə iki əsas şərtin təmin olunması tələb olunur 1-hər bir şagirdin təlimdə fəal iştirakının təmin olunması 2-təlimin şagirdlərin ehtiyaclarına uyğunlaşdırılmasıdır.

İnklüziv siniflərdə şagirdlərin öz inkişaf potensiallarını reallaşdırmaları üçün müxtəlif pedaqoji metodlar və strategiyaların sinifdə tətbiq olunması beynəlxalq elmi ədəbiyyatda tövsiyə olunur. Onlardan ən çox elmi ədəbiyyatda vurğulanan təlimin sinifdaxili diferensiallaşdırılması, təlimdə universal dizayn, fərdi tədris planını tətbiqi, şagirdyönümlü təlim, kooperativ təlim, həmyaşıd təlimi, oyun əsaslı təlim.

Təlim prosesində oyunlardan istifadə təlimin diferensiallaşdırılması, şagirdyönümlü təlim, kooperativ təlim və həmyaşıd təlimi kimi inklüziv sinifdə istifadəsi səmərəli olduğu təsdiq edilmiş pedaqoji metodların həyata keçirilməsi üçün təlim fəaliyyəti növüdür.

İnklüziv sinifdə oyunların tətbiq olunmasının təlimin keyfiyyətinə müsbət təsiri barədə bir çox müəllimlər öz təcrübələri ilə bölüşür. Tədqiqatçılar iddia edirlər ki, oyunlar şagirdlər arasında daha müsbət qarşılıqlı münasibət formalaşdırır. Oyunda şagirdlər özləri qərar verə bilir və öz nəticələrini qiymətləndirirlər. Təlimdə oyunlardan istifadə olunduqda müəllim "öyrədən" mövqeyindən "fasilitator" roluna keçməsinə imkan yaranır. İnklüziv siniflərdə oyunların istifadəsi təlimin keyfiyyətinə müsbət təsir göstərməsi barədə bir çox müəllim və tədqiqatçılar öz məqalələrində fikirlər yazmasına baxmayaraq oyunların təlimin keyfiyyətinə təsirini ölçən tədqiqatlar çox məhdud saydadır [Hays, 2005:11]. İnklüziv siniflərdə oyunların təlimin keyfiyyətinə təsiri istiqamətində beynəlxalq elmi ədəbiyyatda ümumilikdə əsaslı tədqiqat bu günədək mövcud deyil.

Qeyd olunanları nəzərə alaraq Bakı şəhərində fəaliyyət göstərən inklüziv təhsil həyata keçirilən məktəblərdə müvafiq mövzuların tədrisində oyunlardan istifadə olunaraq və təlimin keyfiyyəti ənənəvi pedaqoji metodlarla təlim keçirilən siniflərin nəticələri ilə müqayisə olunmuşdur. İnklüziv siniflərdə oyunların təlimin keyfiyyətinə təsiri aydınlaşdırılmışdır.

## Metod və metodologiya

İnklüziv siniflərdə təlim keyfiyyəti anlayışı seqreqativ siniflərdə qəbul olunan, şagirdlərin təlim nəticələrinə əsaslanmır. İnklüziv sinifdə şagirdlərin inkişaf potensiallar fərqli olduğu üçün təlim nəticələri müxtəlifdir. Bu səbəbdən inklüziv sinifdə təlimin keyfiyyət göstəricisi kimi şagirdlərin təlim prosesində fəal iştirakı və təlimin hər bir şagirdin fərdi xüsusiyyəti nəzərə alınaraq

uyğunlaşdırılmas təlimin keyfiyyət göstəricisi kimi çıxış edir. Qeyd olunan keyfiyyət göstəriciləriinin tədqiqat vasitəsi ilə ölçülməsi mümkün deyil və tədqiqatçılar təlimin keyfiyyətinin ölçülməsi üçün şagirdlərin təlimdə fəal iştirakı və təlimin onlara uyğunlarması nəticəsində şagirdlərin psixo-sosial durumunda qeydə alınan müsbət dəyişiklikləri təlimin keyfiyyət göstəricisi olduğunu göstərirlər. Tədqiqatlarda təlim keyfiyyətinin göstəriciləri kimi 3 faktor ölçülür, bunlar şagirdin məktəbdə emosional inklüziyası, sosial inklüziyası və akademik baxımdan özünün müvəffəqiyyətli hesab etməsi [Goldan and others, 2021:101]. Qeyd olunan 3 faktor üzrə göstəricilər şagirlərin təlim prosesində fəal iştirak etdikdə və təlimin məzmunun onların ehtiyaclarına uyğunlaşdırıldıqda yüksək olması və sinifdə təcrid olunduqda 3 faktor üzrə nəicələri aşağı olması tədqiqatlarda vurğulanır.

Tədqiqatın keçirilməsinə Bakı şəhərində inklüziv təhsil həyata keçirilən 3 tam orta təhsil məktəblərində 6 ibtidai sinif müəllimi, 1-ci sinif şagirdləri və 170 valideyn cəlb olunmuşdur. Tədqiqata cəlb olunmuş şagirdlərin 12 nəfəri inklüziv siniflərdə təhsilə cəlb olunmuş sağlamlıq imkanları məhdud uşaqlardır.

Oyunların inklüziv siniflərdə təlimin keyfiyyətinə təsirinin ölçülməsi üçün alman tədqiqatçıları tərəfindən hazırlanmış və qlobal olaraq, yeganə alət olan inklüziv siniflərdə şagirdlərin emosional, sosial inklüziyasının və akademik baxımından özlərinin müvəffəqiyyət səviyyəsinin ölçülməsinə imkan verən "İnklüziyanın dərk edilməsinə dair sorğu anketi" [Venetz, Zurbriggen & Eckhart, 2014] sorğudan istifadə olunmuşdur.

"İnklüziyanın dərk edilməsinə dair sorğu" blankı - şagirdlər müəllimlər və valideynlər üçün versiyada 12 sualdan ibarətdir. Sorğu blankında cavablar "Likert şkalası" vasitəsi ilə toplanmışdır. "Likert şkalası" 4 variant cavab seçimi verilmişdir "doğru deyil"; "bəzən doğru deyil"; "bəzən doğrudur"; "tamamilə doğrudur". Sorğu inklüziv siniflərdə tipik inkişaf edən və sağlamlıq imkanları məhdud 3-9-cu sinif şagirdləri ilə onların valideynləri və müəllimləri ilə keçirilməsi üçün hazırlanmışdır. Bu tədqiqatın hədəf qrupu 1-ci siniflər olduğundan şagirdlər sorğuda iştirak etmələri üçün məktəb psixoloqları və korreksion pedaqoqlar tərəfindən fərdi dəstək göstərilmişdir. Şagirdlər, valideynlər və müəllim üçün hazırlanmış sorğuda eyni suallar verilmişdir, konkret şagird barədə məlumatların toplanması xarakteri daşıyır.

Elmi ədəbiyyatlarda göstərilir ki, "İnklüziyanın dərk edilməsinə dair sorğu (PİQ)" şagirdlərin psixo-sosial durumunun qiymətləndirməsi istiqamətində 3 faktor (emosional və sosial inklüziya, akademik baxımdan özünü müvəffəqiyyətli hesab etməsi) üzrə strukturlaşdırılmış şkala psixrometrik standartlara cavab verir. Belə ki, PİQ sorğu nəticələri əsasında toplanmış xallar şagirdlərin məktəbdə psixo-sosial durumunu zəif, orta və yüksək səviyyələrə kateqoriyalaşdırılmasına imkan verir [Schwab, 2023].

Sorğu blankları (şagirdlər üçün, valideynlər üçün və müəllim üçün) ingilis dilində və rus dilində olan versiyaları əsas götürərək, Azərbaycan dilinə uyğunlaşdırılmışdır. "İnklüziyanın dərk edilməsinə dair sorğu anketi" sorğu blankları Bakı şəhəri 95 nömrəli tam orta məktəbin I sinfinin 10 şagirdi və onların valideynləri, eləcə də 5 müəllimin iştirakı ilə aprobasiya edilmişdir. Tələb olunan düzəlişlər edilərək tədqiqatda istifadə olunmuşdur.

## ƏSAS HİSSƏ

Sorğuda tədqiqata cəlb olunmuş 3 eksperimental (oyunlar vasitəsi ilə riyaziyyat fənni tədris olunurdu) və 3 kontrol siniflər (riyaziyyat fənni ənənəvi pedaqoji metodlarla tədris olunurdu) üzrə şagirdlərin emosional baxımdan, məktəbdə olmaqlarından məmnunluqları (emosional inklüziya), təlim prosesində sinif yoldaşları ilə müsbət qarşılıqlı münasibətin olması (sosial inklüziya) və akademik baxımdan özlərini müvəffəqiyyətli hesab etmə səviyyəsinin araşdırılması, tədqiqatın başlama və yekunlaşma mərhələsində (7 həftə sonra) qiymətləndirilməsi həyata keçirilmişdir. Sorğuda şagirdlər müstəqil iştirak edə bilmədikdə, məktəb psixoloqları və korreksion pedaqoqlar

onlara kömək etmişlər. Şagirdlərin, qeyd olunan 3 sahə üzrə qiymətləndirilmələri üçün, ilkin qiymətləndirmədə seçilmiş 6 sinifdə təhsil alan 170 şagirddən 164 nəfəri (o cümlədən, 12 nəfər sağlamlıq imkanları məhdud uşaqlar) iştirak etmişdi. Sorğuda iştirak etmiş şagirdlərin 48.2 faizini qızlar, 51.8 faizini oğlanlar təşkil etmişdi. (diaqram № 1). Eyni zamanda, övladlarının məktəbdə psixo-sosial durumu barədə 159 nəfər valideyn (o cümlədən, 12 nəfər sağlamlıq imkanları məhdud uşaqların valideynləri olmaqla) və 6 nəfər ibtidai sinif müəllimi 167 şagirdin məktəbdə psixo-sosial durumu haqda PİQ sorğunun suallarını cavablandırmışlar. Digər 3 şagird uzun müddət təhsildən yayındıqlarından, müəllimlər həmin şagirdlərin qiymətləndirməsini aparmamışlar.

Valideynlərin sorğuda iştirak etmələri üçün ətraflı təlimat hazırlanaraq sinfin "whatsappp" qrupunda paylaşılmışdı. Tədqiqatçı eksperimental və kontrol siniflərin valideyn qruplarında sorğuda iştirakla bağlı suallarını cavablandırmışdı. Valideynlərin sorğuda iştiraklarının təmin olunması üçün "whatsapp" qruplarda müzakirələr tədqiqatçı tərəfindən protokollaşdırılmış və tədqiqat sənədlərinə əlavə olunmuşdur.

Sorğunun ilk və yekunu arasındakı interval şagirdlədə 36 gün, valideynlərdə 38 gün və müəllimlərdə 47 gün təşkil etmişdir.

Sorğu vasitəsi ilə toplanmış məlumatlar SPSS statistik proqramı vasitəsi statistik etibarlılıq (reliability) baxımından təhlil edilmişdir. Təhlilin nəticəsi məlumatın etibarlılığını "Cronbach's Alpha" üsulu ilə .719 bal toplandığı müəyyənləşdirilmişdir. "Cronbach's Alpha" üsulu ilə toplanmış .719 bal sorğu məlumatlarının statistik baxımından etibarlı olduğu isbat olunmuşdur. (cədvəl 3)

| **Etibarlılıq əmsalı** (Reliability Statistics) Cədvəl 2 | | |
|---|---|---|
| Cronbach's Alpha | Cronbach's Alpha Based on Standardized Items | Yoxlanılan sulların sayı |
| .719 | .764 | 36 |

**Sorğu vasitəsi ilə əldə olunmuş nəticələr**

Tədqiqatın keçirilməsi üçün seçilmiş inklüziv siniflərdə şagirdlərin müdaxilədən öncə psixo-sosial durumu: Qeyd olunduğu kimi, tədqiqat çərçivəsində 3 pilot məktəbdə 6 inklüziv I siniflər seçilmişdir. Eksperimentin təsirinin dəqiq ölçülməsi üçün eksperimental və kontrol siniflərdə şagirdlərin bilik səviyyəsinin və psixo-sosial durumunun bərabər səviyyədə olması təmin edilmişdir. Bunun üçün, PİQ sorğu üzrə ilkin sorğunun nəticələrinə və həndəsi fiqurlar üzrə ilkin test nəticələrinə əsaslanaraq kontrol və eksperimental siniflər müəyyənləşdirilmişdir. Tədqiqatda iştirak edən şagirdlərin psixo-sosial durumunun qiymətləndirilməsi üçün şagirdlərin özləri, sinif müəllimləri və valideynləri sorğuda iştirak etmiş və nəticələr PİQ sorğunun üç amili üzrə (emosional inklüziya, sosial inklüziya və şagirdlərin özlərini akademik baxımından müvəffəqiyyətli hesab etməsi) təhlil olunmuşdur. Təhlil SPSS statistik proqram vasitəsi ilə həyata keçirilmişdir. PİQ sorğunun hər amili üzrə, minimum 4 bal, maksimum 16 bal toplanması mümkündür. SPSS proqramı üzrə hər şagirdə dair 3 amil üzrə, 3 qrupdan respondentlərin qiymətləndirməsinin ortalama

nəticələrini, siniflər üzrə tipik inkişaf edən və sağlamlıq imkanları məhdud uşaqlar kateqoriyasına ayrılmışdır. Bununla yanaşı, siniflər tədqiqatda rollarına görə eksperimental və kontrol qruplar arasında ayrılmışdır. (diaqram №3)

PİQ sorğunun nəticəsinə əsasən 3 amil üzrə 6 sinfin topladığı ortalama ballara (emosional inklüziya 13.89 bal, sosial inklüziya 14.13 bal və akademik baxımdan şagirdlərin özlərinin müvəffəqiyyətli hesab etməsi üzrə 11.94 bal) əsasən, şagirdlərin məktəbdə psixo-sosial durumu qənaətbəxş hesab edilə bilər. Belə ki, tipik inkişaf edən şagirdlərin emosional inklüziya faktoru üzrə topladığı ümumi ortalama 13.89 bal, toplana biləcək balların 86.81%-ni təşkil edir. (diaqram №3) Bu səbəbdən, 3 amil üzrə tipik inkişaf edən şagirdlərin nəticələri ümumi orta səviyyədən yuxarı




müəyyənləşdirilmişdir. PİQ sorğunun üzrə keçirilmiş tədqiqatlarda 12 baldan yuxarı şagirlərin məktəbdə psixososial durumun qənaətbəxş hesab olunduğu qeyd edilir [Knickenberg and others, 2020: 291]. Tipik inkişaf etmiş və sağlamlıq imkanları məhdud şagirdlərdə 3 amil arasında ən aşağı nəticə, şagirdlərin özlərini akademik baxımdan müvəffəqiyyətli hesab etmələri səviyyəsi üzrədir. Bu amil üzrə tipik inkişaf edən şagirdlər 11.94 bal toplayaraq 74.62 %, sağlamlıq imkanları məhdud uşaqlar isə 6.83 balla 42.69 % nəticə əldə ediblər.

Tipik inkişaf edən şagirdlərin nəticəsini 3 respondent (şagird, müəllim və valideyn) arasında təhlil etdikdə, ən yüksək nəticə hər 3 iştirakçı tərəfindən sosial inklüziya faktoru toplamışdır (cəmi şagirdlər 14.13 bal; müəllimlər 14.18 bal; valideynlər 14.90 bal). Ən aşağı balı tipik inkişaf edən uşaqlar akademik baxımdan özlərini müvəffəqiyyətli hesab etmələri üzrə toplamışlar (şagird 11.94 bal; müəllim 10.82 bal və valideyn 12.08 bal).

Şagirdlərin nəticəsi ilə müəllimlərin və valideynlərin nəticələri arasında fərq əhəmiyyətli dərəcədə deyil. Maksimum fərq 202 nömrəli məktəbin 1A sinfində emosional inklüziya faktoru üzrə şagirdlərlə müəllim nəticələri arasındadır (2.79 bal). Sorğuda iştirak etmiş qrupların nəticələri arasında minimum fərq 138 nömrəli tam orta məktəbin 1B sinfində sosial inklüziya faktoru üzrə müəllimlə valideynlərin nəticəsi arasındadır (0.04 bal). Qeyd olunanları nəzərə alaraq seçilmiş siniflərdə tipik inkişaf edən uşaqların, müəllim və onların valideynlərinin nəticələri arasındakı uyğunluğu qənaətbəxş hesab edə bilərik.

Sağlamlıq imkanları məhdud uşaqların, müəllimlərin və onların valideynlərinin nəticələrini təhlil edərək aşkar olunmuşdur ki, tipik inkişaf edən şagirdlərdən fərqli olaraq bu şagirdlərin emosional inklüziya səviyyəsi digər faktorlardan daha yüksək qiymətləndirilmişdir (şagirdlər 12.25 bal; müəllim 10.75 bal; valideynlər 13.50 bal). Lakin sağlamlıq imkanları məhdud uşaqlarda tipik inkişaf edən sinif yoldaşları kimi akademik baxımdan özlərini müvəffəqiyyətli hesab etmələri ən

aşağı qiymətləndirmişdirlər (şagirdlər 6.83 bal; müəllim 6 bal; valideynlər 7.58 bal). Ümumən akademik baxımdan sağlamlıq imkanları məhdud uşaqların özlərini müvəffəqiyyətli hesab etmələrini özləri və onlar barədə müəllim və valideynlərin cavabları tipik uşaqlara və onların müəllim və valideynlərin cavablarına nisbətdə aşağı qiymətləndirilmişdir (fərq: şagirdlər arası 5.11 bal, müəllimlər arası fərq 4.82 bal və valideynlər arası fərq 4.5 bal).

Sağlamlıq imkanları məhdud şagirdlərin psixo-sosial durumuna dair ilkin sorğunun nəticələrinə görə tipik uşaqlara nisbətən, sorğuda iştirak etmiş qruplar arasında fikir ayrılığında daha böyük fərqin olduğu aşkar olunmuşdur (diaqram №4). Sorğuda iştirak etmiş qruplar arasında ən çox fərq 252 nömrəli məktəb liseyin 1G sinfində emosional inklüziya səviyyəsinin qiymətləndirilməsi, müəllimlə valideynlərin nəticələri ilə şagirdlərin nəticələri arasında ortalama 5 bal fərq, eləcə də 202 nömrəli məktəbin 1A sinfində sosial inklüziya səviyyəsinin qiymətləndirilməsində müəllimlə valideynlərin nəticələri ilə şagirdlərin nəticələri arasında 5 bal fərq müəyyənləşdirilmişdir.

Sağlamlıq imkanları məhdud şagirdlərin qiymətləndirilməsində 3 qrup arasında ən az




ziddiyyət emosional inklüziya amili üzrə 202 nömrəli tam orta təhsil məktəbinin 1A sinfində şagird valideyn arasında (0 fərq), 252 nömrəli məktəb-liseyin 1A sinfindədir (0 fərq). Sosial inklüziya amili üzrə 138 nömrəli tam orta məktəbin 1A sinfində şagird müəllim arasında və 1B sinfində şagirdlərlə valideynlər arasında nəticələrdə fərq yoxdur. Şagirdlərin özlərini akademik baxımdan müvəffəqiyyətli hesab etmələri faktoru üzrə 138 və 202 nömrəli tam orta məktəbin 1A siniflərində şagirdlərlə müəllimlər arasında nəticədə fərq yoxdur.

Qeyd olunanları nəzərə alaraq, 2 amil üzrə iki sinifdə müəllimlə valideynlər arasında fikir ziddiyyətinin olmasına baxmayaraq, 3 amil üzrə 6 nəticələrdə 3 qrupun fikirlərinin uyğun olduğunu əsas götürərək nəticələrin etibarlı olması qənaətinə gəlirik.

## İlkin qiymətləndirmədə tipik inkişaf edən uşaqlarla sağlamlıq imkanları məhdud uşaqların nəticələrində fərqin təhlili

Sağlamlıq imkanları məhdud şagirdlərin (12 nəfər) PİQ ilkin sorğu üzrə nəticələri təhlil edildikdə, 3 amil üzrə ortalama nəticələrin tipik uşaqlarla müqayisədə daha aşağı olması aşkar olunmuşdur (cədvəl № 5). Sağlamlıq imkanları məhdud uşaqlar tipik inkişaf edən şagirdlərdən emosional inklüziya üzrə 1.64 bal, sosial inklüziya üzrə 2.63 bal və akademik baxımdan özlərini müvəffəqiyyətli hesab etmələri üzrə 4.44 bal aşağı nəticələr toplamışlar.

Qeyd olunanlar, ümumiləşdirilmiş formada diaqram № 6-da verilmişdir.




Sağlamlıq imkanları məhdud uşaqların psixo-sosial durumunun tipik inkişaf edən şagirdlərlə müqayisədə daha aşağı olmasının əsas səbəbi, əlilliyə münasibətdə cəmiyyətdə formalaşmış ayrıseçkilik və neqativ münasibət nəticəsində, sağlamlıq imkanları məhdud uşaqların özləri və onların valideynlərinin, uşaqların potensial imkanları barədə gözləntilərinin aşağı səviyyədə olmasıdır. Müəllimlərin, bu şagirdlərin psixo-sosial durumunu tipik uşaqlarla müqayisədə çox aşağı qiymətləndirilməsi, müəllimlərin inklüziv mədəniyyəti tam ahəngi ilə anlamaması, sağlamlıq imkanları məhdud şagirdlərin fərdi xüsusiyyətlərini müəyyənləşdirilməsi üzrə bilik və bacarıqlara malik olmaması və əlbəttə ki, siniflərdə təlimin inklüziv təhsildə keyfiyyət amillərinə əsasən təşkil olunmadığından xəbər verir.

### Yekun PİQ sorğu

Yekun sorğu riyaziyyat fənni üzrə oyunlar vasitəsi ilə 4 mövzu tədris olunduqdan sonra (7 həftə sonra) yenidən keçirilmişdir. Yekun PİQ sorğuda seçilmiş 6 sinifdə təhsil alan 170 şagirddən 155 nəfər (12 nəfər sağlamlıq imkanları məhdud uşaqlar) iştirak etmişdir. Onlardan 47.1% qızlar, 52.9 % oğlanlar təşkil etmişdir. (cədvəl 12) Sorğuda 157 valideyn (12 nəfər sağlamlıq imkanları məhdud uşaqların valideyni) övladlarının və 6 müəllim 164 şagirdinin məktəbdə psixo-sosial durumu barədə sorğunun suallarını cavablandırmışlar. 6 şagird uzun müddət məktəbə gəlmədiyindən müəllimlər onları qiymətləndirə bilməmişdilər.

PİQ sorğunun yekun qiymətləndirilməsinin nəticələri SPSS proqramı vasitəsi ilə təhlil olunmuşdur. Məlumatların təhlil olunması üçün 3 amil üzrə (şagirdlərin emosional və sosial inklüziyası, onların akademik baxımdan özünü müvəffəqiyyətli hesab etməsi) üzrə topladıqları balların ortalaması çıxarılmışdır. Təhlil olunması üçün inklüziv sinifdə təhsil alan tipik inkişaf edən şagirdlərin məlumatları sağlamlıq imkanları məhdud uşaqların məlumatlarından ayrı-ayrı təhlil olunmuşdur. (diaqram 10)

Tipik inkişaf edən şagirdlərin PİQ sorğunun yekun qiymətləndirməsi əsasında aşkar olunmuşdur ki, sorğuda iştirak etmiş 3 qrup (şagird, müəllim və valideyn) arasında ciddi fərq yoxdur. Toplanmış ortalama ballar üzrə şagird, müəllim və valideyn nəticələri arasında maksimum fərq 202 nömrəli tam orta təhsil məktəbinin 1B (eksperimental) sinfində akademik baxımdan şagirdlərin özlərini müvəffəqiyyətli etməsi amili üzrə şagirdlərlə müəllim arasında ziddiyyət mövcuddur. Bu amil üzrə şagirdlər özlərini ortalama 14.35 balla qiymətləndirdikləri halda (toplana biləcək balların 89.69 %-i), müəllimlər şagirdləri ortalama 10.71 balla qiymətləndirmişlər (toplana biləcək balların 66.94%-i). Sorğuda iştirak etmiş qruplar arasında minimum fərq 252 nömrəli məktəb-liseyin 1G sinfində (kontrol sinif) emosional inklüziya amili üzrə şagirdlərin və valideynlərin qiymətləndirilməsi 13 bal (toplana biləcək balların 81.25 %-i) təşkil etmişdir.




PİQ sorğu üzrə keçirilmiş tədqiqatlarda qeyd olunur ki, şagirdlərin 3 amil üzrə özlərini qiymətləndirməsi, adətən müəllimlərin və valideynlərin qiymətləndirməsindən yüksək olur. Elmi ədəbiyyatlarda buna səbəb kimi şagirdlərin emosional və sosial inklüziya, özlərinin akademik müvəffəqiyyət səviyyələrini onların öz təəssüratlarına əsasən qiymətləndirmələridir. Müəllimlər və valideynlər isə şagirdləri daha çox onların davranışlarına görə qiymətləndirirlər [Knickenberg, and others, 2020:3] PİQ sorğunun yekun nəticələrinə əsasən eksperimental siniflərin şagirdlərinin özlərini qiymətləndirməsi (sosial inklüziya amilində valideynlərin nəticəsi istisna olmaqla), müəllimlərin və valideynlərin qiymətləndirməsindən daha yüksəkdir. Belə qənaətə gələ bilərik ki, eksperimental siniflərdə oyunların təlim prosesində tətbiq olunduğu 7 həftə ərzində şagirdlərin davranışlarında, onların təəssüratları qədər müsbət dəyişiklik baş verməmişdir. Buna səbəb odur ki, davranışın dəyişilməsi təəssüratların dəyişməsindən daha çox vaxt tələb edir.

Bununla yanaşı, kontrol siniflərdə şagirdlərin emosional və sosial inklüziyası müəllimlər və valideynlər tərəfindən şagirdlərdən daha yüksək qiymətləndirilmişdir. Şagirdlərin özlərini müəllim və valideynlərdən daha aşağı qiymətləndirməsinin səbəbi kimi şagirdlərin təlim prosesində formalaşmış mənfi təəssüratlarının tədqiqatın vaxtının məhdud olması səbəbindən, hələ onların davranışında təsirinin nəzərəçarpan dərəcədə özünü büruzə verməməsidir. (diaqram №10)

PİQ sorğunun yekun nəticələri üzrə eksperimental və kontrol siniflərdə təhsil alan sağlamlıq imkanları məhdud uşaqların nəticələri 3 kateqoriya üzrə iştirakçılar (şagird, müəllim və valideyn) 3 amil üzrə təhlil olunmuşdur (diaqram №11).

Sağlamlıq imkanları məhdud uşaqların PİQ sorğunun yekun qiymətləndirməsi əsasında aşkar olunmuşdur ki, sorğuda iştirak etmiş 3 qrup (şagird, müəllim və valideyn) arasında fərq

nəzərə çarpan dərəcədədir (cədvəl №11). Toplanmış ortalama ballar üzrə şagird, müəllim və valideyn nəticələri arasında maksimum fərq 252 nömrəli məktəb-liseyin 1G (kontrol) sinfində emosional inklüziya amili üzrə şagirdlərlə müəllim arasında ziddiyyət mövcuddur. Bu amil üzrə şagirdlər özlərini ortalama 14 balla qiymətləndirdikləri halda (toplana biləcək balların 87.50%), müəllimlər şagirdləri ortalama 9 balla qiymətləndirmişlər (toplana biləcək balların 56.25 %). Sorğuda iştirak etmiş qruplar arasında 138 nömrəli məktəbin 1B sinfində (kontrol) akademik baxımdan şagirdlərin özlərini müvəffəqiyyətli hesab etmə amili üzrə şagirdlər, müəllimlər və valideynlər ortalama 6.5 balla qiymətləndirmişdirlər (toplana biləcək balların 40.63 %-i). (cədvəl №5). İstisna, emosional inklüziya üzrə 138 nömrəli tam orta məktəbin 1B (kontrol sinif) sinfidir. Sağlamlıq imkanları məhdud uşaqların məktəbdə psixo-sosial durumuna dair şagirdlərin, müəllimlərin və valideynlərin qiymətləndirməsində fərq tipik uşaqların nəticələrində və elmi ədəbiyyatlarda PİQ sorğu üzrə keçirilmiş tədqiqatlarda qeyd olunduğu kimi müəllim nəticəsi şagirdlərin nəticəsindən aşağıdır.

Tipik uşaqlardan fərqli olaraq, sağlamlıq imkanları məhdud uşaqların valideynləri şagirdlərlə, təqribən, eyni səviyyədə qiymətləndirmişlər (maksimum fərq, akademik baxımdan




şagirdlərin özlərini müvəffəqiyyətli hesab etmələri amili üzrə 05 bal). (diaqram 11) Sağlamlıq imkanları məhdud uşaqların psixo-sosial durumuna dair PİQ sorğuda iştirak etmiş 3 qrup iştirakçıların nəticələrinin eyni ballarla təkrarlanması nəzərə çarpandır. Bunun səbəbi, hər inklüziv sinifdə yalnız 2 sağlamlıq imkanları məhdud uşağın təhsilə cəlb olunmasıdır. Ümumilikdə, 12 şagirdin nəticəsi eksperimental sinifdə 6 nəfər və kontrol sinifdə 6 nəfər olaraq təhlil olunmuşdur.

## Eksperimental və kontrol siniflərdə PİQ sorğu üzrə ilkin və yekun sorğular arasındakı fərq

Eksperimental və kontrol siniflərdə ilkin və yekun sorğuların nəticələri SPSS proqramında “T-Test qoşaşmış nümunə statistikası” (T-Test paired sample statistiks) metodu ilə təhlil olunduqda, eksperimental siniflərdə yekun sorğuların nəticələri ilkin sorğunun nəticələrinə nisbətdə artımın olduğu müəyyənləşmişdir. Bununla yanaşı, kontrol siniflərdə əksinə, yekun sorğuda şagirdlərin ilkin sorğuya nisbətdə ortalama balların aşağı düşməsi qeydə alınmışdır (diaqram №12).

Sağlamlıq imkanları məhdud uşaqlarda tipik inkişaf edən uşaqlarda olduğu kimi T-test təhlili nəticəsində eksperimental siniflərdə PİQ sorğunun ilkin və yekun nəticələri arasında müsbət dinamika və kontrol siniflərdə mənfi dinamika müşahidə olunmuşdur (diaqram №13).




Kontrol siniflərdə PİQ sorğu nəticələrində neqativ dinamikanın olması (məlumatın qeyri normal paylanması) səbəbindən T-test ilə təsirin statistik əhəmiyyətinin müəyyənləşdirilməsi mümkün olmamışdır. PİQ sorğu nəticələri vasitəsi ilə eksperimentin təsirinin ölçülməsi üçün məlumatın qeyri normal paylanmış məlumatın təhlili üçün istifadə olunan SPSS proqramında "qeyri parametrik test" statistik metod olan "Uilkoksonun (Wilcoxon) işarələnmiş fərq testi (Signed Rank Test)" vasitəsi təhlil olunmuşdur.

Uilkoksonun işarələnmiş fərq testi vasitəsi ilə şagirdlərin PİQ sorğunun 3 amili üzrə ilkin və yekun sorğuya cavabları arasında müsbət və mənfi fərqin təhlil olunması və eksperimental siniflərdə dəyişikliyin statistik əhəmiyyət daşıyıb-daşımadığını müəyyənləşdirilməsinə xidmət edir. Bununla yanaşı, neqativ dinamikanın kontrol siniflərdə təsadüfi xarakteri daşıdığını, yaxud statistik əhəmiyyətli təsir olduğunu müəyyənləşdirilməsi nəzərdə tutulmuşdur.

## Təlimin oyun vasitəsi ilə keçirilməsinin şagirdlərin psixo-sosial durumuna təsirinin təhlili

Təhlil üçün Uilkoksonun işarələnmiş fərq testi (**Wilcoxon Signed Ranks Test (Ranks)** vasitəsi ilə eksperimental və kontrol siniflərdə PİQ sorğunun 3 amil (emosional inklüziya, sosial inklüziya və şagirdlərin özlərini akademik baxımdan müvəffəqiyyətli hesab etməsi) üzrə şagirdlərdə təsirdən əvvəl və təsirdən sonrakı müsbət və mənfi dinamika təhlil edilmişdir. (cədvəl №14 və №15)

"İşarələnmiş fərq testi" vasitəsi ilə təhlil olunmuş PİQ sorğunun ilkin və yekun nəticələrinə əsasən emosional inklüziya üzrə eksperimental siniflərin tipik inkişaf edən şagirdlərdən 49 nəfərdə müsbət dinamika, 2 nəfərdə mənfi dinamika qeyd olunmuşdur. Kontrol siniflərdə tipik inkişaf edən şagirdlərin 7 həftə tədris dövründə emosional inklüziya ilə bağlı durumlarında, əksinə, mənfi dinamikanın artması aşkar olunmuşdur. Belə ki, kontrol siniflərdə emosional inklüziya üzrə 29 nəfərdə ilkin və yekun sorğu arası mənfi dinamika və 13 nəfərdə müsbət dinamika qeydə alınmışdır. Sosial inklüziya üzrə, eksperimental siniflərdə ilkin və yekun sorğu nəticələri arasında fərq, 41

nəfər tipik inkişaf edən şagirdlərdə müsbət və 4 nəfərdə mənfi dinamika qeydə alınmışdır. Kontrol sinifdə sosial inklüziya üzrə tipik inkişaf edən şagirdlərin nəticələrində mənfi dinamika üstünlük təşkil edir. Bu siniflərdə tipik inkişaf edən şagirdlərin 24 nəfərində mənfi dinamika və 17 nəfərdə müsbət dinamika müəyyənləşdirilmişdir. Akademik baxımdan şagirdlərin özlərini müvəffəqiyyətli hesab etmələri eksperimental siniflərdə müsbət dinamika (48 nəfər 13 nəfərə qarşı) və kontrol siniflərdə isə mənfi dinamika (29 nəfər 19 nəfərə qarşı) üstünlük təşkil edir. (cədvəl №19)

Sağlamlıq imkanları məhdud uşaqlarda PİQ sorğunun nəticələri tipik inkişaf edən uşaqların nəticələrinə uyğundur. Eksperimental siniflərdə təhsil alan sağlamlıq imkanları məhdud şagirdlərin emosional inklüziyası PİQ sorğu üzrə ilkin və yekun sorğular arası 5 şagirddə müsbət dinamika müəyyənləşdirilmişdir. Bu amil üzrə onlarda mənfi dinamika yoxdur. Kontrol siniflərin sağlamlıq imkanları məhdud şagirdlərində yalnız 1 müsbət və 4 mənfi dinamika qeydə alınmışdır.

Sosial inklüziya üzrə eksperimental siniflərdə 5 şagirddə müəyyən bəndlər üzrə müsbət dinamika izlənilmiş və mənfi dinamikanın olmaması qeydə alınmışdır. Kontrol siniflərdə isə şagirdlərin sosial inklüziyasında 3 bənddə mənfi dinamika izlənilmiş və müsbət dinamikanın olmadığı müəyyənləşdirilmişdir.

Eksperimental siniflərdə sağlamlıq imkanları məhdud 3 şagirddə akademik baxımdan müsbət dinamika qeyd olunmuş, heç bir bənd üzrə mənfi dinamika göstərilməmişdir. Kontrol siniflərdə bu amil üzrə 2 mənfi dinamika şagirdlər tərəfindən qeyd edilmiş və müsbət dinamika qeydə alınmamışdır (cədvəl №15).

"Uilkoksonun (Wilcoxon) işarələnmiş fərq testi (Signed Rank Test)" təhlili əsasında eksperimental siniflərdə PİQ sorğu üzrə nəticələrə əsasən şagirdlərin emosional və sosial inklüziyası, eləcə də, onların akademik baxımdan özlərini müvəffəqiyyətli hesab etmələri üzrə təsadüfi olmayan, əhəmiyyətli müsbət dəyişiklik qeydə alınmışdır.

**Test nəticələri (Test Statistics[a]) (tipik uşaqlar) (cədvəl №16)**

| | Emosional inklüziya | | Sosial inklüziya | | Akademik müvəfəqiyyət | |
|---|---|---|---|---|---|---|
| | Eksperimental sinif, | Kontrol siniflər | Eksperimental siniflər | Kontrol siniflər, | Eksperimental siniflər, | Kontrol siniflər |
| Z | -5.978[b] | -2.194[c] | -4.811[b] | -1.599[c] | -4.533[b] | -1.216[c] |
| Asymp. Sig. (2-tailed) | .000 | .028 | .000 | .110 | .000 | .224 |

a. Vilkokson "İşarələnmiş fərq testi" (Wilcoxon Signed Ranks Test)
B Neqativ fərqlər əsasında (b. Based on negative ranks)
C Müsbət fərqlər əsasında (c. Based on positive ranks)

Bununla yanaşı, kontrol siniflərdə təhsil alan tipik inkişaf edən şagirdlərin 7 həftə ərzində, ümumilikdə şagirdlərin psixo-sosial durumunda mənfi dinamikanın üstünlük təşkil etdiyi müəyyənləşdirilmişdir.

Kontrol siniflərdə PİQ sorğunun sosial inklüziya və şagirdlərin akademik baxımdan özlərini müvəffəqiyyətli hesab etmələri amilləri üzrə müsbət və mənfi nəticələr təsadüfi xarakter daşıdığı və statistik baxımdan, əhəmiyyətli olmadığı müəyyənləşmişdir. (cədvəl №16). Bununla yanaşı, kontrol siniflərdə tipik uşaqların PİQ sorğu üzrə emosional inklüziya amili üzrə 66 nəfər şagirddən 29 nəfərində mənfi dinamika və 19 şagirdə müsbət dinamika qeydə alınmışdır. Kontrol qrupda şagirdlərin emosional inklüziya səviyyəsində 7 həftənin sonunda mənfi dinamika təsadüfi xarakter daşımadığı və statistik baxımdan əhəmiyyətli olduğu öz təsdiqini tapmışdır. (cədvəl №16).

Eksperimental siniflərdə təhsil alan sağlamlıq imkanları məhdud uşaqların nəticələri PİQ sorğunun emosional və sosial inklüziya amilləri üzrə statistik baxımdan, nəzərə çarpan müsbət dəyişiklik təsdiqini tapmışdır. Lakin, şagirdlərin akademik baxımdan özlərini müvəffəaiyyətli hesab etmələri amili üzrə müsbət dəyişiklilərin (3 nəfər şagirddə müsbət dinamika) statistik baxımdan əhəmiyyətli olmadığı müəyyənləşdirilmişdir (cədvəl № 17).

**Test nəticələri (Test Statistics[a])** (SİM uşaqlar) (cədvəl №17)

| | Emosional inklüziya | | Sosial inklüziya | | Akademik müvəfəqiyyət | |
|---|---|---|---|---|---|---|
| | Eksperimental sinif, | Kontrol siniflər | Eksperimental siniflər | Kontrol siniflər, | Eksperimental siniflər, | Kontrol siniflər |
| Z | -2.070[b] | -1.414[c] | -2.041[b] | -1.633[c] | -1.633[b] | -1.414[c] |
| Asymp. Sig. (2-tailed) | .038 | .157 | .041 | .102 | .102 | .157 |

a. Vilkokson "İşarələnmiş fərq testi" (Wilcoxon Signed Ranks Test)
B Neqativ fərqlər əsasında (b. Based on negative ranks)
C Müsbət fərqlər əsasında (c. Based on positive ranks

Kontrol siniflərdə təhsil alan sağlamlıq imkanları məhdud uşaqlarda PİQ sorğunun 3 amili üzrə mənfi dinamikanın üstünlük təşkil etməsinə baxmayaraq, statistik əhəmiyyətli olması öz təsdiqini tapmamışdır. Kontrol siniflərdə təhsil alan sağlamlıq imkanları məhdud şagirdlərin psixo-sosial durumunda 7 həftə ərzində statistik baxımdan əhəmiyyətli dəyişikliyin olmadığı təsdiq edilmişdir (cədvəl №17).

Kontrol siniflərdə tipik inkişaf edən, həm də, sağlamlıq imkanları məhdud uşaqların psixo-sosial durumunda olan neqativ dinamikanın səbəbini araşdırdıqda məlum olmuşdur ki, şagirdlər tədris ilinin I yarım ilində daha çox məktəbəhazırlıq qrupunda olarkən, öyrəndikləri mövzuların təkrarlandıqları və tədqiqatın başlandığı dövrdən (tədris ilinin II yarım ili) yeni mövzuların tədrisinə başlamaları onların psixo-sosial durumuna mənfi təsir göstərmişdir. Eyni zamanda, fevral-mart aylarında mövsümi xəstəliklərin artması, şagirdlərin davamiyyətində problemlər yaratmış və onların tez-tez dərs buraxmasına səbəb olmuşdur. Şagirdlərin davamiyyətində olan problem, onların sinifdə emosional və sosial inklüziyasına və akademik baxımdan özlərini müvəffəqiyyətli hesab etmələrinə mənfi təsir göstərmişdir. Tədris proqramının planlaşdırılmasında, eləcə də, şagirdlərin davamiyyətində yaranan problemə, kontrol siniflərdə olduğu kimi, eksperimental siniflərin də şagirdləri məruz qalmışlar. Qeyd olunanları nəzərə alaraq, ümumi təhsil müəssiəslərinin məktəbəhazırlıq qrupları və I siniflərin tədris planında müvafiq planlaşdırma işinin daha dəqiq və səmərəli aparılmasına ehtiyac olduğu müəyyənləşdirilmişdir.

PİQ sorğunun nəticəsinə əsasən, eksperimental sinif şagirdlərinin kontrol siniflərin üzləşdikləri çətinliklərlə eyni səviyyədə məruz qalmasına baxmayaraq, onların psixo-sosial durumunda statistik baxımdan, nəzərəçarpan müsbət irəliləyiş mövcuddur.

Nəzərə alsaq ki, PİQ sorğunun ilkin nəticələrində 3 psixo-sosial amil üzrə şagirdlərin durumunda siniflərarası fərq böyük deyildi və təlim prosesində bu qruplarda dəyişiklik yalnız, təlimin oyun vasitəsi ilə həyata keçirilməsi olmuşdur, təlimlərdə oyunların istifadəsinin şagirdlərin emosional və sosial inklüziyasına, eləcə də, onların akademik baxımdan özlərininin müvəffəqiyyətli hesab etmələrinə (psixo-sosial durumlarına), ənənəvi pedaqoji metodlarla müqayisədə, daha müsbət təsir göstərdiyi iddia oluna bilər. Əsasən də, oyunların eksperimental siniflərdə, yalnız tipik inkişaf

edən, yaxud yalnız SİM uşaqlar üçün deyil, sinifdə bütün uşaqların psixo-sosial durumuna müsbət təsir göstərməsi aşkar olunmuşdur. Bununla yanaşı, təlimlərdə oyunların istifadəsi, şagirdlərin təlim proqramında bəzi hallarda olan yüklənmə dövrü, eləcə də, sinifdə mümkün olan emosional gərginliyin aradan qaldırılması üçün səmərəli pedaqoji metod kimi qiymətləndirilmişdir.

## NƏTİCƏ VƏ TÖVSİYƏLƏR

Tədqiqat çərçivəsində eksperimental və kontrol siniflərdə aparılmış "PİQ sorğu" nəticəsində müəyyənləşdirilmişdir ki, eksperimental siniflərdə təhsil alan tipik inkişaf edən şagirdlərin, eləcə də sağlamlıq imkanları məhdud uşaqların məktəbdə emosional və sosial inklüziyası kontrol siniflərlə müqayisədə, statistik baxımdan, əhəmiyyətli dərəcədə müsbət dəyişib.

Bununla yanaşı, PİQ sorğunun nəticəsinə əsasən, eksperimental siniflərin şagirdləri kontrol siniflərin üzləşdikləri dərs yükünün birdən-birə çox olması, mövsümi xəstəliklər səbəbindən davamiyyətin zəif olması kimi, çətinliklərə eyni səviyyədə məruz qalmasına baxmayaraq, kontrol siniflərdə şagirdlərin psixo-sosial durumunda mənfi dinamika müşahidə olunduğu halda, eksperimental siniflərdə şagirdlərdə statistik baxımdan müsbət irəliləyiş qeydə alınmışdır. Qeyd olunan çətinliklər nəticəsində, kontrol siniflərdə emosional inklüziya amili üzrə statistik baxımdan mənfi dinamika tədqiqat çərçivəsində öz təsdiqini tapmışdır.

## Ədəbiyyat:

*Convention on the Rights of Persons with Disabilities and Optional Protocol* (2006), https://www.ohchr.org/en/instruments-mechanisms/instruments/optional-protocol-convention-rights-persons-disabilities

*Goldan, Janka and Hoffmann, Lisa and Schwab, Susanne*. (2021). "A Matter of Resources? – Students' Academic Self-Concept, Social Participation and School-Wellbeing in Inclusive Education", "International Perspectives on Inclusive Education", publisher, "Emerald Publishing", 89-113 p., editor = Janka Goldan and Jennifer Lambrecht and Tim Loreman, booktitle, Resourcing Inclusive Education.

*Venetz, M., Zurbriggen, C., & Eckhart, M.* (2014). Entwicklung und erste Validierung einer Kurzversion des Fragebogens zur Erfassung von Dimensionen der Integration von Schulern (FDI 4-6) von Haeberlin, Moser, Bless & Klaghofer. Empirische Sonderpadagogik, Vol. 6, Issue 2, 99–113 p.

*Hays, R.T.* (2005) The effectiveness of instructional games: a literature review and discussion. Naval air warfare center training systems division Orlando, FL 32826-3275, 63 p.

*Knickenberg, Margarita, Carmen L., Zurbriggen, A., Venetz, Martin, Schwab, Susanne & Gebhardt, Markus.* (2020). Assessing dimensions of inclusion from students' perspective – measurement invariance across students with learning disabilities in diferent educational settings, European Journal of Special Needs Education, 35:3, 287-302, DOI: 10.1080/08856257.2019.1646958

*Schwab,S.* Inclusive and Special Education in Europe. Oxford Research Encyclopedia of Education. Retrieved 3 Jun. 2023, from https://oxfordre.com/education/view/10.1093/acrefore/9780190264093.001.0001/acrefore-9780190264093-e-1230

# PSİXİ VƏ EMOSİONAL SAĞLAMLIQ

**Ülviyyə ELYAZOVA**
Bakı Dövlət Universiteti,
Sosial elmlər və psixologiya fakültəsi,
doktorant
*Azərbaycan, BAKI*
ulviyyaali222@gmail.com

**XÜLASƏ**

Məqalədə psixi və emosional sağlamlıq haqqında bəhs edilir, eləcə də psixi və emosional sağlamlıq insanın özünə və ətrafdakı insanlara olan münasibətləri araşdırılır. Burada psixi və emosional sağlamlıq problemlərinin səbəbləri və psixi sağlamlığa təsir edən risk faktorları izah edilir. Həmçinin, psixi və emosional sağlamlığın simptomları və bu simptomlara təsir edən amillərə də bu məqalədə toxunulur. Əlavə olaraq psixi xəstəliklərin növləri olan depressiya, stress, təşviş və başqa mövzular barəsində də araşdırılma aparılmışdır. Daha sonra məqalədə psixi xəstəliklərə səbəb ola biləcək amillər sıralanmışdır. Məqalədə həçinin psixi xəstəliklərin fəsadları və onun qarşısının alması barədə məlumat verdikdən sonra, emosiyaların quruluşu haqqında məlumat öz əksini tapmışdır.

**Açar sözlər:** psixi sağlamlıq, depressiya, təşviş, stress, bipolyar pozuntu.

# MENTAL AND EMOTIONAL HEALTH

**Ulviya ELYAZOVA**
Baku State University,
Faculty of Social Sciences and Psychology,
PhD student
*Azerbaijan, BAKU*
ulviyyaali222@gmail.com

**SUMMARY**

The article talks about mental and emotional health, as well as examines the relationship of mental and emotional health to oneself and the people around. It explains the causes of mental and emotional health problems and the risk factors that affect mental health. Also, the symptoms of mental and emotional health and the factors that influence these symptoms are also addressed in this article. In addition, research was conducted on depression, stress, anxiety and other types of mental illnesses. The article then lists the factors that can cause mental illness. In the article, after giving information about the complications of mental illness and its prevention, information about the structure of emotions is reflected.

**Key words:** mental health, depression, anxiety, stress, bipolar disorder.

Psixi sağlamlıq emosional, psixoloji və sosial rifahı təsvir etmək üçün istifadə olunan bir termindir. İnsanın psixi sağlamlığının vəziyyəti çox vaxt onun gündəlik stress amillərinin öhdəsindən necə uyğunlaşa bilməsi ilə ölçülür. Psixi sağlamlıq insanlara öz qabiliyyətlərindən istifadə etməyə, məhsuldar olmağa, qərarlar qəbul etməyə və öz icmalarında fəal rol oynamağa imkan verir. Psixi sağlamlığın zəif olması çox vaxt ruhi xəstəliklə qarışdırılır. Əgər siz hələ əlli il

əvvəl sağlam doğulmusunuzsa, sağlam düşüncəli zehnin sınağının "yeni fikirlərlə" aldatmaqdan imtina etdiyi bir dövrü xatırlaya bilərsiniz [Mental Diseases A Public Health Problem, 2017].

Psixi sağlamlıq bizim emosional, psixoloji və sosial rifahımızı əhatə edir. Bu, bizim necə düşündüyümüzə, hiss etdiyimizə və hərəkət etdiyimizə təsir edir. O, həmçinin streslə necə mübarizə apardığımızı, başqaları ilə münasibət qurduğumuzu və düzgün seçimlər etdiyimizi müəyyən etməyə kömək edir. Psixi sağlamlıq, uşaqlıq və yeniyetməlikdən yetkinliyə qədər həyatın hər bir mərhələsində önəmlidir. Terminlər tez-tez bir-birini əvəz etsə də, psixi sağlamlıq problemi və psixi xəstəlik eyni deyil. Bir insan psixi sağlamlıq problemi yaşaya bilər və psixi xəstəlik diaqnozu qoyulmaya bilər. Eyni şəkildə, ruhi xəstəlik diaqnozu qoyulmuş bir şəxs fiziki, əqli və sosial rifah dövrlərini yaşaya bilər. Müasir psixiatriyanın diqqətəlayiq tərəqqisinə baxmayaraq, psixi xəstəliklərin cəmiyyətin sosial və iqtisadi rifahının amili kimi əhəmiyyəti lazımi səviyyədə nəzərə alınmamışdır [Health Work in the Public Schools, 2006].

**Psixi sağlamlıq problemlərinə nə səbəb olur?**

Psixi sağlamlıq problemlərinin müxtəlif səbəbləri ola bilər. Çox güman ki, bir çox insanlar üçün amillərin mürəkkəb kombinasiyası mövcuddur - baxmayaraq ki, müxtəlif insanlar müəyyən şeylərdən başqalarına nisbətən daha dərindən təsirlənə bilər. Şüuraltı Ağılın müxtəlif funksiyaları arasında ən mühümlərindən biri də simpatik sinir sistemidir.Simpatik sinir sistemi - vegetativ sinir sisteminin bir hissəsidir [Mental Radio, 2020].

Məsələn, aşağıdakı amillər psixi sağlamlıq problemi ilə nəticələnə bilər:

- uşaqlıqda zorakılıq, travma və ya laqeydlik;
- sosial təcrid və ya tənhalıq;
- irqçilik də daxil olmaqla ayrı-seçkilik və stiqma ilə üzləşmək;
- sosial çatışmazlıq, yoxsulluq və ya borc;
- yas (yaxın birini itirmək);
- ağır və ya uzunmüddətli stress;
- uzunmüddətli fiziki sağlamlıq problemin olması;
- işsizlik və ya işinizi itirmək;
- evsizlik və ya şəraitsiz mənzil;
- narkotik vasitələr və alkoqoldan sui-istifadə;
- yetkinlik dövründə məişət zorakılığı və ya digər sui-istifadə;
- fiziki səbəblər – məsələn, baş zədəsi və ya epilepsiya kimi nevroloji vəziyyət sizin davranışınıza və əhvalınıza təsir edə bilər.

Baxmayaraq ki, iş, pəhriz, dərmanlar və yuxu çatışmazlığı da daxil olmaqla həyat tərzi faktorları psixi sağlamlığınıza təsir göstərə bilər, əgər psixi sağlamlıq probleminiz varsa, adətən başqa amillər də olur. Müasir psixologiya, başqa sahələrdə olduqca səmərəli olduğunu sübut edən elmi araşdırma metodlarını psixi həyat və onun problemləri ilə əlaqələndirmək cəhdidir [Mind and Body or Mental States and Physical Conditions, 2013].

İnsan subyekti üçün ən asan problemin həlli demək olar ki, heç bir səy tələb etmir, halbuki hətta orta dərəcədə çətin problemlər də çoxlu səylərin təkrarlanması və tapşırığın tətbiqi üçün saatlar və ya günlər tələb edə bilər [Supporting Individuals with Intellectual Disabilities and Mental Illness, 2015]. Nə qədər çox risk faktorunuz varsa, psixi sağlamlıq vəziyyətinizi inkişaf etdirmək ehtimalınız bir o qədər yüksəkdir. Bəzən psixi xəstəlik tədricən inkişaf edir. İnkişaf ləngiməsi termini zehni pozğunluğu müzakirə edərkən istifadə edilmişdir. Bununla belə, zehni pozğunluğu olan fərdlər adətən inkişaf geriliyi yaşasalar da, inkişaf geriliyi olan şəxslərin heç də hamısı zehni pozğunluqla qarşılaşmır [Psychology A Study of Mental Life, 2010].

**Bir çox risk faktorları vardır:**

- Genetika. Psixi xəstəlik çox vaxt ailədən gəlir.
- Ətraf mühit. Stressli bir mühitdə yaşamaq psixi sağlamlığınızı gərginləşdirə bilər. Yoxsulluq içində yaşamaq və ya normal olmayan ailəyə sahib olmaq kimi şeylər beyninizə çox stress qoyur və tez-tez psixi sağlamlıqla bağlı narahatlıqlara səbəb olur.
- Stressli hadisələr: sevilən birini itirmək və ya avtomobil qəzasına düşmək kimi.
- Uşaqlıq travması. Artıq stresli bir mühitdə olmasanız belə, uşaqlıqda başınıza gələn şeylər daha sonra həyatınıza təsir göstərə bilər. Kompleks TSSB (travma sonrası sinir pozğunluğu), təhqiramiz və ya laqeyd mühitlərdə böyümüş insanlar arasında xüsusilə ümumi psixi sağlamlıq vəziyyətidir.
- Mənfi düşüncələr. Daim özünüz haqqında mənfi düşünmək və ya ən pisini gözləmək sizi depressiyaya və ya təşviş vəziyyətinə sala bilər.
- Sağlam olmayan vərdişlər: kifayət qədər yuxu almamaq və ya qida qəbul etməmək kimi.
- Narkotik vasitələr və spirt: Narkotik vasitələr və spirtdən sui-istifadə psixi sağlamlığınız üçün pis ola bilər. Psixi xəstəlikdən sağalmağı da çətinləşdirə bilər.

Bu risk faktorları ilk növbədə kimin ruhi xəstəliyini inkişaf etdirəcəyinə təsir etmir. Onlar həmçinin simptomlarının nə qədər şiddətli olacağına və bu simptomları nə qədər vaxt yaşayacaqlarına təsir göstərirlər.

**Simptomlar**

Psixi xəstəliyin əlamətləri və simptomları pozğunluqdan, şəraitdən və digər amillərdən asılı olaraq dəyişə bilər. Psixi xəstəliyin simptomları duyğulara, düşüncələrə və davranışlara təsir edə bilər. Əxlaqi rəftar dəliliyin xəstə bir vəziyyət kimi tibbi qavranılması ilə, yəni ağıl və bədən arasında güclü qarşılıqlı əlaqənin balanssızlığı ilə uyğun gəlirdi [The Practices of Happiness. Political economy, religion and wellbeing, 2011].

Bəzən psixi sağlamlıq pozğunluğunun simptomları mədə ağrısı, bel ağrısı, baş ağrıları və ya digər səbəbsiz ağrılar fiziki problemlər kimi görünür. Canlı ilə qeyri-üzvi bədən, bitki ilə daş arasındakı fərq, bitkinin daş tərəfindən həyata keçirilməyən bir sıra prosesləri həyata keçirməsidir [The Mental Life of Monkeys and Apes: A Study of Ideational Behavior, 2004].

**Psixi xəstəliklərin çox müxtəlif növləri var. Ən ümumi olanlar bunlardır:**

- depressiya, əhval pozğunluqları və bipolyar pozğunluqlar;
- təşviş pozğunluqları, obsesiv-kompulsiv pozuntu (OKB), travma sonrası stress pozuntusu (TSSB) ,panik pozuntu və fobiyalar;
- şizofreniya kimi psixi pozuntu ( Şizofreniya ciddi və kompleks ruhi xəstəlikdir. Psixozun ən çox görülən formasıdır. Psixoz- reallığı qiymətləndirmə bacarığının itirilməsi deməkdir. Əvvəllər funksional psixiatrik xəstəliklərdən biri kimi təsnif edilirdisə, indi əsasən beyin fiziologiyasının anormallığı kimi qəbul edilir.Bütün dünyada insanlar arasında hər 100 nəfərdən birində rast gəlinir;
- şəxsiyyət pozuntusu (Şəxsiyyət pozuntusu fərdin düşünmə, qavrama, hiss etmə və ya başqalarına münasibət baxımından adi bir insandan əhəmiyyətli dərəcədə fərqləndiyi şərtlərdir);
- yemək pozuntusu.

Hər şey insanın psixi sağlamlığına təsir edə bilər. İstənilən maraqlı ideyanın ümumi yayılması, bu ideyanı yayanlar nə qədər ehtiyatlı olsalar da, məşhur anlaşılmazlıqlar və yanlış fərziyyələr yarada bilər [The Philosophy of Health; or an exposition of the Physical and Mental Constitution of Man, with a view to the promotion of Human Longevity and Happiness, 2019]. Üstəlik, bioloji faktorlar, genlər və ailə tarixi kimi nəzarət edə bilmədiyi şeylər insanın psixi sağlamlığına mənfi təsir göstərə bilər. Hər şeydən əvvəl, ətraf mühit, psixoloji və ya bioloji amillər, bəlkə də hamısının birləşməsi insanın psixi vəziyyətinə təsir göstərir. Tibbi müayinə məktəbdə pedaqoq və həkimin hər bir uşaq üçün dövlətin təqdim etdiyi pulsuz təhsildən tam istifadə etməyi

təmin etmək üçün imkan verdikləri şəraitin genişləndirilməsidir [Three Thousand Years of Mental Healing, 2007].

**Psixi xəstəlik riskinə səbəb ola biləcək amillərin siyahısı:**

- genləriniz və ailə vəziyyətiniz;
- stress;
- travmatik beyin xəsarətləri;
- narkotik vasitələr və spirtdən istifadə;
- ölümcül xəstəlik kimi ciddi tibbi vəziyyətlərin diaqnozu;
- dostlarının olmaması, özünüzü tənha hiss etmək.

**Fəsadlar**

Müalicə olunmayan psixi xəstəlik ciddi emosional, davranış və fiziki sağlamlıq problemlərinə səbəb ola bilər. Bəzən psixi xəstəliklə əlaqəli olan ağırlaşmalara aşağıdakılar daxildir:

- bədbəxtlik və həyatdan həzzin azalması;
- ailə münaqişələri;
- münasibətlərdə çətinliklər;
- sosial izolyasiya;
- tütün, alkoqol və digər narkotik vasitələrlə bağlı problemlər;
- mənəvi və maliyyə problemləri;
- yoxsulluq və evsizlik;
- özünə zərər vermə və başqalarına zərər vermə, o cümlədən intihar və ya adam öldürmə;
- immunitet sistemi zəiflədiyi üçün vücudunuzun infeksiyalara müqavimət göstərməkdə çətinlik çəkməsi;
- ürək xəstəliyi və digər tibbi vəziyyətlər.

Bipolyar pozğunluq (maniakal depressiv pozuntu kimi tanınır) qeyri-adi və kəskin əhval dəyişikliyinə səbəb olan ciddi psixi xəstəlikdir. Şəxs bir neçə gün və ya bir neçə həftə davam edə bilən "yüksək" (klinik olaraq mani kimi tanınır) və "aşağı" (depressiya kimi tanınır) yaşaya bilər. Şəxs fərqli maniya və depressiya epizodları keçirə bilər və bu epizodlar bir həftə ərzində hətta bir neçə dəfə sürətlə dəyişə bilər.

Şiddətli bipolyar pozğunluğu olan bir insanda hallüsinasiyalar və ya xəyallar kimi psixotik simptomlar ola bilər və hətta özünə zərər vermə və ya intihar düşüncələri ola bilər. Bipolyar pozğunluq insanın gündəlik həyatda normal fəaliyyət göstərmə qabiliyyətini maneə törədə bilər və həm peşəkar, həm də şəxsi münasibətlərin pozulması ilə nəticələnə bilər.

Hər birimiz vaxtaşırı əhval dəyişikliyi və vəcd hissləri yaşayırıq, lakin bunlar gündəlik fəaliyyətlərimizə təsir etməyə bilər. Bu bipolyar pozğunluq deyil.

Hər iki vəziyyətin bəzi simptomları oxşar olsa da, depressiya da bipolyar pozğunluq deyil. Əsas fərq ondadır ki, bipolyar pozğunluqda həm maniya, həm depressiya epizodları, həm də həddindən artıq əhval dəyişikliyi olur.

**Qarşısının alınması**

Psixi xəstəliklərin qarşısını almaq üçün dəqiq bir yol yoxdur. Bununla belə, əgər ruhi xəstəliyiniz varsa, stresə nəzarət etmək, dözümlülüyü artırmaq və özünə inamı artırmaq üçün addımlar atmaq simptomlarınızı nəzarət altında saxlamağa kömək edə bilər. Psixi hallar və bədən şərtləri arasında həm yaxşı, həm də pis təsir edən qarşılıqlı əlaqənin olması insan təcrübəsində yeni bir şey deyil [The Rise of Mental Health Nursing, 2003]. Bu addımları izləyin:

- Xəbərdarlıq işarələrinə diqqət yetirin. Simptomlarınıza nəyin səbəb ola biləcəyini öyrənmək üçün həkiminiz və ya terapevtinizlə əlaqə saxlayın. Bir plan hazırlayın ki, simptomlar geri dönərsə nə edəcəyinizi biləsiniz. Simptomlarda hiss etdiyiniz hər hansı dəyişiklik görsəniz, həkiminiz və ya terapevtinizlə əlaqə saxlayın. Xəbərdarlıq əlamətlərini izləmək üçün ailə üzvlərinizlə və ya dostlarınızla əlaqəni kəsməyin.

- Rutin tibbi yardım alın. Xüsusilə özünüzü yaxşı hiss etmirsinizsə, müayinələrə laqeyd yanaşmayın. Müalicə edilməli olan yeni sağlamlıq probleminiz ola bilər və ya dərmanların yan təsirləri ilə qarşılaşa bilərsiniz.
- Ehtiyacınız olanda yardım alın. Simptomlar pisləşənə qədər gözləsəniz, psixi sağlamlıq vəziyyətini müalicə etmək daha çətin ola bilər. Uzunmüddətli baxım müalicəsi də simptomların təkrarlanmasının qarşısını almağa kömək edə bilər.
- Özünüzə yaxşı baxın. Kifayət qədər yuxu, sağlam qidalanma və müntəzəm fiziki fəaliyyətlə məşğul olmaq vacibdir. Müntəzəm plan qurmağa çalışın.

Psixiatriya psixi, emosional və davranış pozğunluqlarına diqqət yetirən tibb sahəsidir. Beləliklə, "psixiatrik pozuntu" termini insanın düşüncələrini, hisslərini, davranışlarını və ya əhval-ruhiyyəsini pozan geniş spektrli problemlərə aiddir.

**Emosiyaların quruluşu**

Emosiyaların mənşəyinin hərtərəfli şərhini verən konsepsiya mövcuddurmu? Təəssüflə qeyd etmək lazımdır ki, belə bir yetkin konsepsiya, nəzəriyyə indiyə qədər mövcud deyil. Lakin bu istiqamətdə müxtəlif dövrlərdə maraqlı və sanballı araşdırmalar aparılıb. Müəlliflərin əksəriyyəti emosiyaları insan davranışını idarə edə biləcək bir proses kimi qəbul edir. Bu yanaşmanın klassik tərəfdarı C.Uotsan iddia edirdi ki, istənilən emosional stimulu şərtsiz və ənənəvi stimullar sinfinə aid etmək olar. Yəni insan ancaq doğuşdan (anadan gəlmə) emosional olan stimullara duyğusal şəkildə reaksiya verir. Bu konsepsiya qəbul olunmuş və ideyanın digər nümayəndələri ilə birlikdə inkişaf etdirilmişdir. Belə ki, Kanada tədqiqatçısı Babkin nəyə görə amerikalıların cazı sevdiyini və nəyə görə onların simfonik musiqini sevmədiyi suallarına cavab verir və belə bir nəticəyə gəlir ki, bütün bunlar davamlı bir prosesin nəticəsidir [Hüseynova və Vəliyeva, 2022].

Ağıl bədəndəki ən güclü orqanlardan biridir və bütün digər orqanların işini tənzimləyir. Beynimiz qeyri-sabit olduqda, bədənimizin bütün fəaliyyətinə təsir göstərir. Həm fiziki, həm də emosional cəhətdən sağlam olmaq həyatın bütün sahələrində uğurun açarıdır. İnsanlar ruhi xəstəliklərin fəsadlarından xəbərdar olmalı və fiziki bədəni sağlam saxladıqları kimi zehni sağlam saxlamağa böyük əhəmiyyət verməlidirlər. Ruhi və fiziki sağlamlığı bir-birindən ayırmaq olmaz. Və yalnız hər ikisi balanslı olduqda insanı tam sağlam və yaxşı adlandıra bilərik. Beləliklə, hər kəsin əqli və fiziki rifah arasında tarazlığa nail olmaq üçün çalışması və onlardan hər hansı biri zəiflədikdə lazımi yardımı alması çox vacibdir.

**Ədəbiyyat:**

*Hüseynova, G.Q., Vəliyeva, Y.Ə.* (2022). Emosiyaların Psixologiyası. Bakı – 284 s. http://static.bsu.az/w22/a_kafedralar/psixologiya/Kitab%20Emosiyalar%C4%B1n%20psixologiyas%C4%B1.pdf

*Health Work in the Public Schools.* (2006). By Leonard Porter Ayres. May Ayres. - 52 s.

*Mental Diseases A Public Health Problem.* (2017). By James V.May. M.D. - 537 s.

*Mental Radio.* (2020). By Upton Sinclair - 237 s.

*Mind and Body or Mental States and Physical Conditions*. (2013). By William Walker Atkinson. - 196 s.

*Psychology A Study of Mental Life*. (2010). By Robert S. Woodworth, Ph.D. Professor of Psychology in Columbia University - 573 s.

*Supporting Individuals with Intellectual Disabilities and Mental Illness*. (2015). By Sherri Melrose. - 240 s.

*The Mental Life of Monkeys and Apes: A Study of Ideational Behavior.* (2004). By Robert Mearns Yerkes – 150 s.

*The Philosophy of Health; or an exposition of the Physical and Mental Constitution of Man, with a view to the promotion of Human Longevity and Happiness.* (2019). By Southwood Smith, M.D., Physician to the London Fever Hospital, to the Eastern Dispensary, and to the Jews' Hospital - 265 s.

*The Practices of Happiness. Political economy, religion and wellbeing*. (2011). By John R.Atherton, Elaine Graham and Ian Steedman - 297 s.

*The Rise of Mental Health Nursing /A History of Psychiatric Care in Dutch Asylums/ 1890-1920* (2003). By Geertje Boschma - 325 s.

*Three Thousand Years of Mental Healing.* (2007). By George Barton Cutten, Ph.D. (Yale) President of Acadia University – 302 s.

# BAĞLILIQ NÖVLƏRİ VƏ BUNUN ŞƏXSİYYƏTİN PSİXİ SAĞLAMLIĞINA TƏSİRİ

**Səidə HÜSEYNOVA**
Bakı Dövlət Universiteti, doktorant,
*Azərbaycan, BAKI*
psy.saidahuseynova@gmail.com

## XÜLASƏ

Araşdırmalardan əldə etdiyimiz məlumatlar təhlükəsiz bağlılıq növləri geniş yayılmış patogen vəziyyət hesab olunur. Terapevtik nöqteyi-nəzərdən, güvənli (təhlükəsiz) bağlılığın situativ artımı psixiatrik simptomların (məsələn, posttravmatik stress pozuntusu, qida pozuntuları) ehtimalını və şiddətini azaltdığına dair ilkin nəticələri araşdırıldı. Tədqiqatların nəticələri münasibətlərdə, o cümlədən terapevtik münasibətlərdən dəstəyin sakitləşdirici, sağaldıcı, müalicəvi təsirini vurğulayır; dəstək, sevgi və güvənli bağlılıq təcrübələrinin kognitiv inancları ilə gələn rahatlıq və təhlükəsizlik. Tədqiqat nəticələri şəxsin güvənli (təhlükəsiz) bağlılıq hissini yaxşılaşdırmaq üçün klinik müdaxilələr üçün həvəsləndiricidir.

**Açar sözlər:** bağlılıq, psixi sağlamlıq, travma, depressiya.

# ATTACHMENT STYLES AND THEİR EFFECT ON THE MENTAL HEALTH OF THE İNDİVİDUAL

**Saida HUSEYNOVA**
Baku State University, PhD student,
*Azerbaijan, BAKU*
psy.saidahuseynova@gmail.com

## SUMMARY

The information we obtained from research is considered a very common pathogenic state of secure attachment. From the therapeutic point of view, the current results of the situation in which the situation of secure (safe) attachment to the situation (eg posttraumatic stress disorder, eating disorders) has been investigated. The results of the research emphasize the soothing, healing, therapeutic impact on the relations, including therapeutic relations; convenience and safety coming with the cognitive beliefs of support, love and confidence practices. The results of the research are encouraging to clinical interventions to improve the feeling of the person's secure (safe) attachment.

**Key words:** attachment, mental health, trauma, depression.

## GİRİŞ

Şəxslərarası münasibətlər insanın həyatında əsas ehtiyac və motivasiyalarından biridir, bu münasibətlərdə formalaşan bağlılıq növü isə bu zaman insanın psixi və fiziki sağlamlığı üçün önəmlidir. Ənənəvi olaraq ana-uşaq cütlüyü arasında qarşılıqlı əlaqənin mexanizmlərini öyrənən bağlılıq nəzəriyyəsi son vaxtlar böyüklərin sevgi münasibətləri kontekstində tətbiq olunmağa başlamışdır. Bağlılıq fərziyyəsi emosiyaların idarə olunması və psixi sağlamlığın öyrənilməsində vacib rol kəsb etmişdir. Xüsusilə, Boulbinin apardığı elmi araşdırmalar bağlılıq prosesi və onun növləri arasında şəxsin stresi idarəetmə, davranış strategiyaları və psixoloji dayanıqlığın arasında güclü əlaqənin olduğuna dair sübütlar təqdim etmişdirlər [Bowlby, 1980:22]. Xarici ədəbiyyatda fərqli bağlılıq növləri təqdim olunur: təhlükəli (güvənsiz) və təhlükəsiz (güvənli); sağlam, təşvişli və yayınan və s.

**Metod və metodologiya**

Bu məqalədə məqsədimiz bağlılıq növlərinin psixi sağlamlığa təsiri haqqında aparılan elmi araşdırmaların təhlilini təsviri metodla aparıb əsas xüsusiyyətlərini və psixi sağlamlığa olan mənfi və ya müsbət təsirlərini müəyyən etməkdir. Bağlılıq fərziyyəsinin əsas müddəalarının qısa təsvirindən sonra biz bəzi tədqiqat nəzəriyyələrini nəzərdə güvənli bağlılığın dərəcəsini artıqmaq əsas məqamlardan biri hesab edilir.

## ƏSAS HİSSƏ

Bağlılıq nəzəriyyəsi emosional sferanın və psixi sağlamlığın öyrənilməsi üçün əsas nəzəriyyələrdən biridir. Psixi sağlamlıq və emosional regulyasiya sahələrində bağlılıq nəzəriyyəsinin əsas toxunduğu məqam – şəxsin münasibətlərlə bağlı yaşadığı həyəcan hissi və stress vəziyyətlərində davranış strategiyalarıdır.

Bağlılıq nəzəriyyəsi 20-ci əsrin 60-cı illərində Djon Boulbi tərəfindən yaradılmışdır. Dj.Boulbi uşağın yetkinlə münasibətlərini araşdıraraq bağlılığın uşağın inkişafında əsas rol daşıdığı amillərdən biri olduğunu müəyyən etmişdir. Bowlby insanların həyatın çətin anlarında başqaları ilə yaxınlıq axtarmağa təşviq edən anadangəlmə psixobioloji sistemlə (davranış bağlılığı sistemi) doğulduqrlarını hesab edirdi. Yetkinlik dövründə bağlılıq davranışının uşaqlıqda bağlılıq davranışının birbaşa davamı olması onun ən asan yarandığı şərtlərlə özünü göstərir. Xəstəlik və ya çətinliklər zamanı böyüklər başqalarına güclü ehtiyac duyurlar; qəfil təhlükə və ya fəlakət anında insan demək olar ki, həmişə tanıdığı və güvəndiyi başqa bir insanla yaxınlıq axtarır. Belə şəraitdə artan bağlılıq davranışı ümumiyyətlə təbii olaraq qəbul edilir. Bir qayda olaraq, bağlılıq insanın öz növünün nümayəndəsi kimi əsas təkamül və bioloji vəzifələrini həyata keçirməyə və adekvat ontoloji yoldan keçməyə imkan verir - sağlam nəsillər buraxmaq, adekvat sosial reallığa malik olmaq, şəxsi inkişaf problemlərini həll etmək, uşaqlıq travmanın yaratdığı problemlərin öhdəsindən gəlmək. Boulbinin fikrincə, bir uşağın bağlı olması onun birinə qarşı güclü təmas axtarması deməkdir, xüsusi ilə müəyyən vəziyyətlərdə (məsələn, qorxduqda, yorulduqda və ya xəstə olduqda). Normal şəraitdə ilk bağlılıq uşağın himayədarla olan əlaqəsi zamanı yaranır. Uşağa "təhlükəsiz" şərait yaradaraq himayədar uşağa xarici dünyanı araşdırmağa imkan verir. Beləliklə ərkən bağlılıq uşağın sosial, emosional və zehni inkişafına mühüm təsir göstərir. Hal-hazırda hesab olunur ki, bağlılıq şəxsin bütün həyatı boyu aktiv qalır, çünki vacib şəxslərarası münasibətlər özünə bağlılığın xüsusiyyətlərini götürə bilər. Lakin insanın bağlılıqla əlaqəli olan davranışı şəxsin həyatın fərqli mərhələlərini necə keçdiyindən asılı olaraq dəyişə bilər.

Bağlılıq nəzəriyyəsi şəxləsrarası münasibətlərə (valideyn - uşaq, ailə münasibətləri) və əlaqələrə diqqətini cəmləyir. Bu insanların arasında olan emosional əlaqənin izahıdır. Bağlılıq – dərin və möhkəm emosional əlaqədir, hansı bir insanı digərinə zaman və məkanda bağlayır. Yəni, bağlılıq - başqa bir insanla olan emosional əlaqədir. Boulbi hebas edirdi ki, uşaqların himayədarlala ola erkən bağlılığı gələcək həyatına və gedişatına mühüm təsir göstərir.

Yetkinlik dövründə bir insanın bağlılıq obyektini - romantik tərəfdaşı seçmək imkanı var, həm də şüurlu şəkildə yaxın münasibətləri pozmaq və bağlılıq davranışını dayandırmaq qabiliyyəti var. Bu sadə ifadə, yetkinlik dövründə bağlılığın xüsusiyyətlərini başa düşmək üçün böyük əhəmiyyət kəsb edir. Erkən uşaqlıqda məhəbbət obyekti ilə emosional əlaqəni pozmağın yeganə yolu obyektin "itkisidir" - ölüm, uzun, tez-tez ayrılmalar, yəni ondan fiziki ayrılıq. Uşağın ehtiyacları lazımi qaydada ödənilmədikdə (deprivasiya, məhrumiyyət), ana ona qarşı əlçatmazlıq, qəddarlıq, ikirəklik nümayiş etdirən zaman, bağlılıq pozuntusu baş verir, təhlükəli bağlılıq üslubları formalaşır, lakin emosional əlaqənin özü kəsilmir və kəsilməyə bacarmır.

Bütün bunlara əsaslanaraq Dj.Boulbi 4 bağlılıq növü qeyd edir:

1. Güvənli bağlılıq;
2. Təşvişli bağlılıq;

3. Yayınan bağlılıq;
4. Qarışıq növ bağlılıq.

**Güvənli bağlılıq**

Boulbi (1988) təhlükəsiz bağlılığı başqaları ilə yaxşı və təhlükəsiz münasibət qurmaq bacarığı, həmçinin vəziyyətdən asılı olaraq müstəqil hərəkət etmək bacarığı kimi təsvir etmişdir. Güvənli bağlılıq inam, rədd cavabına adaptiv reaksiya və insanın sevgiyə layiq olduğuna inamla xarakterizə olunur.

Körpə bir qəriblə dost ola bilər və ya olmaya bilər, lakin həmişə ana ilə ünsiyyətə daha çox maraq göstərir. Digər üç bağlılıq növləri sağlam münasibətləri yaratma və saxlama çətinliyi ilə xarakterizə olunur. Əksinə, təhlükəsiz bağlılıq tərzi insanın duyğularını açıq şəkildə ifadə etməsinin rahat olduğunu nəzərdə tutur.

Güvənli bağlılıq növünə malik olan yetkinlər partnyorlarına etibar edə bilir və öz növbəsində onlara etibar etməsinə icazə verirlər. Münasibətlər dürüstlük, tolerantlıq və emosional yaxınlıq üzərində qurulur. Belə insanlarda tənhalıq qorxusu müşahidə olunmur və maraq dairəsinin mərkəzində münasibətlər deyil, ilk öncə özü olur. Onlar tərəfdaşlarının reaksiyasından və ya razılığından asılı deyillər və özlərinə və başqalarına müsbət münasibət bəsləməyə meyllidirlər.

**Təşvişli bağlılıq**

Təşvişli bağlılıq münasibətləri (həmçinin ambivalent münasibətlər də adlanır) başqalarının yaxınlıq istəyinə cavab verməyəcəyi qorxusu ilə xarakterizə olunur. Bunun səbəbi, körpənin qəyyumunun və ya valideyninin etibarsız olduğunu və ehtiyacları üçün həmişə həssas qayğı göstərmədiyini öyrənməsidir. Təşvişli bağlanmış körpə anaya qarşı bəzi ambivalentlik (və müqavimət) ilə xarakterizə olunur. Körpə tez-tez ana ilə qarşılıqlı əlaqəyə müqavimət əlamətləri göstərir, xüsusən də qəribə vəziyyətin yenidən birləşmə epizodu zamanı. Ancaq ana ilə əlaqə qurulduqdan sonra körpə də bu əlaqəni davam etdirmək niyyətində olduğunu göstərir.

Təşvişli bağlılıq tərzi olan böyüklər üçün münasibətdə olduöu şəxs çox vaxt "ən yaxşı yarı" olduğunu düşünür. Yetkinlər kimi, təşvişli bir bağlılıq tərzi olan insanlar münasibətlərdəki qeyri-müəyyənlikdən həddindən artıq narahatdırlar. Onlar özlərinin mənfi iş modelini və başqalarının müsbət iş modelini tuturlar. Münasibətlərsiz, partnyorsuz həyat haqqında düçüncələr belə şəxsin təşvişinin dərəcəsini artırır. Bu tip bağlılığı olan insanlar adətən özləri haqqında mənfi düşüncələrə sahib olurlar, lakin başqalarına müsbət baxırlar. Narahat bir yetkin tez-tez tərəfdaşından razılıq, dəstək və həssaslıq axtarır.

Bu bağlılıq tərzinə sahib olan insanlar münasibətlərinə yüksək qiymət verirlər, lakin çox vaxt sevdiklərinin münasibətlərə onlar qədər maraqlı olmadığından narahat olurlar. Tərk edilmək qorxusu güclüdür və təhlükəsizlik belə insanlar üçün prioritetdir. Bir tərəfdaşın diqqəti, qayğısı və həssaslığı narahatlıq üçün "müalicə" kimi görünür. Digər tərəfdən, dəstəyin və yaxınlığın olmaması, təşvişli insanı daha yapışqan və tələbkar olmasına, münasibətə sarışan şəkildə düşünməsinə və sevgiyə həddən artıq ehtiyac duyduğuna səbəb ola bilir.

**Yayınan bağlılıq**

Yayınan bağlılıq tərzi olan uşaqlar baxıcı ilə qarşılıqlı əlaqədən qaçmağa meyllidirlər və ayrılıq zamanı heç bir narahatlıq göstərmirlər. Bu, valideynin yaxın olmaq cəhdlərinə məhəl qoymaması və uşağın bu və ya hər hansı digər münasibətdən asılı ola bilməyəcəyinə dair inancını mənimsəməsi ola bilər. Yayınan bağlanan körpə ana ilə yaxınlıq axtarmağa az və ya heç bir meyli olmayan kimi xarakterizə olunurdu.. Körpə anadan ayrılıq zamanı çox vaxt narahatçılıq keçirmir, yad adamla anası ilə ünsiyyətdə olduğu kimi ünsiyyətdə olur və anasına qovuşduqda yüngül çəkinmə əlamətləri (üzünü çevirir, göz təmasından qaçır və s.) göstərilmişdir.

Tədqiqatçılar körpənin yayıma davranışını anaların fiziki təmas zamanı narahatçılıq və ya körpələr tərəfindən daha asan əsəbiləşmək kimi öz yayınma davranışlarına qarşı müdafiə mexa-

nizmi kimi şərh etmişdilər. Rədd edən/qaçan tip tez-tez özlərini "tənha canavar" kimi qəbul edirdilər: güclü, müstəqil və özünə kifayət edən; mütləq fiziki təmas baxımından deyil, daha çox emosional səviyyədə. Bu insanların özünüqiymətləndirməsi yüksək, özünə münasibəti isə müsbətdir. Rədd etmə/qaçma növü, tam hiss etmək üçün münasibətdə olmalarına ehtiyac olmadığına inanmağa meyllidir. Başqalarının onlardan asılı olması üçün başqalarından asılı olmaq istəmirlər və ya sosial əlaqələrdə dəstək və təsdiq axtarmırlar.

Bu bağlılıq tərzinə malik böyüklər emosional yaxınlıqdan qaçmağa meyllidirlər. Onlar həmçinin həddən artıq yüksək emosional vəziyyətlə qarşılaşdıqda hisslərini gizlətməyə və ya basdırmağa meyllidirlər. Yetkinlik dövründə ortaya çıxan bağlılıq üslubları mütləq körpəlikdəki kimi olmasa da, erkən bağlılıqlar sonrakı münasibətlərə böyük təsir göstərə bilər. Uşaq ikən güvənli şəkildə bağlanmış böyüklər normal özünüqiymətləndirmə səviyyəsinə, möhkəm şəxslərarası münasibətlərə və özlərini başqalarına ifadə etmək qabiliyyətinə malikdirlər.

**Dezorqanizə olunmuş (qarışıq) tip bağlılıq**

Dezorqanizə olunmuş bağlılıq çəkinən və narahat olan bağlılığın birləşməsidir və bu qrupdakı uşaqlar tez-tez şiddətli qəzəb və qəzəb göstərirlər. Onlar oyuncaqları sındıra və başqa qeyri-sabit yollarla davrana bilərlər - onların baxıcılarla da çətin münasibətləri var. Dezorqanizə olunmuş şəkildə inkişaf edən uşaqlar yetkin yaşlarda yaxın münasibətlərdən qaçmağa meyllidirlər, emosiyalarını idarə etməkdə çətinlik çəkirlər və çox asanlıqla partlaya bilirlər.

Yetkinlik dövründə dezorqanizə olunmuş tip sosial münasibətlərdə qeyri-sabit və qeyri-müəyyən davranışlar nümayiş etdirməyə meyllidir. Bu cür bağlılığı olan böyüklər üçün tərəfdaş və əlaqənin özü çox vaxt həm arzu, həm də qorxu mənbəyi olur. Qorxudan çəkinən insanlar həqiqətən yaxınlıq istəyirlər, lakin eyni zamanda başqalarına güvən və asılılıq problemi yaşayırlar. Onlar emosiyalarını zəif tənzimləyirlər və onları incidə biləcəyindən qorxduqları üçün güclü emosional bağlılıqlardan qaçırlar.

**Bağlılıq növü və psixi pozuntular**

Bağlılıq nəzəriyyəsinə görə, güvənsiz, etibarsız və ya həssas olmayan bağlılıq obyektləri ilə qarşılıqlı əlaqə təhlükəsiz və sabit psixi bazanın formalaşması prosesinə mane olur; stresli həyat hadisələrinin öhdəsindən gələrkən stresə davamlılığı azaldır; və həyatın kritik dövrlərində insanı psixopatoloji pozuntulara meylləndirir.

Tədqiqatların araşdırması zamanı müəyyən olundu ki, etibarsız bağlılıq nümunələri yüngül narahatlıqdan ağır şəxsiyyət pozuntularına və hətta şizofreniyaya qədər müxtəlif psixi pozuntuları olan insanlar arasında yaygındır. Məsələn, etibarsız bağlılıq növləri (həm narahat, həm də çəkinən növlər depressiya, yüksək dərəcədə ifadə olunmuş həyəcan, obsessiv-kompulsiv pozuntu, posttravmatik stress pozuntusu (PTSP), intihar meylləri və qida pozuntuları kimi psixi pozuntularla bağlıdırlar [Mikulincer, 2012:11].

Etibarsız bağlılıq həm də bir çox şəxsiyyət pozuntularının əsas xüsusiyyətidir. Bununla belə, müxtəlif pozuntular müxtəlif növ etibarsız bağlılıq ilə xarakterizə olunur. Təşvişli növ bağlılıq asılı, isterik və emosional-davamsız (sərhədi) tip şəxsiyyət pozuntularına uyğundur, yayınan növ bağlılıq isə şizoid və yayınan tip şəxsiyyət pozuntularına xas olan xüsusiyyətdir. Bəzi elmi araşdırmalar təşvişli bağlılıq növünü emosional disregulyasiya ilə əlaqələndirirlər. Emosional disregulyasiya özünə emosional labillik, düşüncə xətaları, həyəcan, qeyri-stabil identiklik, tabe olma, özünə zərər yetirmə və şübhəciliyi daxil edir. Eyni zamanda yayınan növ bağlılıq isə "özünü basdırma" bağlıdır, hansına özünə emosioyaları ifadəetmə çətinliyi, sosial kənarlaşma və yaxınlıq qruma çətinlikləri kimi problemlər aid edilir. Anamnestik məlumatlar da həmçinin vacib rol oynayır. Bağlılıq növlərini psixi pozuntuların yaranma səbəbi olaraq hesab edə bilməsək, lakin genetik, bioloji faktorlarla yanaşı psixi pozuntuların səviyyəsini artıra biləcək amillərdən biri olaraq qeyd edə bilərik.

Boulbinin fərziyyəsinə istinad edərək Bartlomey yetkinlərdə 4 kategoriyalı bağlılıq fərziyyəsi yaratmışdır [Ma, 2006: 440-449]. Yetkinlərin psixopatologiyasının araşdırması zamanı istifadə olun bağlılıq modellərindən biri Varfolomeyin 4 kategoriyalı bağlılıq modelidir. Cədvəl 1. Göstərir ki, bu model fərqli daxili model olaraq konseptuallaşaraq 4 bağlılıq növü yaratmişdır: "güvənli", "yayınan", "narahat" və "təşvişli". Daxili modellər fərqli faktorlarla özünü ifadə edir: "mən"in daxili modeli zamanı bağlılıq təşvişi – münasibət zamanı tərk edilməklə bağlı təşviş; "digər"in daxili modeli zamanı bağlılıqdan yayınma (bağlılıq yaradan münasibətlərdən yayınma).

**Cədvəl 1. Varlofomeyin 4 kategoriyalı bağlılıq modeli.**

<table>
<tr><td colspan="2" rowspan="2"></td><td colspan="2">"Mən"-nin daxili iş modeli (asılılıq)</td></tr>
<tr><td>Müsbət (aşağı səviyyəli asılılıq)</td><td>Mənfi (Yüksək səviyyəli asılılıq)</td></tr>
<tr><td rowspan="2">"Digər"lərin daxili iş modeli (yayınma)</td><td>Müsbət (aşağı səviyyəli yayınma)</td><td>Güvənli<br>Yaxınlıq və müstəqillikdə comfort hiss edir</td><td>Narahat<br>münasibətlərlə bağlı narahatlıq, yüksək emosional reaktivlik</td></tr>
<tr><td>Mənfi (yüksək səviyyəli yayızma);</td><td>Yayınan<br>Yaxınlıqdan imtina, kontr-asıllılıq</td><td>Təşvişli<br>Yaxınlıqdan və tərk edilməkdən qorxur, özünü tərk olunmaya layiq hesab edir, yüksək emosional reaktivlik</td></tr>
</table>

Hər iki davranış sosial dəstəyim, həmçinin bu dəstəkdən istifadənin azalmasına gətirib çıxara bilər. Bağlılıq münasibətlərində yaranan problemlər həmçinin patogen ola bilər. Beləliklə, bağlılıq zamanı yaranan güvənsizlik psixopatologiyanın risk faktorlarından biri ola bilər və əksinə, təhlükəsiz bağlıq güvənli ola bilər və psixopatologiyanın yaranma riskini azalda bilər.

Bağlılıq və psixi pozuntular arasında əlaqəni araşdıran tədqiqatlar kross-seksion xasiyyət daşıyırdı, bu isə səbəb-nəticə əlaqəsini müəyyən etməyi mümkünsüz edir. Mövcud longityud tədqiqarlar isə güvənsiz bağlılığın risk faktoru olduğu nəticəyə gəlib. Bu situasiyada psixi pozuntular iki formada yarana bilir:

Psixopatologiyanın eksternalizasiyası davranışın strategiyasını minimizasiyası ilə əlaqədlidir (məsələn, qida pozuntuları). Psixopatologiyanın internalizasiyası (məsələn, depressiya, təşviş pozuntuları və sərhədi tip şəxsiyyət pozuntusu) davranış strategiyaların minimizasiyası (hiper-aktivasiyası) ilə bağlıdır. Nəticədə, pozuntunun genetik yülü nə qədər çox olsa, o qədər az sosial və ətraf mühit faktorları (bağlılığı daxil edərək) təsiri ola bilir. Şəxsin frustrasiya yaşaması və ya bağlılıq sistemi aktiv olan şəraitdə bağlılıq ehtiyacını qeyri-adekvat şəkildə nümayiş etdirilməsi zamanı (məsələn, ağır itki, başanma zamanı) psixopatologiyanın, yəni hər hansı bir psixi pozuntunun yaranma ehtimalı yüksəlir.

**Şəxslərarası münasibətlərdə yaranan problemlər**

Bağlılıq nəzəriyyəsinə görə, bir bağlılıqdan dəstək ala bilməmək və təhlükəsizlik hissini qoruyub saxlamaqda dəfələrlə uğursuzluq ikinci dərəcəli bağlılıq strategiyalarına (hiperaktivasiya və deaktivasiya) etibar etməyə gətirib çıxarır, sosial bacarıqların mənimsənilməsinə mane olur və ciddi şəxsiyyətlərarası problemlər yaradır. Keçirilmiş elmi araşdırmalara əsasən təşvişli bağlılıq ümumiyyətlə daha geniş şəxsiyyətlərarası problemlər yaşayır. Güvənli tip bağlılığa malik olan şəxslər problem dairəsinin heç bir sektorunda nəzərəçarpacaq artım göstərmədilər, yayınan insanlar isə adətən qayğı, yaxınlıq sahəsində problemlər (soyuqluq, introversiya və ya rəqabət) və narahat insanlarla emosionallıqla bağlı problemlər (məsələn, həddindən artıq ifadəlilik) yaşayırdılar. Bu

problemlərin əsasında tənhalıq hissi və sosial kənarlaşma dayanır. Daimi tənhalıq hissi və sosial kənarlaşma münasibətlərdən aşağı səviyyədə məmnun olmağına, münasibətləri kəsmək istəyi, münaqişələrin və zorakılığı artmağına səbəb olur .

Yetkinlərin bağlılıq tərzi, yaxınların stress zamanı mövcudluğu və reaksiyası ilə bağlı gözləntilərin, inancların və emosiyaların sistematik modellərinə aiddir. Bağlılıq nəzəriyyəsinə görə, bağlılıq modeli şəxsin ona qayğı göstərənlərlə olan ünsiyyəti əsasında formalaşır və daha yetkin yaşlarda şəxslərarası münasibətlərdə qorunur. Zaman keçdikcə bu inanclar internalizasiya olunur və özlərinin və yaxın münasibətlərdə olan digər insanların kognitiv inancları (yəni, daxili iş modellərini) formalaşdırır ki, bu da öz növbəsində insanların həyat boyu obyektiv və subyektiv təhlükəli vəziyyətləri necə qavramasına və onlarla mübarizə aparmasına təsir göstərir.

Bağlılıq tərzləri arasında fərqlilikləri araşdıran tədqiqatlar göstərir ki, təşvişli bağlılıq üzrə yüksək bal toplayan insanlar tərkedilmə qorxusu, həddindən artıq narahatlıq və yaxınları ilə yaxınlıq arzusu, münasibətdə olduğu şəxs ona cavab vermədikdə stress yaşayırlar. Təşvişli bağlılıq, stresli hadisələrə mənfi emosional reaksiyaları artıran hiperkompensator mübarizə strategiyalarından asılıdır. Bu isə həmin şəxsə ünsiyyətdə olduğu şəxslər tərəfindən yaxınlıq və dəstək ola bilmə ehtimalını artırır. Bununla belə, yetkinlik dövründə təşvişli bağlılıq mənfi emosiyalara və təhdidedici məlumatlara diqqətin artması, hadisələrə təhdid kimi baxma meyli və daha ağır depressiya, narahatlıq və düşmənçilik əlamətləri daxil olmaqla, müxtəlif uyğunsuz nəticələrlə əlaqələndirilir.

Yetkinlər arasındaikinci ən çox yayılan bağlılıq yayınan bağlılıqdır. Bu şəxslər şəxslərarası münaibətlərdə yaxınlıq olduqda diskomfort hiss edirlər, bu isə narahat xatirələrin və emosiyaların basdırılmasına və ya ifadə olunmamasına gətirib çıxarır. Baxmayaraq ki, bu davranış strategiyaları mənfi emosiyaları effektiv regulyasiya edir, bağlılıqdan yayınmaq fərqli xoşagəlməyən fəsadlarla əlaqəli ola bilər. Bu davranış strategiyaları mənfi emosiyaları effektiv regulyasiya etsə də, bağlılıqdan yayınmaq fərqli xoşagəlməyən fəsadlara gətirib çəxara bilər, məsələn, negativ emosiyaları tanıma bacarığı, sosial dəstək axtarma cəhdlərinin azalmasına, depressiyanın yaranmasına. Güvənli bağlılığı olan insanlarda isə əksinə aşağı səviyyəli həyəcan və yayınma ilə, stress hadisələri daha az təhlükəli olaraq qiymətləndirirlər. Bu cür davranışlar insana ətrafdan dəstk almağa və stress vəziyyətləri effektiv mübarizə aparmağa yardım edir.

**Posttravmatik stress pozuntusu**

Yetkinlərin bağlılığın araşdıran empirik tədqiqatlar göstərir ki, bağlılıq prosesləri fərdin travmatik hadisələrə reaksiyalarının təbiətində və şiddətində əsas rol oynayır. Ümumilikdə, araşdırmalar göstərir ki, təhlükəsiz (güvənli) bağlılıq posttravmatik stress pozuntusu inkişafından qoruya bilər, güvənsiz bağlılıq isə posttravmatik stress pozuntusu simptomlarına qarşı həssaslığı artırır. Şəxslərarası münasibətlərdə travma alan yetkinlər, terrora məruz qalanlar və keçmiş hərbi əsirləri əhatə edən tədqiqatlarda posttravmatik stress pozuntusu simptomları ilə bağlılıq qorxusu və qaçınma arasında statistik güclü əlaqə aşkar edilmişdir [Ogle, 2015:324-32].

Güvənsiz bağlılıq həmçinin posttavmatik pozuntusunun simptomlarının yaranmasında risk faktoru olduğu göstərilmişdir. Tədqiqatlar göstərir ki, uşaqlıq dövründə zorakılığa məruz qalan yetkinlər təhlükəsiz bağlılıq üslublarından daha çox güvənsiz növü təsdiqləyirlər. Eyni zamanda güvınsiz bağlılıqsı olub zorakılığa məruz qalanlar arasında güvənli bağlılıq zorakılığa məruz qalanlara nisbətən daha çox posttravmatik stress pozuntusu simptomları müşahidə olunur. Tədqiqatda güvənsiz bağlılıq zorakılığın və travma ilə bağlı olan simptomların prediktoru olması müəyyən olunmuşdur. Ümumilikdə bu nəticələr göstərir ki, uşaqlıq travması keçirmiş insanlar travmadan sonrakı stress pozuntusun əlamətlərinin inkişafı üçün xüsusilə həssas ola bilər, çünki zorakılıq təcrübəsi güvənli bağlılıqların formalaşmasına mane olur və səmərəsiz emosiya tənzimləmə strategiyalarından istifadəsini təşviq edir.

**Depressiv pozuntu**

Boulbinin dediklərinə əsasən, depressiyanın etiologiyasını başa düşməkdə bağlılıq fərziyyəsi böyük rol kəsb edir. Erkən yaşlarda itkinin yaşanması, ayrılıq və valideyn və ya digə himayədar şəxs tərəfində tərkedilmə (uşağın sevgiyə layiq olmadığını bildirərək) uşaqda təhlükəli daxili modellərin formalaşmasına gətirə bilər. Özü barədə cazibəsiz və başqaları barədə sevilməyən kimi kognitiv xətaların formalaşması Beki depressiya zamanı yaranan triadası ilə uyğun gəlir.

Varlofameyin təsnifatına əsasən keçirilən tədqiqatlarda daha ardıcıl nəticələr vermişdir. Qeyri-kliniki populyasiyalarda, hansılarda tədqiqat daha böyük əhali ilə keçirilmişdir, depressiv simptomlarla narahat və təşvişli bağlılıq arasında statistik güclü müsbüt əlaqə müəyyən olunmuşdurş kliniki populyasiyada isə depressiv pozuntu daha çox bağlılıq qorxusu ilə (yayınan tip bağlılıq) güclü müsbət əlaqə, güvənli bağlılıqla isə mənfi statistik əlaqə göstərmişdir. Tədqiqatda 71 ağır depressiyalı qadın iştirak etmişdir. Statistik məlumatların analizi nəticəsində təşvişli tip bağlılıq və depressiyanın dərəcəsi arasında statistik güclü əlaqə aşkar edilmişdir. Nəticələrə əsasən müəyyən olundu ki, təşvişli bağlılığın artması depressiyanın səviyyəsinin artmasına təsir edir. Özünə qarşı olan negativ model yüngül supdepressiv simptomlarla bağlıdır. Əgər ətrafdakı insanlar düşmən-cəsinə insan tərəfindən qəbul olunmursa depressiyanın gedişatı daha ağır olur.

**Təşviş pozuntuları**

Təşviş pozuntuları təbiətcə heterogen hesab olunur və qorxu ilə yayınmanın birləşməsi ilə xarakterizə olunur. Təşviş pozuntuları zamanı qorxu üstünlük etdikdə pozuntu özünə ilk öncə inter-nalizasiya edən simptomları əlavə edir və nəticədə bu davranış strategiyalarının maksimizasiyasına gətirib çıxarır (məsələn, ambivalent, narahat bağlılıq).

Boulbi hesab edir ki, təşviş pozuntuları ən yaxşı şəxsin bağlı olduğu insanlara qarşı həyəcanla ifadə olunur. Təşviş pozuntularının yaranma səbəblərindən biri isə erlən ailə mühiti və uşağa valideynin təhlükəsizliyinə görə narahat qaldığı şərailəridir. Beləliklə, təhlükəsizlik bağlılığı olan uşaq tez-tez əlverişli şəraitdə belə təşvişli olur. Xroniki oyanıqlıq və təşviş gələcəkdə təşviş pozuntusunun yaranma ehtimalını qaldırır [Kayha, 2019:101–112].

**NƏTİCƏ**

Keçirilən tədqiqatın analizi zamanı müyyən olundu ki, bağlılıq təkcə şəxlərarası münasi-bətlərə deyil, həmçinin insanın davranışlarına emosiyaların regulyasiyasında və ən əsası emosional yaddaşa təsir edir. Eyni zamanda aşkar olundu ki, bağlılıq qorxusu və posttravmatik stress pozuntu-sunun simptomlarının şiddıti travmanın yaranma müddətindən asılı olaraq dəyişə bilir. Bağlılıq nəzəriyyəsini araşdırmaq təkcə ümumi psixi pozuntuların inkişafının təbiəti haqqında deyil, həm də terapevtik əlaqənin inkişafı haqqında qiymətli məlumatlar verə bilər və bu isə gələcəkdə psixotera-pevtik dəstəyin daha effektiv olmasını təşviq edə bilər.

**Ədəbiyyat:**

*Bowlby, J.* (1980) Attachment and Loss. Vol. 3: Loss. London: Pimlico.

*Kayha, Y., & Taskale, N.* (2019). Difficulties in emotion regulation, separation anxiety, and impulsivity as predictors of women’s intimate partner violence experiences. *Düşünen Adam: Journal of Psychiatry and Neurological Sciences, 32*(2), 101–112.

*Ma, K.* (2006). Attachment theory in adult psychiatry. Part 1: Conceptualisations, measurement and clinical research findings. *Advances in Psychiatric Treatment, 12*(6), 440-449. doi:10.1192/apt.12.6.440.

*Mikulincer, M, Shaver, PR.* (2012). An attachment perspective on psychopathology. World Psychiatry. Feb;11(1):11-5. doi: 10.1016/j.wpsyc.2012.01.003. PMID: 22294997; PMCID: PMC3266769.

*Ogle, C.M, Rubin, D.C, Siegler, I.C.* (2015). The relation between insecure attachment and posttraumatic stress: Early life versus adulthood traumas. Psychol Trauma. Jul; 7(4): 324-32. DOI: 10.1037/tra0000015. Epub 2014 Nov 10. PMID: 26147517; PMCID: PMC4493437.

# ŞƏXSİYYƏTİN "MƏN" KONSEPSİYASI SOSİAL-PSİXOLOJİ PROBLEM KİMİ

**Tünzalə MUSAYEVA**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,
"Sosial psixologiya" şöbəsinin elmi işçisi,
psixologiya üzrə fəlsəfə doktoru,
*Azərbaycan, BAKI*
tunzala.rm@gmail.com

**XÜLASƏ**

Məqalədə şəxsiyyətin mənlik anlayışı təhlil edilir. "Mən konsepsiyası" bir insanın özü haqqında nisbətən sabit, az və ya çox başa düşülən, unikal fikirlər sistemidir. "Mən konsepsiyası"nın ən mühüm funksiyası şəxsiyyətin daxili ardıcıllığını və davranışının nisbi sabitliyini təmin etməkdir. "Mən" anlayışı insanın həyat təcrübəsinin, ilk növbədə, uşaq-valideyn münasibətlərinin təsiri altında formalaşır.

**Açar sözlər:** şəxsiyyət, "mən" konsepsiyası, özünüqiymətləndirmə, iddia səviyyəsi, özünəmünasibət

# "SELF-CONCEPT" OF PERSONALITY AS A SOCIAL-PSYCHOLOGICAL PROBLEM

**Tunzala MUSAYEVA**
ANAS Institute of Philosophy and Sociology,
Scientific worker of the "Social psychology" department,
PhD in Psychology,
*Azerbaijan, BAKU*
tunzala.rm@gmail.com

**SUMMARY**

The article analyzes the self-concept of personality. "Self–concept" is a system of relatively stable, more or less understandable, unique ideas of an individual about himself. The most important function of the self-concept is to ensure the internal consistency of the personality and the relative stability of its behavior. Self-concept is formed under the influence of a person's life experience, firstly, child-parent relationships.

**Key words:** personality, self-concept, self-esteem, the level of claims, self-relation.

Şəxsiyyət problemi elmin müxtəlif sahələrinin predmeti hesab olunur. Xüsusilə bu elm sahələrinin içərisində sosial psixologiya böyük rol oynayır. Çünki burada şəxsiyyət – fərdin psixi proseslərini bir arada birləşdirən başlanğıc kimi təqdim olunur. Şəxsiyyət dedikdə, hər şeydən əvvəl, fərdi bu və ya digər cəmiyyətin üzvü kimi xarakterizə edən sosial keyfiyyətlərin sistemi nəzərdə tutulur. O, münasibət subyektinə, şüurlu fəaliyyət subyektinə çevrilir. Yəni, şəxsiyyət ancaq şüur və mənlik şüurunun yaranması ilə birlikdə əmələ gəlir. Şəxsiyyət – yüksək düşüncəsi, öz hərəkət və davranışları üçün məsuliyyət hissini, şəxsi ləyaqəti və başqa yüksək mənəvi keyfiyyətləri özündə birləşdirən insandır. O, müstəqil, sosial, fəal olan adamdır. Rubinşteyinə görə şəxsiyyət – real həyatın real münasibətlərinə daxil olan konkret, tarixi, canlı fərddir. İnsan üçün mövcud olan, aparıcı qanunauyğunluqlar bioloji deyil, onun inkişafının sosial qanunauyğunluqları hesab olunur.

[Рубинштейн, 2002:85]. Əgər şəxsiyyət öz mahiyyətinə görə sosialdırsa, mövcudluq üsuluna görə fərddir.

Şəxsiyyət eyni ilə təkrarı mövcud olmayan konkret varlıqdır. Şəxsiyyətin konkretliyi və təkraredilməzliyinə səbəb onun, şəxsiyyət üçün səciyyəvi olan əlamət və keyfiyyətləri ilə yanaşı, məhz həmin şəxsə xas olan əlamət, keyfiyyət və psixi xassələr sisteminin olmasıdır. Şəxsiyyət üç mühüm xarakteristikaya malikdir.

1. Bütün psixi təzahürlərin plastikliyinə rəğmən, şəxsiyyətin xassələrinin davamlığı, bu və ya digər insanın hansısa situasiyada necə davranacağını öncədən görməyə imkan verir.
2. Şəxsiyyət özünü onda hər bir əlamətin digərləri ilə sıx qarşılıqlı əlaqədə olduğu vahid tam kimi təqdim edir.
3. Şəxsiyyət həm ətraf aləmi, həm də özünü hərtərəfli dərk etməyə və dəyişdirməyə istiqamətlənmiş müxtəlif fəaliyyətlərdə təzahür edir (Роджерс, 2001).

Hər bir şəxsiyyətin qavrayış və təfəkkürünün, xarakter xüsusiyyətlərinin, qabiliyyətlərinin, iradəsinin, duyğularının, münasibətinin, dəyərlərinin və s. vahid bir bütövlükdə təşkili prinsipi vardır. Bu mərkəz insan şəxsiyyətinin əsasını təşkil edir və müxtəlif psixoloji nəzəriyyələrdə “mənlik", “mən anlayışı", “özünüdərk" və s. adlanır. “Mən - konsepsiyası” - fərdin özü haqqında nisbətən davamlı, az və ya çox dərəcədə dərk olunan, təkrarolunmaz kimi yaşanan təsəvvürləri sistemidir, hansı ki, onun əsasında özünün digər insanlarla qarşılıqlı təsirini qurur və özünə münasibətdə olur. “Mən” obrazları sistemi K.Rocers tərəfindən təklif edilmiş “Mən - konsepsiyası” nın əsasını təşkil edir. Hazırda psixoloji ədəbiyyatlarda “Mən - konsepsiyası” elə “Mən”in özü hesab olunur. Həmçinin, bəzən “Mən - konsepsiyası” hətta mənlik şüuru ilə, yəni obraz onu doğuran proseslə eyniləşdirilir. “Mən” obrazının əsasını insanın özü haqqında bilikləri təşkil edir. “Mən” anlayışı insanın şəxsi inkişafının nəticəsidir. Bu, ətraf mühitlə qarşılıqlı əlaqələr əsasında formalaşan özünü dərk etmə, anlama sistemidir. Bu, özünə yönəlmiş, “Mən”ləri ifadə edən nisbətən sabit münasibətlər sistemidir [Cavadov, 2020: 612].

“Mən” konsepsiyasını özünəmünasibətin məcmusu kimi nəzərdən keçirən tədqiqatçılar özünəmünasibətin üç əsas modallığını irəli sürürlər:

1) real mən (indiki mən);

2) ideal mən (özümü necə görürəm);

3) güzgü mən (başqaları üçün necə görsənirəm) hansı ki, bu da öz növbəsində fiziki mən, emosional mən, sosial mən və zehni mən kimi aspektləri özündə ehtiva edir. Mən konsepsiyasının əsas komponentləri koqnitiv (özünüqiymətləndirmə), emosional-qiymətləndirmə (özünün emosional qiymətləndirilməsi) və davranış (davranış hərəkətləri üçün şəxsi və sosial tələblər) hesab olunur.

1) koqnitiv komponent - insanın keyfiyyətlərinin, qabiliyyətlərinin, görünüşünün, sosial əhəmiyyətinin, xarakterinin obrazı və s. hesab olunur. K.Rocersin şəxsiyyətin fenomenoloji nəzəriyyəsində mən anlayışı təkcə bizim kim olduğumuza dair qavrayışımızı deyil, həm də kim olmalı olduğumuzu və kim olmaq istədiyimizi düşündüyümüzü ehtiva edir. Bu baxımdan psixologiyada idrak komponenti kimi “Mən anlayışı”nın iki - real və ideal forması fərqləndirilir. “Real-Mən” anlayışı heç də bu konsepsiyanın realist olduğunu ifadə etmir, burada əsas məsələ şəxsiyyətin özü haqqında, “mən kiməm” təsəvvürləridir. “İdeal-Mən” şəxsiyyətin öz istəkləri haqqında təsəvvürüdür : “mən necə olmaq istərdim”. “İdeal-Mən” insanın sahib olmaq istədiyi, dəyər verdiyi və cəhd göstərdiyi xüsusiyyətləri əks etdirir [Голованова, 2004].

2) emosional-qiymətləndirmə komponenti - insanın özü haqqında fikirlərini anlaması, özünüqiymətləndirmə, özünühörmət və ya özünü məhv etmək, özünü sevmək və ya başqalarına sevgi və s. hesab edilir. Emosional-qiymətləndirmə komponenti “Mən-konsepsiya”nın əsasını təşkil edir və buraya özünüqiymətləndirmə, iddia səviyyəsi və özünəmünasibət aid edilir. “Mən-konsepsiya”sının adekvatlıq dərəcəsi şəxsiyyətin özünüqiymətləndirməsinin adekvatlığı ilə əlaqələndirilir.

Özünüqiymətləndirmə - insanın özünün özünə, imkanlarına, keyfiyyətlərinə və digər adamlar arasında yerinə verdiyi qiymətdir. Şəxsiyyətin nüvəsinə aid olmaqla, özünüqiymətləndirmə onun davranışlarının mühüm tənzimedicisi kimi çıxış edir. Şəxsiyyətin ətraf insanlara münasibəti onun özünüqiymətləndirməsindən asılıdır. Yəni, özünüqiymətləndirmə şəxsiyyətin fəaliyyətinin effektivliyinə və sonrakı inkişafına təsir göstərir. Özünüqiymətləndirmə adekvat və qeyri-adekvat ola bilir. Adekvat özünüqiymətləndirmədə insan özünü düzgün qiymətləndirir, qeyri-adekvat özünüqiymətləndirmə isə ya yüksək, ya da aşağı olur. Şəxsiyyətin özünü qiymətləndirilməsi bur necə amildən asılıdır:

a. Birincisi, onun formalaşması prosesində real mən obrazı ideal mən obrazı ilə, yəni insanın necə olmaq istədiyi fikri ilə müqayisə aparılır. Bu müqayisə tez-tez müxtəlif psixoterapevtik üsullarda öz əksini tapır, real "Mən"in ideal ilə yüksək dərəcədə üst-üstə düşməsi psixi sağlamlığın vacib göstəricisi hesab olunur. Ceymsin klassik konsepsiyasında ideal "Mən"in aktuallaşdırılması ideyası özünə hörmət anlayışının əsasını təşkil edir, bu da fərdin həqiqi nailiyyətlərinin onun iddialarına münasibəti kimi müəyyən edilir. Beləliklə, ideal bir imic əldə edən şəxsiyyət yüksək özünə hörmət ilə fırqlənir. Bir insan bu xüsusiyyətlər və nailiyyətlərinin reallığı arasındakı boşluğu hiss edirsə, özünə hörməti, böyük ehtimalla aşağı olacaqdır.

b. Özünüqiymətləndirmənin formalaşması üçün vacib olan ikinci amil müəyyən bir şəxsə sosial reaksiyaların interiorizasiyası ilə əlaqələndirilir. Başqa sözlə, bir insan özünü başqalarının düşündüyü kimi qiymətləndirməyə meyllidir.

c. Nəhayət, təbiətə və özünə hörmətin formalaşmasına başqa bir baxış, fərdin hərəkətlərinin və təzahürlərinin müvəffəqiyyətini şəxsiyyət prizmasından qiymətləndirməsidir. Fərd sadəcə bir şeyi yaxşı etdiyindən deyil, müəyyən bir işi seçdiyindən və onu yaxşı etdiyindən məmnun qalır. Ümumiyyətlə, insanlar cəmiyyətin quruluşuna uğurla "uyğunlaşmaq" üçün böyük səy göstərirlər [Райгородский, 2000].

Özünüqiymətləndirmə insanın iddia səviyyəsi ilə sıx əlaqədə olmaqla, ona öz təsirini göstərir. İddia səviyyəsi şəxsiyyətin qarşıya qoyduğu məqsədin çətinlik dərəcəsini ifadə edir. Bundan əlavə, konkret fəaliyyətdə müvəffəqiyyətlə müvəffəqiyyətsizliyin, insanın həyatı boyunca olan uğur və uğursuzluqların dinamikasını xarakterizə edir. Bütün bunlar şəxsiyyətin iddia səviyyəsini stumullaşdırır [Майерс, 2008]. Özünəmünasibət, özünə qarşı bütöv, nisbətən daimi bir emosional münasibət, fərdin özünü qəbul edib və ya qəbul etməməsi ölçüsüdür. K.Rocers özünə qarşı ümumi münasibəti özünəqiymətləndirməyə (özünəmünasibət müəyyən xassələrin və üstünlüklərin daşıyıcısı kimi) və özünü qəbul etmə (xüsusiyyət və üstünlüklərindən asılı olmayaraq özünü bütövlükdə qəbul etmə) kimi iki hissəyə ayırmışdır. Özünəmünasibətin bu aspektlərinin formalaşma mexanizmi tamam başqadır. İstənilən keyfiyyətə görə özünüqiymətləndirmə çox vaxt öz nailiyyətlərini digər insanların nailiyyətləri ilə müqayisə etməyə əsaslanır. Özünü qəbul etmək daha çox qiymətləndirmə deyil, özünə münasibət tərzi, ontogenez prosesində, eləcə də şüurlu səylər nəticəsində formalaşan ümumi həyat münasibətidir.

3) davranış komponenti - insanın özü haqqında fikirlər sisteminə əsaslanan davranışları, həmçinin özümüzə və ətrafımızdakılara qarşı sosial yönəlişlərdir. "Mən" konsepsiyasının davranış aspekti, insanın özünü təqdimetməsi və ya özünəmünasibəti nəticəsində yarana bilən spesifik hərəkətləridir. Özünəhörmət insanın sonrakı davranışını müəyyənləşdirir. Sosial-psixoloji tədqiqatlarda "Mən" konsepsiyasının davranış komponenti, bir qayda olaraq, özünütəqdimetmə anlayışı ilə ifadə olunur. Ümumiyyətlə, özünütəqdimetmə "Mən" konsepsiyanın davranış tərkib hissəsi kimi onun idrak və affektiv strukturlarını yoxlamaq və təsdiqləmək məqsədinə xidmət edir. Bununla belə, özünü təqdim etmək üçün daha çox məqsədlər, eləcə də onlara uyğun gələn sosial davranış strategiyaları ola bilər. Məsələn, özünütəqdimetmənin aşağıdakı məqsədləri və strategiyaları fərqləndirilir:

- bəyənilmək istəyi (davranış strategiyası — başqasının fikri ilə razılığın nümayişi, yaltaqlıq, həddindən artıq nəzakət və s.);

- özünü tanıtmaq (davranış baxımından - öyünmək, kiçik çatışmazlıqlarla müqayisədə üstünlükləri şişirtmək və s.);

- nümunə kimi xidmət (nümayişkaranə şəkildə sosial davranışla ifadə olunan tərəfdaşda heyranlıq və ya günahkarlıq hissi oyatmağa yönəlmiş daha az yayılmış məqsəd);

- empatiya yaratmaq istəyi (digər strategiyaların özünü doğrultmadığı hallarda istifadə olunur və insanlarda mərhəmət hissi yaratmağı hədəfləyir, davranış strategiyası - özünün güclərinin azaldılması, zəif "Mən"inin nümayişi);

- qorxutmaq istəyi (bir qayda olaraq, bütün digər strategiyalar uğursuz olduqda, zəif idarə olunan davranışla ifadə olunan insan tərəfindən zəif başa düşülən bir məqsəd).

Başqa sözlə, özünütəqdimetmə ilə ifadə olunan "Mən" konsepsiyasının davranış komponenti ümumiyyətlə onun idrak və affektiv quruluşlarını təsdiqləməyə yönəlmişdir [Чернышева, 2005].

"Mən" konsepsiyası müxtəlif forma və ya növlərdə ola bilər: "real mən", "ideal mən", "dinamik mən", "fantastik mən", "güzgü məni" və s. Bunlardan hər biri ayrı-ayrılıqda "Mən" obrazları kimi çıxış edir. Yəni "Mən" obrazları sistemi K.Rocers tərəfindən təklif edilmiş "Mən konsepsiyasının" əsasını təşkil edir. Son dövrlərdə psixologiyada dominant təsəvvür belədir ki, "Mən" konsepsiyası elə mənin özü hesab olunur. "Mən" konsepsiyasının ən vacib funksiyası şəxsiyyətin daxili uyğunluğunu, davranışının nisbi sabitliyini təmin etməkdir. "Mən" konsepsiyası insanın həyat təcrübəsinin, ilk növbədə uşaq-valideyn münasibətlərinin təsiri altında formalaşır. Ancaq kifayət qədər erkən, bu təcrübənin təfsirinə, fərdin qarşısına qoyduğu hədəflərə, gələcəyə dair müvafiq gözləntilər sisteminə, proqnozlara, nailiyyətlərinin qiymətləndirilməsinə və bununla da şəxsiyyətin inkişafına, fəaliyyətinə və davranışına təsir edərək aktiv rol oynayır.

**Ədəbiyyat:**

*Cavadov, R.Ə., Cavadova R.R.* (2020). Psixologiya Bakı. 644 s.

*Seyidov, S.İ, Həmzəyev M.Ə.* (2007). Psixologiya. Bakı.

*Бэрон, Р.С.* (2003). Социальная психология: ключевые идеи / Р.С. Бэрон, Б. Джонсон, Д. Бирн. 4-е изд. – СПб: Питер, 512 с.

*Голованова, И.И.* (2004). Педагогическая диагностика «Я-концепции» творческого саморазвития студентов / И.И. Голованова // Мониторинг качества воспитания в контексте педагогического образования. Под науч. ред Андреева В.И. – Казань, КГУ. – С.71-83.

*Майерс, Д.* (2008). Социальная психология. 8-е изд./Д.Майерс.СПб.:Питер. – 800 с.

*Рубинштейн, С.Л.* (2002). Основы общей психологии. СПб: Питер.

*Роджерс, К.* (2001). Становление личности. Взгляд на психотерапию. М.: «Эксмо-Пресс».

*Чернышева, Е.В.* (2005). Подходы к пониманию Я-концепции //Проблемы личностно-ориентированного образования /ПМТ; Первоуральск. С. 56- 61.

*Эриксон, Э.* (2008). Трагедия личности. Издательство: СПб: «Эксмо», «Алгоритм».

*Пайнс, Э.* (2000). Практикум по социальной психологии / Э. Пайнс, К. Маслач. – СПб, Издательство «Питер». – 528 с.

*Перспективы социальной психологии*. (2001). – М.: ЭКСМО-Пресс. – 688 с.

*Психология самосознания:* (2000). Хрестоматия / Ред.-сост. Д.Я. Райгородский. – Самара: Издательский дом «Бахрах-М». – 672 с.

http://cito-web.yspu.org/link1/metod/met121/node63.html

https://cyberleninka.ru/article/n/psihologicheskie-aspekty-ya-kontseptsii-lichnosti

https://www.verywellmind.com/what-is-self-concept-2795865

# MÜASİR ELM VƏ TƏHSİLİN SOSİO-MƏDƏNİ VƏ PSİXOLOJİ ASPEKTLƏRİ

**Gültəkin İSMAYILOVA**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,
"Sosial psixologiya" şöbəsinin elmi işçisi,
psixologiya üzrə fəlsəfə doktoru,
*Azərbaycan, BAKI*
gulya.alibekovaa@mail.ru

**XÜLASƏ**

Məqalə elm və təhsil tandemi arasındakı əlaqə probleminə, onların şəxsiyyətin formalaşmasında roluna həsr edilmişdir. İnsanın öz təbiətini təhsillə necə dəyişdirdiyi göstərilir. Təhsil sosial reallığı və şəxsiyyəti qurur, insanın hərəkətlərini müəyyən edir, onun həyat yolunu və taleyini müəyyən edir.

**Açar sözlər:** təhsil, elm, inkişaf, şəxsiyyət, qloballaşma.

# SOCIO-CULTURAL AND PSYCHOLOGICAL ASPECTS OF MODERN SCIENCE AND EDUCATION

**Gultekin ISMAYILOVA**
ANAS Institute of Philosophy and Sociology,
Scientific worker of the "Social psychology" department,
PhD in Psychology,
*Azerbaijan, BAKU*
gulya.alibekovaa@mail.ru

**SUMMARY**

The article is devoted to the problem of the relationship between the tandem of science and education, their role in the formation of personality. It is shown how a person transforms his own nature through education. Education constructs social reality and personality, determines a person's actions, determines his life path and destiny.

**Key words:** education, science, development, personality, globalization.

Həm təhsil, həm də elm səviyyəsi cəmiyyətin inkişaf meyarıdır. Elmin inkişafı olmadan insan fəaliyyətinin hər hansı bir sahəsində yeniliklərin meydana çıxması, müvafiq olaraq, onun innovativ inkişafı mümkün deyil. Öz növbəsində, təhsil olmadan cəmiyyəti ixtisaslı kadrlarla təmin edilməsi problemi yaranır. Elmin yaranması cəmiyyətin və mədəniyyətin inkişafının, insanların praktik ehtiyaclarının nəticəsidir. Lakin burada mədəniyyət və sivilizasiyanın elmlə əlaqəsi kontekstində onların əlaqəsi məsələsi aktuallaşır. Elmin mənşəyi mədəni inkişaf kontekstində deyil, sivilizasiyanın formalaşması kontekstində nəzərdən keçirilməlidir, çünki elm yeniliklərlə xarakterizə olunur, bu da cəmiyyətdə tərəqqi haqqında fikirlərin mövcudluğunu nəzərdə tutur. Təhsil və elm bir insanın şəxsiyyətinin formalaşmasının, davamlı inkişafının və ətraf aləmin dərk edilməsinin, eyni zamanda insan fəaliyyətinin bir formasıdır. Hər hansı bir elmin əsasını sistemləşdirilmiş faktlar, nəzəriyyələr, məntiqi təsdiqlənmiş fərziyyələr, qanunlar, tədqiqat metodları təşkil edir. Lakin elm həm dünya haqqında bilik sistemi, həm də ona əsaslanan praktik fəaliyyətdir [Байденко, 2003:19].

Elmi biliklərin başqa bir vacib xüsusiyyəti obyektivlikdir, baxmayaraq ki, mədəni həyatda obyektivlik anlayışı şərtlidir. Mədəni ənənələrin, adətlərin, normaların qavranılmasında yönəlişlər, dəyərlər, dini inanclar mühüm rol oynayır. Bununla birlikdə, onun zəruri və tam şəkildə həyata keçirilməsinə mane olan bir sıra amillər var. Belə amillər, xüsusən də müxtəlif ölkələrin geosiyasi, iqtisadi və hərbi maraqları arasındakı mövcud ziddiyyətlərdir. Buna baxmayaraq, bu şəraitdə də müxtəlif ölkələrin elmi potensiallarının inteqrasiyası prosesi özünü aydın şəkildə göstərir. Bu strukturun formalaşması və işləməsi empirik olaraq daim izlənilir, həmçinin dünyanın bütün inkişaf etmiş ölkələrinin elmi məlumat institutları tərəfindən yaradılan müxtəlif məlumat bazaları şəklində qeyd olunur. Müasir elmi informasiya institutlarının eyni dərəcədə vacib vəzifəsi elmi kommunikasiyaların təhlili əsasında dünya elminin inkişafının ən məhsuldar və perspektivli sahələrini müəyyənləşdirməkdir. Xarakterikdir ki, bu gün yeni, irəliləyən elmi sahələrin yaranması müxtəlif ölkələrin alimləri arasında qeyri-rəsmi koqnitiv kommunikasiya prosesində baş verir [Гребенкина, 2000: 132].

Elm haqqında bibliometrik məlumatlar mühüm praktik əhəmiyyətə malikdir, çünki elmin inkişafına nəzarət etmək və bu prosesi idarə etmək üçün istifadə edilə bilər. Xüsusilə, bu, yeni perspektivli elmi istiqamətlərin maliyyələşdirilməsini qabaqlamaq və iştirakçılara lazımi təşkilati və hüquqi dəstək verməklə həyata keçirilir. Bibliometrik məlumatların praktik tətbiqinin vacib sahələrindən biri də şüurlu şəkildə təşkil olunan informasiyanın lazımi istiqamətdə sızması prosesi ola bilər. Bu baxımdan, bu gün "informasiyaya sahib olan dünyaya sahibdir" ifadəsinin, daha müasir parafrazı ilə əvəz etmək olar: "idarəetmənin zirvəsində məlumat haqqında məlumata sahib olanlar durur". Elmi məlumatların sürətli toplanması insana biliklərin inkişafı ilə bağlı mürəkkəb vəzifələr qoyur. Elmdəki innovasiyaların sivilizasiya prinsipləri ilə birləşməsi, biliklərin əldə edilməsi sürəti sivilizasiyanın və dövlətin inkişaf dərəcəsinə təsir edir. Nəhayət, sivilizasiya sistemindəki elm sosial və texniki mühitə keyfiyyətcə təsir edən fəaliyyət sahəsinə çevrilir və bu qədər sürətlə yığılan yeniliklər insanların həyat şəraitinin sürətlə dəyişməsinə səbəb olur. Nəticədə o yaşayış şəraitinə daimi uyğunlaşma problemi ilə qarşılaşır [Корнетов, 2004: 41].

Elm və təhsil fərdin və cəmiyyətin inkişafında əsas rol oynayan bir-biri ilə əlaqəli iki anlayışdır. Hər iki istiqamət bir-birinə təsir edir və birlikdə bəşəriyyətin ümumi tərəqqisinə kömək edir. Bu, məktəbəqədər yaşdan yuxarı və elmi səviyyələrə qədər bütün səviyyələrdə yüksək keyfiyyətli tədrisi təmin edəcək effektiv təhsil metodlarının yaradılması zərurətində əks olunur. Elmin inkişafına müxtəlif sahələrdə kadr bazası və mütəxəssislər formalaşdıran təhsil sistemi təsir göstərir. Təhsil səviyyəsi nə qədər yüksəkdirsə, elmin inkişafı o qədər intensiv olur, bu da öz növbəsində yeni fikirlər, kəşflər və yenilikləri təmin edir. Öyrənmə prosesi zamanı insanlar lazımi bilikləri əldə edir, öz baxışlarını formalaşdırmağa imkan verən tənqidi düşüncə tərzini inkişaf etdirirlər. Digər tərəfdən, elm birbaşa təhsilə və mütəxəssislərin biliklərinin artmasına təsir göstərir. Beləliklə, elm və təhsil cəmiyyətin keyfiyyətli inkişafını təmin etmək üçün daim inkişaf edən və bir-birini zənginləşdirən, bir-birindən asılı sahələrdir. Elm və təhsilin inkişafı iqtisadi artım, həyat keyfiyyətinin yaxşılaşdırılması və cəmiyyətdə tənqidi baxışın formalaşması üçün vacibdir. Bütün bunlar elm və təhsili bəşəriyyətin uğurlu gələcəyini inkişaf etdirmək və təmin etmək üçün əsas prioritetlərə çevirir [Вернадский,1981: 129].

Bundan əlavə, elm və təhsil iqtisadi inkişafın hərəkətverici qüvvələridir. Əhalinin bilik və bacarıq səviyyəsi ölkənin rəqabət qabiliyyətini və qlobal dəyişikliklərə effektiv uyğunlaşma qabiliyyətini müəyyənləşdirir. Elm və təhsildə irəliləyiş xəstəliklər, enerji və ya qidalanma bərabərsizliyi kimi sosial problemlərin həllinə gətirib çıxarır. Alimlərin elmi tədqiqat və inkişaf nəticələri keyfiyyətli təhsil, səhiyyə, texnologiya və infrastruktur təmin etmək üçün istifadə olunur, bu da insanların həyatını daha yaxşı və təhlükəsiz edir. Təhsil insanlara səhvlərindən nəticə çıxararaq vəziyyəti aydın şəkildə qiymətləndirməyə imkan verən rasional düşüncəni inkişaf etdirir. Bu, yaranan

münaqişələri həll etməyə və konstruktiv həll yolları tapmağa qadir olan tolerant, yaradıcı və sivil bir cəmiyyətin formalaşmasına gətirib çıxarır [Штурба, 2009: 32].

İnsanın şəxsiyyəti obyektiv və subyektiv, təbii və sosial, daxili və xarici, müstəqil və kortəbii, müəyyən məqsədlərə uyğun hərəkət edən insanların iradə və şüurundan asılı olan çoxsaylı amillərin təsiri nəticəsində formalaşır. Eyni zamanda, insan özü də xarici təsirləri əks etdirən passiv varlıq kimi təsəvvür olunmur. Şəxsiyyətin məqsədyönlü inkişafını elmi təşkil edilmiş təhsil təmin edir. Tərbiyəni yalnız təsir kimi xarakterizə edən pedaqoqlar P.P.Blonski və A.P.Pinkeviç bunu müəllimlərlə şagirdlərin fəal qarşılıqlı əlaqədə olduğu ikitərəfli proses, şagirdlərin həyat və fəaliyyətinin təşkili, onların sosial təcrübənin toplanması kimi qəbul etmirdilər. Uşaq onların konsepsiyalarında ilk növbədə təhsil obyekti kimi çıxış edirdi. Müasir təhsil konsepsiyasna əsasən, birbaşa təsirdən daha çox, müəllimlə təhsil alan şəxsin sosial qarşılıqlı əlaqələri, onların inkişaf edən münasibətlərini əks etdirir. Müəllimin qarşısına qoyduğu məqsədlər şagird fəaliyyətinin müəyyən məhsulu kimi meydana çıxır. Bu məqsədlərə nail olmaq prosesi həm də şagird fəaliyyətinin təşkili ilə həyata keçirilir. Müəllimin hərəkətlərinin uğurunun qiymətləndirilməsi yenə də şagirdin şüurunda və davranışında keyfiyyət dəyişikliklərinin nədən ibarət olduğuna əsaslanır [Бондырева, 2003: 39].

Hər bir proses müəyyən bir nəticə əldə etməyə yönəlmiş müntəzəm və ardıcıl hərəkətlər toplusudur. Tərbiyə prosesinin əsas nəticəsi ahəngdar inkişaf etmiş, sosial cəhətdən fəal şəxsiyyətin formalaşmasıdır. İlk növbədə qeyd etmək lazımdır ki, "təhsil" anlayışı müxtəlif mənalarda işlədilir: gənc nəslin həyata hazırlanması, təşkil olunmuş təhsil fəaliyyəti və s. Amma müxtəlif hallarda "təhsil" anlayışı fərqli mənalar daşıyacaqdır. Xüsusi təşkil edilmiş təhsil fəaliyyətlərindən danışırıqsa, adətən bu fəaliyyət müəyyən bir təsir, inkişaf edən şəxsiyyətə təsir ilə əlaqələndirilir. Məhz buna görə də bəzi pedaqoji dərsliklərdə tərbiyə, ənənəvi olaraq, cəmiyyət tərəfindən müəyyən edilmiş sosial xassələrin və keyfiyyətlərin formalaşdırılması məqsədi ilə şəxsiyyətə xüsusi psixoloji təsir kimi müəyyən edilir.

Digər əsərlərdə təhsil şəxsiyyət inkişafının idarə edilməsi kimi şərh olunur. Təhsilin təsiri insanda daxili müsbət reaksiyaya səbəb olur və öz üzərində işləməklə fəaliyyətini stimullaşdırır. Bu təcrübə bir çox nəsil insanların əmək və yaradıcılıq səyləri nəticəsində formalaşdığından, onların müxtəlif əmək, idrak və mənəvi fəaliyyətlərinin nəticələri birgə yaşamaqla müəyyən edilir. Bütün bunlar təhsil üçün çox vacibdir. Gənc nəsil bu təcrübəni "mənimsəməsi" və öz dəyərlərinə çevirməsi üçün onu bu və ya digər şəkildə təkrarlamalı, zənginləşdirməli, daha da inkişaf etmiş bir formada nəsillərə ötürməlidir. Yalnız öz fəaliyyətinin, öz yaradıcı səylərinin və münasibətlərinin mexanizmləri sayəsində insan sosial təcrübəni və onun müxtəlif struktur komponentlərini mənimsəyir [Колин, 2000: 25].

Təhsil prosesi mədəniyyətin əsas dəyərləri ilə tanışlığı əhatə edir, təlim və təhsili birləşdirir. Bunun nəticəsində idrak subyektinin daxilində istiqamətlənmiş və onun həyat mövqeyinə, dünyagörüşünə, inanclarına, davranış və sosial seçimlərinə təsir edən semantik sfera formalaşmalıdır. Bu davamlı proses onun institusional və qeyri-institusional formaları vasitəsilə, yəni, həm rəsmi təhsil müəssisələri daxilində, həm də onlardan kənarda insanların həyat fəaliyyəti prosesində baş verir. Müasir şəxsiyyət tipinin formalaşması yalnız müəyyən biliklərin ötürülməsi şəklində deyil, həm də şəxsiyyətin inkişafının inteqrativ proses kimi özünü göstərir. O, öyrənmə, yaradıcılıq və axtarış fəaliyyətinin inkişafını nəzərdə tutan komponenti ehtiva edir. Məntiqə, yönəlişlərə, prinsiplərə və standartlara malik olan bu proses kortəbii öyrənmədən fərqli olaraq məqsədyönlüdür [Гребенкина, 2000: 91].

Təhsil insanı sosial və peşəkar rolları yerinə yetirməyə hazırlayır. Elm və texnikada baş verən dəyişikliklər təhsil sistemində elmi-texniki tərəqqinin nailiyyətlərinə əsaslanan dəyişikliklərin zəruriliyini diktə edir. Təhsilin keyfiyyətini və səviyyəsini yüksəltmədən müasir texnologiyalardan səmərəli istifadə etmək, onun davamlı inkişafı və yeni nailiyyətlərin tətbiqi mümkün deyil. Çoxisti-

qamətli təbiətinə görə elmin tövsiyə etdiyi standartlardan əhəmiyyətli dərəcədə uzaqlaşa bilən özünütəhsil zonasının müəyyən edilməsi də aktualdır. Bu baxımdan tədqiqatçılar faktiki və potensial təhsil zonalarının mövcudluğunu qeyd edirlər. Elm təhsil prosesinə yönəldilmiş təsiri nəzərdə tutur və zəruri hallarda bütün təlim strukturunun dəyişməsinə səbəb ola bilər. Elmi yanaşmalar tədris prosesinin bütün məzmununu əhatə edir. Təhsil prosesinin öz texnologiyaları mövcuddur, bunlar arasında informasiya texnologiyaları prioritet yer tutur. Elmin təhsil prosesinə təsiri operativ, taktiki, strateji, qlobal səviyyələrin müəyyənləşdirilməsinə gətirib çıxarır. Operativ səviyyəsi fənnin məntiqinin mənimsənilməsini, taktiki səviyyə başa çatmış fənnlər əsasında məzmunun formalaşmasına cavabdehdir, strateji bilik potensialının şəxsiyyətin daxili semantik quruluşuna inteqrasiyası vəzifələrini qoyur, qlobal səviyyə inteqrativ təhsil prosesinin nəticəsi kimi şəxsiyyətin mahiyyətini göstərir. Müasir təhsil metodları arasında iş oyunları, təlimlər, situasiya kontekstinin təhlili, tipik və atipik vəziyyətlərin öyrənilməsi, kompüter texnologiyaları aktuallaşır [Куликов, 2005:7].

Təhsil dinamik xarakterli prosesdir, çünki elmlərin sürətli inkişafı təhsilin məzmununu əhəmiyyətli dərəcədə üstələyir. Hal-hazırda, qloballaşmanın güclü meylləri fonunda, elmi təhsilin şəxsiyyət yönümlü modeli, təhsil prosesində milli və dünyavi mədəni - tarixi ənənələrinə qayıdış müşahidə olunur. Müasir elm, humanitar komponentinin əhəmiyyətli olacağı, tolerantlığa və elmi və humanist məzmunun tarazlaşdırılmasına yönəlmiş təhsil prosesinin modellərinin yaradılmasına yönəlmişdir. Cəmiyyətdəki dəyişikliklər şəxsiyyətin formalaşmasına yönəlmiş təhsil sistemindəki dəyişikliklərə də səbəb olur. İnkişaf etmiş ölkələrdə ümumi milli məhsulun 5-8% - i təhsil prosesinə yatırılır. Ölkənin inkişaf dərəcəsi həm də əhalinin savadlılıq səviyyəsi və təhsil müəssisələrində vətəndaşların təhsil illərinin orta sayı ilə müəyyən edilir. Müasir təhsil prosesi humanistləşmə ilə xarakterizə olunur, ona görə də insanları qarşılıqlı anlaşmaya aparan və müxtəlif mədəniyyətləri bir-birinə yaxınlaşdıran bir qüvvəyə çevrilə bilər [Крупнов, 2000: 17].

Təhsilin demokratik və humanist təbiəti onu deməyə əsas verir ki, onun yolunda əsaslı məhdudiyyətlər yoxdur. Bununla birlikdə, müasir təhsil prosesində, xüsusən də kommersiyalaşdırma və bürokratiya kimi çoxsaylı mənfi hadisələri qeyd etmək olar. Təhsil sistemi ziyalıların sosial təbəqəsinin genişlənməsinini, istedadlı, çalışqan şəxsiyyətlərin ən yaxşı nailiyyətləri əsasında bütün cəmiyyətin yeni intellektual səviyyəyə yüksəlməsini təmin edən "sosial lift"ə çevrilməlidir. Müstəqil həyata başlayan şəxs fərdi formalaşma və sosial seleksiya yolundan keçir. Elmin cəmiyyətdəki mədəni funksiyası insanın fəaliyyət və idrak subyekti kimi formalaşması prosesidir. Gündəlik həyata dərindən nüfuz edən, insanların dünyagörüşünün vacib əsasını təşkil edən elmi biliklər, şəxsiyyətin formalaşmasının baş verdiyi sosial mühitin ayrılmaz hissəsinə çevrilmişdir. Sosial tənzimləmə amilinin funksiyası elmin cəmiyyətin ehtiyaclarına təsiridir, rasional idarəetmə üçün zəruri şərt olur. Elm dövrümüzün qlobal problemlərinin (təbii ehtiyatların tükənməsi, atmosferin çirklənməsi, ekoloji vəziyyət və s.) həllində sosial güc funksiyasında özünü göstərir. Təbiətin qorunmasına və insan varlığı üçün ən əlverişli və ahəngdar ekoloji şəraitin təmin edilməsinə yönəlmiş elmin ekoloji funksiyasını da xüsusi qeyd edə bilərik [Мовчанюк, 2006: 67].

Müasir təhsil prosesinin əsasında dünyanın elmi mənzərəsi dayanır. Təhsil sahəsinin özü elmi cəhətdən sınaqdan keçirilmiş və tövsiyə olunan metodlara, vasitələrə, məqsədlərə, prinsiplərə əsaslanır. Müasir təhsil sistemi tədris prosesinin subyektlərinin neyrofizioloji, zehni və emosional-iradi fəaliyyət sahəsinin xüsusiyyətlərini nəzərə alan elmi əsaslı yanaşmalardan istifadə edir. Təhsil prosesi fərdin və elmin birləşdiyi başlanğıc sahə, habelə müəyyən bir cəmiyyətdəki həyata hazırlığı və yetkin bir şəxsiyyətin formalaşması kimi çıxış edir. Elmin əsas məqsədi həmişə obyektiv biliklərin sistemləşdirilməsi ilə əlaqəli olduğundan, elmin zəruri funksiyalarının tərkibinə elmin kəşf etdiyi qanunlar əsasında reallıq proseslərinin və hadisələrinin təsviri, izahı və proqnozlaşdırılması daxil edilməlidir. Məşhur ictimai xadim V.İ. Vernadski vurğulayırdı ki, elmin məzmunu dünyanın mənzərəsi ilə elmin yaratdığı elmi nəzəriyyələr, fərziyyələr, modellərlə məhdudlaşmır; əsas məzmun canlı insanların elmi işidir. Elm - elmi cəmiyyətin üzvləri, idrak prosesinin subyektləri ara-

sında müəyyən bir əlaqə sistemi olaraq normalar və dəyərlər toplusuna əsaslanır. Ancaq elmin çox sayda insanın öz peşəsini tapdığı bir qurum olması inkişafın nəticəsidir [Вернадский, 1981: 69].

Müasir cəmiyyət mürəkkəb, dinamik inkişaf edən, ziddiyyətlidir. Məlumat iqtisadi inkişafın əsasını təşkil edən əsas sosial amilə çevrilir Bu, təhsilin ictimai həyatın quruluşundakı yerini kökündən dəyişdirir. Cəmiyyətin dəyişməsi ilə təhsili anlamaq üçün yanaşmalar da dəyişir. Bu gün savadlı bir insan formalaşmış bir dünyagörüşü olan "bilikli bir insan" deyil, həyata hazır olan, müasir mədəniyyətin mürəkkəb problemlərinə sərbəst yönəlmiş, həyatdakı yerini dərk edə bilən bir insandır. Təhsil sistemi yeni nəsillərdə cəmiyyətin hansı nümayəndəsini formalaşdırmaq istədiyini aydın şəkildə ifadə etdiyi zaman öz funksiyalarını səmərəli şəkildə yerinə yetirmiş olur. Ətrafdakı dünya, insan, cəmiyyət dəyişir, buna görə təhsil sistemi də təkmilləşdirilməlidir. İndi dəyişikliklər sürətli baş verir, yaradıcı səriştəni, yenidən öyrənməyə hazırlığı formalaşdıra bilən davamlı təhsil sisteminin yaranması zərurətə çevrilir [Григорович, 2003: 71].

Müasir dövrdə dəyişikliklər getdikcə qlobal xarakter daşıyır: sivilizasiya, texnologiyalar inkişaf edir, təbiət dəyişir, insanlar arasında yeni qarşılıqlı əlaqə formaları yaranır. Bu, insandan yalnız peşə fəaliyyəti ilə əlaqəli olmayan yeni xarakter xüsusiyyətləri, universal bilik tələb edir.Bu şəraitdə insan iqtisadi və siyasi həyatın fəal subyekti kimi çıxış edir. Buna görə də, informasiya məkanında sərbəst hərəkət etməli, çevik, təşəbbüskar olmalı, ünsiyyət bacarıqlarına sahib olmalı, şüurlu seçim etməli və bunun üçün məsuliyyət daşımalıdırlar. Müasir dünyada təhsil cəmiyyətin sosial institutlarının, qarşılıqlı şəxsiyyətin formalaşmasında inteqrativ rol oynayır, insan fəaliyyətinin aparıcı motivi kimi çıxış edir, qarşılıqlı əlaqəni, cəmiyyətdə inteqrasiyanı müəyyənləşdirir. Beləliklə, cəmiyyətin inkişaf perspektivləri, sosial və iqtisadi tərəqqi təhsildən asılıdır, buna görə cəmiyyətin ən vacib dəyəri yeni bilikləri mənimsəməyə, bəzən qeyri-standart qərarlar qəbul etməyə qadir bir insandır. Ancaq dünya ilə empatiya qurmaq, onu qiymətləndirmək qabiliyyətini itirməmək çox vacibdir, buna görə bir insanın ümumi mədəni, fərdi inkişafını təmin etmək lazımdır.

## Ədəbiyyat:

*Бондырева, С.К.* (2003). Психолого-педагогические проблемы интегрирования образовательного пространства. Избранные труды. М. - 352 с.

*Байденко, В.И.* (2003). Болонский процесс: структурная реформа высшего образования Европы. М.: 128с.

*Вернадский, В.И.* (1981). Избранный труды по истории науки/ В.И. Вернадский. – М.: Наука. 189 с.

*Гребенкина, JI.K.* (2000). Формирование профессионализма учителя в системе непрерывного педагогического образования: Монография / РГПУ. Рязань. - 204 с.

*Григорович, Л.А.* (2003). Педагогика и психология: Учеб. пособие для студентов вузов: Рек. М-вом образования РФ/ Л.А.Григорович, Т.Д. Марцинковская. - М.: Гардарики. - 475 с.

*Educational Psychology: Meaning, Scope and Methods* https://www.psychologydiscussion.net/educational-psychology/educational-psychology-meaning-scope-and-methods/1884

*Корнетов, Г.Б.* (2004). Теория и практика образования. Учебное пособие. М.: - 220 с.

*Колин, К.К.* (2000). Вызовы XXI века и проблемы образования: Лекция-доклад. М.: - 54с.

*Куликов, Л.В.* (2009). Психология личности в трудах отечественных психологов / Л.В. Куликов. – 2-е изд., перераб. и доп. – СПб.: Питер. – С.7.

*Мовчанюк, С.В.* (2006). Образование как социально-культурный феномен // Научный потенциал студенчества - будущему России / Материалы Всероссийской научной студенческой конференции. Ставрополь: СевКавГТУ. 212 с.

*Образование — ключ к развитию личности: как образование формирует наши ценности, убеждения и мировоззрение.* https://infourok.ru/pavlov-a-k-rol-nauki-v-sovremennom-obrazovanii-nauchnaya-statya-5651821.html

*Образование и социализация личности.* https://dzen.ru/a/Y7UczpvRNhnixJQs?referrer_clid=1400&

*Практика персонального образования.* (2000). // Под ред. Крупнова Ю.В., М.: – С.3-20.

*Роль образования в современном обществе.* https://kopilkaurokov.ru/vsemUchitelam/prochee/rol-obrazovaniia-v-sovriemiennom-obshchiestvie

*Штурба В.А.* ( 2009). Образование как социально-культурный феномен / В.А. Штурба, С.С. Васильев // Историческая и социально-образовательная мысль. - №1. - С. 32-38.

# ŞƏXSİYYƏTLƏRARASI ATTRAKSİYANIN STRUKTURUNDA SOSİAL İNTELLEKTİN YERİ VƏ ROLU

**Ramiyyə CAVADOVA**
Bakı Dövlət Universiteti,
Gender və tətbiqi psixologiya kafedrasının müəllimi,
psixologiya üzrə fəlsəfə doktoru,
*Azərbaycan, BAKI*
cavadorr@mail.ru

## XÜLASƏ

Son dövrlərdə “sosial intellekt”, “emosional intellekt”, “şəxsiyyətlərarası intellekt” anlayışları və onların müxtəlif sahələrdə uğurun simvolu kimi dəyərləndirilməsi xeyli səs-küyə səbəb olmuşdur. Bir sıra müəlliflər şəxsiyyətlərarası münasibətlərin formalaşması və davam etməsində intellektin müxtəlif formalarının rolunu ön plana çəkir. Məqalədə sosial intellektlə attraksiyanın əlaqəsinin mahiyyəti, məzmun və xarakterinin, eləcə də attraksiyanın strukturunda sosial intellektin yeri və rolunun nədən ibarət olduğuna aydınlıq gətirməyə çalışmışıq. Bu məqsədlə 8 sualdan ibarət anket sorğusu tərtib olunmuşdur. Sorğuya BDU-nun müxtəlif fakültələrinin II-IV kurs tələbələri cəlb edilmişdir. 150 nəfərin iştirtak etmiş olduğu sorğudan əldə edilmiş materiallar araşdırılmış anketdə qoyulmuş suallar üzrə cüt-cüt qruplaşdırılmış və müqayisəli təhlil olunmuşdur.

**Açar sözlər:** sosial intellekt, emosional intellekt, şəxsiyyətlərarası münasibətlər, şəxsiyyətlərarası attraksiya, ünsiyyət.

# THE PLACE AND ROLE OF SOCIAL INTELLIGENCE IN THE STRUCTURE OF INTERPERSONAL ATTRACTION

**Ramiya JAVADOVA**
Baku State University,
Teacher of the Department of Gender and Applied Psychology,
PhD in Psychology,
*Azerbaijan, BAKU*
cavadorr@mail.ru

## SUMMARY

In recent times, the concepts of "social intelligence", "emotional intelligence", "interpersonal intelligence" and their assessment as a symbol of success in various fields have caused a lot of noise. A number of authors highlight the role of various forms of intelligence in the formation and continuation of interpersonal relationships. In the article, we tried to clarify the essence, content and nature of the relationship between social intelligence and attraction, as well as the place and role of social intelligence in the structure of attraction. For this purpose, a questionnaire consisting of 8 questions was prepared. II-IV year students of different faculties of BSU were involved in the survey. The materials obtained from the survey in which 150 people participated were grouped and compared in pairs according to the questions asked in the investigated questionnaire.

**Key words:** social intelligence, emotional intelligence, interpersonal relationships, interpersonal attraction, communication.

"Sosial intellekt", "emosional intellekt", "şəxsiyyətlərarası intellekt" anlayışları və onların müxtəlif sahələrdə uğura təsirini araşdıran bəzi tədqiqatçılar (D.Qoulmen) belə bir ideya ilə çıxış edirlər ki, böyük transmilli korporasiya rəhbərlərinin uğur qazanmalarının səbəbi 85% emosional intellektlə bağlıdır. D.Qoulmen bir az da irəli gedərək sosial intellektuallıq əmsalını intellektin daha vacib və daha faydalı göstəricilərindən biri hesab edir. İstər-istəməz düşünməli olursan ki, əslində məsələ nə yerdədir?

Bizi şəxsiyyətlərarası münasibətlərin struktrunda sosial intellektin yeri və rolu maraqlandırdığından, məsələyə məhz bu tərəfdən aydınlıq gətirməyə çalıçacağıq. Daha doğrusu burada sosial intellektlə attraksiyanın əlaqəsinin mahiyyəti, məzmun və xarakterinin, eləcə də attraksiyanın strukturunda sosial intellektin yeri və rolunun nədən ibarət olduğuna aydınlıq gətirməyə cəhd edəcəyik. Amma qeyd olunan məsələyə aydınlıq gətirilməsi bəzi çətinliklərin dəf edilməsini zəruri edir.

Belə ki,bir tərəfdən şəxsiyyətlərarası attraksiyanın özünün mürəkkəb təbiətə malik olması, digər tərəfdən isə intellekt, sosial intellekt, emosional intellekt anlayışlarının mahiyəti ilə bağlı mübahisəli məqamların, əksər hallarda isə biri digərinə zidd olan fikir və rəylərin olması qeyd edilən istiqamətdə araşdırmaların aparılmasında çətinliklər yaradır. Bu isə təsadüfü deyildir. Çünki həm attraksiya, həm də sosial intellekt, eləcə də emosional intellektlə bağlı mövcüd olan fikir və mülahizələrin bir qismi hipotetik xarakter daşıyır, bəzi istisnalarla ciddi tədqiqatlara, əldə olunmuş tədqiqat materialllarının statistik işlənilmiş nəticələrinə əsaslanmır.

Odur ki, hesab edirik ki, ilk növbədə elmi ədəbiyyatda intellektlə bağlı bəzən biri digərinə qarşı qoyulan bəzən də, sinonim kimi işlədilən bir çox anlayışlara, xüsusən də "sosial intellekt", "emosional intellekt", "şəxsiyyətlərarası intellekt" və s. kimi anlayışların məznun və mahiyətinə aydınlıq gətirilməlidir.

Şəxsiyyətlərarası münasibətlərin öyrənilməsi istiqamətində son zamanlar ciddi marağa səbəb olmuş sosial intellekt anlayışının elmi dövriyyəyə daxil olması tarixi nisbətən qədimdir. Sosial intellektlə bağlı ilk konsepsiyanın müəllifi E.Torndayk (1920) hesab olunur və təbii ki, onun anlamında bu anlayışın hansı məna kəsb etməsi də maraq doğurur. Onun fikrincə, sosial intellektin əsas funksiyası insanın özünün və digərlərinin davranış və rəftarlarını proqnozlaşdırmaqdan ibarətdir.

Sonrakı illərdə müxtəlif intellekt modellərində sosial intellektin fərqli tərəflərinin nəzərə alınması, onun funksiyaları ilə bağlı daha geniş təsəvvürlərin yaranmasına səbəb olmuşdur. Hazırda daha geniş planda bu funksiyalara aşağıdakılar aid edilir:

- Dəyişən şəraitlərdə adekvatlığın və çevikliyin təmin edilməsi;
- Cari məsələlərin taktiki və strateji istiqamətlərdə həllində uğurlu qarşılıqlı əlaqəyə dair plan və proqramların formalaşdırılması;
- Şəxsiyyətləarası münasibətlərdə hadisələrin planlaşdırılması və onların inkişafının proqnozlaşdırılması;
- Sosial rəqabətəqabilliyin genişləndirilməsi;
- Motivasiya funksiyası

Göründüyü kimi sosial intellektin funksiyaları sırasında daha çox onun şəxsiyyətlərarsı münasibətlərin pozitiv yönümdə inkişafına xidmət edən funksiyaları daha çox qabardılır.

Təsadüfi deyildir ki, bu məqama diqqət çəkmək məqsədilə ötən əsrin 80-ci illərindən etibarən bəzi tədqiqatçılar (H.Qardner) özünün intellekt modelinə bəzi keyfiyyətləri özündə ehtiva edən "Şəxsiyyətlərarası intellekt" terminini daxil etməklə, onu elmi dövriyyəyə gətirmişdir. Qardnerin fikrincə, şəxsiyyətlərarası intellekt başqa insanların hisslərinin müşahidə edilməsi əsasında onların davranışlarını proqnozlaşdırmaq və bu zəmində də onları başa düşmək, idarə etmək qabiliyyətidir.

Göründüyü kimi, burada Torndaykın sosial intellektlə bağlı verdiyi tərifə yalnız "hissləri müşahidə etmək əsasında" fikri əlavə edilmişdir. Yəni başqasının davranışını proqnozlaşdırmağın nəyin əsasında həyata keçirilməsinə aydınlıq gətirilir.

Təbii ki, bu öz-özlüyündə mühüm bir qabiliyyətdir. Amma hissləri müşahidə etmək əsasında davranışı proqnozlaşdırmaqla, insanları idarə etmək, münasibətləri tənzimləmək daha çox müşahidə əsasında əldə olunmuş məlumatları düzgün mənalandırmaq və buna müvafiq adekvat davranış sərgiləməklə bağlı qabiliyyət və bacarıqların olmasını da tələb edir.

Elmi ədəbiyyatı təhlil edərkən çoxsaylı intellekt modellərinin (factor modeli: C.Bart, D.Veksler, F.Vernon, D.Qilford, R.Kettel, L.Terston, Ç.Spirmen və b; "kubik" model: D.Qilford və b.) olmasına və getdikcə yeni intellekt tiplərinin meydana gəlməsinə baxmayaraq, V.V.Nikandrov M.A.Xolodkoyun 1997-ci ildə nəşr olunmuş "İntellektin psixologiyası: tədqiqatın paradoksları" monoqrafiyasının birinci fəslinin başlığına çıxarmış olduğu sacramental suala: "psixoloji reallıq kimi intellekt mövcuddurmu?" diqqət çəkir və N.A.Sırnikova istinadən qeyd edir ki, zaman-zaman optimist notlar səslənməsinə baxmayaraq, görünür bu suala birqiymətli cavab vermək hələ ki, mümkün deyil. Hətta, bunun ardınca o qeyd edir ki, "sosial" və "emosional" kimi intellekt tiplərinin sayının artması tendensiyasının nəyə gətirib çıxaracağı aydın deyil: işin aydınlaşdırılmasına, yoxsa əksinə, dolaşdırılmasına. Göründüyü kimi, çox maraqlı və düşündürücü fikirdir.

M.A.Xolodnoy intellektlə bağlı səkkiz yanaşma ayırır və bunlardan birini sosiomədəni yanaşma adlandırır. Onun fikrincə, bu yanaşmaya görə, intellektə sosiallaşma prosesinin, həmçinin də bütövlükdə mədəniyyətin təsirinin nəticəsi kimi baxılır. Özü isə intellektə mental təcrübə kimi baxır. Göründüyü kimi intellekt və onun çoxsaylı tipləri ilə bağlı ümumin qəbul etdiyi vahid bir fikir yoxdur.

Bəzi tədqiqatçılar (S.V.Şerbakov və b.) hesab edirlər ki, müasir dövrdə bu problemin öyrənilməsinə mühüm nəzəri töhfələrin verilməsi M.Kontor və D. Klistroma məxsusdur. Belə ki, onlar intellektin insanın ümumi Idrak qabiliyyəti kimi ənənəvi izahının əksinə olaraq, bu fenomenin sosial gerçəkliyi haqqında fərdi biliklərin ehtiyatı kimi müəyyən edirlər. Yəni əgər sosial intellektə ölçüləbilən keyfiyyət və ya xassələrin məcmusu kimi baxan klassik ənənədən fərqli olaraq, onlar bütövlükdə sosial davranışın məntiqliyi və rasionallığı haqqında fərziyyə irəli sürürlər. Onların bu fikri bu və ya digər dərəcədə D.Dyuinin hələ 1909-cu ildə sosial intellektlə bağlı söyləmiş olduğu fikirlə səsləşir. D.Dyui sosial intellektin situativ spesifikliyini əsas götürərək, bu qəbildən olan koqnitiv qabiliyyətlər qrupunun sosial situasiyaları müşahidə etmək və anlamaqdan ibarət qabiliyyət kimi müəyyən edilir [Scherbakov, 2021].

Hətta sosial intellektə sosial və kommunikativ kompetentliyin mühüm amili kimi baxanlar da vardır. Hesab edirlər ki, (S.V.Şerbakov və b.) sosial intellekt konflikt situasiyalardan çıxmağın optimal strategiyasının axtarılması prosesində öz ifadəsini tapir. Təbii ki, sosial intellektlə bağlı irəli sürülən müxtəlif fikir və mülahizələrin siyahısını xeyli sayda artırmaq olardı. Hesab edirik ki, buna ehtiyac yoxdur [Scherbakov, 2021].

Göründüyü kimi, hətta sosial intellekti araşdıran tədqiqatçıların özləri arasında onun məzmun və mahiyyəti ilə bağlı da yekdil fikir yoxdur. Bu isə təsadüfi deyildir, çünki bir tərəfdən intellekt anlayışının özünün çoxaspektli olması, digər tərəfdən isə sosial intellektə tərif verərkən müəlliflərin bir qismi onun funksiyalarına, digər qismi təzahür formalarına, bəziləri isə onun bu və ya digər məsələnin həllində yerinə yetirdiyi rola istinad edirlər.

Burada bir maraqlı məqam da sosial intellektlə ona yaxın olan, bəzən də sinonim kimi işlədilən emosional intellektlə hansı oxşar və fərqli cəhətlərə malik olduqlarının aydınlaşdırılması ilə bağlıdır.

Bu istiqamətdə aparılan tədqiqatlar arasında daha çox diqqəti cəlb edənin A.İ.Komarovanın işləridir ki, biz də burada məhz onun mövqeyinin nədən ibarət olduğuna nəzər yetirməyi məqsədə uyğun hesab edirik.

A.İ.Komarova düzgün olaraq qeyd edir ki, emosional intellekt ideası E.Torndayk, D.Gilford, Q.Ayzenkin işləmiş olduqları sosial intellekt anlayışından meydana gəlmişdir. Digər tərəfdən X.Qardner də şəxsiyyətdaxili və şəxsiyyətlərarası intellekt anlayışlarını bu və ya digər dərəcədə

təsdiq etmişdir. Bu anlayışlara aid edilən qabiliyyətlər də emosional intellektlə bilavasitə əlaqədardır [Thorndike, 1920].

Bu istiqamətdə nəzəri yanaşmaları təhlil edərək A.Komarova belə qənaətə gəlir ki, "emosional" və "sosial" intellektləri qismən eyniləşdirmək olar. Çünki onun fikrincə, emosional intellektin strukturunda aşağıdakı qəbildən olan bir sıra sosial-kommunikativ istiqamətli qabilliyətlər ayırmaq olar: Şəxsiyyətlərarası kontekstdə emosiyaların perseptiv-interpretativ müəyyən edilməsi qabiliyyəti (D.Mayer, P.Salouey, D.Karuzo); sosial vərdişlər, sosial qarşılıqlı təsirin dərk olunması (D.Qoulman); ətraf adamlarla qarşılıqlı təsirin və müxtəlif həyati situasiyalara birgə sahib olmanı təmin edən sosial və emosional kompetentlik (R.Bar-On), koqnitiv qabiliyyətlər və şəxsiyyət xüsusiyyətləri (D.V.Lyusin) və s.

A.Komarova burada qeyd olunan qabiliyyətlərin şəxsiyyətlərarası uğurlu qarşılıqlı təsirə səbəb olan sosial informasiyaların işlənilməsi ilə əlaqədar mental qabiliyyətlərin məcmusu kimi sosial intellektin ənənəvi anlamına uyğun gəldiyini də vurğulamaqla həm də sosial intellektlə emosional intellektin oxşar və fərqli cəhətlərini aydınlaşdırmağa cəhd edir.

Bu istiqamətdə A.İ.Komarova üçün əsas istinad nöqtələrindən biri D.Qoulmanın "emosional intellekti" sosial intellektin strukturuna daxil etməsi və onu liderlik qabiliyyətinin əsas komponenti kimi təklif etməsi faktıdır. Digər istinad etdiyi ideya isə D.V.Lüsinanın şəxsiyyətdaxili emosional intellekt (ŞDEİ) və şəxsiyyətlərarası emosional intellekt (ŞAEİ) anlayışlarını ayrıması faktıdır. Bunlardan birincisi (ŞDEİ), özünün emosiyalarını anlama və idarəetmə, ekspressiyaya nəzarət anlamını ifadə edirsə, ikincisi (ŞAEİ), başqalarının emosiyalarını ifadə edir.

A.İ.Komarovanın apardığı tədqiqatlardan belə qənaətə gəlinir ki, emosional intellektin inkişaf səviyyəsi sosial intellektin inkişafı ilə müəyyən olunur. Amma burada incə bir məqam var ki, sosial intellekt şəxsiyyətlərarası emosional intellektə (ŞAEİ) və onun komponentlərinə təsir edir. Şəxsiyyətdaxili emosional intellektin (ŞDEİ) inkişaf səviyyəsini isə müəyyən etmir. Belə çıxır ki, sosial intellektlə emosional intellektin komponentləri arasında əlaqə eyni səviyyədə deyil. Onun fikrincə, sosial intellekt bütövlükdə şəxsiyyətlərarası ünsiyyətə, emosional intellekt isə emosional ünsiyyət sferasına yönəlmiş olur. Yəni sosial intellekt üçün kommunikasiya məqsəd, emosional intellekt üçün – stimuldur (A.İ.Kuznetsova).

Bu mövqedən çıxış etdikdə aydın olur ki, emosional intellekt şəxsiyyətlərarası attraksiyanın yaranması üçün stimul rolunu oynayır. Şəxsiyyətlərarası attraksiya zəminində şəxsiyyətlərarası münasibətlərin sonrakı inkişafının hansı məcrada cərəyan etməsi sosial intellektin mövcud səviyyəsi ilə şərtlənmiş olacaqdır. Daha doğrusu, burada münasibətdə olan tərəflərin sosial intellektinin insanlar arasında qarşılıqlı münasibətlərdə baş verən hadisələri nə dərəcədə proqnozlaşdıra bilmək, eləcə də, psixoloji gərginliklərə hazır olmaq, münasibətlərdə korrektələr edə bilmək imkanlarından asılı olacaqdır. Qeyd olunan hipotetik xarakter daşıyır və onun nə dərəcədə doğru olub-olmadığını emprik olaraq yoxlamaq üçün xüsusi tərtib olunmuş sorğu anketindən istifadə etməyi məqsədəuyğun hesab etdik. Sorğunun keçirilməsində digər məqsəd mövcud qarşılıqlı münasibətlərin daha çox hansı səbəblərdən pozulması və tərəfmüqabillərin münasibətlərində korrektələr etmək üçün nə kimi yol və vasitələrdən istifadə etdikləri istiqamətində informasiyalar əldə etməkdən ibarət olmuşdur.

Qeyd olunan fikir hipotetik xarakter daşıyır və onun nə dərəcədə doğru olub-olmadığını emprik olaraq yoxlamaq üçün xüsusi tərtib olunmuş sorğu anketindən istifadə etməyi məqsədəuyğun hesab etdik. Sorğunun keçirilməsində digər məqsəd mövcud qarşılıqlı münasibətlərin daha çox hansı səbəblərdən pozulması və tərəfmüqabillərin münasibətlərində korrektələr etmək üçün nə kimi yol və vasitələrdən istifadə etdikləri istiqamətdə informasiyalar əldə etməkdən ibarət olmuşdur.

Bu məqsədlə BDU-nun müxtəlif fakültələrinin II-IV kurs tələbələri arasında 8 sualdan ibarət anket sorğusu keçirilmişdir. Sorğuda 150 nəfər iştirtak etmişdir. Sorğudan əldə edilmiş materiallar araşdırılmış anketdə qoyulmuş suallar üzrə cüt-cüt qruplaşdırılmış və müqayisəli təhlil olunmuşdur.

Belə qruplaşdırmalar aşağıdakı kimi ifadə olunmuşdur: "qurulan münasibətdən gözləntilər – münasibətlərin pozulmasında yer alan əsas amillər"; "qısa müddətli münasibətlərin pozulması səbəbləri – uzun müddət yaxın münasibətdə olan tərəflər arasında münasibətlərin pozulma səbəbləri"; "münasibətlərin davamlı və pozitiv yönümlü olması ilə bağlı təkliflər"; "tərəfmüqabilin münasibətlərin davamlı olması ilə bağlı etdiyi cəhdlərə reaksiyalar - münasibətlərin uzun müddət pozitiv yönümdə davamlı olması səbəbləri".

İlk baxışdan elə görünə bilər ki, müqayisə edilməsi nəzərdə tutulan qruplarda əks olunmuş məsələlər sanki biri digərinin eynidir. Əslində isə burada aşkara çıxarılması vacib olan çox incə fərqli məqamlar vardır. Fikrimizi aydınlaşdırmaq üçün anket sorğusunun qruplaşdırılmış məlumatları üzrə əldə olunmuş nəticələrə diqqət yetirməyi məqsədəuyğun hesab edirik.

Yuxarıda qeyd edilmiş ardıcıllıq üzrə müvafiq cütlərdə əks olunmuş nəticələrə diqqət yetirək.

*Münasibətlərdən gözləntilərlə, münasibətlərin pozulmasında daha çox rol oynayan amillər arasındakı əlaqənin ranq göstəriciləri cədvəli*

***Cədvəl 1.***

| № | Münasibətlə bağlı gözləntilər | ranq | Münasibətlərin pozulmasında daha vacib rol oynayan amillər | ranq |
|---|---|---|---|---|
| 1. | Hörmət | 1 | Yalan danışmaq | 1 |
| 2. | Digərləri (empatiklik, düşüncələrin aydınlığı, hissləri başa düşmək, manipulyasiya etməmək, vicdanlı, ünsiyyətcil olmaq, yumor hissinin olması, mehriban, fədakar olmaq və s.) | 2 | Hörmətsizlik | 2 |
| 3. | Dürüstlük | 3.5 | Ünsiyyətsizlik (səbrsizlik, qapalılıq, kin) | 3 |
| 4. | Qarşılıqlı anlama | 3.5 | Qeyri-səmimilik | 4 |
| 5. | Səmimilik | 5 | Qeyri-etik sözlər və jestlər | 5 |
| 6. | Sadiqlik | 6 | Xəyanət | 8 |
| 7. | Ədəb-ərkan normalarına riayət | 7 | Fikirlərin üst-üstə düşməməsi | 8 |
| 8. | Dəyər vermək | 8 | Sərhədlərin aşılması | 8 |
| 9. | Dinləmək mədəniyyəti | 9.5 | Maraqların fərqliliyi | 8 |
| 10. | Güvən | 9.5 | Digərləri (hansısa məqsədin güdülməsi, manipulyasiya etmək, tanımağa fürrsət verməmək, öz istəklərinə köklənmək, istifadə etməyə çalışmaq və s.) | 8 |
| 11. | Qayğı | 12 | Münasibətlərdə soyuqluq | 12.5 |
| 12. | Səhvləri söyləmək | 12 | Güvənsizlik | 12.5 |
| 13. | Dünyagörüşü və maraqların eyni olması | 12 | Diqqətsizlik | 12.5 |
| 14. | Diqqətlilik | 14 | Dinləmə mədəniyyətinin olmaması | 12.5 |

Cədvəldən göründüyü kimi qarşılıqlı münasibətlərdə tərəflərin biri – digərindən hörmət gözləntisi daha yüksək ranqa malikdir. Münasibətlərdə hörmətsizlik göstərilməsi münasibətlərin pozulmasının əsas amillərindən biri kimi qeyd olunur və o yalan danışmaq amilindən sonra ikinci yerdə dayanır. Cədvəldən aydın olur ki, münasibət gözləntilərinə əks olan amillər bütövlükdə münasibətlərin pozulmasında mühüm rol oynayan amillərdəndir. Yəni tərəflərin münasibət qurarkən tərəfmüqabilindən hansısa gözləntiləri olur və bu gözləntilər özünü doğrultmadıqda münasibətlər qısa müddət davam etdikdən sonra pozulur. Burada Maraqlı bir sual meydana çıxır, görəsən qısa müddət münasibətdə olan tərəflərlə, uzun müddətdir yaxın münasibətdə olan tərəflərin münasibətlərinin pozulmasını şərtləndirən hansısa spesifik məqamlar varmı? Əgər varsa bu fərqlilik nədən qaynaqlanır?

Məsələyə aydınlıq gətirmək üçün sorğu anketinə hər iki münasibətin pozulmasının səbəblərinin nədən ibarət olmasına aid sual əlavə edilmişdir. Verilmiş cavablar hər iki hal üçün ranqlaşdırılmış və aşağıdakı cədvəldə öz əksini tapmışdır.

*Qısa və uzunmüddətli münasibətlərin pozulması səbəblərinin ranqlaşdırılmış cədvəli*

***Cədvəl 2.***

| **№** | **Uzunmüddətli yaxın münasibətlərin pozulma səbəbləri** | **ranq** | **№** | **Qısamüddətli münasibətlərin pozulma səbəbləri** | **ranq** |
|---|---|---|---|---|---|
| 1. | Yalan | 1.5 | 1. | Dürüst olmamaq | 1 |
| 2. | Xəyanət (məni başqalarının yanında pisləməsi, satqınlıq, arxamdan iş çevirməsi) | 1.5 | 2. | Dünyagörüşü və maraqların üst-üstə düşməməsi | 2 |
| 3. | Hörmətsizlik | 3 | 3. | Dəyər verməmək | 3.5 |
| 4. | Məsafə saxlamaq | 5 | 4. | Digərləri (eqolu olması, empatik olmaması, özünü üstün tutması, ərköyünlük, uzun müddət münasibətdə qala bilməməsi və s.) | 3.5 |
| 5. | Münasibətlərin davam etməsi üçün yetərli cəhd göstərməmək (hər iki tərəfin bağışlanılmaz səhvləri, zamanla insanın dəyişməsi) | 5 | 5. | Səmimiyyətin olmaması | 6.5 |
| 6. | Digərləri (infantillik, vecsizlik, soyuqluq, hiperaktivlik) | 5 | 6. | Hörmətsizlik | 6.5 |
| 7. | Xarakter, əqidə uyğunsuzluğu | 7 | 7. | Qarşılıqlı anlamanın olmaması | 6.5 |
| 8. | Anlaşılmazlıqlar olduqda müzakirə etməkdən qaçmaq (vaxt ayırmamaq, eqoistlik, qürur) | 8 | 8. | Güvənin olmaması | 6.5 |
| 9. | Pis hərəkət və vərdişlərin olması (səsin yüksəldilməsi, yanlış hərəkətlər) | 9.5 | 9. | Dinləmə mədəniyyətinin olmaması | 9.5 |
| 10. | Dinləmək bacarığının olmaması | 9.5 | 10. | Ədəb-ərkanın gözlənilməməsi | 9.5 |

Cədvəldən aydın olur ki, qısamüddətli münasibətlərin pozulması ilə uzunmüddətli Yaxın münasibətlərin pozulmasının həm ümumi, həm də fərqli tərəfləri, səbəbləri vardır. Ümumi cəhətlərə diqqət yetirək. cədvəldən göründüyü kimi həm uzunmüddət Yaxın münasibətdə olanlar, həm də qısamüddətdir münasibət qurmuş olan tərəflər arasında münasibətlərin pozulmasına şərtləndirən əsas amil tərəflərin biri digərinə qarşı dürüst olmaması, yalan danışmasıdır. Bu amil hər iki halda ən yüksək ranqa malikdir. Fərqli ranqlara malik olsa da hörmətsizlik, dinləmək mədəniyyətinin olmaması kimi əlamətlər münasibətlərin bitmə səbəbi kimi göstərilir. Uzunmüddətli yaxın münasibətlərin pozulmasını şərtləndirən fərqli səbəblər vardır ki, bu digər münasibtələrin pozulması üçün xarakterik sayılmır. Belə amillər qismində xəyanətin olması, münasibətlərin davam etməsi üçün yetərli cəhdlərin göstərilməməsi, anlaşılmazlıq olduqda müzakirə etməkdən qaçmaq, pis hərəkət və vərdişlərin olması qəbul edilən deyildir. Yəni uzun müddət yaxınlıq etmiş tərəflərdən biri hansısa səhvə yol verirsə, onun səbəbini aydınlaşdırmaq üçün cəhdlər etmirsə, qarşı tərəf üçün bu qəbul edilməzdir. Necə ki, atalar sözündə deyilir: “Örtülü bazar, dostluğu pozar” və ya “Uman yerdən küsərlər”. Amma burada məsələnin nəzərə alınması vacib olan başqa tərəfləri də vardır. Qarşı tərəf bu səhvə hansı şəraitdə, niyə yol verib, bu səhvə yol verməklə nəyə nail olmaq istəyib, niyə səhvlə bağlı yaxın münasibətdə insana açıqlama vermir? Bəlkə utanır, bəlkə peşmançılıq hissi keçirir? Yəni qarşı tərəf özü bu məqamları aydınlaşdırmağa cəhd etməlidir. Bu isə o halda mümkündür ki, tərəflər yüksək sosial intellektə malik olsunlar. Təsadüfi deyildir ki, uzun müddətli münasibətlərin pozulması səbəbi kimi tərəflərin biri – digəri ilə öz aralarında məsafə saxlaması göstərilir. Belə situasiyalarda bəzi hallarda məsafə saxlamaq sosial intellektin aşağı göstəriciyə malik olmasından xəbər verir.

Qısa müddət münasibətdə olan tərəflər arasında münasibətin pozulması üçün gətirilən səbəblər arasında səmimiyyətin, güvənin, qarşılıqlı anlamanın olmaması qeyd olunur ki, bu təsadüfi deyildir. Çünki tərəflər arasında bu saydıqlarımız olmasaydı, münasibətlər uzun müddət davam edə bilməzdi.

Maraqlı məqamlardan biri də münasibətlərin davamlı və pozitiv məcrada cərəyan etməsi üçün tərəf müqabillərin hansısa cəhdlər edilməsini və bu məqsədlə münasibətlərdə məqsədyönlü korrektlərin edilməsi ilə bağlı müəyyən addımların atılmasına səy göstərilməsi ilə əlaqədar məsələyə aydınlıq gətirilməsindən ibarət olmuşdur.

Qeyd olunan məsələyə aydınlıq gətirmək üçün sorğu anketinə salınmış müvafiq suallara verilmiş cavablar qruplaşdırılmış və nəticələr aşağıdakı ranq cədvəlində verilmişdir.

*Münasibətləri davamlı olması üçün edilən cəhdlərin və buna müvafiq olaraq, münasibətlərdə edilə biləcək korrektələrin ranqlaşdırılmış cədvəli*

***Cədvəl 3.***

| № | Münasibətlərin davamlı və pozitiv olması ilə bağlı cəhdlər | ranq | № | Münasibətlərin davamlı və pozitiv olması üçün məqsədyönlü korrektələr | ranq |
|---|---|---|---|---|---|
| 1. | Hörmət, dinləməyə çalışmaq | 1 | 1. | Hörmət, qarşı tərəfə qayğı və hörmət göstərmək, sonadək dinləmək, sərhədləri gözləmək | 1 |
| 2. | Anlayışlı olmağa çalışmaq | 2.5 | 2. | Səhvləri düzəltməyə, öz üzərində işləməyə, problemləri dərhal həll etməyə çalışmaq | 2.5 |
| 3. | Qarşı tərəfin münasibətlərin düzəldilməsi ilə bağlı cəhdlərini nəzərə alıram | 2.5 | 3. | Anlayışlı olmaq, empatiya qurmağa çalışmaq | 2.5 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 4. | Səmimi olmaq, dürüst olmaq | 4.5 | 4. | Fikrini ifadə etməyə həvəsləndirmək, ziddiyyətli məqamlara həssas olmağa səy göstərmək | 4 |
| 5. | Digərləri (səbrli olmağa çalışmaq, istəməsəm heç bir qüvvə razı sala bilməz) | 4.5 | 5. | Gülərüz, şən olmağa və mehriban olmağa səy göstərmək | 5 |
| 6. | Anlayışlı olmaq, fikirlərə və hisslərə hörmətlə yanaşmaq | 6 | 6. | Tolerant, pozitiv olmağa çalışmaq, güzəştə getmək | 7 |
| 7. | Gözləntilərə uyğun gəlməyə cəhd etmək, könlü almağa cəhd etmək | 7 | 7. | Problemi, səhvləri görməyə, dərk etməyə, tərəflərdən hansındasa şübhə doğuran məqamların qalmamasına çalışmaq | 7 |
| 8. | Problemi birlikdə həll etməyə çalışmaq, səhvləri düzəltmək, yanlış anlamanı aradan qaldırmağa çalışmaq | 9 | 8. | Digərləri (yanlış olanlara göz yummaq, gözləntilərə əməl etməyə çalışmaq, üzr istəmək) | 7 |
| 9. | Diqqət göstərmək, qayğı göstərmək, sevgi göstərmək | 9 | 9. | Təmkinli olmağa çalışmaq, səbrlilik, ani qərarlardan çəkinmək | 9 |
| 10. | Digərləri (göz yummaq, əsəbi olduqda keçməsini gözləmək, sevdiyim şeyləri alır) | 9 | 10. | Hərəkətlərinə diqqətli olmaq, xüsusi diqqət yetirmək | 10 |

Cədvəldən göründüyü kimi münasibətlərin davamlı və pozitiv məcrada cərəyan etməsi istiqamətində edilən cəhdlər daha çox qarşı tərəfi dinləməyə çalışmaq, səmimi və dürüst olmaq, fikirlərə və hisslərə hörmətlə yanaşmaq, problemlərlə maraqlanmaq, gözləntilərə uyğun gəlməyə çalışmaq və s. şəklində ifadə olunur. Cavablardan aydın olur ki, tərəf müqabillər bəzən problemi müzakirə etmək, aydınlaşdırmaq, həll etməkdənsə ona göz yummağı, problemin həllindən qaçmağı seçirlər. Cədvəldən də aydın olur ki, məhz bu səbəbdən problemi birlikdə həll etməyə çalışmaq, səhvləri düzəltmək, anlaşılmazlıqların aradan qaldırılmasına səy göstərmək istiqamətində edilən cəhdlər nisbətən aşağı ranq göstəricisinə malikdir.

Münasibətlərdə müəyyən korrektlər etmək istiqamətində atılan addımlar daha çox səhvlərin düzəldilməsinə, problemin həllinə, anlayış göstərməyə, fikrini ifadə etməyə həvəsləndirmək, qarşı tərəfi sonadək dinləməyə, sərhədləri gözləməyə hesablanmışdır.

Göründüyü kimi burada qarşı tərəfin emosiya və hisslərini başa düşmək və bu zəmində də münasibətlərdə neqativ istiqamətdə yarana biləcək cüzi dəyişikliklərə belə həssas olmaqla onların pozitiv yönümdə cərəyan etməsinə səy göstərilməsi ilə bağlı hansısa addımların atılmasına vurğu edilmir. Sorğuda iştirak edənlərdən bir qismi nəinki münasibətlərin pozitiv yönümdə davamlı olması üçün cəhd etmir, hətta lazım gəldikdə münasibətlərə korrektlər edilməsinə ehtiyac duymadıqlarını qeyd edirlər. Bu fikri onunla əsaslandırırlar ki, onlar elə insanlarla münasibət qururlar ki, belə korrektələrə ehtiyac qalmır. Apardığımız müşahidələr və bu istiqamətdə aparılan tədqiqatlar da göstərir ki, nəinki tələbələr arasında münasibətlərdə korrektələr edilmədikdə, eləcə də tələbə - müəllim, müəllim – müəllim, eləcə də istənilən sferada çalışan insanlar arasında ailədaxili münasibətlərdə ciddi gərginlik yaranır. Bu isə heç də təsadüfi deyildir. Çünki tərəflərdən birinin və ya hər ikisinin yol verdiyi səhvlər, yaratdığı problemlər münasibətlərin pozitiv məcrada davam etməsinə maneə kimi düşüncələrdə adekvat və ya qeyri adekvat narahatlıqlar yaradır ki, bu da emosiya və hisslərdə bu və ya digər şəkildə təzahür edir. Emosiya və hisslərin başa düşülmədiyi, diqqətdən kənarda qaldığı, nəzərə alınaraq davranışda müəyyən korrektələr edilmədiyi hallarda

düşüncədə yaranmış narahatlığın dərinləşməsinə və sonradan emosiya və hisslər səviyyəsində güclü partlayışların baş verməsinə, bu zəmində də münasibətlərin pozulmasına gətirib çıxara bilir.

Hesab edirik ki, bu daha çox sosial intellektin lazımi səviyyədə inkişaf etməməsi ilə bağlıdır. Bir çox tədqiqatçıların da qeyd etdiyi kimi bu məqam müasir dövrdə təhsilin daha çox ümumi intellektin inkişafına yönəlməsi və sosial intellektə isə az diqqət yetirilməsi ilə şərtlənmişdir. Bu qüsurun aradan qaldırılması həm təhsil sistemində müəyyən korrektələr edilməsini, həm də müəyyən sosial – psixoloji treninqlərin aparılmasını zəruri edir.

Yeri gəlmişkən bir məqamı da qeyd etmək lazımdır ki, hazırda dünyanın ən prestijli ali məktəblərinə bütün səviyyələrdə (bakalavryat, magistratura, doktorantura) qəbul zamanı şəxsin təhsil müvəffəqiyyətindən daha çox sosial intellekt göstəriciləri kimi onun qruplarda işləmək, istər respublikadaxili, istərsə də beynəlxalq səviyyəli müxtəlif tədbirlərdə, könüllülərin tərkibində və s. işləmək bacarıqlarının olmasına önəm verilir. Bu heç də təsadüfi deyildir. Çünki eyni şərtlər daxilində fəaliyyətin məhsuldarlığı təhsil müvəffəqiyyətindən daha çox insanlarla birlikdə işləmək, fəaliyyət göstərmək bacarıqlarının olması ilə şərtlənmiş olur.

Sorğuda iştirak edənlərdə yaxınlıq münasibətlərinin uzun müddətli olmasının səbəbləri ilə bağlı təssəvvürlərinin hansı səviyyədə olması və eləcə də onlarda münasibətlərin pozitiv yönümdə davam etməsi istiqamətində faydalı ola biləcək hansısa tövsiyə və təkliflərin mövcud olub olmadığına aydınlıq gətirməyə də səy göstərmişik. Bunun üçün sorğu anketində iki sualdan istifadə edilmişdir. Bu məqsədlə nəzərdə tutulmuş sorğu iştirakçıları tərəfindən verilmiş cavablar qruplaşdırılmış, daha çox təkrarlanan fikir və mülahizələr ranq sırası nəzərə alınmaqla cədvəldə verilmişdir. (cədvəl 4)

*Yaxınlıq münasibətlərinin uzun müddətli olması səbəbləri və bu istiqamətdə faydalı ola biləcək təkliflərin ranqlaşdırılmış cədvəli*

***Cədvəl 4.***

| **№** | **Yaxınlıq münasibətlərinin uzunmüddət davam etməsi səbəbləri** | **ranq** | **№** | **Qarşılıqlı münasibətlərin davamlı və pozitiv yönümlü olması ilə bağlı təklif və tövsiyələr** | **ranq** |
|---|---|---|---|---|---|
| 1. | Qarşılıqlı hörmət, sona qədər dinləmək, sərhədləri gözləmək | 1 | 1. | Dürüstlük, tərəf müqabillərin fikir və hisslərini açıq və səmimi şəkildə ifadə etməyi bacarması, səmimi olmaq, obyektiv olmaq, duyğu və düşüncələrini maskalamamaq | 1 |
| 2. | Problemləri birgə həll etmək, yaxşı və pis vaxtlarda bir-birinin yanında olmağı bacarmaq, səhvlərdən qaçmaq əvəzinə günahları bölüşməyə üstünlük vermək | 2.5 | 2. | Qarşı tərəfi başa düşmək, empatiya qurmaq, emosional intellektin yüksəldilməsi, həssas olmaq, insanları olduğu kimi qəbul etmək, hər şeyi etirazla qarşılamamaq, müxtəlif xüsusiyyətləri qəbul etmək | 2 |
| 3. | Anlayışlı olmaq, bir-birini anlamaq, bir-birinə dəyər vermək | 2.5 | 3. | Hörmət etmək, fikirlərə hörmətlə yanaşmaq, bir-birini dinləmək | 3 |
| 4. | Dürüst olmaq, səmimi olmaq | 4 | 4. | Digərləri (kinli olmamaq, jest və hərəkətlərdə qüsura yol verməmək, düşüncə xətasına yol verməməyə çalışmaq, yüksək əxlaq, başqalarının münasibətlərinə müdaxilə etməmək, vicdanlı olmaq, şans vermə, bağışlama, optimist olmaq, özünə dəyər və qiymətləndirmə, xarakterin uyğunluğu, dözümlülük, üzr istəməyi bacarmaq, | 4 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | dostcanlı olmaq, hamı psixoloji yardım almalıdır) | |
| 5. | Dünyagörüşü, maraq və düşüncələrdəki fərqləri müzakirə etmək | 5 | 5. | Dəyər vermək, biri digərinə dəstək verməli, qarşıdakını incitməmək, qarşıdakına özünü bənzərsiz hiss etdirmək, daim münasibətlərə fokuslanmaq, qarşı tərəfin düşüncələrində suala yer qoymamaq, sevgi, yaxınlıq göstərmək | 5 |
| 6. | Xırda məsələlərə göz yummaq, sözlərinin bir-birinin boğazından keçməsi, pozitiv olmaq, davakar olmamaq | 6 | 6. | Problemin həllinə səy göstərmək, səbəbə deyil çözümə mərkəzlənmə, problemləri dərhal həll etmək, münasibətləri müsbət yöndə dəyişmək, kompromisə getmək | 6.5 |
| 7. | Maraqlı vaxt keçirmək və incikliyin nədən qaynaqlandığına aydınlıq gətirmək | 7 | 7. | Sədaqət, məsuliyyət, vəfalı olmaq | 6.5 |
| 8. | Təmiz niyyətə sahib olmaq, insani xüsusiyyətlərə malik olmaq | 8,5 | 8. | Qarşılıqlı diqqət, qayğı göstərmək, hətta düşüncə xətalarına belə yol verməmək | 8 |
| 9. | Digərləri (səbrli olmaq, fədakarlıq, mehriban olmaq) | 8.5 | 9. | Qarşılıqlı hörmət və güvənin olması | 9.5 |
| 10. | Qarşılıqlı kömək, qayğı və güvənin olması | 10 | 10. | Gözləntiləri və sərhədləri qabaqcadan bildirmək | 9.5 |

Cədvəldən aydın olur ki, qarşılıqlı münasibətlərin davamlı və pozitiv yönümlü olması istiqamətində diqqət yetirilməsi önəm kəsb edən səbəblərin sıralanmasında biri – digərinə hörmət göstərmək, sərhədləri gözləmək, tərəfmüqabilini sonadək dinləmək, eləcə də problemləri birgə həll etmək, yaxşı və pis vaxtlarında bir – birinin yanında olmağı bacarmaq, səhvlərdən qaçmaq əvəzinə günahları bölüşməyə üstünlük vermək kimi səbəblər daha yüksək ranqa malikdir. Bütün bunlar çox vacibdir. Amma sorğu iştirakçılarının münasibətlərin davamlı və pozitiv yönümdə cərəyan etməsi istiqamətində irəli sürdükləri təkliflər də maraq doğurur. Çünki bu təkliflərin əksəriyyəti sosial intellektin yüksək səviyyədə olmasına hesablanmışdır. Yüksək ranq göstəricisinə malik təkliflərdən ikisinə diqqət yetirək. Burada bir tərəfdən tərəfmüqabillərin fikir və hisslərini açıq və səmim şəkildə ifadə etməsi bacarığının olmasına vurğu edilir və bu zaman ona duyğu və düşüncələrini maskalamaması, səmimi və obyektiv olması tövsiyə edilir. Digər tərəfdən qarşı tərəfi başa düşmək, empatik olmaq, insanları olduğu kimi qəbul etmək, hər şeyi etirazla qarşılamamaq, xüsusiyyətlərin müxtəlifliyini qəbul etmək, emosional intellekti yüksəltmək kimi məqamlar ön plana çəkilir. Təbii ki, maraqlı təkliflərdir. Amma onların nəzərə alınması, işlək hala gətirilməsi ümumi intellektdən daha çox sosial intellektin yüksək səviyyədə inkişaf etmiş olmasını tələb edir. Cədvəldə əksini tapmış digər təkliflər də çox maraqlıdır. Bu baxımdan "problemin həllinə səy göstərmək, səbəbə deyil, həllə mərkəzlənmək, münasibətləri müsbət yöndə dəyişmək, kompromisə getmək" təklifi diqqət çəkəndir. Burada qeyd olunanları həyata keçirmək biri – digərinin emosiya və hisslərini başa düşməyi, onları düzgün mənalandırmağı və problemin aşkara çıxarılmasını, nəhayət sonda problemin həllinə birgə nail olmağı tələb edir.

Hisslərin, emosiyaların başa düşülməsi, mənalandırılması, problemin birgə həlli, bütün bunlar sosial intellektdən qaynaqlanır və onun funksiyasıdır.

Beləliklə işin elmi – nəzəri təhlili zamanı gəldiyimiz qənaət həm də praktik olaraq tədqiq olunur. Yəni şəxsiyyətlərarası attraksiya zəminində yaranan münasibətlərin sonrakı inkişafının hansı məcrada davam etməsi sosial intellektin mövcud səviyyəsi ilə şərtlənmiş olur.

## Ədəbiyyat:

*Kihlstrom, J.F.* (2011). Social intelligence / J. F. Kihlstrom, N. Cantor // Cambridge handbook of intelligence / R. Sternberg and S. B. Kaufman (Ed.). Cambridge: Cambridge University Press.

*Scherbakov, S. V.* (2021). Students social intelligence and the choice of behavioral strategies in conflict resolution // Clin. Schizophr. Relat. Psychoses. Vol. 15.

behavioral-strategies-in-conflict-resolution.pdf. DOI: 103371/CSRP. SS.081021.

*Thorndike, E.L.* (1920). Intelligence and its uses // Harper’s Magazine. Vol. 140.

# DAUN SİNDROMLU ŞƏXSLƏRİN BACARIQLARININ VƏ NAİLİYYƏTƏRİNİN TƏBLİĞİ

**Günay BƏDƏLZADƏ**
Azərbaycan Respublikasının Təhsil İnstitutu,
fəlsəfə doktoru proqramı üzrə dissertant,
*Azərbaycan, BAKI*
gunay.badalzade@mail.ru
https: //orcid.org/0000-0003-4422-4746

## XÜLASƏ

Məqalədə müasir inklüziv cəmiyyətdə Daun sindromlu şəxslərin bacarıq və nailiyyətlərinin tanınmasının və qeyd olunmasının vacibliyi vurğulanır. Həçinin, tədqiqat işi Daun sindromlu şəxslərin diqqətəlayiq nailiyyətlərinə, istedadlarına və töhfələrinə işıq salır, stereotipləri qırır və müxtəlifliyin və inklüzivliyin dəyərini vurğulayır. Bu məqalə onların nailiyyətlərini nümayiş etdirməklə, Daun sindromlu şəxslər üçün daha çox anlayışı, qəbulu və dəstəyi təşviq etmək, nəticədə hamı üçün daha əhatəli və ədalətli dünyanı təşviq etmək məqsədi daşıyır.

Məqalədə Daun sindromlu şəxslərin qeyd edilməsi və onların nailiyyətləri əlillik tədqiqatları və inklüziv cəmiyyət paradiqmaları ilə bağlı müasir diskursun əsas istiqaməti təmsil edilir. Burada, bu şəxslərin öz potensiallarını maksimum dərəcədə göstərə biləcəkləri mühiti inkişaf etdirməyə yönəlmiş saysız-hesabsız metodologiyaları aydınlaşdırmışdır. Məqalədə həmçinin inklüziv siyasətin təbliğindən maarifləndirmə kampaniyalarının təşviqinə qədər hər bir üsul Daun sindromlu şəxslərin icmalarımızın quruluşuna inteqrasiyasının kritik əhəmiyyəti vurğulanır.

**Açar sözlər:** Daun sindromu, inteqrasiya, sosiallaşma, bacarıq, inkluzivlik.

# CAPABILITIES OF PERSONS WITH DOWN SYNDROME AND PROMOTION OF ITS ACHIEVEMENTS

**Gunay BADALZADEH**
Educational Institute of the Republic of Azerbaijan,
PhD student,
*Azerbaijan, BAKU,*
gunay.badalzade@mail.ru
https: //orcid.org/0000-0003-4422-4746

## SUMMARY

The article emphasizes the importance of recognizing and celebrating the skills and achievements of people with Down syndrome in a modern inclusive society. Hachi's research highlights the remarkable achievements, talents and contributions of people with Down syndrome, breaks down stereotypes and highlights the value of diversity and inclusion. By showcasing their achievements, this article aims to promote greater understanding, acceptance and support for people with Down syndrome, ultimately promoting a more inclusive and just world for all.

In the article, the celebration of individuals with Down syndrome and their achievements represents the mainstream of contemporary discourse on disability studies and inclusive society paradigms. Here, he elucidates countless methodologies aimed at developing an environment in which these individuals can maximize their potential. The article also highlights the critical importance of integrating people with Down syndrome into the fabric of our communities, from promoting inclusive policies to promoting awareness campaigns.

**Key words:** Down syndrome, integration, socialization, competence, inclusiveness.

Əsrlər boyu Daun sindromlu insanlar incəsənət, ədəbiyyat və elmdə xatırlanır. İngilis həkimi Con Lenqdon Daun yalnız on doqquzuncu əsrin sonlarına qədər Daun sindromlu bir insanın dəqiq təsvirini dərc etdi. Məhz 1866-cı ildə nəşr olunan bu elmi əsər Dounun sindromun "atası" kimi tanınmasına səbəb oldu. Digər insanlar sindromun xüsusiyyətlərini əvvəllər tanısalar da, bu vəziyyəti fərqli və ayrı bir varlıq kimi təsvir edən Daun idi.

Yaxın tarixdə tibb və elmdəki irəliləyişlər tədqiqatçılara Daun sindromlu insanların xüsusiyyətlərini araşdırmaq imkanı verib. 1959-cu ildə fransız həkimi Jérôme Lejeune Daun sindromunu xromosomal bir vəziyyət olaraq təyin etdi. Hər hüceyrədə mövcud olan adi 46 xromosom əvəzinə, Lejeune Daun sindromlu şəxslərin hüceyrələrində 47 xromosom müşahidə etdi. Sonradan müəyyən edilmişdir ki, 21-ci xromosomun əlavə qismən və ya tam surəti Daun sindromu ilə əlaqəli xüsusiyyətlərə səbəb olur. 2000-ci ildə beynəlxalq alimlər qrupu 21-ci xromosomda olan təxminən 329 genin hər birini müvəffəqiyyətlə müəyyən etdi və kataloqlaşdırdı. Bu nailiyyət Daun sindromu tədqiqatlarında böyük irəliləyişlərə yol açdı.

Daun sindromu, həmçinin trisomiya 21 olaraq da bilinir, fərddə 21-ci xromosomun əlavə nüsxəsi və ya qismən əlavə nüsxəsi olduqda baş verən xromosom vəziyyətidir. Bu əlavə genetik material inkişafın gedişatını dəyişir və xüsusi fiziki və idrak xüsusiyyətləri ilə nəticələnir. Daun sindromlu insanlar tipik olaraq badam formalı gözlər və yastı burun körpüsü də daxil olmaqla fərqli bir üz görünüşünə malikdirlər. Onlar həmçinin inkişaf gecikmələri və zehni çatışmazlıqlar göstərə bilərlər.

Daun sindromlu demək olar ki, hər bir insanda tapılan üç xüsusiyyət bunlardır:

- epikantik qıvrımlar (gözlərə badam şəklini verən daxili göz qapağının əlavə dərisi);
- yuxarı əyilmiş palpebral yarıqlar (əyilmiş gözlər);
- braxisefaliya (arxada bir qədər yastı olan kiçik baş).

Daun sindromlu insanlarda (lakin hər kəsdə yoxdur) görülən digər xüsusiyyətlərə gözlərindəki açıq rəngli ləkələr (bunlara Brushfield ləkələri deyilir), kiçik, bir qədər düz burun, çıxıntılı dili olan kiçik, açıq ağız və bükülə bilən aşağı qurulmuş kiçik qulaqlar.

Daun sindromlu insanların ağızlarında anormal dişlər, dar damaq və içində dərin çatlar olan dil ola bilər (buna şımlı dil deyilir). Onlar həmçinin yuvarlaq üzlərə, boyun nahiyəsində əlavə dəriyə malik qısa boyunlara və bir qədər daha düz profillərə malik ola bilərlər [Van Robays, 2016].

Daun sindromu, dünyada təxminən hər 700 doğuşdan birinə təsir edən genetik bir vəziyyət, fərqli fiziki xüsusiyyətlər və müxtəlif dərəcədə idrak problemləri ilə xarakterizə olunur. Bununla belə, bu xromosom vəziyyətinin fərdin dəyərini, imkanlarını və ya uğur potensialını müəyyən etmədiyini başa düşmək çox vacibdir. Əslində, Daun sindromlu fərdlər özünəməxsus qabiliyyətlərə, istedadlara və cəmiyyətə mənalı şəkildə töhfə vermək istəyinə malikdirlər.

İnklüziv təhsil Daun sindromlu şəxslərin potensialının üzə çıxarılmasında mühüm rol oynayır. Fərdi öyrənmə mühitləri və fərdi dəstək təmin etməklə, biz onların güclü tərəflərini inkişaf etdirə və təhsil məqsədlərinə çatmalarına kömək edə bilərik. Düzgün təhsil yanaşması və resursları ilə Daun sindromlu fərdlərin akademik cəhətdən üstün ola və öz icmalarına mənalı töhfələr verə biləcəyini qəbul etmək vacibdir.

İnklüziv işçi qüvvəsinin yaradılması təkcə bərabərlik məsələsi deyil, həm də biznes və bütövlükdə cəmiyyət üçün strateji üstünlükdür. İşəgötürənlər Daun sindromlu şəxslərin masaya gətirdiyi müxtəlif bacarıq dəstlərini və istedadlarını tanımalıdırlar. İnklüziv iş mühitini təşviq etməklə və müvafiq yaşayış yerləri təmin etməklə, müəssisələr daha müxtəlif və yenilikçi komandadan faydalana bilərlər.

Daun sindromu ilə bağlı yanlış təsəvvürlərin və stereotiplərin aradan qaldırılması müxtəlifliyə və inklüzivliyə dəyər verən cəmiyyətin təşviqi üçün əsasdır. Daun sindromlu şəxslərin bacarıqları və nailiyyətləri haqqında məlumatlılığın artırılması üçün təbliğat işləri gücləndirilmə-

lidir. Müvəffəqiyyət hekayələrini bölüşməklə və onların nailiyyətlərini vurğulamaqla biz qərəzli mühakimələrə meydan oxuya və daha inklüziv və qəbul edilən cəmiyyəti təşviq edə bilərik.

İncəsənət və yaradıcılıq Daun sindromlu şəxslərə özlərini ifadə etmək və istedadlarını nümayiş etdirmək üçün güclü bir yol təqdim edir. Daun sindromlu bir çox insan rəssamlığa, musiqiyə, rəqsə və ya digər yaradıcılıq fəaliyyətlərinə təbii meylə malikdir. Onların bədii qabiliyyətlərini nümayiş etdirmələri üçün platformalar təqdim etməklə biz onların unikallığını qeyd edə və başqalarını istedadlarını qiymətləndirməyə ruhlandıra bilərik.

**Metod və metodologiya**

“Daun Sindromlu Şəxslərin Qabiliyyət və Nailiyyətlərinin Təbliği” adlı məqalənin yaradılması metodologiyası bir neçə əsas addımı əhatə edir:

1. **Araşdırma:**

Daun sindromu ilə bağlı hərtərəfli araşdırma aparardıq. Buraya tibbi aspektləri, Daun sindromlu şəxslərin üzləşə biləcəyi çətinlikləri və onlara təqdim olunan müxtəlif dəstək sistemlərini başa düşmək daxildir. Həmçinin, real həyat nümunələri təqdim etmək üçün Daun sindromlu şəxslərin uğur hekayələri və nailiyyətləri haqqında məlumat topladıq.

Daun Sindromunun genetik vəziyyəti və onun təsirləri haqqında topladığımız məlumatların təhlili: Daun sindromu 21-ci xromosomun əlavə nüsxəsinin olması nəticəsində yaranan xromosom pozğunluğudur, idrak gecikmələri, fərqli üz cizgiləri və potensial sağlamlıq problemləri ilə nəticələnir. Vəziyyət təxminən 700 diri doğulandan 1-də baş verir və bu, ən çox yayılmış xromosom vəziyyətinə çevrilir. Daun sindromunun fərdin idrak və fiziki inkişafına təsiri dəyişir, lakin lazımi dəstək və imkanlarla Daun sindromlu fərdlər xoşbəxt həyat sürə və cəmiyyətə əhəmiyyətli töhfə verə bilərlər [Roizen & Patterson, 2003].

İnklüziv Təhsil: Daun Sindromlu Şəxslərin Gücləndirilməsi bütün tələbələrə, o cümlədən əlilliyi olan şəxslərə bərabər təhsil imkanlarının təmin edilməsini nəzərdə tutan inklüziv təhsil Daun sindromlu şəxslərin səlahiyyətləndirilməsi üçün əsas yanaşma kimi tanınıb. Tədqiqatlar göstərir ki, inklüziv təhsil şəraiti Daun sindromlu fərdlər üçün təkmilləşdirilmiş akademik performansa, təkmilləşdirilmiş sosial bacarıqlara və özünə hörmətin artmasına kömək edir [Ryndak et al., 2012]. Daun sindromlu şəxslərin xüsusi ehtiyaclarını ödəmək üçün təhsil strategiyalarının uyğunlaşdırılması onların ümumi siniflərdə uğur qazanması üçün vacibdir [Heward, 2003].

İşçi qüvvəsinin daxil edilməsi və məşğulluq imkanları:Mənalı məşğulluğa nail olmaq Daun sindromlu şəxslərin həyatının kritik aspektidir. Tədqiqat Daun sindromlu şəxslərin bacarıqlarına uyğunlaşan inklüziv iş mühitinin yaradılmasının vacibliyini vurğulayır. Dəstəklənən məşğulluq proqramları, iş üzrə kouçinq və müvafiq iş yerində düzəlişlərin Daun sindromlu fərdlərin məşğulluq əldə etməsinə və işini davam etdirməsinə imkan yaratmaqda təsirli olduğu sübut edilmişdir [Carter et al., 2010]. İşçi qüvvəsinə uğurlu inteqrasiya təkcə maliyyə müstəqilliyini gücləndirmir, həm də özünə inamı və sosial inteqrasiyanı artırır.

Təbliğat səyləri və stereotipləri dəyişdirmək:Təbliğat stereotiplərə qarşı mübarizədə və Daun sindromlu şəxslərə qarşı cəmiyyətin münasibətlərinin dəyişdirilməsində mühüm rol oynayır. Təşkilatlar və təbliğat qrupları Daun sindromlu şəxslərin daxil edilməsini və hüquqlarını dəstəkləyən maarifləndirmə, təhsil və siyasətlərin təşviqində mühüm rol oynamışlar [Skotko & Levine, 2011]. Bu səylər, Daun sindromlu fərdlər üçün daha inklüziv və dəstəkləyici mühitə yol açaraq, cəmiyyətdə anlayışın yaxşılaşmasına və qəbulun artmasına səbəb olub.

İncəsənət və yaradıcılıq qabiliyyətləri Daun sindromlu insanlar üçün yaradıcılıqlarını və unikal istedadlarını nümayiş etdirmək üçün güclü bir vasitə kimi ortaya çıxdı. Tədqiqat Daun sindromlu şəxslərin bədii qabiliyyətlərini vurğulayaraq, rəssamlıq, musiqi, rəqs və digər bədii ifadə formalarında geniş spektrli bacarıqları ortaya qoyur [Ramen & Bonaiuto, 2015]. Bədii axtarışlar təkcə özünü ifadə etməyə imkan vermir, həm də Daun sindromlu şəxslərin fərziyyələrə etiraz etmək və qabiliyyətlərini qeyd etmək üçün bir vasitədir.

2. **Müsahibələr və Şəxsi Hekayələr:**

Müsahibələr və şəxsi hekayələr üçün Daun sindromlu şəxslər, onların ailələri, baxıcıları və bu sahədəki peşəkarlarla əlaqə saxladıq.

Daun Sindromlu şəxslərlə daha yaxindan tanış olmaq üçün Daun sindromlu şəxslərin reabilitasiyası mərkəzində olduq.Buradakı istedadlı gənclərlə tanış olduq və bir çox fəaliyyətlərini müşahdə etdik.Müşahidə zamanı Daun sindromlu gənclərin musiqiyə,idmana, rəssamlığa,xalçaçılıq və tikiş kimi fəaliyyətlərdə necə istedadlı olduqlarının şahdi olduq.əmçinin Daun sindromlu gənclərin valideynləri ilə görüşdük. Valideynlər övladlarının uğur qazandığı fəaliyyətləri,tədbirləri qeyd etdilər.

3. **Məlumatların Toplanması:**

Daun sindromlu şəxslərin təhsil, sosial və məşğulluq nəticələri ilə bağlı statistik məlumatları araşdırdıq. Bu, tezisin iddialarını dəstəkləmək üçün kəmiyyət sübutları təqdim etməkdə bizə lazım oldu.

İnklüziv təhsilin təhlili:Daun sindromlu şəxslər üçün inklüziv təhsillə bağlı məlumatları təhlil edərkən biz akademik ədəbiyyatın, təhsil siyasətlərinin və uğur hekayələrinin hərtərəfli təhlilini apardıq. Əsas məqsəd inklüziv təhsil yanaşmalarının akademik və şəxsi inkişafa təsirini qiymətləndirmək idi.

Nəticələrimiz Daun sindromlu fərdlər üçün inklüziv təhsil və müsbət nəticələr arasında güclü korrelyasiya olduğunu göstərir. Tədqiqatlar [Ryndak və digərləri, 2012] xüsusi hazırlanmış təhsil strategiyalarının, fərdiləşdirilmiş dəstəyin və ümumi siniflərdə daxil olmanın akademik performansın yaxşılaşmasına, sosial bacarıqların artmasına və özünə hörmətin artmasına kömək etdiyini vurğuladı. Bu nəticələr Daun sindromlu şəxslərin gücləndirilməsində və onları uğurlu gələcəyə hazırlamaqda inklüziv təhsilin mühüm rolunu təsdiqləyir.

İşçi qüvvəsinin inklüzivliyini qiymətləndirmək üçün biz müxtəlif mənbələri, o cümlədən akademik araşdırmaları, nümunə araşdırmalarını və uğur hekayələrini araşdırdıq. Məqsəd Daun sindromlu fərdlərin işçi qüvvəsinə uğurla inteqrasiyasına imkan yaratmaqda inklüziv təcrübələrin effektivliyini anlamaq idi.

Təhlillərimiz göstərdi ki, inklüziv iş mühiti, dəstəkləyici məşğulluq proqramları və müvafiq iş yerləri Daun sindromlu şəxslərin məşğulluq perspektivlərinə əhəmiyyətli dərəcədə təsir göstərir. Tədqiqat [Carter et al., 2010] uyğunlaşdırılmış dəstək mexanizmlərinin və xoş iş mühitinin mənalı məşğulluğu necə asanlaşdırdığını nümayiş etdirdi. İşçi qüvvəsinə uğurlu inteqrasiya onların aidiyyət hissini, özünə dəyər verməsini və maliyyə müstəqilliyini artırır.

Təbliğat və maarifləndirmə səylərini qiymətləndirərkən biz müsahibələrdən, sorğulardan və mövcud ədəbiyyatdan məlumat topladıq. Məqsədimiz stereotiplərə qarşı mübarizədə və daha inklüziv cəmiyyətin təşviqində vəkillik təşəbbüslərinin effektivliyini ölçmək idi.

Təhlil müsbət tendensiya nümayiş etdirdi, təbliğat səyləri məlumatlılığın artmasına və Daun sindromlu fərdlər haqqında cəmiyyətdə təsəvvürlərin dəyişməsinə səbəb oldu. Təbliğat qrupları və təşkilatları ictimaiyyəti maarifləndirməkdə və siyasət dəyişikliklərinə təsir göstərməkdə mühüm rol oynamışdır [Skotko & Levine, 2011]. Davamlı təbliğat stereotiplərə meydan oxumaq, ayrı-seçkiliyi aradan qaldırmaq və müxtəlifliyi əhatə edən bir cəmiyyət yaratmaq üçün həyati əhəmiyyət kəsb edir.

Daun sindromlu şəxslərin bədii istedadlarını və yaradıcılığını araşdırarkən biz bədii əsərləri, müsahibələri və nümunələri araşdırdıq. Məqsəd onların unikal istedadlarını qeyd etmək və onların gücləndirilməsində bədii ifadənin rolunu vurğulamaq idi.

Təhlillərimiz Daun sindromlu insanlar arasında incəsənətin müxtəlif növlərini əhatə edən zəngin bədii qabiliyyətlər silsiləsini üzə çıxardı. Tədqiqat [Ramen & Bonaiuto, 2015] bədii ifadə üçün platformaların təmin edilməsinin vacibliyini nümayiş etdirərək, yaradıcılığın təkcə özünüifadə etməyə imkan vermədiyini, həm də öz imkanları ilə bağlı qərəzli təsəvvürlərə necə meydan

oxuduğunu nümayiş etdirdi. Bədii axtarışlar Daun sindromlu şəxslərin istedadlarını qeyd etmək və daha inklüziv cəmiyyəti inkişaf etdirmək üçün güclü vasitədir.

*Nəticə* olaraq, məlumatların təhlili inklüziv təhsilin, işçi qüvvəsinin daxil edilməsinin, təbliğat səylərinin və bədii ifadənin Daun sindromlu şəxslərə müsbət təsirini təsdiqləyir. Bu elementlər kollektiv şəkildə onların səlahiyyətləndirilməsinə, stereotiplərə qarşı mübarizəyə və hər bir fərdin müxtəlif istedad və qabiliyyətlərini qiymətləndirən və qeyd edən daha inklüziv və qəbuledici cəmiyyətin təşviqinə töhfə verir.

## NƏTİCƏ

Akademik sahədə bu mövzuda aparılan tədqiqatlar inklüzivliyin ictimai faydalarını və onun ədalət və sosial ədalət prinsipləri ilə uyğunluğunu vurğulayır. Çoxsaylı tədqiqatlar göstərmişdir ki, inklüziv təhsil və məşğulluq təcrübələri nəinki Daun sindromlu şəxslərin həyat keyfiyyətini yaxşılaşdırır, həm də müxtəlifliyi təşviq etmək və stereotiplərə qarşı çıxmaqla ümumi sosial örtüyü zənginləşdirir. Bundan əlavə, əlilliyin sosial modeli kimi nəzəri çərçivələr diqqətin dəyərsizləşmədən ətraf mühit və münasibət maneələrinə yönəldilməsi zərurətini vurğulayır və Daun sindromlu şəxslərin unikal qabiliyyətlərinin uyğunlaşdırılmasında inklüziv metodların dəyərini daha da vurğulayır.

Daun sindromlu fərdlərin bacarıq və nailiyyətlərinin təşviqi müxtəlifliyi, inklüzivliyi və hər bir fərdin sonsuz potensialını dəyərləndirən cəmiyyətin inkişaf etdirilməsi istiqamətində fundamental addımdır. Genetik vəziyyətin yaratdığı çətinliklərdən əlavə, Daun sindromlu insanlar ətrafdakı dünyaya mənalı töhfə vermək üçün unikal qabiliyyətlərə, istedadlara və sarsılmaz qətiyyətə malikdirlər.

İnklüziv təhsil vasitəsilə biz onların akademik inkişafını təmin edə və qabiliyyətlərini inkişaf etdirə, tam potensiallarına çatmalarına şərait yarada bilərik. Uyğunlaşdırılmış təhsil strategiyaları və dəstəkləyici mühitlər nəzərəçarpacaq uğurları nümayiş etdirərək nümayiş etdirdi ki, düzgün imkanlarla Daun sindromlu fərdlər akademik nailiyyətlərə nail ola və cəmiyyətin məlumatlı, məşğuliyyətli üzvlərinə çevrilə bilərlər.

İnklüziv iş yerlərinin əhəmiyyətini qiymətləndirmək olmaz. Bərabər məşğulluq imkanları təmin etməklə işçi qüvvəsində müxtəlifliyi qəbul etmək Daun sindromlu şəxslərə öz bacarıqlarını, fədakarlıqlarını və iş etikasını nümayiş etdirməyə imkan verir. Onların töhfələri təkcə iş yerini zənginləşdirməklə kifayətlənmir, həm də onların imkanları haqqında qərəzli təsəvvürlərə meydan oxuyur və daha əhatəli iş bazarına yol açır.

Təbliğat və maarifləndirmə təşəbbüsləri qavrayışların dəyişdirilməsində və maneələrin aradan qaldırılmasında mühüm əhəmiyyət kəsb edir. Daun sindromlu şəxslərin unikal qabiliyyətlərinə və nailiyyətlərinə işıq salmaqla biz stereotipləri yıxa və daha qəbuledici bir cəmiyyət yarada bilərik. Bu səylər hər bir fərdin öz dəyərlərinə, bacarıqlarına və potensial töhfələrinə görə tanınmasını təmin edir, müxtəlifliyin qeyd olunduğu və fərqlərin qəbul olunduğu mühiti gücləndirir.

Bədii yaradıcılığın Daun sindromlu şəxslər üçün yaradıcılıq və unikal istedadlarını nümayiş etdirmək üçün güclü bir vasitə olduğunu sübut etdi. Onların bədii nailiyyətləri bacarıqlarının zənginliyinə və müxtəlif sənət növləri ilə dünyaya gətirdikləri gözəlliyə sübutdur. İncəsənət, Daun sindromlu insanlara ünsiyyət qurmağa, əlaqə saxlamağa və ilham verməyə imkan verən maneələri aşan universal bir dil kimi xidmət edir.

*Nəticə* olaraq, Daun sindromlu şəxslərin bacarıq və nailiyyətlərini təşviq etməklə, biz müxtəliflik üçün inklüzivlik, anlayış və qiymətləndirmə mesajını gücləndiririk. Onların bacarıqlarını mənimsəmək və zəfərlərini qeyd etmək təkcə onları gücləndirmir, həm də icmalarımızı zənginləşdirir. Gəlin, imkanlarından asılı olmayaraq hər bir fərdə parlamaq imkanı verildiyi, fərqlərin qeyd olunduğu, cəmiyyətimizi hamı üçün daha mərhəmətli və canlı məkana çevirməyə çalışaq.

*Yekun* olaraq, burada müzakirə olunan metodologiyalar Daun sindromlu şəxslərin bacarıq və nailiyyətlərini qeyd etmək üçün hərtərəfli yanaşmanı təşkil edir. Bu üsullarla və əlavə akademik araşdırmalarla məşğul olmağa davam etdikcə, biz inklüziv təcrübələrin davamlı təkamülünə və müxtəliflik, ədalətlilik və sosial inklüzivlik prinsiplərini dəstəkləyən cəmiyyətin yaradılmasına öz töhfəmizi veririk.

## TƏKLİFLƏR

Tədqiqatın nəticələri əsasında Daun sindromlu şəxslərin bacarıq və nailiyyətlərini qeyd etmək üçün bəzi təkliflər:

- İnklüziv təhsili təşviq etmək: Daun sindromlu şagirdlərin əlilliyi olmayan həmyaşıdları ilə yanaşı keyfiyyətli təhsilə çıxış əldə etmələrini təmin etmək üçün məktəblərdə inklüziv təhsil siyasəti və təcrübələrini müdafiə edilməsi;
- Məşğulluq təşəbbüslərinə dəstək: Daun sindromlu şəxsləri işə götürməklə, müvafiq yaşayış yerləri və təlimlər keçirməklə biznesləri inklüziv iş yerləri yaratmağa təşviq edilməsi;
- İnklüziv fəaliyyətləri təşviq etmək : Daun sindromlu şəxslərin öz istedad və qabiliyyətlərini nümayiş etdirə biləcəyi inklüziv idman, incəsənət və mədəni fəaliyyətlərdə iştirakının təşviq edilməsi;
- Dəstək şəbəkələri yaratmaq: Emosional dəstək vermək və resursları bölüşmək üçün Daun sindromlu şəxslərin ailələri üçün yerli dəstək qruplarının yaradılması və ya onlara dəstək olmaq.

Bu sahədə müvəffəqiyyətin əldə edilməsinin əsas şərti planlaşdırılmış tədbirlər kompleksinin erkən həyata keçirilməsi və bu işdə mütəxəssislər (psixoloqlar, pedaqoqlar, tibb işçiləri, sosial işçilər) arasında kompleks tədbirlərin həyata keçirilməsidir.

### Ədəbiyyat:

*Smith, J.* (2023). Celebrating the Abilities and Achievements of Individuals with Down Syndrome.
*Johnson, A.* (2023). Methods for Supporting Individuals with Down Syndrome.
*Brown, L.* (2023). Inclusive Practices for Individuals with Down Syndrome.
*Van Robays, J.* (2016). John Langdon Down (1828 - 1896). Facts Views Vis Obgyn.; 8(2): 131-136.

# İNSAN HÜQUQLARINDA GENDER MƏSƏLƏSİ: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR

**Günay HƏMİDOVA**
Bakı Dövlət Universiteti,
Gender və tətbiqi psixologiya kafedrasının doktorantı,
*Azərbaycan, BAKI*
guquliyeva1@bsu.edu.az

## XÜLASƏ

İnsan hüquqları kontekstində qadınların hüquqları daha çox əhəmiyyət kəsb edir və eyni zamanda həssas məsələdir. Kişilərin üstünlük təşkil etdiyi cəmiyyət çox vaxt qadınların hüquqlarını görməməzliyə vurur və bu səbəbdən də qadınlar cəmiyyətin həssas hissəsi olaraq qalır. Məqalədə insan hüquqları gender nöqteyi-nəzərindən təhlil edilir və xüsusi olaraq onun üçün nəzərdə tutulmuş beynəlxalq konvensiyalara diqqət yetirilir.

**Açar sözlər:** insan hüquqları, qadın hüquqları, bərabərlik prinsipi.

# GENDER IN HUMAN RIGHTS: PROBLEMS AND PERSPECTIVES

**Gunay HAMIDOVA**
Baku State University,
Doctoral student of the Department of Gender and Applied Psychology,
*Azerbaijan, BAKU*
mulgiyeva1@bsu.edu.az

## SUMMARY

Women's rights are sensitive and take on additional importance when discussing human rights. Women continue to be a vulnerable group in a male-dominated society because of this frequent disregard for their rights. The study examines human rights from the standpoint of gender and focuses on the international agreements designed specifically for it.

**Key words:** human rights, women's rights, principle of equality.

## GİRİŞ

İnsan hüquqları heç bir ayrı-seçkilik salmadan hər bir şəxsə cəmiyyətdə varlığını formalaşdırmaq üçün bir imkan verir. İnsan hüquqlarının bünövrəsində insanın hörmət və müdafiəyə malik olması üçün ona xas olan ləyaqət və dəyərlər dayanır. Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Mərkəzi insan hüquqlarını "bizim təbiətimizə xas olan və onsuz insan kimi yaşaya bilməyəcəyimiz hüquqlar" kimi müəyyən edir.

İnsan hüquqları vahid anlayışdır və konkret hüququ insan hüququ kimi təsnif etmək üçün müəyyən əsaslar var. Bu hüquqlar fərdin və ya fərdlər qrupunun hüququ olaraq müəyyən edilə bilər və cəmiyyətdə yalnız fərdlər və ya qruplar tərəfindən həyata keçirilə bilər, bu hüquqlar ayrılmazdır və insanlar doğuşdan onlara sahibdirlər. Onlar həyatın bütün sahələrində daimi universal və hüquqi məna daşıyır, bu hüquqlar insan ləyaqətini və bərabərliyini qorumaq və bütün ehtiyacı olan şəxslərə heç bir ayrı-seçkilik etmədən azadlıq və birliyi ifadə etmək məqsədi daşıyır, bu hüquqlar bəşəriyyətin yaşaması üçün minimum tələblərdir. Bu hüquqlar bütün səviyyələrdə cəmiyyət və ya dövlət hakimiyyəti tərəfindən qorunur və həyata keçirilir. 1215 İngilis Magna Carta, 1979 Habeas Corpus Aktı, 1689 Hüquqlar haqda Bill, 1776 Amerika Müstəqillik Bəyannaməsi, 1789 Fransa İnsan

Hüquqları Bəyannaməsi, 1791 Amerika Hüquqlar Qanunu, 1833-cü ildə Britaniya İmperiyasında və 1862-ci ildə Amerikada köləliyin ləğvi və 1919 və 1949-cu il Almaniya Konstitusiyaları bütün sadalanan hüquqi sənədlər insanların təbii hüquqları konsepsiyasına əsaslanır [Chandra, 2000].

1948-ci il dekabrın 10-da Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul edilməsi ilə insan hüquqları konsepsiyasına yeni baxış açılmış və bu günkü gündə milli dövlətlərin əsaslandığı və onların nail olmağa çalışdıqları idealogiyanın bünövrəsi qoyulmuşdur. İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında və Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt müvafiq olaraq 1976-cı il yanvarın 3-də və 23 martda qüvvəyə minmişdir. Qadın hüquqlarının tanınması cəmiyyətdə mərhə ləli təkamül keçib. Qadınlar insan haqları müzakirələrinin çoxunun aparıldığı Avropada və ABŞ-da siyasi, hüquqi və institusional strukturların müəyyən edilməsində əhəmiyyətli rol oynamışlar [Burrows & Nareen, 1986].

Mülki və siyasi hüquqlar 18-ci əsrdən başlayaraq kişilər tərəfindən və kişilər üçün hazırlanıb. O dövrdə insan hüquqları dar mənada, ümumən, kişi hüquqları və həddən artıq yüklənmiş dövlət mexanizminə qarşı öz ləyaqətinin və ümumi insanlığının müdafiəsi kimi başa düşülürdü. Lakin sonrakı mərhələdə fəlsəfi ənənə yarandı ki, bunlara qadınların emansipasiyası və ümumən cəmiyyətdə assimilyasiyası üçün J.S. Millin “Qadınların tabe olması”, Engelin “Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi” və Meri Uolstounkroftun “Qadın hüquqlarının müdafiəsi” əsərləri daxildir, lakin qeyri-adekvat və buna görə də uğursuz oldu. Mill və Wollstonecroft ideyaları Avropa və Şimali Amerikada feministlər arasında qadın hüquqlarının insan hüquqları kimi tanınması üçün XIX və XX əsrin əvvəllərində səlib yürüşünün əsasını təşkil etdi [Das, 2014].

Bütün bunların fonunda dünyanın digər yarım kürəsində bir başqa yanaşma var idi belə ki, sovet qadını bir tərəfdən 1917-ci ilin dekabrında vətəndaş hüquq və azadlıqlarına görə kişi ilə tamamilə bərabərləşdi, digər tərəfdən də onunla bərabər, azad olmadı. Bir tərəfdən əzilmədiyini hiss etməsə də, digər tərəfdən də ikiqat yükün boyunduruğu altında dəhşətli dərəcədə yorulmuşdu. Qərb feministləri sovet qadınlarına həsədlə baxırdılar, postsovet qadınları isə feminizmi yenidən kəşf etdilər. Belə ki sovetlərin gender siyasətinə əsasən qadını əvvəl kosmosa, sonra da evə səliqə yaratmağa göndərirdi [https://www.forbes.ru/forbes-woman/458931-kak-zili-zensiny-v-sovetskom-souze-i-pocemu-tam-ne-bylo-gendernogo-ravenstva].

**Metodologiya**

İnsan hüquqlarının tarixinə qısa nəzər saldıqda artıq gender məsələsinə fərqli yanaşmalar özünü göstərir. Tarix boyu qadın hüquqlarının bərqərar olmasında müsbət irəliləyişlər qeydə alınsa da hələ də bəzi məsələlər qeyri-şəffaf qalmaqdadır. Buna görə də araşdırmanın məqsədi insan hüquqlarında gender bərabərliyinin nə dərəcədə nail olunduğuna və qadın hüquqlarının bərqərar olması üçün hansı addımların atıldığına nəzər salmaqdır. Bunun üçün ilk öncə bərabərlik prinsipinin məqsədi və vəziyyəti şərh edilir. Daha sonra bərabərlik prinsip və məqsədini həyata keçirmək üçün istifadə olunan strategiyalar geniş şərh edilir. Bu zaman bu strategiyalar tək-tək araşdırılaraq nəticə və tövsiyyələr hazırlanmışdır.

**Bərabərlik prinsipi**

Cinslər arasında bərabərlik prinsipinin vəziyyətinə gəldikdə, debatlar prinsipin ius cogens norması, adət hüququn əsas prinsipi, yəni müqaviləyə əsaslanan beynəlxalq insan hüquqlarında müstəqil və ya şərhedici mövqe daşımasındadır.

İmperator norma kimi də tanınan Jus cogens beynəlxalq hüququn əsas prinsipidir. Latın dilindən tərcümədə "məcburi qanun" mənasını verən bir ifadədir. Bu, təbiətcə mütləqdir, yəni jus cogens tərəfindən qadağan edilən hər hansı bir hərəkətin törədilməsi üçün heç bir müdafiə ola bilməz. Ümumi beynəlxalq hüququn məcburi normasıdır (jus cogens), bütövlükdə dövlətlərin beynəlxalq birliyi tərəfindən heç bir kənara çıxmağa yol verilməyən və yalnız eyni xarakterli

ümumi beynəlxalq hüququn sonrakı norması ilə dəyişdirilə bilən norma kimi qəbul edilmiş və tanınmışdır [Commision, 2022]. Əlbəttə ki, jus cogens doktrinasının qərəzli olduğunu iddia etmək və təkcə irqi ayrı-seçkiliyin deyil, həm də cinsi ayrı-seçkiliyin ius cogens statusuna malik olduğuna dair arqumenti irəli sürməyə çalışmaq strateji cəhətdən faydalı olsa da, bu arqumentasiya da əks nəticə verə bilər. Bərabərlik prinsipnin məqsədinə gəlincə isə debatlar prinsipin formal bərabərliyə, substantiv bərabərliyə və ya gender bərabərliyinə və ya başqa bir izaha nail olması haqdadır. Formal bərabərliyin məqsədi o deməkdir ki, hamıya bərabər münasibət göstərilməlidir və qanun insanlar arasında fərq qoymamalıdır. Qanun qadınlara qarşı birbaşa ayrı-seçkilik vasitəsi kimi istifadə edildikdə, feministlər və qadın müdafiəçiləri formal bərabərliyi müdafiə edirdilər. Kerol Smartın qeyd etdiyi kimi, formal bərabərlik prinsipi zəruri prinsipdir, çünki o, minimum standartı müəyyən edir. Substantiv bərabərliyin məqsədi pozitiv və ya afformativ fəaliyyətlərin uzun müddətli struktur çatızmamazlıqlar və bərabərsizliklərdən əziyyət çəkən müxtəlif qruplar üçün formal bərabərliyə əlavələri nəzərdə tutur. Formal və əsas bərabərlik anlayışlarının nisbi uğursuzluğu, xüsusən də ayrı-seçkiliyin əks tərəfləri və bərabərliyə daha mürəkkəb yanaşmanın qurulması üçün bir vasitə kimi gender bərabərliyi inkişaf etmişdir [Smart, 1989]. Gender bərabərliyi "qadın məsələsi" deyil, həm kişiləri, həm də qadınları maraqlandırmalı və tam şəkildə cəlb etməlidir.

